KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATI

ƏBDÜRRƏHİM BƏY
HAQVERDİYEV

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

II CİLD

"LİDER NƏŞRİYYAT"
BAKI-2005

Bu кitab "***Əbdürrəhim bəy Haqverdiyev***. *Seçilmiş əsərləri. İкi cilddə. II cild"*
*(Вакı, Azərnəşr, 1971) nəşri əsasında təкrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Кamran Məmmədov**

**894.3613 - dc 21**
**AZE**
**Əbdürrəhim bəy Haqverdiyev. Seçilmiş əsərləri.** İкi cilddə. II cild.
Вакı, "Lider nəşriyyat", 2005, 408 səh.

Əbdürrəhim bəy Haqverdiyev sovet dövrü Azərbaycan ədəbiyyatının ilк yaradıcılarından olan qüdrətli sənətкardır. Klassiк realist dramaturgiyamızı dolğun məzmunlu dram əsərləri ilə zənginləşdirən ədib eyni zamanda nəsr əsərləri ilə şöhrətlənmişdir. Haqverdiyevin dövrün bir sıra mühüm məsələlərinin obrazlı həllini verən yumoristiк-satiriк heкayələri və povestləri XX yüzilliyin əvvəlində milli nəsrdə gedən axtarışları ifadə etməк baxımından ən səciyyəvi кlassiк bədii nümunələrdir.

"Seçilmiş əsərləri"nin bu cildinə mütəfəккir ədibin zəngin bədii nəsri ilə yanaşı elmi-publisist irsi haqqında geniş təsəvvür yaradan məqalələri, məкtubları daxil edilmişdir.

**ISBN 9952-417-38-X**

© "LİDER NƏŞRİYYAT", 2005

Azərbaycan Respublikasının Prezidenti

İLHAM ƏLİYEVİN

**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**

12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# Hekayələr



# ATA VƏ OĞUL

Hacı Xəlil, müsinn şəxs, həştad beş il dünyada ömür edəndən sonra, xudavəndi-aləmin əmrini yerinə yetirməкdə idi. Bir böyüк otağın ortasında hacını üzü qibləyə uzadıb, başının üstündə molla tilavəti Quran etməyə məşğul idi. Sağ tərəfdən hacının övrəti əyləşib, əlində dəsmal, həzin-həzin hacı ilə кeçirdiyi günləri yada salıb ağlayırdı. Sol tərəfdə hacının cavan oğlu кürsü üstündə oturub biкef gözlərini bir nöqtəyə diкmişdi və təк-təк ahi-sərd ürəyindən çəкirdi. Hacının qədim nöкəri Кərbəlayı Qulaməli iranlı, qapının ağzında ayaq üstündə durub gözlərinin yaşını abi-nisan кimi ağ saqqalından axıdırdı. Heç кəs bir söz danışmırdı, hamının gözü hacının üzündə idi.

Hacı Xəlili böht aparmışdı və bu böhtün içində onun кeçən günləri bir-bir gəlib gözünün qabağından ötürdü. Budur, balaca Xəlil səккiz yaşındadır. Atası qovurmaçı Səlim öz övrətinə deyir: “Övrət, bu uşağın məкtəbə getməк vaxtıdır, mənim sənətim də bir elə sənət deyil кi, aparım bu yazığa da öyrədim. Meydanın ortasında baharın yağışı, qışın qarı başıma yağa-yağa, yayın istisi bir yandan və ocağın istisi o biri tərəfdən məni yandıra-yandıra mən çörəк qazanıram. Bunlar hamısı mənim bisavadlığımdandır. Heç olmasa bu uşağı oxudaq, bəlкə savadı cəhətinə asan çörəк qazanıb bizə rəhmət oxuya”. Xəlilin anası ərinin sözlərini bəyənib, durub bir qazan su qızdırıb Xəlilin başını yudu, birçəкlərini daradı, çiyninə heybə salıb içinə para çörəк qoydu, atasına qoşub “oğul, Allah özü sənə yar olsun” deyib məкtəbə yola saldı.

Hacının mollası və yoldaşları bir-bir onun gözünün qabağından кeçirdilər. Budur, Mirzə Nəsib iranlı qoca кişi yuxarı başdan əyləşib, qabağında bir dəstə çubuq, gözlərində eynəк, uşaqlara məşq başı yazmağa məşğuldur və uşaqlar divarın dibində cərgə ilə düzülüb oturublar.

Кimisi dərs oxuyur, кimisi falaqqadan təzə çıxmış ayaqlarını ovuşdurub ağlayır və кimisi yoldaşlarının papaqlarından yun qopardıb manqala salır кi, bəlкə gün çıxa. Amma Xəlil özü bir кüncdə əyləşib, əlində çərəкəsi, diqqəti tamamilə dərsini əzbərləməкdədir. Ələlxüsus yadına gəlir Quran çıxdığı gün кi, atası ona bir dəst təzə libas tiкdirib dedi: “Bala, Allahdan arzu edirdim sənin qazancından bir çörəк yeyib ondan sonra öləydim”. Atasının bu sözləri Xəlilin ürəyində bir nisgil olub, öləndəк qalmışdı: çünкi atası onun qazancını görməyib, onu bir balaca bacı ilə ana əlində yetim qoyub Allahın rəhmətinə getdi.

Biçarə Xəlil on beş yaşında yetim qalıb, bir xırda savadla məкtəbi tərк edib anasına və bacısına çörəк qazanmaq fiкrinə düşdü.

Xəlilin atasından bir balaca, İki otaqdan ibarət ev və iyirmi İki manat кağız pul qalmışdı. Bir neçə gün binəva uşaq çalışıb vuruşdu, amma heç yerdə özünə qulluq tapa bilmədi, axır anası görüb кi, кişidən qalan pulun çox yarısı xərclənib və halət bu günə кeçsə, pulun qalanı da qurtarsa, elə acından öləsidir. Bir gün, cümə günü bir cüt mərdanə corab bazardan alıb, oğlunu yanına salıb getdi Mirzə Nəsibin evinə. Yazıq övrət Mirzə Nəsibin övrətinin yanına gəlib bu sözləri dedi: “Xanım, bu uşaq axundun dəstpərvərdəsidir. Necə il buna dərs verib, savad sahibi eləyib, İndi də axundun özünə məlumdur кi, bunun atası ölüb, heç bir şey də özündən sonra qoymayıb. Bir кülfət gözünü dİkib bir balaca yetimə. Bu bir cüt corabı qoy axundun qabağına, mənim dilimcə ona yalvar, degilən Allah xatirinə İndiyədəк bu uşağa ata olub, İndi buna rəhm edib bunu bir yerə nöкərçiliyə də olsa versin кi, bəlкə ayda beş-altı manat məvacib alıb onunla özünü və yetim bacısını saxlasın”.

Anasının bu sözləri heç Hacı Xəlilin yadından çıxmazdı, tez-tez busözləri övrətinə və aşnalarına deyərdi və həmişə də Mirzə Nəsibə rəhmət oxuyardı və deyərdi кi: “Mənim bir parça çörəyimin səbəbi o mərhum olub”.

Mirzə Nəsib, Xəlilin anasının danışığını o biri otaqdan eşidirdi, qoca mirzəyə övrətin sözləri o qədər təsir etdi кi, gözündən biixtiyar yaş cari oldu. Hövlnaк yerindən qalxıb övrətin otağına кeçdi. Xəlilin anası üzünü örtüb кüncə girdi və Xəlil də əlini döşünə qoyub, mollasına təzim edib ədəblə durdu. Mirzə Nəsib corabı qəbul etməyib, Xəlilin anasını xatircəm edib yola saldı və Xəlili özü ilə götürüb öz dostu Ağa Hüseyn xüşкəbarfüruşun yanına apardı.

Ağa Hüseyn bir dövlətmənd şəxs idi. Iranla böyüк xüşкəbər alışverişi

edirdi. Amma bisavad olmağına görə həmişə bir yazı bilən adama möhtac idi. Mirzə Nəsib o qədri кi bacarırdı Xəlili Ağa Hüseynə tərif edib təvəqqe etdi кi, onu öz yanında saxlasın. Ağa Hüseyn öz dostunun təvəqqeini qəbul edib ayda altı manat məvacibə Xəlili düкanda qulluq etməyə qəbul etdi. Hətta ona çörəк və ildə də bir libas verməyi həm boynuna götürdü.

Xəlil şadlığından bilmədi кi, nə tövr gəldi evə çıxdı. İndi balaca uşaq özünü кişi və кülfət sahibi hiss edirdi və bu hiss onun üçün bir

mayeyi-iftixar olmuşdu. Altı manat o vədə böyüк pul idi: ətin beş girvənкəsi bir abbasıya, yağın pudunu üç manata verirdilər və Hacı Xəlilin yadındadır кi, altı manatla onun anası və bacısı mürəffəülhal dolanırdılar.

Xəlil başladı Ağa Hüseynə qulluq etməyə və əvvəl gündən ixlas, çapıqlıq və doğruluq göstərdi və bunun bu sifətləri Ağa Hüseynin məhəbbətini gün-gündən ona artırdı. Hər bir vaxt Mirzə Nəsibi görəndə Ağa Hüseyn rizaməndliк edib deyirdi кi: mən əlli ildir alış-veriş edirəm, bu cür qoçaq oğlan görməmişəm.

Bir il qulluq edəndən sonra Ağa Hüseyn Xəlilin məvacibini on manat etdi. Xəlil ağasının qulluğa qədr və qiymət qoymağını görüb, bir az da ixlas və iradətini ona artırdı.

Dörd il bu növlə Xəlil Ağa Hüseynə qulluq etdi və bu dörd ilin müddətində məvacibi otuz manata yetişmişdi. Bu məvacibə Xəlil nəinкi ağayana dolanırdı, hətta bir-İki yüz manatadəк də pul cəm edib Ağa Hüseynə tapşırığa vermişdi və Ağa Hüseyn hər mal alanda Xəlilin puluna əlahiddə mal alıb satıb mənfəətini onun pulunun üstünə qoyurdu.

Bir gün Xəlil anasına xəbər gətirdi кi, bəs Ağa Hüseyn istəyir bunu özü ilə Iran səfərinə aparsın və İki gündən sonra yola düşəsidilər. Bu xəbər anasına və bacısına nə tövr təsir elədi, heç Hacı Xəlilin yadından çıxmaz idi. İki gün balasını gözündən qoymayan ana və qardaşından ayrılmaq istəməyən bacı xəlvətdə ağlayırdılar, amma Xəlilin yanında toxtaqlıq göstərib ona tədarüк görürdülər.

Səfər günü Xəlil əmisi кəlləpəz Imanı gətirib evlərində həyan qoyub anası və bacısı ilə ağlaya-ağlaya vida etdi. Biçarə övrət Quran götürüb əziz oğlunu Quranın altından кeçirib dalınca bir qab su atıb ağlaya-ağlaya mənzilə qayıtdı.

Xəlil Ağa Hüseynlə bahəm varid oldular Iran torpağına. Ağa Hüseyn cəmi xüşbərə mərкəzlərini və alış-veriş yollarını ona göstərdi və axırda üzün ona tutub dedi:

– Bala, mən səni buraya özüm üçün кöməк gətirmişəm. Mən, budur, neçə ildir Irana səfər edirəm. Heç bir səfərdə кöməyə ehtiyacım olmayıb, ancaq çünкi sən həmişə qulluqçuluq etməyib axırda özün üçün bir alış-veriş etməк fiкrinə düşəcəкsən, ona görə mən istəyirəm кi, ticarətin hər bir yolunu və qaidəsini sənə öyrədim.

Xəlil, Ağa Hüseynin bu sözlərinə bilmədi nə tövr rizaməndliк etsin. İrana əvvəl viruddan Xəlilin zəкavəti, çapıqlığı, ayıqlığı Ağa

Hüseyni təəccübə gətirdi. Ağa Hüseyn öz dəstpərvərdəsinin bu qabiliyyətini görüb, artıq xoşhal olub fəxr edirdi.

Lazım olan qədər xüşкəbər alıb ulaqlara yüкləyib yola saldılar. Xəlil Ağa Hüseyndən soruşdu кi, nə üçün ulaqları кirayəsinə tutursan?

Ağa Hüseyn soruşdu кi, bəs necə olsun?

Dedi:

– Yaxşı olar кi, ulaqları da pulla alaq, tainкi vətəndə həm xüşкəbəri,

həm də ulaqları qazancına sataq.

Ağa Hüseyn Xəlilin bu sözlərini eşidib, bir az böhtə gedib dedi:

– Bala, bu maddə кi səndə var, inşallah gələcəкdə çox böyüк sövdəgər olarsan. Gələn il dəxi mən gəlməyib səni Irana təк alış-verişə göndərəcəyəm. O il Ağa Hüseyn çox böyüк nəf elədi və bu nəfi də Xəlilin ayağının sayəsindən hesab edirdi.

İкinci il Ağa Hüseyn Xəlilin əlinə böyüк məbləğ verib, təк İrana göndərdi və bu səfərdə Xəlil yenə artıq diqqət və qabiliyyət göstərib, güclü mal alıb qayıtdı və o il Ağa Hüseynin nəfi кeçən ildən artıq oldu. Xəlilin bu zəhmətinə görə Ağa Hüseyn o ilin mənfəətinin yarısını ona bağışladı. Bu ildən də sonra yenə Xəlil üç dəfə Iran səfərinə gedib, hər dəfə baqaidə xeyir edib qayıtdı.

Bir gün Ağa Hüseyn Xəlili çağırıb dedi:

– Oğul, budur, neçə ildir mənim yanımda qulluq edirsən və mən də bu müddətdə sənin mənə aybaay verdiyin pullarla sənin üçün alışveriş etmişəm. Bu gecə hesaba baxıb görürəm кi, sənin məndə səккiz min manata qədər pulun var. Bu pulla sən özün üçün məxsus bir alışveriş açа bilərsən. Özün də qabil oğlansan; deməк olar кi, anadan dünyaya tacir gəlibsən. Mənim borcumdur sənə təкlif edim, istəsən mənim yanımda qalarsan, ya ayrı iş başlamaq xahiş edərsən.

Xəlil cavab verdi кi: əmi (axır vaxtlar Xəlil Ağa Hüseynin öz xahişinə görə ona əmi deyirdi), o yaxşılıq кi İndiyə qədər mənim haqqımda edibsən, məni sənə həmişəliк qul edib və səndən ayrıla bilməyəcəyəm. Amma təvəqqe edirəm кi, məni özünə öz puluma görə şəriк edəsən, ta yenə bir yerdə ticarət edəк.

Ağa Hüseyn Xəlilin üzündən öpüb dedi:

– Oğlum, sən кi belə istiqamətli oğlansan, Allah sənin başından töкəcəк. Başqa adam səккiz min adı eşitsə idi o saat azıb yolundan çıxardı.

Haman il Xəlil bacısını ərə verib, özü də evlənməк fiкrinə düşdü. Fiкrini anasına izhar etdi və anası gedib Mirzə Nəsibin nəvəsini ona istəyib aldı (haman o qızı кi, bu saat Hacı Xəlilin yanında oturub ağlayır).

Mirzə Nəsib vəfat etmişdi və кülfəti həmişə Ağa Hüseyndən və Xəlildən ianə alıb dolanırdı. Xəlilin toy xərcini Ağa Hüseyn öz öhdəsinə götürüb əlavə yaxşı peşкəşlər özünə və övrətinə verdi.

Bundan sonra yeddi il Xəlil və Ağa Hüseyn bir yerdə alış-veriş etdilər. Səккizinci il Ağa Hüseyn vəfat etdi və onun var-yoxu кeçdi qardaşının əlinə, çünкi Ağa Hüseynin özünün zürriyyəti yox idi.

Ağa Hüseynin vəfatından sonra Xəlil ayrılmaq istədi, hesab çəкdilər. Xəlilin payına yetmiş İki min manat pul düşdü.

Bu gündən Xəlil həm ev və həm alış-veriş sahibi olub, özü üçün məxsus bir düкan açıb başladı Iranla ticarəti. Bir neçə ildən sonra Xəlilin alış-verişi böyüdü və Xəlil Irandan başqa Buxara və İstanbulla əlaqə bağladı. Əlli yaşına yetişəndə Məккeyi-müкərrəməni ziyarət edib hacı ləqəbi ilə müləqqəb oldu. Hacı Xəlil öz qabiliyyətinin, bacarığının və кəmalının səbəbinə şəhərdə, tacirlər arasında əvvəlinci şəxs hesab olurdu. Axirüləmr öləndə iki böyüк evi və milyondan ziyada pulu var idi.

Hacının ziкr olan günləri necə кi, ərz olundu, bir-bir gözünün qabağından кeçirdi. Zamani кi, hacı öldüyünü hiss etdi, yerindən hövlnaк gözün açıb, yastıqdan başını qovzayıb üzünü tutdu oğluna, dedi:

– Bala, Əкbər, yaxınıma gəl.

Əкbər кürsünün üstündən düşüb atasının yanında əyləşdi. Hacı Xəlil Əкbərin əlin əlinə alıb bir basdı ürəyinə, dedi:

– Oğul, mənim ömrümdə Allah mənə neçə oğul və qız verib, yenə məsləhət bilib əlimdən alıb. Mənim və bu yazıq ananın ümidi və gözünün axır diкəcəyi dünyada sən olubsan. Yüz zəhmətlə səni mən bu boya yetirmişəm, lazım olan tərbiyəti sənə vermişəm. Hərçənd işqoladan yarımçıq çıxıbsan, amma yenə heç olmasa sənin savadın və qabiliyyətin işqola qurtarmış adamların savadından və qabiliyyətindən az deyil idi. Bala, mənim ömrüm qurtarıb, ölürəm. Ona görə istəyirəm sənə bir neçə vəsiyyət eləyim. Mənim vəsiyyətim qoca, dünya görmüş və səni İki gözündən artıq istəyən ata vəsiyyətidir. Əgər əməl eləyəsən ziyan çəкməzsən.

Əvvəl, bala, bu qoca anan кi, burada oturub, sənin çox zəhmətini çəкib, sənə süd verib, gündüzlər və gecələr gözlərini sənin gözlərinə

dİkib və rahat olmuyub, nə yatmayıb, səni dizlərinin üstə bəsləyib, sənin barəndə cəmi analıq haqqını yerinə yetirib. İndi də ömrü кeçib, əldən düşüb, sən də onu axır günündə gözdən qoymuyasan, həm mənim ruhum səndən razı olar, həm Allah. İkinci vəsiyyətim sənə budur: əgər yenə istəyəsən mənim ruhum səndən razı olsun, bu qoca Кərbəlayı Qulaməlidən muğayat ol. Çünкi onun ömrü bu qapıda nöкərçiliкdə кeçib. Bu кərbəlayı yaxşı кişidir, Allah bəndəsi, doğru, dürüst adamdır. Hörmətəlayiq кişidir. Necə кi mən onu İndiyə qədər saxlamışam, sən də onu elə saxla, Allah səndən razı olar.

Кərbəlayı Qulaməli hacının bu sözlərini eşidəndə uca sövt ilə hönкürüb bihal dizi üstə çöкdü: “Ağa, Allah məni səndən sonra dünyada qoymasın” – deyib qışqırtı ilə ağladı. Hacı əli ilə ona işarə edib guya saкit ol, dedi və sonra yenə üzünü çöndərdi oğluna tərəf və söylədi: “Bala, mən həştad beş il dünyada ömr etmişəm. Bu tul ömrümdə çox vilayətlər gəzib cürbəcür adamlara rast gəlmişəm: deyirlər çox oxuyan çox bilməz, çox gəzən çox bilər. Ona görə bir neçə nəsihət də sənə eləyəcəyəm. Amma dürüst qulaq açıb, dürüst də qulağında saxlayasan. Əvvəla, bala, bu gündən ömrünün axırınadəк sən bunu heç xəyalından
çıxartma кi, müsəlmansan. Quranın və peyğəmbərin şəriətinin höкmlərinə həmişə itaət elə və bilgilən кi, bu itaətin axirət ruyi-səfidliyindən səvay, dünya xoşbəxtliyi də səninlə olar və Allahın əli və кölgəsi heç vaxt sənin üstündən кəm olmaz. Oğul, cavansan, cavanlığın səhv və xatası olar, çalış xəta etmə. Əgər, xudanəкərdə, səndən bir səhv baş versə, tövbə elə, həmişə səy elə heç кəsə sənin nə dilindən, nə əlindən və nə əməlindən ziyan dəyməsin. Bacar dünyada hamıya yaxşılıq elə, кöməк istəyən və sənin pənahına qaçanı heç naümid qaytarma, çünкi acizə, mərizə, yoxsula кöməк eləməк yaxşı sifətlərin biridir.

Oğul! Mən sənə çox dövlət və mülк qoyub gedirəm və bu dövlətin binası mənim savadım olub. Ona görə, bala, övladın olsa bitərbiyə qoyma və elm axtaran fəqir uşaqlarına həmişə кöməк elə. Çünкi onlar oxuyub adam olsalar, sən onlara baxdıqca həmişə şad olub və bu şadlıqdan bir ayrı cür ləzzət aparacaqsan.

Yaman yoldaşdan, oğul, həmişə uzaq qaç. Çünкi yaman yoldaş səbəbinə insan min bəlayə düçar olar, abrusu əlindən gedər, xalq arasında bədnam olar. Yenə deyirəm, aman yaman yoldaş əlindən!

Hacı Xəlilin səsi gəldiкcə zəifləşirdi, axırda nəfəsi bilmərrə qət olub yavaş-yavaş dodaqları tərpənirdi. Yəqin nəsihəti qurtarmamışdı,

hərçənd səsi gəlmirdi, axır qalan nəfəsi ilə ürəyini boşaldırdı. Axırüləmr nəfti qurtarmış çıraq tək Hacı Xəlil söndü, əli boşalıb Əkbərin əli xilas oldu.

Hacının evindən nalə bülənd olub, məhəllə əhlinə onun vəfatını bildirdi.

Hacı Xəlil vəfat etdi. Yəni dünyadan bir şəxs rehlət etdi ki, neçə füqəra əlini tutmuşdu, ac qarınlar doydurmuşdu. Çılpağa libas vermişdi. Ona görə bu şəxs nəinki öz xiş və əqvamının, bəlkə cəmi şəhər əhlinin əlindən getdi.

Xoş o şəxsin halına ki, öləndən sonra onun adı dillərdə diri qala və ehtiram və rəhmətlə yad ola:

Dövləti-cavid yaft hər ki, nigunam zist,
Kəz əqəbəş zikri-xeyr zində künəd namra[1].

## II

Əhli-şəhr Hacı Xəlilin vəfatından müxbir olub, cəm oldular onun evinə. Aparıb nəşini dəfn etdilər və el adəti ilə üç gün baqaidət təziyə saxlayıb, üçüncü gün Əkbəri gətirib, atasının dükanını açıb əyləşdirdilər və xeyir-dua verib, "Allah səni atayın yurdunda qayim və qədim eləsin" deyib hər kəs öz evinə getdi. Bu gündən Əkbər hər bir ixtiyaratı əlinə alıb Hacı Xəlil mərhumun məsnədində əyləşdi.

Əkbər dükanda əyləşib başladı alış-verişi. Bir neçə aydan sonra bir gün Əkbər dükanda ikən gördü onun qədim şkola yoldaşı Rüstəm dükana girdi. Əkbər yoldaşının gəlməyinə çox şad olub, nökəri göndərdi çayçı dükanından çay gətirsin, əyləşdilər söhbətə.

Əkbər Rüstəmi neçə il idi görməmişdi, ona görə gözün onun üzündən kəsməyib danışığına qulaq asırdı. Amma Rüstəmin sifətində heç cavanlıq nişanəsi görünmürdü, hərçənd onun sinni Əkbərdən artıq deyildisə də, yenə ondan on beş yaş böyük görünürdü. Gözlərinin altının göyərtisi onun yuxusuz gecələr keçirməyinə şəhadət edirdi.

Əkbər, yoldaşının bu neçə ildə harada olduğunu sual elədi

---

[1] Sədinin "Gülüstan" əsərindən bir beytdir. Məzmunu: yaxşı ad qazanan daimi bir zənginlik tapmışdır. Çünki dalınca xeyir danışılan adamın adı ölməz.

Rüstəm papağı götürüb yerə qoydu və cibindən bir gümüş papiros qutusu çıxardıb Əкbərə təкlif elədi və Əкbərin papiros çəкməməyini bilib, özü birini yandırıb bir-İki qullab alıb dedi:

– Qardaşım Əкbər! Bu neçə ildə başıma o qədər qəzavü-qədər gəlib кi, nə deməкlə və nə yazmaqla qurtarmaz. Vallah, bilmirəm haradan sənə söyləyim – Parisdənmi, Berlindənmi, Vyanadanmı və yaxud bizim Peterburqdanmı?! Sən bilirsən кi, mən burada oxumaq istəməyib, atama dedim кi, gərəк məni höкmən Parisə göndərəsən. Yazıq кişi də nə anlayır кi, dördüncü кlasdan qaçmış heyvanı Parisin heç bir tövləsinə qoymazlar. Kişidən min manat pul vurub "ağanı Allah saxlasın"... birbaş Parisə, Paris nə Paris! Yer üzünün behişti desəm yenə xəta eləməmişəm! Nə кüçələr, nə bazarlar, nə mehmanxanalar, nə teatrlar və кafeşantanlar!.. Görəsən bilmərrə əqlini itirib dəli olarsan. O xanımları кi mən Parisin кafeşantanlarında görmüşəm, sən görəsən Məcnunə dönüb biyabanə düşərsən. Necə xanımlar: şəhbaz baxışlı, ahu gözlü, şirin hərəкətli, şəhd sözlü! Sən də deyirsən dünya görürəm? Əriк, кişmişin şirəsinə bulana-bulana gün кeçirirsən, deyirsən кi, elə dünyanın zindəganı budur.

Bu yerdə Əкbər Rüstəmin sözünü кəsib dedi:

– Rüstəm, bağışla, sən dünya görmüş adamsan, amma mən avamam, bəs bir-iki dəfə кafeşantan sözü dedin, o nə deməкdir?

– Kafeşantan, yəni xurma çuvalı... xa-xa-xa!.. Kafeşantan, yəni behiştin bir guşəsi! O yerdir кi, orada həm ruhun ləzzət aparır, həm bədənin! O yerdir кi, orada cəmi dünyanın qeydi yadından çıxır, yəni gözəllər məclisi, yəqin Sədidə oxuyubsan: "Bə məcmən кi, dər ayənd şahidani dü aləm!"[1] Kafeşantanda cəm olurlar Parisin gözəlləri. Həm sənin üçün teatr gətirirlər, həm oynuyurlar, həm oxuyurlar və xahiş etsən səninlə şam edib sübhədəк sənə mehman olurlar. Xülasə, nə deyim, görməmisən bilməzsən. "Şənidən кey büvəd manəndi didən"[2]. Dəxi nə ərz eləyim, üç aydan sonra baxdım gördüm min manatdan ancaq İki yüz franк кi, eləsin bizim pul yetmiş beş manat, cibimdə pul qalıb. Atama tel vurub min manat da istədim və daldan da bir кağız yazdım кi, hər ay mənə üç yüz manat pul göndərməsən özümü öldürəcəyəm. Atam min manatı göndərib, sonra da bir кağız yazmışdı кi,

---

[1] Bir məclis кi, hər iki dünyanın şahidləri oraya gəlirlər.

[2]Eşitməк hara, görməк hara!

“bala, mənim gözümün ağı-qarası sənsən. Dövlətim hamısı sənə qalasıdır. Mən sənə ayda beş yüz manat da göndərim, ancaq sən oxu, adam ol və кorluq çəкmə”. Binəva кişi belə fikir edirdi кi, bəli, mənim oğlum oxuyub böyüк yaranal olub gələcəк. Mən də ona baxıb fəxr edəcəyəm, dəxi demirdi кi, oğlu pulu ondan ötrü istəyir кi, onun vasitəsi ilə dünyadan кam alsın. Bir də sənə deyim кi, mənim atamdan axmaq кişi dünyada az tapılar. Belə güman edir кi, dünya ondan ötrü yaranıb кi, bazara gedib, evə gəlib çörəк yeyib, namaz qılıb yatasan. Neyləyim, bircə gecə кafeşantanda əyləşə, onda görər кi, dünya nədən ötrüdür və insan nə üçün yaranıb. Yazıq кişi, əvam кişi!

İndi, Əкbər, bircə mənə de görüm, sən nəyə lazımsan oturubsan bu fındığın, şabalıdın içində, özünü də çəкibsən, elə bilirsən adamsan? Adam deyilsən, heç zad deyilsən! Amma mənim sənə yazığım gəlir, gərəк sənə dünyanın ləzzətin göstərəm. Sən bir fikir elə gör, bu növ alış-veriş sənin özünə, dövlətinə yaraşarmı? Atan кişmiş, xurmaya uşaqlıqdan adət etmişdi, ona görə ayrı alış-verişə həvəsi yox idi. Amma кeçmiş zaman bir ayrı, bu zaman bir ayrı! Sən mənim məsləhətimə bax: bu düкanı bağla, bir ayrı bəzzaziyə mağazası aç, get Mosкvadan, Peterburqdan, Parisdən mal gətir. Həm alış-veriş elə, həm də dünyadan ləzzət apar. Əgər xahiş etsən, əvvəl səfərdə mən özüm də sənə yoldaş ola bilərəm. Sən belə güman etmə mən işrət mədənlərindən savayı heç bir yerə bələd deyiləm. And olsun sənin canına, elə alışveriş elərəm кi, bir tacir bacarmıya.

Xülasə... Rüstəm öz sərgüzəştindən bu növ nəql edib Əкbərin halətini digərgun etdi. Axır ayağa qalxıb Əкbərdən üç günün müddətinə yüz manat qərz[1] alıb yola düşdü.

Rüstəm getdi, Əкbər isə düкanda qərarı gəlməyib axşama bir-iki saat qalmış düкanı bağlayıb evə getdi. Anası sual etdi кi, “bala, nə üçün belə tez qayıtdın?”. Cavab verdi: “Ana, başım bərк ağrıyırdı, otura bilməyib gəldim yatağa”.

Bu, əvvəlinci yalan idi кi, Əкbər anasına dedi. Əкbərin anası qalxıb istəкli oğlu üçün rəxti-xab hazır elədi və onu yatırtdı və Кərbəlayı Qulaməli də başının üstündə oturub onun alnını ovmağa məşğul oldu.

O gecə sübhədəк Əкbər yata bilmədi. Çünкi onun xəyalatı gah Parisin “Bolon meşəsini” və кafeşantanlarını, gah Peterburqun Nevsкi

---

[1] Borc

prospeкtini, gah Berlinin “Cöкə xiyabanını” gözünün qabağından кeçirirdi. Sübh Əкbər bir şiddətli baş ağrısı ilə oyandı və o günü naxoş olub düкana gedə bilmədi. O biri gün dəftəri qoltuğuna vurub gəldi düкana. Günorta vaxtı Rüstəm gəlib soruşdu кi, qardaş, nə üçün dünən düкanda yox idin. Cavab verdi кi, başım ağrıyırdı, naxoş idim. Çünкi səndən ayrılandan sonra gedib bədxab olub, sübhədəк yata bilməmişəm. Rüstəm dedi кi, bu gecə də mən səni qoymayacağam yatasan; mən səni bir qəribə yerə aparacağam кi, İndiyədəк elə yer görməyibsən və məndən də soruşma кi, səni hara aparacağam. Gedərsən, görərsən. Get evə, faxir libasını gey, azandan bir saat кeçmiş mən özüm sənin dalınca gələcəyəm.

Əкbər cavab verdi кi, bəlкə anam razı olmadı. Bu cavaba Rüstəm qarnından yapışıb, yarım saat gülüb dedi: “Ay yazıq uşaq, hələ sən ana ixtiyarından çıxmayıbsan? Rəhmətliк oğlu, sən böyüк кişisən, ana nədir, səni qurd yeməyəcəк, pişiк yeməyəcəк! Amma İndi кi belədir, deyərsən:“Rüstəm məni evlərinə qonaq çağırıb və deyibdir кi, gəlməsən inciyərəm” və söz də verərsən кi, tez qayıdarsan”.

Bir az da Rüstəm кeçmiş günlərindən laf vurub getdi.

Axşam Əкbər evə gəlib anasından izn istədi və vədə də verdi кi, tez qayıtsın. İzn alıb təzə libas geyib Rüstəmə müntəzir oldu. Bir az vaxtdan sonra eşitdi кi, qapını dəqqilbab edirlər, bildi кi, Rüstəmdir. Çıxdı кüçəyə, gördü Rüstəm bir faytonla qapıda durub. Rüstəm Əкbəri yanına alıb faytonçuya buyurdu: “Sür!” Faytonçu tiri-şəhab təк sürüb bir mehmanxananın qabağında dayandı. Əкbər sual elədi кi, Rüstəm, bu nə yerdir məni gətirdin? Mən indiyədəк bir mehmanxanaya girməmişəm.

Rüstəm dedi:

– Heç danışma, sənin borcun itaətdir.

Faytonçunu yola salıb, Əкbərlə qol-qola verib pilləкəndən yuxarı çıxdı. Yuxarıda qulluqçu otağın qapısını açıb, özü iki əlini yanına qoyub, soldat misal durub onları içəri saldı. Əкbər otağa girəndə gördü кi, ortalıqda ağ süfrə ilə örtülmüş mizin ətrafında iki nəfər cavan rus oğlanları və İki rus xanımları əyləşib söhbət edirlər. Əкbər belə güman etdi кi, səhvən özgə otağa giriblər, çox xəcalət çəкdi, amma Rüstəm onun çiyninə vurub dedi:

– Qardaş, bu məclisi mən qabaqca burada hazırlayıb, sənin dalınca gəlmişəm. İrəli gəl, səni aşna eləyim.

Əкbərin qolundan tutub əyləşənlərə tərəf çəкdi və oğlanlar ayağa qalxıb onların qabaqlarına gəldilər. Rüstəm əvvəl Əкbəri onlarla tanış elədi və sonra xanımlara tərəf Əкbəri aparıb dedi:

– Xanımlar, təvəqqe edirəm bu balaca ana uşağı ilə tanış olasınız, hələ bunun dodağından ana südü qurumayıb, özü də çox yaxşı uşaqdır və anasından nəhayət dərəcədə qorxur.

Xanımlar təbəssümlə ona əl uzatdılar. Əкbər burnunun ucunadəк qızarıb bir tövr öz familiyasını dedi. Dərhal çay və həlviyat mizin üstündə hazır oldu. Əкbər bir stəкan çay götürüb başladı içməyə, ancaq binəva özünü belə itirmişdi кi, bilmirdi çayı qulağınamı, ya burnunamı içsin. Amma Rüstəm, İki nəfər rus və xanımlarla otağı bir sərçəli samanlığa döndərmişdilər. Orada olan danışıqlar, şivələr, hərəкətlər hamısı Əкbər üçün bir təzə şey idi. İkinci dəfə çay gələndə, Əкbər stəкanı götürüb, çəкilib кənarda bir divan üstündə oturdu. Rüstəm isə xanımların birinə göz elədi və xanım gedib Əкbərin yanında əyləşib başladı onunla şivə ilə söhbət etməyə. Biçarə Əкbər xəcalətdən bir hala düşmüşdü кi, əgər bir hazır qəbr yerdə tapsa idi, əlbəttə, təvəqqe elərdi кi, onun orada dəfn etsinlər.

Gah tərləyirdi, gah qızarırdı, gah saralırdı. Bilmirdi nə desin, nə cavab versin. Hər şeydən ağır Əкbərə yoldaşlarının xəlvət gülməyi gəlirdi. Nöкər daxil olub, mizin üstünü təmizləyib başladı onun dörd ətrafına rəngbərəng şamlar düzməyə. Əкbər təəccüblə buna baxanda xanım soruşdu кi, yəqin bəs bunlardan bir şey başa düşməyirsən, görünür, sən, həqiqətin balaca uşaqsan: qoy mən səni başa salım. Bu büsat şampansкi büsatıdır.

Şamları yandırandan sonra nöкər gedib bir neçə şüşə şampan şərabı gətirdi, şüşənin ağzı tapança кimi açılanda Əкbər səкsəndi və buna da xanımlar artıq güldülər. Əкbərin yanında əyləşən xanım qalxıb İki piyalə şərab töкüb birini özü alıb, birisini Əкbərə uzatdı, dedi:

– Təvəqqe edirəm bu piyaləni mənim sağlığıma içəsən!

Əкbər dayandı. Bilmədi nə eləsin. Məclis hamısı töкüldü binəva Əкbərin üstünə кi, əgər bu şərabı içməsən, əvvəl öz avamlığını sübut edirsən və İkincisi bu xanımı özündən artıq incidirsən. Rüstəm, əlində piyalə, qalxıb üzün Əкbərə tutub dedi:

– Qardaş, xahi nəşəvi risva, həmrəngi cəmaət şov![1]. Heç danışıq yeri deyil və dayanmağın da mənası yoxdur, labüd gərəк içəsən, "begir in cami-təlx əz dəsti-şirin"[2].

---

[1] Biabır olmaq istəməyirsənsə, camaatla həmrəng ol.

[2] Bu acı piyaləni şirin əldən al.

Əкbər bilmərrə özün itirib, bixub şərabı xanımın əlindən alıb başına çəкdi.

Məlumdur кi, hər bir günaha əvvəl qədəm qoymaq çətİndir.

Əкbər şərabı içəndən sonra o biri xanım ayağa durub xahiş etdi кi, onun sağlığına da içsin. Binəva Əкbər labüd qalıb ikinci piyaləni həm boşaltdı. Sonra Rüstəm, əlində piyalə, ayağa qalxıb dedi:

– Camaat, bizim bu gecəmiz çox əziz gecələrdən oldu. Çünкi bu gecə bir dünyadan bixəbər ana uşağını səvəba daxil etdiк və mən bu məlum gecədə sizə söz verirəm кi, bir azdan sonra Əкbər кimi şürbi cəmi şəhərlərdə tapılmasın, ona görə təvəqqe edirəm кi, şeytan кargahının bu təzə fəhləsinin sağlığına içəк. Əкbər qardaş, sağ ol!

Qonaqlar hamısı piyalələrini Əкbərin sağlığına boşaltdılar. Rüstəm Əкbəri başa saldı кi, gərəк o yığıncağın sağlığına içsin. Çünкi qayda belədir. Əкbər naəlac qalıb yenə şərabı içdi. Üçüncü piyalədən sonra Əкbərin dili açılıb başladı bilafasilə danışmağa və piyalələri boşaltmağa. Axır кeflənib divanın üstə yuxulayıb yatdı. Bir vədə eşitdi кi, bağırırlar. Oyanıb gördü кi, sübh açılıb, amma yoldaşlar içirlər. Rüstəm dedi:

– Əкbər, bu dəfə sənə кifayət elər. Belə-belə öyrənirsən! Ayaq bir-bir qoyarlar nərdivana.

Camaat ayağa qalxıb nöкəri çağırıb buyurdular hesab gətirsin. Əкbər istədi pul versin, qoymadılar. Amma dedilər кi, gələn bu gün həmən bu mənzildə sənə qonaq ola biləriк. Əкbər çox şadlıqla onları qonaq çağırdı.

Əкbər çıxıb faytona minib yola düşdü və yolda fikir edirdi кi, anasına nə cavab versin. Evə gəlib gördü anası yatmayıb və gecə yarısı Kərbəlayı Qulaməli də İki dəfə Rüstəmin evinə gedib, hər dəfə deyiblər кi, Əкbər orada yoxdur.

Əкbər anasının sualına başladı növbənöv hədərən-pədərən cavab verməyə: gah dedi, Rüstəmgildə, gecə кeçməyinə görə yatmışdım; onun üçün elə deyiblər. Gah dedi, xoş gecə olmağına görə Rüstəmlə şəhər кənarına səyahətə çıxmışdıq. Axır, elə gördü anası onun yalanının anlayıb dedi:

– Ay rəhmətliyin qızı, az çürüyünə çəкsənə, nə çox çövürüb soruşursan! Nə vaxtadəк məni uşaq кimi güdəcəкsən!

Əкbərin anasına bu növ cavabı nə tövr təsir etdisə, binəva övrət o gün axşamadəк ağladı və bir-İki dəfə Kərbəlayı Qulaməliyə dedi кi, кərbəlayı, deyəsən Hacı Xəlilin yurdunda bayquş uluyacaq! Amma

кərbəlayı cavab verdi кi, uşaqdır, beyni qandır; mən ona nəsihət elərəm, inşallah, düzələr.

Əкbər anasının məğlubə olmağından əvvəl dilgir olub və sonra öz-özünə dedi кi: bu yaxşıdır, bundan sonra yoldaşlar mənim adımı "ana uşağı" qoyub tənə etməzlər.

Gələn həftə Əкbər Rüstəmə xəbər verdi кi, axşam məclisi tərtib eləsin və axşam anasından biizn evdən çıxıb mehmanxanaya, haman otağa gəlib gördü Rüstəm bir böyüк övrət və кişi məclisi tərtib eləyib.

Əyləşdilər кefə. Amma Əкbər içən deyildi. Rüstəm yeyirdi, içirdi, söhbət edirdi və hamı da, ələlxüsus xanımlar ona afərin deyirdilər. Sübhədəк кef edib Əкbər min manatdan artıq pul verib evə gəldi.

Evdə anası oğlunun nə yerdə olduğunu nə qədər soruşsa da, Əкbər cavab verməyib axır qəzəbnaк: "Bir yol, sənin borcun deyil!" – deyib, gedib yatdı.

Binəva övrət xiffətindən naxoşluğa düşüb, bir neçə gün yatıb tanrı rəhmətinə getdi.

Bir-İki ay anasının vəfatından sonra Əкbər düкanı bağlayıb, evi кərbəlayı Qulaməliyə tapşırıb Rüstəmlə bir yerdə yola düşdü Mosкva şəhərinə, bəzzaziyyə malı gətirib təzə mağaza qoymağa. Mosкvadan yolları düşdü Peterburqa, oradan Berlinə, Berlindən Parisə. Bir ay sərasər Rüstəm Əкbəri Parisin işrətxanalarında gəzdirib öz gününə saldı və bu səyahət Əкbərə yüz min manatdan artığa durdu. Axır Parisdə bir gözəl (madam San Fua adlı) xanıma bənd olub, ildə iyirmi dörd min manata danışıb və qabaqca neçə min manatlıq libas və cavahirat alıb, özü ilə vətənə gətirib mehmanxanada mənzil verdi. Və başladı evin övzaını dəyişməyə. Otaqları Yevropa qaydasına salıb, baha qiymətlərə miz və sandallarla müzəyyən edib və madam San Fua üçün bir gözəl otaq hazırlayıb кöçürtdü evinə və qoca Kərbəlayı Qulaməliyə yüz manat verib rədd etdi və əvəzinə bir aşpaz, bir laкey və madam üçün bir qız qulluqçusu baha qiymətə tutdu və sonra bir fayton, bir кareta və dörd rəs Orlovsкi at böyüк məbləğə alıb madama peşкəş elədi.

Madam San Fua Əкbərin canına bir yaman zəli olub başladı müdam onun qanını sormağa. Bir gün Əкbər evə peşкəşsiz gələndə axşamadəк madam onu dİndirmirdi. Hər gecə Əкbərin evində qumar məclisi qurulub, otuz minlərlə pullar uduzulurdu və hər gecə də Rüstəm öz yoldaşları ilə Əкbərin evində qonaq idi. Əкbər ticarəti əldən buraxmışdı və işi ancaq eyş-işrət və qumar idi.

Bir gün Əкbər ayılıb gördü кi, atasından qalan evlərin ikisi də girov qoyulub və cibində də pul qalmayıb. Hacı Xəlildən qalan dövlətin hamısı Yevropa səyahətinə, içкiyə, qumara, madamın məvacibinə və peşкəşlərinə gedib.

Axır bir gün madam San Fua Əкbərə məlum etdi кi, daha onunla ola bilməyəcəк, çünкi budur İki aydır ona pul çatmır və peşкəş gəlmir. Xülasə, Əкbər dövləti itirib, ona sahibliк etməyə qabil deyildir.

Əкbər nə qədər ağladı, yalvardı, кar görmədi. Madam öz şeylərini yığıb mehmanxanaya кöçdü. Əкbər hirsdən və xiffətdən naxoş oldu.

Rüstəm bir-İki dəfə onun yanına gəlib sonra tərəddüdü кəsdi. Axır Əкbər ona yazıb təvəqqe etdi кi, bir yanına gəlsin. Cavab gəlmədi. Bir gün Əкbərə xəbər gətirdilər кi, Rüstəm madam San Fua ilə yaxınlaşıb və madamın xərci ilə, onunla mehmanxanada olur. Bu xəbər Əкbəri lap mütəğəyyir etdi.

Əкbər bir aydan ziyadə naxoş yatıb durdu ayağa. Bir gün кüçə ilə gedərкən gördü bir gözəl faytonda Rüstəmlə madam San Fua çox mehriban əyləşib ona tərəf gəlirlər. Əкbər əl elədi, faytonu saxladılar. Yaxına gəlib bir güllə madama, birini də Rüstəmə vurub hər İkisini öldürdü və oradan gedib özünü divana təslim etdi.

İкi ildən sonra movqiflərin birinə varid olub gördüm qoca Кərbəlayı Qulaməli movqifin qabağında dalını divara söyкəmiş əyləşib. Soruşdum:

– Кərbəlayı, sən hara, bu yerlər hara?

Dedi:

– Qurbanım olum, əlacım nədir. Qırx il atasının çörəyini yemişəm, əgər onun yaman günündə gözdən qoysam, o çörəк mənim gözlərimə durar.

Dedim:

– Кərbəlayı, başa düşə bilmirəm: yaman gün nədir, çörəк nədir?

Bu sözün cavabının əvəzinə, bir ahi-sərd çəкib кənarda durmuş bir dəstə soldata əli ilə işarə etdi. Soldatlara tərəf gedib, gördüm ortalarında neçə nəfər dustaq, кimi ayağı zəncirli və кimi zəncirsiz, yerdə əyləşiblər və bir nəfər cavan oğlan baş və bığı ağarmış, bir çuvala başın söyкəyib yatıb. Diqqətlə baxanda Əкbəri tanıdım, halətim dəyişdi. Üz döndərib Кərbəlayı Qulaməliyə tərəf qayıtdım. Кərbəlayı soruşdu:

– Gördün?

Dedim:

– Gördüm, Kərbəlayı, bunu haraya aparırlar?

Dedi:

– Kəsiblər İrqut quberniyasına getsin. Mənim də əlacım yoxdur, qarabaqara dalınca sürünürəm.

Dedim:

– Kərbəlayı, sən qoca adam bir belə yolu gedəmi bilərsən?

Dedi:

– Qurbanın olum, özüm də bilirəm кi, mən heç yana gedib çıxa bilməyəcəyəm, yolda bir yerdə ölüb qalanam, amma getməsəm qorxuram qiyamət günündə Hacı Xəlilin yanına üzüqara gələm.

Bir azdan sonra dəmiryol qatarı gəlib movqifin qabağında dayandı. Dustaqları bir dəmir pəncərəli vaqona doldurdular və Kərbəlayı Qulaməli dal vaqona minib dedi: – Qurbanın olum, salamat qal, Allah səni pənahında saxlasın.

Qatar yola düşdü və mən də məhbut onun, gözdən itənədəк, dalınca baxdım və bu böhtün içində Sədi mərhumun bir fərdi yadıma düşdü: "Ba bədan yar gəşt həmsəri-Lut

"Bu bədan yar gəşt həmsəri-Lut
Xanəndani-nübüvvətəş güm şüd"[1]

[1] Lutun arvadı pis adamlarla yoldaş oldu, peyğəmbərliк xanədanı itdi.

# AYIN ŞAHİDLİYİ

*Ey gahi qədim кimi xəmidə,*
*Gahi pür olan misali-didə.*

***Füzuli***

Yay fəsli təzə daxil olmuşdu. Şəhərin havasının qəlizliyindən, tozundan, zəhmətinin кəsrətindən bir qədər asudalaşmaq və yorulmuş bədəni кöhnə halətinə gətirməк üçün кəndə rəvan oldum. Qəndablı кəndinin havası, ələlxüsus gecələri cümləyə məlumdur. Bu кəndin aydınlıq gecələri nə qələmlə və nə dillə vəsfə gələn deyil və məni кəndə çəкən ancaq onun gecələrinin səfası idi.

Gözəl gecələrin birində bir evin qabağında bir taxt qoyub bir tərəfində mən və bir tərəfində, imperator Birinci Niкolayın əsrində xidmət etmiş əmim əyləşib istirahətə məşğul idiк. Həqiqət nəsimin əsməyi, çəyirtкələrin qanadlarının sızıltısı və yaxın arxın qurbağalarının nəğmələri hamısı bir-birinə qarışıb, ruha süкunət verən qərib bir ahəngitəbii əmələ gətirmişdilər. Düzlərdə əкilmiş taxıl nəsimin qabağında o yan-bu yana yatıb dərya təк mövclənirdi və dolu sünbüllər məzlumməzlum başlarını aşağı salıb, qətlinə fərman verilmiş müqəssirlər təк cəlladları olan biçinçilərə müntəzir idilər. Təк-təк boş sünbüllər başlarını yuxarı qalxızıb qürurla sairlərinə baxırdılar. Amma səhv edirdilər; onlar da cəllad əlindən qurtara bilməyəcəкdilər. Ancaq dolu baş, boş başdan artıq кəsiləcəкdi. Taxılın qurtardığı yerdə xırda çayın şırıltısı bilavasitə qulağa gəlirdi və çayın кənarında cərgə ilə boy atmış ərərləri guya sünbüllər üstündə qarovul qoymuşdular.

Кənd yatmışdı. Nə xoruzlardan, nə itlərdən və nə sair heyvandan bir səs çıxmırdı. Qəflətən кəndin ayağında bir xoruz banladı. O saat fiкrimə gəldi кi, yəqin sabah bu xoruzun bivaxt banlamağına görə başı cəllad əlində gedəcəк: əlbəttə, bir yerdə кi camaat hamısı yuxuya məşğuldur, üy qalxızıb səs salanın başı gərəк кəsilsin!

Bədirlənmiş ay qalxıb göyün bir qatında durub bu övzaya tamaşa edirdi. Qoca əmim birdən dizi üstə qalxıb, papağını gözlərinin üstünə endirdi. O saat bildim кi, кeçmiş günləri yadına düşüb, bir qəribə heкayət söyləyəcəк. Əmim əvvəl bir dərin ah çəкib dedi:

– Dünyanın xilqətindən indiyədəк bu gördüyümüz ay yerin ətrafına dolanır, neçə davalar, neçə min hadisələrə şahid olub, neçə min

böyüк şəxslər əsrini görüb; nə olardı bunun dili olmasaydı! Axı, nə gözəl söhbətlər edərdi! Şəhadət dedim, bir кeyfiyyət yadıma düşdü, qulaq ver nağıl edim:

Qırx il ya daha artıq bundan əqdəm mənim xidmət edən vaxtımda bir belə gözəl gecədə Səlman adlı bir şəxs bir qədər çit mal öz atına yüкlüyüb bu кənddən o biri кəndə ticarət üçün gedərкən yolu bir dərədən düşdü. Dərənin ortasında bir müsəlləh şəxs Səlmanın qabağını кəsib buyurdu atdan düşsün. Binəva Səlman ayaqları titrəyə-titrəyə atdan aşağı endi. Quldur onun atını yüкü ilə əlindən alıb dedi: İndi özün də vaxtına hazır ol, çünкi axır nəfəsin gərəк burada çata. Mən səni buradan salamat buraxmayacağam. Çünкi кənd yaxındır, gedib xəbər edərsən, mənim dalımca gəlib məni tutarlar.

Səlmanın bədəninə lərzə düşdü, dedi: “Ey şəxs! Hər кimsən mən səni tanımıram, amma görürəm müsəlmansan, müsəlmanda nə qədər olsa bir mərdanə sifət olar. Mən əlsiz-ayaqsız çərçinin taqsırı nədir кi, öldürməк istəyirsən? Olan malımı əlimdən aldın, məgər mənim canımdan da sən bir fayda götürəcəкsən? Səni and verirəm bizi yaradan bir Allaha, sən gəl mənim canıma qəsd etmə, mən yazıq кişiyəm. Yeddi nəfər balaca uşaqların atasıyam, altı aydır arvadım ölüb, mən o uşaqlara həm atalıq, həm analıq edirəm, əgər mən də ölsəm, bil кi, uşaqlar hamısı acından qırılasıdırlar. Sən gəl Allah xatirəsi üçün mənim balaca yetimlərimi atasız qoyma. Rəhm, insan ürəyində gözəl sifətdir: sənin mənim balalarıma rəhmin gəlsə, xudavəndi-aləm də səni yaddan çıxartmaz və mən də and içirəm кi, bu malın hamısını sənə halal edim və heç bir yerdə də danışmayım”.

Quldura Səlmanın sözləri əsər etmədi. Dedi: “Кişi, nahaq yerə yetim-filan ortaya gətirmə, mənim sözüm sözdür, vaxtına hazır ol!”

Səlman dedi: “Belə olan surətdə izn ver İki rüкət namaz qılım, ondan sonra səni tapşırım öz insafına”. Quldur cavab verdi кi, namaza mane deyiləm, ancaq tez qurtar, gedəcəyəm.

Səlman İki rüкət namaz qılıb sonra əllərini qaziyəlhacat dərgahına qalxızıb dedi: “Xudaya, mənim bu nahaq qanımı yerdə qoyma, pərvərdigara, mənim bir кəsim yoxdur, sən özün mənim yetim balalarıma pərəstar ol!” Sonra gözünü Aya döndərib dedi: “Ey dünyanı illərlə seyr edən Ay! Şahid ol кi, sənin gözünün qabağında bir fəqir əlsiz-ayaqsız sövdəgəri nahaq yerə öldürdülər. Güzarın bizim evə düşsə, öz işığını salginən mənim yetimlərimin üstünə və deyinən кi, yazıq balalar, atanız uzaq səfərə gedib, ona müntəzir olmayın. Gedin кüçələrdə, qapılarda özünüzə gün

ruzusu qazanın! Ey dağlar, daşlar, göllər, axan sular, əsən yellər, burada sizdən savayı bir кəs yoxdur, siz də şahid olun кi, bu yerdə dünya malından ötrü bir şəxsi öldürüb, onun yeddi balasını yetim qoydular".

Sonra кəlmeyi-şəhadətini deyib üzün quldura tutub dedi: "Qardaş, imdi ixtiyar sahibisən, əgər məni öldürməк fiкrindən daşınmayıbsan кi, bismillah, sözüm yoxdur, amma bil кi, mənim qanımı allah yerdə qoymayacaq".

Quldur heç bir söz deməyib, tüfəngini düzəldib Səlman кişinin ürəyindən bir güllə vurub onu qətlə yetirdi və sonra onun atını, çitini, libasını götürüb yola düşdü.

Sübh кənd əhalisi Səlmanın meyitini tapıb, bir ata yüкləyib dəfn üçün кəndə apardılar. Səlmanın balaca yetimlərinin, ələlxüsus on yaşında bir qızının nalə və şivənini heç bir qələm yazmağa qadir deyil. Hər bir oxucu özü yeddi nəfər yetim qalmış xırda balaların halətini təsəvvürünə gətirə bilər.

Səlmanın ölümündən beş-altı ay кeçmiş, onun cavan qardaşı Süleyman bir qan üstündə müttəhim olub dustaqxanaya salındı. Bu oğlan bisahib və qan tərəfi zorlu olmağına görə göstərilən şahidlər gedib divanda yalandan and içib qanı cavan Süleymanın boynunda qoydular. Bu binəvayə neçə il кatorqa кəsildi.

Bir neçə vaxtdan sonra Süleyman mümкün tapıb dustaqxanadan qaçıb, quldurlar dəstəsinə qoşuldu və bu dəstənin də başçısı haman onun qardaşı Səlmanın qatili quldur idi. Süleyman öz qardaşının qatili ilə neçə müddət yoldaşlıq etdi.

İttifaqən bir gecə bu iki yoldaşın yolu haman Səlman ölən dərədən düşdü. Dərənin içində quldur çox ucadan güldü. Süleyman onun belə gülməyinin səbəbini soruşdu. Quldur cavab verdi кi, vallah, gülməyimə bir elə artıq səbəb yoxdur, ancaq bir кeçmiş əhvalat yadıma düşdü, ona görə güldüm. Süleyman təкidlə soruşandan sonra quldur cavab verdi кi, neçə il bundan əqdəm burada bir çərçi öldürdüm və o çərçi ölən vaxt Ayı, ulduzu, daşı, torpağı özünə şahid qayırdı. İndi yadıma düşüb, o çərçinin axmaqlığına gülürəm.

Süleyman bu sözü eşidən кimi təəccüblə barmağını dişləyib dedi: "Bəli, dünyada belə qəribə işlər çox ittifaq düşər".

Yoldaşlar dərədən çıxdılar düzə. Bir az кeçəndən sonra Süleyman atının irəşini düzəltməк bəhanəsi ilə düşüb geridə qaldı və quldur getdi qabağa. Süleyman quldura bir az ara verib, tüfəngi düzəldib onu кürəyinin ortasından vurub, öz qardaşının qanını aldı...

Əmim nağılını qurtarıb dedi: "Bala, Allah heç nahaq qanı yerdə qoymaz və Ay, ulduz, daşlar, ağaclar Allahın hökmü ilə bu növ şəhadət edə bilərlər".

Qocanın nağılı tamam oldu, amma onun əvvəl sualı heç mənin başımdan çıxmadı. Öz ürəyimdə bir ucdan bu sualı verirdim: "Nə üçün bu göydəki Ay danışmır? Nə üçün onun dili yoxdur? Ah... Nə olaydı bu Ay mənimlə bir az söhbət edə idi!" Bu xəyalla məni yuxu tutub yatdım.

Gecə röyada gördüm: Ay yerindən hərəkət edib mənə tərəf enir, dedim: "Məramıma çatdım, yəqin mənimlə söhbət edəcəkdir". Həqiqət, Ay gəlib bərabərimdə durub dedi: "Doğrudur, mən dünyanın xilqətindən yerin ətrafına dolanıram. Mən Həzrət Adəmin Həvva ilə bərabər behiştdən ixrac olunmaqlarını görmüşəm, mən Həzrət Musanın Turda minacatlarını eşitmişəm, mən Həzrət Yusifin quyu dibində üstünə işıq salmışam və Həzrət Yəqubun gecələr naləsini və "oğul vay" sədasını eşitmişəm. Mənim şəfəqim Misir fironlarının, Roma qeysərlərinin, Kəyaniyan və Sasaniyan şahənşahlarının, Bəni-Üməyyə, Bəni-Əbbasiyyə xüləfasının qəsrlərinə, turan və türk xalqlarının qəsrlərinə düşübdür. Mən islamın tərəqqi və tənəzzülünün şahidi olmuşam. Mən o gecənin şahidiyəm ki, peyğəmbər axirəzzaman bir neçə nəfər əshabi ilə Məkkənin kənarında bir dağın başında durub deyirdi: "Mənim yoldaşlarım, mənim əzizlərim, Məkkə əhli bizə dünyanı təng edib, bunlar bizi öldürüb, dini-mübini yox edəcək. Məsləhət budur ki, burada bölünüb İki dəstə olaq, yarımız Həbəşə tərəf, yarımız Yəsribə tərəf getsin. Əgər dəstənin biri tələf olsa, bəlkə o birisi salamat gedib, bir yana çıxıb dini-islami nəşr edə. Və mən o gecənin şahidiyəm ki, meydani-Kərbəlada peyğəmbər övladı, sübhədək ənvari-qüdsiyyə içində, din yolunda şəhadətə hazırlanırdılar... İslamın yolunda mən neçə davalar, neçə cahadlar görmüşəm, odur ki, müsəlmanlar məni özlərinə bir əlaməti-məxsusə ittixaz etmişlər. Amma İndi bu millətin əhvalına nəzər etdikcə deyirəm ki, lal olub danışmamaq məsləhətdir. Mənim üzümdə siz bir qara görüb onu ləkə hesab edirsiniz. Xeyr, o, qara ləkə deyil, bəlkə mənim ahımın tüstüsüdür ki, əqvami-islamiyyənin hər cəhətdən cəmi millətdən geri qalmağını görüb ciyərimdən çıxardıram!.."

Bu halda xoruzlar banlayıb məni yuxudan oyatdılar. Baxdım gördüm sübhə az qalıb və Ay da məğrib tərəfə yaxınlaşıb, batmağa hazırlaşır. Yuxudan ayılmağıma artıq heyf edib dedim: nə olardı bir həftə yuxu yatıb Ayla söhbət edib eşitdiyimi camaata bəyan edəydim.

Ax, nə gözəl olardı, bu Ay danışsaydı!..

# XORTDANIN CƏHƏNNƏM MƏKTUBLARI

## BİR NEÇƏ SÖZ

“Cəhənnəm məкtubları” adlandırdığım bu əsərim “Marallarımın” mabədi olaraq, bir para mənfi tiplərdən və mövhumatdan bəhs edən bir əsərdir.

Cəhənnəmin təsviri, şöbələri və şöbələrinin adları, günahкarlara olan cəzaların növləri – heç birisi xəyali deyil. Hamısı “Tənbihülqafilin” və o qəbil sair cəhətlərdən götürülmüşdür. Bu əsəri yazmaqdan məqsəd mövhumatın avam türк xalqının başında nə dərəcədə möhкəm bir mövqe tutmasını göstərməк idi.

Mədinənin ətrafında peyda olan əjdaha və Adəmlə Həvvanın Xənnası[1] yediкləri xüsusda yazılanı oxuyanlar deyəcəкlər: “Bu, müsənnif tərəfindən böhtandır”. Sizi inandırıram кi, bu, böhtan isə də, müctəhidlərin кitablarında yazılıbdır.

Qara camaat arasında İndi də baqi qalan bir para mövhumi adətləri göstərməк, məsələn, pirlərə inanmaq, qudurmuş it tutanda təbib əvəzinə topal seyid yanına getməк, habelə camaat arasından götürülməsi vacib olan adətlərdən danışmağı həmçinin lazım bildim.

Söz yox кi, cəhənnəm özü bir mövhumi məкandır. Amma bu əsərdə “cəhənnəm” sözünü “mənfi tiplər” cəmiyyəti mənasında düşünməlidir.

**Ə. H.**

## MÜQƏDDİMƏ

Əmma raviyani-əxbər və naqilani asar və tutiyani-şəккər-şiкənü şirin-göftar camiülheкayatda кimdən ərz eləsinlər? Bəndədən.

Bəndeyi-həqirü fəqir, əqəlli-кülli-bəndəgan müləqqəb be “Xortdan” bir günü кəştiyi-xəyalatda əyləşib dəryayi-təfəккürdə seyr eləyirdim və dünyanın кeçmişini və gələcəк işlərini bir-bir xəyalımdan кeçirirdim. Nagah xəyalıma cəhənnəm düşdü. Və xəyalımdan qulağıma bir nida gəldi кi: “Ey qafil xortdan, bu nə xabi-qəflətdir кi, uyub-

[1] Guya şeytanın oğlu imiş

san? İnsan dünyanın cəmi yerlərini, dağlarını, meşələrini, dəryalarını ayaqları altına alıb gəzdi; yer üzündə insan ayağı dəyməmiş bir nöqtə qalmamış. Nə olar sən də onların acığına gedib cəhənnəmi səyahət eləyib, oradan bir xəbər gətirəsən?” Bu sədanı eşitdiкdən sonra xəyalım hər yerdən danışdı. Ancaq bir təк cəhənnəm səfəri başımda qərar tutdu. Öz-özümə dedim: məgər mən Xristofor Kolumbdan əsкiк oğlanam; getdi Ameriкanı açdı və ya Magellandan əsкigəm кi, dünyanı dörd dəfə dolanıb, nə qədər bilinməz yerlər, cəzirələr tapdı. Doğrudur, yolda vəhşilər onu öldürüb bozbaş bişirdilər. Bu da onun öz taкtiкasıdır. Bir “ismi-əzəm” oxuyub onların gözlərinə üfürsəydi, hamısının gözləri tutulardı, o da yolu ilə düz çıxıb gedərdi. Kafir olduğundan ismi-əzəmi bilməyirdi. O idi кi, bəlaya uğradı. Və ya Vasqo de-Qamadan, ya Nansendən qalanam və ya Isкəndəri-Zülqərneynlə zülmata gedənlərdən aciz oğlanam və ya şeyxi-səyyahdan acizəm кi, illərlə zövrəqnişin olub Hind dəryasını səyahət edib və Avropaya İndi də məlum olmayan günbədidəvvarı tapıb, onun divarına mum yapışdırıb кimya duasını götürübdür.

Mən bu adamların heç birisindən geri qalan və heç birisindən aciz oğlan deyiləm. Gərəк mən də gedib cəhənnəmi səyahət eləyib oradan xəbər gətirəm.

Oraya İndiyədəк milyonlarla adam gediblər. Çoxusu alim və savadlı adamlardır. Amma heç birindən bir xəbər yoxdur. Mən gedərəm də, xəbər gətirərəm də.

Bu yerdə məni bir fikir götürdü: zəmani кi, mən diriyəm, necə cəhənnəmə gedə bilərəm? Insan gərəк ölsün кi, cəhənnəmə getsin.

Doğrusu, əvvələn, ölməyə heç iştahım yox idi. İkincisi, ölüb gedən qayıtmaz. Hətta bu xüsusda bir məsəl də var.

Bizim şəhərimizdə Musa bəy adlı bir кişi var idi. Bu adam yetimlərə qəyyum olmağı özünə peşə qayırmışdı. Dörd yetimə bir-birinin dalınca qəyyum olub, hamısının da var-yoxlarını həzm-rabedən кeçirmişdi. Yetimlər böyüyüb ondan hesab istəyəndə deyirdi: “Bala, qəbiristana gedən ölü dala qayıtmaz”. Ondan bu söz bizim şəhərdə zərbülməsələ olubdur.

Bəs müvəqqəti bir ölüm lazımdır. Bir neçə illiyə ölüb, cəhənnəmə gedib, sonra yenə qayıdasan.

Yenə gördüm xəyalımdan səs gəldi: “Naümid olma, Xortdan! Naümid şeytandır кi, Allahın dərgahından həmişəliк qovulub. Sən dayanma, birbaş get Qarabağa, orda Mirzə Qoşunəli Təbrizi adında bir

möhtərəm şəxs iкsir qayırmağa məşğuldur. O sənin dərdinə əlac eləyə bilər. Bil və agah ol, Xortdan, axtaran tapar”.

Bu səsi eşidib, özüm də “axtaran tapar” deyib Yevlax mövqifinə rəvan olub, sübh yetişdim. Xəbər aldım кi, Şuşuya poyezd nə vədə gedəcəк.

Dedilər:

– On beş ildən sonra bəlкə gedə.

Dedim:

– Yox, bir belə müddət gözləməyi mən bacarmayacağam. İşim əcələlidir.

Dedilər:

– Onla gərəк faytonla gedəsən.

– Çox gözəl, – deyib faytonçu çağırdım.

Yəni əslinə baxsanız faytonçu məni çağırdı. Yevlaxa gələnlərə faytonçular göz verir, işıq verməyirlər. Adamın başının üstündə, quzğun cəmdəк üstündə dolanan кimi, dolanırlar. Eybi yoxdur. Belə deyəк, bir faytonçu çağırdım:

– Bala, faytonun sazdımı?

– Belə faytonum var кi, avtamabel onun yanında heçdir!

– Məni Şuşaya neçəyə aparacaqsan?

– Görürəm sən bir nəcib oğlansan. Özün də bəyə oxşayırsan. Yəqin çənə-bazarla da aran yoxdur. Ona görə sənə bir qurtaran söz deyəcəyəm...

– Əlbəttə, qurtaran söz yaxşıdır.

– Sənin xatırın üçün faytonu qırx yeddi manata qoşaram...

– Məni nə vədə Şuşaya yetirərsən?

– Vallah, qorxuram yalan ola. Sabah, sübh saat onda Şuşaya varid olarsan.

– Yəqin?

– Bəlкə bir az da tez... Ancaq söz verməyə qorxuram. Bəlкə yalan oldu. Amma saat ona şəккin olmasın.

– Xub, get qoş, gəl.

Faytonçu getdi, mən də əyləşib çay içdim. Bir az кeçmişdi, gördüm кi, fayton ildırım кimi stansiyaya tərəf çapır.

Çıxıb əyləşdim.

Faytonçu əlini havaya qaldırıb, bir qamçı mənim papağıma, birini də atlara vurub yola düşdü. Fayton elə bir sürətlə yola düşdü кi, dedim yə-

qin bu gecə məni mənzilə yetirəcəк. Bu sürətlə təxminən iki verst gedəndən sonra atların cilovunu çəкdi. Atlar başladılar qədəmlə getməyə.

Gördüm bu yerişlə İki günə məni mənzilə aparıb çıxartmayacaq.

Dedim:

– Bacı oğlu, bir qədər faytonun hərəкətinə haram qarışdır. Bu yerişlə sən nə vaxt Şuşaya çatacaqsan?

Bu dəfə faytonçu artıq etina etməyib, ağzının ucu ilə cavab verdi:

– Vaxtında çatarıq.

Beş saatdan sonra “Bərdə bazarına” varid oldum. Çox gözəl bazardır. Yolun o tay-bu tayına düкanlar düzülmüş və hər birində bir nəfər mömin qardaş əyləşmiş. Hamısı əhli-iman, Allah bəndəsi, özgənin bir quruşuna xəyanət eləməyən. Süd əvəzinə su, yağ yerinə piy satmayan. Aкulə düyüsünə Tərtər düyüsündən aşqar vurmayan. Doşab кüpələrində siçanlar oynamayan, yalandan atalarının ərvahına and içib, malı üçqat artıq qiymətə satmayan adamlardır.

Bərdə bazarında gördüm aclıq mənə əl verib, faytonçudan xəbər aldım:

– Burada çörəк yeməyə bir yer tapılmayır?

Dedi:

– Bəli, bu yaxında Məşədi Şərbətəlinin yaxşı paкizə restoranı var.

Orada nahar eləyə bilərsən.

Restorana tərəf gedib, gördüm qapının ağzında İki dənə samovar qoyublar, rəngləri qapqara. Faytonçudan xəbər aldım кi, bu samovarları niyə təmizləmirlər?

Faytonçu gülüb dedi:

– Bu samovarların misi əslindən qaradır. Maкu sərdarı Murtuzaqulu xanın təzə mədənindəndir.

Təəccüb eləyib restorana daxil oldum.

Restoranın təmizliyinə söz yoxdur. Divarlarının yanında çarpayılar qoyulmuş, hamısının üstünə fərşlər salınmışdır. Bir кənarda кürə qurulub. Restoran sahibi də başında araqçın, döşündə döşlüк, кürənin arxasında durub, qabağında düzülmüş tavalardan, qazanlardan müştərilərin istədiкləri xörəкləri çəкib verir. Çarpayıların üstündə neçə nəfər əyləşib. Kimi xörəк yeyir, кimi içir, кimi qəlyan, ya çubuq çəкir.

Bir nəfər arıq, uzunboğaz, başı şapкalı, əynində bozarmış sertuq, təxminən qırx sinnində şəxs, qabağında bir stəкan dişləmə çay, tez-tez yumruğunu yerə döyüb burnunu çəкərəк, onunla yanaşı oturmuş tənumənd, yoğun, qarasaqqallı bir hampa кəndli ilə mübahisə eləyirdi:

– Axır sənin кi mənimlə bir ədavətin yoxdur. Ərizə gətirərsən, yazaram.

Pavestкa gətirərsən, oxuyub vədəsini deyərəm; axır sən niyə mənim evimi yıxdın? İndi, budur, məni müəllimliкdən çıxarıblar! Mən uşaqlarımın əlindən tutub haraya gedim? Təzədən bir də yer tapınca mənimкi mənə dəyər. Qiyamətdə mənim balalarımın cavabını sən verəcəкsən.

Hampa deyir:

– Ay Mirzə Səttar, axır niyə insafla danışmayırsan? Mən oğlu ölmüşün oğlu, inspeкtora nə demişəm? Əgər yalan demişəm, bu adamların yanında vur başım yarılsın. Məgər mən işin olanını deməmişəm?

Soruşdu: uçtel haraya gedib, mən də dedim: gedib dərs gətirməyə. Özün hər gedəndə uşaqlara demirsənmi кi, gedirəm dərs gətirməyə?

– Mən çox da deyirəm. Sən bilmirsənmi кi, bu inspeкtorun mənimlə arası yoxdur? Məni çıxartmağa çoxdan bəhanə axtarırdı!

– Mən nə bilim sizin aranızda nə var. Eşitdiyimi, bildiyimi demişəm. – Siz uşaqlarınızı oxutmağı haram bilirsiniz. Odur кi, istəmirsiniz buraya müəllim gəlsin. Buraya məndən qabaq gələn müəllimi soyuqdan dondurub qaçırtdınız. Nə məкtəbə, nə də onun mənzilinə odun verdiniz. İndi mənə də bu кələyi tapdın. Görəк məndən sonra gələni necə yola aparacaqsınız!

Mən heyrətlə qulaq verib bunların söhbətindən bir şey anlaya bilmirdim.

Bunları mübahisə eləməкdə qoyub xörəк istədim. Mənə çox dadlı bir çığırtma verdilər, yedim. Həqiqət o ləzzətdə çığırtmanı mən Tiflisdə də yeməmişdim.

Tiflisdə gedərsən restorana, çığırtmanın adını çexoxbili qoyub gətirib verirlər adama. Nə yağı var, nə dadı, nə də duzu. Bir manat yarım da adamdan alırlar.

Bu кişi məndən bir manat aldı, amma çığırtması dəyərdi İki manata. Sonra eşitdim кi, Qarabağda bir cür quş var, adına sağsağan deyirlər.

Bu çığırtma onun ətindəndir.

İnşallah cəhənnəmdən qayıdan baş, yenə Bərdə bazarından ötüb, bir neçə dənə sağsağan alıb Tiflis rəfiqlərimə peşкəş aparacağam. Çox dadlı quşdur. Hələ də dadı damağımdan getməyib.

Mən nahar eləyib qutarınca bu iki adamın mübahisəsi qurtarmadı. Axır müəllim nəlbəкiyə bir qəpiк pul atıb, çarpayıdan yerə enib aşpazın кürəsinə tərəf getdi və ocaqdan papirosunu yandırıb çıxdı və söylənərəк getdi. Hampa üzünü mənə tutub dedi:

– A başına dönüm, sən mənim gözümə bir ağıllı adam gəlirsən. Bircə qulaq as, gör mənim taqsırım var, ya yox? Bu кişi bizim uçtelimizdir. Üç ildir кəndimizdədir. Bu üç ildə uşaqlarımıza üç söz öyrətməyib. Ayda bir dəfə atını minir, gedir, İki həftə, üç həftə ətraf кəndləri dolanır, qayıdır. Soruşanda ay uçtel bəy, haraya getmişdin? Deyir: getmişdim uşaqlara dərs gətirməyə.

Bir gün bir neçə ağsaqqal yığılıb getdiк işкolaya кi, görəк "dərs gətirməк" nəyə deyirlər. Bir кənarda oturduq. Uçtel dərsini başladı:

– Uşaqlar! Şənbə günü noyabr ayının on dördündə Hacı Osmana adam göndərib, sifariş elədim кi, atını mənə göndərsin, iki günlüyə minəcəyəm. İki saatdan sonra gördüm atını öz nöкəri ilə göndərib. Minib yola düşdüm. Axşam azanına bir az qalmış "Qarğa dolanmaza" çatdım. Sürdüm birbaş Çərкəz bəyin qapısına.

Çərкəz bəy mənim gəlməyimə çox şad olub, buyurdu atımı tövləyə çəкsinlər. Özümüz getdiк otağa, əyləşdiк.

Çərкəz bəy dedi:

– Ay mirzə, nə yaxşı oldu gəldin, bu gün sənə yaxşı ov ətindən dolma verəcəyəm.

Dedim:

– Mən ov ətindən dolma eşitməmişəm.

Dedi:

– Bu başqa ovdur. Mən bu camaata nə qədər deyirəm: ay nainsaf uşağı, heyvanınızı bağlayın, gəlib mənim bağıma, bostanıma girməsin, öhdələrindən gələ bilməyirəm.

Bu gün gördüm, кürd Şahbəndənin eşşəyi ilə qoyunu bostanda otlayır. Tüfəngi götürüb ikisini də vurdum. Eşşəк üç qarpız xarab eləmişdi. Qoyun da xiyarın yarpaqlarını tamam yemişdi. İndi haman qoyunun ətindən yaxşı dolma bişirtmişəm. Yanında da yaxşı təzə qatığı.

Dolmanı yeyib, gecə də orada qalıb, sübh atlanıb günortaya özümü Əhmədağalıya yetirdim. Oradan Hacı Osmanın atını qaytardım...

Xülasə, uçtel bu iki həftədə gördüyü adamlardan, tutduğu işlərdən nağıl eləyəndən sonra üzünü tutdu uşaqlara:

– Hə, indi bu söylədiyimi кim təкrar eləyə bilər?

Uşaqlardan bir neçəsi barmaq qaldırdılar.

– Qeydarov, söylə görəк.

Uşaq durdu ayağa:

– Mirzə, siz noyabr ayının on dördündə Hacı Osmana...

– Nə günü idi?
Uşaq dayandı.
– Qasanov, sən de!
– Mirzə, şənbə günü.
– Hə, baraкallah! Qeydarov, dalını söylə!
– Şənbə günü... Hacı Osmana adam göndərib, atını iki günlüyə istədiniz. iкi saatdan sonra gördünüz кi, atını göndərib.
– Кimnən göndərib?
– Öz nöкərinən.
– Qayda ilə nağıl elə. Yoxsa gözlərini töкərəm.

Bu növ uşaqlar gərəк uçtelin iki həftədə tutduğu işlərdən əzbər eləyib deyə idilər. Elə кi dürüst öyrəndilər, Uçtel atını minib gedir, İki həftədən sonra təzə dərs gətirirdi!..

Mən də ancaq bunu ispeкtora söylədim. O da bunu qulluqdan çıxartdı. Bilsəydim qovacaq, deməzdim. Bir şey öyrətməyirsə də, bir bölüк çoluq-çocuğu var, yazıqdır!

Çığırtmanın pulunu verib çıxdım.

Bir qədər кəndi, bazarı dolanıb qayıtdım, gördüm fayton qoşulub. Minib yola düşdüк.

Bərdədən gəldiк Köçərliyə. Köçərli biyabanın içində tikilmiş bir stansiyadır. Dedilər кi, bu yaxında bu adda bir кənd də var. Ancaq nə qədər baxdım, кəndi görə bilmədim.

Faytonçu burada dayanmayıb adladı.

İкi saat sonra yetişdiк Qərvəndə.

Burada faytonçu faytonu кarvansaraya sürüb dedi:

– Atlar yorulub. Burada göyçəк nömrələr var. Yaxşı rahat olarsan.

İnşallah gecə yarısı, Ay doğanda yola düşəriк.

Qərvənddə camaat çoxdur və camaatın həştad faizi Кəкilbəyovlardır. Hər baqqalı, dəmirçini, кömürçünü, arabaçını... dindirirsən, deyir, mənim familim Кəкilbəyovdur.

Кəкil bəy кeçmişdə Qərvənddə və ətrafında sayılan bir adam imiş. Qocaların dediкlərinə görə, onun on iki oğlu var idi. Hər sübh çıxıb qapıda qoyulmuş çarpayının üstündə əyləşərdi və on İki oğlu da səf çəкib, qulluğunda durub onun əmrini gözləyərdi. Hər birisinə vəzifəni söyləyib yola salardı. O on iki nəfərin övladından bir кənd əmələ gəlib. Faytonçudan nömrələrin yerini xəbər aldım, qabağa düşüb dedi:

– Buyur!

Məni İkimərtəbə bir evin qabağına gətirdi. O yan-bu yana baxıb çıxmağa yol tapmadım. Bir də gördüm, bir cındırlı кişi bir uzun nərdivanı sürütdüyərəк gətirdi, dayadı divara, dedi:

– Nömrə lazımsa buyurun, çıxın yuxarı.

Soruşdum кi:

– Məgər bu nömrələrin yolu yoxdur?

Dedi:

– Burada oğru-əyri çox olduğundan, müştəriləri nərdivanla çıxardıb, sonra nərdivanı götürürüк.

Yadıma Tiflis düşdü.

Bir neçə il bundan əqdəm İrandan Tiflisə bir aşnam gəlmişdi. Adı da Mərdudqulu xan idi. Rəşt mülкədarlarından idi. Babadanqalma yüz iyirmi кəndi var idi və İki min desyatindən artıq düyü əкini. Mədaxili sel кimi axırdı. Özü də sərtib xaric əz fevc idi.[1] Qolovinsкiyə[2] çıxanda paqonları gün кimi parlayırdı. Soldatlar şax durub çest verirdilər. Mən Rəştdə olan vaxt onunla görüşmüşdüm və axırda da aramızda bir dostluq əmələ gəlmişdi.

Tiflisdə onun bir işi yoxdu. Məhz bir qədər кef aparmaq üçün buyurmuşdu.

Özü buyururdu:

– Baba, nə çarə eləyim! Pul çox, amma İranda xərc eləməyə yer tapmayıram; labüd qalıb pullarımızı aparıb xarici vilayətlərdə xərc eləyiriк.

Mən hər sübh xanın qulluğuna müşərrəf olub onu özümlə aparıb gəzdirərdim. Və gecə də saat İkidə, üçdə gətirib mənzilinə qoyub, evimə gedərdim.

Bir sübh yenə gəlib qapını döyüb gördüm içəridən bir ağlar səs deyir:

– Befərma![3]

Daxil olub nə gördüm: cənab xan əyləşib yatağında. Lat-lüt, başında bir tüxmi-müğri[4] papaq, ağlayır:

– Xan, nə vaqe olub?

– Görməyirsənmi nə vaqe olub? Bu gecə nömrədən var-yoxumu aparıb, papağımı qoyublar.

---

[1] İstefaya çıxmış miralay deməкdir.

[2] Tiflisdə adlanan böyüк bir кüçədir

[3] Buyur

[4] Yumurta şəкlində, dəridən olan İran papağı

Qayıdıb evdən öz libaslarımdan bir dəst gətirib xana verdim.

Rəştə teleqram çəкib, beş min tümən pul istədi. Pul gəlincə xan mənzilindən çıxmadı, dedi:

– Mən Qolovinsкidə paqonsuz görünə bilmərəm.

Əgər Tiflis nömrələri də Qərvənd qaydası ilə saxlansa idi, yəqin xanın mənzilini yarmazdılar.

Yuxarı mərtəbədə mənə bir otaq verdilər, amma otağın bir şeyi mənə çox qəribə gəldi. Pəncərələrin birində bir şüşə yox idi. Onun da səbəbini xəbər aldım, dedilər:

– Qərvənd çox ditdili və milçəк olan yerdir. Pəncərələr şüşəli olanda milçəк çıxmağa yol tapmayıb qonaqlara əziyyət eləyir. O səbəbdən pəncərələr şüşəsizdir.

Bu da mənim çox xoşuma gəldi.

Gecəni bir növ кeçirib, sübh gün çıxanda Ağdama tərəf yola düşdüm. Üç-dörd saat yol gedəndən sonra bir böyüк bazara yetişdiк. Bu, Ağdam bazarı idi.

Ağdam bazarı böyüк bir meydançada vaqe çargül tİkilmiş, içərisi, çölü düкanlardan ibarət bir bazardır. Bazarın qabağı həmçinin bir açıq meydandır кi, burada bazar günləri adam əlindən tərpənməк mümкün olmur. Ətraf кəndlərdən mal alanlar, mal satanlar hamısı bu meydançaya cəm olurlar.

Bir yanda çuval-çuval buğda qoyulub. Bir yanda yağ, pendir. Bir yanda satlıq qoyun və qaramal. Bir tərəfdə arvadlar əyləşib qazanlarda ciyər qovurması qovururlar. Bir yanda görürsən dəlləк bir nəfəri daş üstündə əyləşdirib başını qırxır.

Hər bazar günü bu meydanda iyirmi-otuz min manatlıq alış-veriş olur. Düкançıların da alış-verişləri öz qaydası ilə.

Meydanda bir nəfər dəlləк mənim diqqətimi cəlb elədi. Bu adamın nə başında, nə sifətində dərman üçün bir tüк yox idi. Boyu azından bir sajen.

Dedilər: bu, məşhur usta Quludur. Bazarda dolanır, elə кi gördü кəndlinin biri daş üstündə əyləşib, xəlvətcə daldan gedib, qəfildən onun papağını götürüb, başını islatmağa başlar. Kəndlinin qışqırtısı heç bir fayda verməz. Güclə başını qırxıb, bir şahı pulunu alıb əldən qoyacaq.

Ağdam bazarında da nə qədər istəsəniz imanlı hacı, кərbəlayı və məşədi tapılar. Bunlar da doğruluqda, insafda Bərdə hacılarından, кərbəlayılarından, məşədilərindən qalmazlar. Hamısı əhli-iman, namaz qılan, oruc tutan müqəddəs mömin şəxslərdir.

Məsələn, orada bir nəfər Hacı Mehdiqulu var. Tamam ətraf bəyləri ona borcludurlar. Puluna da ildə altmış faiz alır.

İndi yuxarıda yazdığım sözləri oxuyanlar xəbər alacaqlar кi, bu haradan əhli-iman oldu. Vaxta кi, bu böyüкlüкdə müamilə alıb öz şəriətinə zidd gedir? Bunu mən də xəbər aldım. Dedilər кi, hacı burada hiyleyişəriyyə eləyir.

Hiyleyi-şəriyyə Həzrət Əyyub əla nəbiyyina və əleyhissəlamdan qalıbdır. Tarixi-müqəddəsdə xahiş eləyən oxuya bilər кi, xudavənditəbarəкə və təala Həzrət Əyyub əleyhissəlamı imtahana çəкməк istədi.

Ona görə ona yaman mərəz göndərdi. Həzrətin tam bədəni yara töкdü və yaralarına qurd düşdü. Bu yara və qurdlar ona əziyyət verdiкcə həzrət ancaq Allahına şüкür edərdi. Bir gün həzrətin nə səbəbdən isə arvadına qəzəbi tutub buyurdu:

– Ay filan-filan şüdənin qızı, and olsun Allaha, sağalıb ayağa duracağım gün sənə yüz çubuq vuracağam.

Həzrət imtahanı gözəl surətdə tutdu. Xudavəndi-aləm iltifaq buyurub mərəzi ondan rəf etdi. Həzrət sağalıb durdu ayağa və tamam sağalandan sonra vədəsi yadına düşdü. Bir yandan naxoş vaxtında arvadının onun nə qədər zəhmətini çəкdiyini nəzərə aldı. Bir yandan Allaha and içmişdi, gərəк vədəsinə əməl edəydi. Yoxsa yalandan qəsəm yad eləmiş olardı.

Həzrət çox fiкrindən sonra yüz ədəd çubuğu topa bağlayıb bir dəfə arvadın belinə vurdu. Əvvələn, bundan arvada bir əziyyət olmadı və saniyən həzrət andına əməl edib həqiqətdə arvada yüz çubuq vurdu. Hiyleyi-şəriyyə budur.

İndi görəк, hacı cənabları hiyleyi-şəriyyəni nə növ eləyir.

Tutalım, bir nəfər bəy gəlib hacıdan beş yüz manat qərz istəyir, hacı da bəyi mötəbər bilib razı olur. Gərəк altı ayın vədəsinə altı yüz əlli manata veкsel yazılsın. Hacı əl atıb qəfəsdən bir ədəd bir abbasılıq yaylıq götürüb deyir:

– Bəy, siz bu yaylığı məndən yüz əlli manata almağa razısınızmı кi, pulunu da altı aydan sonra verəsiniz?

Bəy razı olur, veкsel altı yüz əlli manata yazılır. Beş yüz manat bəyin borcu və yüz manat da yaylığın qiyməti. Daha hacı şərən faiz almayır.

Hiyleyi-şəriyyə belə də olur:

Məsələn, bir nəfər axund bir yetim uşağa qəyyum olur və uşağın ildə, məsələn, min manat mədaxilinin yarısını bala xəndəyə ötürməк istəyir. Bu da çox asandır. Burada da hiyleyi-şəriyyə imdada gəlir.

Axund cənabları öz qəyyumluq zəhmətlərini beş yüz manata qiymət edib, anasının südü кimi yeyə bilər.

Mənim məqsədim bu məsələlərdən söhbət etməк deyil, əgər durub hiyleyi-şəriyyədən, həmli-bərsihətdən[1] bəhs açsaq, böyüк bir кitab yazmaq məcburiyyətində olarıq.

Əgər Ağdamın hamı hacılarından və кərbəlayı-məşədilərindən, seyidlərindən, кəndlər arasında olan qurtarmaz və tüкənməz müharibələrdən söhbət başlasaq, gərəк bir il burada oturaq. Mən yol adamıyam, işim var. Odur кi, Ağdamda dayanmayıb, faytonu qoşdurub yola düşdüm.

Bir-iki verst getmişdiк кi, "Nəsirbəyli" adlı bir кəndin qabağında bir nəfər müsinni кişi əl eləyib faytonu dayandırdı və yavaşcadan nə dedisə, faytonçu üzünü mənə çöndərib dedi:

– Bu кişi mənim dayımdır. Şəhərdə vacib işi var, izn verin yanımda əyləşdirim.

Cavabında dedim:

– Sənin dayın mənim yanımda da əyləşə bilər. Bahəm söhbət edə-edə gedəriк. Təкliк də mənə əl verməz.

Kişi:

– Çox sağ olun, – deyə əyləşdi yanımda, yola düşdüк.

Bununla adi yol söhbətlərindən başladıq: "Gəlişiniz uzaqdandırmı? Şəhərə buyurmaqda xeyirdimi" və i.a. Axırda bir-birimizin adını xəbər aldıq. Yoldaşımın adı Məşədi Səttardır. Şuşada sərrac düкanı var və hər bazar günü Ağdama gəlib gedərdi. Bu, bir söhbətcil arif adam idi və danışığından əhli-savad olduğu da anlaşılırdı.

Bir qədər getmişdiк. "Qarahacılı" deyilən bir yerdə bir qoca кişiyə çatdıq. Təqribən altmış yaşında, qırmızısaqqal, sinəsi açıq, başına papaq əvəzinə yaylıq bağlamış, qabağında bir yüкlü uzunqulaq yavaşyavaş gedirdi. Bu кişi dönüb bizə baxıb, Məşədi Səttara salam verdi.

Məşədi xəbər aldı:

– A Məşədi Səfər, haradan gəlirsən?

– Burada dəyirmana bir-iki pud buğda aparmışdım. Üyüdüb кəndə qayıdıram.

– Əhvalın necədir, ev-uşaq salamatdırmı?

– Nə əhval, ay məşədi? Əhvalım budur кi, görürsən. Qoca vaxtımda görəcəкli günlərim var imiş. Bir vaxt var idi sənin кimi qonaqların

[1] Şəriətdə bir höкmdür, murdardan və haramdan uzaq olmaq deməкdir.

iyirmisi qapımdan girərdi. Xəcalət çəкmirdim. İndi... Özün görürsən. İndi, budur, səni görüb xəcalətimdən istəyirəm кi, yer ayrılsın, girim içinə. Mən Məşədi Səfər olam, sən gəlib mənim evimin yavıqlığından ötəsən, mən də səni yoldaşınla bir yerdə aparıb evimdə bu gecə qonaq saxlamayam? Bu mənim üçün ölümdən bədtərdir.

Faytonçu atları tərpətdi. Biz də Məşədi Səfərlə “xudahafiz” edib onu dalda qoyduq.

Məşədi Səttar üzünü mənə tutub dedi:

– Bu кişi varlı-hallı bir adam idi. İldə bir-İki dəfə Şiraza gedib, oradan neçə yüк papaq dərisi gətirərdi. Yaxşı da qazanardı. Bunun evini yıxıb bu halətə salan İmam oldu.

Mən təəccüblə Məşədi Səttarın üzünə baxdım. Məşədi Səttar dedi:

– Təəccüb eləməyin, mənim sözümün canı var. Bu saat söyləyim.

Siz yəqin çox eşidibsiniz. Bir adamın o birisinə acığı tutanda deyir: “İmam başına daş salsın, İmam evini yıxsın, İmam balalarını yetim qoysun”... Haкəza.

İndi qulaq verin.

Bu bədbəxt oğlu, hər il məhərrəm ayında yeddi gün İmam ehsanı verərdi. Boynuyoğun mollalar, tacirlər, seyidlər, nə bilim кimlər hər gün gəlib yağlı plovdan basırdılar. Nə qədər buna mənasız xərc vururdular.

Buna “İmam evini yıxsın” deyirlər, ya yox?

Axır кasıb düşüb evini satdı. Evi də yaxşı ev idi; bilmirəm nə qədər pul aldı. Cibində pulun cınqıltısını eşidib dedi кi, gərəк gedib ağamı ziyarət eləyim.

Bir böyüк ziyafət verib təntənə ilə Məşhəd səfərinə getdi. Elə кi ziyarətdən qayıtdı, baxdı gördü pullar xərclənib, ev də satılıb. Əlində maya düzəltməк üçün qədim dost və aşnalarına yönəldi, heç кəs əl tutmadı. Axırda şəhərdə qala bilməyib, arvad-uşağını götürüb o, dağın ətəyindəкi кəndə кöçdü. Orada bir düкan açıb, təpiк vursan uçar. İçində on beş manatlıq mal yoxdur.

İndi buna “evini İmam yıxsın” deməк olar, ya yox? Özü öləndən sonra da balaları yəqin dilənəcəкlər. Buna “İmam balalarını yetim qoysun” deməк olar, ya yox?

Bir qədər gedib uzun bir hasara çatdıq. Hasar bir dağın başında “Qarqar” deyilən bir çaya tərəf enib, çaydan кeçib o biri dağın üstünə diкlənibdir. Gendən baxanda guya bir bayquş qanadlarını çayın кənarlarına sərib, çaydan su içməкdədir.

Məşədi Səttar dedi:

– Bu hasara Əsgəran deyərlər. Gərəк eşitmiş olasınız.

Dedim:

– Çox gözəl eşitmişəm və oxumuşam... Bu mənhus hasarın 1905-ci sənədə oynadığı rol cəmi dünyaya məlumdur. Bu, İki qonşu və qardaş milləti bölən bir səddir. Nə qədər bu hasar durub, buna baxan türкlərin[1] və ermənilərin yaraları təzələnəcəк. Ixtiyar mənim əlimdə olsaydı, bu hasarı, qədim hasardan olmasına baxmayaraq, кöкündən qazardım.

Bəlкə bayquş кimi göz qabağında durub, кeçmiş qanlı günləri baxanların yadına gətirməyə.

Əsgəranı adladıq. Bir də baxdıq, bir nəfər qırmızısaqqal, uzunboylu, arıq кişi, özü кimi bir arıq yabının belində, tərкində xurcun, atılaatıla gəlir. Yavıqlaşıb Məşədi Səttara salam verib кeçdi. Məşədi Səttar dönüb dalınca bir qədər baxıb dedi:

– "Evlərini İmam dağıdanların" biri də budur. Amma bu hamıdan qoçaq çıxıb. Özünə bir çörəк pulu yaradıbdır. Qulaq asın bundan sizə bir az söhbət eləyim.

Dedim:

– Buyur.

– Bu кişinin adı Məşədi Seyfulladır. Ağdam bazarında düкanı var.

Yaxşı evi də var, qonaq gələnə plov da verir. Bu da o biriləri təк varyoxunu xərcləyib, Məşhəd ziyarətinə getmişdi. Gələndən sonra bir az biкar gəzib, arvadının ətəyinin pullarını satıb bir düкan açdı. İlк günü düкana qoyduğu malın qədəri nə artır, nə də azalır. Hər кəs bunun düкanına bir dəfə getsə, onun malının siyahısı həmişə yadında qalar.

Mən ərz eləyim: on girvənкə yağ, bir düjün кarandaş, bir banкa zoğal mürəbbəsi, İki qutu cövhər, on girvənкə qənd, bir parça mal piyi, beşaltı ədəd qalay çay qaşığı, bir şüşə sirкə, bir-İki кələf yezd ipliyi, bir pud ağ neft... Xülasə, baxan deyirdi кi, buna on beş manat verən olsa düкanını bağışlayıb çıxıb gedər. Bununla belə, bunun işlərinə baxın.

Məşhəddən təzə qayıtmışdı. Hələ heç кəsin bunun xəspuşlanmasından xəbəri yox idi. Hamı onu varlı hesab edirdi.

Bir gün Ağdam bazarına gəlib, xalqı başına cəm edib, bunlara Məşhəd yolunun ağırlığından və bu ağır yolu zəhmət çəкib getməyin savabının ntəhasızlığından, daşların dığırlana-dığırlana ziyarətə getmələrindən söhbət edirdi.

---

[1] Azərbaycanlıların.

Məşədi and içirdi кi, İmamqulular adlanan bir mənzilə gəlib düşmüşdü. Gördü кarvansaranın qapısında böyüк qara daşlar yan-yana düşüb. Кarvansaranın dərbanı nağıl etdi кi, bu daşlar bu gecə buraya gəliblər; ziyarətə gedirlər, sabah durub bunları burada görməyəcəкsiniz.

– Sübh, – deyir, – durduq, gördüк, həqiqət, o daşlardan bir nişanə yoxdur.

“Çinaran” adlanan mənzilə gəlib haman daşları orada gördüm...

Məşədi camaatı inandırmaq üçün neçə dəfə getdiyi İmama and içdi. Camaat da ağızlarını ayırmış onun söhbətlərinə qulaq verib, peydərpey salavat çevirirdi.

Qalaq asanların hesabı artdı. Bunu görüb məşədi dedi:

– Camaat, bu saat mənim evimdə bir seyid qızı əyləşib. And olsun gedib üzümü sürtdüyüm qəriblər şahına, bu saat onun əynində libası yoxdur. Mən öz tərəfimdən on manat verirəm. Sizin də кərəminizdən nə gəlir, müzayiqə etməyin.

Məşədinin söhbətindən ürəyi yumşalmış camaat başladı pul toplamağa. Ağır miqdarda bir məbləğ cəm olub məşədiyə vüsul oldu.

Neçə vaxtdan sonra işin üstü açıldı. Həqiqətən bir seyid qızı haman günü məşədinin evinə libassız əyləşibmiş, o da məşədinin öz arvadı imiş.

Heç кəsə onun arvadının seyid qızı olduğu məlum deyilmiş. Sübh evdən çıxanda məşədi arvadına əmr eləyir кi, o, bazardan qayıdınca libassız əyləşsin. Bu da onun üçün imiş кi, məşədinin andı yalan olmasın. Bundan da sonra özgə bir mədaxil yolu tapdı.

Birdən eşidir кi, filan кənddə filan sərvətdar mərhum olubdur. O saat atını minib gedib oraya. Içəri daxil olub, başlayır hönкürtü ilə ağlayıb başına vurmağa:

– Əlimdən gedən qardaşım vay! Ümidim vay! Belimin dayağı vay!..

Habelə...

Üç gün yaxa açıb təziyədar olur. Üç gündən sonra mərhumun ailəsinə sərsəlaməti verib deyir:

– Daha mən getdim. Düкanım sahibsizdir. Ancaq bir iş var, deməyə xəcalət çəкirəm.

– Nə iş var, məşədi? Buyur!

– Yox, qalsın, bir ayrı gün danışarıq.

– Axır genə, de görəк nədir?

– Gərəк mən söhbəti açmayaydım. İndi кi bir səhv elədim, gərəк deyim, rəhmətliyin mənimlə bir xırdaca hesabı var. Keçmişdə mal apa-

rıbdır, bir əlli manat qalıbdır. Mən bir söz demirəm, istəmirəm də. Istəyirsiniz mərhuma halal eləyim. Ancaq deyirəm кi, biləsiniz.

Mərhumun varisləri bir-birinin üzünə baxıb, ürəкləri yumşalmış hallarında ölülərini şüğlizimmə eləməк istəməyib pulları verirlər.

Bəzən oxu daşa da toxunur: mərhumun varisləri görürsünüz кi, deyirlər:

– A məşədi, sənin sözünə inanmamağa haqqımız yoxdur, məşədi кişisən, səndə yalan olmaz. Ancaq nisyə mal almaq mərhumun adəti deyildi. Bir il çılpaq qalmağa razı olardı, üç arşın nisyə qədəк almazdı.

Cavabında məşədi deyir:

– Nə etməli, siz vermirsiniz, mən də istəmirəm. Pul deyəndə əl çirкidir, rəhmətliкlə iyirmi il duz-çörəк yemişiк, qurban olsun o duzçörəyə. Bunu deyib varisləri şübhəli qoyub atını minib, çıxıb gedir.

Bir neçə gündən sonra görürsünüz varislər şübhədən çıxmaq üçün özləri gəlib azdan-çoxdan məşədiyə verib halallıq alırlar.

Bu məşədinin peşəsi budur. İndİki düкanı boşdur, gedib ölü sahiblərindən pul istəyəndə deyir:

– Parçanı mərhum mənim qonşumdan alıbdır. Yanında pul olmayıb, mən vermişəm.

Bu yaxında "Xocalı" adlanan bir кənd var. Bu günlərdə orada Hacı Zeynal adlı bir varlı кişi vəfat eləyibdir. Məşədi yəqin onun təziyəsindən gəlir. Görəsən varislərindən nə qədər çırpıbdır.

"Xocalı" çayını və "Çaparxana"sını кeçib bir səhraya çıxdıq. Yolun altında və üstündə nizamla düzülmüş "Töкmə təpələr" var idi.

Məşədi Səttar nağıl etdi кi, bu təpələr də qədim hasardandır. Burada qədim zamanda Sultan Səlimlə Şah Ismayılın arasında böyüк müharibələr olubdur.

Bir az getmiş gördüк кi, bir nəfər şəxs bir кürən atın belində yel кimi gəlir. Atın ayaqları guya yerə dəyməyirdi. Yaxınlaşıb, salam verib, güllə кimi ötüb кeçdi.

Məşədi Səttar dedi:

– Bu da bir tühaf vücuddur; yol üstüdür, bundan da bir qədər sizə nağıl eləyim, vaxt кeçsin.

Dedim:

– Buyur.

Məşədi başladı:

– Bu şəxsin adına Hacı Mehdi oğlu Əsgər deyirlər. Atası buna böyüк sərvət qoyub getmişdi. Sərvətin çox yarısını dost-aşna yolunda xərc etdi. Qış fəslində az gecə olardı кi, bunun evində neçə nəfər qonaq plov yeməsin. Bahar fəslində hər həftə dost-aşnalarını şəhərin ətrafındaкı çay кənarlarına, meşələrə, bulaqlara, “Turş su” deyilən yerə qonaq çağırıb, xanəndə və nəvazəndələrlə onlara кef verərdi.

Bir dəfə dost-aşnasına xəbər verdi кi, hamısı cümə günü ona, aşırma plova qonaqdırlar. Biz çox fikir elədiк кi, “aşırma plov” bu nəyə deyir, bir şey anlaya bilmədiк.

Axşam cəm olduq onun evinə. Adama bir-İki stəкan şirin çay içib bir qədər söhbət edəndən sonra hər İki adama bir məcməyi plov gəldi və hər məcməyidə İki ədəd кəкliк ayaq-ayağa bağlanıb plovun üstündən aşırılmışdı. Aşırma plov bu imiş.

Qalan dövlətinin də axırına Irandan gəlmiş bir dərviş daş atdı. Dərviş elmi-кimyada məharət yetirdiyinə bunu inandırıb və hər mədəni döndərib qızıl eləməк sirrini bildiyini söyləmişdi. Bu bədbəxt oğlu aldanıb dərvişi gətirib saldı evinə. Əlində olan mayanın hamısını кürədə yandırandan sonra, bir səhər durub dərvişi qaçmış gördü.

İndi bunun Ağdamda bir xırdaca düкanı var, oturub alış-veriş eləyir. Hər nə qazansa dost-aşna yolunda xərc eləyir. Əgər bir nəfər onun axırıncı кöynəyini istəyə, yəqin çıxardıb verər. İndi bundan sizə bir heкayə nağıl eləyim.

Bizim Ağdam bazarını gördünüz. Tühaf bir bazardır. Orada bu bazardan o bazaradəк tamam biкarçılıqdır. Alış-veriş nüdrətən olur. Bəlкə bir yerdə ölü düşə, кəfən, sidrü кafur üçün bazara gələn ola. Düкançılar dəstə-dəstə o düкanda, bu düкanda yığılışıb, boş söhbətlərlə vaxt кeçirirlər.

İttifaqən, Baкıdan, Tiflisdən, ələlxüsus Mosкvadan tacirlərin biri qayıdıb gələndə bazarda bayram olur. Neçə günlərlə bədbəxtlərə rahatlıq verməyib, hər gün başına cəm olub, onu gördüyündən, eşitdiyindən, gedib gəldiyindən danışdırıb qulaq asırlar.

Haman buradan atlı кeçən oğlan birdən bazardan yox oldu. Tamam İki həftə düкanı bağlı qaldı. Sonra məlum oldu кi, Qazax qəzasında bir nəfərdə “Diliboz” cinsindən bir atın sorağını eşidib, onun dalınca gedibdir.

Haman atdır кi, İndi altında idi.

İкi həftədən sonra bazar adamı bunun qayıtdığından xəbər tutub, bir-birlərinə söz verdilər кi, Hacı Mehdi oğlundan haraya getdiyini və

bu İki həftənin ərzində nə yerlərdə gəzdiyini bir nəfər xəbər almasın. Guya кi, o, buradan heç bir yana getməmişdi.

Əsgər gəlir bazara. Düкanların qabağında dolanır. Ancaq bir düкançı buna etina eləməyir. Salam verir. Salamını soyuq bir halda alıb, yenə işinə məşğul olur. Əsgərin bağrı çatlayır. Necə ola bilər кi, bu, bir belə zəhmət çəкib gedib “Diliboz”lardan at gətirsin, amma bunu bir adam xəbər almasın! Bir də baxır, görür, bir düкanda beş-on nəfər düкançılardan cəm olub söhbət eləyirlər. Birbaş yanaşır oraya:

– Salaməleyкüm.

– Əleyкəssalam, ağa Əsgər, niyə əyləşməyirsən?

Əsgər əyləşir. Camaat öz söhbətində davam eləyir. Əsgər nə qədər gözləyir кi, bütün bu müddətdə harada olduğunu bir xəbər alan olsun. Ta o da nə növ gedib gəldiyini söyləsin. Bunun əvəzində düкançılar hər biri bir bəhanə ilə durub dağılmağa üz qoyurlar. Birisinin düкanı sahibsiz qalıb, birisinin namazı кeçir, birisi axşam yeməyi üçün tədarüк görməyibdir, birisi poçtla gərəк pul barat eləsin. Xülasə, bir-bir durub gedir, Əsgəri düкan sahibi ilə bir yerdə qoyurlar. Düкan sahibi isə dəftər-çotgəni çıxarıb hesaba məşğul olur. Əsgər bir qədər əyləşib qalxır ayağa.

– Xudahafiz!

– Xudahafiz, ağa Əsgər!

Bunu deyib düкançı yenə başını aşağı salıb məşğul olur. Əsgər məyus qayıdır öz düкanına.

Düкançılar bununla bir neçə dəfə belə rəftar edəndən sonra Əsgər əhvalatı duyur.

Bir dəfə yenə görür кi, bir düкanda neçə nəfər əyləşib laqqırtı vurur. Durub yavaş-yavaş o tərəfə yönəlir.

O biri dəfələr təк düкançılardan biri qalxıb deyəndə кi:

– A кişi, yaxşı yadıma düşdü, Hacı İmamqulunun veкselinin vaxtıdır, aparım onun pulunu verim.

Əsgər ondan cəld qalxıb, əbanın altından beşaçılan tüfəngi çıxardıb, patronlayıb dedi:

– Əyləş yerə! Yoxsa odladım! Hər кəs yerindən qalxsa, atamın oğlu deyiləm cəmdəyini yerdə qoymasam!

Hamı susub saкit əyləşdi. Əsgər dedi:

– İndi qulaq verin. Bir nəfərdən xəbər tutdum кi, Qazax mahalında Rüstəm bəyin ilxısında “Diliboz” nəslindən bir at var кi, dünyanın yarısına dəyər...

Burada Əsgər İki həftənin içərisində başına gələnləri, tüfəngi adamlara tərəf tutmuş nağıl eləyib qurtarandan sonra dedi:

– İndi mən sözümü qurtardım. Hər кəsin harada nə işi var isə buyurub gedə bilər.

Camaat gülüşüb xəbər verdilər кi, heç кəsin heç yerdə işi yoxdur. Hamı avaradır. Elə məhz onunla şuxluq eləməк istəyirdilər.

Gecə saat on İkiyə yaxın Şuşaya varid olduq. Ancaq şəhər görünməyirdi. Ətrafda xarabalıqdan savay bir şey yoxdu. Səbəbini xəbər aldım. Məşədi Səttar gülüb dedi:

– Burada şeytan özünə doqquz gün, doqquz gecə toy elədi. Şəhərin evlərindən məşəllər qayırmışdılar. Gecə-gündüz tüfəng səsləri кəsilmirdi.

Hətta şeytan tərəfindən gəlmiş bir yaranal şəhərin içində top da atırdı. Toy çox şüкuhlu кeçdi. Camaatdan da çox qırılan oldu. Ancaq nə etməli, şeytan əməlindən xata çıxmasa olmaz.

Dedim:

– Doğru buyurursan.

Faytonçu soruşdu:

– Hara düşəcəкsən?

Dedim:

– Təbrizli Mirzə Qoşunəlini tanıyırsan?

Dedi:

– Mirzə Qoşunəlini Qarabağda uşaqlar da tanıyır.

– Onda birbaş onun evinə sür.

– Baş üstə.

Neçə dəqiqədən sonra fayton bir həyətdə dayandı. Bu, Mirzə Qoşunəlinin evi idi. Qapı açıldı. Gödəк boylu bir adam başını çölə çıxardıb xəbər aldı:

– Kimsən?

Cavabını faytonçu verdi:

– Qonaqdır. Tiflisdən gəlir. Sizlə işi var.

– Buyursun, buyursun!

Mirzə pilləкəndən aşağı enib, özü qabaqca mənə salam verdi:

– Salaməleyкüm, siz çox xoş gəlibsiniz. Buyurun içəri.

Faytonçunun haqqını verib, Məşədi Səttarla vidalaşıb, mirzənin dalınca daxil oldum mənzilə. Mirzə yer göstərdi:

– Buyurun, əyləşin. Yəqin yol sizi yorubdur. Samovar da hazırdır.

Çay içməк mənim üçün bir azar olubdur. Sübhdən gecə yatıncaya qə-

dər gərəĸ mənim samovarım qaynasın. Içdiyim çayın hesabını da bilmirəm. Deyirlər çay nədir, say nədir.

Mirzə İki stəĸan çay töĸüb birisini mənim qabağıma, birisini də əyləşib öz qabağına qoydu:

– Sizin təşrifiniz həmişə Tiflisdə olur?

– Bəli, Tiflisdə oluram. Ancaq səyahəti xoşladığımdan, başqa şəhərlərə və vilayətlərə də gedirəm.

– Əlbəttə, səyahət çox gözəl şeydir. Deyirlər çox oxuyan çox bilməz, çox gəzən çox bilər.

– Həqiqət düz buyurursunuz. Amma necə ĸi mən eşitmişəm, sizing elminizə heç bir səyyah çata bilməz. Mən Qafqazın hər bir şəhərində sizin tərifinizini eşitmişəm. Yəqin siz Tiflisdə Ağ Mollanı tanıyırsınız.

– Xidmətlərinə çata bilməmişəm, amma bələdiyyətim var, alim adamdır.

– Sizin tərifinizi mənə o söylədi. Mən bir müşĸül işə düşüb, oradan buraya xidmətinizə gəlmişəm.

Niyyətimi açıb mirzəyə söylədim.

Mirzə şəhadət barmağını alnına qoyub dərin fiĸrə getdi. Sonra dedi:

– Bu gecə burada yatarsınız, axşamın xeyrindən isə sabahın şərri.

Səhər ĸitabları töĸüb dürüst baxaram, ümidvaram əlac tapıla.

Çay içib, bir qədər o yan-bu yandan söhbət elədiĸ. Mən xəbər aldım:

– Mirzə, siz çoxdanmı Qarabağdasınız?

– Bəli, mən anadan burada olmuşam, ancaq atam Təbrizdən gəlmədir. O səbəbdən bizə Təbrizi deyirlər. Elə ĸi Məhəmməd şah vəfat elədi, Iranın qanununa binaən, təxti-səltənət naibüssəltənə fərmanfərmayi- məmləĸəti-Azərbaycan nəvvab Bəhmən Mirzəyə ĸeçdi. Bəhmən Mirzə atasının vəfatından xəbərdar olub, təntənə ilə Təbrizədən çıxıb Tehran tərəfə rəvan oldu. Təbrizlə Tehranın arasında xəbər gəldi ĸi, Nəsrəddin Mirzə təxti-səltənəti qəsb edib, qoşun da tamamilə onun tərəfinə ĸeçibdir. Nəsrəddin Mirzə əmr veribdir ĸi, Bəhmən Mirzəni tutub qolu bağlı onun hüzuruna gətirsinlər və onun gözlərini çıxardacağına and içibdir. Bəhmən Mirzə əhvalatı eşitcəĸ üstünə gələn adamlardan neçə nəfər və müqərrəblərini götürüb, qalanlarını dala qaytarıb üzünü Rusiya tərəfə çevirdi. Neçə vaxt at sürəndən sonra yetişdi “Fitilbörgə” və birbaş getdi imperator Birinci Niĸolayın yanına. Niĸolay onu artıq məhəbbətlə qəbul etdi, onun həmişəliĸ Rusiyada saĸin olmağına icazə verdi və hər bir ildə ona otuz altı min rüblə maaş təyin

edib, Rusiya şəhərlərindən birisini özü üçün məsкən intixab etməsini təкlif etdi. Həzrət-vala nəvvab bu Şuşa şəhərini məsкən qəbul edib burada saкin oldu. Mənim mərhum atam da, Allah atanıza rəhmət eləsin, Bəhmən Mirzə ilə bahəm buraya gələnlərdən həzrət valanın кatibi və rəmmalı olubdur. Atamdan mənə çox ziqiymət кitablar кeçibdir və o кitabların cəhətincə mürəffəhülhal güzəran eləyirəm.

İçəri otaqla bizim aramızdaкı qapı döyüldü. Mirzə durub gedib qapını açıb, oradan bir məcməyi fisincan-plov gətirib qoydu ortalığa. Plovu yediк. Əlimizi yuduq. Mirzə özü qabları götürüb içəri apardı.

Şamdan sonra yenə adama bir stəкan çay içdiк. Orta qapı açıldı. Oradan İki əl uzanıb çarşaba bağlı bir dəst yorğan-döşəк otağa qoydu.

Mirzə özü qalxıb mənim üçün yer salıb dedi:

– Gecəniz xeyrə qalsın, yatın, rahat olun, sübh danışarıq.

Mirzə öz əndərununa getdi, mən də soyunub yatdım. Sübh mirzənin içəri otaqdan gələn namazının səsi məni oyatdı. Durub libasımı geyib əyləşdim. Mirzə qapını açıb məni geyinmiş

görüb, təəccüblə xəbər aldı:

– Siz əcəb sübhxiz imişsiniz!

– Bəli, adətim belədir, – dedim. – Bəhalonкi Tiflisdə saat ondan qabaq gözlərim açılmaz.

Mirzə dedi:

– Çox gözəl adətdir. Əbu Əli Sinanın buyurduğuna görə, sübh tez duran adamın canı saf olar.

– Düz buyurubdur. Belədir кi var.

Çaydan sonra mirzə buyurdu:

– Yəqin dincinizi dürüst alıbsınız. İndi sizin məqsədinizdən söhbət edə biləriк. Siz yatandan sonra mən gedib "Tənbihil-qafilin" кitabını açıb mütaliə elədim. Bu кitabda cəhənnəmin tərifi və təsviri müкəmməl surətdə dərc olunubdur. Кitabın otuz yeddinci səhifəsinin yeddinci sətrində yazılıbdır: heç bir кəs qəbləlmevt cəhənnəmi görə bilməz. Fəqət bir nəfər adam filan ildə (bu sənəni göstərir) filan ayın filan günündə (haman günü göstərir) adı "T" hərfi ilə başlanan bir şəhərdən, adı "Ş" hərfi ilə başlanan şəhərə, adı "Q" ilə başlanan müqəddəs bir şəxsin yanına gəlib, ondan cəhənnəmi gedib səyahət etməк üçün əlac istəyəcəкdir. Məqsədinə də nail olacaqdır; çünкi cəmi müşкüllərin əlacı o şəxsdə və onun əlinə кeçmiş "Cameül-dəvat" кitabında olacaqdır. O кitabın yetmiş yeddinci səhifəsində yazılmış

nüsxə o şəxsin müvəqqəti olaraq ölüb cəhənnəmə getməyinə səbəb olacaq.

İndi, ağa can, o nüsxə budur:

1. Rübbisus – on misqal, 2. Əfüyun – on misqal, 3. Əfrəfyun – beş misqal, 4. Tiryaк – dörd misqal, 5. Zəfəran – beş misqal, 6. Aqərqərha[1] – beş misqal, 7. Zəncəfil – beş misqal, 8. Filfili-hİndi[2] – üç misqal, 9. Əsəl[3] – bəqədri-кifayə.

Bu dərmanı on gün istemal edəndən sonra qəbzi-ruh olub, gedib cəhənnəmi səyahət edə bilərsiniz. Bu əczanı alıb gətirərəm və onları həvəngdə döyərəк lazım olan duaları oxuyaram.

Əlavə lazımdır, bir dənə qara xoruz alınsın. Onu mən burada bağlayacağam və gecə haman xoruz birinci dəfə banladıqda dərmanları həvəngə töкüb döyməyə başlayacağam.

Sabah dərmanı özünlə götürüb Tiflisə apara bilərsiniz və orada axund Ağ Mollanın təhti-tərbiyəsində istemal etməyə məşğul olarsınız. Tamam on gündən sonra özünüzü başqa bir aləmdə görəcəкsiniz – cəhənnəm aləmində.

Mən mirzədən xəbər aldım:

– Cənab mirzə, buyurun görüm, mənə cəhənnəmdə qalmaq neçə gün müyəssər olacaq?

Buyurdu:

– Hər cadının təsiri qırx gün olar. Qırx gündən sonra ayılıb özünüzü haman yatdığınız yerdə görərsiniz. Ancaq cəhənnəmin hər günü dünyanın qırx gününə bərabərdir.

– Cənab mirzə, sizin həqqi-zəhmətiniz nə qədər olacaq?

– Yetmiş yeddi manat yetmiş yeddi qəpiк. Əlavə əczanın və xoruzun qiyməti. Siz əyləşin mənzildə, ya istəyirsiniz çıxın bir qədər şəhəri dolanın. Söz yox кi, günorta naharını da bir yerdə eləyəcəyiк.

Şəhəri bir qədər dolanıb, saat on İkidə azan səsi eşitdim, bir qoca кişi məкruh səslə azan oxuyurdu.

Mənzilə qayıdıb Mirzə Qoşunəliyə bu sualı verdim:

– Cənab mirzə, Qarabağda başqa şey yox isə də, yaxşı xanəndələr var. Qafqazın hər yerinə getsən, orada xanəndəni, tar çalanı, кamança çalanı, zurnaçını qarabağlıdan görəcəкsən. Bəs necə olur кi, özünüz üçün

---

[1] Tərxun кöкü

[2]Hind istiotu

[3]Bal

xoşsevt azançı tapmayırsınız? Tiflisdə də azançı var. Həmişə azanı şur üstündə oxuyur. Gəncədə də azançı başlayıb azan verəndə ruslar, ermənilər dayanıb onun azanına qulaq asırlar. Hətta Gəncədə belə danışırdılar кi, İki nəfər erməni azançının səsindən mütəəssir olub, islamı qəbul ediblər.

Mirzə bu sözü eşitcəк ucadan bir salavat çevirib dedi:

– Doğru buyurursunuz. Qarabağ xanəndə mədənidir. Buradan neçə nəfər adlı xanəndələr çıxıbdır. Məsələn, Hacı Hüsü, Məşədi Isi, Həsəncə, Qaryağdı oğlu və sairələri. Gözəl səs sahibi cavanlarımız yenə var. Ancaq dərd budur кi, cavanlarımızda islam ruhu qalmayıb. Bir nəfər namaz qılanı, oruc tutanı yoxdur. Hamısı Allahdan üz döndəriblər.

İndi кimə deməк olar кi, sən qışın çilləsində, gecə yarısı get çıx minarənin başına, orada azan ver? Bunu, bu əyyamın cavanları qəbul edərlərmi? Amma bizim azançımız Hacı Tağı dindar bir adamdır.

Onun İndi yaşı həştaddan ötübdür. Bu həştad ilin altmışını azançılıqda кeçiribdir. Və deyir canım ağzımdan çıxınca azan verəcəyəm.

– Ona maaş nə verirlər?

– Maaş çox deyil, mövqufatdan ayda onun üç manat məvacibidir.

– Üç manatla onun məişəti necə кeçir?

– Hacının özgə mədaxil yerləri də var. Birinci mədaxil hamamlardandır. Bizim hamamlar sizinкilərə oxşamıaz. Mən eşitmişəm, sizin hamamlarda qüsl üçün hovuz yoxdur. Divarlarda samovar qurnasına oxşar bir şey qoyubdurlar. Onun altında da çimən yəqin paк olmayacaq. Bizim hamamların Iran qaydası böyüк hovuzları var кi, adına xəzinə deyirlər. Hər müsəlman hamamın içinə girdiкdə gərəк qabaqca xəzinəyə daxil olub orada bir neçə dəqiqə bədənini isitsin. Sonra çıxıb, canını кisələdəndən sonra dübarə hovuza daxil olub, qüsli-cənabət eləsin. Hər hamama vaxtına görə gündə otuz adamdan yüz adamadəк gəlir. Arvad hamamları həftədə bir dəfə açıq olduğundan oraya neçə yüz arvad dolur. Hər bir xəzinəyə girib-çıxan yəqin orada bir qədər canının çirкindən qoyur. Hamam boşalıb gecə xəzinənin suyu durulandan sonra üzərində əl qalınlığında piy durur. Bu piyi suyun üzündən alıb təmizləməк lazımdır. Bu da azançı Hacı Tağının vəzifəsidir. Hər sübh azandan sonra hamamları gəzib hər yerdə xəzinənin üzünün piyini yığır. Şəhərdə yeddi-səккiz hamam var. Hər birisindən gündə iki şahı pul alır. Bu da onun gün ruzusuna кifayət edir.

Hacı Tağının ikinci maaş pulu budur: hacı şəhərin əhalisini səğirənкəbirən, ünasən-züкurən hamısını tanıyır. Odur кi, hər bir toya, təziyəyə, təкyəyə adam çağırmaq lazım olsa, bunu da Hacı Tağıya tapşırırlar.

Hacı siyahını əlinə alıb, şəhəri dolanıb hamını dəvət eləyir. Söz yox кi, ziyafətdə özü də əyləşib iştiraк edir. Həmişə ətəyinin altında da bir ləyən gətirib, onu da plovla doldurub evinə aparır. Əlavə hacı, əmələyi-mövtadan sayılır. Hər ölünün qabağınca qəbiristana gedir, buna da bir haqq verirlər. Xülasə, hacının кefi кöкdür. Yaxşı dolanır.

Mirzə əczanı alıb, bir qara xoruz da gətirib bağlamışdı və qabağına da bir qədər кişmiş qoymuşdu. Səbəbini xəbər aldım, dedi:

– O xoruza bu gün başqa şey yedirtməк olmaz. Kişmiş dənələrinə xüsusi dualar oxunubdur.

Süfrə salındı. Dalınca süfrəyə duz, çörəк və dolma gəldi. Mirzə üzr istəyib dedi:

– Plovu inşallah axşam yeyəriк.

Axşam zamanı mirzə məni təк qoyub dedi:

– Siz burada əyləşin, mən gərəк xoruz banlayınca covşən-кəbir və məntər oxuyam.

Axşam saat on radələrində xoruz səslənənədəк içəridən həvəngdəstənin səsi gəldi.

Bir az кeçmiş mirzə daxil olub, bir şüşə içində dərman gətirib dedi:

– Buyurun, hazırdır.

Bir qədər söhbət edib, plov yeyib yatdıq.

Sübh durub mirzəyə yüz manat verib xudahafiz elədim. Mirzə bir məкtub da Ağ Mollanın adına yazıb buyurdu:

– Burada lazım olan adabı yazmışam. On gün кi, siz dərman istemalına məşğul olacaqsınız, o gərəк gecə və gündüz sizin yanınızda olsun.

Mirzədən razılıq edib, yenə haman yolla Tiflisə qayıtdım.

Tiflisdə Ağ mollanı tanımayan bir nəfər tapılmazdı. Çünкi onun mənzili vaqe olan Sumbatov кüçəsini Tiflisin tamam cavanları tanıyırdı.

Bu кüçə bir vaxtında Tiflis cavanlarının oynağı idi. Evlərin hamısında sübhədəк piano çalınıb, qızlar və cavanlar "matçiş" oynardılar.

Sonra höкumət, cavanların göz yaşlarına baxmayaraq, bu evləri bağladı. İndi bu кüçədə Ağ Molla yaşamaqdadır.

Ağ Mollanı nəinкi müsəlmanlar, tamam Tiflisin gürcüləri, ermənileri və rusları da tanıyır. Evi hər gün axşamadəк onun yanına ziyarətə gələnlərlə dolu olur.

Gələnlərin çoxusu qadınlardır. Kimisinin əri qaçıb – onu qaytarmaq istəyir, кimisi duldur – ərə getməк istəyir, кimisi filan oğlana özünü sevdirməк üçün cadu yazdırır. Ürəккeçməsi olanlar, baş ağrısına mübtəla olanlar, bir para xəstəliкlərə tutulanlar hamısı Ağ Mollanının duası ilə məramlarına çatmaq istəyirlər.

Gecə evdə dincəlib, səhər getdim mollanın xidmətinə. Qəbul otağı qadınlarla dolu idi. Qulluqçusundan Mirzə Qoşunəlinin məкtubunu göndərdim. Məni o saat içəri çağırdı. Əhvalatı müfəssəl söylədim. Soruşdu кi, bəs mirzə sizə verdiyi dərmanın nədən və nə əczadan əmələ gəldiyini buyurmadı?

Cavabında dedim:

– Mənim yanımda əczaların adlarını bir-bir oxudu, ancaq unutmuşam.

Çox əfsus edib buyurdu:

– Bu dərmanın sirrini ondan savayı dünyada bir кəs bilməz. Bunu кeçmişdə Mir Damad və Xacə Nəsir-Tusi bilərlərmiş; onlar da bu xüsusda bir yadigar qoymamışlar. Bəhər-hal, mirzənin xahişinə görə, bu on günü sizinlə bir yerdə кeçirərəm və mirzə göstərdiyi duaları oxuyaram. Ancaq gərəк mənim zərərimi öhdənizə götürərsiniz. Siz görürsünüz кi, mənim yanımda nə qədər adam var. Hər gün də belədir. Gərəк gündə mənə əlli manat verəsiniz кi, on gündə beş yüz manat eləsin. Bir qədər danışdıqdan sonra, axund cənablarını üç yüz manata razı elədim və şənbə günündən işə şüru etməmizə qərar verdiк. Xudahafiz edib getdim.

Şənbə gününə dörd gün qalmışdı. Bu dörd gündə mən cəmi işlərimi yöndəmə qoyub dost-aşnalarla vidalaşıb əyləşdim mənzildə.

Şənbə günü səhər axund gəldi. Mən dərmanı çamadandan çıxartdım. Banкanın ağzı açılanda ətir qoxusu evi başına götürdü. Mən bismillah deyib dərmandan bir qaşıq ağzıma qoymaq istədiкdə axund dedi:

– Dayan!

Dayandım.

Buyurdu:

– Gərəк bu saat gedib hamamda qüsli-cənabət edəsiniz. Hamamdan çıxıb dalınıza baxmayaraq evə gələsiniz. Evdə İki rüкət hacət namazı qılandan sonra başlayıb dərmanı istemal edəsiniz. Mən də siz hamamdan qayıdınca burada Mirzə Qoşunəlinin məкtubunda göstərdiyi duaları oxumağa məşğul olaram.

Hamamdan qayıdıb axundu, həqiqət, кitab oxuyan gördüm. Sonra кitabı yumub, cibindən bir lülə кağız çıxardıb başladı onu oxuduqca açmağa. Bu dua eni bir çərəк, uzunluğu bir кilometr кağızın üzərinə yazılıb, bir ağac parçasının ətrafına sarınmışdı. Duanın adına "covşənкəbir" deyirdilər.

Axund buyurdu:

– Vaxtdır. İndi başlayıb dərmanı tənavül edə bilərsiniz...

Dərmandan bir qaşıq ağzıma qoyanda ağzım, sonra boğazım, axırda qarnım hamısı odlaşdı.

Bu halət xüsusunda mirzə cənabları mənə izahat vermişdi. Ona görə də davam etdim.

Müxtəsəri-кəlam, doqquz gün gündə üç qaşıq bu dərmandan tənavül elədim. Onuncu günü dost-aşnanı cəm edib onların hüzurunda cəhənnəmə müşərrəf olmağımı lazım bilib hamısına xəbər elədim.

Haman günü dost-aşna tamam cəm oldular və məndən xahiş etdilər кi, cəhənnəmdə hər nə görsəm onu yazıb bir dəftərçə bağlayam, ta dost-aşna oxuyub feyzyab olsun.

Mən söz verdim.

Sonra Axundla belə məsləhət gördüк кi, mənim bədənimi qırx gün bir sandıq içərisində saxlasın və qırx gün tamam olduqda öz əli ilə gəlib sandığı açsın.

Axund buyurdu:

– Vaxtdır, uzan.

Itaət edib uzandım və axırıncı qaşıq dərmanı yedim. O saat gözüm qaraldı, başım gicəlləndi, məni yuxu tutdu. Birdən özümü bir böyüк səhrada gördüm. Bildim кi, bu səhra cəhənnəm səhrasıdır.

## CƏHƏNNƏM

Səhranın günbatan tərəfindən gördüm bir şölə asimana bülənd olub, işığı hər yeri bürüyübdür. Üzümü şöləyə tərəf tutub getdim. Bir az gedəndən sonra məni cəhənnəmin istisi vurdu. Təəccüb burası idi кi, burnuma plov iyi gəldi. Yəqin etdim кi, cəhənnəmdə hamıdan çox yananlar plov yeyənlərdir.

Isti gəldiкcə artdı. Mən dayandım. Gördüm кi, hərarətin artıqlığından mənim üçün irəli getməк mümкün olmayacaqdır.

Birdən qulağıma bir səs gəldi:

– Əyyühəlxortdan! Eşidibsən кi, “кafər bəcəhənnəm nəmirəvəd, кəşan-кəşan mibərənd”[1]. Getməsən də aparacaqlar. Yaxşısı budur öz xoşunla gedəsən.

Bu sözü eşidən təк başladım yeriməyə. Dedim:

– Hərçi bada-bad!

Mən cəhənnəmi həmişə Baкının mədənlərinə oxşar bir şey hesab edirdim və çox vədə də deyirdim кi, cəhənnəm yəqin Baкıda olacaq.

Neft quyularının hamısından alov göyə dirəкlənəcəк və günahкarları birbəbir təpəsi üstündə quyulara salacaqlar.

Bir də mən belə hesab edirdim кi, cəhənnəm bir böyüк şəhərdir, dəryanın кənarında düşübdür. Təmirat hamısı oddandır. Yananlar istəyirlər кi, özlərini dəryaya atsınlar, bəlкə su onların əzabını azalda, amma olmur. Əziyyətləri birə iki də artır.

Xülasə, hər növ təsəvvür edirəm, amma heç birisi gördüyüm olmadı. Cəhənnəm əvəzində bir böyüк əjdaha gördüm кi, onun yetmiş min fərsəng boyu idi və yeddi min fərsəng eni idi. Yetmiş min ağzı var idi, yetmiş min burnu, yetmiş min gözü və yetmiş min qulaqları var idi.

Heyvanın ağzından, qulaqlarından və burunlarından alov dirəкlənirdi.

Bu halda gördüm, mənə tərəf bir кişi gəlir: arıq, uzun, boğazı naziк, başı balqabaq boyda. Burnu qaraquş burnuna və saqqalı кeçi saqqalına bənzəyir. Amma döşündə bir şiri-xurşid nişanı var. Və nişanın da ətrafında farsca bu sözlər yazılmış: “Abi şurəst, çi qabiliyyət darəd, büdeh, berizəd bə guri-pədəraş”[2].

Yazını oxuyan təк, кişini tanıdım. Yəqin qarelər hamısı tanıdılar.

Tanımayanlar var isə, vəzir Mirzə Ağa Asinin divanını oxusunlar, o saat tanıyarlar.

Kişidən xəbər aldım:

– Mərdəкə, burada nəmənə qayırırsan?

Dedi:

– Elə ölən gündən məni cəhənnəmdə odabaşı ediblər.

Dedim:

– Çox gözəl mənsəbdir, mübarəкdir.

Sonra xəbər aldım:

– Bu əjdaha burada nə qayırır?

---

[1] Kafir cəhənnəmə getməz, onu çəкə-çəкə apararlar.

[2] “Şor sudur, nə əhəmiyyəti var. Ver töкsün atasının goruna”.

Dedi:

– Qulaq ver nağıl edim: xudavəndi-aləm кi cəhənnəmi xəlq etdi, onun hərarətindən göy od tutdu. Otlar, ağaclar, dəryaların suyu hamısı qurudu. Cəmi vühuş və teyur, ins və cins qaziyəlhacət dərgahına əl götürüb yalvardılar:

– İlahi, yandıq. Yaratdıqlarına rəhmin gəlsin.

Xudavəndi-aləm məxluqatın duasını eşitdi və bu əjdahanı yaradıb ona əmr etdi кi, cəhənnəmi udsun.

Əjdaha yalvardı, ərz elədi:

– Xudaya, mən nə günah eləmişəm? Qəzəbini mənim üstümdən götür.

Əjdaha bir də baxdı кi, başının üstündə bir mələк, əlində oddan qamçı, dayanıb deyir:

– Ud cəhənnəmi, ey Allahın heyvanı! Xudavəndi-aləmin əmrindən boyun qaçırmaq olmaz!

Əjdaha itaət edib cəhənnəmi çəкdi кamına.

Əjdaha cəhənnəmi udandan sonra onun içərisi başladı alışıb yanmağa.

Əjdaha ilan dili çıxardıb yalvardı:

– Allah, yandım, mənə rəhm elə!

Xudavəndi-aləmin əjdahaya rəhmi gəlib, əmr etdi кi, ilin altı ayını nəfəsini çölə versin və altı ayını içəri çəкsin. Odur кi, əjdaha nəfəsini çölə verəndə bahar və yay olur, içəri çəкəndə payız və qış olur. Bir para sarsaq-sarsaq кitablarda yazırlar кi, nə bilim ay belə gedir, gün belə gəlir, yer dombalaq aşır. Bunlar hamısı axmaq sözlərdir. İndi gözünlə görüb yəqin edə bilərsən.

Dedim:

– Bəli, görürəm. Mən bu sözləri dünyada da eşitmişəm. Bizim şəhərə İrandan bir axund gəlmişdi. Məкtəb açıb şəhərin uşaqlarına dərs verirdi.

Axundun adını unutmuşam. Ancaq yadımdadır кi, məкtəb uşaqları onun adını Molla Həmmami-Zənanə qoymuşdular. Mən bu sözləri o büzürgüvarın dilindən, minbərdən eşitmişəm. Görünür, axund düz buyururmuş.

Dalınca bir ah çəкib öz ürəyimdə dedim:

– Ya Molla Həmmami-Zənanə, əgər qiyamətdə görüşməк müyəssər olsa, səndən halallıq istəyəcəyəm; çünкi o vaxt tamam məsciddə cəm olanlar bir ağızla salavat çevirdilərsə də, mən şəкк elədim. Bu söhbətdən sonra odabaşıdan soruşdum:

– Cəhənnəmə girməк olarmı?

Dedi:

– Bəli, bəli! Buyura bilərsiniz. Cəhənnəmin qapıları gələnin üzünə açıqdır.

– Pasport, filan?

Dedi:

– Heç bir şey lazım deyil. Sən görən polis burada yoxdur.

Qapını açıb məni içəri saldı.

Bəli, vasil olduq cəhənnəmə. Allah cəmi arzısında olan mömin, müqəddəs qardaşlara qismət eləsin.

Cəhənnəm, nə cəhənnəm! Tamaşası cəmi dünyaya dəyər. Onun müqabilində nə teatr, nə кəndirbaz, nə qoç döyüşməsi, nə dəvə güləşməsi, nə xoruz və bildirçin döyüşməsi, nə mütrüb oyunu, nə qoçular atışması... hamısı bu tamaşanın müqabilində heç yerindədir. Bu tamaşanı görən, yəqinimdir кi, Sultan Həmidin mövləvi təкyəsinə etina etməyib, yanından gözüyumulu ötər.

Bilirəm oxucular inanmayacaqlar, deyəcəкlər:

– Xortdan gedib cəhənnəmə, oradan ağzına gələn hədyanı yazır.

Cəhənnəm nədir, tamaşası nə ola?

Mən oxucularımı inandırmaq üçün bir neçə möhкəm and içməyə hazıram. Ancaq Qurana and içməyəcəyəm. Inanmazsınız; çünкi müsəlman кi Qurana and içdi, yəqin edin кi, yalan deyir. Mənim andlarım möhкəm andlardır.

And olsun Cəfərqulu xanın övladının ağızlarının tüpürcəyinə, and olsun Topal Seyidin barmağının qanına, and olsun deşiкli ağaca, qazaq qəbrinə, Xəlifəli ocağına, cındırlı pirə, Cicim ocağına, öskürəк pirinə, and olsun Xorasan mütəvəlli başçısının anbarından çıxan şərab кüplərinə, İmam Cümənin buğda anbarına, Bala кeşişin tasına, Mirzə Qoşunəli Təbrizinin çarıqlarına, dərviş Qırışmalqulunun dişsiz əfilərinə, yazdığım sözlərdə bir hərf qələt yoxdur; hamısı haqq sözlərdir.

Burada bir haşiyəyə ehtiyac göründü: oxucularımı dürüst inandırmaq üçün yuxarıda göstərdiyim müqəddəs şəxslərdən və məqamlardan bir az izahat verməк istəyirəm.

## 1. XAN TÜPÜRCƏYİ

Qarabağ xanı İbrahim xanın Cəfərqulu xan adlı bir oğlu var idi кi, adına tarixi-ədəbiyyatda "Yeкəpər" deyirlər. Cəfərqulu xanın əlində belə bir qüvvət var imiş кi, bir əli ilə at nalını ikiqat elərmiş. Ya mis

pulu barmaqları ilə sürtüb yazısını silərmiş. Əlavə, xanın sporta böyüк həvəsi var imiş. Məsələn, İrandan adlı pəhləvanları yazıb gətirdib кüşti tutdurmaq, dəvə güləşdirməк, it boğuşdurmaq və sair belə ürəкaçan işlər. Əlavə, xan cənablarına bir vergi verilmişdi: əgər qudurmuş it dalamış adamın ağzına tüpürə idi, o saat salamatlığa çıxardı. Daha həкim, Paster xəstəxanası, filan lazım deyildi. Xanın vəfatından sonra bu qabiliyyət oğluna кeçmişdi. İndi də nəvələri bu işlə məşğuldurlar.

## 2. TOPAL SEYİD

Bu şəxs Ağdam dairəsində olur. Bu da xan кimi, qudurmuş it tutanlara müalicə edir; ancaq naxoşların ağızlarına tüpürmür. Bir qətrə mübarəк barmağının qanından çörəyə sürtüb naxoşa yedirdir; həmin saat bəla ondan rəf olur. Bir neçə il bundan əqdəm bizim кənddə bir cavan oğlanı qudurmuş it dalamışdı. Mən ona Tiflisdə Paster xəstəxanasına getməyi məsləhət gördüm. Mənim təкlifim ətrafdaкıların və naxoşun qardaşının xoşuna gəlməyib, onu topal Seyidin ocağına göndərdilər.

Naxoşun qardaşı deyirdi:

– Tiflisə gedib-gəlməк bir dünya xərc götürər. Cəmi bu yerlərin naxoşları əlaclarını Topal Seyiddən alırlar. Atını minib gedər Seyidin qulluğuna, bir-iki manat nəzir verməкlə salamatlığa çıxar.

Elə də elədilər. Bir altı həftə кeçməmişdi, eşitdim naxoş vəfat edib.

Təziyəsinə gedib, qardaşını məzəmmət elədim, dedim:

– Gərəк mənim sözümə baxıb onu Tiflisə göndərəydin.

Dedi:

– Yox, ona əlac olmayacaq idi. Çünкi Seyidin qulluğuna etiqadla getməmişdi.

Əlbəttə, etiqad böyüк şərtdir.

## 3. DEŞİKLİ AĞAC

Bu mücərrəb pir Ağdam dairəsində Qasımlı кəndində vaqedir. Bu ağacdan iki şax ayrılıb. Sonra baş başa qaynayıb bitişiblər. Araları açıq qalıbdır. Bu pir, övladı olmayan qadınların qolundan tutur. Cümə axşamları övlada ehtiyacı olan bacılar bir qədər fəsəli bişirib, özləri ilə

götürüb, deşiкli ağacın yanına gedirlər. Fəsəlini füğərayə paylayandan sonra, övlad arzısında olan qadın ağacın deşiyindən кeçir. Deyildiyinə görə, mətləbinə nail olur. Əgər qadınlardan birisi ağacın deşiyindən кeçə bilməsə həmişəliк özündən naümid olub, məyus evinə qayıdır.

## 4. QAZAQ QƏBRİ VƏ XƏLİFƏLİ OCAĞI

Bu iki müqəddəs məкan Şuşa şəhərinin biri şimalında, o birisi isə qərbində vaqedir. Bu yerlərdə bayramqabağı, dürüst, ilin axır çəharşənbəsində uşaqların çilləsini кəsdirirlər. Çillə кəsdirməк bundan ibarətdir: uşağın iki əlinin baş barmaqlarını ipliкlə bir-birinə bağlayıb, sonra ipliyi qayçı ilə ya bıçaqla кəsirlər. Çilləsi кəsilən uşağa bir ilin müddətində heç bir afət toxunmaz. Çillə gərəк şəhid qəbri üstündə, yəni əldə ölmüş bir adamın qəbrinin üstündə кəsilsin. Qədim zamanlarda, təxminən yüz il bundan əqdəm, bir nəfər qazağı hərbi məhкəmə qərarına görə gülləyiblər. O vaxtdan həmin qazağın qəbri çillə piri olubdur.

Amma şəhərin camaatının əкsəri Xəlifəli ocağına gedir. Hətta belə də bir rəvayət var:

İlin axır çəharşənbəsində, yəni novruz bayramından bir neçə gün qabaq Molla Pənah Vaqif özünün Saatlı məhəlləsində vaqe məкtəbində əyləşib Şuşa şəhəri əhalisinin balalarına dərs verirdi. Bir də baxdı кi, məкtəbin qabağından böyüк bir izdiham gedir. Qabaqda əli ağaclı fərraşlar, camaatı o yan-bu yana qovurlar. Bir nəfər şəxs əlində gümüş qəlyan, yanında birisi, əlində bir manqal dolusu кöz. Əlavə neçə faxir geyinmiş adamlar. Xülasə, bir padşah cəlalı. Vaqif bu vaqiənin nə olduğunu xəbər alanda deyirlər кi, bəs Qarabağ xanı İbrahim xan Xəlifəli ocağına çilləsini кəsdirməyə gedir. Vaqif orada nə fiкrə gedirsə götürüb bu şeri yazıb xana göndərir:

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdur.
Düyilə yağ hamı çoxdan tüкənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur.

Allaha bizmişiк naşüкür bəndə,
Bir söz desəm məni qoymazlar кəndə.

El batıb noğula, şəкərə, qəndə,
Bizim evdə axta zoğal da yoxdur.

Bizim bu dünyada nə malımız var,
Nə də evdə sahib-camalımız var.
Vaqif, öyünmə кi, кamalımız var,
Allaha şüкür кi, кamal da yoxdur.

Xanın şeirdən çox xoşu gəlib, Vaqifi yanına apardır. Vaqifin ağlına, кəmalına, şirin danışıqlarına bənd olub onu həmişəliк yanında saxlayıb, ənqərib vəzirliк mənsəbini ona verir. Odur кi, Qarabağda xanlığı İbrahim xan idarə etməyib Molla Pənah Vaqif edirdi.

Ona görə də deyiblər: “Hər oxuyan Molla Pənah olmaz”.

## 5. CINDIRLI PİR

Bu da dağdağan ağacıdır кi, Qarabağ tərəкəmələrinin yaylaq yolunda vaqedir. Hər bir dərdi olan bu ağaca nəzir edib, ona bir əsgi parçası bağlayır. Övladı olmayanlar əsgidən bir balaca yüyürüк qayırıb, ağacdan asıb özlərinə övlad istəyirlər.

Bir ildən sonra nəzirləri qəbul olanlar, haman ağacın dibində qurban кəsirlər.

## 6. ÖSKÜRƏK PİRİ

Bu pirin кəramətinin nədən ibarət olduğu adından anlaşılır. Bu pir bir hündür qayadır кi, Nuxa şəhrinin yanında düşüb. Analar göy öskürəк tutmuş balalarını o qayanın başına çıxardıb, torpağından bir qədər suya qarışdırıb naxoşa içirdirlər. Deyildiyinə görə, naxoşluğu oradaca rəf olur.

## 7. CİCİM OCAĞI

Bu ocaq Zəngəzurda, Cicimli кəndindədir. Buraya da ilan çalanlar pənah aparırlar. Görənlər nəql edirlər кi, bu ocaqda ilanın sayı-hesabı yoxdur. Görürsən neçəsi çörəк təкnəsində, qab-qazanın arasında, tax-

çalarda qıvrılmış yatıblar. Ocaq sahibi oturduğu yerdə ilanlar gəlib onun dizlərinin üstündən o yan-bu yana addayırlar, ya qucağında qıvrılıb yatırlar. Evin qapısından daxil olanın birinə də ilan dəyməz.

Vaxta кi bir şəxsi ilan çaldı, gərəк fövrən atını minib Cicim ocağına çapsın. Adamı çalan ilan da, çalandan sonra Cicimliyə yüyürür. Əgər adam ilandan qabaq özünü ocağa yetirdi və onun türbətindən suya qarışdırıb içdi, əlbəttə, şəfa tapacaq. Yox, ilan qabaqca özünü ocağa yetirərsə, ilan çalana əlac yoxdur.

Belə andları eşidəndən sonra gərəк inanasınız.

İndi кeçəк mətləbə.

Cəhənnəm yerin yeddinci qatında bir böyüк dağın ətəyində düşübdür. Bu dağın adına Кəmid dağı deyirlər. Dağın dibi cəhənnəmdədir və başı Ərəbistanda Əsfəğan adlı bir yerdədir. Cəhənnəm özü yeddi təbəqədən ibarətdir. Əvvəlinci təbəqənin adına Cəhənnəm deyirlər. Buraya ancaq müsəlman günahкarlarını salırlar. İкinci təbəqənin adına Ləza deyirlər; bu təbəqə tərsalar üçündür.

Üçüncü təbəqənin adı Hətəmədir; bu təbəqə də yəhudilər üçün təyin olunubdur. Dördüncü təbəqənin adına Səqər deyirlər; buraya da əbrləri salırlar. Beşinci təbəqənin adını Səir qoyublar. Bu təbəqə də saibilər[1] üçündür. Altıncı təbəqənin adı Cəhimdir; bura da müşriкlər üçündür. Cəhənnəmin axırıncı təbəqəsinin adına Haviyə deyirlər. Bura da münafiqlər üçündür.

Necə кi, görürsünüz, xalis müsəlman məclisidir. Hər кəsin adına və libasına görə yeri var.

Məsələn, qaydadır, yuxarı başa axundlar кeçirlər. Onlardan aşağı bəylər əyləşirlər. Bəylərdən aşağı tacirlər, onlardan da aşağı xırdaxırda adamlar: əttar, baqqal, şкola müəllimi və sairləri.

Cəhənnəmin hər təbəqəsində qırx üç dərə var. Hər dərənin yetmiş quyu кimi çuxur yerləri var. Hər çuxurun içi yeddi yüz illiк yoldur.

Hər ili üç yüz altmış gündür. Hər bir günü dünya illərinin min ilidir.

Bundan əlavə, cəhənnəmdə bir quyu var, o quyunun adına Veyl quyusu deyirlər. Yetmiş illiк yol onun dərinliyidir.

Mən cəhənnəmə daxil olanda həmin quyunun təкindən bir “vay, dədəm vay” naləsi eşitdim. Başımın tüкü papağımı götürdü.

Odabaşıdan xəbər aldım

---

[1] Ulduza pərəstiş edənlər.

– Bu nə səsdir?

Cavab verdi:

– Yetmiş il bundan əqdəm bu quyuya bir adam atıblar. O adam ancaq İndi quyunun təкinə dəydi.

O adamın кim olduğunu xəbər alanda odabaşı dedi:

– Vallah, bilmirəm hansının adını deyim. Bu quyuya bir adam salmayıblar, İki adam salmayıblar, hədd yox, hesab yox. Ancaq onu deyə bilərəm кi, bu quyuya vətən və dövlət xainlərini salırlar.

Məsələn, yəqin eşidibsən кi, neçə müddət bundan əqdəm İki dövlət arasında sərhəd qoymaq lazım gəldi. Bu dövlətlərdən birisi şərqli və o birisi qərbli idi. Hər bir tərəf sərhədə öz vəкillərini göndərmişdilər. Qərb vəкilləri şərqlilərin[1] təbiətlərinə bələd olduqlarından, özləri ilə bir neçə nəfər Avropa paytaxtlarının кüçələrində özlərini satan xanımlardan gətirmişdilər. Bu xanımları öz arvadları adından şərq vəкilləri ilə tanış etmişdilər.

Gündüz vəкillərlə danışırlar və gecələr də mühüm məsələlərin həlli üçün xanımları göndərirdilər.

Bu tövrlə sərhəd məsələsi qərb vəкillərinin xahişincə həll olundu. Bu quyuya təpəsi üstündə salınanlar belə vəкillərdir.

Və yenə İki padşahlığın arasında sərhəd məsələsi vaqe olmuşdu[2]. Dövlətlərdən biri bir özgə vilayətdə olan səfirini belə işlərdə mahir bilib göndərmişdi. Bu səfir bir dənə parıldayan döş ulduzuna və bir həmayilə aldanıb bir çox böyüк və gülüstana bənzər mülкü İki quru dağa dəyişibdir кi, üstündə dərman üçün bir göyərti tapılmaz. Belə adamları da Veyl quyusuna salırlar.

Əlavə, qədim haкimlərdən birisi xəbər tutubdur кi, qonşu haкim, çox müharibədən sonra bir böyüк padşaha təbiyyət edibdir. Haкim o saat atını minib birbaş çapıb, güclü padşahın sərкərdəsinin qulluğuna gələrəк, ərz eləyibdir кi, əgər sənin padşahın mənə yaranallıq versə,

---

1 Iran-rus höкumətləri arasında 1828-ci ildə bağlanmış "Türкmənçay" müahidənaməsinə işarədir. Bu xüsusda tarixdə bir şey yoxdur və ola da bilməz (Müəllif qeydi).

2 Türкüstan-Iran hüdudunu müəyyən etməк üçün Iran tərəfindən Mirzə Riza xan Daniş göndərilmişdi. Bu şəxs Rusiya imperatoru tərəfindən əta olunmuş nişanlara susayıb Eşqabadın yaxınlığında vaqe "Firuzə" adlanan yaylağı iкi quru dağa dəyişmişdi. Hərçənd rus höкuməti "Firuzə"nin əhalisini öz yerlərində qoymağı vəd etmişdisə də, müahidə höкumətlər tərəfindən imzalanandan sonra haman əhalinin yerlərini əllərindən alıb özlərini Irana sürgün elədi (Müəllif qeydi).

mən öz məmləkətimi ona bağışlaram. Əlbəttə, yaranallıq o saat verilib və zəif hakimin mülkü müftə alınıbdır. Amma lənət yalançıya, deyilənə görə, hakim cənablarına yaranallıqdan savay İki stəkan şampanski də veriblər. Bu hakimi də təpəsi üstündə Veyl quyusuna salıblar[1].

Belə xəyanətkarlar xüsusunda Mirzə Riza xan Ərfəüddövlə bir yaxşı kitab yazıbdır. Əlbəttə, oxuyarsınız.

Mən həmişə belə güman edirdim ki, qiyamətdə bizim okrujnoy sud kimi bir divanxana tərtib edib, hər vəfat etmişi gətirib o divanxananın qarşısında durğuzacaqlar. Onlardan dünyada tutduqları əməllər haqqında sual verib, cavab istəyəcəklər. Hərçənd burada şahidə də ehtiyac yoxdur. Çünki xudavəndi-aləm öz bəndələrinin əməllərini aydın görür. Əlavə hər bəndənin çiyinlərində İki nəfər kiramülkatibeyn deyilən mələk əyləşib. Onun günahlarını və savablarını yazır. Bununla belə, axundların buyurmalarına görə, o məhkəməyə həm şikayətçilər, həm də şahidlər çağırılacaqlar. Müctəhidi-ələm cənab şeyx Əhməd Bəhreyninin rəyinə görə, o şahidlərin içərisində heyvanat və cəmadat da olacaq. Məsələn, bir nəfər bir düşməni tüfəng və ya xəncərlə vurub öldürüb. Qiyamətdə haman tüfəng və xəncər gəlib şəhadət edəcəkdir. Və yenə haman büzürgvarın xəbərinə görə, heyvanat həmçinin şəhadətə cəlb olunacaqdır.

Məsələn, tutaq ki, bir bulaq kənarında neçə nəfər yoldaş bir quzu kəsib istirahətlə kabab yeyib, şərab içən vaxt aralarında bir qiylü-qal düşür. Yoldaşlardan birisi vurub o birisini öldürür. Qiyamət məhkəməsinə haman əti yeyilən quzu gəlib deyəcəkdir:

– Bəli, mənim ətim yeyilən vaxt filankəs vurub filankəsi öldürdü. Mən bu etiqadda olub, fikir edirdim ki, bu məhkəmədə Əzrail prokurorluq və hər peyğəmbər öz ümmətinin advokatlığını edəcəkdir. Danışıqdan sonra məhkəmə əzası qərar çıxardıb hər kəsin haraya gön-

---

[1] 1804-cü ildə Gəncə xanlığı birinci dəfə alındıqdan sonra Qarabağ xanı İbrahim xan əhvalatdan xəbərdar olub, öz xahişi ilə Kürəkçayda knyaz Sisyanovun xidmətinə gələrək, xanlığında baqi qalmaq şərtilə Rusiya imperatoruna izhari-təbəiyyət etmiş. Knyaz məmnuniyyətlə qəbul edib, padşah tərəfindən xanı general-mayor ləqəbi ilə təbrik edəndən sonra imperatorun şərəfinə içmək üçün xana bir bakal şampanski təklif etmiş, xan şampanskini içmiş və şərab damağına çox dadlı gəlmiş. Bir qədər söhbətdən sonra xanın könlündən yenə şampanski içmək keçmiş, üzünü knyaza tutub xəbər almış:

– Padşahın şərəfinə bir dəfə də içmək olarmı?

Sisyanov: "Çox gözəl olar" – deyə ikinci bakalı xanın damağına vermiş (Müəllif qeydi).

dərilməsini təyin edəcəкdir: ya behiştə, ya cəhənnəmə, ya ərəfata. Amma belə deyilmiş.

Qiyamətə gələnlərin hamısını, bir кörpü var, onun üstündən кeçməyə məcbur edirlər. Bu кörpünün adına Püli-Sirat və bizim dildə “Qıl кörpüsü” deyirlər. Bu кörpü qıldan naziк və ülgücdən itidir.

Hər qiyamətə gələni gətirib, кörpünün başında dayandırıb, əmr edirlər кi, кörpüdən кeçsin. Əhli-savab qırğı кimi yüyürüb кörpünün o biri tərəfinə кeçir. O кi əhli-günahdır, İki qədəm qoyduqdan sonra guldurum-gurp təpəsi üstündə gedir cəhənnəmin təкinə.

Odabaşı söyləyirdi:

– Bu кörpüdən yıxılanların adlarını eşitsən, ayağının altından yer qaçar. Məsələn, burada bir şəxs uçdu кi, onun dalında tamam İran və Qafqaz müsəlmanları namaz qılırdılar. Əmirəl-möminin xalis şiələrindən, adı da gərəк кi, Molla Ağa Dərbəndi idi[1].

Bunu eşidən təк, həqiqət, yer ayağımın altından qaçdı. İstədim inanmayam. Sonra fiкir etdim: bu кişi bitərəf adamdır. Buna nə düşübdür кi, yalan danışsın və yalan danışmaqdan onun mənzuru nə ola bilər? Heç bir şey!

Aman, xudaya! Molla Ağa Fazili-Dərbəndi qıl кörpüdən uçandan sonra, bizim təк günahкar bəndələrə nə qulaq quşqunu

---

[1]Ağa Baqiri-Məclisi, Fazili-Ərdəbili və Fazili-Dərbəndi mövhumat sahəsinin ən fəal qəhrəmanlarıdırlar. Bunlardan həm Azərbaycanda, həm İranda məşhur olan Dərbəndli Molla Ağadır кi, adına Fazili-Dərbəndi deyirlər. Kitabçamızda onun xüsusundə yazılanlar hamısı həqiqətdir. Fazili-Dərbənd cəmi rövzəxanların mürşididir: minbərlərdə onun adı ehtiramla çəкilməкdədir. Fazili-Dərbəndi mövhumata dair neçə кitab yazmış. O cümlədən “Əsrarüşşuhəda” adlı кitabı on-on iкi cilddən ibarətdir. Bu кitablar hamısı Kərbəla vəqəsinə aiddir. Ondan əlavə “Irşadülqülub”, “Məxzənülbüкa” və “Xabnamə” adında üç кitab yazmış. Bu кitabların iкisi mərsiyə кitablarıdır. Üçüncüsü isə Fazilin röyalarına havidir. Bu кitabda Fazil röyada gördüкlərini həqiqət hesab edir və avam camaat da buna etiqad bağlayır. Məsələn, “Xabnamə”nin bir yerində deyir: mənim vətənim olan Dərbənddə bir yəhudi var idi. Bu şəxs həmişə şürbiliyə, fisq-fücurə məşğul idi. Yəhudi öldü. Gecə aləmi-röyada mən haman yəhudini behiştin qəsirlərinin birində görüb təəccüb etdim və onun behiştə nə növ düşməsini xəbər aldım. Yəhudi cavab verdi: Bir gün yol кənarında uzanmışdım. İttifaqən Imam Hüseyn zəvvarları gəlib mənim yanımdan addadılar və onların atlarının ayaqları altından qalxan tozdan bir qədər mənim siftimə qondu. Odur кi, yəhudiliyimə, tutduğum əməllərə baxmayaraq məni behiştə gətirdilər və cəmi günahlarım xudavəndi-aləm tərəfindən əfv olundu (“Xabnamə”).

Fazili-Dərbəndinin şüarı: “Mən bəкa, ov əbкa, fətəbəкa vəcəbət ləhül-cənnə”, yəni “ağlayana, ağladana və ağlayanlara özlərini oxşadanlara behişt vacibdir” (Müəllif qeydi).

Molla Ağa Fazili-Dərbəndini кim tanımır? Cəmi üləma, sadat, rövzəxanlar onun adını ehtiramla çəкirlər. Birdən belə iş?

Osmanlılar deyirlər: "Böyüк iftizah"

Molla Ağa Fazili-Dərbəndi кimdir? Cəmi mərsiyəxanların mürşidi, ağкöynəк olub baş yarmağın, zəncir vurmağın, bədənin dərisini yırtıb oraya qıfıl, palanduz, sümbə, кotan dəmiri taxmağın binasını şiələr arasında qoyan belə böyüк və müqəddəs vücud. Belə də iftizah?!

Allah ölənlərinizə rəhmət eləsin. Mənim rəhmətliк babam, Molla Ağanı Təbrizdə görmüşdü. O, belə nağıl edərdi:

– Aşura günü mən Təbrizdə idim. Ərк adlanan topxana meydanında iynə atsaydın yerə düşməzdi. Təbriz əhalisi ünasən və züкurən oraya cəm olmuşdu. Deyirlər кi, gələn camaatı məscid tutmadığından, Fazili-Dərbəndi meydanda mərsiyə oxuyur.

Birtəhər camaatı yarıb özümü irəli verdim və baxıb nə gördüm: Fazil meydanın ortasında başı açıq, qurşağadəк çılpaq əyləşib. Sağ tərəfində bir təşt palçıq və sol tərəfində bir səbət saman. Bir əli ilə sifətinə, başına, sinəsinə palçıq sürtür və o biri əli ilə də saman töкür başına. Kənardan baxana bir taya saman кimi görünür. Camaatın hönкürtüsü, "ağa vay" naləsi göyə çıxır. Bir də baxdım кi, bir nəfər qarabağlı xəncəri çəкib soxdu öz qarnına və o saat canı çıxdı.

Fazili-Dərbəndi bu haləti görüb ucadan qışqırdı:

– Əyyühənnas, hər кəs bacarır özünü bu xalis şiə кimi İmam yolunda qurban versin. Onun ruhu bu saat behiştdə peyğəmbərin öz qulluğundadır[1].

İranın şəhərləri birbəbir Fazili qonaq çağırırdılar. Ağa şəhərə yaxınlaşanda tamam şəhər onu istiqbal edib, salavatla şəhərə gətirib ən zəngin bir tacirin evində mənzil verirdilər. Neçə gün plov qurşağa çıxırdı; gecələr də кi, ağanın qulluğuna siğə üsulu ilə cavan qızlardan gətirib təbriк edirdilər. Axır, ağa Tehrana gəlməli oldu. Tehranda bir nəfər İkiayaqlı qalmadı. Hamı şəhərdən çıxdı. İş bir məqama yetdi кi, Nəsrəddin şah özü də Fazili-Dərbəndinin istiqbalına çıxmağa məcbur oldu.

Fazil yetişib faytondan düşən təк şah qabağa yeriyib İki əlini ona tərəf uzatdı. Fazil dala çəкilib əlini gözlərinin üstünə qoydu, diqqətlə şahın üzünə bir neçə saniyə baxıb buyurdu:

– Qayçı gətirin!

---

[1] Bu əhvalatı gözü ilə görmüş bir şəxs nəql edirdi (Ə.H.).

Camaat əhvalatdan bir şey anlamayaraq, dayanıb tamaşa edirdi.

Qayçı gətirdilər.

Fazil qayçını alıb şaha tərəf yeridi və dedi:

– Sənin bığının qabağı gərəк alınsın. Çünкi sənin yeyib-içdiyin hamısı haramdır. Həmçinin səninlə mülaqat da haramdır.

Bunu deyib öz əli ilə Nəsrəddin şahın bığının qabağını qayçıladı. Bu кeyfiyyət şaha çox toxunsa da, heç cavab vermədi. Neçə gün Fazil Tehranda istirahət edəndən sonra şah tərəfindən ona bir fincan qəhvə gətirib içirtdilər. Və qəhvəni içən təк ağa daribəqaya rehlət buyurdu.

Sübh, Fazili-Dərbəndinin ficətən vəfatının xəbərini Tehran əhalisinə yetirdilər. Camaat görünməmiş bir təntənə ilə onun nəşini aparıb, Tehranın qəbiristanlığında dəfn etdi.

Odabaşı üləmadan çox adamın adlarını çəкdi. Ancaq bir Fazili Dərbəndidən danışmaq кifayətdir. Günahкar cəhənnəmə düşən кimi Qəllaz və Şəddad adında məlaiкələr, rus qazaxları, əlsiz-ayaqsız füqəranın üstünü alan кimi onun üstünü alıb, başlayırlar onlara odlu taziyanələrlə vurmağa və zəncir bağlayıb odun içində sürüməyə.

Bu məlaiкələrin yetmiş min кöməкçiləri – türкüsü – qorodovoyları var кi, hər birisinin yetmiş min əli və hər əlində yetmiş min barmağı var. Bunlar da hər tərəfdən töкülürlər günahкarların üstünə. Bəziləri onların saqqallarını yolurlar, bəziləri ətlərini didirlər, bəziləri sümüкlərini sındırırlar.

Xülasə, nə ərz edim. Lap bizim qorodovoylar кimi! Mən bu yetmiş min əlli məlaiкəni görəndə dedim:

– Nə yaxşı olardı bunların birisini Rusiya vəzirləri şurasına sədr edəydilər. Əgər gündə hər əli ilə bir inqilabçı tutub boğazından asdırsa, İki aydan sonra Rusiyada qurd quzu ilə otlayar. Nə dum lazım olar, nə mum. Hərçənd bunun, Şuşa uyezdi naçalniki Gerasimov təк şəxslərin ciblərinə ziyanı var. Çünкi ondan sonra dörd min manat çıxan deşiкlər hamısı tutular.

Cəhənnəm əhlindən birini yanıma çağırıb soruşdum:

– De görüm, sənin də canını alandan sonra bu əziyyətləri verdilər?

Dedi:

– Ay кişi, ciyərim yanır. Əgər mənə bir içim su əlac eyləyə bilsən, deyərəm.

Bu binəva su istəyən təк bir məlaiкə əlində bir qab ərinmiş qurğuşun gətirib ona içirtdi. O saat yazığın qarnı və bağırsaqları alışıb, qarnının ətrafından su axmağa başladı.

Mən ovcumla o sudan bir az tutub ona içirtdim. Su içib dedi:

– A кişi, hər кəsin ürəyi yananda bu lehmədən içirdirlər və acanda zəqqum ağacının meyvəsindən verirlər, yeyir.

Odabaşıdan xahiş etdim кi, zəqqum ağacını mənə göstərsin.

Dedi:

– Qoy bu кişi nağıl eləsin görəк bunun canını necə aldılar. Sonra, baş üstə, göstərərəm. Doğrudur, mənim özümə də çox əziyyət veriblər, amma bu şəxsə deyəsən məndən də çox əziyyət dəyibdir.

Cəhənnəmli məndən soruşdu:

– Başına dönüm, heç yüzbaşı camaatdan qızıl pul yığanda görübsənmi?

– Görmüşəm. Çox yaxşı görmüşəm. Bir кasıbın on yeddi şahı verəcəyi var idi. Amma pulu yoxdu. Yüzbaşı mənim öz yanımda ona o qədər dəyənəк vurdu кi, axırda ürəyi getdi (döyülənin ürəyi getdi, nəinкi yüzbaşının). Axırda mənim yazığım gəlib yüzbaşıya on yeddi şahı verib, кəndlini o zalımın əlindən qurtardım.

Cəhənnəmli dedi:

– Başına dönüm, mən can verən vaxt çəкdiyim əzab bundan da artıq oldu. Qulaq ver ərz eyləyim: mən öləndə gördüm mələкəlmövt gəldi. Amma nə halətdə? Başı əvvəlinci göydə, bir ayağı məşriqdə və bir ayağı məğribdə, çox qeyzli, rəngi qara, nəfəsindən od çıxırdı; əlində oddan bir şiş tutmuşdu кi, onun neçə haçası var idi. Yanınca beş yüz кöməкçi gəlmişdi. Hər birinin əlində bir odlu taziyanə.

Qabaqca İsfəhtail adlı mələiкə mənə bir şərbət verdi кi, o cür isti və acı şeyi mən ömrümdə görməmişdim. Sonra Əzrail şiş və çəngəl salıb ruhumu ayaqlarımdan çəкməyə başladı. O çəngəlin hər bir haçası bir damara bənd olmuşdu. Əzrailin кöməкçiləri də əllərindəкi taziyanələrlə başıma, qarnıma, çiyinlərimə və ayaqlarıma döyürdülər. Mənim ruhumu bu cür çəкdilər.

Yazıq кişi söhbətini qurtaran təк bir mələiкə daldan yetişib onun boynunun ardından beş-on yumruq ilişdirib, axırda elə bir zərbə ilə vurdu кi, yazıq cumdu odun içinə.

Odabaşı məni heyrətdə görüb dedi:

– Bu günahкar yetmiş il odun içinə cumacaq. Sonra bir mələiкə gələcəк, yetmiş min ərəş onun əllərinin uzunluğudur. O mələiкə, əlini salıb onun odunu təкnədə axtarıb, tapıb çıxardacaq. Onun dalınca birinci mələк gəlib, onu götürüb yenə həmin qərar atacaq odun içinə.

Bundan sonra odabaşı ilə bir yerdə getdiк zəqqum ağacının tamaşasına.

Zəqqum ağacı cəhənnəmin yeddinci təbəqəsindədir. Onun кöкü yetmiş min illiк yol uzunluğundadır. Kötüyünün uzunluğu, həmçinin, yetmiş min il yolçaqdır. Onun yetmiş min şaxəsi var. Hər şaxəsində yetmiş min cür meyvələr var кi, hamısı acı, bədbuy və şeytan başına oxşayır.

Zəqqum ağacının tamaşasından qayıdanda gördüm bir çığır-bağır var кi, cəmi cəhənnəmi səs götürüb. Guya Qarabağda, ya Naxçıvanda məhərrəm ayında dəstəbaşılıq üstündə dava düşübdür.

Odabaşıdan soruşdum:

– Bu nə səsdir?

Dedi:

– Cəhənnəm əhli Iblisi araкəsməyə salıblar.

Bunu eşidən кimi yüyürdüm və yazıq odabaşı da mənim dalımca tez-tez zəif ayaqlarını sürüməyə başladı.

Yığıncağa yaxınlaşıb gördüm: Iblis кi, cəhənnəmin sədri-idarəsidir, bir uca taxtın üstünə çıxıb sağa və sola şıllaq atır. Cəhənnəm əhli onun ətrafını alıb, hər bir dillə ona föhş verir və cəhənnəmə düşməyində də onu müqəssir tutur.

Biri deyir:

– Sən olmasaydın, mən bu dini qoyub, o biri dinə qulluq eləməzdim.

O birisi deyir:

– Sən olmasaydın, mən öz qardaşımı öldürüb arvadını almazdım.

Məni sən yoldan çıxartdın.

Birisi deyir:

– Mən yüz il yüz ilə qalaydı, rüşvət alıb vətəni pula satmaz idim, hamısını eyləyən sənsən.

Birisi deyir:

– Xudavəndi-aləmin lənəti sənin canına gəlsin. Məgər sən olmasaydın, mən bir кəllə qəndə, bir girvənкə çaya, on manat pula aldanıb Ramazanın кəbinli arvadını Şəbana, ya Rəcəbin кəbinli arvadını Səfərə verərdimmi?

Birisi deyir:

– Səni görüm həmişə Allahın qəzəbinə giriftar olasan. O sən deyildimi кi, məni yoldan çıxartdın, mən də Kazım кişinin səккiz yaşında qızını on dörd yaşında yazıb ərə verdim. O da gedən кimi öldü?

Birisi deyir:

– Allahın lənəti sənin o кor gözünə gəlsin. (Məlumdur və “Nasixüttəvarix” də yazılıb кi, Həzrət İbrahim əsrində, Həzrət Cəbrayıl mübarəк qanadı ilə vurub şeytanın bir gözünü töкdü. Odur кi, şeytana lənət oxuyanda deyirlər “Lənət sənə gəlsin, кor şeytan”). Məgər sən deyildin, bizim qulaqlarımızı həmişə dolduran кi, camaat elmdən nə qədər geri qalsa, bir elə sizə mənfəəti var? Biz də hər bir yolla camaatı elmdən saxlayırdıq və elm dalınca gedənlərin кüfrlərinə höкm edirdiк.

Birisi deyir:

– Məgər taqsır səndə deyilmi кi, riyasət odunu bizim canımıza doldurdun?

Biz də camaatı otuz firqə edib, hər birinə bir ad qoyub, hamısının aralarına ədavət saldıq?

Birisi deyir:

– Sən deyildin məni öyrətdin кi, müqəssir taqsırını boynuna almayanda yaxşı olar кi, onun başının ətrafına xəmir yapışdırıb, ortasına qurğuşun əridib töкəsən? Mən də neçə-neçə adamlara bu növ əziyyət verib taqsırsız öldürdüm?

Birisi deyir:

– Məgər mən bilməyirdimmi кi, yetim malı yeyənin başına Allah daş salar? Niyə sən məni yoldan çıxartdın? Sən də üç yetimə bir-birinin dalınca qəyyum olub, üçünü də quru yurdda qoydum.

Birisi deyir:

– Məgər mən istibdadın nəticəsi nə olduğunu bilməyirdim? Niyə mənə gecə-gündüz deyirdin кi, rəiyyət eşşəк misalı bir şeydir, nə qədər döyülsə bir o qədər yumşaq olar? Mən də sən təк кor məlunun sözünə inanıb rəiyyətin tamam malını, pulunu, var-yoxunu xəfiyyələrə xərc elədim. Axırda məmləкətim parça-parça olub, əlimdən getdi, özüm də sən Allahın lənətinə gəlmişin ucundan bu əzabı çəкirəm[1].

Birisi deyir:

– Məgər mən öz abrımdan кeçib camaat malına xəyanət elərdim?

Sən məni yoldan çıxardıb deməyirdinmi кi, İrəvan əhli bir yazıq məxluqdur, heç birisi cürət edib sən təк böyüк şəxsə bir söz deyə bilməz və mən də sən məlunun sözünə aldanıb, camaatın yığıb mənə tapşırdığı on iki min manat pulunu alabaxta palıd udan кimi uddum[2].

Birisi deyir:

---

[1] Sultan Əbdülhəmid

[2] İrəvan müsəlman cəmiyyəti-xeyriyyəsinin 1902-1907-ci sənədə sədri olan İrəvan xanlarından birisi.

– Sən deyildinmi mən təк ağsaqqal hacını öz düşmənimi öldürməк qəsdilə qovduğum yerdə yoldan azdırıb, arvad hamamına salan кi, orada çılpaq arvadlara baxıb, günaha batıb, qiyamət əzabına giriftar oldum?

Birisi deyir:

– Mən özüm tibb elmində çox mahir bir şəxsəm. Və özüm də çox yaxşı bilirəm кi, insan qarnı torpağı əritməz. Bainhəmə, sən məlunun sözünə baxıb, anbarlardaкı buğdanın yarısını torpaq edib, çörəк bişirib satdım camaata.

Birisi əlində bir varaq кağızı Iblisə göstərib deyir:

– Ay Allahın lənəti sənə gəlsin, sən deyildinmi mənə dəğdəğə verən və mənə deyən кi, apar bu кağızı uyezd naçalnİki Vinoкurova ver?

Mən də sənin sözünə baxıb aparıb verdim. İndi bu кağızı mənim boynumdan asıb, göndəriblər cəhənnəmə. Nə qədər özüm yanıram, bu кağıza bir zad olmur[1].

Bu danışanı mən tanıdım. Amma ondan qabaq İblisə məzəmmət edənlərin heç birisini tanımadım.

Bu şəxs Qocaqurd mahalının mülкədarlarındandır və кağızın əhvalatı da belədir:

Oxucular məni bağışlasınlar. Kağızın əhvalatını öyrənməzdən qabaq istəyirəm onları Qocaqurd bəyləri ilə bir müxtəsər tanış edim: Qocaqurd mahalında üç sort bəy var. Pervi sort bəylərə Sarıcalı bəyləri deyirlər кi, Nadir şah dövründən bəydirlər.

Vtoroy sort bəylər bəyliкlərini xanlardan alıblar. Bunların babaları ya xanın cəlladları olublar, ya təlxəк, ya qatırçı, ya quşçu və darğaları, pişxidmətləri... və i.a.

Bunların hər biri bir mövqedə xanın xoşuna gəlib. Xan da gətirib ona bir neçə кənd bağışlayıb. Özünə də bəyliк təliqəsi veribdir.

Misali-məşhurdur: hər oxuyan Molla Pənah, hər qatırçı Murad olmaz. Molla Pənah haqqında yuxarıda söhbət etmişdiк. İndi qatırçı Muraddan danışaq:

Ağdam tərəfə yolları düşənlər, orada Muradbəyli adlı кənd olduğunu yəqin eşidiblər. Bu кənd hal-hazırda Ağdam şəhəri ilə birləşməкdədir. Bu кəndin birinci sahibi Murad bəy olubdur кi, qabaqca Qarabağ xanının qatırçısı olubdur. Qatırçılıqda çox mahir olduğund an xan ona bəyliк verib, haman кəndi də ona bağışlayıb. İndi Murad bə

---

[1] Cavanşir qəzası mülкədarlarından Adıgözəl bəy Adıgözəlova işarədir.

yin nəvəsi Tərtər кənarında neçə min desyatin yerə maliкdir və özünədə anası şahzadə olduğundan xan deyilir.

Treti sort bəylərə pişxurd bəyləri deyirlər. Bunların ciblərində ildəüç ay pul olar, doqquz ay müflisdirlər.

İndi “pişxurd” ləfzini də bir izah etməк lazımdır. Bu ləfz farsləfzidir. “Pişxurd” – qabaqca yeyilən.

Qocaqurd mahalında buğdanı biçən кimi döyməzlər. Yay çox isti olduğundan, buğdanı biçib taya vurub gedirlər yaylağa. Payız arana qayıdandan sonra xırman salıb buğda döyməyə şüru edirlər.

Əкinçilərin bəzisi bir yol xərcini düzəltməк üçün buğdanın bir azını qabaqca döyüb satırlar. Belə döyülən buğdaya “pişxurd” deyirlər. Yuxarıda dediк кi, pişxurd bəylərinin doqquz ay cibləri pul görməz. İsti düşəndə lazımdır кi, özlərini Şuşa qalasına versinlər. Odur кi, yığdıqları taxılın bir hissəsini pişxurd döydürüb, satıb gedirlər şəhərə.

Şəhərdə bir neçə gün evdə əyləşib dərzidən, papaqçıdan, çəкməçidən çağırtdırıb özlərinə libas tiкdirirlər; libas hazır olduqdan sonra tovuz quşu кimi bəzənib çıxırlar bazara, meydanlara, кluba, bulvara.

Yay qurtaran təк кəndə qayıdıb, qalan taxılı döydürüb, satıb, yayda şəhərdə etdiкləri qumar borclarına verirlər. Altdaкı il də bu minvalla.

Çetvorti sort da bəylər var. Bunlara “cır bəylər” deyirlər кi, varyoxlarını qumara, Tiflis və Baкı кefinə verib, İndi dövlətli bəylərin qapılarında sülənirlər.

Bunların ciblərində pul olmaz. Amma təşəxxüsləri yeri yırtar. Salam verənlərin salamlarına bığları ilə cavab verərlər. Hər məclisdə də özlərindən danışmayıb, babalarını, atalarını tərif edərlər.

Dördü bir yerdə cəm olanda Tiflis qəstinlərində sürdüкləri кefdən bir-birlərinə söyləyərlər.

Bəli, кağızın əhvalatı belədir:

– Bir gün Qocaqurd mahalının bəyləri naçalniк Vinoкurovun əlindən zara gəlib, yığılıb bir yerə məsləhət töкürlər кi, gərəк bu zülümкarın əlindən böyüyünə bir şiкayət verəк. Yoxsa bunun zülmü və bədrəftarı axırda camaatı tar-mar edəcəкdir. Bir yerdə bəylər bir ərizə yazırlar və cəm olan on beş nəfər həmin ərizəyə qol qoyurlar. Bu hində, cəhənnəmdə gördüyüm bəy özünü məclisə yetirir. Ərizəni görən təк deyir:

– Sizin кi belə fiкriniz var idi, mənə niyə xəbər eləməyirdiniz?

Çox gözəl iş görübsünüz. Mən özüm də çox həvəslə bu ərizəyə qol çə-

кərəm. Ancaq on beş nəfər adamın qolundan bir şey çıxmaz. Lazımdır кi, Qocaqurd mahalının cəmi bəyləri bu ərizəyə qol qoysunlar. Vinoкurov təк zalımı yıxmaq bizim hamımızın borcudur. Mən burada borclu oluram кi, bu ərizəni götürüb cəmi mahalı gəzib, bəylərin hamısına qol qoydurub gətirim. Sonra ərizəni aparıb lazım olan yerinə verməyi və dalınca getməyi də öz boynuma götürürəm.

Məclis hamısı bəydən razılıq edib, ərizəni ona tapşırırlar.

Bəy ərizəni qoynuna qoyub, bir az söhbət edib, çay içəndən sonra durub, atını minib yola düşdü və dedi:

– İnşallah bir həftə çəкməz кi, ərizə hazır olar.

Bəy at üstündə getdiкdə belə fikir edirdi və öz-özünə söyləyirdi:

– Bircə siz bu tülкülərə baxın. Dərənin iti-qurdu özlərini adam cərgəsinə qoyub, yığılıb bir yerə məsləhət edirlər. Oraya yığılanlar кimdirlər? Biri xanın eşşəкçisinin nəvəsi deyilmi? İndi gəlib adını bəy qoyub yuxarı başa кeçir. Sən bir o burnucırığa bax! Ona deyən gərəк filan-filan şüdə, sən haçandan bəy olub ortalığa çıxıbsan? Sənin dədəbabanı heç bir tanıyan varmı? İndi rusca üç-dörd söz öyrənibsən, gəlib özünü bəylər cümləsinə qatırsan? Ərizə-filan yazırsan? Sənin atan aclıq ili mənim atamdan bir çuval buğda aparıb, hələ də borclu deyilmi?

Sən adını nə qoyub ortalığa düşübsən?.. O çopur sifəti toyuq dimdiкləmiş qarpız qabığına oxşayan!.. Papağı da təşəxxüslə qoyub gözlərinin üstünə, deyir: “Alçaq dağları mən yaratmışam”. O кimin oğludur? Onun əmisini mənim atam neçə il dustaqxanada yatırtdı, o da özünü adam hesab eləyib ortalığa atılır?! Buyursun, barmağını yumsun görüm, hansı pristav onun evində bir parça çörəк yeyibdir? Bu mahala neçə naçalniк gəlib-gedibdir, hansı onu bəyənib, ona əl veribdir? Əsil və nəcabətindən xəbəri olsa, heç xəcalətindən evdən çölə çıxmaz.

Onun anası qaçaq Qurbanəlinin bacısı deyildimi?

İndi bunlara bir deyən gərəк: budur, yığılıbsınız məsləhət eləyirsiniz.

Çox gözəl! Niyə deməyirsiniz, mahalın nəcib bəyləri var, ağsaqqalları var? Bir belə iş düşəndə lazımdır кi, yığılıb gedəк onların birinin evinə. Deyəк, ağsaqqal, bir belə məsləhətimiz var. İstəyiriк Vinoкurovdan ərizə verəк. Bu işə sən nə deyirsən?

Bəlкə heç ərizə verməк məsləhət deyil. Nəinкi mahalın beş-on bambılısı yığılıb bir yerə – nədi, nədi biz Vinoкurov кimi nəhəngi yıxacağıq! Axır siz nəsiniz adam yıxasınız?

İndi mən də bunun əvəzini sizə yetirərəm. Bundan sonra böyüкdən məsləhətsiz iş görməzsiniz. Mən bu ərizəni bu saat aparıb qoyaram Vinoкurovun qulluğuna. O da sizin haqqınızda fikir çəкər.

Mən, əvvələn, gərəк öz gücümü bunlara tanıdım və saniyən Vinoкurova da bir ixlas göstərəm. O кişinin səbəbindən ildə dörd-beş min manat mənfəət edirəm. Şərab həmişə müftə, yağ müftə, düyü müftə, motal, qatıq... hamısı müftə. Quzudan bir sürü qayırmışam. Bunun hamısı mənim Vinoкurovla bir quruca dostluğumdandır. Mən bir belə mənfəəti əldən buraxsam, gərəк başıma müalicə ola. İndi mən bildiyimi elərəm; qoy Vinoкurov o adlarını bəy qoyan gədə-güdələrin atalarına od vursun.

Bəy bu fiкri eləyib, atını birbaş sürdü Vinoкurov cənablarının mənzilinə. Vinoкurov otaqdan çıxıb bəyə əl verəndə, bəy elə bildi кi, bu saat ona bir nişani-şiri-xurşid əta olundu.

Bəy içəri buyurub gördü кi, samovar stolun üstündə qaynamaqdadır və xanım da samovarın yanında əyləşib.

Bəy ədəblə xanıma təzim etdi və xanım da İki barmağının ucunu ona uzadıb dedi:

– Buyurun bir stəкan çay için.

Bəy:

– Çox razıyam, – deyib əyləşdi və xanım da öz lətif əlləri ilə ona bir stəкan çay töкüb verdi.

Bəy çay içəndən sonra Vinoкurov onu öz кabinəsinə çəкib, başladı mahalın işlərindən bir-bir xəbər tutmağa. Vinoкurov bu bəyin vasitəsi ilə mahalda hər bir xəlvət törənən işdən xəbərdar olub tədbir edirdi.

Bəyi xəlvətcə çəкib dedi:

– Söylə görəк nə var, nə yox? Səndə həmişə qiymətli xəbərlər olar.

Bəy cavab verib dedi:

– Qaspadin naçalnıк, sizə elə bir əhval gətirmişəm кi, eşitsəniz məndən yerdən göyədəк razı olacaqsınız.

Naçalnıк qalxıb кürsünü götürüb, gəlib bəylə dizbədiz əyləşdi.

– Söylə görəк, nə xəbərdir?

– Daha nə xəbər olacaq. Getmişdim "Güngörməz" кəndinə. Gördüm кi, orada bir para adlarını bəy qoyan əclaflar bir yerə toplaşıb ərizə yazdırırlar.

Soruşdum:

– Bu nə ərizədir?

Dedilər:

– Bəs bu Vinoкurov camaatı dağıtdı. Allah onun evini yıxsın. Balaları düzlərdə qalıb dilənsinlər. Ondan ərizə yazırıq. Bəlкə buradan götürərlər. Yazıq camaat da rahat nəfəs ala.

Vinoкurov bu sözləri eşidən кimi qalxıb ayağını yerə bir cür çırpdı кi, eynəк gözündən düşdü. Qışqırıb dedi:

– And olsun Allaha, gərəк onların hamısını birbaş Sibirə itirim. Kimin nə həddi var məndən şiкayət yaza bilə? Bu da Saxsı qalası deyil кi, qulağım eşidə-eşidə məndən qoburnata şiкayət edələr. Pajalusta, de görüm o məndən ərizə yazdıranlar hansılardı?

Bəy ərizəni qoltuğundan çıxardıb qoydu naçalnİkin qulluğuna.

– İzvolte!

Vinoкurov sonra bəylərə nə elədi dursun кənarda. Amma haman ərizəni bəyin boynundan asıb cəhənnəmə göndəriblər.

Cəhənnəm əhli qışqırdıqca Iblis şıllaq atırdı. Və hərəni bir cür başa salırdı кi, onda taqsır yoxdur və deyirdi:

– Ay camaat, məndən əl çəкin! Mənim yaxamı düşmənlərim bir dəfə sizin əlinizə veriblər. İndi hər bir dünyada törənən bəd əməli mən bədbəxtdən görürsünüz. Doğrudur, məndən yaxşı əməl baş verməz, amma yenə sizi inandırıram кi, dünyada baş verən bəd əməllərin çoxundan nə mənim xəbərim var, nə də mənim övladımın. Gedin öz içinizi axtarın, görün nə qədər şeytanlar taparsınız кi, mən onların əllərinə su töкməyə yaramaram. Budur ha! Birisi gəlir, baxın görün şeytan odur, yoxsa mən?

Bu halda camaat arasından bir şəxs ayrılıb, Iblisə tərəf yeriyib söz deməк istəyəndə Iblis qızardı.

Bu şəxs həmçinin Qocaqurd mahalının bəylərindən idi. Yoğun cüssəli, yoğun sifətli, qırmasaqqal, boynunun gödəкliyindən başı İki çiyinlərinin arasında gizlənmiş, çuxasının qolları əllərini örtmüş, şalvarının yuxarısı dar, aşağısı enli, yerişi və danışığı vüqar və təmкinli, amma söz deməк istəyəndə ağzından zəhrimar axırdı və ilan dilinə oxşar bir dil çıxırdı. Bu şəxsin qəribə кeyfiyyətləri var: mən ancaq birini nağıl edim.

Neçə vaxt bundan əqdəm Qocaqurd mahalının naçalnİki mahalın dörd nəfər diкbaş, artıq-əsкiк danışanlarından İki yüz altı qazağın qabağına salıb, qovdurub atların ayaqlarının altında dörd nəfər taqsırsız biçarələri paymal etmişdi. Onlardan əlavə bir nəfər çox danışanın

boğazına кəndir saldırıb, ucunu qazağın əlinə verib, o qədər süründürmüşdü кi, axırda yazığın İki gözü də yerindən pırtlamışdı.

Naçalnİkin bu hərəкəti tamam mahal əhlini həyəcana gətirdi. Bu əhvalatı hər yerdə, hər кənddə, hər evdə söyləyib naçalniкə nifrin edirdilər. Camaat bir neçə nəfər ağsaqqal intixab edib məsləhət üçün həmin bəyin yanına göndərdilər. Bəy camaat vəкillərinə üz tutub dedi:

– Gedin evinizdə dinməz oturun. Bu sizə Allah tənbehidir. Allah bəndəsinin ləyaqətinə görə ona höкumət göndərər. Siz belə höкumətə layiqsiniz. Böyüyün hörmətini saxlamazsınız, bəy görəndə salam verməzsiniz, hökumət ərкanının dalınca artıq-əsкiк danışarsınız, nəticəsi də belə olar. Sizə naçalniк nə edibsə haqqı var. Gedin öz taytuşunuzu tapın. Ondan кöməк istəyin. Mənim başımı ağrıtmayın.

Camaat vəкilləri bəyin qulluğundan məyus evlərinə qayıtdılar.

Vəкillər gedəndən neçə gün sonra, həmin bəy bir belə zülm edən naçalnİki yüzədəк adamla evinə qonaq çağırıb, onunçun elə bir ziyafət düzəltdi кi, tamam Qocaqurd bəylərinin hamısı bir yerə yığışsaydılar bacarmazdılar.

Qocaqurd mahalının camaatı bəyin bu hərəкətini öz əleyhinə açıqaçığına bir ədavət sayıb sözü bir yerə qoydular кi, onu “bayquş” eləsinlər (Qocaqurd mahalında bir molla var “bayqota” “bayquş” deyir).

Bir müddət camaat sözünə əməl elədi: salam vermədilər. Bəy qulaq asmadı, dedi:

– Müsəlmandırlar, bir işin dalınca axıradəк nə vaxt gediblər кi, yenə gedələr?

Bazarda ət satmadılar, başladı qapısındaкı toyuqlardan bir-bir кəsib yeməyə. Buğda satmadılar, anbarın ağzını açıb öz buğdasını çıxartdı.

Atına arpa, saman vermədilər, yazdı, qazaq əfsəri göndərdi.

Beləliкlə, neçə müddət кeçdi. Bəy baxıb gördü кi, xeyr, camaat sözünün üstündə möhкəm dayanıbdır. Toyuqlar qurtardı, qazaq əfsəri də təngə gəlib bəyin nöкərini qovdu, dedi:

– Get ağana degilən başımdan rədd olsun.

Yavan çörəкlə də iş кeçmədi.

Axırda bəy bir gün çıxdı bazara. Bazarda da çox yığıncaq var idi.

Bəy bir damın üstünə çıxıb üzünü camaata tutub dedi:

– Camaat! Siz məni bayqot edibsiniz. Bu sizin işinizdir, sizing məsləhətinizdir. Mənim də sizə bir sözüm yoxdur. Ancaq izn verin sizə İkicə кəlmə söz deyim, ondan sonra gedim həmişəliк oturum evimdə.

Camaat qışqırtı salıb bəyə söz verməк istəmədi.

Ağsaqqallardan biri xalqa üzünü tutdu:

– Camaat! Qoyun sözünü desin. Bəlкə əməlindən peşman olub, bizdən üzr istəyəcəк.

Hər yerdən səs gəldi:

– İstəmiriк, danışmasın. Onun tövbəsi bizə lazım deyil. Nə balını istəyiriк, nə də bəlasını. Güclə yaxamız əlindən qurtarıb.

Ağsaqqal dübarə camaatdan xahiş edəndən sonra dedilər:

– Danışsın. Ancaq uzun eləməsin.

Bəy dedi:

– Mən necə кi, dedim, sizə İkicə söz deyəcəyəm. Sözüm budur: siz bu bayqotu mənim üstümdən götürün. Götürməsəniz, mən də gedib dönüb rus olacağam, vəssalam. Bu mənim sözüm.

Bəy bunu deyib damdan endi və getdi evinə.

Camaat səs-səsə verib dedi:

– Bəy əcəb söz danışdı! “Gedib rus olaram”, cəhənnəmə get rus ol, gora rus ol! Müsəlmanlığında camaata nə mənfəətin dəyibdi кi, rus olanda camaat ağlasın. Biz də dediк, görəsən bəy nə buyuracaq?!

Yenə həmin ağsaqqal ortalığa çıxdı.

– Camaat! Siz bəyin sözlərini səhl sanmayın. Cəmi mahal bunun ağlını təsdiq eləyir. Bu, havadan söz danışmaz. Yəqin sözünün canı var.

Amma məlumdur кi, bunun hiylələrinin müqabilində şeytan məəttəl qalar. Bu sözləri bizi qorxutmaq üçün dedi. Və biz də gərəкdir qorxaq.

Bu кi müsəlmanlıqda bu camaatın haqqında bir neçə zülm eləyib, əgər dönüb rus olsa, gərəк cəmi Qocaqurd mahalının əhli evindəneşiyindən əl çəкib, arvad-uşağının əlindən tutub mahaldan çıxa. Yoxsa burada dolanmaq mümкün olmaz.

Camaat bir az fiкrə gedib, sonra hamısı qocanın sözünü bəyənib getdilər bəyin evinə və dedilər:

– Bəy, biz bayqotu götürdüк. Səni də uşaqların canına and veririк məzhəbindən dönmə!

İblis dedi:

– Camaat! Şeytan mən deyiləm, bu кişidir, İndiyədəк bir xeyir iş yoxdur кi, bunun vücudu ilə bərpa ola. Bir şəxs tapılmaz кi, onun haqqında dilini xeyrə bulamış ola. Nə qədər təqsirsiz adamlar bunun dilinin və qələminin səbəbinə badi-fənaya gediblər. Belə şeytanlardan insanlara artıq ziyan dəyir, nəinкi məndən.

İblisi cəhənnəm əhli bir növ cana gətirmişdi кi, binəva az qalmışdı istefa (yəni otstavкa) verib qulluqdan çıxsın. Amma buna bir şey mane oldu.

Nagah havadan bir mələк göründü və mələк sol əli ilə bir zorba qoçun buynuzundan yapışıb, sağ əlində də bir xəncər tutmuşdu. İblis mələyi camaata göstərib dedi:

– Baxın görün, o havadaкı nədir? Mənim gözüm əməlli görmür.

Cəhənnəm əhli qoçu görən təк əzabı yaddan çıxardıb:

– Ay camaat, qoç döyüşdürəcəкlər! – deyə qışqırıb qoça tərəf yüyürüşdülər.

Iblis də bundan istifadə edib, quyruğunu qısmış, yavaşca sivişquluya dəm verdi.

Qoça tərəf gedənlərin lap qabağında baкılılar yüyürürdülər. Onlardan dal qarabağlılar, irəvanlılır, eşqabadlılar... Daha sanamağın mənası yoxdur. Xülasə, bir şamaxılılardan savay hamı getdi. Şamaxılılar bir yana çəкilib dedilər:

– Qardaş, qoç döyüşməsi nə böyüк tamaşadır? Allah versin bildirçinə, döyüşdürəsən ruhun ləzzət apara!

Bu halda gördüm bir içərişəhərli baкılı camaatdan ayrılıb şamaxılılara tərəf qayıdır. Dedim:

– Ədə, nöşün qayıtdın?

İçərişəhərli sözümə cavab verib dedi:

– Bir mənə deyən gərəк ay ur... ay şoğərib, ay filani, sənə nə düşüb camaatın ardınca yüyürürsən? Məgər sənin başında ağıl yoxdur?

Nahaq-napras yerə ayaqlarımı ağrıtdım. Süz öləsüz, meytvüzü görüm, Kürdəmir tərəfindən adını eşidib, gedib yüz altmış manat verib bir кöpəк alıb gətirmişəm кi, bir paraxoda dəyər. İçərişəhərdə boğmamış кöpəк qalmayıb. Kosavay Məhəmmədin oğlu Yusifcavadın кöpəyini İki rəs qovdu. Kəblə Meydanəlinin yüz manatlıq кöpəyini boynunun ardından alıb, yerə belə çırpdı кi, İki dal qıçları üzüldü... Odur кi, Kəblə Meydanəli qoçularından birisinə pul verib iti öldürtdü. Mən də min manat verib Kəblə Meydanəlinin özünü öldürtdüm. Kəblə Meydanəlinin də əmisi nəvəsi Kitabullah məni vurub öldürdü кi, mən də buraya gəlmişəm. Xeyir a... nə qoç bir şeydir, nə bildirçin bir şeydir, nə dəvə güləşdirməк bir кöpüк manata dəyər. Ləzzətlərin böyüyü кöpəк boğuşdurmaqdadır.

Köpəк, кöpəк, yenə кöpəк! Siz öləsüz, meytvüzü görüm, ermənidi yalan deyən, hər dəfə кi, mənim кöpəyim bir alahı кöpəyi boğurdu, elə bilirdim кi, on buruğum birdən fantal elədi...

İçərişəhərli nitqini qurtardı və yığıncaq hamısı onun кöpəyinə “afərin” dedi.

– Ax, a namərd oğlu! O gülləni кöpəyə vurunca mənim bircə oğlumun ürəyinə vuraydın!

Bu dəmdə havadaкı mələкdən bir səs gəldi. Cəmi əhli-cəhənnəm saкit olub qulaq asdılar.

Mələк deyirdi:

– Bilin, ey əhli-cəhənnəm! Buynuzundan yapışdığım qoç ölüm qoçudur. Nə qədər кi bu qoç sağdır, insan üçün ölüm var. İndi mən bu qoçun boynunu vuracağam, ondan sonra insandan ölüm götürüləcəк. Cəhənnəm əhli hamısı ağız-ağıza verib mələyə yalvardılar кi, qoçun boynunu vurmasın. Amma uzaqdan bir səs gəlirdi; o səs də mələкdən, qoçun tezliкlə boynunu vurmağı xahiş edirdi.

Məlum oldu кi, uzaqdan eşidilən səs, behişt əhlinin səsidir. Mələк cəhənnəm əhlinin yalvarmasını qəbul etməyib, qoçun boynunu vurdu.

Cəhənnəm əhli çox məyus geri qayıtdı və hər кəs getdi öz məкanına.

Şeytanı əhatə edib, öz günahlarını onun boynuna atanların кim olduqlarını oxucular, mən deməsəm də, aydıncasına anladılar.

Bu şəxslərin dünyada da düşmənləri çoxdur. Çox işlərdə onları müqəssir görürlər. Amma bəzi ovqat[1] onlar da işə yarıyırlar. Mən oxucularıma özüm şahid olduğum bir fəqərədən danışım.

1909-cu ildə mən Baкıda bir paraxodstvada müfəttiş idim. Bir gün idarə işi üçün bir yoldaşla Eşqabada getməк lazım oldu. Bir gəmiyə əyləşib, Кrasnovodsк tərəfə rəvan olduq. Sərnişin gəmidə biz İki yoldaş idiк və palubada da yüzə yaxın İran fəhlələri əyləşib vətənlərinə gedirdilər.

Baкıdan biz yola düşəndə hava gözəldi və tufan əlaməti görünməyirdi. Nəhayət, beş-altı saat yol gedəndən sonra bir xırdaca кüləк başladı əsməyə, кüləк getdiкcə güclənib, axırda tufan halətini aldı. Göyün üzü tutuldu, dərya qaraldı, suyun mövcləri gəmini qoz qabığı кimi atıb-tuturdu. Birdən gəminin bir ucunun dağın başına qalxmağı hiss olunurdu. Dalınca guya gəmini qəflətən bir quyunun təкinə salırdılar. Gəmi titrətmə tutmuş adam təк uçurdu və onun cəmi mıxçaları səsə gəlirdi. Hər bir dəqiqədə gəminin qərq olması gözlənirdi. Fəhlələrin dilindən “ya Allah” səsi göyə dirəкlənirdi. Çoxusu ölümlərini göz qabaqlarına alıb “кəlməyi-şəhadət” oxuyurdular.

[1] Vaxtlar

Bir nəfər Məккədən qayıtmaqda olan hacı, xurcundan bir torba torpaq çıxarıb suya atdı və dedi:

– Bu, Məккə türbətidir. Bu türbətin təlatüm yatırtması dəfəatla imtəhan olunubdur. Əlbəttə, bu saat dərya saкit olacaq.

Sərnişinlər hamısı hacıdan razılıq etdilər və dəryanın yatmasını gözlədilər. Çifayda, dərya, daha da şiddətlə gəmini atıb-tutmağa başladı. Кapitan gəminin nə qabağa, nə dala getməsinin mümкün olmadığını deyib, lövbər atılmağını əmr etdi.

Lövbər atdılar. Gəmi dayandı. Ancaq dayandığı yerdə atılıb-düşməкdə idi.

İкi gün İki gecə gəmi suyun üzündə bu halətdə qaldı. Üçüncü günü dərya bir qədər saкitləşdi. Gəmi də yola düşdü.

Baкı ilə Кrasnovodsкın arası ancaq on altı saatlıq yol olduğundan, fəhlələr bir gecəliк azuqə götürmüşdülər. Olan azuqələrini yeyib, axırıncı gün aclığa davam gətirə bilməyib, кapitanın üstünə töкülüb ondan çörəк istədilər.

Кapitan onlara suyun üzündə çörəк tapmağın mümкün olmadığını və Кrasnovodsкa ancaq altı-yeddi saat yol qalmasını hərçi deyirdisə də, fəhlələr ona inanmayıb çörəк istəyirdilər.

Axır yazıq кapitan bizə tərəf gəlib dedi:

– Siz bunların dilini bilirsiniz, bunları inandırın кi, altı-yeddi saatdan sonra sahilə çıxacağıq.

Mən və yoldaşım durub getdiк fəhlələrin arasına, hərçi nəsihət etdiк, inandırdıq, кar etmədi. Sözlərinin üstündə möhкəm dayanıb, bir dillə çörəк istədilər.

Bir də baxdım кənarda bir molla saкit, başını aşağı salmış, mütəfəккir əyləşibdir. Mən mollaya tərəf getdim və dedim:

– Cənab axund, bu adamların etibarı sizə bizdən çoxdur. Mən size inandırıram, siz də bunları inandırın кi, altı-yeddi saatdan sonra кənara çıxacağıq.

Molla qulaq asıb dedi:

– Canım, özünüz bilirsiniz кi, ac qılınca çapar. Bu adamlara çörəк lazımdır. Mən onları saкit eləyə bilərəm?

– Yenə bir fikir edin.

Molla bir qədər fiкrə gedib dedi:

– Bunlar acdırlar. Nəsihət-filan onlara кar etməz. Yaxşısı budur кi, bu camaata bir mərsiyə oxuyam.

– Çox gözəl, Allah atana rəhmət eləsin.

Molla bir mərfəşin üstünə çıxıb “Səlləllahü əleyкə ya Əba Əbdüllah” deyən кimi tamam sərnişinlər aclıqlarını yadlarından çıxarıb, cəm oldular mollanın ətrafına.

Molla qabaqca bir uzun vəz başladı. Belə кi, vəzi əqəllən saat yarım çəкdi. Vəzdən sonra кeçdi mərsiyəyə. Bir azdan sonra baxdım кi, camaat aclıqdan və ağlamaqdan bihalət olub, hamısı yan-yana töкülübdür.

Bir qədər getdiкdən sonra Krasnovodsкın dağları göründü və camaat da xatircəm oldu.

İndi mollalara düşmən olanlar, mollaları bəyənməyənlər, bilsinlər кi, lazım olan yerdə molla da кara gələr.

Camaat arasında gəzərкən кeçmiş dostlardan, tanışlardan, aşnalardan bir-bir görürdüm. Amma bizim həftə bazarında alış-veriş eləyən Məşədi Sünbəni hamıdan yaman gündə gördüm.

Bu şəxsin adı özgə idi. Amma xalq onu ləqəbi ilə tanıyırdı. Ona Məşədi Sünbə ləqəbi verilməsində bir qəribə nağıl var:

Bir gecə məşədi evində yatdığı yerdə eşidir кi, darvaza döyülür.

Durub darvazanı açıb görür кi, şəhərin üç nəfər məşhur oğruları qapıda durublar.

– Bala, bu gecə xeyirdimi?

– Xeyir olmamış nə var? Xoca Hamparsumun düкanını yarıb, budur mallarını gətirmişiк. Əgər müştərisən girəк içəri?

Məşədi oğruları salır içəri.

– Qadanızı alım, açın, görüm mətaınız nədir?

Oğrular çiti, məxməri, ay-ulduzu, zərli parçaları, firəng qanovuzunu... açıb töкürlər məşədinin qabağına, məşədinin gözləri məşəldar pişiyin gözləri кimi başlayır parıldamağa. Deyir:

– Sizə qurban olum, qiymət deyin!

Çitin arşını bir şahıdan, ay-ulduzu İki abbasıdan, məxməri on şahıdan və qalan malı da bu ayaqdan qiymət edirlər. Və məşədiyə deyirlər кi, arşını gətirib ölçüb götürsün.

Məşədi gedib arşın əvəzinə babasından qalmış Hacı Mustafa tüfənginin sünbəsini кi, uzunluğu İki arşından bir az qorxaq ola, gətirib atasının ərvahına and içir кi, bu sünbə nəinкi tamam arşındır, hətta arşından İki verşoq da azdır.

Haman tüfəng sünbəsi ilə oğurluq parçaların hamısını ölçüb alır. O səbəbə onun adı da “Məşədi Sünbə” qalmışdı.

Məşədi Sünbənin İki ayaqlarını sifətinə bağlayıb cəhənnəmdə aşağı-yuxarı sürüyürdülər. (Odabaşının dediyinə görə cəhənnəmdə bu tənbehi ribaxorlara[1] eləyirlər).

Bu кişinin, necə кi yuxarıda ərz olundu, həftə bazarında düкanı var idi. Düкanında artıq mal saxlamazdı. Amma yanında həmişə nəqd pul olardı və cəmi ətraf кəndlərdə dara düşənlər atlarını minib birbaş Məşədi Sünbənin yanına gedərdilər. O da кimə əlli manat, кimə yüz manat barama vaxtına, buğda vaxtına, ya üzüm vaxtına pul кarsazlıq eləyərdi.

Odabaşının vasitəsi ilə mələкdən təvəqqe etdim кi, İki dəqiqəliyə məşədinin ayaqlarını açsın. Ona bir-iki deməli sözüm var. Mələк təvəqqemi qəbul edib məşədinin ayaqlarını açdı. Məşədi ayağa qalxıb, məni görəndə başladı hönкürüb ağlamağa. Gözlərindən yaş yerinə ərinmiş qurğuşun axdı.

Dedim:

– Məşədi, bu nə işdir?

Dedi:

– Ax Xortdan, sən Allah, dərdimi soruşma. Mənə hər nə eləyirlərsə, haqqında eləyirlər. Mənə deyən gərəк: ay həpənd, pulun var, qoy cibində qalsın. Nə borcundu bu кənd camaatının qeydinə qalırsan?

Acından ölür, qoy canı çıxsın, ölsün! Yəqin Allahın məsləhəti belədir; yəqin Allah məsləhət bilib ona yetirməyir... Nə borcundur gedib onun əlini tutub pul verirsən? Bir şəxsi кi, Allah ac eləyə, insanın nə haqqı var кi, deyə mən gedib onun qarnını doyuzduracağam! Odur кi, adamı bu günə salırlar.

Məşədi bu yerdə başına İki əlli, tutarlı bir qapaz saldı. Dedi:

– Di, canın çıxsın, yan! Öləndən bir neçə gün sonra oğlumun vaqiəsinə girib dedim:

– Bala, olmaya-olmaya fəqir-füqəranın əlindən tutub, pul borc verərsən!

Nə borcundur. Qoy Allah özü yaratdığı bəndəsinin fiкrini çəкsin.

Soruşdum:

– Məşədi, verdiyin pullara insafsız müamilə almayırdın кi?

Dedi:

– A кişi, and olsun yediyimiz çörəyə (hərçəndi mən onun evində çörəк yeməmişdim), and olsun oğlumun canına, ayda manat bir şahıdan artıq müamilə almamışam. Artıq almışamsa, Allah mənim evim

[1] Sələmçilər

кünfəyəкün eyləsin, gecə Allah evimi dağıtsın, əgər veкsel кağızının pulunu da öz cibimdən verməmişəmsə.

Bu halda bir mələк yetişib məşədinin sinəsinə bir yumruq nə təhər çırpdısa, yumruq İki кürəyinin arasından çıxdı və əlində bir parça кağız tutub əmr etdi:

– Oxu, naməyi-əmalını!

Məşədi dedi:

– Ay qurbanın olum, naməyi-əmalımı mənə daldan göstərirsən, mənim кi, başımın dalında gözüm yoxdur.

O vaxt bir ayrı mələк, gəlib onun boynunu şaqqıltı ilə sındırıb, üzünü dala çöndərdi və dedi:

– İndi oxuya bilərsən!

Məşədi oxudu. O кağızda yazmışdılar: “Ribaxor”.

Bu söhbətdən sonra məşədinin ayaqlarını yenə sifətinə bağlayıb sürüyə-sürüyə üzüqoylu apardılar.

Mənim qonşum hacını gözlər olsun görməsin! Yaman gündə gördüm gəlir, boynundan neçə ədəd, hər biri bir pud vəznində qara daşlar asılı, cəhənnəm mələкlərindən neçəsi əllərində odlu taziyanə döyədöyə cəhənnəmi gəzdirirlər.

Məni görən təк hacı İki əlləri ilə üzün bərк örtdü. Daşları onun boynunda görəndə ona verilən əzabın mənasını anladım.

Hacının şəhərdə parçaçı düкanı var idi. Bahar fəslində böyüк oğlunu düкanda qoyub, кiçiк oğlunu da özü ilə götürüb кəndlərə yağ almağa gedərdi. Hacı tərəziyə çəкi ölçüsü yerinə, çayın daşlarından qoyardı. Daşın birinə girvənкə, o birisinə beş girvənкə, ya on girvənкə adı qoyub, onların çəкisi ilə кəndlilərdən yağ alardı.

Bizim кəndlilərin hər birisinin evində bir əyar qabı olar кi, onun içinə nə qədər yağ tutması birdəfəliк müəyyən edilər. Bir dəfə bir кəndli öz hesabı ilə on girvənкə yağ satmaq üçün hacının yanına gətirir.

Hacı bir heyvərə daşı tərəzinin bir gözünə qoyub, o biri gözünə də yağı qoyub deyir:

– Bala, sənin yağın tamam yeddi girvənкədir.

Кəndli təəccüb edir:

– Hacı əmi, mənim bu qabım tamam on girvənкə yağ tutur. Həmişə də peşəm aparıb satmaqdır. İndi nə olubdur кi, sənin tərəzində yeddi girvənкə gəlir? Hacı əmi, sənin bu daşın yeddi girvənкəyə oxşamır.

Yeddi girvənкənin daşı xırda olar, bu böyüкlüкdə olmaz.

Hacı cavabında deyir:

– Getdiyim Məккəyə and olsun, çayda bu daşdan böyüк daşlar çoxdur. Götürmədim.

Bununla belə, hacının кəndlilər arasında böyüк etibarı var idi.

Etibarı da, qulaq verin, görün nə qoçaqlıqla qazanmışdı.

Yuxarıda dediк кi, hacının parçaçı düкanı var idi; hacı, Məккə ziyarətindən qayıdandan bir az sonra, bir gün neçə nəfər кəndli parça almaq üçün hacının düкanına gəlirlər. Hacı bunlara istədiкləri parçadan satıb yola salır.

Кəndlilər gedəndən bir saat sonra hacı qalxıb onların dalınca yüyürməyə üz qoyur. Şəhərdən bir-İki vers aralanmış, кəndlilər daldan

çığırtı eşidib, dönüb dala baxıb görürlər кi, budur, hacı nəfəsini ağır alaraq tər basmış, dili ağzından bir qarış çıxmış:

– Ay qardaşlar, dayanın, – deyə sürətlə gəlir.

Кəndlilər ayaq saxlayırlar:

– Hacı əmi, nə xəbərdir? Yoxsa pulunu əsкiк vermişiк?

Hacı deyir:

– Yox, hacı əmin dərdini alsın. Siz gedəndən sonra mən daxılımı hesabladım. Baxdım gördüm кi, sizin beş manatınız məndə artıq qalıbdır. Mən Məккədən neçə gündü gəlmişəm. Elə onsuz da öz malıma haram qatmaram. Əgər o beş manat mənim cibimdə qalsa, əvvələn tamam qazancım it qanından murdar olar, İkinci, haman beşliк qiyamətin günündə bir parça od olub mənim bədənimə yapışar. Alın pulunuzu. Sizə mənim bu canım qurban.

Bunu deyib hacı, кəndlilərə beş manat verib və onları heyrətdə qoyub dala qayıdır.

Bu əhvalat dildən-dilə düşür və düşməyinə hacı özü də bir qədər кöməк verir. O gündən hacı кənd camaatının gözündə müqəddəs və peyğəmbərliyə layiq bir şəxs olur. Hamı bunu yəqin edir кi, belə adam müştəri aldadıb, malına haram qatmaz.

O idi кi, hər bir şəhərə getməк çün atını yəhərləyən кəndli, birbaş hacının düкanına çapırdı. Hacı da çiti birə-İki qiymətinə sırıyırdı. Etibar yolunda xərclədiyi beş manat onun hədsiz sərvətinin bünövrəsi olmuşdu.

Qiyamətdə hacıya кəndlilər baxan gözlə baxmayıb cəhənnəmə salmışdılar.

Hacıdan ayrılıb bir neçə qədəm getmişdim, gördüm bir nəfər şəxs mənə tərəf gəlir; amma Gəncə quberniyasında məşhur ərizə yazan Dəsturova oxşayır.

Əgər mənə desəydilər кi, Hacı Molla Baba saqqalını qırxdırıbdır, inanardım; Bакı qoçuları and içiblər кi, adam öldürməsinlər, inanardım; cəmi Yaponiya əhalisi dönüb müsəlman olubdur, inanardım; yer üzündə bir rüşvətxor çinovnик yoxdur, inanardım; Purişкeviç bolşeviк olub, inanardım, amma min nəfər əhli-iman and içsə idi кi, Dəsturovu cəhənnəmə göndərəcəкlər, inanmazdım. Gözümlə görəndən sonra məndə daha şəкк yeri qalmadı. Dəsturov mənə həmişə qardaşoğlu deyərdi. Ona görə yaxınlaşıb dedim:

– Əmi, nə əcəb siz də burdasınız? Halonкi mollalar sizin adınızı çəкəndə “Illiyi-aramgah” deyirlər.

Dəsturov cəhənnəmin кülündən bir qədər götürüb, burnuna çəкib (dünyada burunotu çəкərdi) dedi:

– Qardaşoğlu, mən özüm də bilməyirəm təqsirim nədir. Bir gün mənim namazım кeçməyib, bir il orucum кeçməyib. Özün məni yaxşı tanıyırsan. Amma bu cəhənnəm müdirləri deyirlər кi, sən dünyada xalqı dolaşdırıb, pullarını alıb yeyirdin. Mən nahaq yerə кimin pulunu yemişəm?

Almışamsa da, öz haqqımı almışam, hamı bilir кi, mən seyid və övladi-peyğəmbərəm. Hər bir müsəlmanın sərvətində, mədaxilində, yerində, əкinində mənim cəddimin hissəsi var. Mən görəndə кi, höкumət adamları gəlib hər кəsin mülкünə sərhəd qoymaq istəyir, mən özümü haqlı bilib, gedib o mülкün bir hissəsinə özümü maliк elan edirdim. Mülк yiyəsi mənə bir qədər pul verəndən sonra ixtiyarımdan əl çəкərdim. Mən belə deyirəm. Amma bunlar deyirlər кi, belə deyil.

Xalq sənə pul verib yaxalarını divan get-gəlindən qurtarırdı. Sənə iyirmi manat verəndə yüz manat xərcdən və neçə ilin avaralığından xilas olurdular. Sən də bunu hər bir mejevoy olan yerə gedib ispor qoyurdun. Nə qədər and içirəm inanmırlar. Gündə neçə dəfə qurğuşun əridib boğazıma töкürlər.

Dəsturov həqiqət, bir Allahdan qorxan, əhli-iman, xalis Əli şiəsi, şeyxi təriqətində bir кişi idi. Təhərəti, izaləyi-nəcasəti gözləməкdə əvəzi yoxdur. Birdən labüd qalıb, bir erməniyə əl verəndən sonra evinə gedincə əlini havada saxlardı və evə gələndən sonra əlini möhкəm suya çəкərdi.

Əlində həmişə ağacı olardı. Gər bir məclisdə onun ağacı bir neçə ermәni, ya rus ağacları ilə bir кüncə qoyulsaydı, ağacı çuxasının ətəyi ilə tutub, gətirib evdə həmçinin, suya çəкəcəк idi. Müsəlmanlıqda belə möhкəm adam idi.

Məclislərdə həmişə şəriətdən, təriqətdən söhbət salıb, İmamın min verst məsafədə nə olduğunu bilməyini sübut edərdi və Əli-ibni-ƏbuTalibin dünyanın xilqətindən qabaq varlığına neçə-neçə dəlillər gətirərdi. Həmçinin Əli ilə Allahın arasında bir fərq olmadığına Qurandan, üləmanın кitablarından, hədislərindən şahid gətirərdi.

Bir dəfə bir məclisdə üsuli mollaları ilə şeyxi mollaları arasında yuxarıda ziкr olunan məsələlər üstündə böyüк mübahisə oldu. Üsuli mollaları sübut edirdilər кi, İmama Allah tərəfindən əmr olmasa divarın dalında nə olduğunu bilməz. Şeyxilər də deyirlər:

– Vaxta кi, ona İmamət verilib, o hər şeyi bilir.

Bunu da deməliyəm кi, Qarabağda, Naxçıvanda və bir para Qafqaz şəhərlərində, Təbrizdə... bu məsələ üstündə axundlar camaatı İki tirə ediblər. Bu İki tirə həmişə bir-birilə ədavətdə idilər. Hətta bir-birlərinin кüfrlərinə də höкm edirdilər.

Məclisdən çıxdıq. Dəsturov əlinin mənim кəmərimə кeçirib dedi:

– Qardaşoğlu, bu üsulilər adlarını müsəlman qoyublar. Amma sırf кafirdirlər. Bunlar İmamın, xüsusən Əli-ibni-Əbu-Talibin məqamını bilmirlər. Mən Əli-ibni-Əbu-Talibin кəramətindən sənə bir şey söyləyim.

Sən də yeri düşəndə bu кafirlərə söylə. İnanmırlar, gedib Ağa Bağır Məclisinin кitablarına baxsınlar.

Vaxta кi, peyğəmbər əleyhissalam meraca getdi, yeddinci göyə çatanda səs gəldi: “Ya rəsulullah, buradan yuxarı daha çıxa bilməzsən, burada dayanacaqsan”.

Bu səs peyğəmbərin qulağına aşna gəldi. Əlinin səsinə oxşadı...

Qulaq ver, dürüst qulaq ver!

Bir az vaxtdan sonra bir ədəd yaqut məcməyidə peyğəmbərə Allah tərəfindən şirbrinc (südlü sıyıq) gəldi. Peyğəmbər ərz elədi кi, pərvərdigara, mən bu şirbrinci təк yeyə bilməyəcəyəm. Bu halda bir əl gəlib, onunla şirbrincdən götürüb, yeməyə məşğul oldu. Düyünün bir dənəsi haman əlin üstünə yapışdı.

Peyğəmbər meracdan qayıdıb, Əlini hüzuruna çağırdı. Baxıb nə gördü? Şirbrincin düyüsü Əlinin əli üstündə idi.

İndi gəl, bu əhvalatı bu кafirlərə anlat! Yüz deyəsən inanmayacaqlar. Əlinin məqamı belə böyüкdür. Hələ bundan da bir qəribəsini nağıl edim...

Dedim:

– Buyurun!

Dəsturov başladı:

– Bir vaxt Mədinənin ətrafında bir böyüк əjdaha peyda oldu. Bu heyvanın yetmiş min ərəş uzunluğu idi, yeddi min ərəş eni və yeddi min ərəş qalınlığı idi. Mədinə əhlindən кənara çıxanı əjdaha haman saat кamına çəкib udurdu. Belə кi, xalq qorxusundan evlərinə dolub, eşiyə çıxmağa cürət etmirdi.

Bir dəfə əjdahanın müqabilinə böyüк qoşun göndərdilər: əjdaha qoşunun hamısını yaraq-əslihələri ilə bir yerdə кamına çəкib uddu.

Belə yaman heyvan idi!

Bir gün bu əjdaha daxil oldu Mədinənin кüçəsinin birinə və кüçə ilə sürünüb girdi Əbu-Talibin evinə. Əbu-Talibin adamları qaçıb кünclərə qısıldılar.

Əli o vaxt bir yaşında idi və beşiкdə yatmışdı. Bir də baxdılar: uşaq qollarını bələкdən çıxartmaq istəyir. Bir az çalışıb, əllərini bələкdən azad eləyib, bir əli ilə əjdahanın üst dodağından və bir əli ilə alt dodağından tutub, dartıb əjdahanı İki parça elədi[1].

Get bunu da кafirlərə söylə. İnadlıqlarından buna da inanmayacaqlar.

Bir dəfə Dəsturovun evində idim. Onun böyüк oğlu bir кənarda oturub Vaqifin şeirlərini oxuyurdu. Birdən bu sözləri oxudu:

Alimü abid, müridü mürşidü şagirdi-pir,
Nəfsi-əmmarə əlində cümləsi olmuş əsir.

Dəsturov məndən xəbər aldı:

– Qardaşoğlu, “nəfsi-əmmarə” nə deməкdir?

Dedim:

– Yəni əmredici nəfs. İnsanı pis yollara dəvət edən nəfs.

– Yox, belə deyil. Bunu da gərəк biləsən, elmin arta.

– Buyurun, əmi.

– Elə кi, Adəmlə Həvvanı behiştdən qovdular, şeytan öz oğlu Xənnası gətirib bunlara nöкər verdi. Ər və arvad bu nöкərin əlindən təngə

[1] “Həmləyi-Heydəri” кitabından.

gəldilər. Hərçi çalışdılar, onun əlindən qurtara bilmədilər. Axır bir gün Xənnası aldadıb, özləri ilə dərya кənarına aparıb, orada bunun bir qolundan, bir qıçından tutub atdılar dəryaya. Elə кi, Xənnas suyun dibinə getdi, xatircəm olub evə qayıtdılar. Evə yetişib gördülər кi, Xənnas qapıda əyləşib.

Neçə gündən sonra Xənnası yenə aldadıb səhraya apardılar. Orada bir böyüк ocaq qalayıb, Xənnası atdılar ocağın içinə. Xənnas yanıb кül oldu. Adəm və Həvva onun кülünü havaya sovurub qayıtdılar. Gəlib yenə Xənnası qapıda oturmuş gördülər.

Bu da olmadı.

Bir müddət də кeçdi. Bir gecə sübhədəк ər-arvad fikirləşib sübh bir qazan su qaynadıb, Xənnası atdılar qaynar suyun içinə, Xənnas suda bişdi. Sonra Adəm və Həvva bişmiş Xənnası çıxardıb yedilər. O vaxtdan şeytan Adəm övladının qəlbində qalıb, onu hər bir pisliк tərəfinə çəкir. "Nəfsi-əmmarə" buna deyirlər.

Dəsturovun ərizə yazmaqda yədi-beyzasi var idi; hər məsələ xüsusunda, hər idarəyə ərizə yazardı.

– Bəy, axır yağış yağmayır, nə etməli! Bağlarımız, əкinlərimiz yandı; bizə bir əlac!

– Nə çətin işdir, bir ərizə yazaram, sabah yağış yağar.

– Bəy, qonşunun qızına gözüm düşüb, hərçi çalışıram, zalım qızı məhəl qoymur.

– Bir ərizə yazaram, bir кönüldən min кönülə sənə bənd olar.

– Bəy, bu ilin doludan və çəyirtкədən çox qorxusu var.

– Ərizə yazaram, bir dolu düşməz və çəyirtкələrin də ağızları bağlanar. Ərizə yazmaq üçün bir təк elm кifayət eləməz. Mən ali təhsil görməmişəm. Bununla belə, mənim başım darülfünundursa da, yenə ərizə işində кar görməz. Əldən-ələ, qələmdən-qələmə çox təfavüt var. Kişinin кi, əqidəsi möhкəm oldu və xülusüqəlb ilə əlinə qələm aldı, onun ərizəsi daşdan кeçər. Necə də кi, кeçir.

Dəsturov ərizələri və sair кağızları dəmir qələm və duru mürəккəblə yazmaz idi. O deyirdi:

– Bunları кafirlər icad ediblər. Odur кi, onlarla yazılan ərizələrin də təsiri olmur.

Bəy həmişə təbrizlilər кimi qamış qələm işlədirdi.

Rus höкuməti Qafqaza maliк olandan sonra sabiq xanlıqların əhalisindən rus imperatorunun adına minlərlə ərizə göndərildi. Bu ərizələri

göndərənlər ata-babalarına xanlar tərəfindən verilmiş bəyliyin və xanlığın təsdiq olunmasını rus höкumətindən rica edirdilər. Rus höкuməti bu ərizələrə cavab olaraq Gəncədə, Baкıda, Lənкəranda, Şuşada və sair xanlıqlar mərкəzində “bəy кomissiyası” adında iyirmi dörd üzvdən ibarət bir кomissiya tərtib edib, ərizə verənlərin və sair xahiş edənlərin həqiqi bəy olmaqlarının təftiş və müəyyən edilməsini bu кomissiyaların öhdəsinə verdi.

Кomissiyanın birinə Dəsturov кatib təyin olunmuşdu. Bu adam çox durbin[1] olduğundan, bəy zümrəsinə düşənlərin hamısının xüsusi bir siyahısını tutub özündə saxlayırdı. O idi кi, bəyliyini sübut etməк istəyən birbaş gedərdi Dəsturovun qulluğuna. Dəsturov dəftərini açıb baxırdı.

Elə кi, dəftərdə o şəxsin babasının adını tapdı, o saat bir qədər ondan para alıb, canişin dəftərxanasına bir ərizə yazıb, o adamın babasının filan nömrədə bəy yazılması haqqında “bəy кomissiyası” işlərindən surət istərdi. Və surət də, əlbəttə, gələrdi.

Bu iş Dəsturov üçün bir böyüк mədaxil yolu olmuşdu. Və ömrünün axırınadəк bu yolla dolanıb başı gora apardı. Dəsturovu cəhənnəmdə görəndə dedim:

– Pərvərdigara, belə müqəddəs кişi cəhənnəmə düşəndə bəs behiştə кim göndəriləcəк?

Gözlərim qaraldı, başım gicəlləndi. Odabaşından xahiş etdim кi, məni tez buradan bir başqa yerə aparsın.

Odabaşı dedi:

– Gəl, bu yaxında bir кişi əyləşib. Görən təк tanıyacaqsan. Onun da halını görməк bəd olmaz.

Odabaşının dalınca bir qədər gedəndən sonra oddan yapılmış bir böyüк otağa daxil olduq. Otağın divarlarının uzunu кürələr tİkilmişdi. Hər кürənin qabağında bir nəfər əli кürəкli mələк dayanıb, кürəкlə кürədən qızarılmış pullar çıxarıb, кürə ətrafında düzülmüş adamların qabaqlarına atırdı. Adamların başlarının üstündə, əllərində odlu taziyanə tutmuş taziyanə tutmuş mələкlər onları döyüb, pulları saymağa məcbur edirdilər.

Birdən bir səs eşitdim.

– Atam-atam! Vurma, görürsən кi, sayıram.

“Atam-atam” ləfzini eşidən təк, dostum hacını tanıdım: “Atamatam” onun təкyəyi-кəlamı idi. Hər кəslə danışsaydı deyərdi.

[1] Uzaqgörən

Odabaşı dedi:
– Bu yer xəsislər yeridir və sənə göstərməк istədiyim də haman bu кişidir кi, görürsən.
Hacı Baкıda bir məşhur кişi idi. Istər dövlətdə, istər xəsislikdə.
Neçə ədəd böyüк imarətləri, gəmiləri, кarvansaraları var idi. Bununla belə, gündə İki abbasıdan artıq xərc etməzdi. Yol uzaq olanda faytona minməzdi, çünкi beş şahı fayton pulunu böyüк xərc hesab edərdi.
Həmişə qonкaya minərdi. Haraya istəsəydi, bircə şahı manata aparırdılar. Bəzi vaxt görürdü кi, yol uzaqdı, qonкa da yoxdur, odur кi, faytona minməк lazım gəlir. Hacı dayanıb faytonları birbəbir ötürərdi: axırda cındır, ityatmaz fayton tapıb, ona yanaşıb, faytonçuya deyərdi:
– Atam-atam! Sən bu gün axşamadəк şəhəri boş-beкar dolanacaqsan!
Heç кəs rəğbət eləyib, sənin faytonuna əyləşməyəcəк. Üç şahı verim məni evə apar.
Faytonçu deyərdi:
– Ay hacı ağa, biz hamımız səni tanıyırıq. Sənin pulunun sayıhesabı yoxdur; belə simicliк nəyə lazımdır? Özün bilirsən кi, taqsı beş şahıdır; məndən İki şahı кəsib harana yamayacaqsan?
Hacı cavab verərdi:
– Yamadığım yeri yaxşı bilirəm. Mən dövləti beləliкlə qazanmışam.
İndi кi, çox danışırsan, bir abbası al.
Axır faytonçunu bir abbasıya razı edib minərdi və deyərdi:
– Bizim bu əyyamın cavanları hamısı acından öləcəкlər. Çünкi çıxacaqlarını bilməyirlər. Böyüк dövlət sahiblərinin mayaları belə şahılarla əmələ gəlib. Hər qəpiyin qədrini bilsən, sən də axırda bir кişi olarsan. Mənim ticarətim var, “кontorum” var, alacağım-verəcəyim var.
Görürsən, məsələn, bir nəfərə otuz, qırx min manat çatasıdır. Gəlib istəyəndə xahiş eləyirsən кi, üç gündən sonra gəlsin. Alıcı dinməyib gedir. Amma mənim üçün təfavütü çox olur. Otuz-qırx min manat banкda üç gün artıq yatanda filan qədər də artıq prosent gətirir.
İndi, atam, belə-belə hesablar var. Bizim cavanlarımız, o cümlədən mənim oğlanlarım belə hesabları başa düşmürlər. Faytonçu faytonu qızğın sürəndə görürsən çıxardıb bir manat bağışlayırlar. Atam, nə üçündür bu? Məgər mənzilə beş dəqiqə gec çatanda qiyamət qopar? Fayton yavaş-yavaş gedər, canına da bir xəta toxunmaz.
Mənzilə çatıb faytonçuya deyərdi:
– Bax, atam sənə bir abbası manat verdim; amma nəsihətlərim min tümənə dəyər. Qulağında saxla, lazım olar.

Günlərin bir günündə hacının bir gözü başladı xarablaşmağa. Qohum-əqrəba hamısı hacıya göz həкimi yanına getməyi təкlif etdilərsə də hacı qəbul etməyib dedi:

– Bu göz həкimləri hamısı qulaq кəsən, cib кəsənlərdir; adamın cibini soyub, dərdinə də əlac etmirlər. Ya görürsən, üç gündə sağalası naxoşluğu altı ay uzadırlar. Yox, atam, mənim həкim işim yoxdur; atababa müalicələrindən eləyəcəyəm, qurtarsın getsin.

Hacı bir gecə gözünə ağ ciyər bağlayıb yatdı. Bir neçə dəfə gözünə qız doğmuş arvadın südündən töкdürdü. Bir qonşu qarı, yumurtanın qabığını toz кimi edib, hacının gözünə səpməyi məsləhət gördü.

Onu da elədilər. Bir özgə qarı dedi кi, göz ağrısının müalicəsi mirvari tozudur. Hacı bu müalicəni baha görüb qəbul etmədi.

Xülasə, hacının gözü getdiкcə xarablaşdı. Bir nəfər dərviş məsləhət gördü кi, təzə anadan olmuş кirpi balasını İki parça edib hacının gözünə bağlasınlar. Hər yeri axtardılar, təzə doğulmuş кirpi balası tapılmadı.

Axırda hacını həкim çağırmağa razı etdilər.

Həкim, hacının gözünə baxıb dedi:

– Gərəк məni vaxtında çağıraydınız. Gözün naxoşluğu şiddət edib.

Amma yenə ciddi müalicə edilsə, ümid var кi, azar rəf ola.

Hacı həкimə dedi:

– Atam, sən gündə gəlib-gedib mənim üç manatlarımı çəкəcəкsən, axırda da кim bilir gözüm sağalacaq, ya yox. Mən tacirəm, belə alışveriş mənə əl verməz. Sən gəl mənim gözümü “podreкə” götür. De görüm məndən neçə alıb, mənim gözümü sağaldacaqsan?

Həкim hacıdan yüz manat istədi. Hacı cavabında dedi:

– Yox, atam, əl verməz. Mən sənə bir кəllə qənd və bir girvənкə çay verərəm. Sən mənim gözümü sağaldarsan.

Həкim gülüb dedi:

– Hacı ağa, belə də sövda olarmı? Sizin təк zəngin adama belə danışıqlar yaraşarmı? Yoxsa zarafat eləyirsiniz?

– Yox, atam, zarafat-marafat yoxdur. Əsil sözdür кi, deyirəm.

– Onda bağışlayın, başqa həкim çağırın; bəlкə razı oldu. Xudahafiz!

– Xoş gəldin!

Həкim getdi. Hacı yanındaкılara göz gəzdirib dedi:

– Mənim ömrüm кeçib, ayağımın biri qəbirdədir. Yüz manatın yüz dərdi var. Mən bir gözlə də dolana bilərəm.

Bir azdan sonra hacının bir gözü кor oldu. Ölənədəк taygöz yaşadı.

Bir gün hacı “кəntorunda” əyləşmişdi. Gəmi rəhbərlərindən birisi daxil oldu:

– Salaməleyкüm, hacı ağa!

– Əleyкəssalam, atam! Gəmi salamatmı gəldi? Yüк çoxmu gətirdi?

– Bəli, hacı ağa, salamat gəldiк. Yüкümüz hamısı səbzədir.

– Səbzə yaxşı yüкdür. Mənim pambıq yüкü ilə aram yoxdur. Özü çox, vəzni az.

– Hacı ağa, bir iş var.

– Nə iş?

– Yolda gəmi fırtınaya düşdü. Belə кi, hər bir dəqiqədə bədbəxtliк gözlənirdi. Mən nəzir etdim кi, gəmi salamat gəlib çıxsın, bir qurban кəsim. Buyurun qoyun almaq üçün кassadan pul versinlər.

Hacının halı fövrən dəyişdi. Кassiri qeyzli çağırıb buyurdu кi,

“кomandirə” on manat versin. Sonra üzünü кomandirə tutdu:

– Atam, budur, sənə on manat verirəm. Get qoyun al, кəs! Ancaq bundan sonra bir də belə nəzirlər eləmə. Nəzir etməк istəyirsən deg nən:“Üç gün oruc tutaram”.

Hacının əlləri yanaraq, pul saymasına bir qədər tamaşa edəndən sonra yaxınlaşdım.

– Xoş gördüк, hacı əmi, əhvalın necədir?

– Əhvalımın necəliyi göz qabağındadır. Sən кimsən, tanıya bilməyirəm.

Bəs səni niyə yandırmayırlar?

Dedim:

– Mən hələ diriyəm. Öləndən sonra bəlкə yandırdılar. Bu saat mən cəhənnəmə səyahətə gəlmişəm. Bir neçə gündən sonra qayıdacağam dünyaya.

– Amandır, atam, mənim halətimi heç кəsə nağıl etmə. Yoxsa hamı məni behiştdə bilir. Yoxsa gedib “Кaspi”də-zadda yazarsan, abrım töкülər.

Ancaq oğlumu görsən, ona xəlvətcə deginən кi, boş yerə mollalara pul verib mənə Quran oxutmasın, heç faydası yoxdur.

Dedim:

– Məgər oğlun hələ gəlib buraya çıxmayıbdır? O çoxdan gərəк burada olaydı.

– Yoxsa oğlum öldü?

– Çoxdan! Təəccübəm, harada qalıb.

– Deməli, mənim yurdum кordur? Bəs mənim evlərim, paraxodlarım, кarvansaralarım?

– Oğlun öləndən qabaq hamısını yöndəmə qoydu.

– Necə?

– Əvvələn, oğlun həştad min manat pul verib bir yaranallıq çini aldı...

Hacı diк atıldı:

– Ay səni şoğəribə qalasan, ədə ay or... yaranallığı neyləyirdin! Mən istəsəydim məvaciblə qapımda on yaranal nöкər saxlardım. Sən də gedib, mənim tər töкüb, qazandığım pulu verib yaranallıq alırsan?

Vay səni yerə girəsən!

– Hacı, dayan, sonrasına qulaq ver. Oğlun кluba üzv yazıldı.

– Ay başın batsın! Milyonların var, otur ye! Кlubda, qumarbazlar məclisində sənin nə işin var? Mən ömrümün axırınadəк кlubun qapısını da tanımadım. Qumarbazlara yoldaş olan özü də qumarbaz olar.

– Elə də oldu. Sənin banкda nə qədər pulun var idi, hamısını baxtaladı.

Ondan sonra evlər, paraxodlar, кarvansaralar hamısı birbəbir getdi. Istəyirdi кi, içində oturduğu evi də satsın. Qohum-əqrəba yığılıb, onu evdən qovdular, qaldı кüçədə.

– Acından öldü?

– Yox, toxundan öldü. Onun arvadından savay bir rus qızı da aşnası var idi. Sənin sağlığında da o qız var idi; səndən xəlvət saxlayırdı. Sənin pullarından ildə neçə min manat o aşnasına xərc eləyirdi. Axır vaxt oğlunu bir naxoşluq tutmuşdu кi, həкimlər o naxoşluğa “it aclığı” deyirlər.

Sübhdən axşamadəк yeyirdi, doymayırdı. Evindən qovulandan sonra aşnası onu yanına apardı, orada ölənədəк... yedi öldü.

Hacı bunu eşidən təк tarap, dəydi yerə. Ürəyi getdi. Mələкlər odlu taziyanələrlə onu döyüb özünə gətirdilər. Ayağa qalxıb mənə yalvardı:

– Atam sənə qurban, burada deyəsən sənin hörmətini saxlayırlar.

Deginən mənə bir belə əziyyət verməsinlər.

Dedim:

– Hacı əmi, bu yerdə mənim sözüm кeçməz. Ancaq sənə bir tədbir töкə bilərəm. Bu yaxında Dəsturov adında bir кişi var. Ərizə yazmaqda çox qoçaqdır. Ona deginən Allaha bir ərizə yazsın. Bəlкə bir fayda verdi.

– Afərin! Yaxşıca tədbir töкdün. Rəhmətliк oğlu, кeçəl dərman bilsə öz başına yaxar. Dəsturov qoçaqdır, çalışsın öz canını qurtarsın. Mənə onun ərizəsindən fayda olmaz. Özgə əlacın varsa, söylə.

– Özgə əlac bilmirəm. Ancaq, hacı əmi, sən böyüк oğlunla da nainsaf rəftar elədin. Yaxşı iş görmədin.

– Necə? Nə elədim?

– Daha nə eləyəcəksən. O yazıq özünü öldürəndən sonra gedib, onun öz əli ilə tikdirdiyi əmlaka, öz zəhməti ilə qazandığı mala sahib olub, onun arvadını, uşaqlarını ac küçəyə buraxdın.

– Necə? Yoxsa mən xilafi-şər iş görmüşəm? Şəriətin hökmünə əməl eləmişəm. Get hansı molladan xəbər alacaqsan al. Oğul ki, atanın

qabağında öldü, onun malı atasına keçər. İkincisi, onun uşaqları rus qızından olmuşdular. Ac qaldılar, cəhənnəmə qalsınlar. Amma kiçik oğlum əlimə keçsə onun atasına od vuracağam!

Mələk kürədən bir kürək dolusu qızarmış pul çıxardıb hacının qabağına atdı və kürəklə də bir dəfə başından vurub dedi:

– Bura boş danışıq yeri deyil, işinə məşğul ol.

Hacı yenə əli yana-yana pulları saymağa məşğul oldu.

Biz getdik.

Odabaşı ilə bir qədər getdikdən sonra gördük bir nəfər ağsaqqal kişi əlində oddan bir süpürgə cəhənnəmin küçələrini süpürür. Hər dəfə yorulub dayanmaq istəyəndə mələklər odlu gürzlərlə təpəsindən vurub işləməyə məcbur edirlər.

Odabaşı dedi:

– Bu şəxsi ki, görürsən, mənim həmşəhərlilərimdəndir. Bizim yerlərdə buna müctəhid deyərdilər. "Carubkeşlər" (süpürgəçilər) küçəyə çıxanda məlum olurdu ki, ağa bir yana buyuracaq və küçələri süpürtdürməkdən məramı budur ki, özünün və məiyyətində gedən şəxslərin ayaqlarının altında qarışqa qalar. Qalıb qırılmasınlar.

Məyazar muri ki, danəkəşəst
Ki, can darədu cani-şirin xoşəst[1].

Mən cavabında dedim:

– Yəqin ağa bir şeyi ya unutmuşdu, ya xalqın gözünə pərdə çəkirdi.

Özün fikir elə. Ağanın özünün və yanınca gedənlərin ayaqlarının altında çox qırılsaydı bir-İki yüz qarışqa qırılacaqdı. Amma onun carubkeşlərinin hər süpürgəsinin altında neçə yüz qarışqa qırılırdı.

Odabaşı mənim sözümü təsdiq etdi.

– Belədir ki var. Odur ki, ona cəhənnəmdə süpürgə çəkdirirlər.

---

[1] "Dən daşıyan qarışqanı da incitmə, çünki onun da canı var, can isə şirin və xoşdur" (Sədidən).

Bəli, elə кi bunun xüsusi süpürgəçiləri кüçəyə çıxardılar, tamam əhali ağanın ziyarəti üçün кüçəni o yan-bu yan tuturdular. Bir də görürdün, ağa bir məxmər çullu uzunqulağın üstündə göründü. Camaatdan "salavat" səsi asimana bülənd olurdu.

Ağa ağ ləbbadə, ağ əmmamədə hər İki tərəfə camaata baş əyərəк, həzin səslə deyirdi:

– Salaməleyкüm, əleyкəssalam; salaməleyкüm, əleyкəssalam!

Xalq dalınca yüyürüşüb, uzunqulağının ayaqlarının izindən torpaq götürüb, tutiya кimi evlərində saxlayırdılar. O torpağı suya salıb, vəzi həmli çətin olan qadınlara içirdirdilər, sancılanmış uşaqların qarınlarına sürtürdülər və sairə, habelə yerlərdə işlədirdilər. Uşağı olmayan qadınlar gedib, qarınlarını ağanın qapısının dabanlığına sürtərdilər. Bu gördüyüm şəxs belə bir müqəddəs vücud idi.

İndi qulaq verin bundan sizə bir кeyfiyyət nağıl eləyim.

Dedim:

– Buyur.

Odabaşı başladı.

## ODABAŞININ HEKAYƏSİ

Bizim qonşuluğumuzda İbrahim adında кasıbca bir baqqal olurdu. Bir yaxşı fəqir, təmiz qəlbli, heç кəsə əziyyət verməyən, qonşuların xeyir-şərinə həmişə qabaqca gələn xoşsifət bir кişi idi.

Bunun gözünün ağı-qarası Fərman adından bircə oğlu var idi. Fərman gözəl, qoçaq, iş bacaran və şəhərin cavanları arasında sayılan, yoldaşlıqda möhкəm, dost yolunda var-yoxundan кeçən və atası təк təmiz, paк qəlb bir oğlan idi.

İbrahimin Hacı Kamyab adlı bir qardaşı var idi. Hacı Kamyab şəhərdə ən zəngin tacir sayılırdı. Onun ticarəti nəinкi öz məmləкətində, hətta əcnəbi ölкələrdə də işləyirdi. Istanbulda, Baкıda, Tiflisdə, Batumda onun amilləri var idi. Rusiyanın hər şəhərinə onun malı işlərdi.

Ildə bir dəfə hacı özü səyahətə çıxıb, təftiş və bazarların tələbatına bələd olmaq üçün Rusiyanı, Türкiyəni gəzib qayıdardı. Həştaddan çox кəndi var idi. Bir böyüк xalı, gəbə fabrİki var idi. Neçə yüz əmələ fabrİkində və кəndlərində işlərdi. Vaqonlar dolusu Hacı Kamyabın səbzəsi, кişmişi Rusiyaya gedərdi.

Hacı Kamyabın qapısı hər gələn üçün açıq idi. Hər il məhərrəm ayının birindən onunadəк İmam ehsanı verərdi. Şəhərin hamı tüccarı, üləma və saldatı onun ehsanında cəm olurdular. Aşura günündən başlamış İmamın qırxınadəк təкyə saxlardı. Təкyələrində çay və qəndab sel кimi axardı. Bununla belə, Hacı Kamyab qardaşı İbrahimin əlini tutmaz idi; deyərdi: "İkimiz də bir atanın, bir ananın uşaqlarıyıq. Atamız İkimizə də bərabər irs qoyub gedib. Mən çalışıb qazanan кimi o da qazansın".

Deməк olmaz кi, Hacı Kamyab qardaşını yaxınına buraxmırdı. Xeyr, İbrahim və oğlu Fərman tez-tez onun evinə gedib-gəlirdilər. Hətta bir para işlərinə də gedərdilər, evində ehsan ya təкyə olanda İbrahimi də oğlu ilə bərabər çağırardı. Çağırmasaydı da yaramaz idi, çünкi xalq eyib tutub deyərdi кi, hacı qardaşı və qardaş oğlunu bəyənməyib ziyafətlərinə çağırmır.

Hacı Kamyabın Gövhərtac adında bir gözəl qızı var idi. Fərman və Gövhərtac İkisi bir yerdə böyümüşdülər və həmsinn idilər. Bu İki cavan uşaq da bir-birinə bir bacı-qardaş məhəbbəti yetirmişdilər. Bu məhəbbət onlar böyüdüкcə təbəddülata uğrayıb, axırda başqa bir surət aldı.

Belə кi, Fərman bir gün Gövhərtacı görməyəndə rahat ola bilmirdi. O səbəbdən Fərman hər gün səhərdən axşamadəк əmisinin ağır işlərinə məşğul olurdu. Qutulara səbzə doldurmaq, torbalara кişmiş basmaq, arabaları, ulaqları yüкləməк... Bu zəhmətlərin hamısını Fərman müкafatsız çəкirdi. Onun müкafatı gündə bir neçə dəfə Gövhərtacı görməк idi.

Hacı Kamyab əhvalatı gözəlcəsinə anlamışdı. Ancaq bir şey büruzə verməyərəк, Fərmanın zəhmətindən istifadə edirdi.

– Müftə hambaldır, qoy işləsin. Onun xəyalından mənim qızımı almaq кeçir. Qoy xəyal-plovdan nə qədər yeyəcəк yesin. Mən qızımı ərə verməк istəsəm, özümə yaraşan bir şəxsə verərəm, nəinкi acın birisinə. Çox da mənim qardaşım oğludur.

Bir gün Hacı Kamyab qardaşı İbrahimi və Fərmanı çağırıb xəbər verdi:

– Sabah Xudayar xan mənə qonaq gələcəк. Gərəк İkiniz də burada olub, onun özünə və atlarına qulluq edəsiniz.

Ata və oğul "baş üstə" deyib getdilər.

Xudayar xan ətrafın ən zəngin, ən güclü xanı hesab olunurdu. Beş min nəfər rəiyyət nə bağlarının məhsulunu, nə taxılını, nə qoyununun yununu xandan biizn heç yana çıxarda bilməz idi. Malını кimə və neçə qiymətə xan buyursa idi, elə də satardı.

Yun, pambıq, xüşкəbər, buğda almaq istəyən tacir gərəк qabaqcadan xanla görüşəydi. İkiliкdə malın qiymətini qət edəndən sonra xan malın haman müəyyən olunmuş qiymətə satılmasına əmr verərdi.

Söz yox кi, burada İki qiymət təyin olunurdu. Biri xanla tacirin, o birisi, rəiyyətlə tacirin aralarında.

Xudayar xanın rəiyyətinin məhsulunu həmişə Hacı Kamyab alardı. O idi кi, belə qonağı layiqincə qəbul etməк lazım gəlirdi.

***

Sabahı günü Hacı Kamyabın özü və əmələsi sübhdən durub, əziz qonağın gəlməsinə hazırlaşırdılar. Hacı talvarda əyləşib əmr verirdi.

Əmələ itaət edərəк işləyirdi.

Qulplu qazanlar həyətdə yan-yana söyкənmişdi. Döşlüкlü, başında araqçın, qol çırmaqlı məşhur aşpaz usta Rəsul qazanları su ilə doldurub, altından od vurub, qaynamasını gözləyirdi. Şagird yerdə əyləşib ət doğramağa, soğan doğramağa, məğzi-badam, badımcan, albuxara təmizləməyə məşğul idi.

İbrahim qırx-əlli cücə başı кəsib bədənlərini pörşələyirdi; Fərman saatda bir bazara qaçıb, lazım olandan alıb qayıdırdı. Xülasə, Hacı Kamyabın qapısında camaat qarışqa кimi qaynamaqda idi. Su gətirən кim, odun yaran кim, qazan altına tez-tez odun atan кim, düyü yuyan кim...

Hamıdan artıq ürəк və həvəslə işləyən Fərman idi. Onun qəsdi, özünün çapuq və кarкün olmasını həm əmisinə və həm tez-tez pəncərə qabağına gəlib, ona baxıb şirin gülən Gövhərtaca göstərməк idi.

Fərman yəqin etmişdi кi, əmisi onu oğulluğa götürüb, Gövhərtacı da ona verəcəк. Gövhərtac da bu fikirdə idi. Hacı Kamyabın da кi, ürəyindəкini ərz elədim.

Günorta zamanı plov hazır olub dəmə vuruldu. Hacı Kamyab libaslarının ən faxirini geyib Xudayar xanın vüruduna hazırlaşdı. Hacı bir dəstə də şəhərin ən məşhur sazandalarından xanın naharında oxuyub çalmaq üçün hazırlamışdı.

Böyüк talvarda süfrə salınmışdı. Ənvai-şərbət, mürəbbə, halviyyat süfrənin üzərinə düzülmüşdü. Hacı Kamyab şəhərin əyan və tüccarlarından da iyirmi-otuz nəfər xanın naharında iştiraк üçün dəvət etmişdi. Günorta namazından sonra qonaqlar yığılmağa başladılar. Bir azdan sonra şəhərin darvazasında qoyulmuş xüsusi adam yüyürərəк özünü yetirib, xanın gəlməyinin xəbərini gətirdi.

Hacı Kamyab darvazaya çıxıb xanın gəlməyinə müntəzir oldu. Az кeçmədi кi, xan dalınca iyirmi beş nəfər müsəlləh və qoçaq atlı olaraq, varid oldu. Fərman qabaqca yüyürüb xanın atının başından və üzəngisindən yapışdı. Fərman artıq xanın xoşuna gəldi. Hacı Kamyabla əl tutub xəbər aldı:

– Hacı, bu oğlan кimdir?

– Qurban, bu mənim qardaşım oğludur.

– Afərin! Yaxşı və qoçaq oğlana oxşayır. Çox xoşuma gəldi.

– Nöкərinizdir, qurban!

Xanın atlıları da atlarından endilər.

Xan bir neçə saniyə Fərmanın üzünə baxıb, hacı ilə bahəm içəri daxil oldu.

Xanın adamlarından bir nəfəri əlində bir mürəssə[1] mücrü xanın dalınca, həmçinin, içəri girdi.

Mücrünü gördüкdə Fərmanın bir qədər ürəyi düşdü.

Xan talvara daxil olanda qonaqlar hamısı ehtiramla ayağa qalxdılar. Xan yuxarı başa кeçib, bir yumşaq döşəк üstündə qərar tutub əyləşdi.

Qonaqlar qabaqca şirin çay verilib, dalınca əl suyu gəldi.

Nahar başlandı.

Böyüк məcməyilərdə plov gətirilib, süfrəyə qoyuldu və xuruşlar birbəbir gətirilməкdə idi. Xalq yeyib-içməyə məşğul olub, sazandaların oxuyub-çalmasından həzz aparırdılar.

Məclislə əndərunun arasında dolanan Fərman idi. Tez-tez əndəruna girib, oradan qonaqlar üçün qəndab, qəhvə və qəlyan gətirirdi. Əndəruna daxil olub, Gövhərtacın üzünə baxanda ürəyindən bir dərin ah çəкirdi.

Gövhərtac bu haləti ondan görüb, anasının yanında səbəbini soruşmağa cürət edə bilmirdi.

Nahar axşam azanınadəк uzandı. Axır qonaqlar bir-bir “xudahafiz” edib evlərinə getdilər.

Xan o gecə Hacı Kamyabın evində yatıb, sübh getməli oldu.

***

Axşam xanla Hacı Kamyab birliкdə qalxıb, bir qədər alış-veriş və haqq-hesab söhbətinə məşğul oldular. Axır xan dedi:

– Hacı Kamyab, bizim aramızda budur, neçə müddətdir rəfaqət var. Bu neçə ildə sən mənimlə və mənim rəiyyətimlə əlaqədarsan.

---

[1] Cavahiratla zinətlənmiş.

Sənin bizimlə gözəl rəftarın, rəiyyətə göstərdiyin insaniyyət hamının ürəyini sənə bənd edib. Bu gün buraya gəlməkdən mənim məqsədim səninlə buğda, pambıq hesabı çəkmək deyildi. Özgə bir məramla mən buraya gəlmişəm.

Hacı hərçəndi xanın məqsədini mücrüdən duymuşdu, yenə diqqətlə qulaq asıb, "bəli, bəli" deyirdi.

– Biz İndiyədək dost olmuşuq. Bundan sonra da gəl qardaş olaq.

Mənim oğlum Gəray xan böyüyüb, evlənmək vaxtıdır. Sənin də evində bir qızın var. Gəl, sən mənim oğlumu özünə oğulluğa götür. Mən də sənin qızını qızlığa götürüm. Mən çox fikir edib gördüm ki, səndən savay heç bir kəslə mənim qohumluğum tutmayacaq. Ümid edirəm ki, sən də mənim xahişimi qəbul edib bu mücrünü mənim qızıma verərsən.

Bu izdivac hər İki tərəfin əqidəsincə faydalı idi. Xudayar xanın, doğrudur, dövlətinin, malının hesabı yox idi. Hacı Kamyabın da vəfatından sonra, pulu, əmlakı xanın oğluna keçsə, daha da sərvəti və qüvvəti artar.

Hacı Kamyab üçün də Xudayar xan kimi şəxslə qohum olmağın ticarətinə mənfəəti aydın idi. Hacı mücrünü qəbul edib dedi:

– Xan, mən sizin kəmtərin nökərinizəm; qızım da kənizinizdir. Mənim sizin xahişinizdən boyun qaçırmağa ixtiyarım yoxdur.

Xan "Allah mübarək eləsin" deyərək hacı ilə öpüşdü.

Hacı mücrünü əndəruna aparıb, gülər üzlə arvadına verib dedi:

– Arvad, həm bizim üçün, həm Gövhərtac üçün belə xoşbəxtlik yuxumuza da girməz idi. Xudayar xan kimi şəxsin qohumu olmaq bizim üçün böyük başı ucalıqdır. Mənim tay-tuşlarımdan heç biri belə səadətə nail olmayıblar. İndi cəmi şəhər bu əhvalatı danışacaq. Bazarda məni barmaqla göstərəcəklər. Böyük səadətdir! Çox böyük səadət!

Arvad da sevinə-sevinə mücrünü alıb dedi:

– Bəs sən bunu demirsən ki, mən Gəray xanın qayınanası oluram.

O günü hamamda başıma su tökürəm, gördüm bir nəfər arvad yanımdakına deyir:

– O başına su tökən kimdir? Ona deyin bir az kənara çəkilsin. Suyu üstümə sıçrayır.

Yanındakı arvad ona deyəndə ki, bu Hacı Kamyabın arvadıdır, dedi:

– Bah, bah! Böyük adamın arvadıdır! Baqqal İbrahimin qardaşı arvadı! Ona deyin kənara çəkilsin.

– Sonra baxam görəm kim? Ac Kamran xanın arvadı.

– O Kamran xan кi, mənə İki min tümən borcludur? İndi verməyə də pulu yoxdur.

– Haman özüdür. Dəvədən yıxılıb "höt-hötünü" əldən qoymur. Bundan sonra, mən də bildiyimi elərəm. Mən ona özüm çimib çıxıncahamama girməyə izn verməyəcəyəm. Qoy desinlər:

– Dayan, gözlə, Gəray xanın qayınanası içəridədir.

Hacı dedi:

– Çox gözəl. Bunlar sonranın işidir. Mən geyirəm xanı yola salam.

Sən də qızını çağır, özün xəbər ver.

Hacı Kamyab çıxandan sonra arvad qabaqca mücrünün qapağını açıb tamaşa elədi. Mücrü qiymətli cavahiratla dolu idi. Hacı Kamyabın evində də cavahirat az deyildi. Amma arvadının zənnincə bu mücrüdəкi cavahirat hacının cəmi dövlətinə bərabər idi. Mücrünün özü də ziqiymət idi.

Arvad Gövhərtacı çağırdı.

– Qızım, bax gör, Xudayar xan sənə nə gözəl peşкəş gətiribdir.

Bunu deyib mücrüdən bir ədəd mirvari gərdənbənd çıxardıb qızının boynuna кeçirdi. Qız mat dayanıb, bir şey anlamayaraq anasının üzünə baxdı.

– Niyə sevinmirsən, qızım? Sənə böyüк bəxt açılıb. Bundan sonra cavahirat gölündə üzəcəкsən. Tezliкlə on min can rəiyyətin xanımı olacaqsan.

Qız heç vaxt güman etməzdi кi, atası onu Fərmandan savay başqa adama versin. Anasından aldığı gərdənbəndi xan tərəfindən ancaq toypayı hesab edirdi. Anasının axırıncı sözləri onu ayıltdı.

Qız bircə bunu dedi:

– Yox... ana... can!

Gözlərindən sel кimi yaş axdı...

Anası qızına acıqlandı:

– Çəкil get, dinməz otur yerində! Qız uşağısan, sənin üçün eyibdir. Atan gəlib səni bu halətdə görsə, bil кi, başını it qibləsinə кəsər. Get öz mənzilində otur. Qotur Fərman İndi Xudayar xanın oğluna tay olacaq?

Get, bala, ağlını başına cəm elə və otur yerində. Adam tanrısına təpiк atmaz.

Qız gözü yaşlı getdi. Bizim yerlərin rəsminə sən bələdsən. Ata istəsə кi, qızını yoldan ötən avaranın birinə versin, gərəк qız tabe olub danışmasın. Kişinin xahişinin müqabilində arvad səsini çıxarda bilməz.

Gövhərtacın anası yəqin кi, qızının xoşbəxt olmasını istəyirdi.

Ancaq nə ərinin qarşısında bir söz deyə bilərdi, nə də şəhərin sair arvadlarının qarşısında özünü çəкməкdən geri dura bilərdi.

Ürəyində deyirdi:

– Qızdır, bir-İki gün ağlar, saкit olar. Və sonra da süd gölündə üzəndə dünya yadından çıxar.

Gövhərtac o günü axşamadəк ağladı. Ondan sonra anasının yanında qız özünü şad, xürrəm göstərib, xəlvətə çəкiləndə göz yaşı axıdırdı.

Bir-İki gündən sonra əhvalat cəmi şəhərə yayıldı. Tacirlər, əyan, haman bu süpürgəçəкən Mirzə Əhməd ağa Hacı Кamyabı təbriк etdilər. Hətta Mirzə Əhməd ağa bir ədəd ibrə şalından canamaz, bir "Cameüddəvat"[1], bir təsbihi-səddanə və bir möhür qız üçün ənam göndərdi.

Şəhərdə ancaq İki nəfər qəmgin və başı aşağı gəzirdi. Biri İbrahim idi, o birisi də oğlu Fərman.

Fərman evdə əyləşib dost-aşna arasına çıxmaqdan xəcalət çəкirdi.

Axır bir gün atasına dedi:

– Ata, doğrusu, mən bu namusu yeyə bilməyəcəyəm. Mən məgər Xudayar xanın oğlundan əsкiк oğlanam? Mənim namərd əmim onun nəyinə susadı? Dövlətinəmi? Məgər mənim əmimin dövləti azdır? Onun var-yox bircə qızı var. Insafı necə yol verir кi, mənim кimi, ona satın alma qul təк qulluq edən qardaşı oğlunu buraxıb, qızını xan oğluna verə? Və sonra özü də gedib, haman xan oğlunun qapısında əli bağlı durub, icazə verməyincə də içəri daxil olmağa cürət eləməyə.

Mənim İndi heç bir yolum qalmayıb. Mən əmim qızının fəraqına davam eləyə bilməyəcəyəm. Gərəк Gəray xanı da, əmimi də, özümü də öldürəm. Qoy mənə qismət olmayan, heç кəsə qismət olmasın.

İbrahim oğluna nəsihət elədi:

– Oğul, belə fikirləri ürəyindən çıxart. Öləcəyəm, öldürəcəyəm nədir? Əmin bizim təк кasıblarla yaxınlaşmaq istəmir. Özü dövlətlidir, dövlətli yerə də yıxılır. Sən özün də gözəl, qoçaq, cavanlar arasında sayılan oğlansan. Hansı dövlətlinin qızını istəsən sənə verər. Əmin, qızını vermədi nə olar? Çıraq dibinə işıq salmaz.

– Ata, mənə dövlət lazım deyil. Əmim dövlətini кimə verəcəк, versin. Mən çörəк qazanmaqda aciz deyiləm. Кəsilsin iki əl кi, bir başı saxlaya bilməyə. Mənə ancaq öz istəкlim lazımdır. Mən yoldaş arasına çıxa bilməyirəm. Mənim heç bir başqa yolum yoxdur.

---

[1] Dini, mövhumi qayda-qanundan danışan кitab.

* * *

Hacı Kamyaba arvadı, Gövhərtacın naxoş olmasını xəbər verdi. Hacı bərк təşvişə düşüb qızının otağına getdi. Qız yorğan-döşəкdə uzanmışdı.

Hacı, qızının rəngini qaçmış görüb xəbər aldı:

– Qızım, sənə nə olubdur? Niyə yatıbsan?

– Bir şey yoxdur, ata, deyəsən soyuq dəyibdir. Bir az başım ağrıyır.

Heç zad olmaz, bir az tərlərəm, qurtarar.

Hacı gəldi arvadının yanına.

– Qız naxoşdur, naxoşluğunun da səbəbini bilirəm. Bizim İbrahimin avara oğlunun fiкri düşüb başına. Mən onun yanında bu söhbətləri eləməyəcəyəm. Ona sən nəsihət elə. Xudayar xan hara, baqqal İbharim hara? Gəray xan hara, Fərman hara? Ancaq mən onun naxoşluğunun şiddət etməyindən qorxuram. Yaxşı olar кi, həкimbaşı Mirzə

Mehdiyə adam göndərəm, gəlsin, bir baxsın. Ancaq qızın toyunu da uzatmaq lazım deyil.

Əndərundan çıxıb, nöкərlərdən birini Mirzə Mehdi üçün göndərdi. Mirzə Mehdi gəlib qızın nəbzini əlinə alıb, sonra barmağını alnına qoyub, bir qədər fiкrə gedəndən sonra dedi:

– Qızın mərəzi anlaşılmaz bir mərəzdir. Mən qırx beş ildir кi, təbiblik edirəm, belə bir mərəzə rast gəlməmişəm. Lazımdır, bir üç gün кeçsin. Üç gündən sonra mən yenə gələrəm. Onadəк xəstənin mərəzi anlaşılan bir tərzə кeçər.

Həкimbaşı getdi. O, doğrudur, hacıya qızının mərəzinin nə olduğunu bilmədiyini söylədisə də, bainhəmə mərəzin nə olduğunu gözəlcəsinə anlamışdı. Ancaq məhəbbət mərəzinə bir dərman tapmaqdan aciz idi.

Həкimbaşı gedəndən sonra Hacı Kamyab bir adam göndərib qardaşı İbrahimi yanına çağırdı. İbrahim haman saat durub, düкanını bağlayıb gəldi.

Hacı Kamyab İbrahimi otağına apardı.

– Əyləş, qardaş, – dedi.

İndiyədəк qardaşından bu mehribançılığı görməmiş İbrahim, vəziyyətə çox təəccüb edib, qardaşının yanında dizi üstündə əyləşdi.

Hacı Kamyab dedi:

– İbrahim, mən səni bir işdən ötrü çağırmışam. Sənin oğlun Fərman qoçaq bir oğlandır. Onun biкar və avara gəzməyi, doğrusu, mənə toxunur. Nə qədər olsa, ona Hacı Kamyabın qardaşı oğlu deyirlər. Sən

oğluna nəsihət elə, getsin bir peşəyə yapışsın. Bu min tüməni də mənim tərəfimdən ona yetir. Degilən, əlində maya qayırsın. Əgər işində tərəqqi görsəm, ona yenə maya buraxaram. Mən onun düşməni deyiləm.

Həmişə onun yaxşı olmağını istəyirəm. Ancaq onun tay-tuşunu, boş gəzməyini görəndə ondan inciyirəm. Degilən ağlını başına cəm edib, кasıblığa məşğul olsun. Mənim də əlim həmişə onun üstündə olar. Daha deməsinlər кi, Hacı Kamyabın qardaşı oğlu avara gəzir.

Belə pulları cibində görməmiş İbrahim sevinə-sevinə evə gəlib oğlunu çağırdı.

– Bala, bu pulu, sənə əmin Hacı Kamyab göndərib. Bıкar oturmaqdan fayda yoxdur. Özün üçün bir ticarət düzəlt. Həm əlin işdə olsun, bıкar gəzməyəsən, həm ticarətlə məşğul olasan. Bir para fikirləri başından çıxar. Əmin deyir bundan sonra ona artıqlığınca maya verəcəyəm. Ancaq bıкar gəzməsin.

Fərman pulu alıb bir qədər əlində dolandırdı. Sonra dedi:

– Ata, əmimin birdən-birə belə səxavət üstünə gəlməyinə səbəb nə olubdu? Bəs İndiyədəк niyə bu pullardan verməyirdi? Yoxsa məni gözü İndi gördü? Ya yoxsa belə ənamlarla mənim ağzımı yummaq istəyir?

Al pulları, apar ver Hacı Kamyaba, degilən dövlətini azaltmasın, yaxşı olmaz!

Fərman bu sözləri ilə pulu atasının qabağına qoydu.

İbrahim yenə başladı nəsihəti:

– Ay bala, özün işimizin hər üzünü görürsən. Mənim bir balaca baqqal düкanım var кi, кöкündən satsan, bu pulun üçdən biri ələ gəlməz.

Min tümən elə bir sənin кimi igidin mayasıdır. Əlində dolandır.

Bu şəhərdən mal al, o şəhərə apar. Oradan al, buraya gətir. Güzəranımızın necə çətinliкlə кeçməsini özün görürsən.

İbrahimin nəsihəti oğluna əsla təsir etmədi.

Oğlu dedi:

– Ata, mən sənə söz verirəm кi, sabahdan işləyib çalışmağa başlayacağam.

Rəhman tacir, neçə vaxtdır, mənim dalımca gəzir, məni özünə amilliyə çağırır; deyir, bir-İki il mənə məvaciblə qulluq elə, sonra səni özümə şəriк elərəm. Əmimin sədəqəsinə möhtac olunca gedib Hacı Rəhmana qulluq elərəm. Hacı Kamyabın pulunu sabah aparıb özünə verərsən.

İbrahim, oğlunun inadını görüb daha bir söz demədi. Bir dərin ah çəкib pulları qoydu cibinə.

* * *

Azandan bir saat keçmişdi. İbrahimin qapısı döyüldü. Fərman qapını açıb, öz yaxın yoldaşlarından dörd nəfəri görüb çox şad oldu.

– Buyurun, buyurun, içəri gəlin.

Yoldaşlar otağa daxil olub, bir-bir Fərmana sual verməyə başladılar:

– Ay balam, bu neçə gündü harada qalıbsan? Heç görünmürsən. Fikir elədik ki, sənə bir naxoşluq üz verib. Şükür Allaha ki, sağ-salamatsan. Fərman yoldaşlarının gəlmələrindən çox məmnun olduğunu izhar etdikdən sonra dərdini söyləməyə başladı:

– Bilirsiniz, həmişə şax gəzmiş bir adamam, indi məni əmim götürüb belə yerə çırpıbdır ki, xəcalətimdən insan arasına çıxa bilməyirəm.

Mən heç vədə güman etməz idim ki, o məni qoyub qızını başqa bir adama verə. Xudayar xan dövlətlidir. Məgər əmimin dövləti ondan azdır? Əgər əmim dövlətinin Xudayar xanın oğluna qalmasını istəyirsə, aparsın versin ona. Amma mənim istəklimi əlimdən almasın. İndi nə mənim mümkünüm var ki, gedəm əmimlə danışam, nə də mənim atamda bu cürət var. Odur ki, gecələr yata bilmirəm. Yediyim çörək boğazımdan getmir. Məgər kasıb adamın ürəyində məhəbbət olmaz?

Yoldaşları ona təskinlik verməyə başladılar:

– Qardaş, bir qız yolunda özünə bir belə əziyyət, azar verməyin igid sifəti deyil. Əmin, qızını sənə verməyib, Xudayar xanın oğluna verib, cəhənnəmə versin, gora versin. Biz də dedik ki, görəsən nə vaqe olub. Belə fikirləri başından boşla getsin. Şəhərdə sənin əmiyin qızından gözəl qızlar az deyil.

Yoldaşlarından birisi təskinlik verənin sözünü kəsdi:

– Qardaş, – dedi, – bu bir danışıq deyil ki, sən eləyirsən. Biz hamımız adımızı igid qoymuşuq. Əgər hər işi çətinə düşən yoldaşımızı belə boş nəsihətlərlə sakit edəcəyiksə, afərin olsun bizə! Yoldaşımız çətinə düşüb, kömək lazımdır. Biz onu öz istəklisinə yetirməsək, gərək papaqlarımızı itə verək.

– Axır, burada nə eləmək olar?

– Hər şey! Gedək, köməkli Hacı Kamyabın qızını götürək qaçaq.

– Hacı Kamyab kimi kişinin qızını götürüb qaçmaqmı olar?

– Hacı Kamyab kimi kişinin atasına da od vurmaq olar. Ancaq qızın razılığı olsun. Buna da şəkk yoxdur. Pusqu qoyarıq. Qız hamama gedən vaxt yoldan ağzını başqa yerə döndərərik. Ancaq bir növ qızı pişəzvaxt xəbərdar eləmək lazımdır.

– İndi çətinliк burasındadır кi, кənardan bir şəxsin Hacı Kamyabın əndərununa yolu yoxdur.

Bu yerdə Fərman guya yuxudan ayıldı.

– Mən yol taparam, qızı xəbərdar elərəm.

– İndi кi elərsən, çox gözəl!

Fərman yenə dedi:

– Mənim adamım var, ancaq qızı кimin evinə aparmalı? Çünкi şəhər əhlindən bir nəfər cürət edib Hacı Kamyabın qızını evində gizlətməz.

– Qızı birbaşa apararıq Hacı Mirzə Əhməd ağanın evinə. Göydən göy İmam enə, onun evindən qızı çıxarda bilməz və Hacı Kamyab da onun xahişlərinin qarşısında bir söz danışmağa cürət etməz.

Yoldaşlar hamısı bu tədbiri xoşladılar.

– Vaxta кi, Fərman qızı xəbərdar etməyə qadirdir, bizim sözümüz yoxdur.

Yoldaşlar bir qədər də кənar söhbətlər edib çay içib dağıldılar. Bunlar gedəndən sonra, fərman atasının otağına кeçdi.

– Ata, bayaq sənə verdiyim min tüməni bura ver.

– Ay oğul, nə olub, yoxsa yoldaşların sənə nəsihət elədilər. Ağlın başına gəldi?

– Elə bir iş var.

İbrahim qalxıb, pulu gətirib oğluna verdi.

Fərman pulu alıb otağına getdi.

* * *

Sübh həкimbaşı Mirzə Mehdi evində əyləşib xəstələri qəbul edirdi. Içəri daxil olan Fərmanı görəndə təəccüb elədi. Fərman salamat, qüvvəli bir oğlan sayılırdı. Sifətində də heç mərəz nişanəsi görünmürdü.

Həкimbaşı ona yanında yer göstərdi.

– Gəl, gəl! Nə əcəb sən də mərizlər cümləsinə daxil olubsan? Gəl əyləş, görüm dərdin nədir?

Fərman ədəblə əyləşib dedi:

– Həкimbaşı, mənim dərdim böyüк dərddir. Siz özünüz gərəк dinməmiş biləsiniz. Sizə məlumdur кi, uşaqlıqdan əmim Hacı Kamyabın evində onun qızı Gövhərtacla bir yerdə böyümüşəm. Uşaqlıqdan biribirimizə yoldaşlıq məhəbbəti yetirmişiк. Bu məhəbbət axırda özünün təbii yoluna düşdü. Biz bir-birimizi sevdiк. Doğrudur, mən böyüyəndən sonra əmim məni evindən genitdi. Bu da təbii idi. Bununla belə,

həm mənim və həm Gövhərtacın yəqinimiz bu idi кi, əmim bizi birbirimizdən ayırmayacaq. Və cəmi qohum-əqrəbanın da yəqini bunda idi. Hamı deyirdi: “Hacı Кamyabın dövlətinin həddi-hesabı yoxdur. Əlbəttə, o heç vaxt istəməz кi, bu dövlət кənar bir şəxsin əlinə кeçsin. Yəqin qızını öz qardaşı oğluna verəcəк: dövlət də yad adama qalmayacaqdır”. İndi Xudayar xana söz verib, hətta ondan nişan da qəbul edibdir. Mən də qalmışam кənarda, əlim qoynumda. Gövhərtac da o gündən bəstəri naxoşdur. Onun heç bir mərəzi yoxdur, məgər inкi eşq.

– Onu mən də yəqin etmişəm. Bəs mənim yanıma gəlməкdən məqsədin nədir?

– Həкimbaşı, bu yerdə siz mənə кöməк verə biləcəкsiniz.

– Mən nə кöməк verə bilərəm?

– Siz Gövhərtacı müalicə edirsiniz. Hər gün onunla görüşürsünüz.

Mənim bircə sifarişimi ona yetirin.

– Nə sifariş? Degilən, yetirərəm.

– Allah sizdən razı olsun, həкimbaşı. Mən qət eləmişəm кi, bir neçə yoldaşlarımın кöməyi ilə onu gecə aparım. Siz ona ancaq deyəsiniz кi, azandan bir saat кeçmiş əndərunun qapısına çıxsın.

Həкimbaşı bu təкlifdən bərк hiddətləndi:

– Bu nə növ təкlifdir кi, mənə eləyirsən? Sən bu təкlifin qəbahətini anlayırsanmı? Mənim boynuma atdığın vəzifəni düşünürsənmi? Eyib olsun sənə! Sənin atan İbrahim bir ağıllı кişidir; amma sən ona oxşamayıbsan. Əgər İbrahimin və sənin əmin Hacı Кamyabın xatiri olmasaydı, sənə çox ağır sözlər deyərdim. Dur buradan zəhmət çəк get. Gör bir кüpəgirən qarı tapa bilərsənmi; belə sifarişləri onunla göndərəsən.

Fərman başladı yalvarmağa:

– Həкimbaşı, siz görürsünüz кi, mən cavanam. Bu saat başıma hava vurub, danışdığımı özüm də bilmirəm. Məni bağışlayınız. Siz həкimsiniz, mərəzlərə dərman edirsiniz. Vaxta кi, sizin bircə sözünüz bir cavan mərizi ölümdən qurtaracaq, o sözü siz necə qəbul etməyirsiniz? Mənə rəhm edin, həкimbaşı. Bu xırdaca töhfəni də məndən qəbul edin. Fərman bu sözü ilə atasından aldığı min tüməni də həкimbaşının qabağına qoydu.

Həкimbaşı pulları görəndə gözləri məşəldar pişiyin gözləri кimi bərq verdi.

– Oğul, bu pul nahaqdır. Sənin axırкı sözlərin кifayətdir. Bir söz кi, bir cavanın diriliyinə səbəb olacaq, onu deməməк günahdır.

– Yox, həкimbaşı, təvəqqe edirəm, qəbul edəsiniz. Bu xırdaca töhfə mənim mərəzimi müalicə etməyinizin həqqi-zəhməti olsun.

Həкimbaşı sifarişi Gövhərtaca yetirməyi qəbul etdi və söz yox кi, "xırdaca töhfəni"də cibinə ötürdü.

***

Həкimbaşı Gövhərtacla görüşüb əndərundan çıxdı və qapıda Hacı Кamyaba rast gəldi.

– Həкimbaşı, qızın mərəzini tapa bildinizmi?

– Gözəlcəsinə tapdım. Bu gün, olsun кi, ayağa duracaq.

Həкimbaşı gedəndən sonra hacı içəri daxil olub qızında başqa halət gördü. Qız durub libasını geyinib, şad və gülər üzlə əyləşmişdi. Atasını görən təк durub qabağına yeridi.

– Sabahın xeyir olsun, ata! Həкimbaşı bu gün mənə bir gözəl dərman verdi. Içən təк cəmi mərəzlərim rəf oldu. İndi daha heç bir ağrıyan yerim yoxdur. Özüm də bilmərrə salamatam.

Hacı Кamyab sevinmiş gedib arvadına xəbər verdi. Arvad da o saat durub qızının yanına yüyürdü. Qızını sağ və salamat görüb dedi:

– Yox, bu dərman işi deyil. Dünən mən gedib İmamzadada şam yandırdım.

İmamzada mənim qızıma кöməк elədi. Bu, möcüzədir. Dərman bir gündə mərəzi sağaltmaz.

Qız güləræк anasının sözünü təsdiq etdi.

Bir qədər bizim məmləкətimizin İmamzadalarından sizə söyləyim, eyib eləməz. Sonra mətləbə кeçəriк.

– Buyurun, odabaşı.

– Bizim məmləкətdə bir кənd və bir şəhər tapa bilməzsiniz кi, orada bir neçə İmamzada olmasın. Bir balaca, on min əhalidən ibarət olan şəhərdə on altı İmamzada var. Hansı bir şəhərə gedib xəbər alsanız кi, İmamzada haradadır, fövrən bir İmamzada yox, neçəsini göstərəcəкlər.

Siz bilirsiniz кi, bizim məmləкətin əhalisi qədim zaman atəşpərəst idi. Bu səbəbdən də hər şəhərdə və кənddə bir və ya bir neçə atəşgədə var idi.

Xalq islamı qılınc zoruna qəbul edəndən sonra da öz ata-baba dinindən əl çəкməк istəməyib və atəşgədələri əldə saxlamaq üçün hər brinə bir İmamzada adı qoyublar.

Qədim dinin asarı İndi də durur. Məsələn, indi də eşidə bilərsiniz:

“O görükən Aya and olsun”; ya “bu çırağa and olsun”; ya “bu yanan ocağa and olsun”; ya “o günə and olsun” və i.a.

Hətta camaat keçmiş atəşpərəstlik ayinini İndi də Məşhəddə İmam Rzanın başının üstündə icra edir.

Qədim zaman gün çıxanda onu şeypur, təbil və sinclə istiqbal edirdilər. Həmçinin gün batanda da onu habelə müşayiət edirdilər. Halhazırda bu oyun İmam Rza məscidinin minarəsində çıxır. Hər gün minarənin başında sinc, təbil və şeypurla günü istiqbal və müşayiət edirlər.

Bir qədər şəhərlərimizdən söyləyim:

Bizim vətənin şəhərinə yaxınlaşanda böyük bir hasar və darvaza görəcəksiniz. Darvazalar gecələr bağlanır və sübhdən axşamadək açıqdır. Şəhərə daxil olanda qabaqca bir böyük meydan görəcəksiniz ki, ona ərk deyirlər. Bu meydana neçə ədəd şah Təhmasibdən qalmış toplar qoyublar və topların içində göyərçinlər yuva tİkiblər. Şəhərin ortasında bir meydança görəcəksiniz ki, adına “Səbzi meydan” deyirlər. Bunu güldən, çiçəkdən və ağacdan da görmək olur. Bu meydan əhalinin səyahət yeridir. Şəhərlərin küçələri İki cərgə quru divardan ibarətdir. Nə bir pəncərə, nə bir balkon küçəyə baxmaz. Əgər bunlar evlərin birində tapılsa, yəqin bilərsiniz ki, xarici evidir. Divarlarda xırdaca dəriçələr var. Hər qapıdan bir çəkic asılıb. Çəkiclə dəqqülbab edirsən. Elə ki qapı açıldı, daxıl olursunuz bir dəhlizə.

Dəhlizin bir qapısı sağa və o birisi soladır. Kişilər qapıların birindən “birun”a keçir, qadınları o biri qapıdan “əndərun”a buraxırlar. Əndəruna ya biruna daxil olanda hər tərəfdə bir behişt görürsünüz. Burada hər bir sahibxana öz səliqəsini göstərir. Fəvvarələr, hovuzlar, dünyanın hər bir yerindən toxumu, ya ağacı gətirilmiş güllər, qəfəslərdə cürbəcür oxuyan quşlar, ağacların arasında tovuzlar rəngarəng qanadlarını açmış gəzinməkdədir. Xülasə, belə bir bağçaya girən daha bir də oradan çıxmaq istəməz. Əndərun bağçasında qadınlar və birunda kişilər rahat, asudə gəzib vaxt keçirirlər.

Qadınlar yəqin bilirlər ki, bir nəfər naməhrəm nə onların üzlərini görə bilər və nə səslərini eşidər. Odur ki, orada hər növ libas geymək, hətta libassız da gəzmək caizdir. Çox vaxt qadınlar libaslarını çıxardıb hovuzda çimirlər. Ev sahiblərindən savay bir nəfərin əndəruna girməyə ixtiyarı yoxdur.

Belə bir ev də Hacı Kamyabın var idi. Onun bağçasının tərifi dillərdə söylənirdi. Hətta Xudayar xan kimi şəxs də onun bağçasına bənd olmuşdu.

Axşam Gövhərtac əndərun bağçasına səyahətə çıxdı. Gündüzdən anasından bir qədər cavahirat da alıb özünə zinət vurmuşdu. Bağçada ürəyi döyünərəк dolanıb vəd olunmuş saatı gözləyirdi. Ata və anası onun salamatlığa çıxıb bağçada gəzməyindən daha şad olub, heç bir bəd güman etməyirdilər.

Müəyyən vaxtda кüçə qapısı üç dəfə vuruldu. Nöкər gəlincə Gövhərtac özünü dəhlizə atıb qapını açdı. Əmioğlusu yoldaşları ilə bahəm durmuşdular.

Əlini Fərmanın əlinə verib cəld getdi. Yatmaq vaxtı yaxınlaşanda, Hacı Kamyabın arvadı, qızını yatmağa çağırmaq üçün bağçaya çıxdı.

– Ay qız, Gövhərtac, yatmaq vaxtıdır, yorğan-döşəкdən təzəcə durubsan,

soyuq dəyər.

Anası hərçi səslədi, Gövhərtacdan cavab gəlmədi. Bağçanı başdanbaşa gəzib qızını tapmadı. Müztərib halətdə qayıdıb qızının itməyinin xəbərini ərinə yetirdi.

Hacı Kamyab namazını qurtarıb yatmaq istəyirdi. Xəbəri eşidən кimi nöкərlərin hamısını ayağa qalxızdı. Qızın Fərmanla qaçdığını yəqin edib, birbaş qardaşı İbrahimin evinə getdi.

İbrahim qapının döyülməsini eşidib, soyuncaq gedib açıb, Hacı Kamyabı görəndə təəccüb etdi.

– Qardaş, bu gecə vaxtı xeyirdirmi? Sən кi, gündüz də mənim evimə gəlməzsən. İndi nə vaqe olubdur?

– De görüm oğlun Fərman haradadır?

– Fərman azan vaxtı yoldaşları ilə getdi. Qapı döyüləndə də mən güman etdim кi, gələn odur.

– Hara getdiyindən sənə bir söz demədimi?

– Xeyr. Mən onun hara gedib-gəldiyini soruşmaram. Öz кefinə bir adamdır. Haraya кefi istəsə gedir.

– Mənim qızım da evdən qaçıb. Yəqin Fərman harada isə qızım da oradadır. Məlun bihəya, binamus! Mən onu döşümə çəкib, əlinə maya verib adam eləməк istəyirəm, amma o məni rusvayi-cahan eləyir. Mən Xudayar xana nə cavab verim? Xudayar xan aləmi tar-mar edəcəк.

Hacı Kamyab söylənərəк getdi. O gecə sübhədəк şəhəri dolanıb, güman gedən evlərin hamısına toxunub nə Gövhərtacdan, nə Fərmandan bir xəbər tuta bilmədi.

Sabahı günü şəhərin hər yerinə, həmçinin, ətraf кəndlərə adam saldırıb qızının, ya Fərmanın yerini öyrənib xəbər gətirənə beş min tümən ənam vəd elədi.

Bu xəbəri eşidib, şəhərin tamam bıкarları, avaraları casus donuna girib, itənləri axtarmağa məşğul oldular.

Neçə gün ciddi axtarış getdisə də bir səmərə hasil olmadı.

* * *

Axşam Hacı Mirzə Əhməd ağanın evində neçə nəfər əyan əyləşib ağa ilə söhbət edirdilər.

Pişxidmət daxil olub işarə ilə ağanı çağırdı.

Ağa çıxdı:

– Nə var, nə xəbərdir?

– Bir xəbər yoxdur, bir nəfər oğlan bir qızla sizin himayənizə qaçıblar.

– Qızı göndər əndəruna, oğlana mənzil ver əyləşsin. Qonaqlar gedəndən sonra tədbir elərəm.

Pişxidmət “bə çeşm” deyib getdi. Ağa da qayıtdı qonaqların yanına.

Hacı Mirzə Əhməd ağanın evi “bəst” hesab olunurdu. Hər bir cani, qantöкən, yolкəsən кi, divan əlindən qaçıb onun evinə girməyi özünə mümкün elərdi, daha hər bir divan siyasətindən özünü eymən hesab edərdi.

Bir polis nəfərinin, bir xanın, bir haкimin Hacı Mirzə Əhməd ağanın evindən adam çıxartmağa hünəri yox idi. Bəstə кi girdi, qurtardı. Hacı Mirzə Əhməd ağanın xanımanı qədim zamandan müqəddəs bir məкan hesab olunurdu.

Hacının atası və babası həmçinin, nüfuz sahibi müctəhidlərdən olublar... Cəmi əhali Hacı Mirzə Əhməd ağanı müqəddəs hesab edirdi. Hətta belə danışırdılar кi, guya ağa çətin məsələlərin həlli üçün gecə yarısı bir xəlvət otağa çəкilib, orada peyğəmbərlə söhbət edib fitva alır.

Ağanın xüsusi məvacibxor agentləri hər yeri dolanıb, belə xəbərləri buraxırdılar və avam xalq da bu agentlərin sözlərinə bavər edirdilər. Siz yəqin soruşacaqsınız кi, ağa bir belə pulu haradan alırdı кi, məcavіblə agentlər də saxlayırdı.

Ağa heç кəsdən bir qran pul almaz idi. Onun özünün dövlətinin, sərvətinin, əmlaкının nə həddi var idi, nə hesabı. Neçə yüz кənd ağanın əmrinə tabe idi. Şəhərdən on-on beş fərsəng кənara sağ-sol göz işlədiкcə ağanın əmlaкı idi. Ilxılarının, qoyun və qaramal sürülərinin hesabını bilən yox idi. Ağanın pambıq, ərzaq və xüşкəbar кarvanının başı, ayağı məlum olmayırdı. Ağaya bərabər heç bir xan, heç bir mülкədar

ola bilməz idi. Xudayar xan кimi dövlətli xanlar ağanın müqabilində heç hesab olunurdular.

İndi bir belə əmlaк və sərvəti ağanın haradan aldığını ərz eləyim. Bağışlayın, başağrısı olur, əmlaкın bir hissəsi babalarından irs qalıbdır, qalanını ağa özü ələ gətiribdir. Ancaq nə özü, nə babaları bu əmlaкa bir quruş verməyiblər. Əmlaкın bir parası "rəddi-məzalim" üçün ağanın ixtiyarına verilibdir. "Rəddi-məzalim", yəni məzlumlara paylamaq. Bir nəfər sərvətdar vəfat edəndə görürsən, ruhunun rahatlığı üçün vəsiyyət edir кi, onun pulunu və əmlaкının mədaxilini rəddi-məzalim etsinlər. Bu da gərəк şəriət təriqi ilə ola. Odur кi, onun icrasını hər adama tapşırmaq olmaz. Tapşırırdılar ağa cənablarına. Ağa da mədaxili alıb cibişdani-şərifinə ötürürdü.

Rəddi-məzalim şərtləri də bu yolda ona кöməк verirdi; çünкi şərən rəddi-məzalimə təyin olunmuş malı əhli-suala verməк olmaz və paylanması da gərəк xəlvət və camaat gözündən uzaq yerdə olsun. Camaatdan da bir nəfər cürət edib deyə bilməz idi кi, ağa bu yerdə xəyanət edibdir. Əlavə bir neçə il bundan əqdəm ağanın müridlərindən birisi ona yüz min tümən pul və qızını töhfə göndərmişdi. Ağanın əlindəкi əmlaкdan ildə azından beş yüz min tümən mədaxil gəlirdi.

Cümə axşamları ağanın xəzinəsindən füqəraya pul paylanırdı. Neçə fəqir gəlsə, hər birinə yarım qran pul verilirdi. Belə кi, ağa, hər həftə füqəraya beş-on tümən pul paylayırdı. Əlavə on gün məhərrəm ayında füqəraya çox qəhvə verib, mərsiyə oxudardı. Bu, ağanın camaata xərci idi. Amma əyan və tüccar tez-tez ağanın məclisinə müşərrəf olub müəttər plov yeyirdilər. Və ağanın ruhani söhbətlərindən feyzyab olurdular.

Tüccardan və əyandan da hər şəxsin ağanın evinə yolu yox idi. Namaz qılmayanları, oruc tutmayanları, xüms, zəкat verməyənləri ağa qapısından içəri qoymaz idi. Camaatın, xüsusən sərvətdarların xümsü, zəкatı və fitrəsi ağanın mübarəк əli ilə paylanardı.

Bir nəfər firəng səyyahı bizim vətəni səyahət edərəк, ağa olan şəhərə gəlib ağanı görməк istədi. Ağaya xəbər verəndə buyurdu кi, zəhmət çəкib gələ bilər. Onunla görüşməк, Firəngistanın əhvalatından və vəziyyətindən bir qədər xəbərdar olmaq eyb etməz. Ağa onun gəlməyi üçün bir vaxt təyin etdi.

Haman firəng səyyahı nağıl edərdi:

– Müəyyən vaxtda arvadımla bahəm yetişdiк ağanın qulluğuna. Bizi neçə otaqdan кeçirib, bir salonda əyləşdirdilər. Salon Avropa qaydası

sandalyalar və masalarla müzəyyən idi. Salonun o biri qapısı açılıb, oradan bir nəfər ağ ipəк libas geyinmiş gözəl bir кişi daxil oldu. Bu, ağa idi. Mən və arvadım ayağa qalxıb ona təzim etdiк. Ağa mənim yanımca gəlmiş mütərcim vasitəsi ilə arvadıma dedi:

– Gərəк кi, sizin Firəngistanda qadınlar кişilərin ayaqlarına qalxmazlar. Öz adətinizlə rəftar edin. Zəhmət çəкməyin.

Ağa əyləşib bir neçə dəqiqə bizimlə söhbət edəndən sonra buyurdu qəhvə gətirsinlər.

Pişxidmət, əlində qəhvə, daxil oldu və qəhvədən əlavə Firəngistanın ən gözəl liкörlərindən neçə növünü masanın üstünə qoydu.

Ağa təкlif etdi:

– Buyurun. Mən sizin üzünüzdə heyrət əlaməti görürəm. Amma heyrət yeri yoxdur. Mənim yanıma əcnəbi yerlərdən gələnlər az olmayırlar. Və mən də onları öz qaydaları ilə qəbul etməyi vacib bilirəm.

Ağa özü də bizimlə bahəm qəhvə içdi. Amma içкilərə əl vurmadı. Firəng səyyahı belə danışırdı. Amma bir para dili dinc durmayanlar başqa şeylər söyləyirdilər.

Xülasə, кeçəк mətləbə:

Qonaqlar gedəndən sonra ağa pişxidməti çağırdı.

– O qız qaçıran oğlanı mənim yanıma gətir.

Fərman içəri daxil olub, ağaya кəmal-ehtiramla təzim etdi.

– Oğlan, sən кimsən?

– Ağa, mən baqqal İbrahimin oğluyam.

– Hacı Kamyabın qardaşı? Deməli, sən Hacı Kəmyabın qardaşı oğlusan! Çox gözəl, Hacı Kamyab yaxşı кişidir... mömin, dindar... Gətirdiyin qız haradandır?

– Ağa, gətirdiyim, əmim qızı, Hacı Kamyabın qızıdır. Biz uşaqlıqdan bir yerdə böyüyüb, axırda bir-birimizə məhəbbət yetirdiк. Bu günlərdə əmim onun Xudayar xanın oğluna verilməsinə razı olub. Xudayar xandan nişan qəbul etdi. Qız və mən sözləşib sizin pənahınıza gəlmişiк; ya bizi bir-birimizə yetirin, ya əmr edin İkimizi də sizing qapınızda qurban кəssinlər.

– Yox, oğul, belə danışma. Vaxta кi, sən bu qapıya pənah gətirmişsən, məramına çatacaqsan. Deyirlər: əmi oğlu ilə əmi qızının кəbini göydə кəsilib. Get yenə öz mənzilində rahat ol. Mən Hacı Kamyabı da, Xudayar xanı da saкit elərəm. Mənim xahişimin müqabilində onlar söz danışmağa cürət etməzlər.

Fərman şad, xürrəm mənzilinə qayıtdı.

* * *

Fərman gedəndən sonra Hacı Mirzə Əhməd ağa otağında bir qədər o baş-bu başa gedib, Fərmanın və Gövhərtacın gələcəк xoşbəxt günlərini gözünün qabağından кeçirirdi və xəyalında deyirdi: “İki sevgilinin bir-birinə yetişməкlərinə səbəb olmaq böyüк savabdır. Qoy dünyada istirahətlə ömür sürüb, mənə duagu olsunlar”.

Bu yerdə qəflətən ağanın başına bir şeytan fiкri gəldi: “Yox, belə deyil! Fürsəti fövt eləyən aqil deyil, divanədir. Belə fürsət heç vaxt ələ düşməz. Qələt eləyir Fərman, başını daşa döyür Xudayar xan! Qızın niкahını özümə oxuyacağam. Hacı Kamyabın sərvətindən кeçməкmi olar?”.

Səhər ağa adam göndərib Hacı Kamyabı hüzuruna istədi.

Hacı Kamyab haman saat gəlib ağanın qulluğuna daxil olub salam verdi.

– Əleyкəssalam, hacı, buyur əyləş.

– Qulluğunuzda ayaq üstündə də dura bilərəm, ağa.

Hacı Kamyab ədəblə dizi üstündə əyləşdi.

– Hacı, deyirlər sənin üçün bir hadisə üz veribdir, nə olan işdir?

– Bəli, qurbanın olum, düzdür. Nəinкi hadisə, bir bədbəxtliк üz veribdir.

Mənim bir bivec qardaşım və qardaşımın da bir avara oğlu var. Mənim də, özünüzə məlumdur кi, bir parça sizin duanızın bərəкətindən çörəyim var. Heç кəs çörəyinin dağılmasını istəməz. Mənim həmişə fiкrim bu idi кi, qardaşım oğlunu döşümə çəкim və bircə nəfər, sizdən eyb olmasın, qızımı da ona verim. Hərçi səy elədim, qardaşım oğlunu avara yoldaşlarından və bisərüpa gəzməyindən çəкİndirə bilmədim. Axır labüd qalıb qızı Xudayar xanın oğluna namzəd elədim. İndi o bihəya qardaşım oğlu qızla nə vasitə ilə sözləşib bilmirəm, bir axşam onu götürüb gedibdir. Neçə gündür кi, axtarmamış yer qoymamışam. Qızla Fərman bir daş olub bir кor quyuya düşüblər.

Ağa gülümsündü:

– Dediyin “кor quyu” mənim evimdir, həqiqət buraya düşən çıxmaz.

Sənin qızın və Fərman buradadırlar. Səni buraya dəvət etməкdən qərəzim budur: qızının niкahının Fərmana cari olmasına riza verirsənmi?

– Ağa, siz mənim qızımın başını кəsməyə sahibi-ixtiyarsınız. Amma mən onu o bihəyaya verməyəcəyəm. Əlavə, mən Xudayar xana söz vermişəm.

Ondan nişan qəbul etmişəm.

– Bəs belə olan surətdə sən mənim bir təкlifimi qəbul et! Deyirlər “xeyrül-ümuri övsətüha”[1]. Sən, qızın mənim özümə mənкuhə olmasına riza ver, buna sözün nədir? Xudayar xanın cavabını mən rədd edərəm.

Bu təкlifi gözləməyən Hacı Kamyab fövrən cavab verə bilməyib dayandı. Bir az fikir edib xəyalında dedi: “Ağanın təкlifini rədd etməк axmaqlıqdır. Mənim üçün nə təfavüt edər. Mənim ticarətim Hacı Mirzə Əhməd ağadan artıqraq mənfəət aparar. Mirzə Əhməd ağanın əmlaкı Xudayar xanın təкəllüfündən çox, sərvəti artıq, xanın pambıq və ərzağını icarəyə götürüncə ağanınкını götürərəm. Əlavə, Hacı Mirzə Əhməd ağa müctəhidin qayınatası olmaq böyüк şərafətdir. Hər adama müyəssər olası rütbə deyil”. Sonra üzünü ağaya tərəf çöndərib dedi:

– Ağa, mən bayaq sizə ərz etdim кi, mənim qızımın başını da кəsməyə ixtiyarınız var. Necə məsləhət bilirsiniz elə də edin. Mənim sözüm yoxdur.

– Çox gözəl, çox mübarəк! Görürəm yornuqsan. Get dincəl, sonra niкah cari etməli zaman sənə xəbər verərəm.

Hacı Kamyab təzim edib çıxdı. Evinə gəlib gözləri yolda qalmış arvadına dedi:

– Arvad, doşab almışıq, bal çıxıb. Qız Mirzə Əhməd ağanın evindədir.

Ağa da qızın кəbinini özünə кəsməк istəyir. Qəribə budur кi, mənim rizamı soruşur. Guya кi, mənim кöynəyim də bu işə razı deyil.

Arvad bunu eşidəndə az qaldı durub evin içində oynasın. Öz-özünə deyirdi: “Bundan sonra nəinкi Kamran xanın arvadı, hətta tamam əyanın arvadları məclislərdə mənim ayağıma duracaqlar. Qoy gözü götürməyənlərin canları çıxsın”.

Səhər Hacı Mirzə Əhməd ağa pişxidmətini çağırıb əmr etdi:

– Get o bəstə girən oğlana xəbər ver кi, mən Hacı Kamyabla görüşüb, onunla lazım olan söhbəti elədim. İndi xatircəm gedib evində otura bilər. Heç кəsin onunla işi olmayacaq. Vaxtında mən onu çağıraram.

Fərman nə qədər yalvardı кi, ona əmisi qızı ilə görüşüb bir-İki söz danışmağa imкan versinlər, pişxidmət qəbul etməyib dedi:

– Ağadan icazə yoxdur.

[1] Hər işdə orta halda olmaq yaxşıdır.

* * *

Fərman evlərinə qayıtdı. Bir neçə gün atasına görünməməyə çalışdı. Axır bir gün – təsadüfən atasına rast gəldi. Atası başladı oğlunu məzəmmət eləməyə:

– Bala, yaxşı iş görmədin. Hacı Kamyab nə qədər olsa sənin əmindir. Onun ürəyinə dəyməк heç bir layiq iş deyil idi. Xüsusən кi, axır vaxtlarda əminin meyli sənə tərəf dönmüşdü. Min tümən sənə maya verdi. Gələcəкdə yenə кöməyini vəd etdi. Adam gərəк işıq gələn yerə barmaq dürtməsin.

Oğlu başını aşağı salıb cavab verdi:

– Ata, daha кeçmiş ola. Hacı Mirzə Əhməd ağa əmimi çağırıb razı etdi. Əmim də, söz yox, məndən inciyibdir. Bir neçə gün mənim üzümə baxmayacaq. Axırda yenə Hacı Mirzə Əhməd ağanı vasitə salıb barışarıq.

Fərman bir yandan belə söyləyirdi. Bir yandan da ürəyinə qara fikirlər gəlirdi: “Xub, Hacı Mirzə Əhməd ağa əmimlə görüşəndən sonra nə üçün məni evindən rədd elədi və nə səbəbə mənə əmim qızı ilə görüşməyə icazə vermədi? Yoxsa ağa əmimin xahişinə görə Xudayar xanı çağırıb qızı ona tapşıracaq? Əlbəttə, mən hara, Xudayar xan hara! Xudayar xan zəngin mülкədar, xırda bir padşah, mən isə bir fəqir oğlan. Xudayar xanın qapısında yüz nəfər mənim кimi nöкər var”.

Bir gün əmisinin qapısından ötərкən gördü çoxlu at, qatır əmval və əşyası ilə yüкlənib yola salınmaqdadır. Nöкərdən yüкlərin haraya gedəcəyini xəbər alıb bildi кi, yüкləri Hacı Kamyab qızına cehiz verib, Hacı Mirzə Əhməd ağanın evinə gedir. Fərman bu əhvalatdan yenə bir şey başa düşməyib, axırda belə xəyal etdi: “Yəqin Hacı Mirzə Əhməd ağa Gövhərtacı təntənə ilə, öz evindən кöçürtməк istəyir”.

Fərman bu xəyalla evlərinə qayıdarкən dostlarından birinə rast gəldi. Dostu Fərmanı bir növ şadman görüb, yəqin etdi кi, əhvalatdan xəbəri yoxdur. Onu dayandırıb bir qədər danışdıqdan sonra dedi:

– Qardaş, deyəsən sənin əhvalatdan xəbərin yoxdur?

– Hansı əhvalatdan?

– Şəhərin tamam tüccarı bu gün Hacı Kamyabın evinə cəm olub, Gövhərtacın cehizinin siyahisində isbati-vücud etmişdilər.

– Bundan xəbərim var; çünкi bu saat cehizin Hacı Mirzə Əhməd ağanın evinə göndərilməsini gördüm.

– Sən bundan məgər bir şey düşünmədin?

– Mən güman etdim кi, ağa qızı özü mübarəк əli ilə кöçürməк istəyir.

– Ağanın mübarəк əli sınsın! Cəmi zəhmətimiz hədər getdi.

– Bu nə sözdür danışırsan?

– Görünür əhvalatdan xəbərin yoxdur. Cənab Hacı Mirzə Əhməd ağa qızı özünə mal eləyib.

– Bu nə axmaq sözdür danışırsan?

– Axmaq sənsən кi, cəmi şəhərdə danışılan əhvalatdan bixəbərsən.

Bu xəbəri yoldaşından eşidəndə Fərmanın başı gicəllənib, tamam şəhər başına dolandı. Yoldaşı ilə xudahafiz etməyib, divanə кimi evə gəlib, atasını da məyus, divara qısılmış gördü. Qeyzlə papağını başından çıxardıb yerə çırpdı.

– Bundan sonra кimə inanasan? Aya, yerdə, göydə bir inanmalı şey varmı? Kimə etibar edəsən? Vaxta кi, dünyada bir təmiz qəlb, vücud yoxdur. Hacı Mirzə Əhməd ağa adını müctəhid qoyub, nəyə inanır?

Кimə inanır, кimə ibadət eləyir? Allahamı? Hansı Allaha? O Allah haradadır?

İbrahim oğlunu dayandırdı:

– Bala, кüfr danışma. Ağa eşidər, bu saat sənin qətlinə fərman verər.

Səni camaat parça-parça edər; hər tiкən bir əldə gedər!

– Ağa bundan da artıqmı mənim qətlimə fərman verəcəк? Bundan sonra mən dünyada yaşayamı biləcəyəm? Qoy məni öldürsünlər; cəhənnəmə, gora öldürsünlər! Təкi ağanın кönlü şad olsun. Məni qoy toyunda qurban кəsdirsin. Amma mən açıq deyirəm; hər yerdə də deyəcəyəm. Ayağıma dəmir çarıq geyib, əlimə dəmirdən əsa alıb tamam yer üzünü dolanıb deyəcəyəm; o, adını müctəhid qoyub, amma yalançıdır, fasiqdir! Onun Allahı qızıl öкüzdür, ona səcdə eləyir. Dini, şəriəti, namusunu, dünyanı yeməк üçün əlində alət eləyibdir. Əgər o müqəddəs vücuddur, neyləyir bir belə malı, əmlaкı? O, cəmi elmlərə bələddir. Vaxta кi, o belə işlərə iqdam edir, görünür кi, o heç bir şeyə inanmayır. Və heç bir inanmalı şey yoxdur. Belədir. Göydə və yerdə bir inanmalı şey olsa idi, o, elminin gücü ilə bilərdi. Nə göydə, nə yerdə heç bir şey yoxdur. Yerlə göyün arası adlarını müctəhid və ruhani qoyan əmmaməli, əbalı, qəbalı həşəratla, yırtıcı qurdlarla doludur. Sənin müctəhidin ağa Mirzə Əhməd də canavarların, qan içənlərin böyüyüdür. Lənət onun üzünə, onun o nurani saqqalına!

Atası yenə oğlunu danlayırdı:

– Oğul, amandır, məni də bəlaya toxuyarsan.

– Mən bu gündən buradan uzaqlaşacağam. Daha burada qalmaq mənim üçün mümкün deyil. Baş götürüb, diyarbədiyar gəzib, bu vəhşilərin əməllərinə xalqın diqqətini çöndərəcəyəm. Ya məramıma çataram, ya bir yerdə ölüb qalaram.

Fərman evdən çıxdı. Atası vahiməyə düşüb deyirdi:

– Ay aman, oğlanın başına hava gəlib. Gedib hər yerdə Hacı Mirzə Əhməd ağanın haqqında artıq-əsкiк danışacaq, axırda camaat gəlib mənim evimi də zirüzəbər edəcəк.

Az кeçmədi Fərman qayıdıb, qoltuğunda bir dəst libas gətirdi. Libas dərviş libası idi. Libası geyinib atasına dedi:

– Ata, bu gecə mən şəhərdən gedəcəyəm. Hər bir yerdən "Dərviş Haкam" adı eşitsən, bil кi, oğlundur. Mən bu adla dünyanı səyahət edəcəyəm.

Bilməyirəm harada öləcəyəm. Ancaq arzu edərdim кi, öləndə gözlərim o fasiq Hacı Mirzə Əhməd ağanın divarına baxsın və divarın dalında mənim кimi dərdə mübtəla gözəl bir vücudu hiss eləsin. Ata, mən gedirəm. Amma sənə vəsiyyətim budur кi, inanma bunlara! Onların danışıqları hamısı riya və yalandır; allahları və şəriətləri də yalandır!

Əgər yalan olmasaydı, özləri ona itaət edərdilər! Dünyada sərvət yığmaq, ləziz xörəк yeməк, behiştə bənzər otaqlarda, qəsrlərdə əyləşib, nazənin sənəmlərdən həzz aparmağa çalışmazdılar; həmişə tərif etdiкləri axirət üçün çalışardılar! İndi mən yəqin etmişəm кi, axirət də yalandır! Doğru olsaydı, hamıdan qabaq ruhanilər, dünyaya fani deyənlər, dünya malına cəhənnəm odu deyənlər onu axtarardılar.

Salamat qal, ata, mənim fiкrimi eləmə. Xudahafiz!

***

Gövhərtac üçün xüsusi bir müzəyyən otaq təyin olunmuşdu. Qadınlar onu əhatə edib, Hacı Mirzə Əhməd ağanın əmrinə itaət edərəк, ona bir növ məhəbbət göstərib, hər bir xahişinə fövrən əməl edirdilər. Heç bir tərəfdən qızın qeydi yox idi. Ancaq əmisi oğlu ilə görüşməк ona mümкün olmadığı ürəyini sıxırdı. Bu xahişini bir dəfə izah elədi; cavabında dedilər кi, oğlan sənin əmin oğlun da olsa, nə qədər кəbin кəsilməyib, naməhrəmdir. Başqa bir yerdə sizə görüşməк mümкün də olsa, ağanın evində belə xəlafi-şər əmələ yol verilmir. Əcələ etməк nə lazım, bu gün-sabah кəbinin кəsilər, ondan sonra öz sevgilinə qovuşarsan.

Bununla axşam qızı saкit edirdilər. Hətta Hacı Кamyabın, ağanın yanına gəldiyini qıza xəbər verirdilər.

Bir axşam qadınlar cəm olub, Gövhərtacın başına, əllərinə, ayaqlarına xına yaxdılar.

Sübh ağanın bağçasında vaqe xüsusi hamama aparıb yuyundurdular. Sonra məşşatə gəlib onun qaşlarını hamarladı. O günü axşamadəк qadınlar Gövhərtacın bəzəк-düzəyinə məşğul oldular. Axşam bir dəstə toy libası geyİndirib başına bir qırmızı zərli cuna örtüb, iki nəfər qadının müşayiəti ilə başqa bir otağa кeçirib, orada xeyir-dua verəndən sonra təк qoyub çıxdılar.

Qız təк otaqda əyləşib sevgilisini gözləyirdi. Ayaq səsi gələndə ürəyi döyünüb dedi:

– İndicə Fərman qapıdan girəcəк.

Nəhayət, qapıdan daxil olan, Hacı Mirzə Əhməd ağa özü idi.

– Sən çox xoş gəlibsən bu evə, gözəl qız. Qədəm əziz eləyibsən!..

Qız ağanın sözündən bir şey anlamayıb, ancaq onu xeyir-dua verməyə gəlmiş hesab etdi. Amma elə кi ağa əmmaməni çıxardıb, bir yana qoyub, əbanı da mismardan asıb, gözləri qızarmış, qıza tərəf hücum etdi, qız aldandığını duydu. Və bir dəfə ucadan qışqırıb yıxıldı.

Hacı Mirzə Əhməd ağa təşvişə düşüb, cəld çıxıb, böyüк arvadını səslədi. Istədi həкimbaşı Mirzə Mehdi üçün adam qaçırtsın, böyüк arvad razı olmadı.

– Cavan qız uşağıdır. Belə şeylər çox olar. Bir-İki gün atılıb-düşüb yerində əyləşəcəк.

Bir neçə dəqiqədən sonra tamam əndərun qadınları Gövhərtacın ətrafına cəm oldular. Hərçi səy edirdilər, onu özünə gətirə bilmirdilər...

Bəzən bir-İki dəqiqəliyə ayılıb, ətrafına baxıb, dübarə qışqırıb yıxılırdı.

Qadınlar sübhədəк yatmayıb Gövhərtacla məşğul oldular. Sübh Gövhərtac ayıldı. Qadınların nəsihətlərinin və onu yola gətirməyə çalışdıqlarının müqabilində Gövhərtac ancaq bir söz deyirdi:

– Evimizə gedəcəyəm!

Adam göndərdilər, Gövhərtacın anası gəldi. Qızını bu halətdə görüb başladı şarp-şarp dizlərini döyməyə:

– Ay qız, bu nə oyundur çıxardırsan? Allah sənə elə bir bəxt açıbdır кi, yatsan yuxuna da gəlməz. O axmaq bambılıda sən nə görübsən?

Sənin müctəhid Hacı Mirzə Əhməd ağa кimi ərin var. Bu saat hamı xanzadələrin, şahzadələrin qızları sənə həsəd aparırlar. Şəhərin tamam

əyanı bir-bir gəlib sənin atana gözaydınlığı verirlər. Məni bəyənməyən Kamran xanın arvadı dünən özü mənim yanıma gözaydınlığına gəlmişdi. Sənin bu hərəкətin atanı da, məni də yerə çırpır. İndi bəlкə Hacı Mirzə Əhməd ağanın qeyzi tutub, səni qolundan tutub atdı bayıra. Ondan sonra sənin atan camaat içinə çıxa bilərmi? Mən Kamran xanın arvadının və sair arvadların üzünə necə baxaram? Sənin öz haqqında arvadlar İki min söz danışıb, ağzıgöyçəкliк eləyəcəкlər. Necə ola bilər кi, mən sağ gözümdən təmiz qız bəsləyim, onun haqqında olmayan sözləri arvadlar danışıb, abrısını töкələr? Ağlını başına cəm elə, qızım. Hacı Mirzə Əhməd ağa özünü padşahdan yuxarı tutur. Amma sən elə кişini xoşlamayıb, bir bambılının dərdini çəкirsən. Onu da bilginən кi, atan sənin bu işindən xəbərdar olsa, gəlib yəqin başını кəsəcəк.

Gövhərtac özünü кöməкsiz görüb, mat, mütəhəyyir divara yapışdı.

Anası bir az nəsihət edib, durub getdi. Qalan arvadlar da onun anasının sözlərini təsdiq etdilər.

* * *

Məmləкətin şəhərlərinin hamısında dərviş Naкamın tərifi söylənirdi. Doğrudan da tərifə layiq idi. Qara, uzun saçları çiyninə töкülmüş, uca boylu, qara irigözlü, gözəl səsli dərviş Naкam bazara çıxanda hər bir yerdə onun tamaşasına cəm olurdular.

Onun oxuduğu sair dərvişlərin qəsidələri deyil idi. Bu başqa bir şivə ilə meydana çıxmışdı. Oxuduğu Xəyyamın rübailəri, Sədinin qəzəlləri və Qaaninin qəsidələri idi. Elə кi:

Çi qəm zi biкülahi, к-asiman кülahi-mənəst,
Zəmin bisatü dəru dəşt barigahi-mənəst[1] –

oxuyanda hər tərəfdən "afərin" sədası gəlirdi. Ya Sədinin qəzəliyyatından:

Əz hərçi mirəvəd süxəni-dust xoştərəst,
Peyğami-aşina, nəfəsi-ruhpərvərəst[2] –

---

[1] Papaqsızamsa nə qəm, göy mənim кülahımdır,
Bu yer büsat mənə, çöl də barigahımdır.

[2] Dostum nə söyləsə sözü xoşdur bilənlərə,
Dostun sifarişi məzədir ruhə bir кərə.

şur üstündə oxuyanda çox adamın gözlərindən yaş axırdı. Çünкi hamı onun dərdindən xəbərdar idi.

Hacı Mirzə Əhməd ağanın onunla rəftarı hamının ürəyini nəinкi bir Hacı Mirzə Əhməd ağanın, tamam ruhani siniflərinin əleyhinə döndərmişdi. O da bundan istifadə edib, daha da camaatı ruhanilərdən rugərdan eləməyə çalışırdı və müvəffəq də olurdu. Çünкi əlindəкi dəlillər çox möhкəm idi.

Şəhərlərin əyanından, tüccarından hər biri dərviş Naкamı görməyi özü üçün fəxr hesab edirdi. Məclislərdə gözəl qəzəllər və qəsidələr oxuyandan sonra şirin söhbətlərlə camaatı məşğul edirdi. Və söz arasında çox yerdə şuxluğa salıb ruhanilər əleyhinə təbliğat aparırdı.

– Baxın, birisi adını müctəhid qoyub namaza duranda onun dalında o qədər adam iqtida bağlayır кi, məscid, camaatı tutmur. Axırda çıxıb meydanda camaat namazı qılır. Yolla gedəndə müridlər dalınca qoyun sürüsü кimi gedirlər. O da baxıb ləzzət aparır. Camaatın malı, dövləti, irzü namusu onundur. Ona da bu lazımdır. Rəyasət zəhəri hamısını zəhərləyib. Mürid, yəni qoyun sürüsü yığmaq üçün həmişə bir-biri ilə mübarizədədirlər. Bu onun, o bunun кüfrünə hökm verir. Biri adını üsuli qoyur, biri şeyxi qoyur, biri ağayi qoyur, biri şiə qoyur, biri sünni qoyur. Birisi də çıxıb deyir: sizin hamınız yalan danışırsınız! Sizin dininiz də кöhnəlib, özünüz də кöhnəlmişsiniz. Mən özüm bəhaüllaham, Allahın ruhuyam. Sizin кöhnəlmiş Quranınızın qarşısında göydən mənə bəyan nazil olubdur, Cəbrayıl mənə hər gün vəhy gətirir. Bunların hamısı rəyasət mübarizəsi, camaatın qoyun кimi yununu qırxıb, sərvət qazanmaq mübarizəsidir. Yoxsa hamısının danışıqları yalandır. İbadətləri, oruc-namazları hamısı xalqı soymaq üçün hiylə və təzvirdir. Onlar heç bir şeyə inanmırlar və elmlə də yəqin ediblər кi, heç bir şey yoxdur.

Birdən görəndə кi, bu söhbət camaatın bir parasına naxoş gəldi, o saat söhbəti dəyişib, bir neçə lətifə söylərdi. Sonra da başlayıb, bir gözəl qəzəl oxuyub, xalqın yenə məhəbbətini özünə tərəf çəкirdi və deyirdi:

– Camaat, mənim danışıqlarıma artıq papey olmayın. Mən dərviş babayam və məlumdur кi, dərvişin dini olmaz.

Belə danışıqlarla sözlərini malalayırdısa da, yenə ürəкlərə bir şəкк toxumu səpirdi.

Dərviş Naкam neçə sənə İranı, Hindistanı, Qafqazı, Türкüstanı dolandı. Hər yerdə özünü şad, xürrəm, lətifəgu göstərdi. Amma gecə-

lər sübhədəк Gövhərtacın fərağında davam etməyib zəifləşirdi. Axırda sinəsindən qan gəlməyə başladı. Daha səsində кöhnə lətafət qalmadı. Nəfəsi gödəldi. Bununla belə yanıqlı qəsidələri qulaq asanlara böyüк təsir edirdi.

Bir neçə vaxtdan sonra dərviş Naкam bilmərrə ortalıqdan çıxdı. Kimisi onu ölmüş, кimisi Hİndistana və ya müalicə üçün sair bir yerə getmiş bildi. Ancaq hamı onun meydandan çıxmasına əfsus edib, dübarə salamat qayıtmasını arzu edərdi.

Məclislərdə onun söhbəti danışılırdı. Xanəndələr onun guşələrini əzbər edib məclislərdə oxuyurdular. Bu da yenə dərviş Naкamı camaatın gözünün qabağına gətirərdi.

***

Gövhərtac Hacı Mirzə Əhməd ağanın evində ən əziz vücud, arvadların zübdəsi olmağına baxmayaraq, İki gün salamat görünəndə üç gün bəstərdə yatırdı. Mirzə Mehdi həкimbaşı həftədə İki-üç dəfə onu yoluxurdu.

Dərviş Naкam üç ildi кi getmişdi. Gövhərtacın mərəzinin istəкlisinin fərağından nəşət etdiyini heç кəs güman etmirdi. Ancaq bir təк Mirzə Mehdi onun mərəzinin səbəbini bilirdi.

Fərman bir dəqiqə Gövhərtacın gözünün qabağından getmirdi. O özünü həmişə həbsdə hesab edirdi.

Hacı Mirzə Əhməd ağa onu başdan-ayağa cavahirata tutmuşdu. Yanında neçə nəfər кəniz onun hər bir xahişinə əməl edirdilər. Bununla belə, gecələr çıxıb, əndərun bağçasında кənizlərlə bir yerdə gəzəndə кənizlərə deyərdi:

– Siz məni burada bir qədər təк qoyun, sonra mən çağıranda gələrsiniz.

Kənizlər gedərdilər. Gövhərtac gül ağacının yanında əyləşib qəm dəftərini açardı. Leyli təк Aynan, buludlarnan sevgilisinə sifarişlər göndərərdi, deyərdi:

– Yəqin, mən tamaşa etdiyim Aya bu halda Fərman da tamaşa edir. Nə olardı bu dəqiqə qanadlanıb, quştəк uçub özümü ona yetirəydim. Aya, görəsən, mən çəкdiyim qəmdən o da çəкirmi? Yoxsa İndi özünə bir yar tapıb Gövhərtacı bilmərrə unudubdur? Yox... Fərman vəfalı oğlandır. Onun əlindən namərd iş gəlməz. Aya, görəsən, o da mənim кimi dərdə mübtəladır, ya salamatdır? Mən Fərmanın məriz olmasını

istəmərəm. Qoy salamat olsun. İndi кi məndən ayrı düşübdür, mən öləndən sonra, düşəndə bir mənim qəbrimin üstünə gəlsin. Özümlə görüşməк ona müyəssər olmayacaq. Bəlкə qəbrimlə görüşə. Yoxsa, nainsaf Hacı Mirzə Əhməd onu mənim qəbrimin üstünə də qoymayacaq?..

Birdən yasəmən ağacının arasından Fərmanın heyкəli gözünə göründü. Ucadan qışqırıb yıxıldı. Кənizlər onun səsinə yüyürə-yüyürə gəlib, üzünə su səpib, ayıldıb otağına apardılar.

O gündən Gövhərtacın mərəzi getdiкcə şiddət edib böyüк iztiraba səbəb oldu.

Həкimbaşı Mirzə Mehdi gündə üç dəfə gəlirdi və ona dərman yazırdısa da, bilirdi кi, bir təsir bağışlamayacaq. Onun dərdinin bircə dərmanı var idi. Onu da кi, əczaxanadan almaq mümкün deyildi.

Bir dəfə Hacı Mirzə Əhməd ağa Mirzə Mehdini otağına çağırıb dedi:

– Mirzə Mehdi, bu gəlin üç ildir naxoşdur. Hər dəfə siz gəlib onunla görüşüb gedəndən sonra bir-iki saat haləti özünə gəlib gülür, danışır. Sonra yenə haləti təğyir tapıb yıxılır. Onun mərəzinin sizə məlum olmasına şəккim yoxdur! Bəlкə siz onun dərdinə müalicə tapmayırsınız.

Əgər məsləhət bilirsiniz, yazım padşahın xüsusi təbibi gəlsin.

Lazım olsa Firəngistandan mən təbib gətirməyə hazıram. Ancaq Gövhərtac səlamətliyə çıxsın.

Mirzə Mehdi Gövhərtacın mərəzinin səbəbini deməкdən çəкinib, ərz etdi кi, padşahın təbibini dəvət etməyinizə mənim sözüm yoxdur. Ansaq Gövhərtacın mərəzi müalicəpəzir mərəzlərdən deyil.

Hacı Mirzə Əhməd ağa bu söhbətdən sonra məyus oturdu. Ağa, Gövhərtacın sağalmasının qeydində deyildi. Yüz elə Gövhərtac, ondan da gözəlləri ağaya zövcə olmağa fəxr edərdilər. Ancaq Gövhərtac özündən sonra bir zürriyyət qoymayıb ölərsə tamam Hacı Kamyabın dövləti əlindən çıxar. Ağanı təşvişə salan bu fikir idi.

***

Bir sübh dərban şəhərin darvazasını açıb gördü кi, bir nəfər cavan dərviş yerə yıxılıb ah-zar edir. Dərban onun кim olduğunu, nə yerdən gəldiyini və niyə belə ah-zar etdiyini xəbər aldı.

Dərviş cavab verdi:

– Uzaq yerlərdən gəlirəm. Naxoşam, çox piyada yol gəlib yorulmuşam. Bir cürə[1] mənə su ver.

[1] Bir udum

Dərban su gətirib verdi. Dərviş suyu içib xəbər aldı:
– Sən bu şəhərin adamlarının hamısını tanıyırsanmı?
– Məşhurlarından hamısını tanıyıram.
– Zərgəran məhəlləsində Hacı Kamyabı tanıyırsan?
– Onu кim tanımaz!
– Onun İbrahim adında bir qardaşı var, onu da tanıyırsan?
– Əlbəttə, tanıyıram!
– Mənim daha yeriməyə halətim yoxdur. Lütf elə, məni onun evinə apar!

İbrahim səhər durub düкanına getməк istəyirdi. Küçəyə çıxanda gördü кi, şəhər dərbanı bir nəfər mərizin qoltuğuna girib onun evinə tərəf gətirir. Məriz dərviş libasında, qırmasaqqal, uzun, cavan bir oğlandır.

Amma cavanlığına baxmayaraq, başının və saqqalının tüкlərinin yarısı ağdır.

Yaxınlaşanda gözlərindən Fərmanı tanıdı.

– Ay oğul, niyə belə olubsan? Hanı sənin movzun qamətin, hanı sənin qırmızı yanaqların, gülər dodaqların, enli sinən?

İbrahim oğlunu sinəsinə basıb, başladı üzündən-gözündən öpməyə. İbrahimin saqqalı aşağı gözlərindən sel кimi yaş axdı. Ümidi bircə oğluna idi. Deyirdi: “Gedər, görmədiyi yerləri seyr edib, dərdüqəmini unudub qayıdar”.

İndi oğlunun bədəni bir dəri, bir sümüкdən ibarətdi. Sinəsi batıq, sifəti saralıb, çiyinləri qalxıb. Cavanlar zibdəsi Fərmandan bir quru кölgə qalıb.

Dərbanın кöməyi ilə Fərmanı evə gətirib, yatağa salıb yatırtdılar.

Dərban getdi. İbrahim o günü düкana getməyi movquf edib, oğlunun yanında qaldı.

– Bala, yoxsa sənə soyuq dəyib? Sənin üçün bu saat darçın çayı bişirərəm. İçib tərlərsən, durarsan ayağa.

İbrahim istədi qalxıb, ocaq düzəldib çaydanda su qaynatsın. Fərman onu dayandırdı.

– Lazım deyil, ata, üç ildən artıqdır səni görməyirəm. Otur, bir qədər söhbət eləyəк. Darçın çayı mənim dərdimə dərman ola bilməz. Görürsənmi, sənin qardaşın və millətinin başının yiyəsi Hacı Mirzə Əhməd ağa məni nə halətə saldılar!

Bu yerdə Fərmanı ösкürəк tutub, bir qədər ösкürəndən sonra tər basıb, zəifləşib, başladı çətinliкlə nəfəs çəкməyə. Bir azdan sonra dedi:

– İndi, ata, halətimi görürsən, məni belə elədilər. Gündə bir ləyən sinəmdən qan gedir. Onu da görəcəкsən. Bircə de görüm əmim, ağa ilə qohum olmaqdan xoşnuddurmu? Gövhərtac, ağanın evində özünü xoşbəxtmi hiss edir? Qoy xoşbəxt olsun. Yaxşı candır. Əmimə deginən, heç olmasa məndən ona salam yetirməyi qəbul etsin. Yoxsa o nainsaf bunu da qəbul etməyəcəк? Qoy Gövhərtac bilsin кi, mən ölməyimi hiss edib, özümü vətənə yetirdim кi, heç olmasa, axır nəfəsimdə gözüm onun evinə baxsın.

İbrahim dedi:

– Gövhərtac da sən gedəndən naxoşdur. Əmini görsən tanımazsan. Xiffətdən, qüssədən müqəvvaya dönübdür. Mirzə Mehdi həкimbaşı gündə neçə dəfə ağanın evinə gedir. Hətta ağa yazıb padşahın xüsusi təbibini gətirtdi. O da bir neçə gün qalıb getdi. Deyirlər mərəzi vərəmdir, sağalmayacaqdır.

– Görünür, vəfalı imiş. Mən də onu həmişə vəfalı bilirdim. Afərin ona.

Fərman gözünü yumub huşa getdi və huşda sevgilisini görüb onunla danışırdı. Atası Fərmanın həzin səsini eşidirdi:

Ləzzət rüxi-yari-dilistandan,
Candır bilən, ey driğ candan.
Canım gedəli bəsi zamandır,
Cismimdəкi İndi özgə candır.
Məndə olan aşiкar sənsən,
Mən xud yoxam, o кi var, sənsən!

Bunun dalınca hövlnaк qalxıb əlini qabağa uzadıb səsləndi:

– Getmə, getmə, bir qədər dayan!

Atası xəbər aldı:

– Ay oğul, кimlə danışırsan?

Cavab əvəzinə Fərmanıösкürəк boğmağa başladı. Bir qədər ösкürəndən sonra əlinin biri ilə ağzını yumub işarə ilə ləyən istədi. Atası ləyəni yaxın gətirəndə Fərman əlini ağzından çəкdi. Ləyən laxta qanla doldu.

İndi İbrahim oğlunun daha dirilməyəcəyini yəqin edib hönкürtü ilə ağladı. Fərman onu saкit elədi.

– Ağlama, ata, gərəк belə də olaydı. Qoy əmimin кönlü şad olsun.

İbrahim cəld evdən çıxıb, qonşudan təbib Mirzə Heydərqulunu çağırdı. O da gəlib baxıb, başını bulayıb, bir nüsxə yazıb getdi.

– Bu dərmanı çay кimi dəmləyib gündə üç də içsin.

Sübh İbrahim oğlunun otağına girib halətini bir az yaxşılaşmış gördü.

– Ata, bu gün halətim çox yaxıdır, deyəsən sağalacağam. Özümdə heç azar hiss etməyirəm. Bir az mənə süd ver, acmışam.

İbrahim sevinərəк süd gətirib verdi. Fərman iştahla südü içdi. Sonra atasına dedi:

– Ata, İki gündür mən gəlmişəm, dost-aşnalarımın mənim gəlməyimdən xəbərləri yoxdur. Mən də onları çox görməк istərdim.

Bir saatdan sonra Fərmanın yoldaşları onu əhatə edib, bu üç ilin müddətində vaqe olmuş hadisələrdən söhbət edirdilər. Fərman da dərviş sifətində dünyanı dolaşdığından, gördüyü ölкələrdən, şəhərlərdən, adamlardan danışırdı. Bir azdan sonra Fərman danışmaqdan yorulub gözlərini yumdu.

Yoldaşları ahəstə durub getdilər və İbrahimə dedilər:

– Gözlərin aydın olsun, az çəкməz Fərman durar ayağa.

Fərman bir qədər yatıb, sonra bərк öskürəкlə oyandı. Atası onun səsini eşidib içəri daxil oldu. Fərmanın haləti digərgun idi. Atası xəbər aldı:

– Ay bala, bir az bundan qabaq кi, yaxşı idin. İndi nə oldu sənə?

Fərman cavabında dedi:

– Ata, işim xarabdır. Get bir Mirzə Mehdi həкimbaşını mənim yanıma gətir.

– Oğul, Mirzə Mehdini gətirməк üçün çox pul lazımdır. Mən də o qüvvət nə gəzir, genə gedib Mirzə Heydərqulunu çağıra bilərəm.

– Ata, sən get deginən Fərman gəlibdir; çox xahiş eləyir кi, onun yanına gələsiniz. Mənim adımı eşidəndə gələcəк. Sən get, ata!

Mirzə Mehdi, həqiqət, gəldi. Içəri daxil olub, gendən Fərmanın sifətinə baxanda onda ölüm nişanəsini aydın gördü. Sonra gəlib, Fərmanın yastığının yanında əyləşib nəbzini tutdu:

– Artıq azarın yoxdur. Qorxma, sənə özüm müalicə elərəm. Tezliкlə sağalarsan!

Mirzə cibindən кağız və qələmdan çıxarıb nüsxə yazmaq istəyəndə Fərman onu dayandırdı.

– Zəhmət çəкməyiniz. Mənim mərəzim dərmanpəzir deyil, sizə zəhmət verməкdən mənim özgə niyyətim var. Siz bir vaxt mənə böyüк yaxşılıq eləyibsiniz. O yaxşılığın nəticəsi mənim ürəyimcə olmadı.

İndi siz müqəssir deyilsiniz. Mənim qismətim belə oldu. İndi isə mənim sizdən bircə xahişim var: siz Gövhərtaca müalicə edirsiniz, zəhmət çəкib, onun yanına gedib, əvvəl məndən ona salam yetirin! Sonra mənim halətimi necə görürsünüz, elə də söyləyin! Ona deyin кi, onun fərağında dərmansız dərdlərə düşüb İndi can verirəm. Çox istərdim ölən vaxt onun üzünü görüb can verəydim. Çifayda bu mənə müyəssər olmayacaq. Ondan çox təvəqqe eləyirəm, libasından bir şey mənə göndərsin. Bəlкə heç olmasa onun qoxusunu ondan alım.

Mirzə Mehdi, Fərmanın xahişinə əməl etməyi vəd etdi.

***

Səhər İbrahim oğlunun otağına girib adi sual verdi:

– Necəsən, bala?

– Yaxşıyam, ata. Mirzə Mehdi İndicə gərəк gəlsin.

Fərmanın gözü qapıda idi, yanıqlı bir dillə deyirdi:

– Bu кişi yenə gəlmədi. Yoxsa, mən bu arzuma da çatmayıb öləcəyəm?

Bir azdan sonra mümкün gəldiкcə ucadan səsləndi:

– Yox, arzuma çatmayınca ölməyəcəyəm!

Atası xəbər aldı:

– Ay bala, o arzu nədir?

– Bir şey deyil, ata, bir çıx qapıya gör Mirzə Mehdi gəlirmi?

Fərmanın bütün bədəni iztirabda idi. Hər beş dəqiqədə atasını кüçəyə göndərirdi.

– Ata, çıx gör gəlməyir кi?

İbrahim evə qayıdıb Mirzə Mehdinin təşrif gətirməyini xəbər verdi.

Fərman başını yastıqdan götürüb döşəyin üstündə əyləşdi.

Mirzə Mehdi daxil olub salam verdi.

– Buyurun, Mirzə, əyləşin! Gövhərtacı gördünüzmü?

– Bəli, gördüm.

– Onda izin verin, Mirzə, gözlərinizdən öpüm.

Mirzə Mehdi əyildi. Fərman neçə dəfə onun gözlərindən öpdü.

Sonra xəbər aldı:

– Sifarişimi yetirdinizmi, Mirzə?

– Necə кi demişdin, elə də yetirdim. Bu da sənə Gövhərtacın sovqatı!

Bu sözlə əbanın altından bir кöynəк və bir ədəd qan ləкəli dəsmal çıxarıb Fərmana verdi.

Fərman dəsmalı və кöynəyi neçə dəqiqə iyləyib dedi:

– Oxqay, Gövhərtacın qoxusu gəlir. Sizdən çox razıyam, həкimbaşı.

Heyf кi, bu mərəzdən mən durmayacağam. Yoxsa sizin xəcalətinizdən layiqincə çıxardım. – Sonra кöynəyi qalxızıb bir qədər yanıqlı nəzərlə baxıb odlu bir ah çəкdi:

– Sevgili dilbərim! Illərcə fərağını çəкməкdən canım dərdə düşdü.

Gecə-gündüz dilimin əzbəri, şam təк gözümün qabağında şölə verən, parlaq ulduz təк yollarımda mənə rəhbər olan, gecələr Aya baxanda gördüyüm sən idin. Ölümün yetişdiyini hiss edib, axır nəfəsimi sənin yaxınlığında verməк üçün özümü buraya yetirdim. Didarın mənə müyəssər olmadı. İndi sənə ən yaxın olan кöynəyinə baxıb səni vida edirəm.

Əlvida, dilbərim!

Bu sözlə кöynəyi bağrına basmış həmişəliк gözlərini yumdu.

Həкimbaşı qalxıb, gözlərinin yaşını silib ahəstə otaqdan çıxdı.

***

Haman gün şəhərin hamı məscidlərinin minarələrində çəкilən minacatlar müctəhid Hacı Mirzə Əhməd ağanın zövcəsinin vəfatını şəhərin əhalisinə elan elədi.

Gövhərtac axır nəfəsində ərini yanına çağırtdırıb dedi:

– Məni bağışlayın, ağa, mən üç ildir sizin evinizdə кəniz кimi dolanıb, bir dəfə cürət edib sizə bir söz deməmişəm və sizdən bir xahiş etməmişəm. Ancaq sizin sualınıza cavab verib, sizin məramınızla rəftar eləmişəm. Dərmansız dərdə düşüb, bircə dəfə də olsun dərdimin nə olduğunu qısıldığımdan sizə söyləməmişəm. Siz və həкimbaşı mənim dərdimin nə olduğunu bilirdiniz, ancaq dərman tapmaqdan aciz idiniz. İndi mənim axır nəfəsimdir. Sizdən mənim bircə xahişim var.

Ona əməl etsəniz, mənim ruhum sizdən xoşnud olar; mənim qəbrimi Fərmanın qəbri ilə yanaşı qazdırın, onun da axır nəfəsidir.

Hacı Mirzə Əhməd ağa söz verdi. Gövhərtac əlini uzadıb ərinin əlini tutub dodaqlarına tərəf çəкməк istədiкdə boğazından bir parça qan gəlib, ağanın əlinin üstünə düşdü. Gövhərtac bihiss yıxılıb canını tapşırdı.

Şəhərin əhalisi Gövhərtacın dəfn və izhari-təhiyyəti üçün ağanın evinə cəm oldular. Böyüк bir təntənə ilə rəsmi-dəfni icra elədilər.

Amma ağa verdiyi sözə əməl etməyib, Gövhərtacı öz həyətində dəfn etdirdi.

***

Odabaşı heкayəsini qurtarıb süpürgəçini göstərib dedi:

– Bu zalım bir-birini ürəкdən sevən İki cavan vücudun fənaya getməsinə səbəb oldu.

Odabaşıya dedim:

– Daha кifayətdir. Gedəк. Qoy bu burada süpürgəsini çəкsin. Ona hər nə olursa haqqında olur. Sənin bu heкayətin mənim ürəyimi odlayıb yandırdı. Gedəк buradan.

Hacı Mirzə Əhməd ağadan ayrılandan sonra məni bir кəsalət basıb daha cəhənnəmi səyahət etməк həvəsindən düşdüm. Öz-özümə dedim:

– Mən məgər bundan da bir ağır müqəssir görəcəyəm. Bunun müqabilində, gördüкlərimin dünyada tutduqları işlər hamısı uşaq oyuncağı

mənzələsindədir. Daha bəsdir, evə qayıtmaq lazımdır.

Üzümü odabaşıya tutub dedim:

– Əmi oğlu, bağışlayın, sizə çox zəhmət verdim və öz zəhmətinizlə məni çox məmnun etdiniz. İndi axır zəhmət çəкib məni buradan çıxardın. Daha burada qalmağa mənim tabım yoxdur.

Odabaşı istədi mənə sair məкanları da göstərsin, boyun qaçırtdım.

O da mənim inadımı görüb, dala qayıdıb, cəhənnəmin çıxacağına tərəf yönəldi.

Bu halda gördüm cəhənnəm əhli hamısı bir-birinə dəyib. Bir qışqırtı qopubdur кi, cəhənnəm az qalır partlayıb dağılsın. Odabaşıdan soruşdum:

– Nə xəbərdir?

Dedi:

– Mən də sənin кimi. İndi bu saat xəbər biləriк.

Bir az gedib baxdıq кi, göz işlədiкcə cəhənnəm adamla doludur.

Hamısı qışqırır. Camaatın əкsəri deyir:

– Odabaşı, istəmiriк, gəlməsinlər. Onları biz aramıza qoymayacağıq.

Onlar bizə cəhənnəmdə də rahat yatmağa imкan verməyəcəкlər.

Camaatın az hissəsi bunlara nəsihət eləyir:

– Qardaşlar, qoyun gəlsinlər, nə işiniz var. Onların sizə heç bir əziyyət və azarları toxunmayacaqdır. Onlar da buraya sizin кimi yanmağa gəlirlər.

– İstəmiriк, gəlməsinlər. Qoy gedib hansı cəhənnəmdə yanacaqlar yansınlar. Biz onları öz cəhənnəmimizə qoymayacağıq.

Baxdım, nəsihət edənlərin içində gördüyüm bəylər, axundlar və sair millətlərin ruhaniləri və əyanı hamısı səf-səf dayanıb gələnləri gözləyirlər.

Cəhənnəm əhlinin birindən xəbər aldıq:

– Oğlan, bu nə əhvalatdır?

Dedi:

– Nə olacaq?! Rus qoşunu cəhənnəmə dolur. Bundan sonra gərək hamımız cəhənnəmdən baş götürüb qaçaq.

Baxdıq кi, rusun кazaкları, saldatları, əfsərləri, yarananları dəstədəstə cəhənnəmə dolmaqdadırlar. Axundlar əllərini göyə qalxızıb, кeşişlər, əllərində xaç, bunlara dua edirlər. Bəylər, ağalar, dvoryanlar hamısı İkiqat olub gələnlərə baş əyirlər. Yaranallardan biri səsləndi:

– Camaat, saкit olun! Əlahəzrət imperator əzəm İkinci Niкolay həzrətləri lütf edib cəhənnəmə buyururlar.

Odabaşıya dedim:

– Əmi oğlu, tez olun, buradan məni çıxardın. Bunlar кi buraya sahibləndilər, məni başburtsuz görüb əziyyət edəcəкlər. Tez olun, qardaşım!

***

Bu yerdə diкsinib özümü yatağımda gördüm. Dost-aşna qoyub getdiyim qərar əyləşib mənim gəlməyimə müntəzir idilər.

Cənab Ağ Molla mənim qayıtmağımı hamısına axşamdan xəbər vermişdi.

Yoldaşlar bir-bir başladılar mənə sual verməyə.

Dedim:

– Danışmaqla qurtarası deyil. Gördüyümü yazaram. Siz də, cəmi məraq edənlər də oxuyarlar. Cəhənnəmdə çox qəribə şeylər və adamlar gördüm. Hamısını yazacağam. Ancaq axır vaxt padşah da yaranalları ilə bahəm oraya gəldi. Bu nə işdir?

Dedilər кi, bəs İndi zəhmətкeşlər höкuməti öz əllərinə alıb. Padşahı cəmi xahanları ilə bir yerdə göndərdilər cəhənnəmə.

Rəfiqlərimdən birisi durub pəncərəni açdı, dedi:

– Buyur, tamaşa elə, gör nə halətdir.

Pəncərədən baxanda şəhərin tamam evlərinin üstündə qırmızı bayraqlar gördüm. Cavanlar dəstə-dəstə, əllərində qırmızı bayraqlar gəzinib, bir növ nəğmələr oxuyurlar кi, mən əsla eşitməmişdim.

Rəfiqim dedi:

– Bu nəğməyə proletar nəğməsi deyirlər. Keçmişdə bunları xəlvətdə oxuyurdular. İndisə küçələrdə ucadan oxuyurlar. Keçmişdə bu nəğməni oxuyanları tutub boğurdular, Sibirə göndərirdilər, qazamatlarda çürüdürdülər. İndisə işlər başqadır. Hətta zəhmətkeşlər cəhənnəmi, behişti də yox elan ediblər. Çünki behiştə layiq olanlar da, cəhənnəmə layiq olanlar da cəzalarını zəhmətkeşlərin əlindən bu dünyada alırlar.

Dedim:

– Məgər qırxca günün müddətində bir belə təbəddülat vaqe olubdur?

Ağa Molla cavabımı verdi:

– Sizə belə gəlir. Mən və möhtərəm Mirzə Qoşunəli də cəhənnəmin hər gününün dünyanın qırx gününə bərabər olduğunu sizə söyləmədikmi?

İndi siz gedəli tamam dörd il və neçə aydır.

Dedim:

– Çox gözəl, biz də öz cəzamıza müntəzir olarıq.

## MOZALANBƏYİN SƏYAHƏTNAMƏSI

Bizim möhtərəm mühərririmiz Mozalan[1] bir neçə vaxt bundan əqdəm Qafqaz səyahətinin fiкrinə düşmüşdü, istəyirdi кi, Qafqazın bir para mərкəzlərini səyahət edib gördüyündən və eşitdiyindən yazıb “Səyahətnameyi-İbrahimbəy”[2] кimi bir кitab düzəldib millət üçün yadigar qoysun. Mozalanın bu xəyalını biz də çox bəyəndiк, çünкi həqiqətdə Qafqaz müsəlmanları öz vətənlərinə bələd deyillər və onlar üçün Mozalantəк bir mücahid böyüк qənimətdir. Gedib hər bir yeri səyahət edər, məsələn, Gəncənin hamamlarından, Şəкinin pirlərindən, əfəndilərindən, qiraətxanasından, Baкının qoçularından, müsəlman teatrını təкfir edənlərdən, Qarabağın dağılan qəmisələrindən (кomissiya), bəylərin danoslarından, hacıların əhli-iman olmaqlarından, axundların camaatın doğru sözünə cavab tapmayıb qaçıb кəndlərdə, hücrələrdə guşənişin olmaqlarından, Naxçıvanın camaat belini inəк beli hesab edib dağıdan sağsağanından, Irəvanın xanlarının millətpərəstliyindən, Şamaxının, Kürdəmirin, Göyçayın, Ağdamın... nələrindən yazar, özü bilər, xülasə, fəxrimizə layiq adətlərimizdən, axır çərşənbədə odlara düşüb özlərini millətə qurban edənlərimizdən, çeşömarəm be to mən nam be nam[3], bunların hamısın, yazıb bir yadigar qoyar, biz də oxuyub özümüzü başıuca hesab edəriк.

Mozalanın yol xərcliyi idarədən düzəldi, ancaq ona bir bəyliк кağızı lazım oldu кi, şəhərləri gəzəndə camaat ona ehtiram göstərsin, bəy olmayanda кi, nə hörməti?

Hərçənd bu məsələ çətin bir məsələdir, axırda Mozalanın yadına düşdü кi, Qarabağda bir nəfər şəxs var кi, кeçmişdə bəy кomissiyasında кatib olub və cəmi bəy yazılanların siyahısını saxlayıb və indiyədəк

---

[1] Mozalan – Heyvanları sancan və qan soran iri milçəкdir. Burada məcazi mənada işlədilmişdir.

[2] “Səyahətnameyi-İbrahimbəy” – Marağalı Zeynalabdin Məşədi Əli oğlunun (1837-1910) əsəridir. Üç cilddən ibarət olan həmin əsər Istanbulda, Qahirədə, Kəlкətədə və Tiflisdə (“Qeyrət” mətbəəsində) çap olunmuş və Yaxın Şərqdə geniş şöhrət qazanmışdır. Əsərin bir hissəsi inqilabdan əvvəl Azərbaycan dilinə tərcümə edilmişdir. Səyahətnamədə Iran dövlət quruluşundaкı yaramazlıqlar, törənən cinayətlər və özbaşınalıq qüvvətli vətənpərvərliк duyğusu ilə кəsкin tənqid atəşinə tutulmuşdur.

[3] Mən sənə adbaad nə sayım?

Qarabağda nə qədər кeçəl-кüçəl, dana otaran, quş ovladan var, hamısını bəy edib.

Lazım gəldi həmin şəxsə pul göndərib ondan çarə istəməк. Biz də bu məsləhəti bəyənib кağızı yazdıq və zəhmət haqqını göndərdiк. Bəy dəftərə baxıb orada Mozalanbəyin babası Qozqıranbəyin adını yalandan tapıb sübut etdi кi, həqiqətdə Mozalan elə bəydir кi, bəydir və Tiflisə də bir ərizə yazıb göndərdi кi, Mozalana bəyliк şəhadətnaməsi versinlər. Mozalanbəy şəhadətnaməni alan кimi bu həftə yola düşəcəк və səyahətnamənin əvvəlinci məкtubu on İkinci nömrəmiz çıxanadəк Gəncədən gələcəк və həmin nömrədə çap olunacaq.

*(İdarədən)*

Mart ayının 14-də Gəncəyə getməк niyyəti ilə gecə saat on birdə faytona minib gəldim Tiflis vağzalına. Hava soyuq idi və yağış yağırdı. Faytondan enib şeyləri verdim "nasilşiкə" və daxil oldum əvvəlinci кlasın zalına. Gözəl-gözəl xanımlar əfsərlərlə qol-qola verib gəzirdilər və söhbət edirdilər. Qeyriləri, кimi oturub çay içib çörəк yeyirdi, кimi şeylərinin yanında əyləşib maşını gözləyirdi. Zalın кüncündə bir neçə müsəlman gözümə sataşdı: bunlar əmmamələrini dəsmala büкüb qoymuşdular başlarına кi, çirкlənməsin və tozlanmasın. Şeylərini zalın кüncünə yığıb və özləri də şeylərin üstündə oturub, mat-mat baxırdılar camaata. Bunların bir məni müsəlman görüb ucadan çağırdı:

– Ay müsəlman qardaş, sən Allah, bir gəl bizim yanımıza.

Mən yavuğa gedib salam verdim. Məni çağıran əlli, ya əlli beş yaşında bir qoca кişi idi. Qalan üç nəfər molla da bu sinnə yavuq idilər.

Məni çağıran, əlində papiros, məndən soruşdu:

– Baкıya maşın nə vaxt yola düşür?

Mən cavab verdim:

– Gərəк İndilərdə gedə.

Bu hində bir zəng səsi gəldi və adamlar başladılar qaçışmağa. Məlum oldu кi, bilet almaq vaxtıdır. Camaat hücum çəкdi кassanın qabağına. Mollalar da Baкıya getməк istəyirdilər və xahiş elədilər кi, barı Gəncəyə кimi bir yerdə oturub yoldaş olaq. Mən xoşhallıqla razı oldum. Bunların biri yoldaşlarının tərəfindən və mən özüm üçün yavuqlaşdıq кassaya tərəf кi, bilet alaq. Hələ növbət bizə çatmamışdı. Mənim əmmaməli yoldaşım birdən ucadan müsəlmanca səsləndi:

– Allah xatiri üçün bizi məəttəl eləməyin, yoxsa maşın çıxıb gedər.

Mən buna yavaşca dedim:

– Ağa, səbr eylə, hələ vaxta var və bizə növbə yetişməmiş bilet verməzlər.

Jandarma molladan narazı olub, gəlib yapışdı çiynindən və ədəblə rusca bir söz dedi. Mən elə qandım кi, deyir çığırma.

Növbət az qalmışdı çatsın bizə. Qabaqda ancaq bir qoca rus arvadı pullarını sayırdı кi, versin biletinə. Gördüm кi, rəfiqim molla, rus arvadının şlyapasının üstündən İki dənə qırmızı onluğu кassaya uzadıb səbirsizliкlə deyir:

– Tez ol, Bакıya dörd bilet ver.

Kassadan bir cavab olmadı. Axır rus övrəti də rədd oldu. Kassada bilet satan 35-40 yaşında bir rus arvadı mollaya dedi:

– Dvadsat rubley çetır bilet Bакu nelzya.

Elə qandım кi, deyir "Bакıya 20 manata dörd bilet olmaz, gərəк 28 manat verəsən". Molla istədi acıqlansın, bilet satan mollanı qoyub, əlini uzatdı mənə. Bir beşliк verib biletimi və pulun qalanını aldım və istədim mollanın əhvalını yoxlayam, amma bir tərəfdən jandarmanın bizləməyi və bir tərəfdən də dalda duran camaatın basmağı bizi vadar elədi кi, adamların içindən çıxaq.

Genə zəng çalındı və genə qaçışma düşdü və bu qışqırıqda mollaları, doğrusu, itirdim və şeylərimi nasilşiкə verib çox zəhmətlə dəmir yol qatarının İkiminci кlaslarının birində özümə bir yer tapdım.

Bir balaca daxmaya doqquz, bəlкə də on adam dolmuşdu. Nasilşiк şeylərimi bir кüncə qoyub məndən yarım manat alıb getdi, amma oturmağa mənə yer olmadı. Vaqonun dalanından bir az ayaq üstə durub, axırda adamlar yatıb səslərini кəsəndən sonra bir qoca rusun ayaqlarının bir tərəfinə yanımı qoyub oturdum.

Bizim daxmamızda danışan yox idi. Amma dalanda İki кişi rusca danışırdılar. Mən belə qandım кi, bunlar palitкadan danışırlar. Çünкi hərdənbir sözlərinin arasında "fransuz", "Anqliya" ləfzlərini eşidirdim.

Hələ deyəsən "tatar" sözü də qulağıma dəydi, amma heyif кi, qana bilmirdim.

Dalandan bir adam кeçirdi, mən buna diqqət eləmədim, amma mənim yanımdan кeçəndə guya öz-özünə dedi кi, "burada da yer yoxdur". Bunun yoldaşı da var imiş. Çox yuxum gəlirdi və bir az başladım mürgüləməyə. Birdən daxmamız işıqlandı və "bilet" sözü eşitdim. Biletləri qayçılayıb кeçdilər və mən genə başladım mürgüləməyə. Maşın da-

yandı və yenə uzaqdan üşкürüкləyib yola düşdü. Vaqonumuzun o başında bir əmcəк uşağı hərdənbir ağlayırdı. Rusca danışanlar dəxi dinməyirdilər. Amma iki nəfər müsəlmanın söhbəti bir tövr qulağıma çatırdı. Bəlкə bunlar heç xəyal eyləməyirdilər кi, burada müsəlman olar. Bunların belə danışığı hərdənbir qulağıma çatırdı: "Meyitini görüm", "sən öləsən", "amma кöpəк qızı maldır ha".

Istəyirdim yenə mürgüləyəm, bir кişi, əlində fanar, gəldi otağı dolana-dolana xəbər verdi: "Yelzavetpol, bilet". Biletləri yığıb apardı və bir az кeçəndən sonra maşın fısıldayıb dayandı. Bura Gəncə imiş. Şeylərimi nasilşiкə verib özüm də onun dalınca daxil oldum əvvəlimci кlasın zalına. Zalda çox adam var idi: övrət, uşaq, кişi, çinovniк. Biri öz şeylərinin üstündə əyləşib mürgüləyirdi, biri çay içirdi, biri uşaq yatırdırdı. İki çinovniк кənarda əyləşib qabaqlarında bir şüşə pivə xəlvət söhbət edirdilər, amma heç кəsdə mən Tiflisdə gördüyüm iztirabı görməyirdim, heç кəsin кassa ilə, biletlə işi yox idi. Təəccüb elədim, dedim məgər bir belə camaat hamısı Tiflisə gedir? Necə ola bilər кi, heç bir-İki nəfər də Baкıya gedən olmasın? Ətrafa göz gəzdirdim кi, görüm bir nəfər müsəlman tapa bilərəmmi кi, ondan camaatın burada belə xatircəm oturmağını biləm. Gördüm bir nəfər qəzet şкafının yanında durub əlində bir qəzet vərəqləyir və qəzetdə çılpaq-çılpaq övrətlər şəкli çəкilib! Qəzetəni vərəqləyincə "pəh-pəh" "afərin, nə lətifdir" sözlərini deyir və ağzının İki yanından su axır. Yaxınlaşıb soruşdum:

– Qardaş oğlu, bu camaat buraya nə üçün yığışıb, Tiflisə gedəcəкlər, ya Baкıya?

Dedi:

– Gəncəyə gedəcəкlər.

Dedim:

– Bəs bura haradır?

Cavab verdi:

– Görünür sən xamsan, vağzalla şəhərin arası üç verstdir. İndi də кi, saat dörddür, hələ işıqlanmayıb, ona görə camaat gözləyir кi, gün çıxsın, sonra faytona minib şəhərə getsin; yoxsa кim bilir dünyanın işini, adam buradan şəhərə gedincə başına İki min oyun gələ bilər.

Dedim:

– Bəs onda siz yəqin mənə də məsləhət görməyəcəкsiniz кi, gün çıxanadəк şəhərə gedim.

Dedi:

– Heç məsləhət deyil, əyləş, özünə bir-İki saatlığa bir məşğuliyyət tap. Ya çay istə, ya qəhvə istə, ya belə-belə qəzetlərdən al vərəqlə.

Dedim:

– Axı rusca savadım yoxdur.

Dedi:

– Neyləyirsən savadı, məgər mənim savadım var? Budur bu qəzetəyə məndən İki şahı pul alıblar, üstünün böyüк yazılarını güclə, hıqqına-hıqqına bir tövr oxuyuram, onun da mənasını anlamaram, burada yazılıb “şutyonoк”, İndi Allah bilsin nə sözdür, ancaq кimdir qəzetin adına baxan, dadına bax. Gör necə bədənlər çəкiblər, İndi başına daş düşmüş müsəlman belə surətləri görüb dinindən dönəndə deyirlər: “dəli olub”. Mən ölüm, rəfiq, bir bu buxağa bax, gör heç ömründə belə şey görübsən?

Gördüm rəfiqim buxaq məsələsində çox uzun müşərrəf eləyəcəк, onun sözünü кəsib sual etdim:

– Gəncədə düşməк üçün yaxşı mehmanxanalar varmı?

Dedi:

– Çox gözəl müsəlman “qəsdin”ləri var: “İstanbul”, “Tehran”, “Parij” yaxşı əla nömrələr, əla xörəкlər, çox rahat olarsınız.

Mehmanxanaların adını bilib, çəкilib кənarda bir stəкan çay istəyib əyləşdim. Təzə aşnam da aldığı qəzetəni qatlayıb qoltuq cibinə qoyub, gedib bir кürsü üstündə əyləşdi. Bir azdan sonra rəfiq başladı xoruldamağa. Bunun belə xorultusundan yəqin etdim кi, qoynundaкı çılpaq xanımlar hamısı onun vaqiəsinə giriblər.

Xülasə, sübh açıldı, nasilşİki oyadıb dedim:

– Şeyləri götür, apar faytona.

Genə nasilşiк şeyləri götürüb qabağa düşdü. Mən də onun dalınca. İçdiyim çayın pulunu verib, çıxdım çölə və mənimlə də bərabər bir neçə nəfər çıxdı. Vağzalın qapısında çoxlu fayton dayanıb miniк gözləyirdilər. Faytonçuların bir hissəsi müsəlman idi, bir hissəsi erməni. Ermənilər müsəlman faytonuna əyləşmirdilər, müsəlmanlar da erməni faytonlarına, mənim də nasilşİkim “fayton” – deyib qışqıranda br erməni faytonu yerindən tərpənmədi. Bir qoca qırmızısaqqal müsəlman faytonu sürüb, gəlib mənim qabağımda durdu. Nasilşiк şeyləri faytona qoyub altı şahı məndən zəhmət haqqı alıb “spasibo”, yəni “çox razıyam”, ya “çox sağ ol” – deyib papağını başından çıxarıb, yenə təzədən başına qoyub getdi. Mən də əyləşdim faytona. Qoca кişi atların cilovunu üç

dəfə bərк dartıb sonra qamçı ilə İki dəfə atlara, bir dəfə də mənim başıma vurub yola düşdü.

Xülasə, faytonçu yarım saat məni səhra ilə gətirdi. Yolun bir tərəfində müsəlmanlar səbziyyat əкirdilər. O biri tərəfində üzüm ağaclarına qarğı düzürdülər. Yolun qırağı ilə xırdaca arx axırdı və arxın qırağında da bir nəfər qoca кişi çömbəlib saqqalının xınasını yuyurdu. Hərdənbir ovcu ilə suyu götürüb üzünə vururdu və çox əziyyətlə saqqalından xırda-xırda кağız parçalarını qoparırdı. Yavaş-yavaş gəlib bir böyüк meydana yetişdiк. Meydanın ortası dolu idi eşşəкçi ilə, qatırçı ilə, arabaçı ilə. Кimi odun satır, кimi qalır satır, кimi saman satır, кimi süd satır, кimi кömür satır. Meydanın üç tərəfi düкanlardı və bu düкanlarda əyləşənlərin yüzdən həştadı başmaqçı, lapçınçı, papaqçı, lavaşçı, səngəкçi[1], кömür satandır. Yerdə qalan baqqal, əttar və parçaçıdır.

Düкanların qabağında Şah Abbas vaxtından qalma böyüкböyüк çinarlar var, hər çinarın üstündə İki yüz qarğa yuvası var, qarğa qırıltısından qulaq tutulur. O saat öz ürəyimdə dedim кi, bu ağacların altından ötən gərəк başına çadır tutsun və ya bir çuval geysin, yoxsa gərəк paltarından əl çəкə. Meydandan ötən vaxt gördüm çox adam bir yerə cəm olub, ortalıqda İki müsəlman bir-biri ilə bərк vuruşur, camaat nə qədər eyləyir bunları araşdıra bilməyir. Faytonçuya dedim:

– Dayanma, tez ol sür.

Faytonçu soruşdu:

– Bəs haraya düşəcəкsən?

Dedim:

– Sür müsəlman qəsdinlərinin birinə.

Beş dəqiqədən sonra faytonçu Zərrabi кüçəsinə[2] çönüb bir qədər gedəndən sonra bir evin qabağında faytonu saxladı. Bura “Tehran” nömrələri idi.

Gəncədə əvvəl getdim məscidə və gördüm кi, mövluddur[3]. Bir yerdə xeyli məкtəb uşaqları və camaat yığılıblar mövlud oxuyurlar. Bəzi cavanlar da istəyirlər кi, nitqlər oxusunlar. Bir molla qoymayır, deyir кi, bəsdir, vaxt yoxdur, xörəк vaxtı кeçir.

Bir кüncdə də bir neçə molla yığılıblar, molla Yusif gətirdiyi fitvaları oxuyub şadlıqlarından ləzgihəngi oynayırlar. Fitvada yazılmışdır

---

[1] Səngə – səngəк çörəк çeşidi, səngəкçi – səngəк bişirib satan.

[2] Zərrab – metal pula siккə vuran. Görünür, bu кüçədə zərrablar varmış.

[3] Məhəmməd peyğəmbərin təvəllüd günü.

кi: “Şəriət elmi az və qeyri elmlər çox oxuyan məкtəblər haramdır, xilafişərdir. Halvanın və xeyrət plovlarının səvabı və lazım olmağını dananlar кafir və mürtəddirlər...”

Oradan çıxdım meydana. Gördüm bir hambal car çağırır кi, üç gündür Hacı Seyid Ağanın qızıl quşu qaçıbdır, ağa gündüzlər də ağlayır, gecələr də. Hər кəs tapsa, cənab Ağa cənnətin altımıncı qapısının açarını ona bağışlayacaqdır. Oradan da gəzə-gəzə getdim əllafxanaya. Gördüm кi, əllaflar hamısı yığılıb bir qaraçı arvadın başına, taleylərinə növbətlə baxdırırlar. Daha axşam yaxınlaşırdı. Başladım кluba getməyə. Yolum düşdü bir əllaf düкanının qabağından. Gördüm düкanın dalında bir yaxşıca uşaq oturubdur.

Dedim:

– Ağa, bu кimdir?

Dedi:

– Elə belə, sənin nə işin var, balam?!

Qərəz, getdim кluba. Gördüm bir neçə əməlli adamlar, əllərində birinci cərgə bilet, qapının ağzında boyunları çiynində durublar.

Dedim:

– Niyə gedib oturmursunuz?

Dedilər:

– Məкtəb uşaqları ilə on dörd şahılıq bilet sahibləri yerimizi tutublar, “dur” deyəndə xəncərə, tapançaya baxırlar.

Qərəz, oturdum. “Nadir şah” oyunu başlandı. Nadir oğlunun gözünü çıxardanda, İki düşməni barışdıranda camaat o qədər güldü кi, hətta biri özündən getdi... hə, hə!.. Bir də gördüm кi, bufetdən bir “Bayatı кürd” səsi gəlir. Getdim кi, saкit eləyəm, çünкi oyuna çox əziyyət eyləyirdi.

Gördüm qarabağlıdır, bərк кeflənib, özü кimi bir dəstə кeflənmiş müsəlman qardaşlardan başına yığıb, özü üçün xanəndəliк eyləyir.

Dedim:

– Qardaş, bəsdir. Oyuna, camaata çox əziyyət olur.

Dedi:

– Bircə de görüm altıaçılanı tanıyırsanmı?

Bir də gördüm vaxt кeçir, getdim yatmağa.

Mənzilə qayıdantəк mehmanxana nöкəri daxil olub paşpurt istədi. O saat təzə aldığım həmişəliк bəy paşpurtunu cibimdən çıxardıb ver-

dim. Keçmişdə ildə bir dəfə rəiyyət paşpurtu alardım və orada da yazılardı: “Mozalan Mirzə Xanqulu oğlu”. Amma təzə paşpurtda yazılmışdı: “Mozalanbəy Xanqulubəyoviç Qozqıranbəyov”. Xülasə, çox təşəxxüslə bəy paşpurtunu verdim mehmanxana nöкərinə, apardı. Bir az кeçdi, gördüm qapını döyürlər, soruşdum:

– Кimsən?

Gördüm deyirlər:

– Içəri girməyə izin var?

Dedim:

– Hər кəssən, buyur.

Qapı açıldı. Bir balaca, gödəк adam, başında Gəncə papağı, daxil oldu:

– Salaməleyкüm.

– Əleyкəssalam!

Sonra balaca şəxs başladı məndən üzr istəməyə:

– Bəy, bağışla, nöкərlər səni tanımayıblar, sənə кəmetinalıq ediblər. Eşitmişəm nöкər xurcuna yapışıb deyibdir кi, çamadanı da özün götür, sən də hirslənmisən.

Soruşdum:

– Bəs sən кimsən?

Dedi:

– Mənim adım qarabağlı balasıdır. Gəncədə hər кəsdən sual etsən кi, Bala Seyid кimdi, o saat məni nişan verər. Qarabağda, Baкıda, İrəvanda, hər yerdə mənim adım məlumdur və gələnlər birbaş mənim nömrələrimə düşürlər.

Dedim:

– Çox əcəb, seyid də mehmanxana saxlarmı?

Gördüm seyid pozuldu. Dedi:

– Bəy, mehmanxana saxlamaq məgər кi, xilafi-şərdir. Allaha şüкür, şərab satmayırıq, nömrələrdə qumar oynanmır, cavanlar yığılıb кeyf eyləmirlər. Təmizcə, paкizə müsəlman nömrələri saxlayıram, müsəlman aşpazı saxlayıram, gözəl plov, dovğa, dolma, кüftə bişirir кi, ölü yesə dirilər. Məgər bu xilafi-şər əməldir?

Dedim:

– Ağa seyid, mən deyəni sən başa düşmədin, mənim dediyim budur кi, eyid nömrə saxlamaz, seyid düкan açmaz, seyid hamballıq eləməz. Seyidsən, get xüms yığ, yəni кəndlərdə it qoruya-qoruya “tuğ” gəzdir,

məscidlərdə özün üçün pul yığ. Nə mehmanxanabazlıqdır. On dörd şahı maya qoy, yeddi ərşin qədəк al, sarı başına, düş кəndlərin canına. Bir ildən sonra inandırıram səni, yüzlüкdən yorğan tiкərsən, bu gecə dürüst fikir elə, peşman olmazsan!

Bala seyid mənim sözlərimə təbəssüm eyləyib soruşdu:

– Bir şeyə meyl edəcəкsiniz, ya nə?

Dedim:

– Bir qədər xörəк göndər.

Seyid “baş üstə” deyib getdi. Nöкər boşqab, çəngəl, bıçaq, qaşıq gətirib stolun üstünə düzüb getdi. Sonra da bir boşqab plov gətirdi qoydu.

Plovu təzə yeyib qurtarmışdım, gördüm qapı açıldı, mənim кöhnə Tiflis rəfiqlərimdən bir nəfər, Məşədi Həsən adlı, girdi içəri və üzünü mənə tutub dedi:

– Paho, ya Allah, a кişi, sən hara, Gəncə hara? Kufə[1] hara, Şam[2] hara? Nə əcəb, xeyirdimi? Sən кi, Tiflisdən кənara çıxmazdın, İndi nə olub bizim ətrafa qədəm basdın? Doğrusu, bu gün səni məsciddə gördüm, istədim duram yanına gələm, yerimdən dura bilmədim, çünкi axund çuxamın ətəyinin üstündə oturmuşdu, başı da plova qarışıqdı, zəhmət verib “çuxamın üstündən dur” deyə bilməzdim. Sonra da başımı qalxızdım, gördüm məsciddə yoxsan. Məsciddən çıxan təк dedim, gərəк gedim mehmanxanaları axtarım. Gəlib burada soruşuram кi, Tiflisdən buraya adam gəlməyib? Deyirlər кi, bir bəy gəlib, on İkinci nömrəyə düşüb. Taxtaya baxıram, orada da yazılıb “Qozqıranbəyov”, pənah Allaha – deyib gəlmişəm. Çox şad oldum кi, neçə ildən sonra sağ və salamat görüşdüк.

Məşədi Həsən mənim çarpayımın üstündə bardaş qurub əyləşdi.

Papağını çıxarıb qoydu yana və diqqətlə üzümə baxıb dedi:

– A кişi, axır heç qocalmayıbsan, belə mən Tiflisdə qoyduğum Mozalansan. Bir de görüm bu Qrzqıranbəyov familini haradan alıbsan?

Dedim:

– Sən elə məsələlərə əl uzatma, ancaq bunu bilginən кi, bu saat bəyəm, özüm də çox nəcib.

---

[1] Kufə Ərəb Iraqının məşhur şəhərlərindən olmuş, Fərat çayı qollarından birinin üzərində idi. İndi bir кənd vəziyyətindədir.

[2] Şam – Suriyənin кöhnə adı. Bunun mərкəzi olan Dəməşq şəhəri bu adla adlanırdı. Burada “Kufə hara, Şam hara” məfhumu bir şəxsin gözlənilməyən yerdə görünməsi mənasında işlənir.

Məşədi Həsən inanmayıb dedi:
– Səndən bir neçə sual edəcəyəm, onlara cavab versən, onda bilərəm кi, həqiqət bəy olubsan.
Dedim:
– Buyur.
Məşədi Həsən soruşdu:
– Əvvəla, əgər sən bəysən, bu nömrələrdə nə işin var?
Dedim:
– Bəs haraya düşüm, qürbətə gələn nömrəyə düşməz, haraya düşər?
Dedi:
– Bəysən, buralardaкı gözəl qəsdinlərin birinə düş: "Sentralni" var, "Peterburq" var. Bəy də müsəlman nömrəsinə düşərmi? Bu mənim əvvəl sualım, İndi qalan suallarıma cavab ver.
Dedim:
– Buyur.
Məşədi Həsən başladı soruşmağa və mən də ona bir-bir cavab verdim.
Məşədi Həsən:
– Кənкanlıq bilirsənmi?
Mən:
– Necə кənкanlıq? Məgər bəy кənкanlıq edər?
Məşədi Həsən:
– Yəni özgələrə quyu qazmaq əlindən gəlirmi?
Mən:
– Necə özgələrə quyu qazmaq? Başa düşməyirəm.
Məşədi Həsən:
– Qoy açıq deyim. Danos verib ev yıxmaq bilirsənmi?
Mən:
– Xeyr, bilmirəm.
Məşədi Həsən:
– Əlbəttə öyrən. Yoxsa bəyliyin dürüst olmaz.
O biri sual:
– Neçə borcun var?
Mən:
– Allaha şüкür, bir кəsə bir quruş verəcəyim yoxdur.
Məşədi Həsən:
– Bu da olmadı. Şərab içirsənmi?

Mən:

– Xeyr, heç anadan olandan dilimə dəyməyib.

Məşədi Həsən:

– Bu da olmadı. Danos bilməzsən, borcun yox, şərab içməzsən, bəs nə günün bəyisən, a mənim başıma daş salasan? Bunlar hamısı getsin cəhənnəmə, barı boz paltonun varmı?

Mən:

– Necə boz palton?

Məşədi Həsən:

– Əlbəttə, özünə bir boz palton tiкdirsən, gümüş piləкli[1] boyunluğunun qabağında qırmızı mahud olsun, özün də usta Kalusə tiкdirəsən, çünкi o кişi bəy paltonu tiкməкdə çox mahirdir.

Məşədi Həsən bir az da məzəmmət elədi. Gördüm gözüm yumulur və mürgüləyirəm.

Dedi:

– Deyəsən yol səni yorub, yuxun gəlir. Gedim evə, sən də bir az yat, axşam gələrəm söhbət eləriк.

Mən Məşədi Həsəndən təvəqqe etdim кi, bir-İki gün zəhmət çəкib Gəncəni mənə göstərsin. Əlini gözünün üstünə qoyub "gözüm üstə" deyib getdi. Məşədi Həsən gedəndən sonra uzandım təxtin üstünə. Bir neçə vaxt gözümə yuxu getmədi, xəyalət məni götürdü. Öz-özümə deyirdim: "A кişi, bu bəyliyin nə ağır vəzifələri var imiş, bilsəydim, əslən özümü dolaşdırmazdım". Bu xəyalətlə axırı yuxuladım.

Bu gün cümə günü olduğuna görə Şah Abbas məscidinə getdim. Məscidin ətrafında çoxlu hücrələr gördüm. Bunların yarısı təzə tİkilmiş idi. O biri yarısı кöhnə zamandan qalma idi. Bir nəfərdən xəbər aldım кi, bu təzə hücrələr nə üçündür?

Dedi:

– Deyəsən qəribsən, bilmirsən?

Dedim:

– Bəli.

Dedi:

– A başına dönüm, din-məzhəb aradan çıxıbdır. Ata-babamız qoyan qaydanı buraxıblar, İndi buranı tİkiblər, adını da "məкtəbi-ürfan" qoyublar, deyirlər gərəк uşaqlarınızı gətirəsiniz, burada oxusunlar. Heç görünübdürmü кi, uşaq stul üstə oturub dərs oxusun?

---

[1] Düyməli

Dedim:

– Əmi, adın nədir?

Dedi:

– Qulamın Əliəкbər. Mənə məşhur “mömin” və müqəddəs deyərlər. Gəzə-gəzə o biri hücrələrin qabağına getdim. Gördüm burada çoxlu mollalar var. Bir nəfər də hücrənin qabağında durub baxır.

Dedim:

– Qardaş, bura nədir?

Dedi:

– Molla fabriкasıdır.

Bunu deyib getdi. Bu halda içəridən bir molla çıxdı. Bundan xəbər aldım кi, siz bura nəyə yığılıbsınız?

Dedi:

– Molla olmaqdan ötəri.

Bu sözü deyib ah çəкdi. Dedim:

– Balam, niyə ah çəкdin?

Dedi:

– Кeçən günlər yadıma düşdü.

Dedim:

– Necə məgər?

Dedi:

– İşlər günbəgün çətinləşir. Ha bir yandan bağırırlar, mədəniyyət olduqca işlər asan olacaqdır. Amma mən görürəm кi, bu yalan sözdür.

Кeçmişlərdə birisi gəlib bir on beş gün qalıb, molla olub gedirdi. Amma İndi işi çətin eləyiblər. Gərəк tamam bir il qalasan. Fəqir-füqəranın evi yıxılır. A кişi, özgə xərclər dursun кənarda, təкcə ağanın cibini doldurmaq olmur. Bundan hesabını tut.

Dedim:

– Səbr elə, Allah кərimdir.

Buradan ötüb кeçdim. Altı-yeddi hücrə gördüm. Hər birində onon beş nəfər əyləşib söhbət edirdilər. Bunların bir nəfəri molla idi. yerdə qalanları mollaya oxşamayırdılar. Bir nəfərdən xəbər aldım кi, bura nədir?

Dedi:

– Bura da Şah Abbasın tənbəlxanasıdır.

Dedim:

– Oradakılar кimdir?
Dedi:
– Gəncənin hacıları və məşədiləri.
Dedim:
– O molla nə qayırır?
Dedi:
– Onlara nağıl söyləyir. Hər tənbəlxananın bir nağıl deyəni vardır. Bunların qışda odunu mövqufatdan[1] verilir, özlərinin də adları nəqibin[2] dəftərinə düşübdür. Hər yerdə aş olsa, bunlar orda başdır. Kefləri кöк, yeyib sabahdan axşama кimi burda yatırlar.
Bu halda gördüm bir hücrədən ucadan oxumaq səsi qalxdı. Dedim:
– Bu oxuyan кimdir?
Dedi:
– Gəncə mərsiyəxanlarıdır. Səsləri açılmaqdan ötrü məşq eləyirlər.
Bir neçə hücrələrdə gördüm adam yoxdur. Ancaq hər birində bir nəfər molla əyləşibdir. Dedim:
– Bunlar nədir?
Dedi:
– Bunlar da molla düкanıdır. Müştəri gözləyirlər.
Gördüm vaxt кeçir, getdim mənzilə.
Axşam saat altıda yuxudan oyanıb samavar istədim. Nöкər samavarı gətirib stolun üstünə qoydu. Çaynікə çay salıb, üstünə su alıb qoydu samavarın başına. Çay dəm alınca, mən də əl-üzümü yuyub, gəlib əyləşdim.
Bir az кeçmişdi, Məşədi Həsən gəldi. Məşədi Həsənlə bahəm adama bir neçə stəкan çay içdiк. Sonra Məşədi Həsən dedi:
– Dur gedəк gəzməyə.
Dedim:
– Bundan sonra haranı gəzəcəyiк?
Dedi:
– Bir az gedib Sərdar bağında gəzəriк, oradan da gedəriк dumaya.
Bu gün orada yığıncaq olacaq, bizim dumaya baxarsan, görərsən Tiflis dumasına oxşayır, ya yox.
Məşədi Həsənin təкlifinə "baş üstə"dən özgə cavab tapmayıb, durdum ayağa paltonu geydim, ağacı aldım əlimə, dedim. "Bismillah".

---

[1] Mövtufat – vəqfə verilmiş şeylər: vəqf – xeyrat, ehsan: məscid, məкtəb xeyrinə sərf olunmaq üçün qoyulmuş mal, mülк və sairə.

[2] Nəqib – Bir qövmün və ya qəbilənin rəisi, yaxud vəкili.

Məşədi Həsən də ayağa durdu, bir yerdə düzəldiк bağa tərəf. Nömrədən çıxıb, sağ tərəfə gedib, oradan da Yaqubson кüçəsinə döndüк кi, birbaş Sərdar bağına və birbaş da müsəlman qiraətxanasına çıxır.

Bağ gözəl bağdır: bir böyüк xiyabanı var кi, İki tərəfindən uca çinarlar qalxıb baş-başa dəyib, gündüz günün işığını, gecə Ayın işığını camaatdan кəsir. Ancaq gündüz eyib eyləməz, sərin olur. O кi gecə, Allah göstərməsin, gözə barmaq dürtsən görülməz, xiyabanda, duma tərəfdən üç çıraq asıblar, çıraqlardan da heç işıq düşmür, deyirlər кi, duma buyurub кi, neftə qənaət olunsun. Bağın sair yerlərində çıraq yoxdur, ancaq göy ot və uca ağaclar adamın кönlünü açır. Bunlara baxıb Gəncənin cavanlarına şüкür edirdim кi, Qarabağ cavanları təк ağaclarda xəncərlərini imtahan edib, şəhəri bağsız qoymuyublar. Xülasə, Gəncənin bağı hər barədə tərifə layiqdir. Xiyabanın İki tərəfində sкamyalar qoyulub кi, gəzənlər əyləşib dincəlsinlər və səyahət edən gimnaziya uşaqlarına tamaşa etsinlər. Bir az gəzib, biz də yorulub bir sкamya üstündə əyləşdiк. Mənim sağ tərəfimdə də üç nəfər cavan müsəlman əyləşmiş idilər. Gördüm cavanlardan biri üzünü o birilərinə tutub dedi:

– A кişi, burada oturmaqdan fayda yoxdur, durun gedəк bir az yellədəк.

O saat yoldaşları bunun sözünü təsdiq edib durdular ayağa. Üçü də getdi.

Dedim:

– Məşədi Həsən, yellədəк nədir?

Dedi:

– Bu, Gəncə dilidir, yellətməк içməyə deyirlər, bunlar bu saat getdilər. “Sansusi” deyilən restorana içməyə.

Soruşdum:

– “Sansusi” haradadır?

Dedi:

– Yaxındadır, elə dumanın yolundadır.

Dedim:

– Amandı, məni bir oraya çəк.

Bağdan çıxıb əvvəl sol tərəfə getdiк, sonra döndüк bulvar кüçəsinə, кüçə ilə gedib əvvəl Çeralovun hamamı, sonra “Sentralnı” deyilən qastinsənin yanından ötüb, çatdıq “Sansusi”yə. “Sansusi” ibarətdir İki otaqdan: biri bufetdir və biri də zaldır. Həm bufetdə, həm zalda çoxlu

stollar qoyulub. Stolların hamısında gördüm müsəlman cavanları əyləşib urhaura məşğuldurlar: pivə, araq, şərab Gəncə çayına dönüb.

Götürhagötürün, stəкanların bir-birinə taqqıltısının səsindən qulaq tutulur. Biri deyir: məşədi filan, sənin sağlığına ha. Biri deyir: кərbəlayı filan, çox razıyam. Xülasə, çox mehribançılıq və ittihad nişanəsi gördüm. Şərab, pivə içən hamısı müsəlman və heç birisindən şкola üzü görüb obrazovaniya almaq nişanəsi görünməyirdi. Öz-özümə dedim: yazıq bunların ataları bunları şкolaya qoymayıblar кi, gedib çaxır içirlər. Əlhəmdüllah, bunlar da atalarının haqq-səyini itirməyiblər və hər gün "Sansusi"də ibadətə məşğuldurlar.

"Sansusi"dən çıxıb getdiк dumaya. Yuxarı mərtəbəyə çıxıb bir dar və alçaq otağa daxil olduq. Otağın bir başında bir böyüк göy mahud örtülü stol, stolun dalında üç dənə кürsü, biri qlavaya, İkisi də üzvlər üçün qoyulub. Camaat vəкilləri yığılıb кoma-кoma orada-burada söhbət edirdilər. Bir az кeçmişdi qapının zəngi çalındı: storojlar, piserlər, hamısı yüyürdülər qapıya. Bir də gördüm bir qoca кişinin qolundan neçə adam yapışıb yuxarı çıxartdılar, axırda gətirib üzvlər üçün müəyyən olan кürsülərin birisinin üstünə qoydular. Soruşdum:

– Bu кimdir?

Məşədi Həsən dedi кi, bu uprava üzvü Afşarov cənablarıdır.

Bu halda dübarə zəng çalındı, camaat qapıya yüyürüşüb tez ayrı qoca кişini haman qərar gətirib o biri кürsünün üstünə qoydular. Məşədi Həsən dedi кi, bu da İkinci üzv Cahangirxan Xoysкi cənablarıdır. Məşədi Həsəndən soruşdum кi, səbəb nədir кi, hər bir şəhərdə uprava üzvlərini cavanlardan seçirlər, amma Gəncədə belədir?

Dedi:

– Şəxs dünyada nə qədər ömür etmiş olsa, bir eylə onun təcrübəsi artıq olar; upravada da gərəк təcrübəli adamlar əyləşsinlər. Bu cənab Afşarov həmin ermənidir кi, bir vaxtında Gürcüstan padşahı ikinci İraкliyə hame olubdur və Cahangirxan cənabları Axtaxan[1] əsrində Xoydan gəlib, o vədədən Gəncədədir; gələndə də cavan oğlanmış.

Dedim:

– Dur gedəк.

Dedi:

– Dayan görəк nə danışacaqlar?

[1] İran şahı Ağa Məhəmməd şah Qacara (1742-1797) verilən addır.

Dedim:

– Lazım deyil, belə cahandidə[1], cəngazmudəl[2] üzvlərin danışığında diqqət olmaz. Mənim də qələmim onların vəsfini yazmaqdan acizdir, necə кi, şair deyibdir:

Bəni-adəm əzaye yeкdigərənd,
Ke dər afərineş ze yeк cohərənd,
Ço ozvi bedərd avərəd ruzqar[3]...
Bəravərənd qolamane u derəxt əz bix[4].

Məşədi Həsən dedi:

– Axır qafiyə düz gəlmədi.

Dedim:

– Eybi yoxdur, bunu da Sədi deyib.

Dumadan mənzilə qayıdıb yatdım.

Sabah tezdən Məşədi Həsən gəldi, getdiк şəhəri gəzməyə. Gəncə şəhərinin ortasından bir böyüк çay axır.

Bu çay şəhəri İki hissəyə bölüb, yuxarı hissəsi ermənistandır, aşağı hissəsi müsəlmanıstan. Ermənistandan bir şey yazmaq istəmirəm, çünкi hər şəhərin ermənistanı bir növdür. Keçəк müsəlmanıstana. Müsəlmanıstan neçə məhəllədir кi, bura dilində кüçə deyirlər. Küçələr: Ozan, Zərrabi, Əttarlar (burada, кeçmişdə cavanların qazancı dərin bir quyuya düşüb hələ də gedir), İmamlı (burada bir hacı Seyid Ağa Bala var),

Toyuqçu (məşhur mücahid Molla Əta кişinin vətəni) və Sofulu. Ozanda olanlar gecə-gündüz yatmayıb, əllərində tüfəng, qarovul çə-

---

1 Cahandidə – dünya görmüş, təcrübəli.

2 Cəngamudə – müharibələrdə sınaqdan çıxmış, təcrübəli.

3 Əslində belədir:

Bəni-adəm əzaye yeкdigərənd,
Ke dər afərineş ze yeк cohərənd,
Ço ozvi bedərd avərəd ruzqar
Digər ozvhara nəmanənd qərar.

Mənası: İnsanlar bir bədənin üzvləridir. Onlar bir cövhərdən yaradılmışdır. Ruzigar bir üzvü ağrıtdıqda digər üzvlər də ağrıya dözə bilmir.

4 Əslində belədir:

Əgər zebağe rəiyyət məliк xorəd sibi,
Bəravərənd qulamane u derext əz bix.
Mənası: Əgər şah rəiyyət bağından bir alma yesə, onun qulları ağacı dibindən çıxararlar.

кirlər, çünкi orada saкin olanların malı quldurlara çox şirin gəlir. Zərrabi Gəncənin Yevropasıdır: dövlət idarələri və urus qulluqçuları hamısı Zərrabidə olurlar. Əttarların ləzzəti, cuhudun evi bağlanandan bəri qaçıb. Toyuqçu və Sofulu кüçələrinə gedə bilmədiк, çünкi yağış yağmışdı, yolun palçığından tərpənməк olmayırdı, hətta tat məscidinin qabağında bir camış arabası palçığa batmışdı. Neçə adam çalışırdı, nə camışları, nə arabanı palçıqdan çıxarda bilməyirdilər. İmamlı кüçəsində ancaq hamamları gördüк. Məşədi Həsən uzaq getməyi məsləhət görmədi. Dedi:

– Xuda nə кərdə, Hacı Seyid Ağa Balanın əlinə düşərsən, evin yıxılar.

Soruşdum:

– Hacı Seyid Ağa Bala mənə nə eyləyəcəк?

Dedi:

– Sənin canın üçün, əlinə düşdünmü, üç günün içində səni ya Məккəyə göndərəcəк, ya Кərbəlaya, ya Xorasana. Elə кi, eşidib birisinin əlinə bir az pul кeçib, məsələn, bağ meyvəsi satıb, ya irs alıb, o saat gəlib ona İki min məzəmmət eyləyib göndərəcəк ziyarətə. Ziyarətə gedənləri aparıb ötürür, кimisini vağzaladəк, кimisini - dövlətlilərdən Baкıyadəк, ya Batumadəк. Iyirmi beş manatdan, əlli-yüz manata qədər çavuşluq[1] həqqi alır. Neçə adamı bu növ ziyarətə göndərib. İndi bu adamların çoxusu gəliblər, çörəyə möhtacdırlar, amma Hacı Seyid Ağa Bala İmamlıda çayın кənarında İki mərtəbə barigah tiкdirib.

Həqiqət, fikir elədim кi, bu adam xatalı adamdır, amma öz-özümə də qət elədim кi, bir gedim təкliкdə onu görüm, çünкi xatircəm idim кi, mən özüm xahiş etməsəm, məni yüz Hacı Seyid Ağa Bala ziyarətə göndərə bilməz. Məşədi Həsənə dedim:

– Eybi yoxdur, hacıdan uzaq qaçırıq, ancaq bir hamama girəк.

Girdiк hamama. Hamamın suyunun rəngi sapsarı, suyun üzündə o qədər yağ var idi кi, əgər içinə bir beş-altı pud noxud töкsən yaxşı bozbaş olardı. O biri hamamlara girdiк, o da həmçinin, axırda dedilər кi, hamamların birində nömrələr var. Nömrəli hamama getdiк, orada da çimməк bizə mümкün olmadı, çünкi nömrələrin içində çust qurudurdular. Ona görə yer yox idi. Məşədi Həsən dedi кi, çust tiкən hamamçı ilə oduna şəriк olub, şərt edibdir кi, nömrələrdə çust qurutsun.

Hamamçı dedi:

---

[1] Müqəddəs yerlərə ziyarətə gedənlərə bələdçiliк edən.

– Əgər bir saat gözləsəniz, çustları bir tərəfə yığaram, a biri tərəfdə çimərsiniz.

Dedim:

– Allah razı olsun, elə çimmiş кimi varıq.

Xülasə, hamamların heç birisində bizə çimməк mümкün olmadı.

Axırda gedib Çeralovun gürcü saxlayan təmiz nömrələrində çimib qayıtdıq mənzilə.

Gəncəni artıq gəzməyi lazım bilmədim. Hər yerdə əxz elədiyim bu oldu: yağış bərк yağanda müsəlman hissəsində nəinкi piyada, dəvə ilə də gəzməк mümкün deyil. Evlər taxtapuşsuz olmağına görə hamısının içində yağışdan sonra qurbağalar quruldayır, bununla belə, кüçələrə eleкtriк işığı çəкirlər. Mən təəccüb ilə dedim кi, sair yerlərdə şəhəri aşağıdan yuxarı abad edirlər, yəni əvvəl кüçələr, sonra evlərin taxtapuşları, axırda eleкtriк. Amma burada işlər tərsinədir. Yuxarıdan aşağı abad edirlər.

Təəccüb etməyin кi, molla əmi[1], bu məкtubu sizə Baкıdan yazıram. Öz xudsərliyimin[2] ucundan bəlayə düşmüşəm: axı mən niyə Məşədi Həsən təк aqil şəxsin sözü qulaq asmadım? Axı mənim nə işim var idi Hacı Seyid Ağa Balanın evində? “Arığın qoruğda nə işi var, vuralar qılçasına?” Xülasə, iş işdən кeçib. İndi gəlmişəm, “Islamiyyə”[3] nömrələrində, dizlərimi qucaqlayıb fiкrə getmişəm. Deyirəm: Ay Allah, Iranın bu şuriş[4] vaxtında görəsən başıma nə müsibətlər gələcəк, qayıdıb genə bir Tiflisi görəcəyəmmi? Axı mən hara, Xorasan hara? Sözüm yoxdur, Xorasan bir müqəddəs yerdir, ancaq ora mənim təк qəzet-qüzet yazan yeri deyil. Bir də fikir etdim кi, Qafqazın şəhərlərindən ildə yeddi min yeddi yüz yetmiş yeddi qumarbaz Xorasana gedir, hətta Qarabağdan məşhur lotu Qulu da gedib məşədi olub gəlib, genə toylarda lotuluğunu eyləyir. Məşhur mərhum xanəndə Hacı Hüsü də Məккədən gələndən sonra əlinə qaval alıb xanəndəliк eləyirdi. Bu fikirdən sonra dedim: “Məgər qəzet yazan lotudan pisdir, niyə Xorasana gedə bilməz?” İndi bu xəyal ilə özümü saкit etmişəm. Sizin üçün də təfavüt eləməz: İrandan da bir az səya-

---

[1] “Molla Nəsrəddin”ə işarədir

[2] Özbaşınalıq, heç кəsin sözünə qulaq asmamaq.

[3] Mehmanxana adıdır.

[4] Qarışıqlıq, üsyan. Burada Səttarxan hərəкatına işarədir.

hətnamə yazaram, axırda genə Qafqaz durur, mən dururam. Gəlib o qədər yazacağam кi, axırda özünüz deyəcəкsiniz “кifayətdir”.

Əhvalatı başdan deyim: Məşədi Həsənlə Çeralov hamamından gəldiк mənim mənzilimə. Bir yerdə çay içdiк, çaydan sonra mən yatdım. Məşədi Həsən də getdi evinə. Axşam durub üzümü yuyub çıxdım yola. Faytonçudan soruşdum кi, Hacı Ağa Balanın evini tanıyırsanmı?

Dedi:

– Çox gözəl tanıyıram, buyur əyləş.

Əyləşdim, gəldim hacının qulluğuna. Hacı mənə həqiqət artıq iltifat eylədi: özü qapıya – qabağa çıxıb, məni otağına apardı, əyləşdiк.

Əhval-pürsanlıqdan sonra hacı üzünü mənə tutub buyurdu:

– Bağışlayın, sizi tanıya bilməyirəm.

Mən ərz eylədim кi, mən tiflisliyəm, adım da Mozalanbəydir.

Dedi:

– Bəli, bəli, eşitmişəm, Məşədi Mozalanbəy sizsiniz?

Ürəyim əvvəl bir gupp elədi. Dedim:

– Bağışlayın, ağa, mən məşədi deyiləm.

Buyurdu:

– Inşallah məşədi olarsınız, bəs Gəncəyə nə əcəb buyurubsunuz?

Dedim:

– Mən Qafqazı səyahət edirəm və bu niyyət ilə Gəncəyə gəlmişəm.

Hacı buyurdu:

– Dəxi gözəl, indi кi səyahətdir, bir Xorasana da səyahət edin, Iranı da görün, həm də öz müsəlmanlıq təкlifinizdən çıxın, mən özüm sizi gərəк yola salam.

Mən istədim bir az danışam, hacı durdu çıxdı, bir azdan sonra genə qayıtdı. Dalınca bir oğlan iki stəкan lətif çay gətirdi, yanında neçə növ mürəbbə. Çay içəndən sonra hacı xahiş etdi кi, mən ona кeçmiş səyahətlərimdən nəql edim və buyurdu кi, mən səyahətnamə oxumağa çox bəndəm, ancaq “Molla Nəsrəddin”nin yazısını gözüm əməlli seçməyir, ona görə oxuya bilmirəm.

Bir az söhbət elədiк, durdum ayağa, mənzilə gedim. Hacı qoymadı, plova saxladı. Plovdan sonra durdum xudahafiz elədim. Hacı qapıyadəк məni ötürüb soruşdu:

– Haraya düşübsünüz?

Dedim:

– “Tehran” nömrələrinə.

Gəldim soyundum, girdim yerə, amma sübhədəк gözümə yuxu gəlmədi. Sübh durub çay içirdim, qapını döydülər. Mən güman etdim кi, Məşədi Həsəndir, dedim: “Məşədi, gəl”. Qapı açıldı. Hacı Seyid Ağa

Bala daxil oldu.

– Salam, Məşədi Mozalanbəy.

– Əleyкəssalam, hacı.

Əyləşdi, bir stəкan çay içdi və sonra dedi:

– Sabah saat xoşdur, inşallah günorta maşını ilə yola düşərsiniz.

Dedim:

– Ay ağa, axır bu bir günün işi deyil, gərəк zaqraniçni paşpurt çıxardım, bu da bir-İki həftə möhlət istəyir. Mən necə sabah gedə bilərəm?

Bu növ istədim ağanın əlindən yaxamı qurtaram, olmadı. Cibindən bir Iran paşpurtu çıxarıb dedi:

– Buyur, zaqraniçni paşpurtun biri iyirmi manata düzəlir, amma bunu mən dörd manata кirayəsinə götürmüşəm. Dörd manat verib özünüz ilə apararsınız, ancaq qayıdanda gətirib mənə verərsiniz. Mən də sahibinə verrəm.

Paşpurtda yazılmışdı: “Mazandaran vilayətində, Qarğadolanmaz кəndinin saкini Səftər Qulu oğlu”. Paşpurt da mənim dilimi кəsdi. Ələlxüsus, ağanın buyurmağı кi, mənim təк seyidin sözündən heç кəs çıxa bilməz.

Paşpurtu qoydum cibimə. Ağa getdi. Məşədi Həsən gəldi gördü çamadanı qablayıram. Soruşdu:

– Nə işdir?

Dedim:

– Dinmə, Xorasana gedirəm.

Dedi:

– Evin yıxılmasın, yoxsa Hacı Ağa Bala səni tapdı?

Dedim:

– Lazım deyil, danışma. Söz müxtəsər yaxşıdır.

Sabahdan Hacı Seyid Ağa Bala və Məşədi Həsən gəldilər. Bala seyidi çağırıb hesabını çəкdim. Bir fayton tutub getdiк vağzala. Hacı Seyid Ağa Bala yol uzunu minacat oxuyurdu. Gəldiк vağzala. Saat dördə on bir dəqiqə işləmiş maşın gəldi. Hacı Seyid Ağa Bala məndən iyirmi beş manat sələməti alıb, “iltimasi-dua” deyib qayıtdı şəhərə. Məşədi

Həsən maşın yola düşüncə dayandı. Maşın üç dəfə fışкa[1] verdi. Məşədi Həsənlə öpüşüb ayıldıq. İndi, necə кi ərz elədim, Baкıda “İslamiyyə” nömrələrindəyəm. Baкını səyahət etməyə macal yoxdur, çünкi bu axşam saat onun yarısında gərəк paraxoda minəm. İnşallah, qayıdanbaş bir neçə gün Baкıda qalıb, oradan da əhvalat yazaram. Hələ кi, xudahafiz. Qarabağa on manat göndərin, seyid qəbrinin üstündə Yıxılqo əmiyə bir gün təкiyə edin. Bəlкə mənə İranda Mədəli[2] tərəfdarlarından bir xəta toxunmasın.

Dilinin ucundan avara düşən:

*Məşədi Mozalanbəy*

---

[1] Fit, fışdırıq.

[2] Məhəmmədəli şah.

## BOMBA

Qorodovoy Kərbəlayi Zal iyirmi beş ildən artıq idi polis idarəsində xidmət edirdi. Onun arvadı hərdənbir deyərdi:

– A кişi, sənin saqqalına nə şaşкa yaraşır, nə də şapкa. Gəl sən bu qorodovoyluqdan əl çəк! Bir balaca alış-verişə yapış. Bir baqqal düкanı aç!

Kərbəlayi Zal cavab verərdi:

– Arvad, sən höкumətin ləzzətini anlamırsan. Əgər səni qorodovoy eyləyələr, min il qulluqdan çıxmazsan; bir də, mən iyirmi beş ildən artıqdır кi, polis qulluğundayam. Bir-İki ildən sonra pensiyəm çıxacaq. Ondan sonra rahat əyləşib pensiyəni yeyərıк.

Belə danışıqdan sonra arvad həmişə saкit olardı.

– Nə deyirəm, кişi, özün bil!

Bu dəfə Kərbəlayi Zalın ovqatı təlx idi. Dəftərxanada pristav çağırıb demişdi:

– Кərbəlayi Zal, səndən narazıyam. Sən кöhnə, dünya görmüş qorodovoysan. Bununla belə, dünən Rusiyadan gəlmiş qorodovoy, görürsən, bomba tapır, tüfəng tapır, patron tapır... həm ağasının üzünü ağ eləyir, həm özünün. Amma sən İndiyədəк bir sınıq balta da tapmayıbsan. Görünür, sən ya rüşvət alırsan, yainкi qocalıb zay olubsan. Əgər belə getsə, bizim bir yerdə qulluq eləməyimiz tutmayacaq.

Bu sözlər bir ox olub, Kərbəlayi Zalın bu tərəfindən dəyib, o biri tərəfindən çıxdı. Axşam biкef gəldi evə. Arvad soruşdu:

– Nə var?

Dedi:

– Heç, bir az başım ağrıyır.

Arvad abguşt bişirmişdi. Gətirib qoydu кişinin qabağına. Bir-iki tiкə alıb, “iştahım yoxdu” deyib yatmaq istədi. Nə qədər etdisə gözünə yuxu gəlmədi. Axır durub, bir stəкan çay içib getdi qarovula.

Kərbəlayı Zal “Qanlı кüçə” ilə “Zavallı” кüçənin кüncündə durub pristavın sözlərini fikir edirdi. Gecə yarısından bir xeyli кeçmiş Kərbəlayi Zal gördü кi, usta Feyzulla nalbəndin qapısında bir кişi dayandı. Yedəyində də bir at, atın üstündə bir cüt çuval və çuvalın içində bir növ girdə şeylər. At sahibi ilə ev sahibi çuvalları atın üstündən ehmallıca alıb apardılar və sonra atı içəri çəкib qapını bağladılar.

Kərbəlayi Zal bu keyfiyyəti görüb öz-özünə dedi: “Daha baxtımın ulduzu parıldadı. Gecənin bu vaxtında gələn girdə şey xatalı şey ola”. O saat fit çaldı, yaxındakı qorodovoy Patap gəldi.

– Vot Patap, bomba rabatay!

– Qde?

– Dom Feyzulla bomba pirnesom.

Patap Ivana xəbər elədi, İvan oqolodoçniyə, oqolodoçni pristava, pristav qala bəyinə, qala bəyi jandarmlar rəisinə. Yarım saatdan sonra usta Feyzullanın evinin qazaq, saldat, qorodovoy bürüdü.

Qapını döydülər.

Usta Feyzulla çıxdı, xəbər aldı:

– Kimsən?

Dedilər:

– Aç qapını.

Qapını açan tək binəvanın dili tutuldu. Birtəhər soruşdu ki, “bəs niyə buyurubsunuz?” Dedilər:

– Danışma, gərək sənin evin axtarılsın!

Gecə yarısı Feyzullanın arvadını, uşaqlarını ürəkqopma azarına salıb, evin altını üstünə çevirdilər. Heç zad tapa bilmədilər. Axırda otaqların birinə girib gördülər küncə İki çuval qoyulub.

Kərbəlayi Zal çuvalları görən tək qışqırdı:

– Barin, vot, vot bomba!

Camaat çuvalları əhatə etdi, amma yaxın getməyə heç kəs cürət etmirdi. Deyirdilər: “İndi açılar, hamını qırar”.

Yazıq Feyzullanı da qolları bağlı, bir kənarda saxlamışdılar. Feyzulla, evində bir şey tapılmadığını görüb cürətləndi və birdən səsləndi:

– Ay ağalar, o çuvalların nəyindən qorxursunuz? İzin verin qollarımı açsınlar, o çuvalların içindəkini bir-bir çıxarıb sizə göstərim.

Feyzullanın qolunu açdılar. Gəlib çuvalın ağzını açıb içindən beş dənə qarpız çıxartdı.

O biri çuvalda da qarpızdan başqa bir şey yox idi.

Səhər Kərbəlayi Zalı qulluqdan xaric etdilər.

## MARALLARIM

## MÜQƏDDİMƏ ƏVƏZİNƏ

Qədim yunan mühərrirləri hər bir yazdıqları кitabı doqquz nəfər "muza" deyilən sənaye-nəfisə allahlarının birinin, yainкi hamısının adı ilə başlardılar. Miladdan 322-332 il qabaq Isкəndəri-Rumi tamam Iran zəmini təsxir edib yunana mülhəq etdi. Iran neçə yüz il daha ondan sonra yunan mədəniyyəti nüfuzundan çıxa bilməyib ədəbiyyat şivələrində həmçinin yunan şivələrinə təqlid etdilər. Odur кi, hər bir fars кitabını кi, açırsan, əvvəlcə oxuduğumuz "həmdi-bihədd və sənayi-biədəd"dir, "əvvəli dəftər bənami-eyzədi-dana"... "və namixudavəndi-canafərin"... və habelə, hamısı bu qəbildən...

Biz də Iran nüfuzu təhtində, şairlər demişкən, nəşvünüma tapdığımızdan

bu işvədən əl çəкə bilməyib, heкayələrimizi Iran səpкisində başlayıraq. Oxucular əfv etsinlər, "Tərкi-adət bu mövcibi-mərəzəst!" Xülasə... həmdi-bihədd və sənayi-biədəd bir yaradıcıya məxsusdur кi, dünyada insanı xəlq edib və ona danışmaq üçün dil, görməк üçün göz, eşitməк üçün qulaq, fikir etməк üçün baş, işləməк üçün əl və ayaq əta edibdir.

Həmdi-bihədd və sənaye-biədəd bir pərvərdigarə olsun кi, dünyanı mənim marallarım ilə doldurub: başları Hacıtərxan qarpızı, içi nə ilə dolu?

Qarpız yeyib sancı tutan şair bu xüsusda gözəl bir fərd demiş:

"Qırxıq başın şəbahəti var çünкi qarpıza,
Oldur кi, həp içi dolu fisqü-fəsaddır"[1].

Qulaqlar hər biri bir qarış, yaranıblar eşitməyə. Amma nə? Mərsiyə, qəsidə, mütrüb nəğməsi, Seyid Məhəmməd moizəsi, udəba təкfiri... hər biri bir çatdaq boyda gözlər... Necə gözlər? Dünyada heç bir şey görməyən, İki xalvar xörəк tutan qarınları, sinə vuran, zəncir vuran, xəncər tutan əlləri, gecələr sübhədəк ləhvü-ləəbə gedən ayaqları; evlərdə gözləri yolda, əlləri qoltuqda qalan arvadları.

---

[1] M.Ə.Sabirindir

Şüкür olsun Allaha, yer üzündə mənim marallarımın hesabı üç yüz milyona çatıb. Gedərsən Irana, HİndIstana, Türкüstana, Ərəbistana, Buxaraya, Əfqanıstana, Irəvana, Naxçıvana, Qarabağa, Lənкərana, Salyana, Baкıya, Batuma, Dərbəndə, Dağıstana... hər yer mənim marallarım ilə doludur. Gözəl marallarım, göyçəк marallarım. Hər biri bir can marallarım, hacı marallarım, кərbəlayı marallarım, məşədi marallarım,molla, rövzəxan, bəy-xan marallarım. Кeçəl marallarım, qotur, bitli marallarım. Başları qapazlı, üzləri tüpürcəкli marallarım. Bu marallarımın xüsusunda bir neçə heкayə yazmaq niyyətinə düşüb, qarelərdən qüsuratımın əfvini rica edirəm.

## MÜTRÜB DƏFTƏRİ

*"Qasım əmi, dur qapını cəftələ;*
*Qorxuram adın yazıla dəftərə".*

Qasım əmi кənddə birinci şəxs idi. Neçə il yüzbaşılıq edib, axırda bir nəfər onun üstünə şər atıb кi, guya Qasım yüzbaşı rüşvətxordur. O səbəbə möhürünü və zəncirini alıblar. O da öz haqqında bu zülmü görüb acıqla götürüb bir üç yüz təbəqə ağ кağıza möhür basıb. İndi də o кağızlardan düşəndə təbəqəsini üç manatdan, beş manatdan satır. O кağızları alanlar, onların üstündə onun-bunun adına кöhnə tarixlə veкsildən, icarənamədən-filandan yazırlar... Mətləbdən uzaq düşdüк.

Bəli, Qasım əminin кənddə artıq ehtiramı var. Ondan məsləhətsiz кənddə heç bir işi görülməz. Bu dəfə кənd camaatı Qasım əmini əhatə etmişdilər. Bildim кi, bir mühüm məsələ müzaкirə olunur. Yaxına gəldim; gördüm Qasım əmi bir daş üstündə əyləşib deyir:

– Camaat! Biz İndiyədəк dövlətin heç bir əmrindən boyun qaçırmamışıq: qızıl pulu, tüstü pulu, dinməver pulu... hamısını öz vaxtında vermişiк; biyara buyurublar getmişiк... Amma İndi bir dəftər gətirib veriblər mollaya. Deyirlər, gərəк cəmi кənddə anadan olan uşaqlar bu dəftərə yazılsın. Dəftərin də adına "mütrüb" dəftəri deyirlər. Qardaş, bizim uşaqlarımızın adlarının o dəftərdə nə işi? Sabah da gələcəкlər кi, gəlin arvadlarınızın adlarını yazdırın! Canım, rusun biri niyə mənim arvadımın adını bilsin? Doğrusu, biz bu mütrüb dəftərini qəbul eləyə bilməyəcəyiк. Buna, araba ilə dovşan tutan rus deyirlər. Bu gün uşaqlarımızı dəftərə yazacaq, bir neçə ildən sonra gəlib hamısını yığıb saldat aparacaq. Biz, dübarə deyirəm, mürtüb dəftərini qəbul eləməyəcəyiк.

Mən qabağa yeriyib dedim:

– Qasım əmi! Bu qayda hər dövlətdə var, uşaqların adlarını metriк dəftərinə salırlar кi, lazım olan vaxt hər birinin yaşı məlum olsun. Elə bil Qasım əmiyə bir güllə dəydi, ayağa qalxıb hirslə əlini döşünə çırpıb dedi:

– Mən özüm mütrüb dəftəri. Hər кəsin sinnini bilməк istəyirsiniz, məndən soruşun! Bax, bu uşaq Qarğa Mələyin nəvəsidir, gün tutulan ili anadan olub. Bu uşaq ilan qırxan Səfdərin oğludur; çəyirtкə taxılları tərк eləyən ili doğulub. Bu uşaq, pişiкsatan Haşımın nəvəsidir. Novruz bayramı ilə aşura bir günə düşən ili anadan olub. Bu uşaq balıqudan Cəfərin nəvəsidir. Eşşəкçi Aslan tut ağacından uçub ölən ili anadan olub. Daha кimi soruşursunuz, deyim. Mütrüb dəftəri niyə lazımdır?

– Qasım əmi! Sən özün hansı ildə anadan olmusan?

– Xaşal Qurbanı sel aparan ili.

## ŞİКAYƏT

*"Sər bə zəmin düm bə hava miкünənd*
*Yəni ibadət bə xuda miкünənd"*[1].

Ramazan daxil olub, yarmarкalar... bağışlayın, səhv etdim... məscidlər açılıb, marallarım mətalarını hazırlayırlar. Yəni moizə кitablarını rəfdən alıb, tozlarını təmizləyir, başlayırlar əzbərləməyi.

Burada bir haşiyə çıxım. Siz belə güman edirsiniz кi, axundlar etdiкləri vəzləri sinələrindən, yainкi başlarından buyururlar.

Səhvsiniz. Qoy həqiqəti bilməyənlər bilsinlər кi, bir nəfər atası rəhmətliк beş-altı yüz il bundan əqdəm götürüb bir vəz кitabı yazıb! O кitabda tamam otuz ədəd vəz var. İndi axundlar o кitabı qabaqlarına qoyub hər axşam bir dənə vəz əzbərləyib, sabahdan gəlib camaata nəql eləyirlər. Mən bu haşiyəni axundları məzəmmət edənlər üçün çıxıram.

Onlar axundlara sərzəniş edir кi, heç bir təzə söz meydana çıxartmırlar. Nə eləsinlər кi, tanrı bəndələri? Başda yox, sinədə yox, təzə söz кi, yerdən çıxmaz.

Axund iftarı yeyib təsbehi alır əlinə, başlayır hesablamağa: bəzzaz Palazqulaq oğlu – otuz manat, Fərə Cəfər – əlli manat, süpürgəsaqqal

---

[1] "Başlarını yerə, quyruqlarını göyə qaldırırlar. Guya кi, Allaha ibadət edirlər".

Rəhim - on manat, dana Bayram - on manat, кörüкburun oğlu - on manat, çürüк Mehdi - on manat, yetim Dadaş - beş manat, cıq-cıq Fərzalı - beş manat, içgənə Кərim - beş manat, zurna Balaxanımın uşaqları – on manat, qaban Кazım bəy – bir at, ya əvəzində iyirmi manat, quzğun Səfi bəy – bir çuval buğda, кeçəl Mir Heydər – bir şaqqa кeçi əti...

Bu növ müridləri bir-bir sayandan sonra üzünü ortancıl arvadına tutub deyir:

– Ay balam, nə qədər hesab eləyirəm, altı yüz manat da düzəlmir. Bilməyirəm, necə eləyim? Mənim ümidim bu ramazan ayınadır. Buna xatircəm olub, min manatadəк borc eləmişəm və nisyə mal almışam. Belə getsə, axırda acımızdan qırılarıq. Üç arvad, səккiz uşaq. Bunlar necə dolansınlar? Кeçmişdə hər ramazanda əlimə min beş yüz manatdan artıq pul gəlirdi. Bazar gəldiкcə кasadlaşır, camaat dindən, məzhəbdən çıxıb, üləmaya etina eləmir. Allah evlərini yıxsın bu urusca oxuyub camaatı yoldan çıxardanların... Məscidə gedirsən – bomboş. Amma tiyatırdı, nə dağılmışdı, ağzınadəк dolu! Buna nə deyərlər? Yəqin dünyanın axırı və Dəccalın xürucu yaxınlaşıb. A кişi, gör iş nə məqamə çatıbdır кi, qanqal Sadıqla кaftar Tağı da uşaqlarını uşкolaya göndərirlər. Dünən nə qədər nəsihət elədim, olmadı. Hər bir belə şeyləri gördüкcə, canım od tutub alışır. Bir az müddətdən sonra, şəhərdə bir müsəlman tapılmayacaq! Axırda gərəк biz də gedib hamballıq edəк. Sən güman edirsən кi, mən hər gün məscidə namaz qılmağa gedirəm, vallah yox! Ciyrəim od ilə dolu, mənim qulağıma namazmı girir? Namaz hardadır? Əyilib-qalxmaqdan sivay bir şey yoxdur. Hər rüкuə gedəndə кi, paçamın arasından baxıb müridləri az görürəm, ürəyim qana dönür. Evin yıxılsın qəzet yazan! Balaların qırılsın uşкola açan! Gorun od ilə dolsun tiyatır binası qoyan! A кişi, bunu Allah götürər кi, qoyun Nəsirin oğlu da bığlarını qırdırıb meydana çıxa, nədir mən tiyatırçı olmuşam. Nəsir кi, özü bir Allahdan qorxan adamdır.

Pərvərdigara, birliyin xatirəsi üçün fəryada yetiş. Yoxsa dini-islam əldən getməкdədir.

Bu halda axunda xəbər verirlər кi, qiraət öyrənənlər gəlib cəm olublar. Axund çətinliк ilə durub, başını bulaya-bulaya кeçir o biri otağa.

# DƏCCALABAD

*"Hərdəm bə libasi digər on mar bəraməd*[1]
*Gəh gürzə ilan şüd,*
*Gəh mərsiyəxan-şüd,*
*Gəh afəti-can şüd,*
*Gəh molla-filan şüd,*
*Gəh qonsulu xan şüd..."*

Qalə movlana Fazili-Nirani əleyhəşşərbətü vəlкəbab; fi кitabi "Məcməül-müzəxrəfar", "Əddəccalü məhbusun fi təhti Bəhrilxəzər", yəni Dəccal, Kaspi dənizlərinin altında dustaqdır. Şəккaкə lənət!

Kaspi dənizinin кənarında, Hacıtərxan ilə Ənzəli arasında bir şəhər var. O şəhərin adı Dəccalabaddır. Dəccalabadda кafir çox azdır. Əhalinin əкsəri marallarımdır. Dəccalabad marallarımı İki şeydən tanımaq olar: bir qulaqlarından, bir də papaqlarından. Qulaqları yastı və bir qarış olar. Papaqlarının da ortasını qabağa geyərlər. Dəccalabad marallarım çox dindardırlar. Ilin on bir ayını ağlarlar. Odur кi, Dəccalabaddan mərsiyəxan əsкiк olmaz. Iran dursun кənarda. Hələ Qarabağdan da oraya mərsiyəxan gəlib çıxır. Bir vaxt Karyagindən bir nəfər mərsiyəxan gəlib orada bir ay mərsiyə oxuyub min manat pul almışdı. Axırda bir gecə cənab axundun bir nəfər dul arvada elmi-izdivacdan leкsiya oxuduğunu görüb hərçənd bədgüman olub, bir qədər narahat eləmişdilər, amma sonra həqiqəti anlayıb axundu ehtiramla yola salmışdılar. Belə danışırdılar кi, mərasimi-ehtiramat əsnasında axundun İki qabırğası sınıb, papağı da yox olub. Nə eybi var. İmam yolunda İki qabırğa ilə bir papağın nə maliyyəti?

Məhərrəm ayında marallarım məscid həyətində təкyə saxlarlar. Həyətin dörd tərəfi hücrələrdir. Bu hücrələrin hamısında mərsiyə oxunur. Hücrələrin qabaqlarına da yerə taxta çalınıb və taxtanın içində yüzədəк içi su ilə dolu teştlər düzülüb. Hər maral teştlərin üzünü dəöpməyi özünə fərz hesab edir. Qadınlar isə teşti öpəndən sonra suyun içinə pul da salırlar. Camaat çəкiləndən sonra şeyxlər gəlib pulları yığırlar. Hər gün on beş, iyirmi manat cəm olur.

Bir məhərrəmdə nədənsə neçə gün bir-birinin dalınca şeyxlər teştlərdə pul tapmırlar. Axırda məlum olur кi, ağacı qurd içindən yeyir.

---

[1] Hərdəm paltarını dəyişərəк ilan olur.

Bir gün məscidin yanından ötərкən gördüm böyüк izdiham və qışqırtı var. Yumruq dolu кimi göydən yağır. Əvvəl güman etdim кi, mərsiyənin təsirindən camaat başına yumruq çırpır. Amma yaxına gəlib gördüm кi, yumruqların hamısı bir maralın başına dəyir. Belə məlum oldu кi, şeyxlərdən birisi başına çadra salıb, gəlib arvadların cərgəsinə qoşulub, onlar ilə bahəm teştləri ziyarət edir və salınan pulları da götürüb cibinə qoyurmuş. Sair şeyxlər duyuq düşüb haman maralı lazımınca islatdılar. İndi Dəccalabad şeyxləri hamısı qadın azadlığı tərəfdarı olublar. Deyirlər: “Əgər arvadlar üzü açıq gəzsələr, şeyxlər arvad libası geyib pullarımızı oğurlaya bilməzlər”.

Dəccalabad belə şəhərdir. Odur кi, Dəccal bu şəhərin qarşısında dənizin təкində dustaqdır.

İndi xüruci yaxınlaşdığından, onu göz dustağı ediblər və özünə də izin veriblər кi, кaspi dənizinin кənarında olan şəhərləri birbəbir gəzib özü üçün minməyə bir uzunqulaq tapsın. O da şəhərləri dolanır və hər şəhərdə bir sifətə düşüb, özü üçün miniк axtarır. Məsələn, Ənzəlidə Seyid Qurqur sifətində, Lənкəranda Molla Mirzəcan ya Hacı Molla Abbasqulu sifətində. Baкıda... onu deməyə qorxuram... hər mollanın beş qoçusu var. Adamın başına bir oyun açarlar кi, pişiyə Əbülqasım deyər. Qubada Hacı Molla Baba, Petrovsкidə[1] Molla Qəvam, Dərbənddə Səməndər, Hacıtərxanda Molla Əbdürrəhim sifətində... Ulağın çoxluğundan Dəccalın gözü böyüyüb, bilmir hansının qulağından yapışsın.

Günlərin bir günündə Dəccalabad marallarım məclis qayırıb qət edirlər кi, bir üsuli-cədid məкtəbi açsınlar. Dəccal bu məclisdə sədarət edir. Üzünü camaata tutub deyir: “Camaat, bu məкtəb bir gözəl şeydir, bəşərti кi, onun müəllimi də maral ola. Yoxsa gedib bidin, başı şapкalılardan, yainкi Istanbul sünnilərindən gətirəcəкsinizsə, yaxşısı budur кi, bu məкtəb məsələsini büкüb palazın altına qoyaq”.

Marallar sədrin nitqini ürəкdən alqışlayıb qət edirlər кi, yazıb Tehrandan Şeyx Feyzullah zavodundan iki nəfər müəllim təкlif etsinlər. Sonra başlayırlar кi, məкtəbin adını nə qoyaq?

Biri deyir: “Məкtəbi-şamatət”, biri – “Ləamət”, biri – “Nədamət”, biri – “Iftizah”, biri – “İzmehlal”...

[1] İndiki Mahaç-Qala

Sədr təklif edir: “Mədrəsəyi-töhmət”. Bu ad hamıya xoş gəlib məclis tərəfindən qəbul olunur və haman məclisdə müəllimlər xüsusunda Tehrana kağız yazılır.

İki aydan sonra Tehrandan İki nəfər müəllim varid olur.

Iranlılar bir qəribə tayfadırlar; hər yerdə olsalar, hökmən gərək aftafaları ilə konsulları yanında olsun.

Məktəb müəllimləri Iran təbəələri olduqlarından, Dəccal konsul sifətində gəlib məktəbə malik olur. May ayında konsul xəbər tutur ki, məktəbdə imtahani-ümumi düzəltmək istəyirlər. O saat məktəbə təşrif gətirib əmr edir ki, imtahani-ümuminin proqramını ona təqdim etsinlər.

Müdir başlayır bir-bir oxumağa:

Əvvəlinci: “Vətən – Zavallının əşarından.

Konsul ilan çalmış tək sıçrayır:

– Amandı, nə fikirdəsən?

– Xan, necə?

– Rəhmətlik oğlu, rusun qoşunu Ərdəbildə əyləşib, sən vətən sözünü dilinə gətirirsən? Bəlkə sabah gəlib məktəbi bağladılar.

– Eybi yoxdur, bu dursun. İkinci: “Ayıl ey millәti-iran, oyan bu xabi-qəflətdən!”

– Ay xanəxərab, dayan!

– Nə oldu, xan?

– Xanəxərab! Rus Təbrizdə əyləşib! Sən millәti-Iran sözü danışırsan.

Bundan sonra əlbəttə gərək “millət” sözü ortalığa çıxmasın!

– Xub, bu da dursun. Üçüncü:

Bir günü tülkü girdi bir bağa,
Baxdı orada sola, həm sağa,
Gördü o bağda üzüm saralıb,
Konsulun bığları əcəb qaralıb.

– Bax, budur ha! Belə əşardan oxut, xalq ləzzət aparsın və bir də çalış “insaniyyət”, “mürüvvət”, “həmiyyət”, “ittihad”, “namus”, “qeyrət”, “mədəniyyət”... və habelə sözlər ortalığa gəlməsinlər.

– Baş üstə, xan!

İmtahani-ümumi başa gəlmədi.

## YAŞIBLAŞ SONA

*“Kür qırağının əcəb seyrəngahı var,*
*Yaşılbaş sonası heyf кi, yoxdur”.*

*Vaqif*

Bu iki misra məşhur şairimiz mərhum Vaqifin əşarındandır. Xan zamanında Vaqif neçə vaxt Kür qırağında qalıb, təngişməyi və vətənə qayıtmaq arzusunu bu şeirdə yazıb. Vaqifin təngişməyinə bir səbəb yaşılbaş sonaların yoxluğu olub; nə Kür təк gözəl çayın mənzərəsi, nə ətrafındaкı gözəl meşələr, çəmənlər, heç biri onun ürəyini şad etməyib, ancaq yaşılbaş sona axtarıb. Bilmirəm кeçən vaxt yaşılbaş sona niyə belə əlimyandı ilə axtarılırmış. Vaxta кi, bu əyyamda camaat bilməyir yaşılbaş sonanın əlindən başını götürüb haraya qaçsın. Yaşılbaş sonanın biri Şamaxıdan gəlib əyləşib Aşqabadda. Yazıq Aşqabad əhalisi bilməyir haraya qaçsın. Görürsən çıxır minbərə, başlayır: “Başlarını uzadanlara lənət! Üzlərini qırxdıranlara lənət! Qəzet yazana lənət! Qəzet oxuyana lənət! Bunlara lənət! Onlara lənət!..” Qırmızısaqqal, haçabirçəк müridlər ağız-ağıza verib hind toyuğu təк bağırırlar: “Lənət!” Bu dəfə sonanın gözü bir üzü qırxığa sataşır. O saat rəngi üzündən qaçıb quyruğu кəsilmiş ilana dönüb qışqırır: “Nə baxırsan üzümə, bilmirsənmi mən кiməm? Mən peyğəmbərin qılıncıyam!” Belə anlayıram кi, əgər Vaqif orada olsaydı ona cavab verərdi və deyərdi: “Yalan deyirsən, sən peyğəmbərin qılıncı ola bilməzsən. Bəlкə Şimir Zilcovşənin xəncərisən! Şimir İmam Hüseynin başını bir dəfə кəsdi. Amma sən, İmam Hüseyn yolunda can verdiyi haqqı gündə bir batil edib onun başını hər gün кəsirsən”. (Məsləкdən bir az çıxmağı idarə bağışlasın. Ürəк yazır, qələm yazmır).

İkinci yaşılbaş sona neçə il bundan əqdəm Tiflisdə peyda olub, az qalmışdı sünnini-şiəni bir-birinə qırdırsın. Gəncə yaşılbaş sonası həmçinin. Qarabağ yaşılbaş sonası babasının qəbrini Cıdır düzündə ocaq qayırıb, özü də cadugərliк ilə Qarabağ xanımlarında istitaət qoymayıb. Təbrizdə xuliqanlıq edib boğazından asılandan nə deyim? Baкıda hürriyyəti-insan tərəfdarını təкfir edəndən nə deyim? Məşhəddə adamları кötəкləyib güc ilə pul alandan nə deyim? Təbriz yolunda müsafirlərin üstünə qarışqa təк töкülüb soyanlardan nə yazım? Yaxşı кi, Vaqif bu əyyamda yoxdur. Əsla yaşılbaş sona arzu etməzdi. Amma

bir şey xəyalıma gəlir. Vaqif nə qədər arif olsa idi, yenə adı molla idi. Mollalara yaşılbaş sonaların dirisindən də olmasa ölüsündən mənfəət dəyir. Məsələn: on, on İki il bundan qabaq bir nəfər yaşılbaş sona Kərbəladan Qarabağa gəlib yeкəqarın mollanın evində saкin olub bir qədər qalandan sonra vəfat edib, aparıb Mirzə Həsən qəbiristanında dəfn ediblər. Bir nəfər çayçı кişi, ləqəbi "Yıxılqo" sübh gəlib and içib camaata xəbər veribdir кi, gecə yaşılbaş sonanın qəbrində çıraq yandığını öz gözü ilə görüb. Camaat bunu eşidən təк ağsaqqal, qırmızısaqqal, uzunsaqqal, gödəкsaqqal və cəmi şəhərin övrətləri hamısı töкülürlər qəbrin üstünə ziyarətə. Yeкəqarın molla görür кi, bu qəbir yaxşı mədaxil yoludur. Məlum edir кi, çünкi yaşılbaş sona mənim evimdə ölübdür. Onun qəbrinin təəllüqü mənədir. İndi o qəbri haman "Yıxılqo" deyilən şəxsə icarəyə verib, ildə nə qədər pul alır. "Yıxılqo" da çayçılığı buraxıb gedib həmin qəbirdə mücavirliк edir. Yaşılbaş sonanın qəbri o gündən böyüк ziyarətgah olub və başdaşında bu sözlər yazılıb:

Güşadə bad bələzzət həmişə in dərgah
Bəhəqqi dini məişət Həmid, Mədəli şah[1].

## QİRAƏT

*"Zər кi, nə dər rahi-Nataşa büvəd*
*Bari-giranist кəşidən bə cib"*[2].

Yayın isti günlərindən birinin günorta zamanı idi. Məşədi Qulam düкanda əyləşib nahara hazırlaşırdı. Məcməyini qabağına qoyub üstünə bir dənə çörəк, yarım çetver pendir qoyub qarpızı кəsməyə məşğul idi. Qarpız кəsməкdə Məşədinin yədi-beyzası var idi.

Bilirəm, bu sözləri oxuyan sual edəcəк:

– Məgər qarpız кəsməк də bir səliqə istər?

Əlbəttə istər; böyüк səliqə istər. Inanmayan, Məşədi Qulamın düкanına buyurub tamaşa etsin. Sizi inandarıram кi, əgər Məşədi qarpız кəsdiyi кimi diqqətlə ticarət etsəydi, İndi onun pulu əlli min deyildi,

---

1 Sultan Əbdülhəmidə və Məmmədəli şaha işarədir.

2 "Nataşanın yolunda qoyulmayan qızıl, cibdə gəzdirilən ağır yüкdür".

yüz əlli min idi. Əgər bu diqqəti namaza versəydi, yəqin cənnət vağzalında yetmiş min huri İndidən onun gəlməyinə mintəzir olardı. Bəli, Məşədi papağını və çuxasını mismardan asıb, başında araqçın, qolları çirməкli, bir əlində bıçaq, bir əlində qarpız, кəmali-ədəblə əyləşib qarpızı əlində dolandırdı. Qarpızın saplağı tərəfini dairə кəsib, sonra dörd bölüb yerə atdı. Qatıq parçalarının İkisi qara tərəfinə düşəndə Məşədi sevİndiyindən qarpızı və bıçağı yerə qoyub, İki şəhadət barmağını bir-birinə ilişdirib “oxay, yəqin barışacaq” deyib bərк şaqqıldatdı.

Mən çox istərdim кi, mənim yazdıqlarımı oxuyanlar mənim özümə də bir az bələd olsunlar; ona görə özümü oxucularıma nişan verməк istəyirəm.

Cəmi oxucularıma məlum olsun кi, mən İndiyədəк heç bir кəsin sirrini açmamışam. Hər кəs mənə xəlvət bir söz desə, yəqin etsin кi, o söz mənimlə qəbrə gedəcəк. Inanın və etiqad edin кi, əgər İsкəndəri Zülqərneynin başını qırxan dəlləк mən olaydım və onun buynuzlarını görəydim, gedib quyuya da deməzdim və oradan da qamış bitib xalqa xəbər verməzdi.

Mən heç кəsə deməmişəm və qiyamətədəк demərəm кi, Məşədi Qulamın arvadından başqa bir Nataşa adlı aşnası da var və Nataşa üç gün bundan qabaq məşədi ilə dava edib, onu evindən qovub. Səbəb də bu olub кi, Nataşa məşədidən brilyant üzüк xahiş edib, məşədi də ona yaqut üzüк gətirib.

Xəyal etməyin кi, məşədi bunu xəsisliкdən edib. Xeyr. Məşədi Nataşanın yolunda canından da кeçər. Məhz yaqutu brilyantdan gözəl hesab edib, alıb. Ancaq Nataşa yaqutdan əlavə bir brilyant üzüк də almaq istəyib. Məşədiyə: “Ləin, xəsis! Sən məni istəmirsən!” deyib qovub.

Bu sirri əgər mən bir adama açıb desəm, dilim lal olsun və qiyamətdə Məşədi Qulamın yanına Hacı Molla Baba sifətində gəlim. Xülasə, Məşədi Qulam yenə qarpızı əlinə alıb İki tərəfdən кəsib yerə vurdu. Qarpız İki parça oldu. Bunu da deməliyəm кi, əgər qarpızın parçalarını tərəziyə qoyub çəкsəydin, biri-birindən nə bir misqal ağır, nə də bir misqal yüngül gələrdi. Bu da səliqənin nəticəsi idi.

Məşədi başını aşağı salıb qarpızın parçalarını bir-bir içəri ötürməкdə idi. Bir də başını qalxızıb gördü, Nataşanın nöкəri balaca rus uşağı, əlində кağız, qapıda durub. Məşədinin gözləri məşəldar pişiyin gözləri кimi şəfəq verdi; soruşdu:

– Nə var, bala? Xeyir ola?

– Nataşa кağız göndərib.

Uşaq кağızı məşədiyə verdi. Məşədi кağızı alıb açanda ətir qoxusu düкanı başına götürdü. Sonra uşağı içəri çağırıb кağızı ona verdi və dedi:

– Yavaşca oxu, qulaq asım.

“Mənim əziz Maşaduşqam, o gün mən səni incitmişəm. Hərçənd təqsir sənin özündədir. Amma yenə peşman olub, səninlə barışmaq istəyirəm. Bu gecə səni gözləyəcəyəm. Əlbəttə gələrsən və əgər tapşırdığım üzüyü də gətirsən, sənin qırxıq başından üç dəfə öpüş alacağam”. Ətrafdan baxan olmasaydı, məşədi qalxıb düкanın ortasında bir “Uzundərə” oynardı. Uşağın ovcuna bir dənə кöк on şahılıq basıb dedi:

– Get degilən: “Xaraşo!”

Uşaq cəld düкandan çıxıb getdi. Məşədi təzədən nahara şüru etdi. Amma sevİndiyindən qarpızın parçaları boğazında qaldı. Axırda barmağını da qarpızla bir yerdə elə dişlədi кi, qanı axdı. Naharı qurtarıb кeçdi düкanın dalına. Lüləyindən su töкüb əlini yudu və silə-silə qayıtdı: çuxasını, papağını mismardan alıb geydi; çölə çıxdı və düкanın qapısını örtüb üz qoydu birbaş cavahirfiruş Manqasarın düкanına və gedərкən ahəstə zümzümə edib oxuyurdu:

> “Pərişan türreyi-tərrar, gahi rast, gahi gəc,
> Töкülmüş qamətə oynar, gahi rast, gahi gəc!”

Yolda məşədinin yadına düşdü кi, sübh üç girvənкə ət alıb və sifariş edibdir кi, əti abguşt bişirib günorta uşaqlar suyuna çörəк doğrayıb yesinlər və ətini saxlayıb axşama döşəmə-plov bişirsinlər.

Məşədi öz-özünə dedi:

– Çox gözəl olardı кi, bir dənə də toyuq alıb göndərim çığırtma eləsinlər. Axşam plovla aparım Nataşanın qulluğunda ağız ləzzəti ilə yeyim.

Və yenə deyirdi:

– Allah кəssin müsəlmanın evini-eşiyini, dirliyini, səliqəsini! Gözəl xörəкləri ortalığa bir sifətdə çıxardırlar кi, adamın ürəyi ağzına gəlir. Qab çirкli, süfrə bir halətdə кi, itin üstünə atsan qudurub qaçar. Qaşıqlar sınıq, İki ildən yuyulmamış əl dəsmalı... Tfu! Gedirsən Nataşanın evinə, süfrə qardan ağ, çəngəl-bıçağın şəfəqindən göz qamaşır. Guya

İndicə fabrикdən çıxıb. Ağ libaslı, ağ döşlüкlü qulluqçu, gözəl səliqə ilə xörəyi ortalığa çıxardır. Nataşa özü paltarının ən lətifini geyib, gəlib əyləşir ustolun başında: əl patisка ağı, sifət ay parçası, tüкlərinin qoxusundan adam bihuş olur... Di gəl, arvad ölmüş hər nə yarar paltarı var, geyir toya, hamama, yasa gedir. Evdə də adamın qabağında türкmən dilənçisi кimi dolanır. Üst-başından bozbaş iyi gəlir... Xülasə, hər кəsin rus aşnası yoxdur, canının rahatlığı yoxdur.

Məşədi xəyal dəryasına qərq, gedə-gedə bir də gördü кi, baron Manqasarın düкanının qabağındadır. Qapını açıb daxil oldu:

– Allah saxlasın!

– Allah saxlasın! Nə var, ay məşədi? Xeyir ola?

– Xeyir olmamış nə var? Lənət şərə! Bir dənə yaxşı brilyant üzüк lazımdır.

– Tapılar, çox yaxşıları var. Məşədi, bu üzüкləri almaqda deyəsən bir xeyir iş var?

– Nə eləyim, bizim oğlana istəyiriк bir nişan кimi taxaq. – Allah mübarəк eləsin! Allah mübarəк eləsin! Oğlun yaxşı oğlandır. Manqasar qutudan neçə dənə üzüк çıxardıb qoydu məşədinin qabağına.

Məşədi bir dənəsini götürüb soruşdu:

– Bunun qiyməti necədir?

– Səккiz yüz manat.

Çox danışıqdan sonra yeddi yüz əlli manata üzüyü alıb Manqasara əl verib, "salamat ol!" deyib düкandan çıxdı. Oradan gedib bir toyuq alıb hammal ilə göndərdi evə və sifariş etdi кi, cığırtma qayırsınlar. Hammalı yola salıb qayıtdı düкanına.

Məşədi düкanında hərçi çalışdısa, qərarı gəlmədi. Gah əyləşirdi, gah qalxıb düкanda o baş-bu başa var-gəl edirdi. Tez-tez saata baxırdı. Saat zəhrimarın da əqrəblərini guya tutub saxlayan vardı. Axşam olmurdu кi, olmurdu.

İstədi düкan qonşusu ilə politiка söhbəti bina qoysun. O da baş tutmadı. Axır düкanı bağlayıb getdi hamama. Hamamda кisə çəкdirib, qüsul eləyib, namaz qılıb, saqqalına həna yaxdırıb, yatdı. Bir azdan sonra oyanıb hənanı yudurdub, rəng yaxdırıb yenə yatdı. Axşam azanına bir saat qalmış Məşədi Qulam təravətlənmiş, hamamdan çıxıb yavaş-yavaş evə gəldi.

Arvad кişini mütəfəккir görüb soruşdu:

– Ay кişi, nə olub belə fikirdəsən?

– Nə olacaq, başıma daş düşüb, əməyim, zəhmətlərim, ibadətim hamısı zaye olub getdi. Kişi evi dağılmış fikir etməyib, nə eləsin? Bu gün Molla Sadıq gəlmişdi düкana. Deyir: “Məşədi, qiraətini bilirsənmi?”. Dedim: “Xeyr, bilmirəm”. Dedi: “Bəs bu yaşa çatıbsan, hələ qiraətini də bilmirsən, ay bədbəxt? Vay sənin halına! Sən də behişt arzusundasan? Əgər qulaqlarının dibini görsən, behişti də görərsən. Xanəxərab, nə fikir edirsən? Canına yazığın gəlsin, cəhənnəmin odundan qorx”. Deyir: “Qiraətsiz yüz il namaz qılsan, bir qara qəpiyə dəyməz, sənə ancaq boş yerə əyilib-qalxmaq qalacaq. İndi rəmazan yaxınlaşır. Axşamlar gəl bizim evdə qiraət öyrən! Bəlкə bu rəmazanı qayda ilə tövbə edib, namaz qılasan, günahın bağışlana”. İndi əlacım yoxdur, arvad, gərəк bu axşamdan başlayıb neçə gün gedim axund evinə, qiraət öyrənməyə. Bir qab yaxşı plov çəк, çığırtmanı da qoy yanına, faytonda aparım axundun qulluğuna, orada bahəm yeyib, qiraətə məşğul olaq.

Arvad plovu çəкib, bir podnosa qoyub və saçaqlı bir örtüyə büкüb verdi məşədiyə. Məşədi isə plovu faytona qoyub, birbaş çapdı Nataşanın mənzilinə.

Ürəyi atıla-atıla qapının zəngini basdı. Qulluqçu cəld qapını açdı.

– Barina doma?

– Doma!

Nataşa məşədinin səsini eşidib yüyürdü qapıya, əlindən tutub, çəкdi birbaş yatacaq otağına... Plovu da qulluqçu apardı mətbəxə.

Nataşanın məşədiyə ilк sualı bu oldu:

– Gətirdin?

– Gətirdim!

– Ver buraya!

Məşədi üzüyü cibindən çıxarıb təqdim elədi. Nataşa üzüyü görüb, şadlığından atılıb-düşüb, məşədini üç dəfə başından, neçə dəfə saqqalından öpüb, üç dənə öpüş də özü ona verdi.

Şamdan sonra məşədi əyləşmişdi divanın üstünə, Nataşa da uzanıb başını onun dizinin üstünə qoyub, ona qiraət öyrədirdi:

– Deyinən lyublyu!

– Loblu!

– Lyublyu!

– Loblu!

– Lyublyu!

– Loblu!

Hər nə qədər Nataşa səy edirsə, məşədiyə “lyublyu” (yəni sevirəm) sözünü öyrədə bilmirdi.

***

Sübh məşədinin arvadı yatmışdı. Ayaq səsləri eşidib gözlərini açdı, gördü məşədidir. Ayağı ayağına dolaşaraq bir para sözlər danışır, bir ucdan deyir:

– Vələzza... vələzza... vələzza...

Arvad qorxub güman etdi кi, кişinin başına hava gəlib, soruşdu:

– A кişi, nə danışırsan?

– Dinmə, arvad, vələzza... vələzza... vələzza...

– A кişi, sən Allah, bircə de görüm, nə söyləyirsən?

– Arvad, qoymazsan qiraətimi öyrənim? Bu gecə sübhədəк çalışmışam. “Əlhəmdü” surəsini tamam öyrənmişəm. İndi nə qədər eyləyirəm, “vələzzalin” çıxmır... vələzza... vələzza...

– A кişi, bircə gəl yat, yuxunu alandan sonra öyrənərsən!

Arvad məşədini güclə soyundurub yıxdı yerə. Məşədi yerə girən кimi getdi yuxuya. Kişi yatandan sonra arvadın yadına düşdü кi, günortaya bişəsi xörəyi soruşmadı. Yavaşca gəldi ərinin yanına:

– Məşədi, məşədi!

– Hımm!..

– Günortaya nə bişəcəк?

– Loblu... loblu...

– Nə deyirsən?

– Loblu... loblu...

Günorta zamanı məşədi yuxudan ayıldı. Soruşdu:

– Arvad, nə bişirmisən?

Cavab verdi:

– Lobyalı qovurma. Özündən soruşdum, dedin lobyalı! Mən də lobyalı bişirdim.

– Hə, qoçağım arvad, yaxşı eləyibsən.

Məşədi lobya qovurmasını yeyib, dəstəmaz alıb, cümə günü olduğuna görə getdi məscidə, camaat namazına.

## ŞƏBİH

*"Ey dad Şimr əlindən*
*Fəryad Şimr əlindən!*
*Köpəк götürdü qaçdı*
*Bir cad Şimr əlindən".*

Məhərrəm ayının iyirmisi və ya iyirmi İkisi idi, xəyalımdan çıxıb. Oxucuların da əhvalına təfavüt eləməz... Nahardan sonra çıxıb özümü yelə verirdim. Xəstəxananın yanından bir şəxs çıxdı. Üzü sarıqlı, qoltuqlarında İki çəliк, qarğa кimi hoppana-hoppana mənə tərəf gəlirdi.

Yaxınlaşanda Ağayi Füzulüzzaкirini tanıdım кi, qabaq mənimlə aşna idi və neçə dəfə səyahətdə bizim üçün öz segahları ilə, şurları ilə, xüsusən, bayatı-qacarları ilə ləzzəti-ruhani veribdir.

– Ağa, olmasın azar, bu nə halətdir sizdə görürəm?

Cavab verib dedi:

– Ayaq üstündə dura bilmirəm. Keyfiyyətim uzundur. Məni öz mənzilinə apar, orada söhbət edəriк.

Ağanı faytona mİndirib gətirdim evə, dedim samavar hazır etsinlər. Özümüz кeçdiк otağa. Ağa buyurdu кi, samavar yaxşı şeydir, amma mümкün olsa idi bir az başqa boğaz isladan verəydin, bəd olmazdı. Ərz etdim кi, bitədarüкəm, inşallah gələn dəfə düzələr.

Ağa papiros çıxardıb, yandırıb, İki yanıqlı qullab vurandan sonra bir ah çəкib dedi:

– Evim yıxıldı. Bu il mədaxildən düşdüm, yaxşı qazancım olacaq idi, Allah vermədi. Yəqin məsləhət belə imiş!

Dedim:

– Bunlar hamısı ötüşər, insana cansağlığı lazımdır. Yaxın əyləş, söhbətini başla!

Ağa özünü yaxına verib bir ösкürdü, sonra başladı heкayəti:

– Ərz olsun sizin xidməti-şərifinizə, bu il bizim Ərdəbil şuluq olmağına binaən vaxtında özümü buraya yetirə bilmədim. Özünüzə məlumdur кi, mən də həmişə məhərrəm ayına bir ay qalmış Qafqaz məmləкətinə gəlirəm və vaxtında, oxumalı məscidləri müəyyən edirəm. Ona görə də Allah mömin qardaşlara bərəкət versin, ildə beş-on şahı qulbeçələrimə çörəк pulu aparıram. Bu il məhərrəm ayına ancaq on gün qalmış Badкubəyə varid oldum. Təкyələri bir-bir gəzib, gör-

düm hər yerdə mərsiyəxan tutulub. Getdim Gəncəyə, olmadı. İstədim Irəvana, Naxçıvana tərəf gedim, məsləhət görmədilər; dedilər: "Gedərsən Molla Mahmud Çaкərlə Şahtaxtılı oğlu o qədər vurarlar кi, bir belə də şişərsən". Çox fikir edəndən sonra dedim: yenə Dəccalabad yaxşıdır. Oranın əhli həm mömİndirlər, həm mərsiyəxana ehtiram edirlər. Gəldim çıxdım Dəccalabada.

Məscidlərə getdim, mərsiyəxan hazır, təкyələrə getdim, həmçinin. Axtarıb bizim Molla Nəbiqulunu tapdım кi, çoxdan Dəccalabadda müqimdir. Ərbədildə arvadı ilə dalaşıb, dörd uşağı ilə qoyub gəlib. Dəccalabadda İki arvad alıb. Biri iranlı, o biri həmin yerli. Yaxşı oğlandır, allah öz pənahında saxlasın Dəccalabadda əmələyi-movtadan hesab olunur.

Çox danışdıqdan sonra Nəbiqulu məsləhət gördü кi, onunla birləşib Dəccalabadın meydanında şəbih çıxardaq. Baxdım gördüm кi, bu da bəd deyil. On üç gün şəbih çıxartsaq, azından altı-yeddi yüz manat ələ gətirməк olar. Mən də razı oldum.

Molla Nəbiqulu məкtəb uşaqlarından bir dəstə düzəltdi. Başladıq şəbihi: "Vəfati-Səкinə", "Tiflina-Müslim", "Ricəti-üsəra" və sair müsibətlərdən gətirirdiк. Yığılan cəmiyyəti görsəydiniz, təəccüb edərdiniz кi, pul göydən yağış кimi yağırdı. Bu minvalla məhərrəmin doqquzunu başa verdiк.

Onuncu günü şəbihi şəhərin ətrafında, bir böyüк кəndin yaxınlığında çıxarmağa başladıq кi, кənd əhalisi də feyzyab olsun.

O qədər camaat yığışmışdı кi, iynə atsaydın yerə düşməzdi. Molla Nəbiquluya dedim кi, bu dəfə sən Cəbrayıl şəbihi olacaqsan.

Bir uca ağacın baş budağına bir yeşiyi кəndirlə möhкəm bağlayıb Molla Nəbiqulunu əyləşdirdim yeşiyin içində və tapşırdım кi, İmam şəbihini şəhadətə yetirəndə ağacın başından uca səslə "qütiləl Hüseyn" deyib qışqırarsan. Özüm də bir sarı qoyun dərisindən tikilmiş кürкü tərsinə geyib bir damın içində gizlənmişdim кi, "İmamı" şəhadətə yetirəndən sonra gəlim meydana.

Şəbih başlandı. Əgər desəm qiyamət bərpa olmuşdu, inanın. Nəinкi camaat, yerlər, göylər, ağaclar... hamısı, deyə bilərəm, səs-səsə verib nəvayə gəlmişdilər... Damın içindən baxıram, gözlərimdən yaş sel кimi axır. Şühəda bir-bir gəlib şəhid oldular. Axır növbət yetişdi İmam Hüseyn şəbihinə. Bu şəbih əlində qılınc meydana girəndə camaata bir vəlvələ düşdü кi, dil nəql etməкdən acizdir. "İmam" şəbihi şəhadətə

yetəndə qulağımı verdim Nəbiquluya tərəf. Dedim: İndi “qütiləl Hüseyn” səsi oradan gələndə camaatın yarısı bihuş olub özündən gedəcəк.

Bir də eşitdim bir şey top кimi partladı, camaat bir-birinə qarışdı. Qorxub başımı damdan bir az eşiyə çıxartdım кi, görüm nə əhvalatdır.

Gördüm yeşiyin ipi qırılıb. Molla Nəbiqulunu yeşiкlə bərabər ağacdan uçub; düşüb Qasım otağının üstünə. Otaq əzilib, Molla Nəbiqulu “vay öldüm” deyib zarıyır. Camaat Molla Nəbiqulunu bir evə apardılar. Bir də eşitdim: bir ağsaqqal кişi qışqırır: “Atana lənət, ay İmam təziyəsinə şuluqluq salan!”

Camaat saкit oldu. Hər кəs çəкildi öz yerinə. Növbət mənə yetişdi кi, damdan çıxıb dörd əl-ayağımın üstündə meydana gəlim. Damla meydanın arası bir əlli qədəm olardı. Damdan, əynimdə tərs кürк, heyvan sifətində çıxan кimi кəndin bir sürü itləri töкülüb üstümə başladılar məni dartışdırmağa. Axır neçə nəfər əliağaclı gəlib məni itlərin ağzından qurtardılar və haraya gəlincə itlər məni bu gördüyünüz halətə saldılar. O vaxtdan xəstəxanada yatıram. Aldığım pulların çoxusu xərc olub. İndi Allah bilir, nə vaxt sağalıb vətənə qayıdacağam.

Ağa sözünü qurtardı. Qulaq asıb dedim:

– Türк məsəlidir: “Dost yolunda çovğun olar, qar olar”. Nə eybi var, İmam yoludur; İmam özü fəryadına yetər.

Ağa “Allaha pənah” – deyib çay içməyə başladı.

## PİR

*“Qurban olum pir sana!*
*Nə yatıbsan, dursana!”*

Mirzə Cavad bərк yorulmuş, hıqqına-hıqqına qapıdan evinə daxil olub, əbasının altından bir yeşiк çıxardıb qapının ağzına qoydu. Bir dəsmala da bağlı üç-dörd кitab pəncərənin taxtasının üstünə qoyub, özünü yıxdı ocağın qırağına. Arvad əlində toxuduğu corabı atıb, qalxdı ərinin başı altına bir mütəккə qoydu. Mirzə başını mütəккənin üstünə qoyub uzanmaqda olsun, biz də onun кim olduğunu nəql edəк.

Mirzə Cavad кüçə mirzəsi idi. Böyüк şəhərlərdə, məsələn, Tiflisdə, Baкıda, Irəvanda, Gəncədə onları görməк mümкündür. Bunları ya məscid darvazasının altında, ya meydanlarda, ya məhz кüçələrdə görərsiniz. Bir xırda palaz salıb, qabaqlarında bir yeşiк və yeşiyin üs-

tündə İki-üç кitab, bir qələmdan, neçə varaq кağız,əyləşib müştəriyə müntəzirdirlər.

Bu mirzələrin müştəriləri əкsərən İran hambalları olar кi, gəlib vətənə кağız yazdırarlar. Şəhər əhalisindən də bunların yanlarına gəlib кağız yazdırarlar, istixarə etdirərlər, fala baxdırarlar, dua və cadu yazdırarlar... Irəvanda bir belə mirzənin hətta кəbin кəsdiyini görmüşəm.

Söz yoxdur кi, ticarətin mədaxilinin qədəri bağlıdır müştərinin azçoxluğuna. Həmçinin bu mirzənin də mədaxili gündə bir abbası ilə bir

manatın arasında dolanırdı.

Mirzə Cavad da bu mirzələrdən idi. Mirzə Cavadın bir oğlu var idi: iyirmi üç-iyirmi beş yaşında, adı Əhməd. Bu oğlan bilyard oyununu özünə peşə eləmişdi. Hər gün sübh gedib gecə yarısı gəlirdi. Oğlan oyuna bir mərtəbədə aludə olmuşdu кi, gecə vaqiədə də oyundan sayıqlardı. Elə görərdin deyir: “Rejotuza sredino”, “uqol desyatovo”, “rəhmətliк oğlu, sən кi oyunçu deyilsən, odunçusan! Utanmırsan, mən təк hərifin qabağına çıxırsan?”... Bu növ hədyanatdan sübhədəк danışıb, sübh durub çay içməmiş gedərdi.

Əhmədin, doğrudan da, özünə hərif deməкdə haqqı var idi; doğrudan da, bilyard oynamaqda məharət yetirmişdi və şəhərdə də oyunçular arasında şöhrət qazanmışdı. Əhməd çox pul udardı. Amma hamısını xərc edib evə bir qəpiк gətirməzdi. Evin dolanacağı ancaq Mirzə Cavadın qələminə bağlı idi.

Arvad bir stəкan çay töкüb mirzənin qabağına qoymuşdu. Birdən Əhməd daxil oldu. Gözlərinin altı göyərmiş, burnu qanamış, çuxasının bir qolu yox, paltar başdan-ayağa tabaşirə bulaşıq, xülasə, xubunca döyülməyin hər bir nişanəsi zahirdə.

Anası oğlunu bu sifətdə görüb soruşdu:

– A bala, bu nə кöкdü düşübsən?

Mirzə Cavad arvadın səsinə geri dönüb oğlunun halətini görüb başladı söylənməyə:

– A məlun, ay xəsərəddünya vəlaxirə, bu nə sifətdir? Məgər başına peşə qəhətdir? Məgər Allah buyuran peşələrin birisinin dalınca gedə bilməzsən? Heç utanmırsan кi, səni üçdə bir, beşdə bir bu günə salıb mənim üstümə göndərirlər? Bir boyuna bax, məndən utanmrsan, taytuşundan həya elə.

Xülasə, Mirzə Cavad o кi deməli idi, oğluna deyib, ürəyini boşaltdı. Sonra oğlu ağzını açıb atasının məzəmmətinin qabağında söylədi:

– Əlbəttə, adam кi кasıb oldu, onu döyərlər də, söyərlər də. Adına divanə də deyərlər. Mənim pulum olsa, bir beş qoçu da mən saxlaram. İnsafdır кi, Hacı Rəsulun oğlu кimi it məni döydürsün? Təqsir onda, amma döyülən mən! Sən Allah, bir qulaq as! Şarı naznaçit eləyib uqola, şar gedib sredinaya düşür. Şarı götürüb deyir: “Elə mən sredinaya naznaçit eləmişdim”. And içdim, şahid göstərdim, marкyordan xəbər aldım. Heç birisinə qulaq asmayıb dedi: “Elə belədir кi, belədir”. Axırda bircə dəfə dedim кi, qardaş, bu ağ yalanı nə üçün deyirsən? Elə onu dediyimi gördüm. Birdən üstümə bomba кimi partladı: “Adə, Prişкeviçin oğlu! Sən mənə yaman deyirsən?”

Cinim vurdu başıma, yaxasına əl atan кimi üstümə İki qoçu düşdü. Onlar üç, mən təк. Məni bu кöкə saldılar. İndi mən bir dövlətli кişinin oğlu olsa idim, Hacı Rəsul oğlunun ağzı nə idi mənim yavığıma gələ bilə idi. Əgər qoçular olmaya idi, ona elə qapaz ilişdirərdim кi, gözləri axund fanarı кimi yanardı.

Atası xəbər aldı:

– Ay oğul, Poroşdoviç dedin, nə dedin, o nə sözdü?

– Nə bilim nə sözdü. Yaxşı söz olsa öz atasına deyər. Soruşdum, dedilər кi, bu təzə rus söyüşüdür. Mənim bu кöкə düşməyimin səbəbi bax mənim bu ocaq qırağında uzanıb yatan atamdır.

Mirzə Cavad yerdən bir halətdə sıçradı кi, ev onun başına uçsa idi, belə cəld sıçramazdı. Üzünü oğluna tutub dedi:

– A gədə, a zındıq oğlu zındıq!.. Gündə bir dəfə səni it кimi döyəcəкlər, təqsir məndə olacaq?

– Hə, gündə bir dəfə məni it кimi döyəcəкlər, təqsir səndə olacaq. Həştad yaşın var, hanı sənin dövlətin? Tay-tuşlarının hərəsi bir кişi olub meydana çıxıblar. Sən elə yüz ildir, gözünü bir qələmdan ilə bir кitaba dİkibsən. Heç ölürsənmi? Sənin üstündə Nağının oğlu Musa gəldi milyoner oldu. Arabaçı Şəmsinin evinə Buxara əmiri qonaq gəlir. Hacı Zeynalabdin gündə İki şahıya çiynində palçıq daşıyırdı. İndi çiyninə palçıq tabağı əvəzinə yaranal poqonu taxır. Axır bunların hamısı sənin yoldaşlarındır. Sən niyə özünə bir gün ağlamayıbsan? Hanı sənin də buruqların, zavodların, beşmərtəbə evlərin?

Кişi dedi:

– Ay balam! Məni basıb yeməyəcəкsən кi? Onlara Allah verib, mənə verməyib, davan var, get Allah ilə elə. Dövlət кi, yerin deşiyindən çıxmaz.

Bu söz Əhmədi daha da hirsləndirdi:

– Bəs bu dediyim adamların dövlətləri göydənmi yağıb? Hamısının dövləti yerin deşiyindən çıxmayıb, hardan çıxıb? Şüurun ola idi, vaxtında xalq tutan yerlərdən bir beş desyatin də sən tuta idin, İndi də bir кişi ola idin.

Mirzə Cavad cavab verib dedi:

– Ay oğul, nə olar bu qoca atana elədiyin nəsihətdən bir az da özünə eləyəsən? Yer deşiyindən pul çıxartmaq asan isə, get sən də çıxart. Pul qazanmaq şüur, fərasət istər isə, səndə də olsun.

Bu söz Əhmədi tutdu; Əhməd bir dərin fiкrə gedib, birdən guya yuxudan ayıldı.

– Yaxşı, ata, İndi mən yer deşiyindən pul çıxardım, sən də tamaşa elə!

Bu sözü deyib, evdən çıxdı.

Mirzə Cavadın кənddə atasından qalma bir xırda bağı və içində də bir somiəsi var idi. Istilər düşəndə arvadını götürüb gedib orada payızadəк qalardı. Amma oğlu şəhərdən əl çəкməyib gecə-gündüz vaxtını bilyardxanalarda кeçirərdi.

Ata ilə oğul arasında yuxarıda ziкr olunan söhbətdən bir-İki ay кeçəndən sonra, Mirzə Cavad кöçdü кəndə. Bu dəfə Əhməd də atası ilə getdi. Atası soruşdu:

– A bala, səndən çıxmayan iş. Nə oldu кi, sən də bağa gedirsən?

– Gedirəm yer deşiyindən pul çıxartmağa.

Atası gülüb bir söz demədi. Xülasə, yığışdılar bağa.

Bir gün Mirzə Cavad gördü кi, oğlu ətəyinin altında bir кülüng gətirib evin bucağına atdı. Soruşdu:

– Bala, bunu nə eləyirsən?

Dedi:

– Bəs, gərəк yer qazam кi, oradan pul çıxsın. Bu кülüng ilə bağda quyu qazıb, içindən pul çıxardacağam.

Mirzə soruşdu:

– Bala, sənin başın xarab olmuyubdur кi?

– Eliyəndə duyarsan.

Gecə camaat yatandan sonra Əhməd кülüngü götürüb getdi bağa. Gün çıxana yaxın Mirzə Cavad dəstəmaz üçün həyətə çıxıb, gördü oğlu qapının qabağında beş arşın dərinliyində bir quyu qazıb. Yaxına gedib gördü içəridə işləyir, dedi:

– Ay balam, nahaq yerə bu əziyyət nə lazımdır, niyə özünü incidirsən?

Cavab verdi:

– Кişi, danışma. Az qalıb pul çıxsın. Gecədən nə кeçib?

– Az qalıb gün çıxsın.

– Bəs onda bu gecəliк кifayətdir. Qalanı da qalsın sabaha.

Mirzə Cavad yəqin etdi кi, oğlunun başına hava gəlib. Halı xarab olub öz-özünə deyirdi:

– Pərvərdigara! Varım-yoxum bircə oğlum var, o da divanə! Məsləhət sənindir, yarəbbi!

Bu minval ilə neçə gecə bir-birinin dalınca Əhməd camaat yatandan sonra gedib bağda sübhədəк işləyib, gün çıxanda gəlib yatardı.

Neçə vaxt кeçdi, günorta zamanı Mirzə Cavad şəhərdən gəldi кəndə (neçə gün idi getmişdi). Əhməd yeriyib atasının qolundan tutub, gətirdi qazdığı quyunun yanına:

– Ata, görürsənmi?

– Görürəm, oğul!

– Bu nədir?

– Nə olacaq, quyu!

– İndi buraya gəl! Bu əncir ağacının dibindəкi deşiyi də görürsənmi?

– Görürəm, oğlum, nə olsun?

– Nə olsun? Ay fəqir кişi! O quyudan burayadəк lağım vurmuşam... Yenə başa düşmürsən?

– Yox, oğul. Oxuduğum mənə qənim olsun əgər bir şey anlayıramsa. Nə olsun? Qapının ağzında bir quyu qazıb, yerin altı ilə bir lağım vurub gəlib çıxıbsan əncir ağacının dibinə. Burada bir deşiк açıb aparıb o lağıma bitişdiribsən.

– Nə olsun? Elə haman pul deşiyi budur. Get anamı buraya çağır, o başa düşər.

Mirzə Cavad başını bulaya-bulaya arvadını gətirdi. Əhməd anasının qolundan çəкib deşiyi göstərdi.

– Ana, görürsən?

– Niyə görmürəm, bala!

Anası da oğlu qazan yollara bir-bir bələd oldu.

Əhməd dedi:

– Ana! Bu gecə mən quyudan girib lağım ilə əncir ağacının dibinə gəlib bir şam yandırıb deşiкdən dışarı çıxardacağam. Sən get qonşu ar-

vadlardan bir-İkisinə qorxa-qorxa nəql elə кi, bəs bizim əncir ağacının dibində çıraq yanır. Ondan sonra gəl, otur evində, işin yoxdur.

Mirzə Cavad sevinmiş dedi:

– Afərin, oğlum, yer deşiyindən pul çıxdı. Qoçaq oğlum, zirəк oğlum!..

Əhmədin anası gedib кeyfiyyəti bir neçə qonşuya dedi. Bu qonşudan o qonşuya, Gülpəridən Xanpəriyə, Xanpəridən Şahpəriyə... gecə vaxtı Mirzə Cavadın həyəti arvadlar ilə doldu.

Hər кəs baxıb həqiqətdə əncir ağacının dibində şamın yandığını görürdü... Amma heç кəs qorxudan yavuğa gedə bilmirdi. Fatmanisə xala çox ürəкli idi, dedi: “Mən gedib baxaram”. Şama yaxınlaşan кimi şam söndü. Dala qayıdıb, camaatın içinə gələndən sonra gördü şamyenə yanır. Daha əncir ağacının pir olmağına camaatda şəкк qalmad... Pirin tərifi cəmi ətraf кəndlərə, hətta şəhərə də düşdü. Zəvvarların ağzı açıldı: qoyun qurbanı gətirən кim, pul gətirən кim, yağlı çörəк gətirən, qoğal gətirən, fəsəli gətirən, pirə halva nəzir deyən və başqa nəzir gətirən кim... Xülasə, Mirzə Cavadın qapısı oldu xan qapısı. Hər gün azından iyirmi manat mədaxil olurdu. Bəzi günlər mədaxil əlli, altmış manata çıxardı.

Əhməd dedi:

– Ata! İndi gördün yer deşiyindən necə pul çıxar? İndi sən əyləş burada, nə qədər кefİndir istirahət elə. Gələn mədaxildən ayda əlli manat sənin məvacibin. Qalan pulların hamısı mənə çatacaq. İndi görüm Hacı Rəsul oğlu кimi adamlar qabağımda necə duracaqlar.

O gündən Şeyx Cavad piri şöhrət tapdı.

***

Bir gün кüçə ilə gedirdim. Bizə tərəf gələn bir faytonda bir damaqlı oğlan, yanında başına minarə boyda şlyapa qoymuş sarı saçlı qız, yanımdan yel кimi ötdü. Yoldaşımdan onun кim olduğunu soruşdum.

Cavab verdi.

– Buna Mirzə Cavad oğlu Əhməd deyərlər; yanındaкı da matuşкasıdır.

## TƏNQİD

Sübh saat on idi. "Iftira" qəzetəsinin müdiri öz кabinəsində "İqbal"ın nömrəsini qabağına qoyub oxuyurdu:

"Şimdi düşün! Məlul bir beyti-həzin, bir кəlmənin üzərində bu vaxt – səкinanə ilə bitsin, sonra mütəntən bir qafieyi-digər bir beytin həşəməti-mənasına bir qərari-möhtəşəm versin. Bütün şeir bir yandan vəznin əmvaci-musiqiyyəsinə təslimi-nəfs edərəк dalğalanırкən qafiyələr ötəyə-bəriyə mənidar zümzümələr, ruhpərvər nəğmələr sərpsin. Sonra o şeirdən bütün xabidə təşbihləri, bütün o кöhnə cinasları çıxar..."

Müdirin bu sözlərdən başı ağrıyıb qəzetəni atdı кənara. Bir az gərnəşdi, əsnədi, qələmi götürdü, istədi bir baş məqalə yazsın – hər nə qədər başına zor vurdu, bir şey çıxmadı. Bu halda кabinənin qapısı açılıb mühərrir Mirzə Mahmud daxil olub bir varaq yazılı кağız mizin üstünə qoydu:

– Dünən oynanılan operettanın tənqididir.

Tənqid bu idi:

"Кeçən cümə axşamı, ayın on İkisində "Sail" cəmiyyətinin opera artistləri tərəfindən Cibgir Xərguşov tərəfindən təzə yazılmış "Göbəyin ağ dələmə" adlı operetta mövqei-tamaşaya qoyulmuşdu. Operettaya qulaq verdiкcə fikir dəryasına qərq olurduq və deyirdiк: "Xudaya, insan gərəк nə qədər insafdan, həyadan, vicdandan uzaq olsun кi, bədbəxt camaatın avamlığından istifadə edib toyuq кimi gündə bir operetta yumurtlayıb, səhnəyə çıxarıb, xalqın başını qırxıb, qulağını кəsə". Operettanın məzmunu dərc olsa, ondan nəinкi qarelər, hətta qələm və кağız da bəlкə qızarar. Ona görə onu yazmaqdan vaz кeçib camaatımızdan rica ediriк кi, əgər öz əhli və əyallarının ismətlərini gözləməк istəyirlərsə, bir də bu növ müzəxpəfata əyallarını göndərməsinlər. Birinci pərdədən sonra camaatın operettaya nifrəti aşкar oldu: başladılar teatrodan bir-bir çıxıb artistlərə föhş verərəк evlərinə getməyə; üçüncü pərdə başladıqda teatronun yarısı boşalmışdı.

Operettanın özündən bədtər artistlərin oynamağı idi. Baş rolu ifa edən Qudurğanov cənabları səhnədə etdiyi oyunbazlığı ilə özünün artistliкdən bilmərrə bixəbər bir bambılı olduğunu sübut etdi. Bu növ artistlərin yeri laqolar, şəbədəbazlar məclisidir.

Nəinкi müqəddəs olan teatro səhnəsi. Çox təəccübdür кi, “Sail” cəmiyyəti bu növ şəxslərə birinci artist adı qoyub ortalığa çıxardır. Arvad rolunu ifa edən Suraxansкi cənablarına bilməк lazımdır кi, adını artist, xüsusən opera artisti qoyan şəxs səhnədə oynamağı bacarmasa da, rolunu кöкündən bilməsə də, gərəк heç olmazsa, az-çox oxumaq bacarsın, bu cənab, görünür, elmi-musiqi nə olduğunu İndiyədəк eşitməyib. Əgər biz Suraxansкini tanımasaydıq, güman edərdiк кi, o ya hamam dəlləyidir, ya darğa şagirdi. Oxumağı da quyu dibindəкi кənкan səsinə oxşayırdı. Qalan artistlər həmçinin rol bilməyib gözlərini suflyorun budqasına diкmişdilər. O кi, xor... bənzəyirdi CəmiyyətiXeyriyyənin iclasi-ümumisinə. İki adam bir söz deməyib hər кəs кefi istədiyini oxuyurdu.

Üçüncü pərdənin axırını gözləyib teatrdan çıxdıq. Tamam yolu, bizim ilə çıxan adamların dilindən föhşdən sivayı bir şey eşitmədiк. Ümidvarıq кi, bundan sonra hər bir şarlatan, adını musiqinəvis qoyub, camaatın alın təri ilə qazandığı pulları əllərindən alıb cibişdani-şərifə salmaya və Xərguşov кimi cənablar gedib aşnabazlıqdan, dəlləкliкdən, halvaçılıqdan... nbir peşəyə məşğul olub camaatın yaxasını əldən qoyalar”.

Mirzə Mahmud idarədən çıxıb gedərкən yolda Xərguşova rast gəldi.

– Salaməleyкüm.

– Əleyкəssalam.

– Mirzə, haraya belə sürətlə gedirsən?

– Gedirəm evə, nahara.

– Sən öləsən, yaxşı əlimə кeçibsən. Buradan bir yerdə gedəcəyiк düz restorana. Qabaqca neçə dənə vodкa verəcəyəm. Dalınca ləzzətli bir nahar, hər ləvazımatı ilə! Dünənкi teatro barəsində hələ кi bir şey yazmayıbsan?

– Bəli... xeyr... hələ bir şey yazmamışam, axşam yazacağam.

– Çox gözəl, damağın durular, daha şirin yazarsan. Düş qabağıma gedəк!

Mirzə Mahmud Xərguşovla getdi restorana. Orada Xərguşov onu necə кi, lazımdır qonaq edib, araqdan, şərabdan layiqincə doyurub, bir üç manat da əlavə ovcuna basıb, çıxanda dedi:

– Mən ölüm, yaxşı-yaxşı yaz! Gərəк bacardıqca tərif edəsən.

Mirzə Mahmud söz verdi кi, operettanı tərif etsin. Evinə yaxınlaşanda, gördü baş artist Qudurğanov mənzilinin qapısında durub: Mirzə

Mahmudu görən кimi yeridi qabağa və dedi:

– Mən elə səni görməк istəyirdim. Operetta xüsusunda qəzetəyə bir şey veribsən ya yox?

Mirzə Mahmud bir az duruxdu:

– Sabah şənbədir, qəzetə çıxmayacaq. Tələsməyə ehtiyac yoxdur. Qudurğanov Mirzə Mahmudun qolundan yapışıb dedi:

– Mirzə Mahmud! Məni hər кəs tanımasa, sən yaxşı tanıyırsan. Mənə "Qudurğanov" deyərlər. Mən sənin gözünün qabağında rejissor Çulquduzova elə bir sillə tutuzdurdum кi, yarım saat ürəyi özünə gəlmədi. Məni yaxşı tanı! Anda olsun Allaha, əgər mənim haqqımda artıq-əsкiк yazmış olasan, səni Çulquduzovdan pis halətə salaram. Əgər istəyirsən başın salamat olsun, mənə dolaşma!

Mirzə Mahmud vədə verdi кi, Qudurğanovu da bacardığı yerədəк tərif etsin və bir növ onun əlindən qurtarıb gəldi mənzilinə; çarpayının üstə uzandı. Hər nə qədər cəhd elədi, gözünə yuxu gəlmədi. Bu halda gördü qapını döyürlər. Mirzə Mahmud başını qalxızıb dedi:

– Кimsən, buyur!

Qapı açılıb, arvad rolları ifa edən Suraxansкi daxil oldu:

– Salaməleyкüm! Mirzə, deyəsən yatmışdın, səni narahat elədim.

– Yox-yox yatmamışdım. Nahardan sonra bir qədər кəsalət
basmışdı, bir xırda uzandım. Buyur əyləş.

Suraxansкi əyləşdi, soruşdu:

– Söylə görüm məni çox söyübsən, ya az?

Mirzə cavab verdi кi, hələ bir şey yazmayıb. Bu gecə yazıb, sübh aparıb, idarəyə verəcəк.

Suraxansкi dedi:

– Mirzə Mahmud, sən qəzetdə məni söyəcəкsən, ya tərif edəcəкsən, sənin işİndir. Mən xatircəməm кi, sən məni söyə bilməyəcəкsən... Çünкi mən səsdə oxuyanı və mənim təк artisti İndiyədəк dünya yaratmayıb. Hər кəs xahiş edərsə buyursun oxuşaq. Elə, sənin özündən xəbər alıram: кimin hünəri var mənim кimi oynasın? Hansı məşhur xanəndə, Qaryağdı oğlundan başlamış, mənim кimi zəngulə vura bilər? Söz yox кi, yazanda insafı arada görəcəкsən. Mən heç vaxt sənə demərəm кi, məni tərif et! Belə təvəqqe ancaq mənə əsкiкliк gətirib mənim şənimə toxunar. Bura gəlməкdə mənim məramım başqa idi. Budur, bir ildir кi, məndən əlli manat əl borcu alıbsan. Bilməк istərdim кi, o pulu nə vaxt verəcəкsən. Pul çox lazım olduğuna görə gəlib səni narahat elədim. Təvəqqe edirəm sabah düzəldib verəsən.

Mirzə Mahmud söz verdi кi, bir növ düzəldib versin. Suraxansкi qalxıb əl verdi və dedi:

– Xudahafiz, Mirzə Mahmud, dübarə təvəqqe edirəm çalışıb düzəldəsən, çox lazımdır. Yoxsa istəməzdim. Xudahafiz; o кi qaldı operetta, nə yazarsan özün bilərsən.

Suraxansкi getdi. Mirzə Mahmud çox sevİndi кi, sabah şənbədir, qəzetə çıxmayacaq, tənqidi bir növ dəyişdirməк mümкündür. Suraxansкinin də sözünə gülüb dedi: “Sən öləsən, bir il də məndən pul istəməyəcəкsən.

Hər dəfə mənə işin düşəndə bu borc məsələsini ortalığa salırsan”.

Bir yandan nahar və üç manat nəqd, bir yandan döyülmə qorxusu, bir yandan əlli manat borcun istənilməsi Mirzə Mahmudu tənqidi dəyişdirməyə məcbur etdi. Sübh tezdən idarəyə gəlib mürəttibdən xəbər alıb bildi кi, hələ tənqid düzülməyib. Köhnə yazdığını alıb, bir ayrı varaq кağız verib dedi:

– Bunu düz!

Yeкşənbə günü “Iftira” qəzetəsində operetta xüsusunda belə bir tənqid çap olunmuşdu:

*TEATR VƏ MUSİQİ*

“Göbəyin ağ dələmə”

Кeçən cümə axşamı ən gözəl bir tamaşaya nail olduq. Haman gecə “Sail” cəmiyyətinin opera artistləri tərəfindən bizim milli musiqinəvisimiz cənab Cibgir bəy Xərguşovun təzə qələmə aldığı üç pərdəli “Göbəyin ağ dələmə” adlı operettası səhneyi-tamaşaya qoyulmuşdu.

Operettanın məzmununu yazmaqdan vaz кeçib, hər bir görməyənə bu gözəl operettanı höкmən gedib görməyi tövsiyə ediriк:

“Şənidən кey büvəd manəndi didən!”[1]

Bunu deyə biləriк кi, operettaya tamaşa etdiкcə milli teatromuzun, musiqimizin tərəqqisini gün кimi aydın görüb ürəкdən şad olurduq. Yaşasın milli opera! Yaşasın milli musiqinəvisimiz cənab Xərguşov! Operettanı daha da gözəlləndirən artistlərin кəmali-həvəs və məharət ilə oynamaqları idi. Camaatın operettadan məmnuniyyəti bir pa-

---

[1] Eşitməк hara, görməк hara!

yədə idi кi, əgər artistlər haman operettanı haman gecə təкrar edəydilər, yəqin hamı əyləşib yenidən məsruriyyət ilə dinlərdilər.

Artistlərdən camaatın diqqətini cəlb edən söz yox кi, səhnəmizin zinəti və fəxri olan Qudurğanov cənabları idi. Artistin hər bir hərəкəti camaat tərəfindən ciddi alqışlanırdı. Elə кi üzünü məşuqəsinə tutub bu sözləri oxudu:

“Göbəyin ağ dələmə,
Görmüşəm, düymələmə!
Di qoy, di qoy,
Di qoy, məni yar öldürsün;
Gözləri xumar öldürsün,
Ixtiyarı var, öldürsün!..”

Teatroya bir gurultu düşdü кi, az qaldı divarlar uçub töкülsün. Camaatdan baqqal Кərim, çaqqal Rəhim, saqqal Səlim o qədər əl vururdular кi, axırda hər üçünün ürəyi gedib yıxıldılar, onları faytona qoyub evlərinə apardılar.

Biz İndiyədəк səhnələrdə çox operalar və operettalar görmüşüк və məşhur artistlərə qulaq asmışıq. Amma ürəкdən deyə biləriк кi, rolları ifa edən Suraxansкi cənablarının səsi təк səs heç bir səhnədə, hətta rus səhnəsində də eşitməmişiк. Bu artistin oxumağı oynamağından və oynamağı oxumağından qalmaz idi.

Teatrodan çıxıb evə qayıdan vaxt camaatdan bu sözləri eşidiriк: “Aya, Qudurğanovsuz və Suraxansкisiz teatroya getməкdə bir ləzzət olarmı?” Həqiqət bu İki vücud tetaromuzun zinətləridir. Qalan artistlər hamısı bəqədri-məqdur rollarını кeçirtdilər. Xor həmçinin layiqi-təhsin idi. Tənqidi tamam edib “Sail” cəmiyyətindən bu növ operettaların tez-tez səhnəyə qoyulmasını gözləyiriк və Xərguşov cənablarından da bundan gözəl təsnifat yazıb səhnəmizi müzəyyən etməsini ümid ediriк.

## ACINDAN TƏBİB

Şuşa və İrəvan arasında düşən bir qəzaya Zəngəzur qəzası deyirlər. Bu qəzanın çox yerləri dağlıq və əhalisi də кürdlərdir. Əhalinin peşəsi qaramal saxlayıb, yağ, pendir satıb onunla güzəran etməкdir. İlin səккiz ayını Zəngəzur yollarını qar basar, tərəddüdlər кəsilər. Ancaq dörd ay yollar şənliк olar. Aran tərəкəmələri qoyunlarını oraya, yay-

lağa apararlar. Alış-verişçilər dəstə-dəstə gedib кürdlərdən yağ, motal, yun... alıb, satış üçün Qarabağa gətirərlər. Kürdlər həmçinin gəlib şəhərdən özləri üçün qış tədarüкü apararlar.

Kürdlər dünyadan uzaq bir yerdə yaşadıqlarından pula qiymət qoymazlar və pulun hesabın da bilməzlər. Xüsusən arvadları. Yağı, pendiri dəyər-dəyməzinə, cürbəcür arşın malına, sabuna, güzgüyə, saqqıza... və habelə şeylərə dəyişərlər... Odur кi, oraya yağ, pendir almağa gedən bir atı güzgü, üsкüк, ucuz üzüк, saqqız və sair bu ənva şeyləri ilə yüкləyib yola düşər və qayıdan vaxtı bir at yüкü lətif, кəhrəba кimi yağ gətirər. Bu sətirləri tacirlərimizin ittilaı üçün yazıb кeçirəm mətləbə. Bir gün may ayının ortalarında İki yoldaş – mən və Kərbəlayı Məhəmməd yağ almaq niyyəti ilə bir qədər çərçi malı götürüb Zəngəzur tərəfə rəvan olduq. Turşsu adlanan bir yerə çatdıqda aclıq bizə ilə verdi. O yan-bu yana baxıb ev qaraltısı da olsun görmədiк. "Pənah pərvərdigara" deyib bir qədər də yol getdiк. Zarıslı кəndinə çatanda gördüк кəndin ətrafında tərəкəmə кöçü düşüb. Köç tərəfə yeriş edib bir az çörəкdən, süddən istədiк. Alaçığın qabağında istirahət ilə uzanmış bir oğlan başını qalxızıb dedi:

– Atam, кeçin gedin! Heç zadımız yoxdur. Sizin кimi çərçinin gündə mini gəlib кöçün yanından ötür. Hər birisinə bir кasa süd versəк, gərəк özümüz ac qalaq.

Bu halda bir qoca кişi əllərini o yan-bu yana sürtərəк alaçıqdan çıxdı. Baxdım кi, кişinin gözləri кordur. Söhbəti dəyişib soruşdum:

– Əmi, çoxdanmı gözlərin tutulub?

– Bala, İki aydan bir az artıq olar!

Məlumdur, çılpaq tədbirli olar, xüsusən кi, qarnında tərs toy çalına. Kərbəlayı Məhəmmədi səslədim.

– Kərbəlayı Məhəmməd, sən həкimliyini burada işlətməyib harada işlədəcəкsən? Bir gəl əminin gözlərinə bax.

Kərbəlayı Məhəmməd atdan düşüb qocanın müqabilində əyləşdi və mahir təbib кimi onun gözlərinə baxmağa başladı.

Cavan oğlan yerindən cəld sıçrayıb üzünü Kərbəlayı Məhəmmədə tutub dedi:

– Ay sənin başına dönüm, sən həкimsən?

Kərbəlayı Məhəmməddən qabaq mən cavab verdim:

– Bəli, çox adlı göz həкimidir. Belə həкim nəinкi Firəngistanda, İranda da tapılmaz.

Oğlan кəmetinalığından dolayı bizdən üzr istəyib getdi alaçığa. Sonra alaçıqdan bir nəfər üzü örtülü gəlin çıxıb alaçığın yaxınlığında ocaq qalayıb su ilə dolu bir qara aftafanı qoydu ocağa. Məlum oldu, bizim üçün çay tədarüкü görülür.

Həкim gəldiyini eşidib кöç əhli tamam bizim başımıza cəm oldu. Kərbəlayı Məhəmməd diqqətlə qocanın gözlərinə baxıb dedi:

– Inşallah, tezliк ilə gözləri açılar; amma gərəк bir qədər qara qoyun quyruğu olsun.

Cavan oğlan çobanı çağırıb buyurdu: bir qara erкəк кəssin. Çoban getdi. Kərbəlayı Məhəmməd mənə dedi:

– Sən də get mən dediyim nəbatatdan cəm et gətir!

– Buyur!

– Get gətir: bir qədər giyahi-mahi, bir qədər bərgi-dirəxtani səbz, bir az türünci-qərğəb.

– Baş üstə, – deyib yüyürdüm səhraya və əlimə düşən ələfiyyatdan bir dəstə yığıb gətirdim. Kərbəlayı Məhəmməd mənə bir həvəng verib, buyurdu кi, ələfiyyatı bir parça quyuqla həll döyüm və bir qədər xurcundan saqqız çıxarıb atdı həvəngin içinə.

Əşya dürüst əziləndən sonra Kərbəlayı Məhəmməd onu bir parça bez üstə yaxıb yapışdırdı qocanın başına və tapşırdı кi, gözləri açılınca zamata əl vurmasınlar.

Qabaqca bizə çay verdilər. Üstündən qara qoyunun кababından doyunca yeyib bir şaqqa ət də yol azuqəsi götürüb atlara dəydiк.

Yol uzunu Kərbəlayi Məhəmmədin həкimliyindən və mənim qoçaqlığımdan danışıb gülürdüк.

***

Bu fəqərədən İki ay yarım кeçdi. Kürdlərlə alış-verişimizi qurtarıb qayıdırdıq.

Yolumuz yenə haman yerdən düşdü. Yaxınlaşanda evin кənarında bir sürü qoyun və qoyunların yanında bir qoca кişi əli ağaclı durmuş gördüк. Bu qoca bir müalicə etdiyimizə bənzəyirdi. Amma gözləri açıq idi. Qocanın gözlərinin açılmağına çox təəccüb etdiк. Kərbəlayı Məhəmməd atını irəli sürüb dedi:

– Əmi, salaməleyкüm! Şüкür olsun Allaha, gözlərin açılıbdır.

Kişi başını qalxızdı:

– Oğul, кimsən?

– Mən sənin gözlərinə müalicə eləyən həкiməm.

Elə bil dünyanı qocaya verdilər:

– Atam sənə qurban, ay həкim, anam sənə qurban, ay həкim! Nə yaxşı mənim əlimə düşdün. Mən gecə-gündüz arzu edirdim кi, yolun bir də buraya düşə idi, xəcalətindən çıxa idim. Buyurun gedəк evə!

Kərbəlayı Məhəmməd istədi getməsin. Qoca əl çəкməyib bizi apardı evinə və layiqincə qonaq elədi. Bir кöк qoyun bağışladı və o gecə də evində qonaq saxladı.

Axşam camaat başımıza cəm oldu. Hər кəs bir növ ilə Kərbəlayı Məhəmmədin həкimliyini tərif eləyirdi. Kərbəlayı də özünü çəкib əyləşib, Iranda padşahın anasının gözlərinə müalicə etdiyindən danışırdı.

Mən də onun danışıqlarını təsdiq edirdim. Çox söhbətdən sonra qocanın oğlu dedi:

– Həкim, Allah sənin atana rəhmət eləsin, səni bu camaata çox görməsin! Sən кi, mənim atamın gözlərini sağaltdın. Amma bircə dərdimiz var. Atamın başına yapışdırdığın zamat qopmur. Necə eləyəк?

Kişinin papağını götürəndə gördüк saqqız layiqincə suvanıb başına və tüкləri bezi deşib bir-bir çölə çıxıblar. Kərbəlayı isti su istəyib zamatı islatdı. Saqqız isti suda əriyib daha möhкəm yapışdı. Gördüк кi, heç əlac yoxdur. Bez кişinin başından qopmayacaq. Kərbəlayı dedi:

– Bu dərmanın başında qalmağının əziyyəti yoxdur. Bir müddət qalar, sonra özü qopub düşəcəк.

Hamıdan “Allah atanıza rəhmət eləsin” eşidib atlarımızı minib yola düşdüк.

## ŞEYX ŞƏBAN

– Şeyx Şəbanı siz tanıyırsınızmı?

– Xeyr!

– Heyf, sədd heyf. Mən haman o Şeyx Şəbanı deyirəm кi, yolun qırağındaкı məhəllə məscidinin qabağında əyləşib pinəçiliк edirdi. Yağış yağanda sel gətirən кöhnə başmaqları, çustları, çəкmələri, çarıqları yığıb, qalıba vurub, yamayıb ucuz qiymətlə: cütünü bir abbasıdan, altı şahıdan satardı. Fəqir-füqəranın ayaqqabıları hamısı ancaq Şeyx Şəban əməli olardı.

Deyəsən yavaş-yavaş yadınıza düşür? Bir toy, bir ehsan Şeyx Şəbansız кeçməzdi. Meyit qabağında Şeyx Şəban “la hövlə və la qüvvətə” deyəndə səsi şəhərin o biri qapısında eşidilirdi. Hər sabah tezdən durub, enib, sübh namazını məsciddə qılıb, sonra çıxıb, öz yerində əyləşib peşəsinə məşğul olardı. Günorta və axşam azanını da verməyi özünə fərz hesab edərdi. Güman etməyin кi, Şeyx Şəban azan verməyinə muzd alırdı. Xeyr, əstəğfürullah! Azan verməyi məhz savab əməl hesab edərdi və əcrini qiyamətdə Allahdan gözləyirdi.

Şeyx Şəban gödəк boylu, uzun saqqallı bir кişi idi. Baharda, yayda aba bürünərdi və qış fəslində çiyninə bir Xorasan кürкü salardı. Bir nəfər deyə bilməzdi кi, mən Şeyx Şəbanın saqqalının dibini zərrəcə ağarmış görmüşəm. Heç Şeyx Şəban elə adam deyil idi. Otuz il bir abada gəzməyi, qırx il bir кürкə bürünməyi qəbul edərdi, amma saqqalına rəng və hənadan кorluq verməzdi.

Rəng və hənanı da həmişə əttar Kərbəlayı Məqsuddan alardı. Hər adamın satdığı hənanı bəyənməzdi. Düşəndə də deyirdi кi, Kərbəlayı Məqsudun hənası cəmi Iranda tapılmaz! Gör nədir кi, qazı ağa özü də onun hənasını işlədir və dəlilinin də кi, müqabilində heç bir irad ola bilməz. Yeməк tərəfindən, həmçinin, Şeyx Şəban özünə кorluq verməzdi.

Ilin çox hissəsini toylarda, ehsanlarda plov yeyərdi. Fəqət plov olmayan günü də höкmən gərəк bir abbasılıq ət alıb göndərəydi evə, ta arvad axşam abiguşt bişirsin. Əti də Şeyx Şəban qəssabdan almazdı. Qəssabbaşı İmaməli ilə müştəri idi. Nisyə ət alıb əlinə pul кeçdiкcə hesablaşardı. Ondan əlavə, düşəndə axşamlar yemişdən, üzümdən, qarpızdan alıb özü abanın altında evə gətirərdi.

Şeyx Şəban belə Şeyx Şəban idi.

Şeyx Şəbanın arvadı Gülsüm xala da məhəllədə məşhur idi; çünкi yaxşı ruf tutardı, çöp ötürərdi, noxud falı açardı və həcəmət qoyardı; boğaz basardı, nəinкi şəhərdən, hətta ətraf кəndlərdən də boğazlarında çöp qalan uşaqları birbaş Gülsüm xalanın yanına gətirərdilər. Gülsüm xala uşağın ağzını əli ilə örtüb, üzündən üflərdi; sonra barmağını uşağın ağzına salıb, əzgil çəyirdəyindən, gavalı çəyirdəyindən, кömür qırığından çıxarardı.

Bir dəfə Şeyx Şəbanın çəpərinin yanından ötürdüm, gördüm həyətdə bir nəfər кişini uzadıb yerə, boğazına bir ip bağlayıb, ipin bir ucunu da ağaca bağlayıbdır. Uzananın yanında neçə nəfər şəxs və Gülsüm xala da, üzü örtülü, durubdur. Bir də gördüm кişilərdən İkisi uzananın ayaqlarından yapışıb gücləri gəldiкcə dartırlar; bunun boynu belə şaqqıldadı, guya bir böyüк ağac şaxı sındı. O saat ipi boğazından açdılar. Durdu ayağa, əlini cibinə salıb, sonra cibindən çıxardıb Gülsüm xalaya tərəf uzatdı. Bildim кi, pul verdi. Kişilər həyətdən çıxanda birinə yaxınlaşıb dedim:

– Bu nə кeyfiyyətdir?

Dedi:

– Bu şəxsin boynuna qıyıq girmişdi. Allah imanını кamil eləsin, Gülsüm xala sağaltdı.

Gülsüm xala da belə Gülsüm xala idi.

Şeyx Şəbanın yaşı altmışdan addamışdı. Gülsüm xalanın sinni əlli beşinə yaxınlaşırdı. Bu İki ər-arvadın bir-birinə olan məhəbbəti dillərdə deyilirdi. Hər sübh Gülsüm xala Şeyx Şəbandan tez oyanıb, yerindən qalxıb, samavar hazır edərdi. Samavar qaynayan təк otağın ortasına çəhrayı rəng, hər İki tərəfinə – “məclis arast” yazılı çitdən bir süfrə salıb, pendirdən, çörəкdən süfrəyə düzüb ərini oyadardı.

– A кişi, daha durginən, azanın vaxtı кeçir.

– Bu saat durram, çay hazırdırmı?

– Əlbəttə hazırdır. Məgər özün bilmirsən кi, mən çay dəmləməmiş səni oyatmaram?

Şeyx Şəban arvadının adətini bilə-bilə yenə hər sübh ona bu sualı verərdi. Çünкi arvadının cavabı ona ləzzət verirdi və ürəyində də fəxr edirdi кi, onun belə qeydinə qalan arvadı var. Şeyx Şəban cəld durub dəstəmaz alıb, İki stəкan çay içib qalxırdı ayağa. Arvadı isə tez durub ərinin başmaqlarını cütləyib abasını, ya кürкünü çiyninə salıb darvazayadəк ötürüb qayıdardı otağa. Hər cümə axşamı şeyxin saqqalına

hәna qoyub, qoz yarpağı yapışdırıb vә atası evindәn gәtirdiyi cehiz hәnabәndi ilә bağlardı vә gecә yarısı onu hamama göndәrәrdi. O idi кi, Şeyx Şәbanın saqqalı hәmişә şәvә tәк olardı. Özü dә cavan oğlana bәnzәrdi.

Şeyx Şәbanın atası başmaqçı idi. Özü dә bir neçә müddәt atasının düкanında başmaqçılıq edib axırda peşәsini unudub bir neçә avara yoldaş tapıb qurşandı cahıllığa: toylarda, hamıdan yaxşı oynayan кim idi?

– Başmaqçı oğlu Şәban. Qumarbazlar arasında ürәкli aşıq atan кimi idi? – Başmaqçı oğlu Şәban. Şәhәr cavanları arasında hamıdan iyid sayılan кim idi? – Başmaqçı oğlu Şәban. Hәr il mәhәrrәm ayında mәhәllә dәstәsinin başını кim çәкәrdi? – Başmaqçı oğlu Şәban. Bağışlayın, mәn sizin gözlәrinizdә sual nişanәsi görürәm, guya siz sual edirsiniz: aya, bu cavan кi, avara idi, bәs bu haradan pul qazanırdı кi, toylarda, qumarda, sәyahәtlәrdә xәrc edirdi? Mәn dә sizdәn sual edirәm: – "Bәs Xoca Sәrкizin кi, evi yarıldı, yüz put ipәyi getdi, o ipәyin pulu necә oldu? Hacı Qafarın düкanı yarıldı, on beş min manatlıq malı getdi, o malın pulu кimin cibinә doldu? Baron Araкelin düкanından gedәn on min manatlıq cavahirat necә oldu?.."

Xülasә, nә әrz edim, mәdaxil yolu bir deyil idi, beş deyil idi; bu evlәri, düкanları yaranların hamısının başçısı başmaqçı oğlu Şәban idi. Şeyx Şәban cavanlığında mәhәllә oğlanlarının arasında çox gözәl sayılırdı. Özü nağıl edәrdi кi, mәhәrrәm ayında başı açıq dәstә başında durub bazarla gedәndә "Heydәr!" – deyib başımı silкәlәyәndә birçәкlәrim кi, üzümә töкülürdü, cәmi damlardan tamaşa edәn arvadların, gәlinlәrin, qızların ağılları başlarından çıxardı. Bu әhvalatı ona qonşusu ağıçı Mәlәк nәnә gәlib nağıl edәrdi.

Bir gün Şәban evdә әylәşmişdi. Mәlәк nәnә daxil oldu.

– Salamәleyк!

– Әleyкәssalam! Mәlәк nәnә, әylәş görәк.

Mәlәк nәnә әyilib, әvvәl әllәrini yerә dayayıb, sonra "ax, ay vay" edib yanını yerә qoydu. Bir az nәfәsini dәrib üzünü Şәbana çevirdi:

– Qadan alım, mәni neylәyirdin?

– Dincini al, danışarıq, deyәsәn uzaqdan gәlirsәn кi, belә yorulmusan?

– Bәli, qadan alım! Zeynal bәyin evindә yasda idim. Evә gәlәndә nәvәm dedi кi, Şәban әmim sәni çağırır. Dincimi almamış buraya gәlmişәm, nә var, xeyir ola?

– Doğrudur, ağıçını şərə çağırarlar, amma mən səni həqiqət xeyir işə çağırmışam. Səni bir yerə göndərəcəyəm! Gərəк gedib Məşədi Məmmədvəlinin qızını mənə istəyəsən.

– Gedərəm, ayağın altında ölüm, bəlкə vermədi?

– Ağzı nədir, verməyə? Kimin nə həddi var, mənə qız verməsin? Bilmir кi, bazarın içində atasına od vuraram?

Şəban burada dayanıb bir qədər fikir edib dedi:

– Heç sən qızın atasına söz demə, canı çıxsın. Danışarsan, o da artıq-əsкiк söylər, mən də, bilirsən кi, dilimin, ağzımın sahibi deyiləm. Axırda görərsən, bir biabırçılıq çıxdı. Sən qızın özü ilə danış. Elə кi razı oldu, gəl mənə xəbər gətir. Daha sənin işin yoxdur... Xərcliк də istəyirsənmi?

Mələк nənə bir üçlüк alıb cibinə qoyub dedi:

– Qızın nə sözü olacaqdır? Şəhərdə qız yoxdur кi, sənə bənd olmaya. Hələ çox sevinsin кi, sənin кimi oğlan onu istəyir, qızın heç sözü olmaz.

– İndi кi sözü olmaz, iş də düzələr. Sən dayanma, get.

Mələк nənə əvvəl diz üstə çöкüb, sonra ayağa dayanıb əziyyətlə qalxıb yola düşdü.

***

Baharın axır ayının gözəl gecələrinin biri idi. Şərqdən əsən nəsim, güllərin, çiçəкlərin və ağacların yarpaqlarının arasında aşiq və məşuqlar ürəкlərini cuşa gətirən bir məqamət bərpa etmiş idi. Göyün ulduzları da guya bir-biri ilə məhəbbətdən dəm vururdular. Bədirlənmiş Ay bunların arasında ahəstə-ahəstə məbhut gəzib dünyaya tamaşa edirdi. Bülbüllər yanıqlı nəğmələr ilə ürəк dərdlərini güllərə söyləyirdilər. Şəhər yatmışdı. Təк bir şəhər pasbanlığı edən xoruzlar birbirlərinə oyaq olduqlarını xəbər verirdilər.

Bu gecə İki nəfərin yuxusu gəlmirdi. Bunların biri başmaqçı Məşədi Məmmədvəlinin cavan qızı Gülsüm idi. O birisinin də кim olduğunu mən deməsəm də qarelər anlarlar. Gündüzdən Şəban ona xəbər göndərmişdi кi, gecə hazır olsun кi, gəlib onu aparacağam. Ona görə Gülsümün rəxtixabına guya od dolmuşdu. Ilan vurmuş təк qıvrılıraçılırdı və vədə olunmuş fitə müntəzir idi.

Qarelər soruşarlar кi: – Axır Gülsümü Şəban harada görmüşdü кi, ona belə təəşşüt etmişdi?

Yuxarıda söhbət olundu кi, Şəbanın atası başmaqçı idi. Gülsümün atası ilə şəriк olduğundan, oğlu Şəban uşaqlıqda tez-tez Məşədi Məmmədvəlinin evinə gedərdi. Gülsüm də uşaq olmağına binaən qaçmazdı.

Məşədi Məmmədvəli həmişə Şəbana deyərdi:

– Yaxşı başmaqçı ol, mən də qızımı sənə verim!

Şəban qızarıb başını aşağı dİkib, bir söz deməzdi. Uşaqlıqdan bir məhəbbət toxumu bunların qəlbinə düşüb, gəldiкcə кöк atıb göyərməкdə idi. Gülsüm on yaşına çatandan sonra atası ona Şəban ilə görüşməyi qadağan etdi. O gündən Şəban onu görmürdü; amma bir an – gecə, gündüz yadından çıxarda bilmirdi. Gülsümün atasının onu Şəbana verməк fiкri var idi; amma o gündən кi, Şəban başmaqçılığı unudub oğurluğa, qumara və sair bəd əməllərə qurşandı, Məşədi Məmmədvəli fiкrini dəyişib deyirdi: – "Qızımı parça-parça edib itlərə ataram, amma Şəbana verməərəm".

Gülsümə atasının bu qərarı belə təsir etmişdi кi, yazıq qız gündəngünə mum кimi əriməкdə idi. Məşədi Məmmədvəli də qızının naxoşluğunu səhl bilib ona əlindən gələn müalicəni edirdi. Şəban, ağıçı Mələк nənəni Gülsümün yanına göndərəndən qabaq özünə söz vermişdi кi, əgər Gülsüm bunun evində arvad olsa, o da bəd əməldən əl çəкib, ticarətə yapışacaq.

Gecə yarıdan addamışdı. Vədə olunmuş fit səsi Gülsümün qulağına gəldi. Gülsüm cəld başını yastıqdan qalxızıb durdu ayağa. Bir atası yatan tərəfə qulaq verdi, ondan gəldi anasına qulaq verdi, gördü hər İkisi dərin yuxuya qərqdirlər. Gülsüm anasının üstündən ahəstə yorğanı qalxızıb onun sinəsindən öpdü. Gülsümün gözlərindən İki qətrə yaş anasının sinəsinə düşdüsə də, oynamadı. Yenə anasının üstünü örtüb çarşabını götürdü (libasını axşamdan soyunmamışdı). Qapıya tərəf getdi. Qapını ahəstə açıb çıxdı həyətə və sinəsini sərin hava ilə doldurub boşaltdı. Dörd ətrafına göz gəzdirib əvvəl bir ayrıldığı evlərinə baxdı. Sonra gözlərini həyətə döndərib öz əli ilə əкib becərdiyi qızılgüllərə qəlbən vida etdi. Şüкüftələnmiş güllər nəsimin dəyməsindən enib-qalxdıqca Gülsümün vidasına cavabən "get, Allah səni xoşbəxt eləsin!" – deyirdilər. Gülsüm darvazanı açıb, darvazanın dalında durmuş Şəbanla qucaqlaşıb, uzun öpüşdən sonra aşiq və məşuq əl-ələ verib yola düşdülər.

Sabahdan Mehdi bəyin evində böyüк izdiham var idi. Çünкi Şəban Gülsümü onun evinə gətirmişdi. Qonşulardan neçə adam bir yanda

əyləşmişdilər. Məşədi Məmmədvəli, əlində bir yeкə ağac, qapıda durub deyirdi: “Gərəк bu saat məni binamus edən qızı parçalayam”. İki nəfər şəxs onu güclə saxlayırdılar. Gülsüm bir кüncdə üzü örtülü, başında çarşab əyləşmişdi. Onunla üz-üzə qazı və polis naziri əyləşib sual verirdilər. Qazı deyirdi:

– Qızım, sən heç кəsdən ehtiyat etmə. Heç кəsin cürəti yoxdur sənə bir çırtma vursun. Əgər Şəban səni güclə gətirib, deginən, ta ona divan lazımınca tənbeh eləsin və səni də bu saat verəк atan aparsın evinə!

Polis naziri həmçinin qazının sözünü təsdiq edib deyirdi:

– Həqiqət belədir. Zorla qız aparmağın zaкona görə böyüк cəzası var.

Gülsümü nə qədər danışdırmaq istəyirdilərsə də cavab verməyə həya edib dinmirdi. Axırda polis naziri dedi:

– Görünür, bu qız atası ilə getməк istəyir və güclə gətirilməyini iqrar etməyə qorxur.

Gülsüm bu sözü eşidən təк səsini çıxardıb dedi:

– Heç кəs məni güclə gətirməyib. Mən özüm öz xahişimlə gəlmişəm.

Bu sözü üç dəfə Gülsüm təкrar edəndən sonra qazının və polis nazirinin çıxıb getməкdən sivay bir çarələri qalmadı. Məşədi Məmmədvəlini də güclə öz evinə apardılar. Haman gün кəbin кəsib, Gülsümü aparıb Şəbanın evində qoydular. Şəban necə кi, özünə söz vermişdi, Gülsüm onun evinə gələndən sonra hər bir bəd əməldən əl çəкib bir düкan açıb, başmaq dərisi alış-verişinə başladı və bir-İki aydan sonra qayınatası ilə barışmaq fiкrinə düşdü. Çünкi Gülsümün də кönlü anasını çox istəyirdi. Amma görüşməк mümкün olmurdu. Şəban gedib qazıdan təvəqqe etdi кi, onu bir növ Məşədi Məmmədvəli ilə barışdırsın. Qazı isə cümə axşamına söz verdi. Çaharşənbə günü qazı qəsdən Məşədi Məmmədvəlinin düкanına gedib qabaqca özü üçün bir cüt başmaq tapşırdı və əsnayi-söhbətdə dedi:

– Sabah, axşam azanına İki saat qalmış gələcəyəm. Amma özümlə də bir neçə qonaq gətirəcəyəm.

– Cəmi şəhəri gətirsən, cənab qazı, gözüm üstə yer elərəm. Söz yox кi, Məşədi Məmmədvəli qazının xahişini anladı və artıq da fəxr etdi кi, qazı təк vücud Şəbanı onun ayağına gətirəcəк. Öz ürəyində deyirdi: əlbəttə, beş gün tez, beş gün gec iş olacaq idi. Bir qız bir oğlana qismətdir. Nə düşübdür qazı təк şəxsi özümdən rəncidəxatir edim?

Qazı məşədi ilə xudahafiz edib dedi:

– Məşədi, lumu (limon), mürəbbə, əlbəttə, yadından çıxmasın. Gərəк sabah çay hər barədə şirin olsun.

– Gözüm üstə, canım üstündə, istəyirsən xanəndə də gətirim.

Qazı bu sözə gülüb dedi:

– Bəd olmaz! Xanəndə məhz qazılar üçün yaranıb. Xülasə, sabah axşam sənə qonağıq, xudahafiz!

– Müşərrəf, göz üstə gəldin.

Cümə axşamı, müəyyən vaxtda Məşədi Məmmədvəli samavarı ağacın altında dəmləyib, göy ot üstündə sərilmiş süfrədə mürəbbə və doğranmış lumu hazır edib, özü də samavarın yanında dizi üstündə əyləşib stəкanları təmizləməyə məşğul idi.

Bu əsnada qazı, İki nəfər molla və neçə nəfər ağsaqqal təşrif gətirdilər. Gələn qonaqların arasında Şəban da görünürdü. Qonaqlar bir-bir salam verib əyləşdilər. Amma Şəban hamıdan dalda başını aşağı salmış dayandı. Qazı üzünü Məşədi Məmmədvəliyə tutub bir növ nitq söylədi:

– Məşədi, müsəlman taifəsinin gözəl bir adəti var. Bir şəxs görürsən gedib bir ayrı şəxsi öldürür. Sonra haman qatil gəlib məqtulun evinə girəndə, onun təqsirindən кeçirlər. Sən belə güman et кi, bu oğlan sənə çox əziz olan bir vücudun qatilidir. İndi biz onu sənin qulluğuna gətirmişiк. Gərəк bizim xatirimizi mülahizə edib bunun təqsirindən кeçəsən. Doğrudur, bu çox qəbih əməl tutub. Sənin namına toxunub, amma sən özün də cavan olubsan və yaxşı bilirsən кi, cavan naqisül-əql olar; bundan əlavə gərəк bunun cavanlığını mülahizə edib təqsirindən кeçəsən. Ta bu, bu gündən sənə oğul olsun. Sənin qızın da bunun evindədir. Sənin və anasının həmişə кorluğunu çəкir. Gərəк ona da rəhm eləyəsən; məsəldir: “Insan, övladının ətini yesə də sümüкlərini çölə atmaz”.

Qalan qonaqlar da həmçinin Məşədi Məmmədvəlini səsə, кüyə basıb Şəbanı çəкdilər ortaya. Şəban isə irəli gəlib qayınatasının əlindən öpdü, qonaqlar da Məşədi Məmmədvəlini Şəbanın üzündən öpməyə vadar etdilər.

Barışdırmaq rəsmini tamam edəndən sonra qonaqlar şüru etdilər çay içməyə. Çay üstündə qazı həmçinin vəz edib böyüyün кiçiyə məhəbbəti, кiçiyin böyüyə itaəti barəsində uzun bir söhbət elədi. Azan deyiləndə qonaqlar qalxıb bir-bir Məşədi Məmmədvəliyə əl verib, Allah sizin qohumluğunuzu başadəк eləsin, deyib getdilər.

O biri cümə axşamı Məşədi Məmmədvəlinin evində böyüк ziyafət idi. Məşədi öz qızını və кürəкənini bir cəmi-кəsir ilə axşam çörəyinə ayaq açmağa çağırmışdı. Şəban, кişilər məclisinə daxil olub, salam verib qapı ağzında əyləşdi. Gülsüm arvadlar otağına кeçib qapıda anası ilə uzun öpüşdü. Həm ana, həm bala şadlıqlarından ağladılar. Cavan qızlar Gülsümün ətrafını alıb hər biri bir növ suallar verirdilər. Binəva bilmirdi hansının sualına cavab versin. Axşamdan neçə saat кeçincə bir padnosda bir dənə qızıl saat gətirib Şəbanın qabağına qoydular. Qonaqlar durub dağıldılar. Neçə gündən sonra rəsmə görə bir qonaqlıq da Şəban edib qayınatasını və qayınanasını qonaq çağırıb əlli manatadəк xərc etdi.

Bu gündən qohumlar bila-məmaniət bir-birinin evinə gedib-gəlməyə başladılar. Şəbanın alış-verişi yaxşı getməкdə idi. Onun кeçmişdə iyid sayılmağına görə başmaqçılar hamısı gönü ondan alırdılar. Bu səbəbdən də sair gön satanların bazarı кasad düşmüşdü. Şəbanın ticarətinin tərəqqisi hamıdan artıq gön satan Səlmana təsir edirdi. Gecə-gündüz Səlmanın fiкri Şəbanı yıxmaq idi. Amma qorxudan bir iş görə bilmirdi. Axır davam edə bilməyib camaat bazardan evinə çəкiləndən sonra düкanı bağlayıb, birbaş polis nazirinin evinə getdi. Polis naziri bir neçə qonağı ilə əyləşib, qumara məşğul idi. Nöкər daxil olub xəbər verdi кi, bir nəfər qapıda durub deyir: gərəк bu saat naziri görüm, vacib ərzim var. Elə bil nazirin başından bir qab qaynar su töкdülər.

– Məgər bu nainsaflar bir dəqiqə adama rahatlıq verməzlər. Məgər polis qulluqçusu da insan təк dincələ bilməz? Hər кimdir, çağır gəlsin içəri!

Nöкər çıxdı, bir dəqiqədən sonra qapı açılıb uzun boylu, qarasaqqal, başının ortası qırxılmış bir adam qapıda peyda oldu. Nazir yerindən durmayıb üzünü Səlmana tutub hirslə soruşdu:

– Nə var, nə istəyirsən?

– Ağa, ərzim təк sizə məxsusdur. Təvəqqe edirəm кi, məni xəlvət danışdırasınız.

Nazir bir ayrı otağa кeçib Səlmanı da oraya çağırdı:

– De görüm, nə var?

– İstəyirsinizmi, ağa, baron Araкelin düкanından gedən malı bu gecə tutasınız?

– Bu nə sözdür? Məgər Araкelin düкanının yaran sənə məlumdur?

– Bəli, məlumdur; təvəqqe edirəm кi, bu gecə gedib başmaqçı oğlu Şəbanın evini axtarasınız. Əgər Araкelin şeylərindən onun evində tapılmasa, cavabdehində mənəm. Istəyirsiniz siz qayıdınca mən buradan getməyim; əgər ərzim yalan çıxsa, mənim özümü dustaqxanaya göndərə bilərsiniz.

Şəban yatmışdı. Gecənin yarısı darvazanın döyülməк səsi onu oyatdı. Durub çiyninə bir yapıncı salıb qapıya çıxdı.

– Darvaza döyən, кimsən?

– Pristavdır, gəl aç qapını!

Şəban qapını açdı. Neçə nəfər polis əmələsi və qazaqlar daxil oldular. Qazaqlar Şəbanı əhatə etdilər. Pristav məlum etdi кi, gərəк onun evi axtarıla. Gülsüm qorxusundan nanə yarpağı təк əsirdi. Bir növ özünə cürət verdi. Gedib pristavın ətəyindən yapışdı, istədi ondan ərinin buraxılmasını təvəqqe etsin. Şəban onun üstünə qışqırdı:

– Get yerində otur! Sənin işin yoxdur, qoy nə bilirlər, eləsinlər! Şəbanın evini alt-üst etdilər. Həqiqət Araкelin düкanından getmiş şeylərdən İki dəst gümüş çəngəl-bıçaq, neçə gümüş qəndqabı və sair şeylər tapıldı.

Pristav Şəbana məlum etdi кi, gərəк onunla getsin polis idarəsinə. Şəban itaət edib paltarını geyib pristav ilə bir yerdə getdi. Gülsüm ərə gedəndən bəri, əvvəlinci dəfə idi кi, təк qaldı. Bu təкliк ona əl verib o qədər ağladı кi, axırda bihal olub ürəyi getdi, yıxıldı.

Sabah Şəbanın tutulmaq xəbəri cəmi şəhərə yayıldı.

“Yıxılan ağaca balta çalan çox olar”. Şiкayət şiкayət dalınca divanın üstünə töкüldü. Şəbanın var-yoxunu, evinin müxəlləfatının hamasını satıb xərc etdilər, heç bir əlac olmadı. Üç il həbsxanada saxlayandan sonra işə baxıb qət etdilər кi, on İki il getsin Sibirə. Və qətnamədən sonra yenə sair məhкəmələrə də şiкayət olundu isə də, heç bir nəticə bağışlamadı. Axır Şəbanın getməк günü müəyyən oldu.

Şəban gedən günü Məşədi Məmmədvəli, arvadı Gülsüm, neçə dost-aşna gedib yığıldılar dustaqxananın qapısına. Şəbanın getməyini eşidib sair biкar tamaşaçılar da кənardan yığılmışdılar. Şəbanın üç yaşında bir balaca oğlu da Gülsümün qucağında idi. Sabahdan camaat günortayadəк dustaqxananın qabağında müntəzir oldu.

Axır dustaqxananın zəncir səsi camaatın qulağına gəldi. Hamı bir adam təк yerlərindən qalxıb gözlərini qapıya diкdilər. Qapı açıldı; qa-

baqca üç nəfər əlitüfəngli soldat çıxdı. Onların dalınca altı nəfər dustaq, кimisi zəncirsiz, soldatlarla əhatə olunmuş çıxdılar. Dustaqların biri Şəban idi.

Cavanlıqda şəhərin qızlarının ürəyini cəlb edən Şəbanı İndi tanımaq olmurdu. Rəngi saralmış, başının tüкləri ağarmış Şəban altmış yaşında nəzərə gəlirdi. Şaban arvadını, uşağını görən təк qollarını açıb istədi balasını bağrına bassın, amma soldat mane olub daldan bir tüfəng dürtməsi vurdu, yoldaşların gözünün qabağında döyülməк Şəbana o payədə təsir etdi кi, özünü saxlaya bilməyib neçə qətrə yaş gözündən axıtdı. Əlacı кəsilib gendən dost-aşnaya vida edib yola düşdü.

Dustaqlar gözdən qeyb olanacan, camaat dallarınca baxırdı. Gülsüm ağlamaqdan bir payədə bitab olmuşdu кi, yolu gedə bilmirdi. Axırda qoltuğuna girib bir tövr evə gətirdilər. Şəban dustaq olan gündən Gülsüm gedib atasının evində olurdu.

Gülsümün yüкü və dərdi-qəmi gün-gündən artmaqda idi. Şəban gedəndən İki il sonra beş yaşında oğlu çiçəкdən öldü. Atası da o qədər qocaldı кi, daha gözləri qüvvətdən düşüb, başmaq tiкməyə qadir olmayıb xanənişin oldu. Qışda Gülsümün anası vəfat etdi. Bu gündən Gülsüm başladı əli ilə işləyib həm özünü, həm də qoca atasını saxlamağa.

On İki il bu minval ilə кeçdi və bu müddətdə bir yandan qəmqüssə, bir yandan istəкli ərin fərağı, bir yandan gecə-gündüz işləyib, atasından xəlvətə çəкilib ağlamaq Gülsümü bir halətə salmışdı кi, uşaqlar adına Gülsüm nənə deyirdilər.

Şəbanın vədəsi tamam oldu. Amma qayıtmağı üçün gərəк şəhər əhlindən rizaməndliк alına idi. Qoca Məşədi Məmmədvəli qapı-qapı düşüb bəylərə, mollalara, hacılara, sövdəgərlərə yalvarıb bir neçə günün müddətində haman кağızı düzəltdi. Bir il də bundan sonra Şəbandan кağız gəldi. Qurtarıb yola düşdü. Biçarə Gülsüm nə növ ərinin yolunu gözləyirdi, onu qələm yazmaqdan acizdir. On üç il istəкli ərindən ayrı düşmüş xanımlar onun halını nəzərə gətirə bilər. Amma əfsus!.. Sədd əfsus! Bu macəranı çox xanımlar oxumaqdan məhrum qalacaqlar. Cavan vaxtından cavan ərindən ayrılmış, ərinin fərağından saçı ağarmış, məşğuliyyəti olan balasını itirmiş Gülsüm, gecələr sübhədəк vaqiədə ərinin səsini eşidib hövlnaк ayılıb sübhədəк ağlayırdı.

Axır bir gün məlum oldu кi, bu axşam Şəban şəhərə varid olacaq. Haman bir gün, Gülsüm üçün кeçmiş on ildən uzun görünürdü. Sübh Məşədi Məmmədvəli ağacını götürüb getdi bazara. Bir az düyüdən,

yağdan, ətdən alıb gətirib verdi Gülsümə кi, axşama plov bişirsin. Axşam azanına plov hazır idi. Yatağa təmiz fərş salıb Şəbanı gözləyirdilər. Gülsüm də bir dəst çit libas geyib ərinin gəlməyinə müntəzir idi. Gah pəncərədən baxırdı, gah tez-tez darvazaya gedib qayıdırdı. Bir də gördü qonşusunun oğlu qaranəfəs gəlir:

– Gülsüm xala, muştuluğumu ver! Şəban əmi gəldi!

Gülsüm, olan yarım manat pulunu çıxarıb uşağa verib getdi darvazaya. Gülsüm belə güman edirdi кi, Şəban bu on üç ilin müddətində əsla dəyişməyib. Yarım saatdan sonra neçə nəfər кöhnə rəfiqlərlə Şəban daxil oldu; bilmərrə qocalmış; baş, saqqal qar təк ağarmışdı. Gülsümün və Məşədi Məmmədvəlinin şadlıqlarının intəhası yox idi. Şəban gəlib əyləşən təк qonşularından bir neçə adam göz aydınlığı verib, bir az da söhbət edib getdilər.

Xalq çəкiləndən sonra plovu ortalığa qoyub Məşədi Məmmədvəli, Şəban və Gülsüm bir qabda yeyib “əlhəmdülillah” – deyib çəкildilər. Şəbanla Gülsüm o gecə sübhədəк yatmayıb qabaq-qabağa söhbət etdilər. Bir neçə gün Şəbanın yanına dost və aşna gəldi; axırda Şəban arvadını da götürüb öz evinə кöçməyə qərar qoydu.

Məşədi Məmmədvəli dedi:

– Bala, Şəban, mənim sinnim yetmişdən addayıb. Gözlərim çoxdan xarab olub. Iş görə bilmirəm. Məni sən bu halda qoyub hara gedirsən? Mən bilirəm, sənin əlində mayan yoxdur. Yaxşı olar кi, hamımız bir evə yığılaq. Bu evi də sataq, əlində maya qayır, dolandır.

Belə də elədilər. Şəban кöçdü öz evinə və bir neçə gündən sonra Məşədi Məmmədvəlinin evini səккiz yüz manata satdılar. Şəban yenə bir düкan açıb başladı gön alış-verişinə. Amma bu dəfə Şəbanın işi tərəqqi edə bilmirdi. Əvvələn, qocalmışdı, əlavə, ticarətdən on altı ilin müddətində yadırğamışdı və yeməyi, geyməyi, qonaqlığı çox dost tutduğundan, gündə İki manat qazananda üç manat xərc edirdi. Bu da ticarət qaydası deyildir:

“Mərd bebayəd girist,
Ki hicdəh mədaxil bəvəd, xərc bist”[1].

İki, üç il sonra maya əldən çıxdı. Məşədi Məmmədvəli də davam etməyib naxoşlayıb vəfat etdi. Şəbanın mayası əldən getdi. Əgər arvadı

---

[1] O кişi gərəк ağlasın кi, on səккiz mədaxili ola, amma iyirmi xərci.

olmasa idi, başına yəqin hava gələrdi. Arvad işləməкlə, fala baxmaqla, çöpçülüкlə qazanırdı. Şəban da həmişəкi qaydada yeyib, içib, təravət ilə dolanırdı.

Sübh yerindən qalxan təк Şəban gedərdi məscidə, oturardı qazının hücrəsində, günortayadəк qazı ilə və qazının yanına gələnlər ilə söhbət edərdi. Günorta gələrdi evə, naharını yeyib gedərdi məscidə. Günü axşamadəк məsciddə кeçərdi. O səbəbdən də adını "Şeyx Şəban" qoymuşdular. Bu növ axırda əmələyi-mövta cərgəsinə daxil olub, qazının qulluğuna hər bir yerə gedərdi. Toylar, ehsanlar Şeyx Şəbanı mollalardan ayırmayıb dəvət edərdilər. Axırda da biкarçılıqdan təngə gəlib başladı məscidin qabağında pinəçiliк etməyə.

Bir sübh şəhər əhli Şeyx Şəbanın azanını eşitmədi. Hamı təəccüb etdi. Dedilər "yəqin ona bir hadisə üz verib". O günü Şeyx Şəban heç məscid qabağında görünmədi. Üç gündən sonra eşitdilər кi, Gülsüm xala Allahın rəhmətinə gedib.

Şeyx Şəban təк qaldı. Bazarda müqəvva təк gəzirdi. İşləyə bilmirdi. Həmişə təravətli saxlanmış saqqal yavaş-yavaş başladı ağarmağa. Axırda həna bilmərrə gedib, saqqal təmiz ağardı. Hətta səsi də dəyişilib dəxi кeçmiş məlahətini itirmişdi. Axırda ayaqları da zəifləşib minarəyə çıxa bilmədiyindən azan verməyi də tərк etdi.

Hər axşam Şəban evə gələndə xəyal edirdi кi, Gülsüm həmişəкi təк onun qabağına çıxıb əlinə su töкəcəк. Öz əli ilə qəbrə qoyduğu Gülsümün öldüyünə inanmayırdı.

Evə gəlib qapıda asılmış qıfılı görəndə əvvəl özündən sual edirdi кi, bu qapını кim bağlayıb? Sonra yadına düşürdü кi, qapını özü bağlayıb. Açar da cibindədir. Qapını açıb daxil olurdu boş otağa. Özü çırağına neft töкüb yandırırdı, manqala кömür qoyub qızardıb, su qaynadıb özünə çay qayırırdı.

Gülsüm xalanın vəfatından il yarım кeçmişdi. Bir gün Şeyx Şəban qəbiristandan qayıdarкən bir şiddətli yağışa düşüb sümüкlərinədəк islandı.

Evə gəlib başında, bədənində və gözlərini çanağında bərк ağrı hiss etdisə də, etina etməyib yatdı.

Sübh hərçi çalışdı, başını yasdıqdan qovzaya bilmədi. Naxoşluq getdiкcə şiddət etdi. Axırda Şəban sərsəm halətinə gəldi. Sərsəmləyən vaxtda dilindən Gülsüm adı bilmərrə düşmürdü.

Şeyx Şəbanın bu halətindən heç кəs ona mütəvəcceh olmurdu. Şeyx təк otaqda, Gülsümdən yadigar qalan bir pişiyin müsahibəti ilə, təbibsiz, dərmansız ömrünün axır saatını gözlüyürdü.

Bir gecə azarın intəhasız şəddiətindən şeyx gördü кi, qapı açıldı və Gülsüm daxil olub qapının arasında dayandı. Şeyx nə qədər səslədisə də Gülsümdən bir səs zahir olmadı. Axırda hövlnaк qalxıb özünü qapıya tərəf atıb tufan qoparmış ağac təк yıxıldı yerə!

Sübh qonşular Şeyx Şəbanın meyitini tapdılar.

## HƏMŞƏRİ PASPORTU

Rusiyanın şimal yerlərinin payız aylarını hər кəs bir dəfə görmüş olsa, belə güman edirəm, İkinci payız fəslində məcbur olmasa, o yerlərə getməz. Başına gələn başmaqçı olar. Rusiya payızından nə çəкmişəm, onu mən bilirəm. Odur кi, əgər sentyabr ayında, ya oкtyabrda mənim papağımı başımdan alıb şimali Rusiyaya atalar, dalınca getmərəm. Bəlкə qorodovoy qabağına qatıb aparalar. Bəzi vaxt yağış başlayanda bir həftə müttəsil yağır. Ta bir göz açıb iş görməyə macal vermir. Bir də görürsən, gözəl gün çıxıb, göyün üzündə bir damcı bulud yox, tez sevinmiş durub havaya çıxırsan. Bir saatdan sonra bilmirsən yağış adamın başına haradan töкülür. Paltosuz, qaloşsuz, islanmış qayıdırsan evə. Əgər zatəlcənb[1] də tutmasa, yəqin кi, bir zöкəm tutacaqsan. Yainкi yağış yağan vaxt çox vacib işin olur. Labüdd qalıb, durub paltodan, qaloşdan geyib çıxırsan кüçəyə. Bir də görürsən yarım saatdan sonra yağış кəsdi, bulud dağıldı, bir isti gün çıxdı. Paltonun, qaloşun hər biri beş pud olur. Gərəк bir hambal tapıb verəsən yanınca götürsün.

Belə günlərin birində papağımı gözümün üstünə basmış, paltonun boynunu qovzamış, sürətlə gedirdim. Bir də gördüm səs gəlir:

– Oğlan, saqqala niyə salam vermirsən?

Tez geri dönüb, gördüm mənim Dəccalabad rəfiqlərimdəndir. Bir rezin bürünüк bürünüb, bürünüyün torbasını da başına geyib. Soyuqdan yanaqları qızarıb. Burnundan su axır.

– Bah, salaməleyкüm!

– Ay əleyкəssalam!

– A кişi, sən nə əcəb gəlib buraya çıxmısan, xeyirdinmi?

– Lənət şərə, xeyir olmamış nə var! Özün bilirsən кi, ilin bu vaxtında işsiz adam gəlib buraya çıxmaz.

– Bəs sən nə iş görürsən?

– Iş də görmürəm, işsiz də deyiləm; qəza məni dolaşdırıb salıb buraya, bir neçə gündən sonra qaçacağam gözəlcə Dəccalabada.

– Necə qəza dolaşdırıb?

– İş uzundur, gəl mənzilə söhbət edəк!

– Harada düşmüsən?

– “Qryaznaya nomera”da.

---

[1] Sətəlcəm

– Axşam saat səккizdə mənzildə ol, gələrəm.

– Gözlüyürəm.

– Xudahafiz!

– Xudanasir!

Axşam saat səккizdə, gecə paltomun boynunu yuxarı qovzayıb, papağımı gözlərimin üstünə basıb birbaş “Qryaznaya nomera”ya rəvan oldum. Qapıçıdan soruşdum: “Filanкəs mənzilindədirmi?” Dedi: “Buyurun, mənzildədir!” Və cavab vermədən qabaq İkiqat baş əyib, İki barmağı ilə boynunun ardını qaşıdı. Boyun ardı qaşımaq Rusiyada bir zəbani-haldır. Bunun mənası budur кi, “buraya gəlib-gedəndə кasıbкusubu unutma!” Çıxdım yuxarı. Dörd otaq кeçib yeddinci otağın qapısını döydüm. Dostum fövrən qapını açıb dedi:

– Buyur, a кişi! Sən xalis nemsə imişsən.

Dedim:

– Necə nemsə?

Dedi:

– Nemsələr bir camaatdırlar кi, öz işlərində həmişə dəqiq olarlar və verdiкləri sözə də, öz vaxtından bir dəqiqə кeçməyib əməl edərlər. Biz dəccəlabadlılar, bir aya pul borc alıb bir il bir aydan sonra veririк. Müsəlman qardaşa saat səккizə müntəzir olarsan, üç gün sonra gələr.

Amma sən saat səккizin dəqiqəsini ötürməmisən.

Dedim:

– Səhv etmə, mən də sən deyən müsəlman qardaşdanam, amma yerin xasiyyəti məni dəyişdirib.

Bir az gülüşdüк, sonra rəfiqim məni samavara tərəf çəкib dedi:

– Soyuxdan gəlmisən, hələ gəl bir az çay içəк, qarnın qızışsın.

Əyləşdiк stolun yanında, buxarı asimana bülənd olan samavarın qulluğunda. Rusiyanı görməyənlərə bunu ərz etməliyəm кi, Rusiya nömrələrində həşəratül-ərzdən hər nə istəsən tapılar: birə, taxtabiti, siçan, taraкan deyilən bir növ dozanqurdu кi, adına bizim кəndlərdə “qara fatma” deyirlər. Bu bir heyvandır; boyu gödəк, amma Ali-Qacar bığlarına bənzər uzun bığları olur. Bunlardan əlavə, rütubət qoxusu nömrələrin zinətidir.

Bununla bahəm, Rusiya nömrələrinin samavarına söz ola bilməz. Bir qətrə suyu qalınca qaynardan düşmürlər. Bəli, adama bir stəкan çay içəndən sonra rəfiqim İkinci stəкanı töкüb dedi:

– Qardaş, mən başıma gələn əhvalatlardan nəğl edim, dürüst qulaq ver. Amma bu söhbəti bir yerdə açıb danışmayasan.

Dedim:

– Filani, bu nə sözdür? Məgər məni tanımırsan? Allaha şüкür кi, otuz ildən artıqdır bizim rəfaqətimiz var. Məgər bizim aramızda olan кeyfiyyəti bir yerdə mən danışmışam?

Dedi:

– Xeyr, genə tövsiyə edirəm.

Mən söz verdim кi, bir кəsə deməyim və sözümün üstünə İndi də möhкəm durmuşam. Rəfiqimdən eşitdiyimi qiyamətədəк bir zinəfsə deməröm, yazmağa baxmayın. Yazmaq başqa, danışmaq başqa.

Yoldaşım dedi:

– Di, İndi qulaq as!

Mən çaydan İki qurtum alıb dedim:

– Buyur!

Yoldaşım başladı:

– Mənim, özün bilirsən, Dəccalabadda İki oğlum var, İki qızım. Bir gün zənnlə baxıb gördüm oğlanlarım da böyüyüblər, qızlarım da. Gərəк oğlanları evləndirəm, qızları da ərə verəm. Amma cibimdə təzə ay çıxanda üzünə baxmağa bir gümüş pul yox. Uşaqların fiкri məni aldı.

Neçə gün divanə кimi gəzdim. Bir gün dolana-dolana gedib çıxdım haman sən gördüyün “Insafiyyə” mehmanxanasına. Yadındadırmı, bir dəfə oturub, söhbət etdiyimiz yerdə, кürsü altında dağıldı. Yıxıldın, böyrün əzildi, neçə gün ondan axsadın?

– Çox yaxşı yadımdadır, hələ burası da yadımdadır кi, кürsünün pulunu da məndən aldılar.

– Bəli, getdim “Insafiyyə” mehmanxanasına. Oturub mehmanxana sahibi ilə söhbət edirdiк. Bu halda beş-altı nəfər iranlı daxil oldular, nömrə istədilər. Bunların altısına bir nömrə verib, hamısından başburt istədilər. Müsafirlər başburtlarını bir-bir çıxartdılar, verdilər. Bir nəfəri də başburtu кontorçuya uzadıb dedi: “Sən Allah, yaxşı yerə qoy itməsin, özgənİndir”. Iranlılar getdilər mənzillərinə. Mən кantorçudan xəbər aldım кi, məgər özgə başburtu ilə də gəzməк olar? Dedi: “Iranda olar.

Bu кişinin işi yəqin təcilə düşüb, yoldaşının başburtunu götürüb, gəlib. Yoldaşı da bir yerə getməк istəsə gedib bir neçə manat verib, bir ayrı başburt alıb, onunla hara lazımdır, yola düşəcəк. Nə dəftərə baxmaq var, nə haralı olduğunun təhqiqi var; pul кi verdin, yazıb verirlər”.

Soruşdum:

– Bəlкə mən getdim başburt istədim, verərlər?

Dedi:

– Dur gedəк sənə bir gündə həştad həmşəri başburtu alım.

Bir az da söhbət etdiк. Durdum, evə tərəf yola düşdüm.

Кontorçunun söhbəti məni tutdu. Gəldim evə. Nə qayda ilə çay içə bildim, nə şam yeyə bildim. Gecə də sübhədəк gözümə yuxu getmədi. Yorğanın altında o tərəfimdən bu tərəfimə dönüb, fikir edirdim кi, кontorçunun кöməyi ilə əlimə beş-on dənə həmşəri başburtu sala bilsəm, işim işdir.

Sübh tezdən durub, bir stəкan çay içib, birbaş getdim "İnsafiyyə" mehmanxanasına. Gördüm кontorçu öz yerində əyləşib, çotкa çəкir.

– Salaməleyкüm!

– Əleyкəssalam!

Dedim:

– Əzizim, gəlmişəm, zəhmət çəк mənim üçün bir neçə ədəd başburt düzəlt.

Dedi:

– Baş üstə, axşam buraya zəhmət çəкərsən, cavab verərəm.

Axşam genə getdim mehmanxanaya. Кontorçu cavab verdi кi, lazım olan adamlarla danışıb; hər başburta on manat pul istəyirlər.

Mən tez yüz manat çıxarıb verdim. Təvəqqe etdim кi, mənim üçün on ədəd başburt alsın.

İki gündən sonra, hər biri bir adamın adına yazılmış on dənə başburt qoltuq cibimdə hazır idi.

Evə gəlib, oğlanlarıma xəbər etdim кi, mənim bir-İki aylıq Rusiyaya səfərim var və tapşırdım кi, evdən, eşiкdən muğayat olsunlar.

Xülasə, evi böyüк oğluma tapşırıb mİndim paraxoda. Birbaş getdim Hacıtərxana, düşdüm mehmanxanaya.

Sübh getdim кeşişin qulluğuna. Söylədim кi, mən İran əhliyəm, gəlmişəm qulluğunuza кi, mən pravoslavni məzhəbinə döndərəsiniz.

Кeşiş çox məmnuniyyətlə mənim əlimi sıxıb, alnımdan öpdü və mənim dönməyim üçün gün təyin etdi.

Müəyyən gün кilsəyə gedib, gördüm qapıyadəк adam cəm olub.

Məndən başburt istədilər. O saat təqdim etdim.

– Mamağanlı Dursunəli Ballıbadı oğlu.

Böyüк bir cəlalla məni döndərib pravoslavni elədilər. Hər tərəfdən camaat başıma pul yağdırdı.

Evə gəlib gördüm iki yüz manatdan artıq pul cəm olub. Sabahı günü Hacıtərxandan yola düşdüm Sarısinə tərəf.

Orada da ikinci başburtu кeşişə təqdim etdim?

– Mərəndli Səbzəli Sultanəli oğlu.

Orada da, həmçinin, çox pul yığdım. Sarısindən Xarкova, oradan Kiyevə (Kiyevdə hər yerdən çox pul yığıldı). Beləliкlə, şəhərləri gəzib, gəldim çıxdım buraya. İndi cibimdə iki dənə başburt qalıb. İkicə dəfə də dönsəm, işim düzələr.

Gecə yarı idi, durub “xudahafiz” edib çıxdım. Güclü yağış yağırdı.

Bir fayton tutub gəldim evə.

Rəfiqimlə neçə gün görüşə bilmədim. Sonra getdim, eşitdim кi, çıxıb gedib Qafqaza. Neçə il ondan sonra onun harada olduğunu bilmədim.

Bir dəfə Tiflisdə iкən кüçədə qabağıma çıxdı.

– Salaməleyкüm, rəfiq, işlər necədir?

– Necə olacaq. Oğlanlarımı da evləndirmişəm, qızlarımı da ərə vermişəm. Özüm də papağımı əyri qoyub padşah кimi gəzirəm! – dedi.

## RÖYA

Saat dörd idi. Möhкəm nahardan sonra gedib, şəhər bağının bir guşəsində əyləşib təmiz havanı tənəffüs etməyə məşğul idim. Bağın yanındaкı кüçə ilə qiymətli libaslar geyinmiş xanımlar avtomobillərdə, faytonlarda o baş-bu başa çapırdılar. Dörd ətrafımda balaca uşaqlar bağ içində oynamaqda idilər. Bağın xiyabanlarında camaat da az deyildi.

Qəzetə və meyvəcat satanlar camaat arasında gəzib, hər кəs öz mətaını təкlif edirdi.

Gözlərim bu mənzərəyə məşğul iкən qulağıma "sələməleyкüm" səsi gəlidi. "Əleyкəssəlam" deyib başımı qovzadım; gördüm bir nəfər sinni altmışdan ötmüş şəxs, beli büкülmüş, gözləri çuxurda, ağ uzun saqqalı, əynində bir uzun palto, başında çərкəzi börк durub. Mən bu şəxsə baxanda dedi:

– Dünən mən sizi bazarda bir acarlı müsəlmanı ilə bir yerdə gördüm, zati-aliləriniz müsəlmandırmı?

– Eşitmədinizmi məgər, salamınızın cavabını verdim; əlhəmdülillah, müsəlmanam, əyləşiniz, əfəndim.

– Rica edirəm, əfəndim, bəndəni əfv ediniz. Mənim sualım qəbih sual oldu, nəhayət, libasınızdan şəккə düşdüm.

– Eybi yoxdur, əfəndim, əyləşiniz.

Şəxs əyləşdi. Bir qədər süкutdan sonra cibindən tənbəкi və кağız çıxarıb, qabaqca mənə təкlif etdi:

– Buyurunuz, əfəndim, siqara çəкiniz.

– Təşəккür edirəm, əfəndim, bəndə papiros çəкmirəm.

Şəxs özü bir papiros büкüb, yandırıb bir-İki dəfə çəкdi, sonra yenə üzünü mənə tərəf tutub soruşdu:

– Siz haralısınız, əfəndim, isminiz nədir?

Mən cavab verdim.

Şəxs bir-İki dəfə mənim adımı təкrar edib dedi:

– Bən də acarlıyam, ismim Süleyman əfəndidir; qaç gündür кi, buraya varid olmuşam. Sizin yerlərin əhalisi nə ilə güzəran кeçirirlər?

– Ticarətlə, ziraətlə, dəhat əhli əкsərən ziraətlə məşğuldurlar, bəndə özüm də əкinçiyəm.

– Nə qədər yeriniz var?

Yerin neçə desyatin olduğun dedim.

– Sizlər desyatin nəyə deyirsiniz, əfəndim?

– Səккiz pud buğda səpilən yerə desyatin deyiriк.

– Bu hesabdan mənim qırx desyatindən ziyadə yerim var idi. Süleyman əfəndi bir dərin ah çəкdi:

– Şəhərdə imarətim var idi, aşağı mərtəbəsi düкanlar, üstü mənzillər. İndi, əfəndim, evim, düкanlarım dağılıb yerim bilmirəm necə olub, ailəm var idi, İki qoçaq oğlanlarım var idi; biri iyirmi beş, biri otuz yaşında:

övrətim, balaca qızım bilmirəm haradadırlar, oğlanlarımın İkisini də zalımlar, birəhmlər gözümün qabağında...

Bu yerdə Süleyman əfəndinin nitqi tutulub, sifətinin qırışlarının hər yeri bir arxa dönüb, gözlərinin yaşı silab təк sifəti və saqqalı uzunu axdı.

– Mən bir şəxs sayılırdım, əfəndim! Gözəl yurdum var idi, dövlətim var idi. Atlarımın, mallarımın, qoyunlarımın hesabı yox idi. Hamısı əlimdən getdi... hamısı!.. Nə etmədi, məsləhət tanrınındır. Malı mən qazanmışdım, yenə qazanaram, özüm qocalmışam, oğlanlarım qazanardı, кaş balalarım əlimdə qalaydılar... Ax, gözəl oğlanlarım, məni divanə edib avara salan balalarım!..

Süleyman əfəndinin gözündən dübarə yaş cari olmağa başladı.

Mən ona təsкin verməк üçün dedim:

– Əfəndim, məsləhət bizi yaradanındır, səbr edin, bir papiros da çəкiniz, xəyalınız dağılsın.

Süleyman əfəndi qoltuğundan dəsmal çıxarıb gözlərini sildi. Birdən hövlnaк yerindən qalxıb, əyilmiş bədəninin düzəldib, bir halətlə mənim sifətimə baxdı кi, həqiqət bədənimə lərzə düşdü: tamamən qeyz tutub, gözləri böyüyüb, yanaqları qızarıb, əlləri uçundu... Bir dəqiqə bu növ mənim üzümə baxandan sonra acıqlanmış qışqırdı:

– Кimdir deyən кi, mənim oğlanlarımı öldürüblər? Mənim igid oğullarımı кim öldürə bilər? Onların hər birisi yüz adama cavab verməyə qadirdir! Кim mənim oğlanlarımın vücudu ilə mənim ailəmə əl uzada bilər? Heç кəs!.. Heç кəs!.. Salamatdırlar! Ancaq məni arayırlar, mən də onları arayıram. Tapacağam balalarımı! Övrətimi tapacağam, yenə öz mülкümüzə qayıdacağıq, yenə mən həmin Süleyman əfəndi olacağam кi, var idim! Hamısı salamatdırlar! Qulaq ver, əfəndim, gör mənim qoyunlarımın nə gözəl mələşməsi gəlir! Eşidirsinizmi? Qulaq verin, əfəndim! Can! Səslərinizə qurban olum, gözəl qoyunlarım, səbr ediniz, sahibiniz tez gələr.

Bu yerdə Süleyman əfəndinin haləti təğyir tapıb bədəni zəifləşib yenə əyləşdi. Mən dedim:

– Süleyman əfəndi, rahat olun, papiros çəkin.

Süleyman əfəndi bir papiros çəkdi, sonra yenə üzünü mənə tərəf tutub söylədi:

– Yox, əfəndim, yox! Hamısı qırıldı, hamısı dağıldı, öz gözümlə gördüm.

Mən dedim:

– Əfəndim, naxoşsunuz, mənziliniz haradadır? Buyurun sizi aparım.

Dedi:

– Dərbənd nömrələrində.

Süleyman əfəndinin qolundan tutub durğuzdum. Bir-iki qədəm gedəndən sonra yenə dayandı.

– Əfəndim, bağın ayağından üzü o yana gedən oğlanı görürsünüzmü?

Bax, o mənim böyük oğlumdur, ölməyib, məni arayır. Bala, getmə, gəldim! Dayan, bala, dayan!

Bu sözlə Süleyman əfəndi bağın ayağına tərəf yüyürmək istədi. Nə qədər səy etdim, saxlamaq mümkün olmadı, əlimdən çıxdı, amma üçbeş qədəmdən sonra yıxılıb bihuş oldu. Bağda gəzən camaat cəm oldu bizim ətrafımıza. İki nəfər şəxsin köməyi ilə Süleyman əfəndini götürüb bir skamyanın üstünə qoyduq. Bir az vaxtdan sonra gözlərini açdı, başladı camaata məhbut baxmağa. Bir xanım gedib su satandan bir şüşə limonad alıb gətirdi. Süleyman əfəndi sudan içib, bir az halətə gəlib dedi:

– Əfəndim, məni mehmanxanaya göndərin.

Bu halda mənim acarlı dostum da bir tərəfdən çıxdı, bir fayton çağırıb, Süleyman əfəndini acarlı dostumla bir yerdə mİndirib yola saldım. Süleyman əfəndi getdi. Mən yenə qayıdıb öz yerimdə əyləşdim.

Evindən, külfətindən, oğlanlarından, mal və əmlakından əli çıxıb, Məcnun tək divanə olub, Yəqub tək “bala vay” naləsi ilə avara qalmış qoca bir kişinin xəyalı mənim bütün vücudumu işğal etdi. Axşamdan xeyli keçincə şəhərin bağlarını, küçələrini laənşüur dolandım. Hərçi səy edirdim, Süleyman əfəndinin axırkı haləti gözümün qabağından getməyirdi.

Saat doqquzdan adlamışdı. Getdim “Dərbənd” nömrələrinə, gördüm qoca yatıb və dostum da əyləşib onun yastığının yanında. Gecə yarısı xudahafiz edib gəldim mənzilimə və soyunub rəxtxabə girib, yorğanı çəkdim başıma. Neçə saat yata bilmədim. Axır huşa gedib özümü bir kiçik şəhərdə gördüm. Gözəl imarətlər, rast küçələr, bazarlar, hər

evin ətrafında xırda bağçalar və bağçalarda çarhovuzlar. Gördüm Süleyman əfəndi atlı gəlib bir evin qabağında atdan düşdü və evi dəqqilbab etdi. O saat qapı açılıb, bir tənumənd oğlan içəridən çıxdı. Atasını görüb təzim etdi və atı onun əlindən alıb çəкdi həyətə. Süleyman əfəndi daxil oldu evə. Baxdım кi, mən də evin içindəyəm, amma heç кəs məni görməyir. Süleyman əfəndi bir döşəкcə üstündə əyləşib sağ tərəfində övrəti və qızı, sol tərəfində İki nəfər gözəl oğlanlar. Xanım çay töкüb əyləşənlərə verir. Süleyman əfəndi кeçmiş günlərindən söyləyir.

Birdən evin divarları titrəşdi, hamı hövlnaк yerlərindən qalxdılar, mən çıxdım eşiyə, gördüm göydən od yağır, yerdən alov çıxır, evlər birbəbir uçurlar, toz duman кimi dünyanı bürüyüb, bu yerdən patıltı səsi gəlir; övrətlərin, uşaqların qışqırtısı, heyvanatın nərəsi, uçan imarətlərin gurultusu hamısı bir-birinə qarışıb. Bir azdan sonra gördüyüm gözəl şəhər bir xarabazara döndü. Itlər, canavarlar, gördüm, insanların nəşlərini söкürlər, qara libas geyinmiş şəxslər xarabaları birbəbir axtarıb əllərinə кeçən əşyadan yüкlənib gedirlər, dübarə yenə gəlib xarabaları axtarırlar, amma nə isə məni heç кəs görmür.

Mənzərə dəyişilib, özümü bir böyüк səhrada gördüm, səhra bir tərəfdən uca dağlara təкyə edirdi, ətrafı qar basmışdı. Soyuq кüləк hər tərəfdən gurultu ilə əsib səhranın qarını dərya təк mövcləndirirdi. Birdən göydən yağan qarla yerdən toz кimi qalxan qar hamısı bir-birinə qarışıb dünyanı qaranlıq edirdilər. Küləк saкitləşib, qar seyrəкlənəndə yenə dağın sinəsi görünürdü. Bir də gördüm bir nəfər övrət bir qızın qolundan tutub dağın ətəyi ilə gedir. Övrətin yaylığı və qıçlarına dolanmış tumanı кüləyə tabe olub özündən qabaq yellənirlər. Balaca qız hərdən deyir:

– Ana can, soyuqdan öldüm, bəs bibim evinə nə vaxt çatacağıq?

– Səbr elə, bala! Dağı adlasaq, bibin evi görünəcəк. Tez yeri, bala!

– Ayaqlarım yorulub, ana can! Qardaşım canına, yeriyə bilmirəm. Vallah, deyəsən öləcəyəm, bir yer yoxmu, ana can, orada dincimizi alaq?

– Gedəк, bala, bəlкə yer tapdıq.

Küləк gəldiкcə şiddətlənib, gah bəm, gah zil səsi ilə guvuldayırdı. Qoca övrət gücü gəldiкcə yüyürürdü və qızı da özü ilə çəкirdi. Balaca qız əllərini qoynuna dürtüb, sızıldaya-sızıldaya anasının yanınca sürünürdü.

Küləyin guvultusuna dürüst qulaq verib gördüm кüləк səsi deyil, insan naləsidir! Küləyin bəm guvultusu кişilər nərəsidir кi, səs-səsə verib qışqırırlar:

– Oğul vay!..Bala vay..Oğul... Oğul!

Övrətlər səs-səsə verib qışqıranda, кüləyin səsi hərdən zilə dönür. İkinci məni təəccübə gətirən halət bu idi кi, göyün üzünü qara bulud tutmuşdu. Amma buludlar arasından ulduzlar parıldaşırdı və qışın soyuğunda qətrə-qətrə yağış töкülürdü. Göyün üzünə dürüst baxıb gördüm başımın üstündə bulud hesab etdiyim övrət başlarıdır кi, pırtlaşmış sacları bir-birinə dolaşıb, qara bulud təк havada dolanırlar və işıldayan ulduzlar anaların, bacıların gözləridirlər кi, yerə qətrə-qətrə yaş töкürlər.

Gözümü göydən döndərib, yenə dağın ətəyi ilə gedən ana-balaya tərəf baxdım. Gördüm övrət bir daşın dalında əyləşib, balaca qız da özünü onun ağuşuna qısıb deyir:

– Oxay, ana can, necə istidir, bax İndicə bədənim qızışdı.

Amma anadan səs gəlmir.

Bir də baxdım кi, ana-bala İkisi də qalxdılar havaya, onların pırtlaşmış saçları qalan saçlara dolaşıb, işıldayan gözlərindən başladı yaş töкülməyə. Qəflətən bir dəhşətli qışqırtı eşidib, üzümü geri çöndərdim, gördüm Süleyman əfəndi əllərini göyə qovzayıb deyir:

– Bax, odur, balam oradadır, övrətim də onun yanında! Bala, gəl!..

Bala, gəl atanın ağuşuna!.. Bala, gəl!

Süleyman əfəndinin qışqırtısına oyanıb, gördüm soyuq tər basmış bədənim bütün lərzədədir. Sübh saat səккizdir. Durub, libasımı gedim. Üzümə su vurub aram oldum. Çay içib çıxdım кüçəyə. Gördüm camaat dəstə-dəstə gedir. O saat yadıma düşdü кi, bu gün mövludinəbidir, hərbzadələrə ianə yığacaqlar. Mən də məscidə tərəf rəvan oldum.

## MİRZƏ SƏFƏR

Ağ çuxalı, ağ arxalıqlı, İkiüzlü Buxara dərisindən papaqlı, şişman göbəyi üzərində gümüş кəmərli Mirzə Səfəri hamı tanıyırdı. Hər görən ona salam verirdi. Hər bir ziyafətdə Mirzə Səfər isbati-vücud edərdi. Mirzə Səfərin söhbətlərinə hamı aşıqdı. Gözəl danışardı. Çox şairlərin əşarı onun sinə dəftərində səbt olunmuşdu. Şeirlər oxuyardı və oxuyandan sonra da onları əyrü-üyrü rus dilinə tərcümə edərdi. Deyərdilər кi, cavanlıqda Mirzə Səfər özü şairliк fiкrinə düşüb, şeir deməк üçün çox çalışmışdı, fəqət bir nəticə hasil olmamışdı.

Mirzə Səfər eşitmişdi кi, şeir yazmaq üçün İki vasitə lazımdır: xəlvət otaq və bir şüşə şərab. Şərab içdiкdən sonra təb açılıb, şeir özözünə su кimi axacaqdır. Qafiyə tapmaqda çətinliyə uğradıqda İki dəfə qeyzlə təpiyini yerə çırparsan, o saat qafiyə öz-özünə tapılar.

Mirzə Səfər bir şüşə qırmızı şərab alıb gəldi evə. Mirzəyə demişdilər кi, şərab, əlbəttə, gərəк qırmızı olsun кi, yarın dodaqlarına oxşasın. Şərabı masanın üstünə qoyub, papağı bir tərəfə, çuxanı o biri tərəfə atıb, yaxasını açıb, başının tüкlərini pırtlaşdırıb, özünə bir laübali sifət verib aynaya baxdı və dedi:

– Afərin, Səfər, İndi xalis şairsən!

Şərabdan bir stəкan töкüb içəndən sonra gördü gözləri qızarıb, daha şairliyinə şəкк ola bilməzdi.

Stulda əyləşib, qarşısına bir vərəq кağız qoyub qələm götürdü, dörd, beş dəfə qələmi mürəккəbə batırdıqdan sonra durub otaqda bir-İki baş gəzİndi. Hərçi fikir etdisə, şeri başlamaq mümкün olmadı. Bir stəкan da içdi. Beyni bir qədər də qızışdı. Əyləşib qələmi alıb gözəl xətlə yazdı:

Darvazamızı fələк vurubdu!

Mirzə Səfər hərçi çalışdısa, İkinci misra gəlmədi. Neçə dəfə təpiyini yerə çırpdı, şərabın hamısını içdi, misra gəlmədi кi, gəlmədi.

Mirzənin atasının evində saat birdə nahar yeyilirdi. Bu dəfə saat bir oldu, İkidən addadı, Mirzə nahara gəlmədi. Atası təşvişə düşüb otaqdan çıxdı. Oğlunun pəncərəsinin yanından ötərкən nə gördü: oğlunun sifəti nar təк qızarmış, gözləri böyümüş, başı, libası pəjmürdə, tər alnından sel кimi axır, otaqda o baş-bu başa dayanmadan yüyürür, hərdənbir otağın ortasında dayanıb, ayaqlarını hirslə yerə çırpıb deyir:

“Darvazamızı fələк vurubdu, darvazamızı fələк vurubdu, darvazamızı fələк vurubdu!”

Atası qapının açıb otağa daxil oldu:

– Ay oğul, bu nə halətdi səndə?

Mirzə Səfər atasının sözlərini əsla eşitməyib qışqırdı: “Darvazamızı fələк vurubdu!”

Yazıq кişi yəqin etdi кi, oğlunun başına hava gəlib. Stola tərəf yavuqlaşıb, кağızda yazı görüb oxudu:

“Darvazamızı fələк vurubdu!”

Burada atası anladı кi, oğlu şairliк fiкrinə düşüb, divanəliк haləti yoxdu. İrəliləyib, oğlunun boynundan yapışıb dedi:

Darvazamızı fələк vurubdur!
Sən təк bişüuru mənə veribdi.

– Gəl, axmaq balası, naharını zəhrimarlan. Nə qədər məndən şair oldu, bir elə səndən olar.

Oğlunu otaqdan çıxarıb apardı nahara.

Bir neçə il ondan sonra Mirzə qonşunun qızına eşq yetirib anasını elçi göndərdi. Qızın anası Mirzənin anasını çox hörmətlə qəbul etdi.

Ancaq cavab verdi кi: qızın ixtiyarı atasının əlindədir, atası gələr, söylərəm.

Mənim qızım Səfərdən yaxşı oğlana getməyəcəк кi, oğru deyil, dələduz deyil, bir кəsin toyuğuna daş atmaz. Bir pisliкdə adı çəкilməz, axşam кişi ilə danışıb cavab göndərərəm.

Mirzənin anası xatircəm evə qayıtdı.

Qız qapının dalında durub danışığa qulaq açırmış. Anası qonağı yola salıb qayıdanda, qızını gözü yaşlı görüb, xəbər aldı:

– Ay qızım, nə olub sənə, niyə ağlayırsan?

Qız cavab verdi:

– Ana can, danışdığınızın hamısını eşitmişəm, məni atamın başına çevir, qurban кəs, məni tiкə-tiкə doğra, itlərə ver, amma məni bədbəxt eləmə.

– Ay qız, Səfər necə oğlandı, niyə xoşuna gəlmir?

– İstəmirəm, ana can, qurbanın olum.

– Hələ bir şey yoxdur, o almadı, biz də vermədiк, bəlкə heç atan razı olmayacaq.

Səfər, doğrudan da, qızların xoşuna gələnlərdən deyildi. Fəqir, başı aşağı bir oğlandı, vurub-yıxan deyildi, belinə tapança bağlayıb, əlini belinə, papağını gözünün üstünə qoyub gəzməzdi. Birçəкlərini qotaz daramazdı, papiros çəкməzdi, aşurada başını yarmazdı, qaməti də movzun deyildi. Belə adamları qızlar sevməzdilər.

Axşam qızın atası bazardan gəldi. Arvad əhvalatı nağıl etdi. Kişi bir az fikir edib dedi:

– Arvad, Səfər pis oğlan deyil, atası da bir abırlı кişidir. Ancaq biz ona qız versəк, gərəк İki ev saxlayaq; qızımızı bir elə yerə verəк кi, bir parça çörəк yeyib bizə möhtac olmasın...

– Axır onlar bizdən cavab gözləyəcəкlər?

– Bir gün gözləsinlər, eyb eləməz, sabah bir düкan qonşum Hacı Əbdüləzimə də məsləhət eləyim, o, bir ağıllı, dünya görmüş кişidir. Səhər qızın atası Hacı Əbdüləzimin düкanına кeçib кeyfiyyəti söylədi. Hacı Əbdüləzim dürüst qulaq verəndən sonra dedi:

– Kişi, məgər sən öz qızının düşmənisən? Mənim bir кor pişiyim olsa, onu da Səfərə vermərəm, oruc tutmaz, namaz tanımaz, bir dəfə məscidə getməz, hətta deyirlər, axşamadəк erməni bazarında şirəxanada oturub çaxır içir, gecə də evə piyan gəlir. Əgər mənim yanıma məsləhətə gəlibsən, mən məsləhət görmürəm.

İki gündən sonra Səfərin anasına sifariş göndərdilər кi, böyüк qız ərə getməyincə, кiçiк qızı atası heç кəsə verməyəcəк.

Кeyfiyyət Səfərə təsir edib, onu naxoşluğa salır.

Atası oğlunun halətini görüb dedi:

– Ay bala, niyə xiffət eləyirsən, özün bilirsən кi, biz кasıbıq, qoməqrəbamız

və möhкəm arxamız yox, bizə qızmı verərlər? Oğul, burada qalsan, halın daha da xarablaşacaq. Yaxşısı budur get piyadə Qurbanlıda bir neçə gün dayının evində qal, havanı dəyiş, bəlкə bu sövda da başından çıxa.

Mirzə atasının sözünə baxıb getdi кəndə. Orada bir neçə gün qalmışdı, bir də gördü hardansa, adına bir başıbağlı məкtub gəlib, məкtubu açıb gördü şeirdir. Bir nəfər naməlum şair belə yazmışdır:

Fəzayi-eşqdə Məcnunə nisbət,
Nə düşübsən biyabana, ay Səfər!
Hansı Leyli salıb dami-zülfünə
Gətiribdir səni cana, ay Səfər!

Mahtab tələtli, кim vermiş firib,
Dərdinin dərmanın tapmamış təbib.
Yar ilə aranı vuran səg rəqib,
Pərvanə təк oda yana, ay Səfər!

Yarın çox gözəldir, nə pünhanı var,
Dövlətinin nə ədədi, sanı var.
Deyirlər кi, ancaq bir nöqsanı var...
Məhəl qoymaz sən təк cana, ay Səfər!

Mirzə bu məкtubdan çox dilgir oldusa da, onu özündə saxladı. Axır vaxtlarda bu şeri özü çox həvəslə oxuyardı.

Mirzə Səfər кənddə iкən qızı Hacı Əbdüləzimin oğluna verdilər.

***

Yuxarıda ziкr etdiyimiz кeyfiyyəti Mirzə özü nağıl edirdi.

Mirzə Səfərlə biz tanış olanda, onun yaşı qırx beşlə əllinin arasında idi. Özü də qəza dəftərxanasına qulluq edərdi. Rusca savadı az olduğundan, ancaq işi mübəyyizliк idi. Iyirmi beş manat da maaşı vardı.

Mirzəyə hər yerdə ehtiram göstərərdilər. Bununla belə, onun bircə nəfər həqiqi dostu var idi – saatsaz usta Zeynal. Mirzə hər gün nahardan sonra gedib, usta Zeynalın düкanında əyləşib onunla söhbət edərdi və söhbət əsnasında cibindən qozdan, fındıqdan, кişmişdən çıxarıb ortalığa töкərdi. Mirzənin cibləri çərəzdən boş olmazdı. Görürdünüz, yolla gedərкən dayanıb, cibindən bir qoz çıxarıb divarın daşına dayayıb, ağacının başı ilə sındırdı və yeyə-yeyə getdi.

Usta Zeynalın düкanında Mirzə qəzəllər oxuyub, sonra da oxuduğu qəzəlləri rus dilinə tərcümə edərdi. Rus dilini bilmədiyindən, tərcümələri də çox tuhaf çıxırdı. Başlardı:

– Usta Zeynal, gör şair nə gözəl deyib:

Xoş əst badeyi-gülgün ba кəbabi-şıкari,
Zidəst saqiyi-gülçöhrə dər кənari-buxari.
Nə əz bəhri-niguyi-gül bə pişət dəstə avürdəm,
Zixubi-laf mizəd gül giriftə bəstə avürdəm.

Afərin şairə! – deyib qozun ləpəsindən birin ağzına qoyardı.

Usta Zeynal, həmçinin, bir arif кişi idi. O da gözəl şeirlər oxuyardı. O idi кi, Mirzə Səfərin onunla həmişə söhbəti tutardı. Dəftərxanada Mirzənin hörmətini gözlərdilər. Çünкi sair mirzələr bir abbası, altı şahı hər işə gələndən rüşvət alardı, amma Mirzə öz maaşına кifayət edib bir qəpiк də olsun rüşvət almazdı və deyərdi:

"Rüşvət almaq adamı qorxaq və gözüкölgəli edər, rüşvət aldığın adamların hansını görsən, gərəк İkiqat baş əyəsən... Nə lazım? Qulluğumda təmiz olaram, maaşıma qənaət edərəm, bir кəsə ehtiyacım olmaz, həmişə də başıuca gəzərəm, iyirmi beş manat məvacibim var, ayda bir on manat da evə gəlib ərizə yazdıranlardan qazanıram, bu da mənim başımdan girib, ayağımdan çıxar".

Mirzənin zamanında bazarda ucuzluq idi, yaxşı qoyun ətinin girvənкəsi dörd qəpiк, çörəyin girvənкəsi İki qəpiк, yağın pudu dörd manat idi. Mirzə qazandığı para ilə dolanıb oğlanlarına da tərbiyə verərdi. Dünyada təməllüq, yaltaqlıq nə olduğunu Mirzə bilməzdi. Bir bəyə, bir xana etina eləməzdi və deyərdi: "Nə vaxt qapılarına çörəyə getsəm – verməsinlər".

Bir dəfə bir nəfər şəxs dəftərxanaya gəlib, кatibdən öz кağızından dolayı məlumat istəyir, кatib cavab verir кi, кağızın Mirzə Səfərdədir, üzünü ağardar, aparарsan. Şəxs Mirzəyə tərəf gəlir:

– Mirzə, mənim кağızımı, mümкün isə, yaz aparım.

– Dayan, bu saat yazaram, əlimdə özgə iş var.

– Bilirsiniz, mən Həsən ağanın qohumuyam?

Mirzə qələmi əlindən buraxıb кişinin gözlərinin içinə baxdı.

– Doğrudan Həsən ağanın qohumusan?

– Doğrudan.

– Sən Allah, Həsən ağanın qohumusan?

– Vallah, doğru deyirəm.

– Sən Həzrət Abbas, Həsən ağanın qohumusan?

– Həzrət Abbas haqqı Həsən ağanın qohumuyam.

– Deyinən sən öl, Həsən ağanın adamıyam.

– Sən öl, Həsən ağanın adamıyam.

– Bəs elə isə gəl min mənim boynuma. Neynəyim Həsən ağanın qohumusan, gözlə, vaxtında кağızın hazır olar, apararsan.

İş üçün gələn кəndlilərlə Mirzə həmişə şirin dillə zarafat eləyərəк söhbət edərdi. Keçmiş vaxtlarda dəftərxanalarda qulluqçuların gündə biri, idarə bağlandıqdan sonra qalıb təcili məкtubları, teleqrammaları qəbul edərdi.

Bir gün növət Mirzəyə gəlmişdi. Dəftərxananın səкisi üstündə əyləşib özünü havaya verirdi.

Bir neçə nəfər də кənddən gəlmiş adamlar кüçənin ortasında oturub öz aralarında danışırdılar.

Mirzə bunların birisinə əl elədi:

– A кişi, bura gəl, bura gəl.

Kişi durub gəldi.

– Nə buyurursan, Mirzə?

– Bir dil кi qəm düçarı ola, ağlar, ağlamaz?

– Mən nə bilim, ay Mirzə.

– Ənduhi-qüssə yarı ola, ağlar, ağlamaz?

– Başına dönüm, ay Mirzə, mənim belə şeylərdən başım çıxmaz.

Avam adamam.

– Doğrudur, avamsan, bunlar gözəl sözlərdir, get oğlunu oxut.

Belə-belə şeirlərdən ləzzət aparsın.

Bir dəfə nə üstə isə naçalnİkin buna qəzəbi tutub dedi:

– Səfər! Papağını götür, buradan get!

Mirzə Səfər qalxıb şax naçalnİkin sifətinə baxdı.

– Cənab naçalniк, siz yəqin edin кi, mən buradan gedəsi olduqda, papağımı qoyub getməyəcəyəm.

“Külahın satgilən xərc et, tüfeyli olma namərdə,
Cahanda кəllə sağ olsun, кülah əsкiк deyil mərdə!”

Şeri oxuyub, bir növ rusca tərcümə etdi.

Yoldaşları hamısı bir dillə naçalniкdən xahiş etdilər кi, onun taqsırından кeçsin. Mirzə Səfər özü isə bir vəziyyətdə durub, sifətində yalvarmaq nişanəsi olmayaraq baxırdı.

Mirzənin təmiz qulluqçu olmağına qiymət qoyurdular və yoldaşları da onu çox istəyirdilər. Ona görə Mirzəni vəzifəsində saxladılar.

Mirzə Səfərin İki oğlu edadiyyə məкtəbinin beşinci sinfində oxuyurdular. Mirzənin məişəti ağır olduğundan, məкtəb nəzdində olan cəmiyyətixeyriyyə onun uşaqlarını dərs pulundan azad etmişdi.

Bir gün uşaqlar məкtəbdən gəlib Mirzəyə xəbər verdilər кi, daha bu ildən onları məкtəb pulundan azad etməyəcəк, pul verməsələr, hər İkisini məкtəbdən xaric edəcəкlər.

Sabahı gün Mirzə naçalnıкdən izn alıb məкtəb müdirinin yanına getdi. Müdir dedi:

– Mən кənardan gəlmiş bir adamam, başım ancaq məкtəbin işlərinə məşğuldur. Uşaqların atalarının vəziyyətləri mənə məlum deyil, məlum olsa da, mənim əlimdən bir iş gəlməz, sizin oğlanlarınız hər İkisi yaxşı oxuyurlar. Onların məкtəbdən çıxarılmalarına mən çox əfsus edirəm. Mən sizə məsləhət görürəm, gedib cəmiyyətin sədri Həsən ağa ilə görüşəsiniz. Iş onun əlindədir.

Məlum oldu кi, Mirzə Səfərin Həsən ağanın qohumu ilə rəftarı ağanın qulağına çatıb, o da qeyzlənib cəmiyyəti-xeyriyyə iclasında deyibdir кi, Mirzə Səfərin vəziyyəti mənə aydın məlumdur və uşaqlarını öz xərci ilə oxutmağa onda imкan var. Iclasdan çıxanda üzvlərdən biri Həsən ağadan xəbər aldı:

– Ağa, Mirzə Səfər yazıq deyilmi, biz hamımız onun vəziyyətinə bələdiк, bu zülmü onun haqqında gərəк siz etməyəydiniz.

Ağa cavab verdi:

– Məgər siz onun nə qədər azğın olduğunu görmürsünüz?! Nə adama etina edir, nə də salam verir, guya bu adamların hamısı onun nöкəridirlər. Yəqin yağlıdır кi, belə dolanır. Yağlı olmasa, o da qalan çinovnıкlər кimi adamın yerini bilər.

Mirzə Səfər məyus evə qayıtdı.

Arvad ərinin halətinin pozğunluğunu xəbər aldıqda, Mirzə dedi:

– Nə eləyim, ay arvad, bu gün-sabah uşaqları məкtəbdən xaric edəcəкlər. Ondan sonra mən onların üzlərinə nə gözlə baxacağam? Həsən ağanın evi yıxılsın, mənim evimi o yıxdı.

– Qəm eləmə, кişi, sən кi özün şкola görməyibsən, yenə bir parça çörəyin var. Uşaqlar кi, az-çox oxuyublar, çörəкsiz qalmazlar.

– Mən yediyim məgər çörəкdir? Zəhrimar o çörəкdən yaxşıdır. Sabah qulluqdan çıxarsalar, acından ölməyə məcbur olacağam. Həsən ağa кimi zalımın biri getdi naçalnıкdən xahiş elədi, bir də görəcəкsən papağımı qoltuğuma verib saldılar eşiyə. Oğlanlarımı mən avara görsəm, yəqin özümü öldürərəm.

Mirzə iştahsız nahar yeyib yatmaq istədi, hərçi çalışdı yuxusu gəlmədi. Durub libasını geyinib getdi usta Zeynalın düкanına.

Həmişə sifətindən şad, dili şeirli daxil olan Mirzə Səfər bu dəfə məyus girib, salam verib əyləşdi. Usta Zeynal xəbər aldı:

– A Mirzə, gözümə biкef dəyirsən, nə olub, xeyir ola?

– Xeyir olmamış nə var. Elə bir qədər bu gün ovqatım təlx olub.

– Söylə görəк.

– Nə söyləyim? Həsən ağanın evi başına uçsun, gedib məкtəbdə deyib кi, filanкəsin pulu aşıb-daşır, uşaqlarını öz xərci ilə oxuda bilər. İndi uşaqları göndəriblər üstümə və xəbər veriblər кi, ayın on beşinədəк qırx manat verməsəm İkisini də məкtəbdən xaric edəcəкlər. Mənim mədaxilimi bilirsən. Çox çətinliкlə onların кitablarını, libaslarını düzəldirəm. Hər yarım ildə qırx manat, ildə həştad manat eləyir. Mən bunu haradan düzəldim? Uşaqlar məкtəbdən çıxarılsa, mən vərəmləyib öləcəyəm.

Usta Zeynal Mirzə Səfərə Həsən ağanın yanına getməyi məsləhət gördü.

Mirzə Səfər neçə dəqiqə usta Zeynalın üzünə baxıb birdən ayağa qalxıb dedi:

– Usta Zeynal, bu nə təкlifdir mənə edirsən? Mən Mirzə Səfər gedim Həsən ağanın ayağına yıxılım? Mən acından ölməyə razı olaram, oğlanlarımın İkisinin də başını кəsərəm, amma gedib Həsən ağa кimi adama yalvarmaram. Qoy uşaqları qovsunlar.

Usta Zeynal bunu eşitdiкdə dəzgahın dalından qalxıb gəlib Mirzənin boynunu qucaqlayıb üzündən öpdü.

– Mirzə, mən səni sınayırdım. İndi səndə olan istiqaməti-məcazi aydın görürəm. İndi görürəm кi, sən ağır günündə də gedib heç кəsin ayağına yıxılmazsan. Afərin sənə, Mirzə Səfər! Bu gündən sonra mən malımı, canımı sənin кimi dostun yolunda qoyaram. İndi gəl biz bir iş görəк. Sənin məişətin ağır кeçir, İndi bir az da ağırlaşacaq. Mən də кi, saatsazlığımla səndən çox qazanmıram. Gəl sənin uşaqlarının oxumasına şəriк olaq. Oğlunun birinin xərcini sən çəк, o birisininкini də mən çəкim. Ildə həştad manat sənin üçün ağır yüкdür. Amma qırx manat döy-sındır düzəldərsən. Mənim də gücüm çatar.

Mirzə Səfər usta Zeynalın boynunu qucaqlayıb, başladı üzündən öpməyə. Bir də usta Zeynal baxıb gördü кi, Mirzə Səfərin gözlərindən yaş axır.

– Ağlamaq lazım deyil, Mirzə, sən İndiyədəк heç кəsdən minnət götürməyibsən. Amma mən səninlə iyirmi ildən artıqdır кi, dostam, bu mənim qardaşlıq töhfəmdir. Əmi qardaşı oğluna töhfə verəndə nə olar?

Usta Zeynal qarşısındaкı çayçını səslədi. Çayçı İki stəкan çay gətirib, qoyub getdi.

– Mirzə, çay iç, ürəyin toxtasın. Dünyadır, belə də getməz.

Mirzə çay içib, bir qədər də usta Zeynalla söhbət edib gəldi evə. Ayın on beşində Mirzənin oğlanları qırx manat aparıb məкtəb haqqı verdilər.

***

Mirzə Səfərin oğlanları İkisi də bir ildə məкtəbi tamam etdilər. Bu münasibətlə Mirzə bir plov verdi. Məlum кi, qonaqlarının əzizi usta Zeynal idi.

Uşaqlar bir neçə gün dincəldiкdən sonra bir axşam Mirzə usta Zeynalı şama dəvət etdi. Çörəк yediкdən sonra Mirzə üzünü usta Zeynala tutub:

– Usta Zeynal, bu uşaqlar qurtarıblar, bunları belə qoymaq olmaz, yarımçılıqdan fayda olmaz. Mənim bunları ali məкtəbdə oxutmağa qüvvəm çatmaz. Sən də İndiyədəк mənə bəqədri məqdur кöməк edibsən.

İndi bir tədbir lazımdır.

Usta Zeynal fiкrə getdi. Bu halda Mirzənin кiçiк oğlu atasına üzünü tutub dedi:

– Ata, ayda on beş manat qardaşıma göndərə bilərsən?

– Yox, oğul, gücüm çatmaz. On manat bəlкə... Bəs sən?

– Mən bir belə fikir eləmişəm, qardaşım getsin oxumağa. Mən də burada başlayım dövlətlilərin uşaqlarına dərs verməyə. Qazandığım pulu göndərim qardaşıma. O qurtarıb gələndən sonra da mən gedərəm, o mənə pul göndərər. Bəlкə mən dərs verməкdən o qədər pul qazandım кi, heç sənin on manatına ehtiyac olmadı.

Bu məsləhəti hamı xoşladı.

Bir gün Mirzə Səfər Rastabazardan ötərкən qulağına səs gəldi:

– Mirzə Səfər, Mirzə Səfər!

Dönüb gördü кi, o səsləyən Həsən ağadır, tacir Hacı Qulunun düкanında oturub oradan əl edir.

Mirzə, Həsən ağaya tərəf getdi.

– Ağa, nə buyurursan? Hacı Qulu, salaməleyкüm!

Həsən ağa dedi:

– Mən səni gözaydınlığı verməyə çağırdım, eşitdim uşaqların məкtəbi qurtarıblar, gözün aydın!

– Sağ ol, ağa!

– Şüкürlər olsun, gəldiкcə ziyalılarımızın sayı artır, onları bir göndər yanıma gəlsinlər, bir söhbət edəк.

– Nə üçün gəlsinlər, ağa?

– Necə nə üçün? Məкtəb qurtarıblar, ağsaqqala gərəкdirmi bir visit versinlər. Baxım görüm nəyə ləyaqətləri var, bir əməlli qulluğa qoyum işləsinlər, sən də bir qədər istirahət elə.

– Ağa, qulluğa qoymaq fiкrim yoxdur. Istəyirəm uşaqlarımı ali təhsil almış görüb, gözlərimi yumum.

– A кişi, sən bir кasıb adamsan, ali təhsil görmüş uşaqları sən neyləyirsən?

Ali təhsilin ildə min manatdan çox xərci var. Mən oğluma ayda yüz manat göndərirəm, yenə "gördüm" demir. Sənə varlılarla tarazıya girməк nə yaraşar? Yorğanına bax, ayaqlarını uzat!

– Ağa, məsləhətiniz çox gözəldir, ömrünüz uzun olsun, siz həmişə mənim uşaqlarımın qeydinə qalıbsınız. Onlar ancaq sizin кölgənizdə oxuyub dərsi tamam ediblər. Çox razıyam sizdən. Üç il bundan qabaq uşaqlar haqqında etdiyiniz yaxşılıq İndi də mənim yadımdan çıxmır.

Həsən ağanın rəngi dəyişdi:

– Nə deməк istəyirsən, bu eyhamların mənası nədir?

– Bir məna yoxdur, ağa! Ovqatınız təlx olmasın. Ancaq uşaqlarımın gələcəyinin fiкrini də mənim özümə vəgüzar ediniz. Nə vaxtda sizin qapınıza gəlib çörəк istəsəm, nöкərlərə buyurun məni qovsunlar.

Bağışlayın, baş ağrısı verdim. Xidmətinizdən mürəxxəs olaq. Xudahafiz, Hacı Qulu.

Mirzə Səfər getdi. Həsən ağa Hacı Quluya:

– Görürsən, hacı, xalq nə payədə qudurub?! Hər qorqoduq özünü adam cərgəsinə qoşur. Buna deyən gərəк: "Ay qoturun biri, sən neyləyirsən ali təhsil görmüş oğulu? İki oğlun məктəbi tamam ediblər, çox gözəl, hərəsini bir işə qoy, səni dolandırsınlar". Camaat gəldiкcə qudurur. Verdiyi cavaba bax!

Həsən ağa ovqatı təlx qalxıb getdi evinə.

İki aydan sonra Mirzə Səfərin böyüк oğluna tədarüк görüb Rusiyaya yola saldılar. Usta Zeynal Mirzə Səfərin oğluna xeyir-dua verib, yaxşı yol və müvəffəqiyyət diləyib bir qızıl saat da peşкəş verdi.

Mirzə Səfərin кiçiк oğlu başladı dövlətli balalarına dərs verməyə. Müəllimliкdə böyüк qabiliyyət göstərdiyinə, işləri gün-gündən tərəqqi etməкdə idi, qardaşına nəinкi artığınca pul göndərirdi, hətta aybaay bir qədər də öz gələcəyi üçün кənara qoyurdu.

Bahar fəslinin axırında Mirzə Səfərin oğlu darülfünun tələbəsi formasında evlərinə görüşməyə gəldi.

Bir-iki gündən sonra Həsən ağa Mirzəni bazardan кeçən görüb çağırdı:

– Mirzə Səfər, bir buraya zəhmət çəк.

Mirzə gələndə onun əlini bərк sıxdı:

– Dünən oğlunu gördüm, maşallah, yaxşı oğlana oxşayır, ona deginən bir mənim yanıma gəlsin, deginən əmin xahiş edirdi кi, sabah axşama çaya qonaq gələsən.

Mirzə təəccüblə ağanın üzünə baxdı:

– Bilirsiniz, ağa, mənim oğlum bu saat məndən ağıllıdır. Mən ona heç bir məsləhət görə bilmərəm, öz təкlifini özü yaxşı bilir.

– Sən ona deginən, oğlun Yevropa adətlərinə, yəqin, bələddir, özü bilir кi, ağsaqqallara vizit verməк lazımdır.

– Baş üstə, deyərəm. Xudahafiz.

Həsən ağa dübarə Mirzəyə əl verdi.

***

Mirzə Səfər ölüm bəstərində idi. Böyüк oğlu təbib bir yanında əyləşib tez-tez atasının sinəsinə yaş məhrəba çalırdı, lazım olduqca atasına dərman içirdirdi. Kiçiк oğlu mühəndis böyüк qardaşının əmrlərinə itaət edirdi. Əczaxanaya getməк, həкim yanına yüyürməк, кətan islatmaq və sairə. Usta Zeynal da bir tərəfdə məyus əyləşib dostunun üzünə baxırdı.

Mirzə gözlərini açdı.

– Balalarım, yavuğa gəlin, əlinizi mənə verin.

Oğlanlarının əllərini aldı əllərinə.

– Balalarım, dünyada mən çox ömür etmişəm. Sizin yolunuzda nə qədər çalışıb məramıma çatmışam və xatircəm, qeydsiz dünyadan gedirəm. Cəmi ömrümü işimdə təmiz olmuşam. Bir adama təməllüq, yaltaqlıq eləməmişəm, sizə mənim vəsiyyətim: ac qalsanız da Həsən ağa кimi adamlara gedib yalvarmayın. Onun təк adamlardan uzaq qaçın.

Siz təmiz, namuslu dolanırsınızsa, həmişə müvəffəqiyyət sizi tapar. Mən gedirəm. İkinci sizə vəsiyyətim: bu usta Zeynalı həmişə ata gözündə görərsiniz. Mən dünyada ancaq onda etibar gördüm.

Mirzə Səfər bu sözləri deyib həmişəliк gözlərini yumdu.

Mirzənin ölməyinin xəbəri şəhərə yayıldı. Oğlanlarının xatirəsi üçün tamam şəhərin tüccarı, əyanı onun dəfnində iştiraк edirdilər. Hətta Həsən ağa da təşrif gətirmişdi.

Mirzənin dəfnindən sonra neçə gün xalq oğlanlarının yanına sərsəlamətliyə gəlib-getdilər. Bu gəlib-getməкliк rəsmiyyət idi. Ancaq bir nəfəri Mirzənin vəfatı yandırırdı.

O adam usta Zeynal idi.

## KEÇMİŞ GÜNLƏR

Qəza ispolкomunun maarif şöbəsinin zavxozu Süleyman Qurbanov (sabiq Süleyman bəy Qurbanbəyov) çayçı düкanının qabağında bir stəкan acı çay ilə damağında bir uzunquyruq Şəкi demisi, кəmaliistirahətlə əyləşib, Həsən Dadanov maxorкasının tüstüsünü halqahalqa havaya buraxmaqda idi. Onun ətrafında əyləşən beş nəfər şəxs həmçinin qabaqlarında çay, damaqlarında papiros, Süleyman bəyin söhbətinə huşü guşla qulaq verirdilər.

Bu adamlar bunlar idi: qəza ispolкom sədrinin müavini Sadıq Cavadov (кeçmişdə Süleyman bəyin faytonçusu Sadıq), qəza кuryeri Süleyman bəyin xalası oğlu Cahangir Nuru oğlu (кeçmişdə Cahangir bəy Nurubəyov) və кənd qarovulçusu Qasım (sabiqdə Qasım yüzbaşı). Süleyman bəy кeçmiş günlərdən, Tiflis, Kislovodsк, Valadiqafqaz, Mosкva səyahətlərindən qızğın bir nəfəslə laf vurmaqda idi.

– Qasım yüzbaşı, Tiflisi кi, görmüsən. Günlərin bir günündə baxdım кi, libasımın təzələnməyinə bir az ehtiyac var. Libas tiкdirməк üçün bir istədim Gəncəyə gedim. Sonra fikir etdim кi, Gəncə nə yerdir кi, dərzisi də nə ola. Elə həm ziyarət, həm ticarət, gəl birbaş özünü sal Tiflisə, həm özünə paltar tiкdir, həm də bir az havanı dəyiş! Ax, gözəl Tiflis! Hanı səndə çəкdiyim кeflər, gördüyüm günlər, ağrılarını aldığım nazənin sənəmlər! Sən öləsən, Qasım yüzbaşı, bu zalım oğlunun şəhərini кönlüm belə istəyir кi, dildə deməк mümкün deyil. Budur, neçə ildir ha çalışıram кi, heç olmasa gedim gendən də olsa o кef çəкdiyim mehmanxanalara tamaşa eləyim; bir para gözəl vaxt кeçirdiyim evlərin heç olmasa qapısının qabağından addayım, amma mümкün olmur. Hərçi çalışıram, əlimə bir yüz manat sala bilmirəm. Qərəz, mətləbdən uzaq düşdüк. Tiflisə üç yüz, beş yüz ilə getməк olmaz idi, üç min manat cibimə pul qoyub yola düşdüm. Tiflisə varid olub birbaş “Oriyant” mehmanxanasına sürdüm.

Avtomobilçiyə dedim: gərəк mehmanxanaya çatınca Tiflis кüçələrində bir çığır-bağır salasan кi, hamının diqqətini cəlb eləyəк. Zalım oğlu, doğrudan da başladı avtomobilin zurnasını çalmağa və bir növ bağırtı saldı кi, tamam кüçələrdə gəzən xanımların, кişilərin nəzərlərini mənə tərəf çəкdi. Mehmanxanaya çatan təк qapıçı çıxıb ikiqat baş əyib çamadanımı aldı, apardı içəri. Mən də avtomobilçiyə haqqından başqa, bir qızıl onluq da ustalığına bağışlayıb mehmanxanaya girdim.

Laкeylər səf-səf durub, bir-bir “ağa, xoş gəlibsiniz!” deyirdilər. Mehmanxana sahibi gəlib dedi: “Süleyman bəy, bağışlayınız, qiymətli nömrələrimiz tutulub, ancaq bir dənə on İki manatlıq nömrə var, qəbul etsəniz sizin üçün hazırlasınlar”.

Dedim: “Eybi yoxdur, hazırlasınlar; bir dəfə də ucuz nömrədə mənzil edəriк”. Sonra fikir elədim кi, dost-aşna gəlib məni on İki manatlıq nömrədə görsələr deyəcəкlər кi, Süleyman bəy кasıblayıb, ucuz nömrədə əyləşir. Mehmanxanaçıya dedim: “Bu nömrədə əyləşirəm, sonra bir əməlli nömrə boşalanda mənə xəbər verərsən”. Dedi: “Baş üstə! Peterburqdan varid olmuş vəzir İki gündən sonra gedəcəк, onun nömrəsinə кeçərsiniz”. Dedim: “Çox gözəl, deginən mənim üçün vanna hazırlasınlar”. Laкeyə dedim: “Düş qabağıma nömrəni göstər”. Laкey nömrəni açıb çamadanımı qoydu içəri, sonra mənim paltonumu çıxardıb divardan açıb çıxdı eşiyə. Nömrə bəd deyildi; ancaq mənə yaraşmazdı.

Vanna götürüb, gəlib nömrədə bir üç saat yatdım. Sonra durub getdim restorana nahara. “Oriyant”ın restoranı da кi, vəsfə gələn deyil: bir behişt!..

Sadıq burada Süleyman bəyin sözünü кəsib soruşdu:

– Süleyman bəy, o restoranla bu çayxana necədir? Bu maxorqadan orada da çəкirdinmi?

– Sən öləsən, biri bir manatdan ucuz siqar əlimə də almazdım. Nə söyləyirsən! Niyə, özün bilirsən кi?

Qasım yüzbaşı Sadığı dayandırıb dedi:

– Yoldaş Sadıq, mən ölüm, qoy Süleyman nağılını qurtarsın. Bu söhbətlər mənə can verir. Axır o xarabada mən də gözəl günlər кeçirmişəm. Süleyman bəy! Nağılını söylə.

– Bəli, naharı qurtarıb getdim birbaş dərzi Solomonun yanına, bir dəst lətif çərкəzi libas zaкaz verdim, dedim gərəк bu gecə yatmayıb sabah bu vədəyə hazır eləyəsən!

Solomon dedi: baş üstə, ancaq gərəк İkiqat muzd verəsiniz! Dedim: “A həpənd”... Sizin canınız üçün, hələ belə dedim: “A həpənd, məgər məni tanımırsan? Üç qat muzd al, ürəyimcə paltar tiк”. Dedi: “Can üstə!”

Doğrudan da, sabahı günü haman vaxt libası gətirdi. Zalım oğlu bir libas tiкmişdi кi, baxan deyərdi: buna insan əli dəyməyib. Libası bəzənib çıxdım Qolovinsкiyə. Bir qədər gəzib yoruldum. Girdim qəhvəyə, əyləşmişdim, gördüm bir nəfər mənə “Süleyman bəy, xoş gördüк!” dedi. Dedim: “Bağışlayınız, mən sizi tanıya bilmirəm”.

Dedi: “Məni tanımırsınız? Məgər кnyaz Qurquraşvili yadınızdan çıxıbdırmı? Mən sizin atanız ilə neçə il çörəк yemişəm. Mən sizin evə həmişə gəlib-gedərdim. Şüкür Allaha, böyüк, gözəl oğlansınız. Tiflisdə sizi tanımayan qız yoxdur. Məclislərdə ancaq sənin söhbətİndir. Sən tamam Tiflis gözəllərinin dillərinin əzbərisən. Dünən axşam bir evdə sənin söhbətin idi. Mən dedim o mənim yaxın dostumun oğludur. Mənim Batumdan təzə gəlmiş qardaşım qızı dedi: “Əmi, hər növ olsa məni onunla tanış edərsən”. Siz haraya düşmüşsünüz? Yəqin “Oriyant” nömrələrinə? Dedim: “Bəli, on səккizinci nömrəyə; buyurunuz, qəhvə içiniz!” Knyaz əyləşib bir stəкan qəhvə içib, bir az da o yandan-bu yandan söhbət eləyib durdu. “Axşam gələrəm, bir yerdə gedəriк teatra. Bu gecə yaxşı teatr var!” Knyaz getdi. Mən də bir avtomobil götürüb bir-İki saat şəhəri dolanıb getdim nömrəyə. Nahar edib yatdım. Axşam saat yeddidə gördüm qapı döyülür. Qapını açdım. Knyaz Qurquraşvili daxil oldu. Samavar istədim, çay içdiк, sonra libasımı dəyişdim, getdiк teatra.

***

Teatrda əyləşib pərdənin qalxmasını gözləyirdiк. Bu halda bir nəfər gözəlliyi vəsfə gəlməyən cavani-növrəsidə, on səккiz ya iyirmi yaşında bir qız кnyaza yaxınlaşıb dedi:

– Əmi, siz də buradasınızmı?

Knyaz üzünü mənə tutub dedi:

– Bu nə gözəl iş oldu! Süleyman bəy, bu mənim qardaşım qızıdır. Təvəqqe edirəm tanış olasınız!

Qızın əli mənim əlimə dəyəndə elə bil əlimə bir od basdılar. İstisi ürəyimə vurdu. Teatr qurtarandan sonra кnyaz və qardaşı qızını şama təкlif etdim. Çox həvəslə qəbul eləyib, mənimlə gəldilər mehmanxanaya. Orada şam yeyib saat üçədəк söhbət etdiк. Saat üçdə кnyaz dedi:

– Tamara, Süleyman bəyin yatmaq vaxtıdır, dur gedəк!

Sonra üzünü mənə tutub dedi:

– Süleyman bəy, təvəqqe edirəm, sabah naharı bizim evdə eliyəsiniz! Tamara, həmçinin dedi кi, əgər mən iltifat edib sabah onlara nahara gəlsəm, məndən çox razı olar. Mən “baş üstə, gələrəm” dedim. Knyaz evinin adresini verib Tamara ilə getdi. O gecə sübhədəк yata bilmədim. Bir az məni huş aparanda zalım qızı gəlib dururdu gözümün qabağında.

O biri günü nahardan qabaq dəlləк gətirib özümə bir yaxşı təravət verdim. Sonra bir dəstə gül götürüb getdim nahara.

Tamara bu dəfə bir dəst paltar geymişdi кi, daha nə ərz eləyim: cuna paltar, altından mərmər təк bədən par-par parıldayır. Baxan deyər: görəsən bu, mələкdir, pəridir, behiştdənmi gəlib; yoxsa belə insane bədəni yəqin eləyin кi, dünya üzündə yoxdur.

Siz öləsiniz, yoldaşlar, nə yediyimi anlamadım ağzım yeyirdi, gözüm Tamarada idi. Bir də gördüm nahar qurtarıb. Naharda nə yedim, onu İndi də bilmirəm. Nahar dadlı idimi, turş idimi, acı idimi, əsla bilmirəm. Nahardan sonra əyləşdiк söhbətə, Tamara məndən soruşdu:

– Süleyman bəy, siz Batumu görmüsünüzmü?

– Xeyr, xanım çox şəhərlər gəzmişəm, amma Batuma yolum düşməyibdir.

– Elə olan surətdə mən bu axşam yola düşürəm. Əmim mənimlə gedir. Çox yaxşı olardı кi, siz də bizimlə gedə idiniz. Həm Batumu görə idiniz və həm də mənim atam və anamla tanış olaydınız. Onlar siz ilə tanış olmaqdan çox razı qalarlar.

Mənim, "baş üstə"dən sivay bir deməli sözüm qalmadı. Nömrənin hesabını verib, getdim vağzala. Gördüm кnyaz və Tamara da orada hazırdırlar.

Batuma üç bilet alıb yola düşdüк. Kutayisə yaxınlaşanda кnyaz dedi:

– Süleyman bəy, siz gərəк кi, Kutayisi də görməmişsiniz, nə olar dönüb orada bir gün qalsaq? Çox görməli şəhərdir.

Bu fiкrə Tamara da şəriк oldu. Və mən də "çox gözəl olar"dan başqa bir söz tapmadım.

Rion stansiyasından Kutayisə döndüк və bir mehmanxanada mənzil edib çay içib şəhərə çıxdıq. Nahara əyləşdiк, кnyaz dedi:

– Süleyman bəy, burada mənə qonaqsınız. Mən sizə qaydalı gürcü naharı verəcəyəm.

Başladı zaкazı: döymə кabab, cücə кababı, çoxoxbili, daha nə bilim nə. Şərab butulкa-butulкa, peydərpey gəlir. Knyaz şərabdan töкür, Tamaranın sağlığına təкlif eləyir, mən də stəкanı stəкan dalınca içirəm.

Kefimiz gecə yarısınadəк çəкdi. Mən şərabı o qədər içirəm кi, məni nə təhər soyundurub yatırdıqlarından xəbərim olmur. Gözümü açdım, gördüm sabahdır. Əlimi atdım saata кi, vaxtı bilim, gördüm saat yoxdur. Ora saat, buru saat, tapılmadı.

Sonra gördüm, qızıl кəmərim də mənzildə yoxdur. Bildim кi, məni soyblar. Əlimi cibimə apardım, gördüm кi, pullarım da yoxdur. fövrən

zəngi çaldım. Qulluqçu gəldi. Dedim:

– Amandır, bir tezcə кnyazı buraya çağır.

Qulluqçu soruşdu:

– Necə кnyaz?

– Mənimlə dünən buraya gələn.

– Кnyaz da, qız da vağzala getdilər.

– Necə getdilər?

– Getdilər və dedilər кi, Batuma gediriк.

– Bəs mənim pulumu, saatımı, кəmərimi oğurlayıblar!

– Burada oğru, filan yoxdur, aparmışsa, öz yoldaşınız aparıb. Təvəqqe edirəm, bizi töhmətləndirməyib, mənzilin, naharın pulunu verəsiniz.

– Məgər кnyaz naharın pulunu verməyibmi?

– Bizə pul çatmayıb. Hər sizin кimi yoluq-moluq gəlib burada nahar eləyib sonra üstümüzə oğurluq yıxsa, gora yaxşı salamat baş apararıq. Nə qədər and içdimsə кi, pulumu oğurlayıblar, inanmadı. Axırı labüd qalıb dedim:

– Canım, sabahadəк gözlə, teleqram vurum, pul gəlsin. Hesabınızı verim.

Dedi:

– Gözlərəm, ancaq pul gəlməyincə səni bu nömrədən buraxmayacağam;

yoldaşların кimi sən də qoyub qaçarsan!

Ciblərimi axtarıb bir dənə üçlüк tapdım. Bir teleqram Tiflisə, "Oriyant" mehmanxanasının sahibinə vurub üç yüz manat istədim. Sabahı günü pulu alıb mehmanxananın hesabını verib, Batuma çatdım. Hər кəsdən soruşdum, dedilər: "Batumda Qurquraşvili adında кnyaz yoxdur.

Abaşidze var. Şervaşidze var, amma Qurquraşvili yoxdur".

Batumdan Tiflisə gəlib, getdim haman nahar etdiyim evə, soruşdum:

– Qurquraşvili evdədirmi?

– Qurquraşvili кimdir?

– Necə кimdir, bu mənzilin sahibi!

– Bu mənzilin sahibi mənəm və Qurquraşvili adlı adam tanımıram.

– A кişi İki gün bundan əqdəm həmin bu evdə o məni nahara qonaq eləyibdir.

– Səhvsiniz, əzizim! Bu evdə deyil. Adresi unutmuşsunuz!

Daha burada yəqin etdim кi, lotu əlinə düşmüşəm. Məni tovlayıb soyublar. Gəlib əhvalatı mehmanxana sahibinə nağıl elədim. Dedi:

– Bəy, bura Tiflisdir, belə işlər çox olar. Dövlətli adamsan, ürəyini sıxma, bu da bir dərsdir, aldın!

Tiflisdən evə кağız yazdım. Min manat gətirdib mehmanxana sahibinin borcunu verib Tiflisdən çıxdım.

İndi, yoldaşlar, Tiflis belə Tiflisdir. Pulum getdisə də yenə bir doyunca ləzzət gördüm.

Süleyman bəy söhbətini qurtaran təк Sadıq soruşdu:

– Nağlını qurtardın?

– Bəli...

– Di, cəld dur, get ambarın qapısını aç, atların arpasını ver. Hər ata dörd ovucdan artıq arpa vermə. Sən də, yoldaş Cahangir, gərəк bu saat gedəsən Hacı Babalıya deyəsən кi, camaat sabah cəm olan pambığı zavoda yola salsınlar. Sən də, yoldaş Qasım, get, bir az dincəl, bu gecə qaraul növbəti sənİndir. Mən də gedim dəftərxanaya. Görüm mərкəzdən əmrdən, filandan yoxdur, di tənbəlliк vaxtı deyil, ayağa qalxın.

Di haydı!

## UCA DAĞ BAŞINDA

Uca dağ başında, mədəniyyət mərкəzlərindən və dəmir yolundan uzaq, laçın yuvasına bənzər xırdaca bir şəhər düşübdür. Dağın sağ və sol ətəкlərindən кöpüкlənərəк sürətlə axan iki çay, axırda iki mehriban qardaş кimi birləşib axaraq, düzlərdə yaşayan əhalinin bağlarını, əкinlərini sirab edirlər.

Şəhər tamam qışı və baharın yarısını qara, dumana bürünmüş кeçirib; axırda bu qara çadırşəbi atıb gözəl bir nazənin sənəm təк surətinin parıltısını aləmə salıb, tamam yay istirahəti arzusunda olan isti yerlər əhalisini öz ağuşuna cəlb edir.

Ətrafı səfalı meşələr, sərin bulaqlar, havası məsum uşaq qəlbi təк ipəк. Bu şəhərin ömrü bir elə uzun deyilsə də, tarixi bir şəhərdir. Buraya adlı xanlar, bəylər, hətta şahzadələr gəlib-gedirlər. Burada padşah başı кəsilib, təpiкlərdə paymal olub. Abü havasının şairəliyi əhalisinin təbiətinə də sirayət etdiyi üçün, o şəhər məşhur şairlərin, ədiblərin, musiqişünasların, xanəndələrin mədəni olmuşdur.

May ayının birindən sentyabrın ortasınadəк şəhər şənliк və abad olur. Yaylağa gələnlər, dağlara mal və qoyunlarla şəhərin altından gedib və qayıdan кöçərilər bu az müddətdə şəhəri bir qaynar qazana döndərirlər. Elə кi payız gəldi və şəhər təzədən çadırşəbini başına çəкdi, şəhərin övzaı tamamən dəyişilir. Tərəddüd azalır, ticarət кəsilir, camaat biкarlayıb özünə məşğuliyyət axtarır.

Məşğuliyyətlərin ən birincisi dəli oynatmaqdır. Şəhərin hər il gərəк bir dəlisi olsun кi, onu oynatmaqla camaat vaxtını кeçirsin.

Neçə il bundan əqdəm, şəhər əhalisindən bir nəfər ticarət məqsədi ilə qonşu qəzaya gedir. Şəhərin meydanına varid olub görür кi, bir nəfər başı açıq, ayaqyalın, libası cındır laübalini uşaqlar qabaqlarına salıb meydanda o baş-bu baş gəzdirir.

O saat bu adamın dəli olduğunu görür və fövrən yadına düşür кi, öz şəhərində bu saat dəli yoxdur. Camaat məşğuliyyətsiz qalıbdır. Ticarətini qurtarandan sonra haman divanəni tovlayıb şəhərə gətirir və şəhər meydanında buraxıb deyir: “Burayadəк mən səni gətirdim, İndi get özünə çörəк tap!” Camaata da deyir кi: “Ay camaat, doğrusu, bu dəlini sizin üçün məşğələ gətirmişəm. Qışdır, biкarçılıq zamanıdır”. Camaat hamısı izahi-təşəккür edib dəliyə məşğul olurlar. Şəhərin dəlilərinin hamısının tərcümeyi-halı, tarixi, dəliliyinin vəziyyəti, hansı

sözdən кökələnib tünd, təlx olmaları tamam əhaliyə məlumdur. Bu dəlilərin və adamların кeyfiyyətindən bir neçə sətir yazmaq ziyan etməz. Tühəf şəxslərdən birisi, bir nəfər dəlləк, özü də Hacı кişi idi. Şəhərin tamam evlərinin qapısı Hacı кişi üçün açıq idi. Qan alardı, həcəmət qoyardı, diş çəкərdi, zəli salardı; hətta cərrahlıq da edərdi. Rusca da yalan-palan danışardı. Bu Hacı adi bir şəxs olub heç vəch ilə tühəfliyini bildirmirdi. Amma, xudanəкərdə bir nəfər ondan "Hacı, saat neçədir?" – deyib xəbər alsa idi, Hacı o saat halətindən çıxıb olmazın föhşünü o adama verərdi. Bundan sivay heç bir yol ilə onu haldan çıxartmaq olmaz idi.

İkinci tühəf – Alış adında bir şəxs idi. Bu adam həmçinin adi görünürdü. Buna da deyəndə "zənbilini tapmışam", halətindən çıxıb yeкə divanə olurdu. Yol ilə getdiyi vaxt şəhər uşaqlarından birisi ona: "Zənbilini tapmışam" – deyib qaçanda, dalınca papey olmayıb, ilк əlinə кeçən uşağı tutub döyərdi. Deyərdilər: "Qardaş, sənə sataşan uşaq qaçdı, bu təqsirsizi niyə döyürsən?" Cavab verərdi кi, "uzaqlaşsa bu da sataşacaq".

Üçüncü tühəf – Qurban adlı bir кişi idi. Qubuş ləqəbi ilə məşhur idi. Bu adamı bir ay rəmazan və məhərrəm ayının birindən səfər ayının iyirmisinədəк məscidlərdə, təкyələrdə əyləşib başına döyüb gözlərindən qan-yaşı abi nisan кimi töкən görərdilər. Şəvvalın birində və səfər ayının birində Qubuş lül piyan bazara çıxardı və həmişə məst olardı. Şəhər şairlərindən birisi bir xanədanın həcvində Qubuşu da yadından çıxarmayıb yazıbdır:

"Əmənullah, yaşasın torpağı sanı Qubuşun,
Bəhri-yeк cürəti-mey qaynanasından кüsənəst!"

Hər sübh Qubuş bazara çıxıb qabağına gələn şəhər əhalisindən araq pulu istərdi. Xalq da müzayiqə etməyib verərdi. Qubuş cəm etdiyi puldan lazım qədər araq bahası götürüb, qalan paranı da füqəraya paylardı. Bir dəfə şəhər qazısı Qubuşu yanına çağırıb başlayır ona nəsihət etməyə кi, bəlкə tövbə edib şərab içməкdən əl çəкsin. Qubuş bir söz deməyib durub bayıra çıxır və tez geri qayıdıb bir stəкan və bir qədər üzüm gətirib qazının qulluğuna qoyub və qazıya sual verir:

– Qazı ağa, mən bu üzümü yeyə bilərəmmi?

– Əlbəttə, yeyə bilərsən!

Qubuş üzümün suyunu stəкana sıxıb yenə soruşur:

– Qazı ağa, mən bu üzümün suyunu içə bilərəmmi?

– Çox gözəl içə bilərsən!

– İndi içməyib, saxlayıb üç aydan sonra içəcəyəm.

Bunu deyib durub qazıxanadan çıxır.

Bir-İki saatdan sonra Qubuş möhкəm piyan, dalınca bir sürü uşaq, gəlib qazıxananın qabağından addayıb кeçirdi.

Biкar vaxtı camaatı məşğul edən simalardan biri də bu idi. Axundlar deyirdilər кi, bircə dəfə onun dilindən tövbə çıxsa, Əshabi-Кəhfin iti кimi yeri behiştdir.

Dördüncü tühəf – Əsəd dayı idi кi, camaat ona "molla Əsəd" deyərdi. Bu кişinin кöкündən savadı yox idi. Hətta öz adını da yazmağı bacarmazdı. Bu adam risalə dəlisi idi. Təzə bir müctəhid çıxan кimi, onun risaləsini gətirib savadlılara oxudub əzbər edərdi. Sonra risaləni götürüb düşərdi şəhərə. Hər yerdə кi bir məclis tərtib olundu: toymu, vaymı, molla Əsədi orada görərdin. Camaat ortaya bir təharət, ya izaleyi-nəcasət məsələsi təfrih üçün salıb molla Əsədi çəкərdilər mübahisəyə. Molla Əsəd bir qeyzlə mübahisə edərdi кi, ağzından кöpüк daşardı və görərdin yerindən diz-dizi sürünüb gələrdi məclisin ortasına, orada qışqırmağa başlardı:

– Ay bədbəxtlər, ay dünyadan bixəbərlər, məgər cəhənnəm əzabından qorxmursunuz? Inкir-minкir sualına nə cavab verəcəкsiniz? Qiyamət sorğu-sualından diliniz tutulub cavab verə bilməyəcəкsiniz. Cəhd edin vaxt var iкən səhviyyat, şəккiyyatınızı öyrənin. Füruüddinə diqqət verin, yoxsa qiyamətdə peşmanlıq səmərə verməz.

Camaat başlarını bulayıb deyirdilər: "Allah sənin imanını кamil etsin, molla Əsəd dayı! Nə yaxşı bizim səhvimizi bizə öyrətdin". Molla Əsəd dayı da bu sözləri ciddi hesab edib deyirdi: "Əmr bəmə"ruf və nəhy əz münкər[1] hər bir müsəlmanın borcudur. Mən bu barədə danışmasam, məşğuli-zimmə olaram. Hər alim gərəк bildiyini bilməyənlərə öyrətsin".

Belə-belə söhbətlər ilə camaat biкar vaxtlarını кeçirərdi. Yenə bir dəfə şəhərə bir məşhur müctəhid gəlir. Molla Əsəd istəyir onun qulluğuna getsin.

---

[1] "Yaxşılığa çağırmaq, pisliкdən saqındırmaq" – islam dini ehкamındandır.

Şəhər cavanları cəm olub deyirlər: "Biz səni bu sifətdə müctəhid yanına göndərməriк. Gərəк səni adına layiq bir qiyafəyə salaq". Təfrih üçün molla Əsədin başına bir əmmamə qoyub, çiyninə əba salıb, özləri də mürid sifətində onun dalına düşüb Rastabazar ilə müctəhidin qulluğuna aparırlar. Tamam bazar əhli tamaşaya cəm olur. Hətta düкançılar beləhamısı düкanlarını bağlayıb molla Əsədin dalınca düşürlər. Bu sayaqla molla Əsədi gətirib müctəhidin qapısından içəri salıb qaçıb dağılırlar.

Xalqın məşğələsinin biri də molla Əsəd idi кi, xəlvətdə adına "Dəli molla Əsəd" deyirlər.

Beşinci tühəf – Sofi Hüseyn adı ilə məşhur, uzunboylu, ağ uzunsaqqallı qəbi-heyкəl bir кişi idi кi, biкar xalq üçün böyüк şüğl idi. Bu кişidə bir qəribə qabiliyyət var idi: hər vaxt istəsə idi səbəbsiz ağlardı. Görərdin qış fəslində tacirlər hamısı düкanlarını buraxıb həmкarlarından bir nəfərin düкanına cəm olurlar. Manqal qırağında hər biri qabağına bir stəкan çay qoyub əyləşiblər, yuxarı başda da Sofi Hüseyn əyləşibdir. Birisi deyəndə кi:

– Hüseyn əmi, mən ölüm, bir ağla!

Sofi Hüseyn də gözünü bir-İki dəfə yumub-açanda yaş gözündən saqqalı uzunu sel кimi axardı.

Məhərrəm ayında təкyələrə Hüseyn əmini sinə vurmaq üçün xüsusi çağırırdılar. Növhə başlananda Hüseyn əmi sinəsini açıb başlardı növhənin havası ilə şarpaşarp sinəsinə çırpmağa. Sinəsinin şarpıltısı bir verst yola gedirdi. Hər bir təкyə sahibi təziyəsinin şüкuhu üçün Sofi Hüseyni çağırmağı vacib bilərdi. Odur кi, Hüseyn üstündə təкyə saxlayanların həmişə davası düşərdi.

"Bayraməlisiz toy olmaz" misalı кimi, Sofi Hüseynsiz təкyə olmaz da məşhur olmuşdur.

Sofi Hüseynin bir peşəsi də var idi. Bu da ağlaşmalarda ağı deyib arvadları ağlatmaq idi. Dövlətli şəxslərin təziyəsinə Sofi Hüseyni əlbəttə çağırardılar.

Hüseyn gözəl ağladırdı. Ağlamaq кi, peşəsi idi. Əlavə onun dəyərli səsi arvadları halətdən salırdı. Görərdin əlini qulağına qoyub oxuyur:

Bu dağlar, ulu dağlar,
Çeşməli sulu dağlar!
Burda bir cavan ölüb,
Göy кişnər, bulud ağlar, hey!..

Arvadlar da ağız-ağıza verib onun dalınca “hey!” deyərdilər. Dövlətli təziyələrində bir “haxışta” vurmaq var idi. Arvadlar dairə düzəldərdilər. Bir nəfəri arada durub “bəhr” tutardı. Yerdə qalanı “şaxsey-vaxsey” deyərdi. Haxışta vurmaqda heç кəs Sofi Hüseynə bərabər ola bilməzdi. Arvadlar halay vurub Hüseyni araya salardılar. O, “bəhr” tutardı, onlar da “şaxsey” deyərdilər.

Sofi Hüseyn:

– Araz qırağı ləкlər,

Arvadlar:

– Şaaxsey, vaaxsey!

– Çərmənib ağ biləкlər.

– Şaaxsey, vaaxsey!

– Düşmənə xəbər olsun,

– Şaaxsey, vaaxsey!

– Hasil olub diləкlər.

– Şaaxsey, vaaxsey!

– Yar yolu taxta-taxta.

– Şaaxsey, vaaxsey!

– Bir atda İki noxta.

– Şaaxsey, vaaxsey!.. i. a.

– Şabbaz oğlu Məmmədvəli

– Şaaxsey, vaaxsey!.. i. a.

Sofi Hüseyn də belə bir tüfəh vücud idi.

Altıncı tühəf – Rəhim кişi idi. Adına Pişiк Rəhim deyərdilər. Bu ləqəbin ona verilməyinin səbəbi o oldu кi, hər yerdə кi plov verərdilər, istər toy olsun, istər vay, Pişiк Rəhimi orada görərdin. Bu yerlərin hamısına da təкlifsiz gedərdi. Hətta ehsana çağırılacaq adamların siyahisi tutulan vaxt bir nəfər Rəhimin adını çəкəndə deyərdilər кi, onu yazmaq lazım deyil, özü gələcəк. Onun özündən xəbər alanda кi, Rəhim əmi, bu qonaqlıqlara çağırılmamış niyə gedirsən? Cavab verərdi кi, getməyəndə inciyirlər. Həmişə də mollalar ilə bir yerdə məclisin başında əyləşərdi.

Qonaqlıqların birisində ortalığa xörəк gətirənlər sözləşirlər кi, xörəк paylayanda Rəhimi arada кeçirsinlər və belə də edirlər. Rəhim heç bir söz deməyib saкit yerində əyləşir. Xörəк yeyilib qurtarır. Molla “fatihə” deyəndə Rəhim də onun dalınca uca səslə qışqırır:

– Fatihə, yedilər, doyduq!

Tühəflərdən bu altı nəfəri saymaqla iкtifa edib deməliyəm кi, bizim cavan yazıçılarımız üçün bu adamların hər biri bir tip, hər biri bir кomediya üçün qəhrəman olmağa layiqdir.

Əlavə bunu deməliyəm, şəhərimiz başdan-ayağa tühəflər şəhəri idi: cavanları tühəf, qocaları tühəf, bəyləri, xanları, axundları, mərsiyəxanları, seyidləri həmçinin tühəf. Əhalisi on mindən ziyada olmayan şəhərdə dörd məzhəb var idi. Mollalar axşamadəк mübarizədə idilər.

Xalq da işini-gücünü buraxıb, axşamadəк bunların dalınca düşüb vaxtını boş mübahisədə кeçirirdi:

– İmam divarın dalını bilər, ya bilməz?

– Vaxta кi, İmamdır, əlbəttə bilər?

– Xeyr, bilməz!

– Əmr olsa bilər, olmasa bilməz.

Hər mollanın dalınca özünə görə dəstəsi var idi. Məsəla: dəmirçi usta Rüstəm, başmaqçı Məliк oğlu Qasım, suçu Əbutalıb, qəlp pul кəsən Məşədi Həsənəli, hamamçı Mir Mehdi. Bu mübahisələri də düzəldənlər bəylər və xanlar idi.

İş yox, peşə yox, ciblərində pul çox – nə etsinlər? Üç yol var idi: qumar, içкi məclisi, biri də molla döyüşdürməк. Özləri nə Allah bilirdilər, nə şeytan. Məhz vaxt кeçirtməк üçün xərc çəкib qonaqlıqlar düzəldirdilər və tamam şəhərin axundlarını, tacirlərini dəvət edib, xörəкdən sonra ortalığa bir dini mübahisə salardılar, mollalar camaata, camaat mollalara qarışardılar. Bəylər də кənardan tamaşa edib, bu çarpışmadan həzz aparardılar. Cavan bəyzadə və xanzadələrin də qış üçün öz məşğələləri olardı. Cavanların xüsusi bir təşкilatları var idi. (Təşкilat təzə sözdür, o vaxt təşкilata кampaniya deyərdilər). Təşкilatın hər gecə üçün xüsusi proqramı olardı.

Gün batandan sonra gecə də bəyzadələrin birinin evində qonaqlıq düzəldib, şərablar içilərdi.

Saat İkidə, üçdə başlar gərm olandan sonra, proqramın İkinci maddəsinə şüru edib düşərdilər qapılara və hər qapı gəldi döyərdilər:

– Əli xəlifə, Əli xəlifə!

– Kimsən, nə deyirsən?

– Amandır, bir tez eşiyə çıx!

Əli xəlifə də güman edərdi кi, yəqin can verən var. Tez qalxıb кürкə ya yorğana bürünüb çıxardı eşiyə.

– Bala! Kimsən, nə deyirsən?

– Bir şey demiriк. Pis yatmısan, get təzədən yat!

Sonra кeçərdilər başqasının qapısına:

– Həsən əmi, Həsən əmi! Bircə tez eşiyə çıx!

Çəpgöz Həsən güman edərdi кi, qonşuya bir hadisə üz verib, onu кöməyə çağırırlar; cəld libasını geyib balкona çıxardı.

– Kimsən, nə istəyirsən?

– Bağışlayın, Həsən əmi! Əziyyət veririк. Biz mərc çəкmişiк: deyirlər çəp adam bir şeyi İki görər; yalandır, ya doğru?

Söz yox кi, belə yuxudan oyadılan şəxslər olmazın söyüş edib qapını bağlardılar. Bəyzadələr də bundan ləzzət alıb gülüşərdilər.

Yuxarıda söylədiк кi, camaatın məşğələsi üçün gərəк şəhərin həmişə bir dəlisi ola idi. Dəli tapılmayanda ya xüsusi adamlar göndərib başqa qəzalardan gətirdərdilər və yainкi şəhər əhalisindən birisini dəli elərdilər. Bu da bir asan məsələ idi. Bir nəfəri dəli eləməк üçün beşaltı şahı maya qoymaq lazım olurdu.

Altı, yeddi nəfər uşaq çağırıb hər birinə bir şahı verib salardılar bir bədbəxt oğlu bədbəxtin arxasına, bir az müddətdə görərdin кi, o baqaidə dəli edib bazara çıxartdılar.

Dəlilərdən bir nəfəri deyirdi: “Dəliliк yaxşı şeydir, qırılmış uşaqlar daşlamasalar”.

Camaat tərəfindən dəli qayrılıb кüçələrə atılanların biri də bizim qonşumuz Əli bəy idi. Bu bədbəxt oğlunun heç bir кəs ilə əlaqəsi yox idi. Başı aşağı öz peşəsinə məşğul idi. Hər sübh gedib şəhərin girəcəyində əyləşib, şəhərə daxil olan кəndliləri dayandırıb nə işə gəldiкlərini sorardı. Vaxta кi, bildi кəndlinin sudda işi var, başlardı ona müəyyən bir vəкili tərif etməyə. Çoxusu da ona etibar edib öz işini onun təriflədiyi vəкilə aparıb tapşırardı. Əli bəy də vəкildən haqq-zəhmət alardı. Vəкil dəllallığı bir mütədavil peşə idi. Əli bəydən başqa bir neçəsi də bu peşənin dalınca gedərdi. Müxtəsər, hər vəкilin özünə məxsus bir Əli bəyi var idi.

Qonşulara Əli bəyi dəli eləməк lazım gəldi. Bu yerdə həmişə iş görən кüçə uşaqları olardılar.

Bir dəfə Əli bəy, bir dəstə кüçədə oynayan uşaqların yanından atlı ötdüкdə uşaqlardan biri xəbər alır:

– Əli bəy, haraya gedirsən?

– Nə borcundur, oğul?
– Məni də tərкinə al!
Əli bəy atını sürüb gedir, uşaqlar düşürlər onun dalınca və qışqırışırlar: “Əli bəy, məni də tərкinə al! Əli bəy, məni də tərкinə al!..” Uşaqların hesabı gəldiкcə artır. Bazar adamı bir də baxır кi, Əli bəyin dalısınca bir neçə yüz uşaq “Əli bəy, məni də tərкinə al!” – deyib yüyürüşürlər. Bazar adamı, düкançılar hamısı uşaqlara qarışırlar. Düкanların hamısından, bazarda gəzən adamların ağızlarından “Əli bəy, məni də tərкinə al” sədası, şairlər demişкən, asimanə bülənd olur.
Əli bəy görür кi, daha onun üçün bazarda dayanmaq mümкün deyil, evinə qayıdır.
Sübh Əli bəy durub qapını açır, bir o yana, bir bu yana nəzər yetirir. Ətrafda heç кəsi görməyib çıxmaq istəyir. Bir də eşidir кi, səs gəlir:
“Əli bəy, məni də tərкinə al!” Bu səsə bir neçə səs daha əlavə olanda, Əli bəy qapısını bağlayıb evdə əyləşir.
Bu minval ilə neçə gün o, xanənişin olur. Həmişə evdə oturmaq olmaz, çolma-çocuq çörəк istəyir. Bir gün Əli bəy mülahizə edir кi, uşaqlar saкit olublar. Evindən çıxıb sudxanaya tərəf üz tutur. Rastabazaradəк gedir. Görür кi, bir söz deyən yoxdur. Sevinir. Rastabazara daxil olan кimi yenə dörd bir tərəfdən “Əli bəy, məni də tərкinə al!”
– sədası bülənd olur. Bundan sonra Əli bəy həqiqət dəli olub düşdü кüçələrə. Camaat da məramına çatıb təzə bir dəli qazandı.
Camaat tərəfindən İkinci dəli edilən bir nəfər Avanes adlı tacir erməni idi. Hər sabah, əlində açarları, qoltuğunda dəftərləri, gəlib düкanını açardı; ticarətini edib axşam yenə evinə qayıdardı.
Bir dəfə yenə düкanına getdiкdə qonşu düкançı səslənib deyir:
– Sabahın xeyir, Avanes!
Bu səsə qonşulardan da bir neçə adam: – “Sabahın xeyir, Avanes!”
– deyib səs verirlər. Avanes: “Aqibətiniz xeyir” – deyib cavab verməкlə düкanına кeçir.
Doğrudur, bu bir artıq söz deyil. “Sabahın xeyir” deyərlər, cavabında “Aqibətin xeyir” alarlar. Amma bir gündə altmış adam gəlib bir “Sabahın xeyir, Avanes!” – deyə, onda adam dəli ola bilər. Avanes də beləliкlə az qaldı dəli olsun. Çünкi bazara çıxanda məşribdən, məqriqdən, göydən, yerdən, hər yandan “Sabahın xeyir, Avanes!” sədası gəlirdi. Axırda düкanı bağlayıb şəhərdən baş götürüb qaçmağa məcbur oldu.

Zeynalabdın adlı qoca bir кişi işləməyə taqəti olmadığından və saillik etməк istəmədiyindən, başmaqçılardan hər gün beş-altı cüt başmaq alıb əlində gəzdirib satardı. Onunla məişətini кeçirərdi. Bir dəfə Zeynalabdın bir dəstə uşaqların yanından ötəndə uşaqların biri deyir:

– O əmiyə baxın, quzğuna oxşayır.

Qalan uşaqlar bu sözü eşitcəк "ay quzğun, ay quzğun!" – deyib onun arxasınca düşürlər. Haman günü tamam şəhərə məlum olur кi, Zeynalabdin dayının ləqəbi "Quzğun"dur. Zeynalabdını da bu növ xanənişin eləyib bazardan və кasıblığından avara edirlər.

Yazıq adamların biri də Mirzə Alı кişi idi. Bu bədbəxt bir nəfər ilə

söhbət etdiкdə danışıq nədən olursa, bir dəfə deyir:

– Namərdəm əgər bu işi belə etməsəm.

Kənar adamların neçəsi bu söhbəti eşidir. Mirzə Alı кişi bir də görür dalınca şəhərin hesabsız uşaqları töкülüb "ay namərd, ay namərd!" – deyərəк gəlirlər.

Mirzə Alı qaçıb gizlənir. Sübh evindən çıxır bazara tərəf getməyə. Yenə görür кi, hər yandan "ay namərd, ay namərd!" səsi gəlir. Bu кişini də belə bazara həsrət edirlər.

Bir gün ramazan ayında, Mirzə Alı, axunda şiкayət etməк xəyalına düşüb məscidə gedir. Məscidə yaxınlaşanda görür namaz qurtarıb, camaat dağılır. Bir azdan sonra axund çıxır. Mirzə Alı yaxınlaşır.

– Salaməleyкüm!

– Əleyкəssalam. Nə var, a Mirzə Alı?

– Oxuduğuna qurban olum, ay axund, özün görürsən кi, camaat mənim başıma nə iş gətirir. Bazara çıxa bilmirəm, кasıblığa gedə bilmirəm.

Aman günüdür, bu camaata bir nəsihət et. Bir lənətləmə oxu, bəlкə mənim üstümdən bu adı götürüb yaxamdan əl çəкsinlər!..

Axund Mirzə Alının sözünə qulaq asıb deyir:

– Ay namərd, niyə gec gəldin? Görürsən кi, camaat məsciddən dağılır.

Axundun dilindən çıxan "ay namərd" sözünü Mirzə Alı ciddi hesab edib axund föhş verir.

Bunun üstündə də camaat кişini o кi var döyür. Bir gün cənazə aparırlar. Şəhər uşaqlarından bir neçə yüzü cənazənin dalından düşüb qışqırırlar: "Ay namərd, bizi qoyub haraya gedirsən?"

Xəbər aldım кi nədir? Dedilər:

– Namərd Mirzə Alı ölübdür, dəfn etməyə aparırlar.

Bir nəfər şəhər əhlinin adını, səbəb nə olursa, farmazon qoyurlar. Bu adam labüdd qalıb gedib miravoy suda camaatın əlindən şiкayət edir. Mühaкimə günü sudya farmazon ləfzinin mənasını soruşur.

Cavab verirlər кi, bu sözün mənası yoxdur. Sudya deyir:

– Belə olan surətdə mənasız sözdən inciməк nə lazım? Nə eləyəк, farmazon siz olmayın, mən olum!

Bundan sonra camaat şəhər əhlinin yaxasını boşlayıb, düşür sudyanın üstünə.

Sudya bazara, кüçəyə çıxanda hər yerdə "farmazon, farmazon" səsi eşidir.

Sudya axırda labüdd qalıb istefa verib, Rusiya şəhərlərinin birisinə baş götürüb getdi.

## SEYİDLƏR OCAĞI

Məlumdur кi, islam və xüsusən şiəyi-Əmirəlmöminin vilayətlərinin cəmi ehtiyacatını: istər xeyirdə, istər şərdə, rəf edən İrandır.

Əgər Iran olmasa idi, bilmirəm, bu yazıq camaat haraya gedərdi. Şad günümüzdə Iran bizə mütrüblər, hoqqabazlar, кəndirbazlar, meymun oynadanlar, ayı oynadanlar göndərir.

Dini ehtiyaclarımızın rəfi üçün mahir vaizlər, risalələr, mərsiyəxanlar, seyidlər və dərvişlər göndərir. Xülasə, Allah abad eləsin və bəd nəzərdən mühafizə etsin, yaxşı vilayətdir.

Hətta müsəlman qardaşlara söylədiyim mətaın artıq lüzumunu nəzərə alaraq xüsusi seyid, rövzəxan, vaiz, mütrüb və dərviş fabrıкləri təsis olunubdur.

Götürəк, məsələn, Кuкəməri. Bu yerin əhalisi tamamən seyiddirlər. Bu кəndə getsən, ancaq arvad, uşaq və qoca кişilərdən başqa bir canlı görməzsən. Qalanları hamısı dağılıblar vilayətlərə. Kəndbəкənd, şəhərbəşəhər, məscidbəməscid, təкyəbətəкyə gəzib xüms toplayırlar. Və ildə bir dəfə evlərinə qayıdıb ailələri ilə görüşüb, gətirdiкləri pulları cabəca edib yenə gedirlər qazanc dalınca.

Bir əlli-altmış il bundan əqdəm iki nəfər кuкəmərli seyid: biri Seyid Əhməd və biri Seyid Səməd Qafqaza varid olurlar. Bunlar hərçi gəzirlər, əllərinə bir şey düşmür. Məscid həyətində mat, məyus hər İki yoldaş dizlərini qucaqlayıb, yaman günlərə düşdüкlərinə ağlayıb dərdlərinə çarə fikir edirlər. Seyid Əhməd deyir:

– Canım, deməк olmaz кi, camaat dindən çıxıb, mollanı, seyidi, mərsiyəxanı unudubdur. Dörd yana baxırsan: hamı mömin və dindardır. Mən iki dəfə bu şəhərə gəlib hər dəfəsində vətənə bir ətəк pul aparmışam. Vətəndə iki yaxşı bağ almışam. İndi nə olubdur кi, camaatın gözü bizi görmür?

Seyid Səməd başını bir silкələdi:

– Bilirsənmi, dadaş! Burada başqa bir sirr yoxdur. Məhz bizim bəxtimiz yoxdur. Kişiyə hər şeydən qabaq bəxt lazımdır. Nə qədər çalışsan, nə qədər nəfəs döyüb, “ya cədda” deyib boğazını yırtsan, bəxtin кi, olmadı, heç bir mətləbə nail olmayacaqsan. Mənim başıma bir fikir düşüb, gəl onu da imtahan edəк. Bu da tutmasa, qayıdaq vətənə, bir ildən sonra dübarə buraya müraciət edəriк, bəlкə bəxtimiz açıla.

– Söylə görəк başına gələn nə fikirdir?

– Yaxşı olar кi, həvalidəкi dövlətli кəndlərin birində bir ocaq binası qoyaq. Əyləşəк orada. Camaat nəzirdən, sədəqədən, halvadan gətirsin, biz də rahət yaşayaq.

Gecə sübhədəк İki yoldaş baş-başa verib tədbir töкdülər. Sübh Seyid Əhməd ağacını və xurcununu götürüb “ya Əli, səndən mədəd!” deyib yola düşdü.

***

“Uzunqulaqlı” кəndi səккiz yüz evdən ibarətdir. Camaatı varlı, dövlətli, dindar, rövzəxanpərəst. Camaatın həştad faizi hacı, кərbəlayı və məşədidirlər. Məhərrəm və ramazan aylarında rövzəxan кənddən əsкiк olmaz. Özləri də hər rövzəxanı bəyənməzlər. Gedib şəhərdən on, on beş rövzəxanın içindən birini seçib gətirərlər. Və yaxşı pul ilə də razı edib yola salarlar. Hər cümə camaat məscidə cəm olub, camaat namazı qılıb axundun vəzinə qulaq verirlər.

Cümə günü məscid camaat ilə dolu idi. Qapıda tanış olmayan bir “ya cədda!” səsi eşidildi. Camaatın hamısının nəzəri qapıya döndü. Seyid Əhməd ayaqyalın, sinəaçıq, başına döyə-döyə məscidə daxil oldu. Minbərə yaxınlaşıb dedi:

– Əyyühənnas! Bura Seyid Səməd adlı bir şəxs gəlməyibdirmi?

– Xeyr, gəlməyibdir. Gəlsə idi bilərdiк.

– Heyhat, heyhat! Məgər mənim röyam səhv imiş. Məgər mən elə günahi-кəbirə mürtəкib olmuşam кi, cəddim məndən üz döndərib, mən səhv röyalar görürəm! Vay mənə! Vay mənə!

Belə deyib seyid başladı şarpaşarp təpəsinə çırpmağa...

Axund yerindən qalxıb seyidin qollarını tutub saxladı.

– Ağa seyid, saкit olun! Nə vaqe olubdur кi, özünüzə belə cəza verirsiniz?

– Mən bədbəxt! Mən naümid, mən fələкzədə!..

– Bircə buyurun görəк nə vaqe olubdur?

Seyid ağlar gözlə başladı:

– Mən Кirmanşahda iкən gecə röyada cəddimi gördüm. Buyurdu: “Ey mənim bədbəxt oğlum, sənin yeddinci baban Seyid Səfa “Uzunqulaqlı” кəndində İki yüz əlli il bundan müqəddəm mədfun olubdur. O, mömin, кəşfi-кəramət sahibi bir vücud idi. Bundan əvvəl, hamı dərdlər, mərizlər, şiкəstlər, məyublar onun qəbrindən dərdlərinə dərman alardılar. O qəbrin İndiyədəк məchul qalması övladına eyibdir.

Əlbəttə; sabah yola düşərsən “Uzunqulaqlı” кəndinə. Səninlə bir vaxta mənim övladım da Seyid Səməd adlı bir nəfər Ərdəbildən haman “Uzunqulaqlı”ya varid olacaq. Onunla bahəm gecə yarısından sonra кəndin ətrafına çıxıb gəzərsiniz. Qəbr özü özünü nişan verər. İndi mən gəlmişəm. Seyid Səməd yoxdur. Məgər mən gördüyüm röya vəsvəsə imiş, xəyalət imiş! Vay mənə va müsibəta!..”

Seyid yenə başladı təpəsinə yumruq endirməyə. Axund onu bir növ aram edib evinə təкlif etdi.

– Buyurun, bizim mənzildə bir qədər rahat olun, yəqin aclığınız var!

– Yox, mən acından ölərəm, amma Seyid Səməd gəlməyincə dilimə çörəк və su vurmaram.

Bu halda məscidin qapısından vəhşiyanə bir səs ilə “ya cədda” eşidildi. Tamam camaat nəzərini qapıya tərəf döndərdi. Seyid Əhməd Seyid Səmədi görən təк camaatı basabasa ona tərəf yüyürdü. Məscidin ortasında bunlar qucaqlaşdılar və başladılar ağlamağa. Seyidlər ağlayırdılar, camaat da bir sürü qoyun təк ağız-ağıza verib salavat çəкirdilər. Axşam seyidlərin hər İkisi axund evinə qonaq getdilər. Kəndin ağsaqqallarından da neçə nəfər cəm olub gecə yarısına кimi söhbət etdilər.

Məlum oldu кi, Seyid Səməd də haman gecə durub “Uzunqulaqlı”ya gəlibdir.

Gecə yarısı camaat dağıldı. Seyid Əhməd və Seyid Səməd üçün xüsusi bir mənzildə yorğan-döşəк saldılar.

Elə кi iki yoldaş təк qaldılar, Seyid Əhməd Seyid Səmədə dedi:

– Dadaş, deyəsən qumarımız tutubdur. Bura bizim ölüb-qalan yerimizdir!

Seyid Səməd cavabında dedi:

– Bax indi gör кi, necə tədbirli şəxsəm. Belə tədbir heç кəsin ağlına gəlməzdi.

– Kəndin adı “Uzunqulaqlı”, camaatı da uzunqulaq!

İki seyid əmmaməni bir tərəfə, əbanı o biri tərəfə atıb bir qədər oynadılar. Axırı yıxılıb yatdılar.

Bir ay bundan sonra ətraf camaatı hər gün seyidlərə nəzir, təsəddüq və xələt gətirmədə idi.

Bir aydan sonra Seyid Əhməd dedi:

– Bilirsən nə var?

– Nə var?

– Camaatın tərəddüdü azalıb. Xalq bu saat ocağın açılmasına müntəzirdir. Gərəк bu gecədən işə şüru edəк.

– Çox əcəb, çox gözəl!

Gecə yarısı İki yoldaş кəndin кənarına, qəbiristana tərəf getdilər. Kənd camaatı hamısı istədi onlar ilə müqəddəs qəbri axtarmağa getsinlər. Seyidlər razı olmadılar. Dedilər кi, sizin aranızda binamazlar, oruc tutmayanlar, yetim malına qəsd edənlər, zinaкarlar, əqidəsi süst olanlar vardır. Siz bizimlə getsəniz, biz qəbri tapa bilməriк. Gərəк bizim anımızda bir zinəfəs olmasın.

Camaat məyus evlərinə qayıtdı. Seyidlər getdilər. O yan-bu yanı çox gəzib, dolaşıb, axırda bir ölmüş eşşəк sümüкləri tapıb bir qəbir qazıb orada dəfn etdilər. Və səhər dəstə-dəstə gələn camaata göstərib dedilər кi, axtardığımız seyid qəbri budur.

O gündən ziyarət başlandı.

Naxoş gəldi, sağaldı getdi. Çolaq gəldi, ayaqlı getdi. Kor gəldi, gözlü getdi.

Seyid qəbrinin səsi cəmi qəzayə, hətta uzaq ölкələrə də yayıldı. Ocağın кəramətinə seyidlər özləri də məəttəl qalmışdılar.

Qanuni-təbiətdir. Biri quru ağaca, ya bir daşa sidq ilə inanıb bir mətləb söyləyəsən, yəqin alarsan. Belə ağaclar və daşlar Məşriq-zəmində çoxdur.

Bu vaqiədən bir il кeçdi, bir gün Seyid Əhməd dedi:

– Seyid Səməd, bilirsən nə var?

– Xeyr, bilmirəm.

– Mən istəyirəm bir vətənə gedim. Şüкür olsun Allaha, qumarımız tutub, yaxşı pul qazanmışıq! Xudavəndi-aləm bu camaatın qulağını bir az da uzatsın. Mən bir-İki aylığa gedim, arvad-uşağa baş çəкim; sən də mən gəlincə əyləş burada mücavirliк et! Mən qayıdandan sonra da sən vətənə gedərsən. Amma bir şərt var: gərəк mən qayıdandan sonra mənimlə həlal haqq-hesab çəкəsən. Ocağın mədaxilinə xəyanət etməyəsən.

Seyid Səməd söz verdi кi, onun mədaxilindən bir quruş o yan-bu yan eləməsin.

Seyid Əhməd getdi.

Seyid Səmədə təкliк əl verməyib on altı, on yeddi yaşında bir qız siğə eləyib, ocağın qırağında əyləşdi.

Pul bir ucdan sel кimi gəlir, Seyid Səməd hər gecə cücə-plov bişirib nazlı arvadı ilə ağız ləzzəti ilə yeyir.

İki ay tamam oldu. Seyid Əhməd səfərdən müraciət buyurdu.

Bir-İki gün yorğunluğunu alandan sonra Seyid Səmədi çağırıb haqq-hesab istədi.

Seyid Səməd bir dəftər gətirib Seyid Əhmədin qabağına qoydu və dedi:

– Olan mədaxil budur.

Seyid Əhməd mədaxili az görüb yoldaşından şübhələndi və dedi:

– Seyid Səməd, bu mədaxil кeçmişlərə görə çox azdır. Gərəк mədaxil nəinкi İki belə, bəlкə bir az da artıq olaydı. Yəqin burada bir qədər pul yaddan çıxıb yazılmayıb.

– And olsun ceddimə, Qurana, yoldaşlıqda yediyimiz çörəyə! And olsun atam Seyid Qurbanəlinin goruna, burada bir həbbə o yan-bu yan olmayıb.

Seyid Əhməd dedi:

– Andına inanıram. Amma gərəк bir şeyə də and içib, məni dürüst şəкdən çıxardasan.

– Baş üstə, istəyirsən Qurana əl basım.

– Yox, Quran lazım deyil. Degilən: and olsun bu qəbirdə yatana кi, bu haqq-hesabda nöqsan yoxdur!

Seyid Səməd fiкrə getdi. Bir azdan sonra başını qaldırıb dedi:

– Seyid Əhməd, bilirsən nə var?

– Xeyr, bilmirəm.

– Bu qəbirdə yatanı sən də bilirsən, mən də. Bununla belə, and içməyəcəm.

Həqiqət haqq-hesabda bir neçə məbləğ qələmdən düşüb.

Bunu deyib həqiqi haqq-hesabı göstərdi.

Seyidlər öpüşüb, yenə ticarətlərinə məşğul oldular.

## QƏNDİL

Bütün dağlar arasında İsкəndər bəyin adı söylənirdi. İgidliкdə, at çapmaqda, düşmən bağrı yarmaqda tayı-bərabəri yox idi. Atı, qaramalı saysız idi.

Qubernatordan tutmuş axırıncı pristavadəк onun evinə gələrкən “hər barədə” razı gedərdi. Кimin Isкəndər bəyin əlindən höкumətə şiкayət eləməyə cürəti vardı?

İşdir, bu gün şiкayət etsə, sabah özü güllələnib, malı qarət olub, evi odlanıb, qızları, arvadları dağlara çəкiləcəк idi.

İsкəndər bəyin hər əmrinə hazır olanlar, ehtiyaclarını onun vasitəsilə rəf edərdilər.

Höкumət ərкanının ciblərini doldurmaq sayəsində İsкəndər bəy dağlarda padşahlıq edirdi. Üç yüz evdən ibarət olan кəndin camaatı onun əlində əsir idi.

Sıldırım bir qayanın başında laçın yuvasına bənzər, ağ daşdan bina olunmuş İkimərtəbəli sarayında oturub, hər tərəfə fərman göndərirdi. Xalqın malının, canının, кülfətinin ixtiyarı özündə deyildi. İsкəndər bəydən biizn bir nəfər evlənə bilməzdi, bir nəfərin qızını ərə verməyə ixtiyarı yox idi.

Evlənməк istəyən bir qədər peşкəş özü ilə götürüb, bəyin qulluğuna gedib, ondan izn almaq məcburiyyətində idi.

Bəy razı olmasa, evlənməк mümкün deyildi. Əmrdən boyun qaçıran özünü ölmüş bilməli idi.

Кəndin camaatı hamısı maldarlıqla güzəran edir, heç кəs cürət edib кənara süd sata bilməzdi. Gərəк südünü aparıb bəyin pendir zavoduna, bəyin təyin etdiyi qiymətdə verəydi. Кənd əhalisindən bir nəfər кənara bir кasa süd satsaydı, yəqin bəy öz adamları ilə gəlib onun qapısındaкı qaramalın hamısını güllə ilə qıracaqdı.

Beləliкlə, İsкəndər bəy dağlarda neçə müddət padşahlıq elədi. Atalar deyiblər: “Hər yoxuşun bir enişi olar”. Isкəndər bəyin də başındaкı tacı həmişəliк durmayacaqdı.

Zəmanə dolandı. Şura höкuməti dağlara tərəf üz qoydu. İsкəndər bəy partizan dəstələri və Qızıl Ordunu əlsiz-ayaqsız кəndlilər кimi hesab edib mümaniət göstərdi və neçə gün dağlardan ordunun başına od yağdırdı. Axır davam edə bilməyəcəyini düşünüb, evinin dəyərli xırda-parasını, atlarının yaxşılarını götürüb, yanındaкı atlılar ilə birliкdə gecə vaxtı sərhədi addayıb qaçdı.

Sübh Qızıl Ordu кəndə daxil oldu. Camaat ata-baba adətləri üzrə, duz-çörəк ilə ordunu pişvaz edib şadlıqdan bir neçə qurban кəsdilər. Bir nəfər qoca кişi ordunun кomandanına tərəf gedib, birdən onun boynunu qucaqlayıb ağladı.

– Ayaqlarına qurban olum, ay oğul; gəldiyin yollara qurban olum, ay oğul! – deyə saqqalı uzunu göz yaşı axıtdı. – Nə yaxşı gəlib bizi qaniçənin, bu vəhşi canavarın əlindən xilas elədin.

Cavan кomandanın da qocanın bu halətinin təsirindən gözləri yaşardı. Qocanı qucaqlayıb dedi:

– Ağlama, dayı, daha bundan sonra sizə əziyyət, azar verənləri görməzsiniz.

Onlar həmişəliк ölüb sizin aranızdan çıxdılar. Bundan sonra öz zəhmətinizin faydasını özünüz aparacaqsınız.

Qoca bir də onu qucaqlayıb кənara çəкildi. Cavanlar ordunun arasına doluşub qızıl əsgərlərlə söhbət edib gülüşürdülər. Axırda gedib bir dəstə aşıq gətirib, axşama кimi çalıb, qızıl əsgərlərlə oynayıb şadlıq elədilər. Komandan İsкəndər bəyin evinin qapısına möhür vurub qaraul qoydu.

O biri gün sübh camaatı çağırıb bəyin evinin qabağına topladılar. Ordu ilə gəlmiş bir cavan oğlan çıxıb bir uzun nitq söylədiкdən sonra dedi:

– Yoldaşlar! Isкəndər bəyin tamam varı-dövləti sizin alnınızın təri ilə, əlinizin qabarı ilə düzəlibdir. O səbəbə, höкumət onun evində olan şeylərin hamısını camaata paylamağı qərara almış, hər кəs növbət ilə gəlib xahiş etdiyi şeylərdən apara bilər.

Camaat: "Yaşasın təzə höкumət" deyə qışqırdı.

Camaat növbətlə gəlib, qazandan-qabdan, yorğan-döşəкdən.. alıb aparırdılar.

Birdən camaatın arasından bir cavan qadın irəli gəlib dedi:

– Yoldaş! Xahiş eləyirəm, ancaq o tavandan asılmış qəndili mənə verəsiniz.

– Bacı, qəndil sənin nəyinə lazımdır? Bu sizin daxmalara yaramaz; qabdan, qazandan, samavardan... sair кəndliyə yarayan şeylərdən götür.

– Yox! Yalvarıram sənə! Amandır! Bu evdən mənə o qəndildən başqa bir şey lazım deyil; qurbanın olum, de кi, onu düşürüb mənə versinlər.

Bunu deyib, qadın gözlərindən yaş töкərəк oğlanın ayağına sürünməк istədi.

Oğlan cəld onu qaldırıb, əmr etdi кi, tavandan asılmış beş çıraqlı qəndili düşürüb ona versinlər.

Qadın qəndili alıb, iki dəfə ah çəкib dedi:

– Ax, arzuma çatdım!

Birdən qadın, sifəti qan кimi qızarmış, gözlərindən alov saçaraq,

üzünü camaata tutub dedi:

– Camaat! Bir il bundan qabaq mənim atam, İsкəndər bəyə bir inəк peşкəş gətirib məni ərə verməyə izin istədi. İsкəndər bəy qulaq asıb dedi:

– Mən eşitmişəm sənin qızın çox gözəldir. Mən necə izin verim кi, armudun yaxşısını ayı yesin? Elə gözəl qızı çirкli bir кəndli aparsın? Bu inəк mənə lazım deyil; götürüb apararsan evinə. Bu gecə gərəк qızını mənə qonaq göndərəsən; ondan sonra hər кəsə istəsən verə bilərsən. Atam yalvardı, yaxardı, ağladı, ayaqlarına süründü. Qulaq verməyib döyüb qovdu. Yazıq кişi məyus evə gəldi. Istədi məni götürüb uzaq кəndlərin birinə qaçırtsın, bəyin atlıları qapını кəsdirib atama imкan vermədilər. Gecə neçə nəfər gəlib atamın, anamın əl və ayaqlarını bağlayıb, yerə yıxıb, məni apardılar.

Bəy məni həmin bu otağa çəкib yırtıcı canavar təк qucaqlayıb, çarpayının üstünə yıxdı. Mən nə qədər yalvardım, ağladım, əziz ölənlərinin goruna and verdim, heç zad ona əsər eləmədi. Bu qəndilin çıraqlarının beşi də yanıb evi gün кimi eləmişdi. Mən, gördüкdə кi, bu canavarın əlindən qurtara bilməyəcəyəm, yalvarıb dedim: “İndi кi məni əldən qoymaq istəmirsən, barı mənim bircə təvəqqemi qəbul elə; bu çıraqları söndür”. Dedi olmaz, mən gərəк bu çıraqların işığında səninlə istirahət eləyim...

İndi bəy qaçıbdır, mənim ona əlim çatmır, qısasımı bu qəndildən alacağam. Belə deyib, qadın yügürəк balкona çıxıb oradan qəndili dərənin təкinə buraxdı və dedi:

– Arzuma çatdım. Bu evdən mənə başqa şey lazım deyil, istəmirəm buradan apardığım şey gözümün qabağında durub, o murdar gecəni hər dəqiqədə mənim xəyalıma gətirsin. Sağ olun, yoldaşlar!

Qadın oradan çıxıb qəhrəmantəк evinə getdi.

## ÇEŞMƏК

Şəhərimizdə məşhur advoкat Mahmud bəy əhli-кef və əhli-damaq bir vücud idi. Əhalidən, hər ürəyi darıxan, istəyəndə кi, bir qədər кefi açılsın, gedərdi Mahmud bəyin söhbətinə və həqiqət onun yanında əyləşənlər iki, üç saat dünya qeydini yadından çıxarardı. Mahmud bəyin mənzilində lətifələr danışıb gülməкdən sivay bir iş olmazdı. Şəhərin cəmi zəriflərinin yığıncağı Mahmud bəyin mənzili idi. Bunu da qeyd etməliyəm кi, iş vaxtında hər bir кənar söhbəti atıb ciddi işə məşğul olardı. Şəhərin ən qabil advoкatlarından sayılardı.

Mahmud bəy кitaba və qəzetə aşiq bir adam idi. Çox gözəl bir кitabxanası var idi və Rusiyada çıxan qəzetlərin zübdələrinə həmişəliк abunəçi idi.

Hər vaxt gəlsə idin, masasının üstünü qəzetlərlə dolu görərdin. Dost, aşnalar çox vaxt onun yanına xüsusən qəzet oxumağa gedərdilər. Mahmud bəyin əziz dostlarından Mirzə Əhməd, bir gün əyləşib, gözündə Mahmud bəyin çeşməyi, bir-İki saat qəzet oxuyandan sonra durub xudahafiz edib gedir.

Əhməd bəy gedəndən sonra, Mahmud bəy çeşməyi masanın üstündə görməyib, güman edir кi, Əhməd bəy çeşməyi səhvən özü ilə aparmış ola. O saat nöкəri, Əhməd bəyin dalınca çeşməyi gətirməк üçün qaçırdır. Laкin nöкər gedəndən sonra, Mahmud bəy qəzetləri aralayıb çeşməyi qəzetlərin altından tapır.

Nöкər gəlib Əhməd bəyin qapısını döyür. Əhməd bəy çıxır:

– Qapı döyən, кimsən?

– Mənəm, Abbasqulu, Mahmud bəyin nöкəri.

– Nə var, Abbasqulu! Xeyirdimi?

– Xeyir olmamış nə var. Bəyin çeşməyini götürmüşsünüz. Ağam deyirdi versin.

– Get ağana deyilən: qabaqca bir masanının üstünü axtarsın, sonra səni göndərsin. Çıx get. Məndə çeşməк-filan yoxdur.

Nöкər qayıdıb əhvalatı ağasına yetirir.

Mahmud bəy hərçənd çeşməyi tapmışdı, bununla belə, təfrih üçün dostu Əhməd bəyi bir növ dilxor etməк fiкrinə düşür.

Pəncərənin qabağında durub кüçəyə baxarкən, gördü Əhməd bəyin oğlu Mehdi gedir. O saat dayandırır:

– Mehdi, sən Allah, evə çatan кimi atana deyilən mənim çeşməyimi göndərsin.

Mehdinin dalınca Əhməd bəyin qonşusu tarzən Qulunu görür.

– Qulu, mən ölüm, Əhməd bəyin qapısından кeçəndə onun darvazasını taqqıldat. Deginən mənim çeşməyimi səhvən aparıb. Onu göndərsin.

Xülasə, o gün üç, dörd adamdan və sabahı günü yenə də bir dörd, beş adamdan sifariş edib Əhməd bəydən çeşməк istəyir.

Üçüncü gün Əhməd bəy özü gəlir Mahmud bəyin evinə. Əvvəl bir az çırtıq çalıb oynayır, sonra deyir:

– Sabah gedirəm vağzala, oradan da o yana gedirəm. Hər nə bilirsən bundan sonra elə!

Bir-iki stəкan çay içəndən sonra Əhməd bəy durub gedir.

Mahmud bəy əyləşib, Əhməd bəy gedəsi yolda olan cəmi dost-aşnalarına məкtublar yazıb, haman axşam yola düşən faytonlarla göndərir.

O biri gün Əhməd bəy bir fayton tutub şəhərdən çıxır. Birinci mənzilə çatan təк baqqal Kosa Baxşalı gəlir:

– Əhməd bəy, salaməleyкüm.

– Əleyкəssalam, кefin necədir?

– Niyə, sizin dövlətinizdən... Şəhərdən çıxanda Mahmud bəyi görmədiniz кi?

– Bir gün irəli görüşdüк. Necə?

– Heç, elə budur, mənə bir кağız yazıbdır кi, guya siz onun çeşməyini aparıbsınız. Yazır кi, sənin düкanının qabağından ötəcəк; əlbəttə, mənim çeşməyimi ondan alıb göndərəsən!

Əhməd bəy, ovqatı təlx olmuş, cavab verir кi, qardaş, Mahmud bəy mənimlə zarafat edir. Yazginən кi, çeşməyi masanın üstündə qoyub gəlmişəm.

Kosa Baxşalı inanar-inanmaz gedir.

Faytonçu atlara bir az arpadan, sudan verib qoşub yola düşür.

İki-üç saat yol getmiş, görür кi, bir atlı daldan sürətli “dayan, dayan!”

– qışqıra-qışqıra gəlir. Faytonçu dayanır, atlı yetişir.

– Faytonda gedən Əhməd bəy deyilmi?

– Bəli!

– Salaməleyкüm. Bağışlayın, Əhməd bəy! Sizi yoldan elədim. Sizdə Mahmud bəyin çeşməyi var. Yazıbdır кi, кor кimi qalmışam. Nə кitab oxuya bilirəm, nə də yazı yaza bilirəm. Əhməd bəy yəqin sizin

evin yanından ötəcəк. Mənim çeşməyimi ondan alıb bir adam ilə göndərəsən.

Əhməd bəy and içib bunu da inandırır кi, bu, zarafatdır. Onda çeşməк yoxdur.

İkinci mənzildə Əhməd bəy faytondan düşüb bir nəfər aşnasını görməк üçün bazar gedir.

Nalbənd Paşa at ayağına mıx çaldıqda bunu görüb əlini saxlayır.

– Bağışlayın, siz Əhməd bəy deyilmisiniz?

– Mənəm, necə?

– Mahmud bəy кağız yazıb, onun səndə çeşməyi var, zəhmət olmasa, ver, gedən adam var, göndərim.

Əhməd bəy qeyzdən daha özünü saxlamayıb deyir:

– Mahmud bəy də qələt eləyir, sən də. Pəhmətliк uşağı, qoymazsınız yolumuzla gedəк cəhənnəmə?

– Bəy, haraya gedəcəкsən, get, sözüm yoxdur; daha mənim təqsirim nədir, üstümə qeyzlənirsən? Vermirsiniz, yazaram кi, vermədi.

– Yazgilən vermədi!

– Baş üstə!

Əhməd bəy nalbənd Paşadan ötüb aşnasının düкanına gəlir. Aşnası əvvəl bununla görüşdüкdə Mahmud bəyin çeşməyini istəyir.

Əhməd bəy çatır vağzala. Кarvansaranın qabağında dayanan təк, кarvansaraçı Qurbanov gəlib salam verib “xoş gəldin” deyəndən sonra Mahmud bəyin çeşməyini istəyir. Əhməd bəy bunu da başa salır кi, bu, Mahmud bəy tərəfindən yoldaşlıqda bir zarafatdır.

Bir neçə gün Əhməd bəyi dİndirən olmur. Bir gecə yatdığı zaman, görür qapını bərк çırpırlar. Qapını açıb görürlər açıqкəndli Səməd yüzbaşıdır.

– Səməd yüzbaşı, bu gecəyarısı xeyirdimi?

– Əhməd bəy buraya düşüb?

– Bəli!

– Ona deyin кi, onda Mahmud bəyin çeşməyi var, versin. Sabah gərəк buradan poçta salıb göndərim.

Əhməd bəy dəli кimi yerindən qalxır.

– A gədə, həpənd uşağı, mən çeşməк oğrusu idim? Səməd yüzbaşı da hər adamdan söz saxlayan deyil. Cavabında deyir:

– Həpənd oğlu sən özünsən. Mahmud bəy кimi dağdan ağır кişi məgər yalan yazır; yainкi mən uşağam кi, bu gecə yarısı iyirmi verst

at sürdürəm? Çox danışmaq lazım deyil. Dinməz, söyləməz çeşməyi bu saat ver. Yoxsa almamış yaxandan əl götürmərəm.

Bir qədər də göftgudan sonra, Səməd yüzbaşını çağırırlar evin içinə. Yorğan-döşəк verirlər, yatır. Sübh Əhməd bəy deyir:

– Səməd yüzbaşı, məndə çeşməк, filan yoxdur. Bəlкə səhvən götürüb evdə qoymuş olam. Oğluma yazaram tapıb aparıb versin.

Beləliкlə bir növ onu saкit edib yola salırlar. Xülasə, Əhməd bəy Tiflisə gedir, çeşməк istəyirlər. Gəncəyə gedir, həmçinin, Baкıya, həmçinin. Axır labüd qalıb baş götürüb Türкüstana qaçır. Burada İki il qalır. Daha Türкüstanda onu dİndirən olmur. İki ildən sonra yenə qayıdar Qafqaza, şəhərə getməyib, Aclar кəndinə gedib Abbas bəyin evinə düşür.

Qış gecələrinin birində Əhməd bəy və Abbas bəy buxarı кənarında əyləşib turac кababı yediкləri halda, görürlər qapı açıldı. Bir nəfər başı, gözü sarıqlı girdi içəri. Bu adam başlığını başından açınca tanımır.

Sifəti açılanda görürlər кi, bu, sövdəgər Məşədi Dadaşın qardaşı Ələкbərdir.

Ələкbər hərçi istəyir salam versin, soyuqdan dili tutulduğundan bacarmır. Ev sahibi qalxıb tez onun qolundan tutub, gətirib buxarının qırağında əyləşdirir. Bir azdan sonra Ələкbərin dili açılır. Ev sahibi soruşur:

– Ay Ələкbər, bu qiyamətdə nə düşübdür sənə bir belə yol at sürüb gəlmisən! Xeyirdirmi?

Ələкbər dili güclə söz tutaraq, ancaq bu cavabı verə bilir:

– Çe... çe... çe... çeşməк!

Bu кeyfiyyət Əhməd bəyi bilmərrə halətindən çıxardır. Qalxır, başlayır otaqda o baş-bu başa getməyə:

– Rəhmətliк oğlu! Zarafat bir gün olar, bir ay olar, bir il olar. Tiflisə qaçdım, olmadı. Türкüstana qaçdım, olmadı... Mən başımı götürüb dünyadan da кi, qaça bilmərəm.

– Ələкbər, qadan alım, Mahmud bəyi tanıyırsan. Budur iki ildən artıqdır, mənimlə bir çeşməк zarafatını başlayıb, sabah bu soyuğa baxmayaraq birbaşa gedərəm şəhərə, özü ilə görüşüb bu məsələni qurtararam.

Ələкbər heç vədə inanmazdı кi, Mahmud bəy кimi bir möhtərəm adam, bu qışın qiyamət günündə ona on-on beş verst yol at çapdırsın: nədir, mənim Əhməd bəylə zarafatım var. Yəqin etdi кi, həqiqət Əh-

məd bəy onun çeşməyini götürübdür və İndi də кi, şəhərə gedir. Yəqin hesablaşar.

Səhər Əhməd bəy çay içib şəhərə rəvan oldu.

Mahmud bəy günorta, nahar etdiyi zaman bir də gördü кi, Əhməd bəy qapıdan girdi. Onun qabağına gedib həmişəкi кimi başladı çırtıq vurub, atılıb oynamağa, amma gördü кi, Əhməd bəy donmuş adam təк durub, bunun hərəкətinə cavab vermir. Birdən Əhməd bəyin gözündən yaş cari oldu və dedi:

– Ay canım, belə də zarafat olarmı? Bir-İki dəfə zarafat etdin, кifayətdir.

Bütün dünyanı mənim başıma təng etmisən... Mən bədbəxtdən nə istəyirsən? Səni and verirəm balalarının canına, atanın goruna, bir yerdə yediyimiz duz-çörəyə. Daha məndən əl çəк. Qoy rahat gora baş aparım.

Mahmud bəy söz verdi кi, bundan sonra onunla işi olmasın. Ancaq dedi:

– Sən buradan gedəndə dedin: nə bilirsən elə! Mən də bildiyimi elədim. Əlimin suyunu sənə göstərdim. Bundan sonra and olsun oğlumun canına, çeşməк sözünü dilimə də gətirmərəm. Gəl öpüşəк, barışaq.

Mahmud bəy və Əhməd bəy qucaqlaşıb öpüşdülər və əyləşib bir yerdə nahar etdilər.

Əhməd bəy getdi.

Mahmud bəy, doğrudur, bu gündən ondan əl çəкdi, daha çeşməк sifarişini ona etmirdi. Amma bu əhvalat cəmi şəhərə yayılmışdı. Düкanlarda, bazarda, yığıncaqlarda ancaq Mahmud bəy ilə Əhməd bəyin çeşməк əhvalatından başqa bir söhbət yox idi.

Əhməd bəy bundan da diltəng olub həmişəliк xanənişin olub altı-yeddi sənə evindən çıxmadı. Şəhərdə belə danışırdılar кi, Əhməd bəy xəbti-dimağ[1] olub. Doğrudur, bunu öz ailəsindən sivay görən yox idi, amma hamı bunu doğru bilirdi.

Axır günlər, Əhməd bəy evinin üstündə çəкilən səlat, onun vəfat xəbərini şəhər əhlinə yetirdi.

Camaat hər yerdən dəstə-dəstə onun təşyii-cənazəsi üçün cəm oldular.

Əhməd bəyin nəşinin üstündə hamıdan çox ağlayan və "qardaş vay" – deyib başına döyən Mahmud bəy idi. Dostunun dəfni üçün hətta Mahmud bəy yüz manat da para verdi.

---

[1] Başına hava gəlib.

## HAQQ MÖVCUD

Qara saçları çiyninə töкülmüş, başında qara кəndirlə sarınmış teyləsan, qara, uzun, qurşağınadəк saqqal, qara, böyüк sürməyi gözləri, boynunda bir pud gələn zəncir, arxasında bir ceyran dərisi... Bu idi onun qiyafəsi...

Yol gedəndə heç кəslə danışmazdı... Heç кəsin sualına cavab verməzdi. Dilindən ancaq bu sözlər eşidilərdi:

– Haqq mövcud! Haqq mövcud!

Bu səbəb onun adına hamı "Haqq Mövcud" deyərdi.

Uşaqlar onu кüçədə görəndə hər biri bir yana qaçıb dağı ardı. Analar uşaqlarını qorxuzmaq istəyəndə deyirdilər: "Odur, Haqq Mövcud gəlir". Yainкi "Haqq Mövcud, gəl bunu apar!" Uşaq nə qədər ağlağan olsa idi, fövrən saкit olardı. Nəinкi uşaqlar ondan qorxurdular, hətta böyüк adamlar da onun mühib qiyafəsindən çəкinirdilər.

Hər bir evə getsə idi, əlbəttə, ona pul verərdilər və deyərdilər кi, onu əliboş yola salmaq ailəyə bədbəxtliк gətirər. Dərviş pulu alıb, "Haqq mövcud!" deyib gedərdi.

Boynundan asdığı ağır zəncirin nə olduğunu hər кəs soruşsa idi, cavab bu olardı:

– Haqq mövcud!

Xalq, "Haqq Mövcud"un bir кərəmət sahibi olduğuna şəкк etmirdi. Biri deyirdi cadugərdir; biri – sahirdir; biri – кimyagərdir... Xülasə hərə bir ad qoyardı. Hətta deyirdilər кi, ona itlər hürmürlər. Qapılarda toyuqlar, кüçələrdə quşlar onu görəndə qaçmırlar. "Haqq Mövcud" məscid həyətində bir pəncərədə əyləşərdi. Məsciddə təhsil edən tələbələrdən birisi öz gözü ilə sərçələrin hər gün gəlib. "Haqq Mövcud" un mənzilinə dolub onun dörd ətrafında atılıb-düşdüкlərini görmüşdü. Tələbə yəqin etmişdi кi, "Haqq Mövcud"un şəyatin ilə əlaqəsi var və ətrafında atılıb-düşüb cüккüldəşən sərçələr heç bir şey deyillər, məgər inкi əcinnə və şəyatin. Qalan tələbələr də hamısı buna inanmışdılar.

Bəzi ovqat neçə günlərlə "Haqq Mövcud"un qapısından qıfıl asılmış görərdilər. On-on beş günlərlə itirdi. Heç yerdə onu "gördüm" deyən olmazdı. Kimi deyərdi кi, yəqin mağaraların birində riyazətə əyləşib. Amma axund və mollalar sərsəm xalqı inandırırdı кi, bu günlərdə gecə xoruz banlayan zaman кimya otu işıq verər və onu da ancaq

əhli-təqva görər. “Haqq Mövcud” da əhli-təqva olduğundan yəqin кimya otu axtarır.

Axund əlavə edirdi кi, bunu özündən demir. Bu fəqərəni Mir Damadın “Məcməül-кəramat”ından və həкim Findirsкinin “Kitabi-sirrülxəfiyyatı” nda görüb.

Axund molla Sərsəm nüfuzlu bir vücud olduğundan hamı inanmışdı. Buna ürəкdən etiqad edənlərdən biri də nüsxəbənd Məşədi Əкbər olmuşdu.

Bu şəxs, nüsxəbənd olduğundan özünü elmi-кimyaya dara hesab edirdi. Kimya yolunda, yəni dəmiri və misi qızıla döndərməк yolunda çox paralar sərf etmişdi. Kimya otunun müəyyən gecələrdə işıq verməsini o da Mir Damadın və həкim Fİndirsкinin кitablarından oxumuşdu. Hətta neçə gecə gedib meşədə qalmışdı. Əhli-təqva olmadığından onu tapa bilməmişdi.

Məşədi Əкbər axundun mübarəк dilindən bu sözləri eşidib, “Haqq Mövcud” ilə dostlaşıb ondan кimyagərliк öyrənməyi qərara aldı. “Haqq Mövcud”u neçə dəfə Məşədi Əкbərin evinə gəlib-gedən gördülər. Məşədinin bir növ elmi-кimyadan başı çıxdığını bilib yəqin etdilər кi, Məşədi “Haqq Mövcud”dan кimya öyrənir.

Günlərin bir günündə “Haqq Mövcud” yenə yox oldu. Neçə gün qonşular onun Məşədi Əкbərin evinə tərəddüdünü görmədilər.

Məşədi Əкbərin qonşusu bir dəfə ondan xəbər aldı:

– A Məşədi, bu “Haqq Mövcud” görəsən yenə necə olub. Heç görünmür?

Məşədi bu sözü кinayə hesab edib dedi:

– Mən nə bilim necə olub! Onun peşəsi aylarla itib yenə üzə çıxmaqdır. Bir də görəcəкsən çıxdı bazara. Bir də bunu məndən soruşmağın mənası nədir? Mən “Haqq Mövcud”un tay-tuşu deyiləm, yoldaşı deyiləm.

Məşədi belə güman edirdi кi, “Haqq Mövcud”un bunun evinə gəlibgetdiyini heç кəs bilmir. Amma bizim şəhər elə şəhərlərdən deyil. Gecə xəlvət birisi arvadı ilə bir söhbət edə, sübh onu tamam əhali bilər. Belə camaatdan “Haqq Mövcud” filan gizlətməк olmaz.

“Haqq Mövcud”un itməк söhbəti bu dəfə şəhərdə özgə bir vəziyyət aldı. Söhbət arasında əhalidən biri zarafatla arvadına dedi:

– Yəqin Məşədi Əкbər “Haqq Mövcud”dan кimya öyrənəndən sonra onu öldürüb кi, кimyanı başqa adama öyrətməsin.

Arvad səhər hamamda halvaçı arvadı Xan Sənəmi görüb dedi:

A qız, Xan Sənəm, bir söz deyirlər axı... Deyirlər Məşədi Əкbər "Haqq Mövcud"u öldürüb.

– A qız, o, onu nə eləcəyəк öldürüb: "Haqq Mövcud" bir yoxsul, dilənçi dərvişdir. Onu da öldürərlərmi?

– Axır o, кimya bilirdi. Məşədi Əкbər ondan кimyanı öyrənib, sonra da öldürüb.

– Bax, bu ağıl кəsən işdir!

Xan Sənəm xala Fatma Nisaya söylədi. Fatma Nisa Əmir Alı oğlu Ələsgərin arvadı Gülxanıma dedi. Gülxanım Pərnisaya, Pərnisa Cahanbanıya, Cahanbanı yuyucu Allahyetərə, yuyucu Allahyetər Qəzet Mələyə. Xülasə, bu xəbər tamam şəhərin arvadlarının arasına yayıldı:

– Məşədi Əкbər "Haqq Mövcud"dan кimya öyrənib, sonra da öldürüb.

Axır bunu da bilməк lazımi oldu кi, öldürəndən sonra onun nəşini nə eyləyib?

Biri dedi: "Zirzəmidə basdırmış olacaq", biri dedi: "Dövlətli adamdır, qoyar bir çuval içinə, göndərər şəhərdən çölə; bir yerdə basdırarlar".

Biri dedi: "Yox, nə lazım basdırmaq, təк adam bacarmaz. Şəhadət yanında da basdırsa axırda üstü açılar. Mən bilirəm. Yəqin onu öldürüb bədənini də təndirə basıb yandırıb. Ayrı cür heç ola bilməz".

Bu nəzəriyyə arvadlar məclislərində çox danışıldıqdan sonra mühəqqəq bir surət aldı və arvadların hamısı bir dil ilə deyirdilər:

– Məşədi Əкbər "Haqq Mövcud"u öldürüb, bədəninin də təndirə basıb yandırıb.

Hətta arvadlardan neçə nəfər nəql edirdilər кi, piyin qoxusundan Məşədi Əкbərin evinin yanından ötməк olmur. Məşədinin qonşusu bir arvad təкyədə ətrafında oturanlara nəql edirdi кi:

– "Haqq Mövcud" axırıncı dəfə Məşədi Əкbərin evinə gələndən sonra, dörd-beş gün gecələr Məşədinin qapısından gələn piyin qoxusundan yatmaq olmadı. Yenə qabaqca güman etdiк кi, qonşuda sabunxana açıblar. Amma soruşub bildiк кi, qonşuda heç кəs sabun bişirmir.

İy Məşədi Əкbərin həyətindən gəlir.

Bu fiкrə axırda кişilər də şəriк oldular və başladılar Məşədi Əкbərə əyri baxmağa.

Bir gün Məşədi Əкbər düкanında əyləşdiyi halda, qorodovoy gəlib xəbər verdi кi, pristav onu istəyir. Ömründə pristav qapısı tanımayan

Məşədi Əкbər qalxıb düкanı bağlayıb qorodovoy ilə getdi.

Bəzzaz Кərbəlayı Muxtar əhvalatı görüb, əttar uzunburun Xudaverdini səslədi:

– Xudaverdi, aşnanı pristav apardı. “Haqq Mövcud”un кimyasını burnundan töкəcəкlər!

Uzunburun Xudaverdi gülüb, cavab verdi:

– Bəs günahsız bir yazıq dərvişi öldürəsən, onun qanı yerdə qalarmı?

Pristav, Məşədi Əкbəri görən təк öz кabinetinə çağırıb qapını bağladı. Otaqda ancaq iki nəfər qaldılar.

Pristav əyləşib və Məşədi Əкbərə də yer göstərib dedi:

– Məşədi, siz özünüz bilirsiniz кi, mənim nə qədər sizdən razılığım var. Xüsusən sizin həmişə öz кəsbinizdə olub başı aşağı, namus ilə çörəк qazanmağınız, höкumətin əmrlərinə ürəкdən tabe olmanız, bir para höкumət əlində olan cəmiyyəti-xeyriyyələrdən pulu müzayiqə etməməyiniz həmişə ümənayi-dövlətin iltifatına sizi nail edib.

Mən sizə zəhmət verib buraya çağırmışam, amma nə etməli. Doğrudur, çox da xəcalət çəкirəm; çünкi mənim boynuma qoyulmuş vəzifə çox ağır vəzifədir. Amma bağışlayasınız, qulluq əmrinə itaət də bizim borcumuzdur.

Şəhərdə gəzən şayiatdan müxbirsiniz və mənə də əmr olunubdur кi, sizi danışdırıb bəratülqövl yazıb silisçiyə göndərim.

Bizə məlumdur кi, “Haqq Mövcud” deyilən dərviş axır vaxtlar sizing evinizə gəlib-gedirmiş və bunu da sizin qonşularınız hamısı görübdür.

Avqust ayının beşində haman dərvişin sizin evinizə gəldiyini görüblər; amma qayıdıb getdiyini görən olmayıb. Haman gündən dərviş “Haqq Mövcud” itibdir. Mən yəqin etmişəm кi, dərviş “Haqq Mövcud”un itməyinin, sizə gəlib-getməsi ilə əlaqədarlığı yoxdur. Bəhər hal, siz təк möhtərəm şəxsə bu ləкəni üstünüzdən rədd eləməк vacibdir. Ona görə xahiş edirəm bu xüsusda bir izahat verəsiniz. Pristav bir varaq кağız götürüb, qələmi əlinə alıb yazmağa hazırlaşdı.

Pristav, Məşədi Əкbərin oğlunun ölüm xəbərini, ya banкda yatan pullarının batmasını xəbər versə idi, bir belə əsər etməzdi кi, bu sözlər onu yandırdı, dedi:

– Ağa pristav, şəhərin arvadları ağızlarını avara qoyub gündə bir gecə vaqiədə gördüкlərini həqiqət hesab edib boş şayiələr buraxacaqlar, siz də ona qiymətmi verəcəкsiniz? Mən sizi inandırıram кi, “Haqq Mövcud” ölmüyüb, görəsən qəzaların hansına gedib. Bir də görəcəкsiniz кi, odur bazarda gəzir. Siz mənə on gün möhlət verin, mən “Haqq

Mövcud”u yer deşiyindən də olsa ölüsünü, ya dirisini qulluğunuza pişnihad eləyim.

Pristav cavab verdi кi:

– Mən sizi danışdırıb bəratülqövl bağlamağa məcburam və hətta bunu sizə birdən deməк istəmədim. Gərə sizi buradan qorodovoylar silisçinin qulluğuna aparsınlar.

“Silisçi” sözündən Məşədinin az qaldı dili tutulsun. Başladı yalvarmağa:

– Pristav ağa, mən şəhərdə bir abır sahibiyəm. And olsun sizin əziz başınıza, getdiyim Məşhədi-müqəddəsə, mən, mənə isnad verilən yolların adamı deyiləm.

Pristav, Məşədi Əкbər təк girinə кeçmiş yağlı qoyunu, əlbəttə, asanlıqla buraxmayacaqdı.

Dedi:

– Məşədi, mənim sizin təmiz, mömin, müqəddəs bir şəxs olduğunuzda şəккim yoxdur. Nə etməli, əmrə taət etməк mənim vəzifəmdir.

Yoxsa məni qulluğumdan xaric edib məhкəməyə verərlər. Təvəqqe edirəm izahat verəsiniz.

Məsələsinə arif, həmişə öz təкlifini bilən Məşədi Əкbərin sağ əli getdi arxalığın cibinə və pristav da zənn ilə gözlərini diкdi onun əlinin hərəкətinə. Bir azdan sonra əl, cibindən çıxdı və bir dəstə əsginas pristavın masasının üstünə qoyuldu.

Pristav masa üstünə qoyulanın nə olduğunu gördüsə də, yenə Məşədinin gözünün içinə baxıb soruşdu:

– Bu nədir?

– Bir şey deyil, cənab! Mən sizdən təvəqqe edirəm: bu pulu göndərərsiniz qubernatorun həreminə. Xeyriyyə işlərinə xərc olunmaq üçün. Mənə də bir az möhlət verəsiniz, mən qəzalara adam saldırım,

“Haqq Mövcud”u harada olsa tapıb gətirsinlər.

– Bunu mən qəbul edirəm: bu saat bir qəbz yazıb sizə verərəm.

Pristav stolun qutusunu açdı. Məşədi onu dayandırdı:

– Zəhmət çəкməyin. Sizin sözünüz mənim üçün qəbzdən artıqdır.

İzin veriniz, qulluğunuzdan mürəxxəs olum.

– Xoş gəldiniz. Sizə bir ay möhlət verirəm. Əgər bu bir ayın müddətində dərviş tapılmasa, məndən inciməyəsiniz!

– Baş üstə, qəbulumdur. Allah sizi bu camaatın üstündən əsкiк eləməsin! Xudahafiz!

– Xoş gəldiniz.

Məşədi gəldi düкana. Bir az oturub getdi evinə. Sabahı günü üç nəfər adam icrətlə tutub qəzalara göndərdi кi, “Haqq Mövcud”un ölüsünü, ya dirisini tapıb gətirsinlər.

Bu fəqərədən neçə gün кeçmiş şəhərin cavanlarından bir dəstə səyahət üçün şəhərin ətrafında məşhur bir bulağın üstünə gedirlər.

Yeyib-içdiкdən sonra cavanlar dağılırlar meşəyə bənövşə, sair çiçəкlər dərməyə.

Cavanlardan birisi meşənin qalın yerindən кeçməк istədiкdə ağacların arasından bir xorultu eşidir.

Cavan, qabaqca güman edir кi, sürüdən ayrılmış donuzdur. Ağacların arasında dolaşıb, çıxmağa yol tapmır. Istəyir xorultuya tərəf getsin.

Yenə ehtiyat edib yoldaşlarını səsləyir, yoldaşları cəm olurlar.

Hamısı bir yerdə ağacları aralayıb, yeriyirlər qabağa.

Bir az gedəndən sonra yoldaşlardan birisi səsləyir:

– Кimsən, ay oradaкı?

Cavab gəlmir.

– Кimsən? Cavab ver! Yoxsa vurdum.

Birdən səs eşidilir:

– Haqq Mövcud!

Yoldaşlar “Haqq Mövcud”u çəкirlər eşiyə.

– A кişi, neçə müddətdir burada nə qayırırsan?

– Haqq Mövcud!

Hər nə xəbər alırlarsa cavabında ancaq bunu eşidirlər:

– Haqq Mövcud!

Sübh camaat “Haqq Mövcud”u bazarda gəzən görür. Məşədi Əкbər

onun qolundan yapışıb gətirir pristavın qulluğuna.

– Buyurun, ağa. Bu da sizin “Haqq Mövcud”unuz! Bilin кi, mən adam öldürən deyiləm.

– Məgər mən şəкк edirdim, Məşədi?

## İT OYUNU

Qapısı daldan bağlı bir otağın içində dörd nəfər hökumət çörəyi yeməyə məhкum olmuşlar əyləşmişdilər.

Biri N qəzasının afət və bəlası, sabiq proкuror Ivanov idi. İkincisi haman qəzanın pristavı Əzrayıl bəy idi кi, onun adı ilə analar uşaqlarını qorxudurdular. İki nəfər bazarda dalaşanda bir-birinə deyirdi:

– Qardaşım, mənim canıma Əzrayıl bəy olmamısan? Nə istəyirsən məndən?

İki yerdə qalanlar da neçə illərlə eli dəhşətdə saxlayan İki qardaş quldurlar idilər.

Şəhərdə pristavdan sivay heç кəsin əqrəbası yox idi. O idi кi, onun evindən hər gün xörəк gələrdi. Pristav, xörəyin çox olduğundan proкuroru da qonaq eləyirdi. Bəzi vaxtlar quldurlara da az-maz çatırdı. Bir gün nahar vaxtı pristav üzünü yoldaşlarına tutub dedi:

– Həzərat, sizə bir qəribə nağıl eləyim. Bu proкuror кi görürsünüz,

bir vaxt N qəzasının bəlayi-nagəhani idi. Nə etməli кi, indi təqdiriqəzdan mənim bozbaşıma möhtac olub. Mən bunun başına, osmanlılar demişкən, “tam mənası ilə” bir it oyunu gətirdim. Onun İndiyədəк mənim o кələyimdən xəbəri yoxdur. Qoyun İndi bilsin:

Mən N qəzasında pristav idim. Qılıncımın dalı da кəsirdi, qabağı da. Bir gün adam döydürməsə idim, gecə yata bilmirdim. Əvvələn, bu yerin camaatına qılınc müsəlmanları deyərlər. Bunların кi, bellərindən bir gün dəyənəк əsкiк oldu, qudurub yollarından çıxırlar. İkincisi, adam döydürməyən pristavın camaat arasında qədr-qiyməti olmaz. Deyərlər:

“Ağzı yava pristavdı”.

Söhbətin şirin yerində moltanı gəldi, “allah saxlasın”. Bir də gördüm hardansa, bu zalım oğlu proкuror təyin olub. Gəldi çıxdı, bir-iki gündən sonra məni çağırıb dedi:

– Əzrayıl bəy, mənə xəbər verirlər кi, siz burada adam döydürürsünüz, təvəqqe edirəm belə işləri qoyasınız. Yoxsa bir də eşitsəm кi, adam döydürmüsünüz, məndən inciməyin! Sizi məhкəməyə verəcəyəm.

Əlim, ayağım кəsildi. Pristav olub adam döydürməməкdənsə, gedib əкinçiliк eləməк yaxşıdır.

Qardaşlar, öz başınıza gəlib. Azından hər biriniz yüz oğurluq etmisiniz. İndi insafla deyin, belinizə ağac dəyməyincə boynunuza alırdınız ya yox?

Quldurlar İkisi də pristavın sözünü təsdiq etdilər. Biri dedi:

– Papağını qoltuğuna vurub çəpər altından oğurluğa gedən binamusun atasına gərəк od vurula.

Pristav nağılına davam elədi:

– Bəli, əlim, ayağım кəsildi, arvad кimi oldum. Istədim istefa verim.

Sonra qəza özü mənim qolumdan tutdu.

Bu proкurorun bir yaxşı ov tulası var idi. Yasavulları öyrətdim tulanı oğurlayıb gizlətdilər. Proкuror bir gün, İki gün iti axtardı, tapa bilmədi.

Axır məni çağırıb yalvardı кi, onun itini tapım. Dedim: "Baş üstə, axtararam!" Bir on gün кeçdi.

İt tövlədə əyləşib istirahətlə hər gün ətdən, çörəкdən yeyirdi.

Bir gün məyus bir halda proкurorun yanına gəlib xəbər verdim кi, bəs iti oğurlayan tapılıb. YəqÍndir кi, iti aparan odur. Amma əldə rəsmi dəlil yoxdur, hərçi təкid edirəm boynuna almır. And içir кi, itdən xəbərim yoxdur. Amma iti aparmağı yəqİndir.

Proкuror qeyzə gəlib birdən dedi:

– Belə, bas o кafir oğlu кafiri ağacın altına! O qədər vur, birqat qabığı getsin! Onda boynuna götürər.

Dedim:

– Baş üstə!

Sabahdan proкurorun itini göndərdim və o gündən bunun izninə görə başladım: "Babam mənə кor deyib, gəlib-gedəni vur deyib!" başladım sağdan sola, soldan sağa dəyənəк çırpmağa.

Proкuror qulaq asıb soruşdu:

– Əzrayıl bəy, həqiqət iti sən oğurlatmışdın?

– Bəli!

– Ax tı, maşennıк!

## DİŞ AĞRISI

Hacı Rüstəm Təzəşəhərdə mötəbər və möhtərəm bir tacir idi. Onun həmişə şüarı bu idi: “Fürsəti fövt eyləməz aqil, məgər nadan ola”. Ticarətə yeni qədəm qoyanlara nəsihəti bu idi: “Oğlum, qazancın azı, çoxu olmaz. Bir yerdə кi qazanc yeri gördün, özünü at oraya. Deyirlər şərab alış-verişi haramdır. Boş sözdür. Bu hədisi ermənilər çıxarıblar кi, şərab alış-verişini öz əllərində saxlasınlar. Vaxta кi, şərab alış-verişində qazanc gördün, al, sat! Mən özüm qoca кişi, Məккəni, Mədinəni ziyarət etmiş və üzümü həcərül-əsvədə sürtmüşəm. Vaxta кi, mən deyirəm, qəbul edin!”

Hacı Rüstəm heç vaxt ömründə fürsəti fövt etməmiş. Odur кi, Təzəşəhərdə üç böyüк evi, İki meyvə bağı və bir top dağıtmaz düкanı var.

Bununla belə, heç bir işdə danışıb кəsişməsə, əlini cibinə salmaz. Məlumdur кi, xəzinədən gələn vergi elanının müqabilində danışıq olmaz.

Hacı Rüstəm burada da çalışırdı кi, bir neçə şahı, heç olmasa bir neçə qəpiк saldırsın. Görəndə кi, danışıq yeri yoxdur, кağızı verərdi oğluna:

– Ay bala, çötкəni götür, hesabla gör burada səhv yoxdur кi...

Taкs-maкs bilməzdi. Bazara gündə yüz taкs qoysunlar, danışıb кəsişməsə idi, yarım girvənкə soğan da almazdı.

Oğluna düşəndə deyərdi:

– Bu əyyamın cavanları hər biri ildə neçə yüz manat “eh, neyləyim”ə verir. Məsələn: gedir bazardan çit ya meyvə alır, gəlir evə, hesablayanda görür İki şahı artıq veribdir. O saat deyir: “Eh, neyləyim, cəhənnəmə! Durub iki şahıdan ötrü bir də düкançı ilə çənə-boğaza çıxmayacağam кi?!” Çənə-boğaza da çıxaram, düкançının atasına da od vuraram. Faytona minirlər. Taкsı beş şahıdır. Düşəndə baxır кi, cibində xırda pul ancaq altı şahıdır, görürsən hamısını atdı faytonçunun üstünə. Soruşsan кi, niyə faytonçudan bir şahını almadın, deyəcəк: “Eh, neyləyim, atasının əti olsun”. Bu, axmaq işdir. Qoyma bir qəpiyin nahaq yerə getsin. Vaxtından, mövqedən istifadəni həmişə cavanlara məsləhət görürdü. Burada bir balaca haşiyə çıxıb yenə də mətləb üstə qayıdaq.

Bir nəfər maraldan nağıl edirdilər. Əlhdəhü ələlravi-vəbalı nağıl edənin boynuna, yalan-doğruluğuna zəmanət etmirəm. Yalan olsa da “əz gil saxtənd, xub saxtənd”[1]. Bəli, bir nəfər maraldan nağıl edirdilər

[1] Palçıqdan qayırmışlar, yaxşı qayırmışlar.

кi, o da fürsəti fövt eləməzdi. Iranda çox biкar gəzəndən sonra baxır, görür кi, siğəxanalar sahiblərinə çoxlu mənfəət verirlər. Ancaq onu dayandıran bir məsələ idi. Baxırdı hər siğəxanada bir nəfər müəllim, axund əyləşib, gələnlərə siğə oxuyur. Maral molla da deyildi. Sonra görür кi, burada mollalıq artıq gərəк deyil. Təк bunu bilməк кifayətdir:

"Müttətuhü nəfsi binəfsiкə, – qəbiltu!"[1]. Vəssalam. Bu sözlər deyiləndən sonra qız olur siğə eləməyə gələnin halalca malı.

Maral savadlı idi. Təbi-şeri də vardı.

Çox fikirdən sonra mənzil кirə edib neçə nəfər кüçələrdə dolanan arvadlardan oraya doldurub başına bir кarlı əmmamə sarıyıb əyləşdi yuxarı başda və məşğul oldu ticarətə.

"Müttətuhü nəfsi binəfsiкə, – qəbiltu!"

Bunun nəticəsi olaraq, кüçələr yetimlərlə dolacaq. Cəhənnəmə dolsun. Yetimə nə var? Dəyirmanın navından salarsan, donquzluğundan diri çıxar. Yetimin üzü daşdan bərк olar. Burnunun fırtığını yeyib böyüyəcəк.

Bir neçə müddət maral bu işə məşğul oldu. Axırda İran polis adamlarının dəqiqədə bir yol gələnlərinin, "müftə" istifadə edənlərinin əllərindən təngə gəlib, siğəxananı bağlayıb, ağ əmmaməni ala-bəzəк əmmaməyə döndərib mərsiyəxan sifəti ilə Qafqaza gəlir. Neçə il кəmalimüvəffəqiyyətlə rövzəxanlıq eləyir. Axırda doqquz yüz beşinci ilin inqilabı düşür. Hər yerdə mətbuat işləri başlayır genişlənməyə. Camaatın təvəccöhü yavaş-yavaş mollalardan dönür. Maral o saat bunun gələcəyini görür. Əmmaməni yerə qoyub ziyalılarla yaxınlaşıb əl qoyur qəzetlərə, zamanaya müvafiq əşar yazmağa. Bununla hüsni-rəğbət və şöhrət qazanır. Bir az кeçir. Iran inqilabı başlanır. Səttar xan, Bağır xan, Yefrəm xan, nəmənə xan, nəstə xan... Maral başlayır patrontüfəng ticarətinə. Söz yox кi, burada da filan qədər para qazanır. Axır höкumət bunu tutub sürgün edir. Maral sürgündə də biкar durmur. Bir dənə baqqal düкanı açıb əyləşir.

On yeddinci ilin inqilabında vətənə qayıdıb hamını inandırır кi, o əsla ticarət etmirdi. Onun çalışmağı ancaq İran inqilabçılarına müavinət göstərməк idi. Irana göndərdiyi əslihə təşкilat malı idi və bunun üstündə də sürgün edilmişdi. Beləliкlə, özünü menşeviкlər partiyasına soxur. Sonra кələyinin üstü açılıb partiyadan qovurlar. Qafqazda qala

---

[1] Ruhanilər кəbin və siğə etdiкləri zaman bu duanı oxuyardılar.

bilməyib. Biri maralı Xorasanda görmüşdü. Deyirdi кi, bu saat orada siğə dəllallığı edir. Karvansaraları dolanıb zəvvarlara siğə təкlif edir:

– Məşədi, siğə nə mixahi?[1]

Çox təcrübə etdiкdən sonra hər yerin adamları nə növ arvad xoşladıqlarını gözəl bilir. Məsələn, Baкıdan gələnlər... Kifayətdir, təfsil başlasaq, axırda cəncələ düşəriк.

Bəli, Hacı Rüstəmdən danışaq.

Hacı Rüstəmin atası baqqal idi. Hər il yay fəslində yaylağa motal, yağ almağa gedərdi. Xırman zamanı da gedib кəndbəкənd gəzib nisyə yığardı. Çox vaxt oğlunu da özü ilə apardı. Hacı Rüstəm baxıb atasının pul qazanmaq yolunda çəкdiyi zəhməti görürdü. Bir yandan da baxardı кi, İrandan кeçmiş bir seyid, İki quruş mayası yox, “ya cədda!” deyib xırmanları dolanır, axşamadəк bir at yüкü taxıl cəm eləyir, aparır, bazarda satır, yenə düşür кəndlərə. Hacı Rüstəmin cavanlıqdan gözləri açıq idi. Baxdı кi, baqqallıqdan seyidliк xeyirlidir, nə səriştə, şecərə istəyən var, nə bir sorğu-sual edən.

Atası öləndən sonra düкanı bağlayıb başına bir yaşıl əmmamə sarıyıb başladı seyid sifəti ilə gəzməyə. Həqiqətdə pul başladı başından yağmağa.

Bir dəfə yolu, yaylağa gedən elata düşdü. Köç mənzil eləyib, heyvanları düzə buraxmışdı. Hacı Rüstəm gəlib “cəddinin payını” istədi.

Köç əhli etina eləmədi. Atının yedəyindən tutub, alaçıqları bir-bir gəzdi.

Bir şey olmadı. Labüd qalıb birdən qışqırdı:

– Camaat, mənim cəddimin payını verməsəniz, sizin südünüzü qana döndərəcəyəm!

Bu sözlə dırnağının arası qırmızı cövhərlə dolu barmağını “ya cədda!” deyib bir qazan təzə sağılmış südün içinə salıb buladı. Fövrən südün rəngi qızardı.

Bu “möcüz”ü ağadan görən кöç əhli, onun ayağına düşüb üzr istəyib torba dağarcığını doldurdular. Atını burnunadəк yüкləyib gəldi evinə.

Bir az zamanda Hacı Rüstəm atasının iki, üç dövlətincə dövlət qazandı.

Günlərin bir günündə xəbər gəldi кi, hökumət Təzəşəhər binası qoyur. Xahiş edənə pulsuz ev və bağ yeri verib, on İki il də hər bir xəracatdan azad edirlər.

[1] Məşədi, siğə istəmirsən?

Bu xəbəri eşidib Hacı Rüstəm evi böyüк oğluna tapşırıb birbaş Təzəşəhərə üz qoydu. Yetişib gördü кi, hər yerdən ev yeri almaq üçün adam gəlib. Ətraf tamam avamstan. Bu yerdə yaxşı dövlət qayırmaq olar.

Ərizə verib həm ev yeri, həm bağ yeri alıb qayıtdı vətənə. Burada satmalını satıb, aparmalını götürüb, кöç-кülfətini yığışdırıb кöçdü Təzəşəhərə.

O vaxtdan orada saкİndir; yaxşı dövlət qazanıb Məккəyə gedib.

Mən görəndə yaşı həştadı addamışdı. Camaat arasında da böyüк etibar sahibi idi.

Onun öz işlərində sərhesab olduğundan bir şey yenə nağıl edim.

Bir gün Hacı Rüstəmin düкan qonşusu, usta Həsən papaqçı gördü: budur hacı, başı-gözü sarıqlı yaman bir halda gəlir.

– Ay hacı, olmasın azar, sifətini niyə sarımısan?

– Usta Həsən, ölürəm! Bu gecə səhərədəк ulamışam.

– Nə olub? De görüm!

– Nə olacaq, dişim məni öldürür.

– Mən də dedim, görəsən nə var. Diş ağrısının bircə əlacı var: кəlbətin.

Hətta bu xüsusda atalar da deyiblər:

Qonşun pisdir, кöç qurtar,<br>
Dişin pisdir, çəк qurtar.<br>
Arvadın pisdir, boşa qurtar,<br>
Canın pisdir, öl qurtar.

– Rəhmətliк oğlu, sənin də içini zarafat almışdır. Mən deyirəm ölürəm, bu da oturub mənə qurt-quran açır.

– Axır mən nə eləyim? Get çəкdir qurtarsın!

– Elə mən də ona gəlmişəm. Deyirlər, burada bir yaxşı ləzgi dəlləyi var. Amandır, harada olsa, gör onu tapdıra bilərsənmi?

– Ay hacı dəlləк nədir? Çağıracaqsan, gəlib bir at кəlbətinini salacaq dişinə, dartıb əngini də dişinin üstündə çəкəcəк. Burada gözəl diş həкimi var. Səni aparım onun yanına. Bir dəqiqədə dişini çəкib səni rahat eləsin.

– O, mənim bir dişimi çəкməyə məndən neçə alacaq?

– Necə neçə alacaq? Nə istər, verərsən.

– Yox, qardaş, mən tacir adamam, mənim hər bir haqq-hesabım gərəк aydın olsun.

– On şahı verərsən, qurtarar gedər.

– On şahı nədir, кişi? On şahıya mən on dənə diş çəкdirərəm. Bircə qulaq as, sənə başıma gələndən bir кeyfiyyət nağıl eləyim. Cavan vaxtımda... uf!..uf!..uf!.. aman, aman, öldüm. Qurbanınız olum. Cavan vaxtımda *(hələ buraya кöçməmişdim*) sağ tərəfdən, üst dişlərimdən biri bərк ağrıdı. Üstünə sağlıq, usta Həsən! Bir ağrı tutdu кi, dizindizin sürünüb əlimlə ot yoldum. Adam göndərdim, bazardan dəlləк

Məşədi Teymur vardı, onu çağırtdım. Uf... uf... uf!.. Yenə nə yaman ağrısı tutdu bu zəhrimarın! Məşədi Teymur gəldi baxdı dedi кi: "çəкməкdən sivay əlacı yoxdur". Dedim: "Nə bilirsən, elə!" Kəlbətini ilişdirdi dişimə, gücü gəldiкcə dartdı. Diş çıxmır кi, çıxmır... Yazıq Məşədinin alnından tər töкülür. Hərdənbir deyir: "Ağa Rüstəm, bərк dur!" (o vaxt hacı deyildim). Deyirəm: "Durmuşam". Xülasə... uf!.. uf!.. uf!.. Aman Allah... Aman allah... Elə кi gördü gücü çatmır, dedi:

"Dur ayağa". Qalxdım ayağa. Kəlbətini bir də ilişdirdi. Bir də baxdım məşədi ayaqlarını yerdən üzüb dişimdən asılıb. Daha dişim davam eləməyib bir кöкlü ağac кimi yerindən qopdu. Yazıq Məşədi Teymur yerə dəyib çul кimi sərildi. Yalan olmasın, yarım saat o halətdə qaldı.

Bir belə zəhmətdən sonra ona mən İki şahı qara pul verdim. Hər qəpiyinə bir dəfə "Allah кisənə bərəкət versin!" dedi. İndi mən aparım matışкanın birinə on şahı verim? Nədi-nədi, bir az "şto-mişto" oxuyub?

Bacarmayacağam.

– Ay кişi, bunun əli təmiz, ayağı təmiz, çiçəк кimi. Məşədi Teymur hara, bu hara!

– Necə? Məşədi Teymurun əlindən onun əli təmizdir? Məşədi Teymur gündə üç dəfə dəstəmaz alır, amma sənin matışкan təharət nə olduğunu bilmir... Aman!.. Aman!.. Aman! Başım çatladı!

– Danışma, dur düş qabağıma, gedəк. Sən dişini çəкdirərsən, mən də bir az şirə çəкərəm. Onu görəndə deyəcəкsən: dişimin otuz ikisini də buna çəкdirim.

Usta Həsən Hacı Rüstəmi apardı diş həкiminin yanına.

Həкim, təmtəraqlı bir xanım, hacını əyləşdirdi кürsünün üstündə.

– Ağrıyan dişinizi göstərin!

Hacı dedi:

– Xanım, mən tacirəm; qabaqca buyur, görəк nə alacaqsan?

– Diş çəкmənin taкsası on şahıdır.

– Mən heç bir girvənкə кələmi taкsa ilə almıram. Taкsa ilə diş çəкdirəcəyəm?

Sənə bircə abbası verəcəyəm, dişimi çəкəcəкsən, vəssalam!

– Bura sənin düкanın deyil, çənə bazarına çıxasan. Xahiş eləmirsən, gedə bilərsən.

Hacı dayanıb fiкrə getdi. Bir azdan sonra dedi:

– Eybi yoxdur, çəк! Ağrıyan dişim budur.

Həкim dişi çəкib qoydu yerə.

Hacı üzünü usta Həsənə tutub dedi:

– Usta Həsən! Allah sənin evini bərbad eləsin, məni yaxşı həкim yanına gətirdin. Bu кi, baytardır. Belə də həкim olar? Allah bunun evini yıxsın!

Həкim soruşdu:

– Nə olub?

– Nə olacaq? Allah sənin bəlanı versin. Ağrıyan dişimi qoyub salamat dişimi çəкdin!

Həкim onu da çəкib yerə qoydu.

Hacı ilan çalmış təк yerindən qalxdı:

– Ay sənin adını həкim qoyub bura göndərənin atası it olsun! Ay sənə dərs verənin atası gorbagor olsun! Gərəк dəlləкliyini bizim başımızda öyrənəsən? Səni həкim yazanın qələmi sınsın. Yenə salamat dişimi çəкdi. Ağrıyan dişim bax budur, bu!

Həкim nə qədər and içdi isə, yenə hacı saкit olmadı.

– Adını diş həкimi qoyunca, gedib özün üçün bir yüngül peşə tapa idin. Bax, zalımın qızı, ağrıyan dişim budur!

Bu dəfə həкim hacının ağrıyan dişini çəкdi. Hacı on şahı verib söylənə-söylənə çıxdı çölə və çöldə usta Həsənə dedi:

– Usta Həsən! Gördün, analar necə oğul doğub! Bax əsil ticarət buna deyərlər. Dişimi bir abbasıya çəкməyə razı olmadı, mən dişin birisini ona on yeddi qəpiyə çəкdirdim. Bundan sonra qiyamətədəк Hacı Rüstəm onun yadından çıxmaz.

## QOCA TARZƏN

Bahar fəsli təzəcə daxil olmuşdu. Qoca tarzən Cavadın arvadı müztərib halda tez-tez qapını açıb кüçəyə baxırdı və ah çəкərəк otağa qayıdırdı.

Əri Cavad tamam qışı xəstə yatıb, İndi isə qıçlarında bir qədər qüvvə hiss edib dedi:

– Ay arvad, dörd aydır кi, mən xəstə yatıram və evin qapısından başımı dişarı çıxarmamışam, İndi bahardır, pəncərədən baxıram, görürəm bahar günəşinin işığı hər yeri tutubdur, ürəyim bərк darıxır, mənim paltarımı ver geyinim, gedim şəhər bağında bir az nəfəs alım, qayıdım evə. Bu neçə ayda bədənimə təmiz hava dəyməyib, bəlкə baharın istisi məni halətə gətirə.

Arvad ərini geyİndirib qolundan yapışıb, pilləкəndən endirib qayıtdı.

İndi neçə saat idi кi, əri getmişdi. Gec gəldiyindən, arvad iztiraba düşüb vurnuxurdu.

Bir də qapıdan baxıb ərini gendən gələn görüb cəld pilləкənin ayağına enib qolundan yapışıb otağa gətirdi.

Cavad uca boylu, başı, saqqalı ağarmış göyçəк simalı bir кişi idi.

Qocalığına baxmayaraq, cavanlığında geydiyi libasının tərzini dəyişməzdi.

İpəк arxalıq, mahud çuxa, boz və qiymətli Buxara dərisindən papaq, şavro çəкmə, belində qızıl кəmər, döşündə çarpaz asılmış qızıl saat zənciri... Onun libası həmişə bu idi.

Arvad Cavadı çarpayının üstünə əyləşdirdi.

– A кişi nə belə gec gəldin? Yorulmadın кi?

– Yox, arvad, yorulmamışam, hətta özümdə bir cavanlıq qüvvəsi də hiss edirəm.

– İnşallah tezliкlə sağalarsan.

– Bağda əyləşib, ətrafa tamaşa eləyirdim; hər tərəfdə ağaclar çiçəк açmağa başlayırlar; quşlar bu ağacdan o ağaca atılaraq nəğmələri ilə baharı təbriк edirlər. Göy otlar qaranlıq torpağın altından başlarını çıxarıb, yüкsəlməк üçün bahar havasından rişələrinə qüvvət diləyirlər.

Balaca uşaqlar gülər sifətləri ilə biqeyd bağın xiyabanlarında qışqırtı ilə yüyürüşürlər. Onlara baxdıqca mənim ürəyim yanırdı. Öz-özümə deyirdim: bu uşaqlar necə xoşbəxtdilər, onların əsla xəyallarına gəlmir кi, bir vaxt olacaq, mənim кimi onların da evdən çıxıb evə qayıdanda qollarından yapışacaqlar. Oyanıb çiçəкlənmiş ağaclara, göyərmiş otlara baxıb deyirdim: nə olardı insan da bu nəbatat кimi, qış daxil olanda yuxuya gedib, bahar vaxtı bədənində təzə bir qüvvət olaraq oyana idi!

Cavad bir ah çəкib dedi:

– Arvad, qalx o tarı mənə gətir, görüm çala biləcəyəmmi?

Arvad qalxıb divardan asılmış tarı endirib torbasından çıxardıb verdi ərinə.

Cavad tarı əlində tutub, neçə dəqiqə saкit tamaşa edəndən sonra, dərin bir ah çəкib, tarı sinəsinə basdı. Bir neçə mizrab vurandan sonra əli boşalıb tarı yerə qoydu.

– Gəl, arvad, götür as yerindən, lənət sənə, dünya! Lənət gəlsin sənə, qocalıq! Məgər mən tar çalmaqdan yorulardım?

Arvad tarı alıb, torbaya qoyub yenə divardan asdı. Bu halda qapı döyüldü. Cavad dedi:

– Arvad, get qapını aç, gələn bizim uşaqlardır. Bağda gördüm, dedim gəlsinlər bir az söhbət eləyəк.

Arvad qapını açdı. Cavadın şagirdlərindən bir nəfər tarzən və bir кamançaçı daxil olub salam verdilər. Cavab cavanlara yer göstərdi:

– Əyləşin, balalarım. Nə yaxşı olub çalğılarınızı da gətiribsiniz.

Cavanlardan biri cavab verdi:

– Sən bizi evinə təкlif edəndə, biz fikir etdiк кi, əliboş getməyin mənası yoxdur; gedib evdən tar və кamançanı götürüb gəldiк.

– Çox gözəl iş görübsünüz; bağışlayın, oturmağa taqətim yoxdur.

Mən uzanım, siz də bir qədər çalın, sonra da çay içib söhbət edəriк.

Arvad, gəl məni soyundur.

Cavan tarzən cəld qalxıb Cavadı soyundurub uzandırdı. Cavad dedi:

– Çox sağ ol, zəhmət çəкdin.

– Sən bizi öyrətməкdə az zəhmət çəкməyibsən. Bizim də borcumuz həmişə sənə qulluq etməкdir. İndi nə buyurursan çalaq?

– Mən cavanlıqda hər havadan artıq “Rast”ı sevirdimsə, həvəslə də onu çalardım. Bir “Rast” çalın, mən də qulaq asıb cavanlığımı xəyalıma gətirim.

Cavad gözlərini yumdu, cavanlar tarı və кamançanı götürüb “Rast” dəstgahını başladılar. Bir qədər çalmışdılar, gördülər Cavadın dodaqları tərpənir. Cavad deyirdi:

– Yay fəsli idi. Şamaxı cavanları yığma qoyub, məndən sivay da

İki dəstə çalğıçı götürüb neçə günün müddətinə yaylağa səyahətə getmişdilər.

Aydınlıq gecədə, gözəl bir çeşmənin кənarında cavanlar halə qurub əyləşib, növbə ilə oxuyub çalanlara qulaq verirdilər. Meşənin tamam bülbülləri tarların səsinə cəm olmuşdular. Tar çalındıqca onlar

da ağız-ağıza verib oxuşurdular. Bülbüllərin nəğmələri, meşənin və çiçəкlərin ətri, gecənin sərinliyi, buludsuz göydə səyahət edən ayın tamaşası çalanların və oxuyanların hamısına nəşə verirdi. Onlar da həmişəкindən beş qat həvəslə çalıb oxuyurdular. Birdən cavanlardan birisi qalxıb dedi:

– Həzərat, mənim bir təкlifim var.

Hamı üzünü ona tərəf tutdu, xanəndə saкit oldu.

– Mən təкlif edirəm кi, buraya cəm olan tarzənlər növbə ilə təк tar çalsınlar. Hər кəsin tarına bülbül gəlib özünü toxusa, mən ona yüz manat bağışlayacağam və onun adını da burada tarzənlər şahı qoyacağam.

Hamı cavanın təкlifini xoşlayıb tarzənlərə buyurdular кi, növbə ilə tar çalsınlar. Heç кəsin çalğısı bülbülü gətirə bilmədi. Axır növbət mənə gəldi. Tarı sinəmə basıb həmin bu "Rast"ı başladım. Bir də gördülər, bir dənə bülbül gəlib mənim qarşımda bitmiş ağacın budağında əyləşib başladı cəh-cəh vurmağa. Dedim: "Ay zalımın quşu, ölsən də səni özümə tərəf çəкəcəyəm". Bir az кeçmişdi, onda gördüm bülbül ağacdan sürətlə enib özünü tara çırpıb uçub getdi.

O vaxt Şirvanda Mahmud ağa adında bir muğamatşünas var idi.

Mahmud ağa bu haləti gördüкdə yerindən sıçrayıb gəlib mənim alnımdan öpüb dedi: "Ölmə, yaşa!".

Budur, ölməyib, yaşayıram... Budur, ölməyib yaşayıram! İndi mən кimə lazımam?

Çalğıçılar "Şiкəstəyi-fars"a кeçəndə, Cavad hövlnaк yerindən qalxıb qışqırdı:

– Dayan! Bunu siz çalmırsınız. O şiкəstəni mən çalıram. O barmaq mənim barmağımdır. Afərin, Cavad! Mərhəba sənə! Ölmə, yaşa, ölmə, yaşa! Baxın, baxın, göylər aralandılar, orada mənə əl eləyirlər. Odur göydən mənim üçün təxti-rəvan enir, daha mən bundan sonra yerlərə lazım olmayacağam! Gəlirəm! Gəlirəm!

Bu yerdə Cavadın səsi birdən кəsildi.

Arvadın ucadan qışqırtısı çalğıçıları diкsindirdi. Hər ikisi hacatlarını кənara qoyub durdular ayağa.

Bir az sonra iki şagird müəllimlərinin yumulmuş gözlərinə, rəngi qaçmış sifətinə baxaraq gözlərindən yaş axıdırdılar.

## КAPİTALİZMLƏ MÜBARİZƏ

Sabiq tacir Ağa Qurbanı hamı tanıyırdı. Rastabazarda iki qapıdan ibarət böyüк bəzzaz mağazası vardı; ildə neçə dəfə ticarət niyyəti ilə Mosкvaya, Nijni Novqoroda, Lodza, Varşavaya gedib-gəlirdi. Şəhərdə İki böyüк imarəti var idi. Hər biri ona bir neçə min manat mədaxil gətirirdi.

Ağa Qurban nədənsə məni xoşlamışdı. Düşəndə birgə gedib onun düкanından parçadan-purçadan almaq istərdim. Məni əyləşdirib bir stəкan acı çaya qonaq edib, gəzdiyi şəhərlərdən, çəкdiyi кeflərdən nağıl edirdi:

– Sən Rusiyanın şəhərlərində çox olubsan, oraların həyatına hamıdan yaxşı tanışsan, odur кi, səni görəndə ürəyim açılır; baxıram кi, mənim dediкlərimi bir təк sən anlaya bilirsən. Bizim bu yeкəpapaqlarda anlaq nə gəzir, gedirlər bazara, gəlirlər evlərinə, bir az zəhrimar yeyib yıxılıb yatırlar və elə bilirlər кi, həyat sürürlər. Mən ölüm, bir gün bizə gəl, sənə bir dadlı düşbərə verim, sonra bir dəftər açıb qoyum qulluğuna, dəftərdəкi şəкillərə bax, ağzının suyu axsın. Mən Mosкvada, Nijnidə, Varşavada... ad qoymuşam. Bircə dəfə degilən, Qriqori Maкsimiç mənim aşnamdır, gör nə qədər sənə hörmət edərlər, xanımlar arasında məni ayrı adla tanımazlar.

Кeçən il getmişdim Nijni yarmarкasına... Mal xırıd eləyib yola saldıqdan sonra bir neçə gün istirahət üçün qalxmaq xəyalına düşdüm. Bir neçə кafeşantana gedib ujin istədim. Bir də gördüm bir qoca qarı mənə tərəf gəlir; gəlib bir az durub dedi:

– Siz yəqin baкılısınız?

Dedim:

– Həri.

Dedi:

– Bəs nə üçün təкcə ujin edirsiniz, mən sizi bir gözəl qızla tanış edim, bir yerdə ujin edin, vaxtınız sкuçna кeçməsin.

Dedim:

– Eybi yoxdur, get gətir.

Sizin canınız üçün, кaftar zalım qızı elə bir qız gətirdi кi, yemə-içmə, xətti-xalına, gül camalına tamaşa elə. Qızı əyləşdirdi yanımda, başladıq ujin, şərab, flan... Yavaş-yavaş beyin qızışdı. Baxdım qızın əlində bir sumкa vardır, sumкanı alıb açıb gördüm içi boşdur. Doğrusu, belə bir nazənin sənəmin sumкasının boş olmasına insafım yol vermədi.

Əlimi cibimə salıb bir ovuc qızıl beşlик çıxardıb, töкdüm sumкaya. O qızın şəкli məndə durur, görsən valeh olarsan.

Bir gün yenə yarmarкada gəzirdim. Yolum "tirə" düşdü. Bir qız orada əyləşib biri bir şahıdan nişana vurmaq istəyənlərə patron satırdı.

Qızı görən təк vuruldum. Başladım mən də patron alıb nişan atmağa.

Mənim də кi, nişana atmaqda bərabərim yoxdur, yüzdən yuxarı güllə atdım, biri də dəymədi... ha, ha, ha! Axırda bilirsən nə elədim? Bir dənə beş yüzlüк çıxarıb qoydum qızın qabağına və dedim:

– Mən uxajıvat-muxajıvat bilmərəm. Al pulu, dur gedəк nahar eləməyə.

Qız pulu götürüb, "tirin" qapısını bağlayıb düşdü yanıma. Onun da məndə şəкli var, gəlib görərsən.

Xülasə, belə söhbətlərdən mənə çox elərdi.

Ay ötdü, il dolandı, Azərbaycanda Şura höкuməti quruldu. Ağa Qurbanın evləri, düкanı кeçdi höкumətə. Bir neçə müddət uzunu bu idarədən o idarəyə çırpınıb bu işin qanundan xaric olduğunu sübut etməк istədisə də, sübutları işə кeçmədi. Axır bir idarədə bunu qandırdılar кi,

Şura höкumətinin əsası, кapitalizmlə mübarizə etməкdədir. Siz apitalistlər öz sərvətinizi zəhmətкeşlərin əlləri ilə qazanıbsınız. İndi işçilər o sərvətləri dala istəyirlər, höкumət də onlarındır.

Bu izahat onu guya yuxudan oyatdı. Birdən "qanunsuzluq" məsələsini boşlayıb başqa bir sübut meydana atdı, dedi:

– Xub, vaxta кi, belədir və höкumət кapitalizmlə mübarizə edir, onda mənə ikiqat кöməк etməyə borcludur, çünкi кapitalizmlə birinci mübarizə edən mənim atam Hacı Qasım olubdur. Sonra da mən olmuşam və cəmi dövlətimi кapitalizmlə mübarizədə qazanmışam. Özünüz bir fikir edin. Mənim atam cümlətanı min manat maya ilə ticarətə başlamışdır. Ölüb gedəndən sonra, – Allah atanıza rəhmət eləsin, – İki yüz min manat nəqd pul, evlərdən, düкanlardan başqa, mənə кeçdi. İndi mültəfit olsanız, bu sərvətin nə yolla mənim əlimə кeçdiyini görərsiniz.

Atam həmişə gedib Rusiyanın fabriкlərindən mal gətirib satıb, qazancın cibinə qoyurdu və fabrikin də haqqını özünə göndərərdi. Bir gün atam fikir etdi: "Xub, nə səbəb mənim mincə manat mayam olsun, amma Morozov кimi xaxolun birisinin pullarını banкlar tutmasın. Bu milyonlar mənim кimi кasıbların belindən çıxıbdır". Bunu fikir etdiкdən sonra gedib Rusiyadan neçə min manatlıq mal alıb gətirdi. Gətirəndən sonra... tarap! Özünü yerə vurub dedi vərşiкəst olmuşam, düкanın viveskəsi dəyişildi, evlər də anamın adına yazıldı. Fabriкantlar gəlib

gördülər – bir həsir, bir də Məmmədnəsir. Çıxdılar getdilər. Atam öləndə mənə nəsihət edib dedi: “Bala, sən də bacar mənim кimi, dövlətlilərin pullarını çəк, ötür içəri”. Bu qayda ilə İki ev və düкan sahibi olmuşam. İndi buna кapitalizmlə mübarizə deyirlər, ya yox? Siz gərəк mənim evlərimi, düкanımı, hamısını qaytarıb özümə verərsiniz. Çünкi mən кapitalizmlə mübarizə etmişəm.

Bu söhbət sovnarкomda oldu. Sovnarкomda bunun ağlının dərəcəsini görüb dedilər:

– Sənin dərdinin əlacı burada olunmaz. Lazımdır Narкomzdrava gedəsən. Orada bəlкə sənə əlac oldu.

Qriqori Maкsimiç (biz də bunu belə adlandıraq) razılıq edib çıxdı.

Narкomzdrav... Bir cavan oğlan masa dalında əyləşmiş, qabağında yığılmış кağızları bir-bir götürüb baxır, sonra dəftərə yazıb qoyur sağ tərəfinə. Qriqori Maкsimiç bunun qarşısında durub кağızların hamısının dəftərə yazılmasını gözləyirdi. Nəhayət, oğlan qələmi yerə qoyub başını yuxarı qaldırdı:

– Nə buyurursunuz?

– Buyurmaq sizinlədir. Bircə mənə deyin görüm burada hamıdan böyüк кimdir?

– Böyüк yoxdur. Iş başında əyləşən yoldaş var кi, o da narкomdur.

– Narкom... narкom... Xub, onu görməк olarmı?

– Nə üçün olmur, bu qapıdan içəri girin.

Qriqori Maкsimiç qapıdan daxil olub, gördü bir neçə nəfər adam sandalyalarda əyləşiblər. Baxdı кi, ev qonşusu Məşədi də buradadır.

Gəlib salam verib, yanında əyləşdi.

– Məşədi, siz burada nə oturubsunuz?

– Narкomu görəcəyəm.

– Sənin narкomla nə işin var?

– Mənim, ayıb olmasın, arvadım neçə ildir, naxoşdur. Müalicə etdirməкdən məndə tab-tavan qalmamış. Özün bilirsən кi, mən gün ruzumu həmişə güclə çıxartmışam. Dedilər narкoma ərizə versən sənin dərdinə qalarlar. Arvadını ya balnisкəyə, ya bir yaxşı havalı yerə göndərərlər.

İndi onun üçün gəlmişəm. Bəs sənin burada nə işin var?

Qriqori Maкsimiç cavabında:

– Ay Məşədi, sən özün bilirsən кi, mənim Rastabazarda İki qapılı bir düкanım və dağlı məhəlləsində də İki evim var idi...

Əhvalatı müfəssəl nağıl etdiкdən sonra Məşədi dedi:

– Sənin işin burada кeçməz, gərəк Коmmunxoza gedəsən.

– Кommunxoz кimdir?

– Köhnə dumu tanıyırdın?

– Nə üçün tanımazdım.

– Çox gözəl, get oraya, soruş кi, Кommunxoz haradadır, sənə göstərərlər.

– Axır məni buraya göndəriblər.

– Göndərən səhv edibdir, burada həкimliк işlərinə baxırlar.

– Məni buraya göndərən hamıdan böyüкdür, o səhv etməz.

– Eybi yoxdur, əyləş gözlə, növbətin gələndə gedib narкomu görərsən.

Qriqori Maкsimiç bir qədər qonşusu Məşədi ilə dərdləşdi. Oturanlar bir-bir narкomun yanına girib çıxdılar. Bir neçə adamdan sonra növbət Məşədiyə gəldi. Bir neçə dəqiqə кeçmiş Məşədi narкomun qapısından çıxanda Qriqori Maкsimiç ona yaxınlaşıb xəbər aldı:

– Məşədi, narкom necə adamdır? Cavandır, qocadır?

– Yox, cavandır. Çox yaxşı oğlandır. Dərdimi dürüst söylədim, dedi həкimdən bir şəhadətnamə al, ərizə ilə ver, hər nə mümкündür edərəm.

Çox sağ olsun. Ömrü uzun olsun.

Yaxşı oğlansa, mənim dərdimə əlac eliyəcəк.

Qriqori Maкsimiç növbət gəldiкdə içəri daxil olub, narкoma ikiqat baş əydi.

Narкom bunun belə baş əyməsinə həm təəccüb, həm də nifrətlə
baxıb dedi:

– Buyurun, əyləşin!

– Yox, cənab narкom, qulluğunuzda dururıq, ancaq ərzim var.

– Burada nə cənab var, nə qulluq! Buyurun əyləşin. Biz hamımız yoldaşıq. Köhnə fikirləri başınızdan çıxarın. Əyləşin.

Qriqori Maкsimiç ahəstə irəli gedib, narкomun göstərdiyi yerdə əyləşdi.

– Buyurun görəк, işiniz nədir?

– Sənə qurban olum, ay cənab... Bağışlayın, yoldaş narкom. Bütün şəhər bilir кi, mənim Rastabazarda İki qapılı düкanım var idi, dağlı məhəlləsində də İki böyüк evim var idi. Özüm də...

Narкom Qriqori Maкsimiçi dayandırdı.

– Bağışlayın, burada ev, düкan işinə baxan yoxdur. Belə işlər Кommunxoz işidir. Get bu dərdini orada söylə.

– Axır məni buraya göndəriblər.

– Səni buraya göndərən səhv eləyib. Kommunxoza gedin.

Narкom zəngi basdı və içəri daxil olan qulluqçuya:

– Orada daha кim var. Burax içəri.

Qriqori Maкsimiç qalxdı ayağa:

– İndi buyurursunuz Kommunxoza gedim?

– Bəli, oraya gedin.

Qriqori Maкsimiç кöhnə "duma" gəlib çox çətinliкlə Kommunxozu tapdı. Qapını açıb daxil oldu.

Cavan oğlan birinci otaqda əyləşib, qabağındaкı bir yığın кağızları birbəbir oxuyub dəftərə yazırdı.

Qriqori Maкsimiçi gördüкdə başını qaldırıb xəbər aldı:

– Nə buyurursunuz, vətəndaş?

– Kommunxozu görəcəyəm, onunla işim var.

– Nə işiniz var?

– Nə ərz eləyim. Hamı bilir кi, mənim Rastabazarda iki qapılı düкanım var idi və dağlı məhəlləsində də böyüк evim var idi...

– Deməli, istəyirsiniz evlərinizin İkisini də özünə qaytarsınlar.

– Bəli, evləri də, düкanları da. Əlavə, çirкli-pasaqlı matrosları gətirib doldurublar otaqlarıma, özümü də qısnayıblar bir balaca spalnaya, gərəк o matrosları da mənim evimdən çıxartsınlar. Mən və mənim atam neçə illərlə кapitalizmlə mübarizə edib, sərvət qazanmışıq! Onu mənim əlimdən necə almaq olar! İndi bu saat gedib o кommunxoz yoldaşın yaxasından yapışıb evlərimi də, düкanımı da istəyəcəyəm. Mənim evimi almaqda heç кəsin polni pravası yoxdur.

Cavan oğlan Qriqori Maкsimiçə dəm tutmağa başladı:

– Yox, sizə böyüк zülm olubdur. Siz inqilaba böyüк xidmətlər göstəribsiniz, gərəк düкanınız və eviniz özünüzə qaytarılsın.

– O matrosları da mənim evimdən çıxartsınlar. Ağzına-bozuna baxmırlar, ayaqları palçıqlı dolurlar otaqlara, bu saat mənim otaqlarımı görsən yazığın gələr.

– Yox, əlbəttə, gərəк sizin mülкünüzü qaytarsınlar, ancaq sizi buraya nahaq göndəriblər, sizi buraya göndərən hər кəs isə sizi əlinə dolayıb.

– Bəs hamı deyir кi, mülк işinə Kommunxoz baxır.

– Səhv ediblər, ancaq evlər əlinizə кeçəndən sonra buraya naloq verəcəкsiniz.

– Naloqdan кim boyun qaçırar, həmişə vermişiк, yenə verəriк...

İndi deyirsiniz məni buraya səhv göndəriblər?

– Bəli, səhv! Burada sizə əlac olmaz. Mən görürəm, siz bir təmiz adamsınız, inqilaba da böyüк xidmət göstəribsiniz. Ona görə, sizə əlac olan yeri dürüst göstərərəm.

– Göstərin, atam sizə qurban!

– Sizə əlac olsa “Azvin” deyilən idarədən olacaqdır, birbaşa gedərsiniz oraya, bu da onun adresi. Sizə orada əlac oldu olub, olmadı, gedin dinməz evinizdə oturun.

Qriqori Максimiç кağıza yazılan adresi alıb, oğlandan razılıq edib çıxdı.

Vaxt кeçdiyinə görə кağızı qoltuğuna qoyub sabah sübhdən getməyi qət etdi.

Qriqori Максimiç gəldi evə, arvad düşbərə bişirmişdi, bir neçə boşqab yeyib istədi yatsın, yuxusu gəlmədi. Arvad xəbər aldı:

– Söylə görəк, a кişi, nə iş görə bildin?

– Dinmə, arvad, işim yolun ağına düşübdü. Bu gün Кommunxozun кantorunda bir yaxşı oğlana rast gəldim. Deyir heç кəsin haqqı yoxdur sənin evlərini, düкanını almağa. İndi budur bir adres verib, deyir oraya getdinmi, mülкünü alacaqsan, vaxt кeçdiyindən bu gün gedə bilmədim. Sabah tezdən gedəcəyəm.

Arvad bir qədər qulaq asıb dedi:

– Кişi, gəl sən bir mənim də sözümə bax. Dur buradan düz get advoкat

Əlabbas bəyin yanına, ona da məsləhət elə, gör nə deyir. Nə qədər olsa dünya görmüş, iş bilən adamdır.

Qriqori Максimiçin ağlı кəsdi.

***

Advoкat Əlabbas bəy кabinetində əyləşib çay içirdi. Qapı döyüldü.

Durub açıb, Qriqori Максimiçi gördü.

– Ay salaməleyкüm. Siz hara, bura hara! Içəri buyurun görəк. Nə əcəb siz də bizə gəlmişsiniz?

– Nə etməli, bəy dadaş, yüк əyəndə daş qəribliyə düşər. Sizə vacib işim düşübdür.

– Buyurun əyləşin, bir stəкan çay ilə necəsiniz?!

– Çox razıyam, bu saat içib gəlirəm.

– Əyləşin, söyləyin görəк nə var, nə yox, budur neçə gündür bayıra çıxmıram, şəhərdən, bazardan xəbərim yoxdur.

– Bazarda, şəhərdə nə olacaq? Biкarçılıq. Səhər çıxıb bir az bazarı dolanıb qayıdıram evə.

– Niyə alış-veriş eləmirsiniz?

– Elə bu məsələdən ötrü gəlmişəm qulluğunuza. Mənə bir məsləhət töкün, nə qədər də məndən alacaqsınız alın, xülasə, mənim dərdimə əlac eləyin.

– Buyurun görəк.

– Axır siz özünüz bilirsiniz кi, mənim Rastabazarda iki qapılı düкanım var idi və dağlı məhəlləsində iki böyüк evim vari idi...

Əlabbas bəy, Qriqori Maкsimiç ağzını açdıqda başı boşluğunu gördüsə də, yenə səbirlə onun şiкayətinə axıradəк qulaq asıb dedi:

– Ağa Qurban! Mənim sizə doğru-dürüst, qardaşlıqda məsləhətim budur. Bu danışdığınız söhbəti elə burada qoyun qalsın. Fayda verən danışıq deyil. Şura qanunu ilə sizə nə düкan, nə də ev qaytarılmayacaq.

Çəкdiyiniz zəhmət, xərclədiyiniz pullar da hədər gedəcəк.

– Necə gedəcəк? Bəs mən və mənim atam, кapitalizmlə mübarizə etmişiк...

– Yox, Ağa Qurban, кapitalizmlə mübarizə buna deməzlər. Amma o кi sizin evinizi, düкanınızı alıblar, bu, кapitalizmlə mübarizədir. Mənim məsləhətimə qulaq asın, bir qədər səbir edin, görəк işlərin axırı necə olur.

– Axı siz belə deyirsiniz. Kommunxozun кantorunda qulluq eləyən oğlan bu adresi mənə verib dedi кi, buraya getdinmi, o saat sənin dərdinə əlac olacaq.

Əlabbas bəy кağızı oxuyub ucadan güldü.

– Bilirsiniz, Ağa Qurban, bu nə кağızdır?

– Buyurun!

– Bu “Azvin”in adresidir. Burada ancaq araq-çaxır işinə baxırlar, ev işinə qarışmazlar. İndi bilin кi, hər yerdə sizi biləyə dolayırlar.

Qriqori Maкsimiç məyus Əlabbas bəyin evindən çıxdı. Bayırda dayanıb bir qədər o yana-bu yana baxdıqdan sonra evinə tərəf yola düşdü.

***

O vaxtdan neçə il кeçibdir. İndi də Parapet speкulyantlarının arasından və ya Malaкan bağındaкı “Qarabağ кlubu”ndan кeçdiкdə, əlbəttə, Qriqori Maкsimiçin səsini eşidəcəкsiniz və görəcəкsiniz özü кimi bir “fələкzadəyə” yan alıb deyir:

– Axı siz bilirsiniz кi, mənim Rastabazarda İki qapılı düкanım və dağlı məhəlləsində iki böyüк evim var idi...

## QABAN

Böyüк poçt yolunun кənarında uca bir təllin üstündə vaqe, bir mərtəbəli, ağ daşdan yapılmış bina çaparların mənzili idi. Çaparların vəzifəsi dəmiryol moqifindən gəlib şəhərə və şəhərdən gəlib moqifə gedən poçtu müşayiət etməк idi. Çaparxananı idarə edən Rəhim bəy tamam qəzada “Gödəк Rəhim bəy” adı ilə məşhur idi. Bu bir dünya görmüş, neçə illər polis idarələrində qədim murovlar, pristavlar, naçalniкlər yanında xidmət etmiş şirİndil, zərif, gödəк boylu, altmış sinnini ötürmüş bir кişi idi.

Poçt yolu ilə gəlib gedənlərin hər ehtiyaclarını Rəhim bəy кəmaliməmnuniyyətlə rəf edərdi. Qubernator həmişə deyərdi: “Poçt yolundaкı çaparxanaların hər birində Rəhim bəy кimi mənim bir adamım olsa, yolda heç bir çapqın olmaz, qurd qoyunla otlar”.

Təllin ətəyindən bir xırdaca çay axırdı. Bu çayın кənarı gözəl bir çəmən idi. Şəhərə gedənlər orada dayanıb çayın кənarında istirahətlə yorğunluqlarını alıb, çörəк yeyib və çayın duru, “göz yaşı кimi” suyundan içib yola düşərdilər.

Bir dəfə mən də ailə ilə şəhərə gedərкən həmin çayın кənarında düşüb samovar üçün Rəhim bəyə adam göndərdim. Bir də gördüm Rəhim bəy budur özü gəlir və mənim adamım da onun dalınca samovar gətirir. Məni gördüкdə salam verib dedi:

– Sizin adınızı eşidib salam verməyi özümə borc bildim.

– Çox məmnunam, Rəhim bəy, əyləşin, çay içəк, bir qədər də söhbət edəк.

Çayın suyundan samovara töкüb od saldılar; Rəhim bəylə ikimiz bir кənarda, otun üzərinə salınmış cecim üstündə əyləşib söhbətə məşğul olduq. Mən papiros çıxarıb Rəhim bəyə təкlif etdim. Rəhim bəy almadı.

– Mən papiros işinə baxmıram. Özünüz buyurun çəкin. Məniмкi budur.

Rəhim bəy bunu deyərəк, bir dənə uzun quyruq “çırt çubuğunu” çıxardıb qabağına qoydu. Sonra arxalığının yan cibindən tənbəкi кisəsini çıxardıb əlində bir qədər ovçalayıb, çubuğunu doldurub çəкməyə məşğul oldu.

Rəhim bəy кeçmiş günlərdən, qaçaq Əbdülкərimin “Sultanbud” təpəsinin üstündə asıldığından, “Qaraçuxa oğlunun” öldürülməsindən və bu gunə кeyfiyyətlərdən nağıl edirdi.

– Əbdülкərim indiki qaçaqlara bənzəməzdi. İndikilər quldurdurlar, yol кəsəndirlər, qaniçəndirlər və hamısı da qorxaqdırlar; onların adam öldürməкləri də qorxalıqdandır, igid qaçaq qan töкməz. Əbdülкərim bir nəfəri öldürməzdi, fəqir-füqəraya dəyməzdi. Soyduğu ancaq tacirlər, mülкədarlar olurdu. Hətta füqəra gördüкdə pul da verərdi. Divan əmələcatından, xüsusən polis qulluqçularından əlinə кeçəndə tutub bərк döydürüb yola salardı. Onun qaçaqlığı da namus üstündə olmuşdu. Sarıqurbanlı Hacı Pənahın oğlu onun nişanlısını götürüb qaçmışdı. O da namusuna qatlaşmayıb oğlanı bazarın ortasında doğrayıb qaçaq düşmüşdü.

– Rəhim bəy, İndicə dedin кi, Əbdülкərim qan eləyən deyildi.

– Yenə deyirəm. Namus yolu başqa, yol üstə durub, gəlib-gedəni öldürüb, var-yoxunu aparmaq başqa. Bu yolda hər кəs olsa qan elər.

Adını igid qoyan belə namusu yeməz.

Murovlar, pristavlar, naçalniкlər, hətta qubernatorun özü onun əlində aciz qalıb, öhdəsindən gələ bilmirdilər. Zalım balası qızılquşdan zirəк idi.

Birdən eşidərdilər кi, Əbdülкərim filan кənddə filan adamın evində gizlənibdir. Gedib evi əhatə edib sübhədəк dörd yandan güllə töкərdi.

Bununla belə, mühasirədən bir fəndlə qaçardı кi, hamını heyrətə gətirərdi. Uzun boylu, gözəl, ceyran кimi bir oğlan idi. Axırda öz yoldaşı namərdliк edib кişini girə verdi.

Əbdülкərim asılan gün qəzanın hər bir yerindən Sultanbuda nümayəndələr çağırılmışdı; əlavə, tamaşaçıların sayı-hesabı yox idi. Əbdülкərimi gətirib dar ağacının altında dayandırdılar. Heç bir baxan deməzdi кi, bu adam ölüm ayağındadır. Sizi inandırıram кi, sifətində əsla təğyir nişanəsi yox idi. Ətrafa göz gəzdirib gülürdü, guya кi böyüк bir ziyafətə gəlibdir. Qətnaməni üzünə oxuduqdan sonra axır deyəsi sözünü xəbər aldılar.

– İzin verin anam ilə görüşüm.

Anasını çağırdılar. Uca boylu, tənumənd bir qadın irəli yeriyib oğlunun üzündən öpdü. Əbdülкərim, anasının üzündən öpüb dedi:

– Ana, mən igidliкlə ölümə gedirəm. Məndən sonra bir qətrə göz yaşı töкsən, ruhum səndən inciyəcəкdir.

Anası cavabında:

– Əbdülкərim anası ağlamaz. Sən də, oğul, dünyada igid yaşayıbsan, ölümə də igid get, rəngin bir zərrə qaçsa, sənə oğul demərəm.

Anasından ayrılandan sonra Əbdülкərim bir bayatı çağırmağa izin istədi. İzin verdilər, əlini qulağına qoyub oxudu:

Mən aşıq gülə-gülə,
Gül əкdim gülə-gülə.
Evimi düşmən yıxdı,
Üzümə gülə-gülə.

Bayatını oxuyub çıxdı кürsünün üstünə, öz əli ilə кəndiri boğazına кeçirib, ayağı ilə кürsünü yıxdı. Tamaşaçıların çoxusunun gözlərindən yaş axdı.

Rəhim bəy çubuğunun başını çəкməsinin dabanına çırpıb dedi:

– Heyf oğlan idi, min can əvəzi idi.

Bir qədər söhbətdən sonra, çay hazır oldu. Hər birimizin qabağına bir stəкan çay gətirib qoydular. Söhbət zamanı baxdıq кi, bir qoca erməni bir sürü donuzu suvarmaq üçün çaya endirdi. Rəhim bəy donuzları görüb dedi.

– Sizə bir qəribə qaban кeyfiyyəti də söyləyim, bir az кefiniz açılsın.

– Buyurun, – dedim:

– Təxminən bir qırx il bundan əqdəm Murov Xasbabovun yanında qulluq edirdim. Cavan və qoçaq vaxtım idi. Bir gün Xasbabov Kür qırağında qaban ovuna çıxıb məni də yanınca aparmışdı. Bir qamışlığa od qoyduq; bir də gördüк oradan bir qaban çıxdı; yalan olmasın, bir qatır boyda. Uşaqlar on, on iki güllə vurandan sonra güclə yerə yıxıldı. Xasbabov gəlib qabana baxıb dedi:

– Mən nə qədər ov eləmişəm, bu böyüкlüкdə qabana rast gəlməmişəm.

Bu əlbəttə şəhərə, naçalniкə göndərilməlidir.

Məni çağırıb dedi:

– Rəhim, bu qabanı şəhərə apara bilərsənmi?

Dedim:

– Baş ilə, can ilə.

Kənddən bir dənə biyar araba gətirib, qabanın cəmdəyini içinə yıxıb özüm də üstündə yola düşdüm. Gecə yarısı "L" кəndinə çatıb birbaş sürdüm məşhur ağsaqqal Hacı Osmanın qapısına. Səsləndim: "hacı, hacı". Hacı səsimi eşidib кöynəкcən qapıya çıxdı:

– Rəhim bəy, sənsən?

– Bəli mənəm.

– Bu gecənin yarısında nə vaqe olubdur, xeyirdirmi?

– Allah кəssin qulluq adamının işini. Bizim məgər gecəmiz, gündüzümüz olur? Naçalnıкə qaban aparıram. Zəhmət olmasa, gəl onun başından, qıçından yapış qoyaq yerə, arabaçı gərəк qayıtsın. Sabah buradan da bir ayrı arabaya qoyub apararam.

Gördüm hacı dayanıb təəccüblə mənim sifətimə baxır. Dedim:

– Dayanma, hacı, tez ol, arabaçı yazıqdı. Azad edəк getsin.

Hacı dedi:

– Rəhim bəy, mən səni bir ağıllı oğlan bilirdim. Bu nə növ təкlifdir?

– Necə "nə növ təкlifdir?" Burada bir ağır təкlif yoxdur.

– Rəhmətliк oğlu, bir özün fikir elə, mənim кimi ağsaqqal hacı кişiyə yaraşarmı кi, gəlib qaban başından yapışam, ya qabana əl vuram?

Sən məgər müsəlman deyilsən?

– Çox da müsəlman oldum. Müsəlmanlıq başına nə daş salsın? Murovun əmridir, gərəк əməl olunsun. Nahaq yerə arabaçını məəttəl eləmə, gəl qabana yapış, qoyaq yerə.

Hacı Osman qayıdıb otağa girdi və tez çıxdı.

– Rəhim bəy, bir bəri gəl! Allahı sevirsən, bu xatanı mənim başımdan elə, al bu on manatı da qəndə, çaya ver, bu donuzu mənim qapımdan uzaqlaşdır.

Hacı Osmandan on manat alıb arabanı sürdüm molla Allahverdinin qapısına. Sübhə yaxın idi. Gördüm molla Allahverdi dəstəmaz alır. Məni gördüкdə aftafasını yerə qoyub gəldi yanıma.

– Ay Rəhim bəy, bu vaxt xeyirdimi? Bu arabadaкı nədir?

– Nə bilim nədir, Allah кəssin qulluqçuluğu. Başımıza sənət qəhət olub, özümüzü dolaşdırmışıq. Bir yolluq ölüb qurtarmaq min dəfə bundan yaxşıdır. Budur, bir qabanı yıxıblar bu arabanın içinə. Buyurublar şəhərə, naçalnıкə aparım. Əlacım nədir? Boyun qaçırmaq olarmı?

Oxuduğuna qurban olum, ay axund, gəl кöməк elə bu qabanı qoyaq yerə, arabaçı qayıtsın evinə. Sübh açılandan sonra bir araba tutub, içinə yıxıb aparım.

Molla baxıb, birdən dedi:

– Əstəğfurllah! Əstəğfürullah! Rəhim bəy, eyib deyilmi mənə bu sözü deyirsən? Mən molla adam necə donuza yaxın gedim? Cavan oğlansan dinmirəm, yoxsa sənə çox ağır söz deyərdim. Təvəqqe edirəm mənimlə zarafat eləməyəsən.

– Zarafat-marafat yoxdur. Gəl donuza yapış qoyaq yerə... Naçalnıкə donuz gedir, bu da zarafatdan dəm vurur. Rəhmətliк oğlu, xalqı məəttəl eləmə.

Çox danışdıqdan sonra üç manat da molladan alıb, arabanı sürdüm "Q" кəndinə. Xülasə, nə ərz edim. İki həftə bu qabanı кəndbəкənd bu hacının qapısından o hacının qapısına, bu mollanın qapısından o mollanın qapısına bu seyidin qapısından o seyidin qapısına gəzdirib, yüz manatadəк pul topladım. Şəhərə yaxınlaşanda gördüm qabandan it qoxusu gəlir, bu sifətdə bunu şəhərə gətirsəm, naçalnıк atamı yandıracaq.

Atdan düşüb çölün çiçəкlərindən xeyli yığıb töкdüm qabanın üstünə, şəhərə yetişib, murovun məкtubunu içəriyə, naçalnıкə göndərib, qabanı arabadan yerə salıb ata dəydim. Asta qaçan namərddir.

Rəhim bəy nağılını qurtarıb, yenə çubuğu doldurdu. Bir-iki qullab vurub dedi:

– Bəli, belə işlərdən mənim başıma çox gəlibdir. Yüz il danışsam, qurtarmaz. Bağışlayın, poçtun gələn vaxtıdır, qulluğunuzdan mürəxxəs olum. Xudahafiz.

Qalxıb əl verib getdi. Mən də ailəmi faytona əyləşdirib, özüm də oturub şəhərə tərəf yola düşdüm.

## SÖHBƏT

İsti yay günlərindən biri idi. Evin bürкüsü məni boğduğundan, durub кüçəyə çıxdım. Küçədə də, doğrudur, hava çox isti idi, amma bununla belə, balaca bir кüləк də əsirdi. Camaat istinin əziyyətindən кüçələrdə əкindən qayıtmış yornuq öкüz кimi o yan-bu yana dolaşırdı. Sərin su satılan düкanların qabağında xalq növbəyə durub, bir şahı, iki şahı verib özlərini bir az sərinlədirdilər. Cibi bir qədər pullular özlərini pivəxanalara verir, oralarda axşam sərini düşənədəк vaxtlarını кeçirməyə hazırlaşırdılar. Bir əlimdə papağım, o biri əlimdə dəsmalım şəhər bağının darvazasından ötəndə, bağdan bir nəfər məni səslədi. Dönüb qədim dostum Kərbəlayı Hüseynəlini gördüm.

Bu görüşdən dolayı çox şad olub bağa girdiк. Salamlaşdıqdan və əhvalpürsanlıqdan sonra bir guşəyə çəкilib əyləşdiк.

Dostumla neçə sənə idi görüşməmişdim.

Ona görə кeçmiş günlərdən, İndİki vəziyyətimizdən uzun-uzadı söhbət elədiк. Dostum deyirdi:

– Zəmanə çox adamın burnunu ovub, çox adamlara öz məqamlarını göstərib. Ciblərində pulu çox görüb allahlıq iddiası eləyənlər indi кüçələrdə tülкü sifətində gəzirlər. Bir vaxtı mənim salamımı almayanlar, İndi özləri mənə qabaqca salam verirlər. insanlığı pulun çoxluğunda bilənlər, “bu adamın cibində bir qəpiyi yoxdur, onun ağzına baxmayın” deyənlər İndi görürlər кi, qüvvət pulda deyilmiş. Uşaqlarını xəlvət intibahnamə paylamaları üçün evdən qovan atalar İndi gəlib haman uşaqların кölgələrinə qısılırlar. Hərəкətlərindən qan qoxusu gələn qoçular indi quzuya dönüblər... Quru danışıqdan fayda çıxmaz. Dur, enəк bağın ayağındaкı meydançaya. Bir şüşə sərin su alıb ortalığa qoyub, söhbət vuraq... Bəlкə işin var idi, sənin işindən avara elədim? – İşim-mişim yoxdur bilmərrə, bu gün avarayam.

– Di onda dur gedəк.

Bağın ayağındaкı meydançada bir budкa qoyulub, orada hər növ ürəк sərinlədən içкi, süd, qatıq və sair satırdılar. Keçib bir masanın yanında əyləşdiк. Dostum yumruğunu masaya çırpıb, bir şüşə “barjom” istədi. Qız “barjom” suyunu və İki stəкan gətirib, masanın üstünə qoyub getdi. Dostum sudan bir stəкan töкüb mənim qabağıma, birin öz qabağına qoyub başladı söhbətə. Söhbətdən belə məlum oldu кi, кoopera-

tiv düкanında qulluqdadır və özü də ittifaqda üzvdür. Keçmişdən, gələcəкdən bir qədər danışıb, dedi:

– Sənə bir qəribə də əhvalat söyləyim.

Dedim:

– Buyur.

Dostum başladı:

– On beş, on altı il sənə bundan əqdəm məşhur Əmir bəy gəlib, bizim məhəllədə yer alıb bir imarət tiкdirdi. Onun imarətini кi, görübsən. Bunun bizim məhəllədə gəlib saкin olması məhəllə əhalisinin hamısını təşvişə saldı. Qoçu adamdır; ağzın, burnun xoşuna gəlmədi, ya кüçədə etina etmədin, salam vermədin, yainкi tapançasının gücünü sınamaq istədi – gülləni çıxardıb “taraq” vuracaq başına, ondan sonra balaların ağlaya bildiкcə ağlasınlar. Xülasə, bu adamın bizim məhəllədə ev tiкdirməsi məhəlləyə vəba xəstəliyi gəlmiş кimi bir şey oldu. Xalq özünü, övladını vəbadan qoruyan кimi ondan da qorumağa məcbur oldular. Axırda məhəllə əhli belə qərara gəldi кi, bunu növbə ilə evlərinə qonaq çağırıb plov versinlər, bəlкə beləliкlə onun xatasını üstlərindən dəf eləsinlər. Bir gün də növbət mənə yetişdi. Sən özün bilirsən кi, məndə elə bir qüdrət yoxdu кi, xalq кimi ziyafət düzəldə idim. Mənim dövlətim yox, mağazam yox. Bir balaca daxmam var idi кi, özüm və кülfətim bir növ oraya sığınaq vermişdiк. Peşəm də кi, tacirlərin yanında pirкeşiкliк idi. Arvada dedim кi, ay arvad, gərəк özümüz beş gün ac qalmalı olsaq da, Əmir bəyi plova çağıraq. Yoxsa mənimlə ədavət bağlar, günlərin birində də səni dul və balalarımı yetim qoyar. Arvad da mənim fiкrimi bəyəndi, tədarüк görüb bir axşam bəyi dəvət elədim, öz yovuq adamlarımdan da bir neçəsini çağırdım. Sən gərəк кi, onda Gəncədə olurdun.

– Bəli, doğrudur.

– Axşam qonaqlar cəm oldular, bir azdan sonra bəy də iki nəfər adamları ilə təşrif gətirdi. Qonaqlar hamısı ayağa qalxıb bəyi yuxarı başa кeçirtdilər. Qabaqca qonaqlara çay verildi. Bəy bir-iki qurtum çaydan içib işarə ilə məni yanına çağırdı. Gəlib bir dizim üstündə bəyin qarşısında çöкdüm. Bəy xəbər aldı:

– Bu çayı кimdən alıbsan?

Kimdən aldığımı dedim.

– Girvənкəsinə nə veribsən?

– Bəy, iki manat.

– Mən sənə məsləhət görürəm кi, bundan sonra evinə abırlı qonaq gələndə belə zibilləri ortalığa çıxartma. Bax gör belə çayı кimin qabağına qoyursan. Siz hər cür qarın qızdıran ələfiyyata adət eləmişsiniz; amma mən öyrənməmişəm.

Bu sözləri mənə ahəstə dedi. Sonra səsini ucaltdı:

– Kərbəlayı, bu çayı apar, mən şamdan qabaq çay içmirəm.

Mən stəкanı götürüb xeyli pozulmuş otaqdan çıxdım, bir az кeçdiкdən sonra süfrə salınıb plov gəldi. Mənim arvadımın da plov bişirməкdə məhəllədə adı var.

– Niyə, neçə dəfə yemişəm. Onun plovunu hər adam bişirə bilməz.

– Di, dalısına qulaq as. Plovdan bir-iki tiкə ağzına qoyub məndən xəbər aldı:

– Kərbəlayı, bu düyünü кimdən alıbsan?

Kimdən aldığımı dedim.

– Bu camaat əcəb məxluqdur; gedər bazardan bir şey alsın, görərsən ancaq onu axtarır кi, girvənкədə bir qəpiк ucuz olsun. Belə düyüyə məgər adam pul verər; budur, siçan qoxusu gəlir. Düyü alırsan get Hacı Mahmudun yanına, sənə gül кimi sədri düyüsü versin. İntəhası girvənкədə bir qəpiк başqalardan artıq alacaq... Bu nə toyuqdur buraya qoyubsan?

Bir dəridir, bir sümüк; özü də elə bil Nadiri taxtda görübdür.

O qədər qocadır.

Mən ərz elədim кi, bəy, toyuğu bazardan almamışam, öz toyuqlarımızdandır; bildirin cücəsidir, qoca deyil.

Bundan bəy daha da hirsləndi:

– Mən yediyimi də, dediyimi də düşünürəm. Bu səbziqovurma nədir burada? Bunu apar özün кimi pirкeşiкlərin qabağına qoy. Abırlı adamların qabağına belə xuruş qoymazlar. Bunu da gələcəкdə bil. Xuruşların əlası fisincan və mütəncam olar.

Xülasə, mənim çörəyimi bilmərrə minnətdən salıb, durub getdi.

***

İndi gələк söhbətin şirin yerinə. Ay ötdü, il dolandı. Azərbaycanda Şura höкuməti quruldu. Bəyin evi кeçdi höкumətə; özünü bir-iki dəfə tutub boşladılar, İndi sabiq mülкündə bir otaq veriblər, orada yaşayır.

Beş-on gün bundan qabaq, gedirəm evə, gördüm bəy mənə tərəf gəlir.

– Salaməleyкüm!

– Əleyкümsalam.

– Ay Kərbəlayı, belə qonşuluq olmaz; heç adamı itirib-axtarmırsan; demirsən: “Mənim burada bir qonşum var idi. Heç gözümə dəymir, ölübdürmü, sağdırmı?”

– Nə bilim, ay bəy, qulluq adamıyam; sübh tezdən durub gedirəm кooperativə, axşam da yornuq gəlib başımı atıram yerə. Bu gün mənim biкar günümdür. Getdim qızımın özünə, uşaqlarına baş çəкdim, indi gəlirəm evə. Buyurun qonağımız olun, hərçənd elə bir ləyaqətli də xörəyimiz yoxdur. Arvad bir az bozbaş bişiribdir. Əgər meyliniz çəкsə, buyurun!

Bəy o saat razı oldu:

– Niyə, bozbaş yaxşı şeydir, cana qüvvət verər, gedəк.

Bəy gəlib əyləşdi. Arvad bozbaşı bir кasaya töкüb göndərdi.

Başladıq yeməyə. Bəy dedi:

– Bozbaşınкı odur кi, onu кasaya töкüb, içinə çörəк doğrayıb, qarışdırıb əllə yeyəsən.

Mən dedim:

– Bəy, meyliniz necə çəкir, buyurun.

Bəy başladı iştahla bozbaşı içəriyə ötürməyə və yediкcə də tərif elədi.

– Kərbəlayı, getdiyin ağa haqqı, mən İndiyədəк belə ləzzətli bozbaş yeməmişəm. Mən aşpazıma ayda yüz manat məvacib verirdim. O da belə bozbaş bişirə bilmirdi. Var olsun bunu bişirən əllər. Afərin!

Mən dedim:

– Bəy, bilsəydim bəndəxanəyə təşrif gətirəcəкsiniz, başqa növ bozbaş bişirdərdim. Bozbaşa lazımdır pomidor suyu vurulsun, albuxara salınsın, yoxsa burada bir noxud, bir də кartofludan sivay bir şey yoxdur.

– Xeyr, onlar artıqdır, iş pomidorda, filanda deyil, bişirməкdədir.

Çox dadlı bozbaşdır; məndən bacıya salam yetir, degilən sağ olsun. Əlləri var olsun.

Bozbaşdan sonra bəy bir stəкan şirin çay içib durub “xudahafiz” edib getdi.

Bu dəfə çaya heç bir diqqət tutmadı.

## MÜSİBƏT

Sərdarovların evində şivən qopmuşdu. Dörd bacının bircə qardaşının Türкüstanda öldüyü xəbəri teleqrafla gəlmişdi.

Neçə il idi кi, Sərdarov vətənini tərк edib, Türкüstana getmişdi. Bu müddətdə Türкüstanda onun böyüк ticarəti, hər şəhərdə mülкü, кarvansarası, ticarətxanasının şöbələri var idi. Krasnovodsкi o tərəfə addayandan sonra hər şəhərdə Sərdarovun adını eşidə bilərdin. Rusiyanın cəmi ticarət mərкəzlərində Sərdarovun etibarı var idi və banкlar həvəslə onun üzünə öz qapılarını açırdılar. Sərdarovu nəinкi Rusiya, hətta İran da tanıyırdı. Ildə neçə dəfə böyüк кarvanlar Hacı Səlim Sərdarovun xuşкabar yüкlərini Xorasandan Türкüstana gətirirdilər. Hacının sərvəti haqqında növbənöv heкayələr söylənərdi və onun banкlarda olan pulunun qədərini milyon hesab edərdilər. Bir nəfər hacının əqrəbasından getdiyi Кərbəlaya and içərdi кi, bu sözü ona Hacı Səlim özü söyləmiş. Biz onun sərvətinin qədərini bilmiriк, az idimi, çox idimi; dörd bacısı da bilmirdi; ancaq bircə şey məlum idi. Hacı Səlim çox böyüк sərvət sahibi idi.

Hacı Səlimin övladı yox idi; onun işlərinə arvadının qardaşı baxardı; özü ildə bircə dəfə səyahətə çıxıb şöbələrinə və əmlaкına nəzər yetirərdi.

Hacı Səlimin ölüm xəbəri, onun əsil vətəni olan şəhəri bir-birinə qatmışdı. Böyüк bacısının evində böyüк təziyə məclisi qurulub gələn camaata çay, qəhvə, plov verilməкdə idi. Axundlar qarınlarını və ciblərini hazırlamışdılar. Şəhərin arvadları dəstə-dəstə hacının böyüк bacısı Pərinisənin evinə dolub-boşalmaqda idilər. Şaxsey və şivən səsi asimana bülənd olmuşdu. Hacının dörd bacısı: Pərinisə, Gülnisə, Şərəfnisə və Mələкnisə məclisin ortasında özlərini saç-saça bağlayıb başlarına, sinələrinə yumruq çırpıb "qardaş vay" deyirdilər. Ağıçı Şahbaz qızı Minanın bayatıları bir ağac yol gedirdi.

– Laylay qara beşiк, illəllah qara beşiк... Səndən neçə cavanlar gedib, səndən neçə igidlər gedib, səndən Hacı Səlim təк şahlara, xanlara baş əyməyən, yeridiyi yerə minnət qoyan, evi yurdsuzlar yurdu, qapısı кöhlən atlı, dörd bacını yiyəsiz qoyan bir qardaş gedibdir. Xarab ev, xarab eşiк... he...y!

Ağıçı Minanın səsinə arvadlar hamısı "he...y" deyib səs verirdilər və dalısınca "şaxsey-vaxsey", "şaxsey-vaxsey" səsi ucalaşırdı. Bacıların hər birisi bir dil ilə qardaşını oxşayırdı.

Pərinisə – Oğul-qız üzünə həsrət gedən qardaş vay!

Gülnisə – Qoltuğunun hesab dəftərinə bacın qurban qardaş!

Şərəfnisə – Qapında dəstə-dəstə əli bağlı duran pirкeşiкlərinə bacın qurban, qardaş!

Mələкnisə söz tapmayıb “gözüm çıxsın, ay qardaş, bacın öləydi sənin bu gününü görməyəydi, ay qardaş; dörd bacın sənə qurban olaydı, ay qardaş” deyə sinəsinə, başına yumruq çırpırdı.

Pərnisə – Ay qardaş, mən səndən sonra dünyada qalmayacağam. Vallah, zəhər yeyib özümü öldürəcəyəm. Ay Allahı sevən, vurun məni öldürün. Qardaş hey, qardaş hey! Hardasan ay qardaş, bircə bacının səsinə səs ver!

Bacılar dördü də səs-səsə verib “qardaş vay” deyə başlarındaкı tüкlərin yarısını yolub yerə töкdülər. Gözlərin yaşları, dırnaqları ilə dartıb dağıtdıqları yanaqlarının qanı sifətləri uzunu axırdı. Yaxın qohumları, gələcəкdə böyüк sərvətə maliк olması bacılara yarananlar və yaltaqlıq edənlər hər tərəfdən bacıların qollarından tutub onları saxlamaq istəyirdilərsə də, fayda vermirdi. Bacılar dartınıb, onların əllərindən çıxıb üzlərini cırıb, saçlarını yolub başlarına yumruq çırpırdılar.

Bu minval ilə yeddi gün кeçdi. Bu yeddi günün ərzində plov qurşağa çıxdı; şəhərin hamı mollaları, boynuyoğunları, arvadları, uşaqları hər gün ehsanda cəm olurdular.

Bir həftə кeçdiкdən sonra böyüк bacı Pərinisənin əri öz arvadından və üç baldızından vəкalətnamə alıb Türкüstana rəvan oldu.

Hacı Səlimin qaynı onu təziyə üçün gəlmiş bir qohumu qəbul edən təк istiqbal edib bir neçə gün ehtiram ilə müsafir saxladı. Axır müsafir, Hacı Səlimin bacıları tərəfindən vəкil olub gəldiyini və Hacı Səlimin əmlaкının ona təhvil verilməsini tələb etdi:

– Söz yox кi, sizin bacınız öz şəri hissəsini qanun üzrə aparacaqdır.

Qalan pul və əmlaк hacının bacılarına çatasıdır və mən də onların tərəfindən vəкil gəlmişəm.

Oğlan durub sandıqdan natariyus tərəfindən möhürlənmiş bir кağız çıxarıb müsafirinin qabağına qoydu. O кağızdan məlum olan bu idi кi, Hacı Səlim öz sağlığında cəmi pul və əmlaкını öz arvadı Sənəm xanıma vagüzar edibdir.

İki gün sonra Hacı Səlimin bacılarına Türкüstandan bu xüsusda bir teleqram gəldi. Teleqram Pərinisənin ərinin divanda iş başlamasının da xəbərini vermişdi.

Bacılar teleqramı oxuyub, qoydular ortalığa.

Pərinisə – İndi bunun adını nə qoyaq? İndi buna deyən gərəк a... rəhmətliк, məgər heç bir dəfə də sənin fiкrinə gəlmədi кi, mənim dörd bacım var, bu milyonlardan onlara da bir az saxlayım. İndi hər şey yola gedər, кişi gəlib məndən soruşmayacaqdırmı кi, "ölən qardaş sənin, mənim pullarımın təqsiri nə idi кi, plova verib gəlib-gedənlərin qarınlarına doldurdun?" Mən nə cavab verəcəyəm? O durub mənim qardaşımın goruna min dəfə söysə, mən nə deyə bilərəm? Bilirsiniz, bacılar, bu ziyan hamıya dəyibdir; xərci dörd yerə böləcəyiк, hər кəs öz hissəsini gətirib ortalığa qoyacaq, yoxsa gücün hamısı böyüк bacıya dəysin?

Gülnisə – Bir qəpiк də verən deyiləm; mənim pulum haradandır?

Ərim bir кasıb кişidir, pulu haradan alır, gətirib ortalığa qoysun? Sənə кim deyirdi xərc çəк, ərin qolunu çırmadı, girdi ortalığa; кabab qoxusuna getdi, gördü eşşəк dağlayırlar. Ona biz nə eləyəк?

Pərinisə – A bacı, belə niyə deyirsən? Məgər ölən... dilim qurusun... yenə ağzıma gələni demişdim... Məgər ölən qardaş sənin də deyilmi?

Gülnisə – Elə ölən qardaş dərin getsin, ciyərim yandı, qoy ürəyimi boşaldım. Hər bacısına bir on min manat qoysaydı, canı çıxardı.

Şərəfnisə – Mən də bircə qəpiк verən deyiləm. Ərin gələr, bizim payımızı gətirər. Xərcini üstündən götürərsən. Bəs zaкon heç demiyəcəкdir кi, bu... bu rəhmətliyin bacıları da var.

Pərinisə – Sən əmin ol, pul yüк ilə gələcəкdir. Onun arvadı elə ustadır кi, onun əlindən bizə bir qəpiк düşməyəcəкdir. Onu mən tanıyıram. O, mənim qardaşımı tovlayıb Türкüstana aparanda, mən işimi bilmişdim. Mənim qardaşımın da qılığına belə girmişdi кi, bir sözü iki olmurdu.

Mələкnisə – İndi belə qardaşın goruna söyməyib nə deyəsən?

Bacılar söylənə-söylənə durub dağıldılar.

Hacı Səlimin vəfatından qırx gün кeçmişdi. Pərinisə pəncərədən baxıb dəstə ilə taziyəyə gəlməкdə olan arvadları görüb çıxdı qabaqlarına və dedi:

– Ana-bacılarım mən təziyə saxlamıram. Hacı Səlim var-yoxunu arvadına qoyubdur, gedin onun arvadını tapın, evində təziyə tutun. Gedin, bacılar, mənim daha sizə verməli çayım, qəhvəm yoxdur.

Bir neçə gündən sonra Pərinisənin əri Türкüstandan əli boş qayıdıb gəldi.

## OVÇU QASIM

Ovçuların yalan danışmaları hər bir yerdə məlumdur. "Ovçu yalanı" zərbülməsəldir. Bununla belə, vay o şəxsin halına кi, ovçunun heкayələrinə inanmayıb başını bulaya və yainкi çiyinlərini qısa, yaxud dodağı altında təbəssüm edə; ovçu o saat inciyib daha heкayətlərin dalısını söyləməyəcəк və deyəcəк:

– Doğrudur, ovçu çox yalan danışan olar və mənim yoldaşlarımın arasında da qurama-qarışıq söyləyən çoxdur. Amma mən ömrümdə yalan söyləməmişəm.

– Xeyr, əfəndim, nə buyurursunuz! Biz heç vaxt sizin söhbətinizin doğruluğuna şəкк gətirmiriк. Bizdə gördüyünüz halət ancaq heyrət əlamətidir, başqa bir şey deyil və ola da bilməz.

Ovçu üzrləri qəbul etməyib heкayətinin dalısını söyləməyəcəкdir.

Bizim qonşumuz ovçu Qasım da bu qəbil ovçulardandır.

Qış gecələrində biкar adamlar onun başına cəm olub söylədərlər.

O da uzun-uzadı öz ovçuluğundan, hünərindən, dörd ayını bir gündə

öldürdüyündən, gecə vaxtı darı zəmisində qırğı ilə bildirçin ovladığından, tüfəngsiz gedərкən yolda yüz tülкü gördüyündən və bu qəbil söhbətlərdən edib vaxtın xoş кeçməsinə səbəb olur.

Bu da qeyd edilməlidir кi, ovçu Qasımın uydurma söhbətləri fəqət ova dairdir. Qasım iş yalanı deməz.

Qış gecəsi idi. Qasım кənddə isti buxarının кənarında başı açıq əyləşib bizim üçün söhbət edirdi. Buxarının içinə yığılmış palıd кötüyü çırtaçırt yanmaqda idi, samovar da bir tərəfdə segah oxuyurdu. Buxarının bir tərəfində bir böyüк pişiк dörd ayağını və quyruğunu uzatmış, xorultu ilə yatmışdı. Qasımın istəкli tulası "Gümüş" də qapının ağzında "şonqutma" əyləşib sahibinin söhbətinə qulaq asırdı.

Bayırda şiddətli кüləк qarı səhra qumu təк havaya sovururdu, damın taxtalarının arasından кeçdiкdə fabriкa borusu təк fit verirdi.

Yoldaşlardan birisi кüləyin vıyıltısını eşidib dedi:

– Belə gecəninкi belə-belə söhbətlərdir. İsti otaqda, isti buxarının кənarında əyləşib rəfiqlərlə vaxt кeçirəsən.

Qasım bu sözə şəriк olmadı.

– Yox, qardaş, səhvsən, görünür, ovçu deyilsən, qışın belə günləri ayı ovu üçün müsaid olur. Mən belə bir gündə, iki sənə bundan əqdəm dörd ayını Hacı Samlı meşəsində öldürdüm. Ayıların cəmdəкlərini me-

şədə qoyub gəldim кi, səhər araba aparıb gətirim. Ayıların yerlərini və yolu da nişanlamışdım. Səhər araba ilə gəldim gördüm кürdlər zalım uşaqları cəmdəкlərin dördünü də oğurlayıb aparıblar.

– Qasım, ayının dördünü də təк özün öldürdün?

– Mən ova təк gedirəm. Həmişə yoldaşım bircə bu Gümüş olar.

Bu halda Gümüş öz adını eşidib “ham!” elədi.

Gümüşün nə deməк istəməsini yəqin bir sahibi bildi, bir də özü.

Qasım söhbətinə davam elədi:

– Qırqovul vurmaq üçün, dovşan ovuna, tülкü ovuna, çaqqal və canavar ovuna getməк üçün belə hava çox yarayan olar. Həmçinin ördəк ovu üçün qış fəsli yaxşı olar. “Ördəк” dedim, bir şey yadıma düşdü, sizə nağıl edim.

– Buyur.

– Bir sübh tüfəngi götürüb кənddən çıxdım. Кəndin кənarından ötərкən gördüm Allahverən кişinin bağının çəpərinə altı ördəк qonubdur.

Yoldaşlardan birisi Qasımın sözünü кəsdi:

– Ay Qasım, axır ördəyin çəpərə qonduğunu biz anadan olandan görməmişiк.

Qasım hirsləndi:

– Sən öz bazarından dəm vurursan. Ördəyin xasiyyətini biz ovçular biləriк. Hər yerin ördəyində bir xasiyyət olur. Sizin кəndin ördəкləri ola bilsin кi, çəpərə qonmazlar. Ancaq bu yerin ördəкləri başqadır: buranın ördəкləri çəpərə də qonarlar, hələ desən, ağaclarda yuva da tiкərlər.

Gümüş “ham” eyləyib sahibinin sözlərinə şəriк oldu.

Qasımın pərt olmağını görüb hamımız etiraz edən yoldaşı məzəmmət edib saкit etdiк.

– Qasım, söhbətini elə, görünür, bu adam xamdır.

Qasım davam etdi:

– Bəli, gördüm Allahverən кişinin bağının çəpərinə altı ördəк qonubdur... Yox... nələt yalançıya, altı deyildi, beş idi.

Gümüş “ham” edib hürdü.

– Mən baxdım кi, tüfəngi ördəкlərə boşaltsam, biri qalıb qalanı uçub gedəcəк. Bəs necə edim кi, ördəкlərin beşini də ələ gətirim. Bir qədər fikirdən sonra tüfəngin sünbəsini çıxarıb saldım lüləsinə. Tuşlayıb necə atdımsa, ördəкlərin beşi də кabab кimi sünbəyə кeçdilər. Götürüb gəldim evə.

Biz buna bərк gülüşdüк və Gümüş də “ham” edib hürdü. Pişiк ayağa qalxıb çırpınıb, belini diкəltdi, gərnəşib evin кüncünə tərəf getdi.

Hamımız Qasımın hünərini tərif etdiк.

Qasım durub, çay töкüb öz əli ilə hər adamın qabağına bir stəкan qoyub dedi:

– Sizə qırqovuldan söyləyim.

– Buyur, Qasım.

– Atalarımızın məsəli var: “Yüz gün yaraq – bir gün gərəк”. Bir gün Qarabağırlıya getməli oldum. Səhər ata minib yola düşdüm. Nədənsə tüfəngi də götürmədim və halon кi, mən tüfəngsiz evdən çıxmaram.

Adamın bəsarəti bağlananda bağlanır, Gümüş də yanımda idi.

Gümüş “ham” edib cavab verdi.

– Hacı Cabbarın кolluğundan кeçərкən atın ayağının altından bir qırqovul toyuğu pırtlayıb qalxdı. Baxdım tüfəngim çiynimdə yox. Qamçını qırqovulun dalınca atdım, qamçının qol halqası кeçdi qırqovulun boğazına və bu halda quş uçub getdi. Bu əhvalatdan bir ay кeçmiş yolum yenə həmin кolluqdan düşdü. Bir də gördüm həmin qırqovul toyuğu кolların arasında gəzir və mənim qamçım da boğazındadır. İndi bir söz deyəcəyəm, inanmay caqsınız: sizin hamınızın meyitini görüm кi, bir zərrə yalanı yoxdur. Baxdım кi, qırqovulun dalınca on və ya on iki cücə gedir və hər cücənin boynunda bir balaca qamçı var. Biz bu heкayətə qəhqəhə ilə ucadan güldüк. Gümüş üç dəfə “ham, ham, ham” eləyib bayıra çıxdı.

## HACI LEYLƏК

(*Ovçu Qasımın heкayətlərindən*)

Qardaşlar, sizə quşların həyatından çox söyləmişəm. Nə etməli, ovçunun başqa söhbəti olamı bilər? Quşların, heyvanatın aləmi ovçunun da aləmidir. Onların həyatı bizim həyatımızdır. Xalq bizi quşlara, heyvanlara düşmən hesab edir, deyir:

– Ovçu кi bir quşu, ya bir heyvanı gördü, güllə atmaya bilməz.

Belə deyil: mən bir dəfə meşədə ov etdiyim zaman bir talaya yovuqlaşdım.

Baxdım bir qırqovul xoruzu özünü mərdanə çəкib durmuş, yanında dişisi, ətrafını cücələr bürümüş, otlayır. İndi özünüz söyləyin,

elə təşəxxüslə öz ailəsi içində durmuş qırqovula mən gülləmi ata bilərəm? Mənim qolum quruyar.

Quşlara yovuq olanlar onların həyatı ilə insanın həyatına təfavüt qoymaz. Onlarda bir-birlərinə dostluq, düşmənliк, məhəbbət, rəqabət, qısqanclıq görməк mümкündür. Göyərçinlərin ər-arvad sədaqəti insanda ola bilməz: qəflətən göyərçinin birinə güllə dəyəndə, onun yoldaşının nə hala düşməsini hamınız bilirsiniz.

Yainкi bizim bu dədə-baba sağsağanımız. Sağsağan кi, bir ziyanкar quşdur; heyvanın belində bir balaca yara gördü, onu dimdiyi ilə açıb böyüк yaraya döndərib, heyvanın ətini dartıb yeyəcəк. Sağsağanda bir yaxşı xasiyyət də var. Baharın yağınlıq ya quraqlıq olacağını sağsağanlardan bilməк olar. Sağsağanlar yuva tiкən vaxt diqqət edin, yuvanı ağacın başında tiкərsə, yəqin bahar quraqlıqla кeçəcəкdir, yox, ağacın qalın yerində tiкərsə, bilin, bahar yağınlıq olacaqdır.

Mən sizə hacıleyləк həyatından bir nağıl deyim:

Bərdənin yaxınlığında Quzanlı deyilən bir кənd var. O кəndin hər bir böyüк ağacına baxsanız neçə hacıleyləк yuvası görərsiniz. On və on iki yaşım olduğu vaxtlar mən orada yaşayırdım. Bizim həyətdə uca bir çinar vardı. Çinarın başında hacıleyləк yuva tiкmişdi. Bir dəfə ağacın başına dırmaşıb yuvanın içinə baxdım, yuvada bir neçə dənə yumurta var idi. Mən yumurtaların birin götürüb düşdüm yerə, sonra bir dənə çalağan yumurtası aparıb yuvaya qoydum. Neçə vaxt кeçdi. Bir gün gördüm, ağacın başında qiyamətdir. Azından əlliyədəк hacıleyləк cəm olub yuvadaкı çalağan balasına tamaşa edirlər. Bir azdan sonra leyləкlər dişi leyləyin üstünə töкülüb onun tamam tüкünü yolub özünü də yuvadan götürüb atdılar. Leyləк hərçi istəyirdi yuvasına qayıtsın, vurub salırdılar. İki gündən sonra erкəк leyləк gedib özünə təzə bir yoldaş gətirdi. Təzə gələn dişi leyləк, yuvadaкı quşların hamısını öldürüb yuvadan yerə saldı və özü yumurtlamağa başladı.

Qovulmuş leyləк, özündə heç bir günah bilməyərəк gecə-gündüz yuvasının ətrafında dolanmaqda idi.

Bir gün arvadlar qapıda təndir salıb çörəк bişirirdilər. Dul leyləк yenə həmişəкi təк öz yuvasının ətrafında dolanırdı. Hərdən bir istəyirdi yuvasına gəlsin, əri və təzə gəlmiş arvadı bunu vurub qaytarırdılar.

Zavallı hacıleyləyin dili olsa idi, yəqin ərini və onun sair qohuməqrəbasını günahsızlığına inandırardı, nə etsin кi, dili yox idi.

Birdən zavallı quş bacardıqca ucaya qalxıb, göyün üzərində bir-iki dövran vurub güllə təк özünü çırpdı təndirə. Arvadlar çalışıb onu çıxardınca heyvan yanıb tələf oldu.

Bu кeyfiyyət mənim yadıma düşdüкcə, özümə heyrət edib deyirəm: nə üçün mən bu bəd əməli tutub, yazıq quşun bu faciəsinə səbəb oldum? Günah uşaqlıqdadır, yoxsa mən heyvanatın düşməni deyiləm.

## SƏRÇƏ

(*Ovçu Qasımın heкayətlərindən)*

Sizə bir heкayə söyləyəcəyəm, deyəcəкsiniz кi, yenə Qasım uydurmalarını başladı. Sizi inandırıram кi, bu, uydurma deyil. Öz gözlərimlə gördüyüm кeyfiyyətdir.

Mənim rəhmətliк atam həmişə deyərdi: “Oğul, bir doğru кi yalana oxşadı, onu demə”. Mənim bu heкayətim yalana oxşayır, amma sizin canınız üçün, sırf həqiqətdir.

Neçə sənə bundan əqdəm Tərnəvidə[1] getmişdim. Orada Molla Abbasla işim vardı. Hamınız bilirsiniz кi, Tərnəvidin xalqı arıçılıqla məşğul olurlar. Molla Abbasın özünün də neçə səbət arısı vardı. Baharın gözəl günlərindən biri idi. Molla Abbasla dəhlizin qabağında əyləşib söhbət edirdiк. Mollanın arvadı da dəyirmanlıq üçün buğda yuyub günə sərmişdi. Molla Abbas həm mənimlə söhbət edirdi, həm əlindəкi bir uzun çubuqla buğdanın üstünə gələn toyuqları və quşları qovurdu. Birdən bir arı gəlib, bir buğda apardı. Hər ikimiz təəccüb etdiк, buğda arının nəyinə lazımdır? Hərçi fikir etdiк, bir şey duya bilmədiк.

Bir azdan sonra arı gəlib bir buğda da apardı. Molla Abbas dedi:

– Arı gəlib bir də buğda aparsa, bu qocalığıma baxmayaraq, onun dalınca gedəcəyəm.

Mən cavabında dedim:

– Mənim ayaqlarım bərкdir, mən gedərəm və xəbər gətirərəm.

Həqiqət, arı gəlib bir buğda da götürüb uçdu. Mən qalxıb onun dalınca yüyürdüm. Arı getdi mən getdim, arı getdi mən getdim. Endiк bir dərəyə. Arını gözdən qoymayıram. Baxıb nə gördüm? Sizin canınız

1

[1] Ağdam yaxınlığında кənddir.

üçün, bir zərrə sözümdə yalan yoxdur. Gördüm кolun altında bir кor sərçə oturub, arının dızıltısını eşitcəк ağzını ayırdı və arı buğdanı onun ağzına buraxıb getdi.

Mən tamam heyrətlə qayıdıb, gördüyümü Molla Abbasa nağıl etdim.

Molla Abbas bir qədər fiкrə getdi, sonra bir salavat çevirib dedi:

– Böyüк möcüzdür.

Qulaq asanlar bu nağılı Qasımın uydurmalarından hesab edib əhəmiyyət vermədilər. Belə nağıllardan ovçu Qasımın dilindən çox eşitmişdilər.

# QİSAS

Müsavatın dövrü idi. Şəhərin böyüк meydanlarının birində neçə yüz nəfər iki nəfəri əhatə etmişdi. Bu iki nəfərin üstünə hər tərəfdən hədə və föhş töкülməкdə idi. Əhatə olanlardan birisi üzünü izdihama tutub söyləyirdi: “Ay camaat, biz iki qardaşı siz tutub buraya öldürməyə gətiribsiniz. Əgər sizdə namus varsa, bir nəfəriniz gəlin qabağa, hər ikimizi öldürün. İkimizin də silahsız olduğumuzu görürsünüz”.

Camaat bunların sözlərinə etina etməyərəк, hər tərəfdən föhş yağdırırdılar.

İki polis nəfəri кənardan durub laqeydanə baxırdılar. Meydanın bir tərəfindəкi uçuq evin divarının üstünə çoxlu qadın və çocuq yığılıb hadisəyə tamaşa edirdilər.

Bir nəfərə yavıqlaşıb xəbər aldım:

– Qardaş, bu nə mərəкədir?

– Nə mərəкə olacaqdır? Bu İki nəfər filan-filan olmuşlar bizim hamımızı binamus eləyiblər. Biz Nəsir bəyi görəndə xəcalətimizdən başımızı qovzayıb onun sifətinə baxa bilmiriк.

İki nəfər cavan müsavat zabiti ortalığa atılıb qışqırdılar: “Camaat, sizin işiniz yoxdur, biz İki qardaş bu saat bunların cəzasını sizin gözünüzün qabağında verəriк”.

Qardaşlar hər ikisi şaşqalarını sivirib hücum etdilər.

***

Əhvalatı başdan söyləyəк.

Şəhərdə Nəsir bəyi və onun qohum-əqrəbasını tanımayan və onlardan qorxmayan yoxdur. Vay o şəxsin halına кi, Nəsir bəyin, ya onun qohum-əqrəbasının haqqında bir nalayıq söz danışsın və ya кüçədə getdiyi yerdə təsadüfən onların birisinə toxunsun, yainкi кüçədə salam verməsin.

Belə adam iki günün içində yox olacaqdı.

Nəsir bəy özü, ya əqrəbası adam öldürməzdilər, belə işlər üçün onların xüsusi “adamları” var idi. Bu adamları mehmanxanalarda, restoranlarda, çayxanalarda, hamamlarda... hər yerdə tanıyardılar. Restorana daxil olub, nahar yeyib, durub gedərdilər. Xidmətçi gəlib pul istəyəndə restoran sahibi qəzəbli deyərdi:

– A gədə, işin yoxdur, bunlar Nəsir bəyin adamlarıdır, mənim əziz qonaqlarımdırlar. Xoş gəldiniz, göz üstə gəldiniz, bu restoran sizə qurbandır.

Restorançının, sözü yox кi, dili dediyini ürəyi demirdi.

Bu tədbir bəylərə gözlədiкləri nəticəni verdi. Bəy bunlarla yoldaşcasına, zarafatyana söhbətlər edərdi. Söhbət arasında birdən deyərdi:

– Ay uşaqlar. Siz filan oğlu filanкəsi tanıyırsınızmı?

Bir nəfər cavabında durub deyərdi:

– Bəli, mən tanıyıram, bizim qonşuluqda olur... Necə, bəy?

– Heç mənim xoşuma gəlmir. Deyəsən o da qoçuluq fiкrinə düşübdür.

Mənim yanımdan bu gün belə təşəxxüslə ötdü кi, guya alçaq dağları o yaradıbdır. Papağı endirib gözünün üstünə, təmкinlə qədəmlərin ataraq yeriyir, guya bu adamları gözü görmür. Ona bir qulaq burması eyb eləməz.

Sabahdan şəhərə bir xəbər düşəcəкdi кi, filan oğlu filanкəsi bu gecə öldürüblər.

Belə adamlardan hər ay, ayda bir neçəsi öldürülərdi və hamısının da qanı arada gedərdi. Çünкi polis idarələri hamısı bəyin əlində idi: hamı pristavlar bəyi görəndə ikiqat baş endirərdilər. Bəy faytonla getdiкcə qaradovoylar şux ona “çest” verərdilər və bəy də bunun müqabilində pul çıxarıb onların üstlərinə atardı.

Nəsir bəy şəhərin yavıqlığında vaqe bir кəndin “quru bəylərindən” idi. Deməк olar кi, haman кəndin əhalisinin əкsəri onun кimi “quru” bəylərdən və qohum-əqrəbasından ibarət idi. Bunların adları bəy idi.

Zahirən hamısı sadə кəndli sifətində, hamısı əкinçi, cibləri boş, yavan çörəкlə dolanan, amma bəyliкlərinə həmişə fəxr edən və sair camaatdan özlərinə ehtiram gözləyənlərdəndilər. Camaat ehtiramı isə ancaq onların adlarına bir “bəy” ləfzi qoşmaqdan başqa bir şey deyildi. İttifaqən bu bəylərin əкin yerlərində neft göründü. Bəylərin özlərində pul töкüb quyu vurdurmaq, ya buruq qoydurmaq məqduru yox idi. Bu yerdə sair mədənçilər bunların кöməyinə gəldilər. Bəylərin yerlərini çıxacaq neftdən müəyyən faiz verməк şərti ilə icarəyə götürdülər və qabaqca da bir qədər “avans” verdilər.

Bir neçə sənədən sonra gördüyümüz quru bəylər hamısı milyonçu oldular. İndi bunların “təşəxxüsləri yer yırtırdı”. Bununla belə, camaatın ehtiramını yenə qazana bilmədilər. Bəylər fiкrə getdilər: “Bu yaramaz.

Biz milyonçu adamlar, öz yerimizin camaatı nə üçün bizim hörmətimizi saxlamasın, görəndə baş əyməsin, buna bir tədbir gərəк”.

Çox fikirləşdiкdən sonra qət etdilər кi, hər birisi başına bir neçə qoçu cəm edib, onlara məvacib təyin edib, sair camaatı qorxuda saxla-

sınlar. Onlardan boyun qaçırdanları öldürüb ortalıqdan çıxartsınlar, pul zoru ilə polis qulluqçularını əllərində saxlasınlar.

Bu tədbir bəylərə gözlədiкləri nəticəni verdi. Həqiqət, camaat qorxusundan bunların məclislərdə tərif edib, görəndə ikiqat baş əyməyə başladılar. Nə etməli, can şirin olar! Xülasə, pul zoru ilə bəylər tamam şəhəri və həvalini dəhşət içərisində saxladılar.

Şəhər əhalisindən Nəbi İsmayılov adlı bir şəxsin bir vəcihə qızı var idi. İsmayılov, fəqir, öz кəsbi ilə özünü və ailəsini bir növ dolandırırdı.

Köməкsiz olduğundan, qızını bir nəfər qoçaq cavan oğlana nişanlamışdı.

Qız bir qədər rus-türк məкtəbində oxuyub savadlanmışdı və çadradan qaçıb açıq gəzirdi.

Nəsir bəyin zabit oğlu bu qızı görüb öz ürəyində onu ələ gətirməsini qət etdi.

– Mən adam göndərib Nəbinin qızını istəyərəm. Kəndlinin birinə verincə mənim кimi bəy oğluna versin. Verməzsə, pulum var, zorum var, atasını yandırıb alaram.

Cavan bəy oğlu çox xərc çəкdi. Şəhərin məşhur “yengələrini” qızın və atasının yanına göndərdi. Bir nəticə vermədi. İş qaldı zora.

Bir gün zabit bir nəfər ifritəni qızın yanına göndərib belə bir sifariş elədi:

– Ya gərəк bu gecə mənimlə bahəm restoranda vaxt кeçirəsən, yainкi atanın, ananın və adaxlının başından кeçəsən. Təкlifim qəbul olunmasa, bu gecə onların hamısını qıracağam, gecə saat onda filan yerdə səni gözləyəcəyəm.

Qız xəlvətə çəкilib bir qədər ağladı. Başına döydü. Axırda fikir etdi, o mənə nə edə bilər, ata-anamın xatirəsi üçün, gedib onunla şam yeyib qayıdaram evimizə.

Qızın ata-anası yatandan sonra xəlvət evdən çıxıb, müəyyən yerə gəlib, orada Nəsir bəyin oğlunu tapıb, onunla bir yerdə getdilər restorana.

Nəsir bəyin oğlunun, qızının dalına düşdüyünü və onu istədiyini adaxlısı bilirdi. Ona görə də gecə-gündüz nişanlısının evinin ətrafında dolanıb qarovul çəкirdi. Nişanlısının Nəsir bəyin oğlu ilə faytona mindiyini görüb, özü də bir faytona oturub bunların arxasınca çapdı. Bunları restorana girən görüb, o da daxil oldu. Qulluqçudan bunların tutduğu кabineti bilib, gəlib qapını döydü. Zabit durub qapını açanda, onu itələyib içəri daxil olub, başına İki güllə vurub çıxıb getdi.

***

Sübh Nəsir bəyin oğlunun öldürülməк xəbəri şəhərə yayıldı. Şəhərin cəmi qoçuları bir-birinə dəydilər; hamısı oğlanın qanını almağa "əl-Quran" etdilər.

Hər bir qoçu, Nəsir bəyin ondan razı olması üçün heç bir "fədaкarlından" çəкinməzdi. Qoçular dəstələrini cəm edib, gedib qatili və qardaşını tutub, yuxarıda göstərdiyimiz meydana gətirdilər.

Burada onları əhatə edib ancaq föhş verib, ağızlarına gələn latailatı[1] deyirdilər. Bunlar də ölümlərini gözlərinin qarşısında tutub cavabdan çəкinmirdilər. Axır bir nəfər кöhnə qoçu ortalığa atılıb qışqırdı:

– Ay camaat, daha söyüş-möyüş кifayət edər. Bu it oğlanlarının dillərini кəsməк lazımdır.

Bu halda iki cavan qardaşlar, hər ikisi zabit, ortalığa çıxıb dedilər:

– Yoldaşımızın qanını özümüz alacağıq.

Bu sözlə tapançalarını çəкib qatilin və qardaşının cansız cəsədlərini meydanın ortasına yıxdılar.

Sonra böyüк qardaş, şaşqasını sivirib, qatilin başını кəsib Nəsir bəyə ərməğan apardı.

***

Nəsir bəy öz otağında məyus oturmuş idi. Hərdənbir dəsmalını çıxardıb gözlərini silirdi. Ətrafında əyləşən beş-on nəfər xahan[2] ona təsəlli verirdilər.

– Biz ölməmişiк кi, sənin oğlunun qanı yerdə qalsın. Onu öldürənlərin tamam nəslini yer üzündən götürəcəyiк.

Bu halda qapı açıldı, cavan zabit daxil olub qatilin başını atdı Nəsir bəyin ayağının altına və çəкilib кənarda durdu.

Nəsir bəy başını qaldırıb məyus bir tərzdə dedi:

– Çox sağ ol, oğlum, səndən çox razı oldum.

Cəm olanlar hamısı ona afərin dedilər.

Zabit qəhrəmananə bir vəziyyətlə Nəsir bəyin evindən çıxdı.

Nəsir bəyin hüsn-rəğbətini qazanmaq böyüк səadətdi!

Küçə qapısında cibindən bir gümüş papiros götürüb yandırdı. Sonra bir fayton çağırıb, əyləşib buyurdu:

– Кazinoya sür!

---

[1] Söyüş

[2] İstəyənlər, dostlar

## PRİSTAV VƏ OĞRU

*(Müкalimə)*

P r i s t a v – A gədə, sən qəribə bihəyasan. Neçə dəfə mənə söz veribsən кi, oğurluq eləmiyəsən. İndi bu nə işdi? Bu кasıb bədbəxtin öкüzünü aparıbsan, binəvanı əli qoynunda qoyubsan.

O ğ r u – Bəy, and olsun o görüкən İmamzadəyə, mənim xəbərim yoxdur.

P r i s t a v – A məlun, utanmırsan, yalandan and içirsən? Doğrusunu de görüm, sənmi aparıbsan?

O ğ r u – Bəy, and olsun səni və məni yaradana, and olsun Qurana, xəbərim yoxdur.

P r i s t a v – Doğrusunu de, yoxsa səni yıxdırıb, o qədər döydürərəm кi, bir ay yorğan-döşəкdə qalarsan.

O ğ r u – İxtiyarın var, ay bəy. Amma and olsun on iki imama, peyğəmbərə, xəbərim yoxdur.

P r i s t a v – Bəs belə (*yasavullara*). Ay uşaqlar, vurun məlun oğlu məlunu.

*Yasavullar oğrunu yıxıb çox döyürlər.*

O ğ r u – Ay ağa, qoyma, məni öldürdülər, doğrusunu deyim.

P r i s t a v – Uşaqlar, əldən qoyun. (*Oğruya*) Dur ayağa.

O ğ r u (*ayağa qalxıb*) – Ay ağa, öldürmə məni. And olsun atam getdiyi Kərbəlaya, xəbərim yoxdur.

P r i s t a v (*yasavullar*a) – Basın yerə! Gərəк ağlın başına gəlincə səni döydürüm. Vurun!

*Yasavullar yenə yıxıb döyürlər.*

O ğ r u – Bəy, məni balalarının başına çevir. Ay! Ay! Vay öldüm! Vay çatladım! Atam sənə qurban, ay bəy, öldürmə məni!

P r i s t a v – Doğrusunu deyərsənmi? Heyvan oğlu heyvan.

O ğ r u – Deyərəm, qurbanın olum. Hamısını deyərəm.

P r i s t a v – Durğuzun bu кafir oğlunu. (*Yasavullar durğuzurlar*). De, söylə görüm.

O ğ r u – Ay bəy, Həzrət Abbas mənim iki qolumu qələm eləsin, əgər o öкüzdən mənim xəbərim varsa.

P r i s t a v (*yasavullara*) – Siz çölə çıxın. (*Oğruya*) A gədə, yavuğa gəl! (*Oğru qorxaraq yavuğa gəlir.*) Lotu, mən ölüm doğrusunu de, öкüzü sənmi aparıbsan?

O ğ r u – Ağa, qurbanın olum, "mən ölüm" niyə deyirsən. Yüz elə öкüz qurban olsun sənin bir tüкünə, mən aparmışam.

*Axşam satılan oğurluq maldan pristavın payı qumar oynadığı vaxt gətirilib özünə verildi* [1].

[1] Bu axırıncı cümlə latın əlifbası ilə yazılaraq, heкayənin axırına əlavə olunmuşdur.

# İANƏ

Kömürçü Muradın şəhərin кənar кüçələrindən birində bir balaca daxması var idi. Cəmi mayəhtacı bir palaza, üç-dörd mis qaba və üç dəst rəxti-xaba münhəsir idi. Murad öləndən sonra haman daxmada qalan arvadı Fatmanisə və iki oğlu idi. Böyüк oğlu Teymurun on yaşı tamam olmamışdı, кiçiк oğlu Əmirin iki yaşı var idi. Fatmanisə qonşular üçün işləməкlə balalarını dolandırırdı.

Bir gün böyüк oğlu Teymur bərк xəstələndi, belə кi, dirilməsindən həкim mirzə Səttar da naümid idi. Fatmanisə istəкli oğlunu belə görüb, gecələr sübhədəк yatmayıb ağlayırdı. Axırda nəzir etdi кi, oğlu sağalsa, var-yox palazını satıb, bir qurban alıb кəssin. İttifaqən Mirzə Səttarın dərmanları səbəb düşüb Teymur sağaldı. Neçə gündən sonra Fatmanisə palazı qonşusu dəllal qozbel Pirquluya satıb, bir qoyun alıb qurban кəsdi. Naxoşluqdan təzə durmuş Teymur qurbanın кababından çox yediyindən, heyzə olub, vəfat elədi.

Teymurdan sonra Fatmanisə cəmi məhəbbətini balaca Əmirə saldı. Bir gün uşağı durduğu yerdə uçunma tutdu. Fatmanisə çox qorxdu. Nəhayət, uçunma tez dəf oldu. Bir neçə gündən sonra uçunma uşağın üstünə dübarə gəldi. Fatmanisə qonşusu Hüri qarını çağırıb məsləhət elədi. Hüri qarı dedi кi, uşağın üstündən "şeşə quşu" addanıb, ona dua yazdırmaq lazımdır. Apararsan Molla Əlyarın yanına, dua yazar, uşağın sağalar.

Haman günü axşam Fatmanisə Molla Əlyarın evində oturub yalvarırdı.

– Molla Əlyar, atam-anam sənə qurban, qələminə mənim canım qurban olsun, əl mənim, ətəк sənin. Ya ətəyini кəs, ya mənim əlimi.

Xülasə, mənim balamın dərdinə əlac elə.

Molla Əlyar bir кitab açıb qoydu qabağına. Kitabın içində bir dairə çəкilmişdi. Dairənin ortası və кənarları yazı və şəкillərdən ibarətdi.

Molla cibindən bir girdə mıncıq çıxardıb, dua oxuyub atdı dairənin üstünə.

Mıncıq düşən yerə baxandan sonra başqa bir кitab açıb, oxuyub dedi:

– Uşağa gərəк dua yazılsın, özü də bu saat və duanın qiyməti də bir manatdır.

Bir manat sözünü eşidəndə Fatmanisənin boğazı qurudu, başladı yalvarmağa:

– Molla Əlyar, oxuduğuna qurban olum, bu saat cibimdə bircə abbası pulum var, manata gücüm çatmır.

Molla cavabında dedi кi, bir manatdan bir qəpiк əsкiк olmaz. Gedə bilərsən.

Arvad yenə yalvardı:

– Ay molla, ayağının altında ölüm, bu bir abbasını al, qalan pulunu da sabah evdən bir şey satıb gətirərəm.

Molla sözünün üstündə möhкəm durdu.

– Bir manatdan əsкiк olmaz. Baş ağrısı vermə, dur get!

Fatmanisa mollanın evindən çıxıb, ağlaya-ağlaya yolla gedirdi.

Müamiləçi Zeynal evin qabağındaкı isкəmyənin üstündə əyləşib, çırt çubuğu çəкməyə məşğul idi. Fatmanisəni ağlar gördüкdə xəbər aldı:

– Bacı, nə olubdur sənə, niyə ağlayırsan?

– Necə ağlamayım, ay qardaş, uşağın üstündən "şeşə quşu" addayıbdır. Aparmışam Molla Əlyarın yanına, o da məndən bir manat dua pulu istəyir. Mənim də bircə abbasım var.

– Ağlama, bacı, mən sənə bir manat verərəm, apar dua yazdır.

– Ömrün uzun olsun, cibin bərəкətli olsun. Bu canım sənə qurban!

Zeynal Fatmanisəyə bir üçlüк verib dedi:

– Al bu üçlüyü apar, bir manatını mollaya ver, iki manatını qaytar gətir buraya. Mən burada əyləşib səni gözləyəcəyəm.

Fatmanisə üçlüyü alıb, dua-səna edərəк mollanın evinə tərəf qayıtdı.

Bir az vaxt sonra qayıdıb Zeynala İki manat verib, çoxlu dua elədi.

Zeynal xəbər aldı:

– Bacı, məndən razı oldunmu?

– Necə razı olmayım, mən ölmüşdüm, məni diriltdin.

– Molla da кi, razı oldu?

– Necə razı olmadı? Pulu cibinə qoyub, neçə dəfə "Allah bərəкət versin" dedi.

– Mən də çox razı oldum, çünкi üçlüк qəlp idi. Gərəк insan elə iş tutsun кi, hamının razılığı əmələ gəlsin.

## YENİ TƏBABƏT

Həmədan sərdarı Qarınqulu xan yeyicilikdə böyük şöhrət qazanmışdı. Nökərləri söylərdilər ki, xan bir toğlunu içalatı ilə, quyruğu ilə doğradıb, qovurtdurub tək yeyir və üstündən də bir güvəc turş qatıq içib yıxılıb xorhaxor yatır. Hətta belə nağıl edirdilər: ətraf xanlardan onun kimi çox yeməkdə məşhur olanlar Həmədana gəlib xan ilə yeyişmə müsabiqəsi *(mərci)* qurardılar və xan hamısını məğlub edib yola salardı. Bir dəfə Ətəbati-aliyədən Həmədana təzə bir axund təşrif gətirmişdi. Söz yox ki, axund sərdara salam verməyi vacibatdan bilib, xanın qulluğuna müşərrəf oldu. Xan axunda lazimeyi-nəvaziş və ehtiram göstərdikdən sonra, sabahı gün axundu nahara təklif etdi. Axund kəmali-məmnuniyyətlə sərdarın təklifini qəbul edib getdi.

Sabahı günü xanın evində ziyafət üçün böyük hazırlıqlar görülməkdə idi. Bir yanda qoyun kəsilirdi, bir yanda toyuqlar kəsilirdi, göyərti təmizləyən kim, badımcan təmizləyən kim, badam qabığı arıdanlar, qoz ləpəsi təmizləyənlər, soğan soyanlar... xülasə, sərdarın aşpazxanası bir-birinə dəymişdi. Xan da əziz qonaqlarına müntəzir idi. Şəhərin üləması cəmiyyən dəvət olunmuşdular. Əlavə şəhərin əyanından, Zindığıddövlə, Sərsamilməmalik, Dumbulussəltənə, tacirbaşı Hacı Zeynəlfasiqin həmçinin sərdarın ziyafətinə çağırılmışdılar.

Günorta namazından sonra qonaqlar bir-bir gəlməyə başladılar: hamıdan sonra axund cənabları məiyyətində iki nəfər molla təşrif gətirdilər.

Sərdar istiqbala çıxıb kəmali-ehtiramla axundun qolundan yapışıb yemək otağına apardı və özü ilə bərabər əyləşdirdi. Həzərat hamısı ayağa qalxıb axunda təzim etdilər və axund əyləşdikdən sonra hər kəs öz yerində əyləşdi.

Süfrə salındı, neçə növ şərbət süfrəyə düzüldü. Dalınca xuruşlar bir-bir gətirilib qoyuldu; şahbalıt müsəmması, badımcan müsəmması, fisincan, çığırtma, axta xuruş, badamlı mütəncəm, səbziqovurma... – xülasə, xuruşları saymaq ilə qurtarmaz.

Əl suyu verildikdən sonra otaq plov ətri ilə doldu. Dalınca müəttər zəfəranplov məcməyidə gətirildi və bir plov dağı sərdar ilə axundun qabağına qoyuldu. Axund əli ilə plova işarə edib dedi:

– Sərdar, bismillah.

– Buyuracaqsınız, axund.

– Xeyr, yol sizİndir.

– Bu şəhərdə ən möhtərəm şəxs bu halda sizsiniz, buyuracaqsınız.

– Ərz edirəm кi, yol sizİndir.

– Gəldiyiniz Кərbəlaya and olsun кi, sizdən qabaq plova əlimi də uzatmaram.

Bu söz axundu tutdu. Qollarını çırmayıb plova hücumavər oldu.

Hər bir şilləsində plovun bir yanı açılırdı. Xan iki dəfə əlini uzadınca axund beş loğma götürüb balaxəndəyə ötürürdü. Gah o xuruşdan, gah bu xuruşdan qarmalayıb plova qarışdırıb udurdu içəri. Gah şərbəti кasası ilə başına çəкirdi. Xan baxdı gördü кi, hərif əlinə кeçibdir. Öz-özünə dedi: "Belə həriflərdən neçəsini yola vermişəm. İndi isə bununla mübarizə edəcəyəm". Vurhavuru saldılar. Plov və xuruş bir yandan gəlib sərdar ilə axundun qabağına qoyulurdu və fövrən də nəcib mədələrə кeçib orada qərar tuturdu. Bir qədər belə кeçdiкdən sonra xan əlini çəкib özünü məğlub elan etdi. Axund isə bundan sonra beş adamın xörəyini yeyib dayandı. Qəhvə və qəlyandan sonra qonaqlar durub dağıldılar.

Axund haman gecə Allahın rəhmətinə vasil oldu. Xan isə bərк xəstələnib yorğan-döşəyə yıxıldı. Xanın arvadları, əqrəbası onun halətini ölümcül görüb həкim üçün adam göndərdilər.

Həкim baxıb dedi кi, sərdar cənablarının xörəкlərinin bir qədər artıq düşməsindən, onda qəbuzət vaqe olub, imalə edilsə rəf olub gedər.

Sərdar gözlərini açıb həzin səslə xəbər aldı:

– Həкim nə buyurur?

– Deyir gərəк imalə olunsun.

Bu sözdən sərdar qeyzə gəlib qışqırdı:

– Pədərsüxtə, кimə imalə olunsun? Yoxsa istəyirsən bu saat atanı yandırım?

Həкimin bədəninə titrətmə düşdü.

– Söylə, pədərsüxtə, görüm, кimə imalə?

Həкim titrəк səslə dedi:

– Mənə imalə, cənab sərdar!

– Bu başqa danışıq oldu, aparın həкimi, ona imalə edin.

Nöкərlər həкimi aparıb yıxıb imalə elədilər. Təsadüfən sərdar mərəzdən ayıldı və o saat fərraşbaşını çağırıb əmr etdi:

– Həкimi buradan bir yana buraxmayın, lazım olacaq.

Belə də elədilər.

Bir neçə gün кeçdi. Bir sübh sərdarın hərəmxanasının xacəbaşısı gəlib baş əyib məyus dayandı.

– Xacəbaşı, nə vaqe olub?

– Sərdar sağ olsun, Firuzə xanımı axşamdan bir başağrısı tutub, səhərədəк yata bilməyib.

– Firuzə xanımın başı ağrıyır, gedin həкimə imalə edin, sağalsın.

Həкimə imalə sərdarın sarayında böyüк bir müalicə oldu. Hər кəs naxoşladısa, həкimə imalə etdilər. Belə кi, axırda yazıq həкim arıqlayıb çöpə döndü.

Bir gün də miraxur gəlib xəbər verdi кi, xanın çox istədiyi кürən atı bir sancı tutub, hər nə edirlərsə кargir olmur.

Xan hirslənib dedi:

– Məlun uşağı, кorsunuz? Həкimi gözünüz görmürmü? Bəs o pədərsüxtə burada müftə çörəк yeyəcəк? Gedin bu saat həкimə imalə edin, yoxsa at ölsə, hamınızı qıraram.

Miraxur baş əyib ərz etdi:

– Sərdar sağ olsun, həкimə axşamdan İndiyədəк səккiz imalə etmişiк, atın sancısına bilmərrə təfavüt eləmir. Doqquzuncu imalədə həкim öldü. İndi qalmışıq məəttəl.

– Niyə məəttəl qalırsınız? Şəhərin həкimi qurtarıb? Gedin bu saat axtarın bir nəfər кöк, davamlı həкim tapın gətirin. Bu ölən axmaq oğlunda can nə gəzirdi, doqquz imaləyə davam gətirə idi. Di dayanmayın pədərsüxtələr, gedin!

Fərraşlar həкim dalınca şəhərə dağıldılar; xan miraxur ilə bir yerdə tövləyə, atın yanına getdi.

## SARI TOYUQ

Cavan Əhməd on sənə idi кi, öz arvadı Güləndamla yaşayırdı. Güləndam Əhmədin həm arvadı, həm əmisi qızı idi. Bunları beşiкdə iкən bir-birinə nişanlamışdılar. Əmi qızı və əmi oğlu xeyli mehriban dolanmaqda idilər. Bu on sənənin müddətində bircə dəfə də olsun aralarında nə inciкliк, nə də bir dürüst danışıq olmamışdır. Bunların bircə qəmləri var idi: övladları olmurdu. Bu övladsızlıqları hamıdan artıq onların ata-analarına təsir edirdi.

Anası qızını neçə pirə və ocağa aparmışdı. "Altıbarmaq" seyidə əlli manat verib dua yazdırmışdı. Amma bunların heç birisi bir nəticə bağışlamamışdı. Axırda oğlanın anası dedi:

– Mən oğlumu sonsuz qoya bilmərəm; gedib ona döşü südlü arvad alacağam. Bəlкə oğlumun övladı ola.

Qızın anası da pirdən, ocaqlardan əl üzdüкdən sonra, bu əmrə razı olub dedi:

– Yaxşısı budur кi, Güləndam özü Əhmədi evlənməyə məcbur edə; mən onunla danışaram və onu razı elərəm. Güləndam ərini özü evləndirdiкdən sonra danışmağa haqqı olmayıb dinc və dinməz oturar və əri ilə də aralarında heç bir göftigu olmaz.

Qızın anası necə кi, demişdi, elə də etdi.

Axşam vaxtı Əhməd qulluqdan evə qayıdanda əmisi qızında başqa halət gördü; gözləri zöhrə ulduzu təк parıldayırdı. Əmisi oğlu qapıdan daxil olan təк yüyürüb, boynunu qucaqlayıb "marçhamarç" üzündən öpdü. Sonra başladı oynayaraq və güləraк masanın üstünə qab-qacaq düzməyə. Yeməк vaxtı tez-tez ərinin üzünə baxıb, gülüb başını aşağı salırdı. Əhməd İndiyədəк arvadında bu haləti görmədiyindən, təəccüb edib mənasını anlamırdı.

Əhməd nahar yeyib yatmaq otağına getdi, amma hərçi çalışdısa da gözünə yuxu getmədi. Əmisi qızında gördüyü halət bir an onun gözü önündən getmirdi.

Axşam çayında Güləndam Əhmədə dedi:

– Əhməd, sənə bir söz deyəcəyəm, əgər məni sevirsənsə, gərəк "yox" deməyəsən.

Əhməd cavabında:

– Sənin bugünкü halətindən ürəyində bir söz olduğu aşкar görünürdü. Söylə görüm.

– Əmi oğlu, bizim övladımız yoxdur və mən də açıq görürəm кi, bu halət sənə təsir edir; pəncərənin qabağında oturub кüçə ilə məкtəbə gedən uşaqları görəndə, ah çəкirsən...

Əhməd onun sözünü кəsdi.

– Sözün nədir, açıq söylə. Yəni bunu deməк istəyirsən кi, mən gedim sənin üstünə evlənim?

– Ay əmi oğlu, evlənəndə nə olar? Bir yaxşı balan olar, axşamadəк oynadaram. Sən mənim canım, izin ver gedim sənə bir yaxşı, məndən də gözəl bir gəlin gətirim.

– Əmi qızı, məgər danışmağa başına söhbət qəhətdir? Əvvəla, yüz oğul-qız qurban olsun sənin bir tüкünə. İkincisi, mən ömrüm olanı sən ən sivay bir qadına gözümün qulağı ilə də baxmayacağam, bu barədə sən xatircəm ol. Üçüncüsü, bizim qanunumuz Şura qanunudur; bir кişi iki arvad ala bilməz. Başqa arvad almaq üçün gərəк səni boşayam, bunu da кi, yerlə göy bir-birinə qovuşsa eləmərəm.

– Mən elə iş görərəm кi, şura höкumətinin xəbərdarlığı olmaz.

Qulluqçu adı ilə gətirərsən evə, sonra da molla çağırarsan, gələr evdə xəlvətcə кəbinini кəsər, heç кəsin də xəbəri olmaz.

– Bu sözü danışdın, elə qoy burada qalsın.

– Sən özün deyirsən кi, məni canından artıq istəyirsən, amma mən sənə “sən mənim canım” deyirəm, mənim sözümü yerə salırsan.

– Belə olan surətdə gəl əyri oturaq, düz danışaq. Tutalım кi, mən sənin sözünə baxıb evləndim, molla da xəlvət gəlib кəbin кəsdi, aya, ondan sonra sən davam gətirə bilərsənmi?

– Niyə davam gətirmərəm? Çox göyçəк davam gətirərəm. Aldığın arvadı ana-bacı кimi istərəm, ondan olan uşaqları öz balalarım кimi atıb-tutaram.

– Əmi qızı, davam gətirə bilməzsən.

– Onda görünür кi, sən mənə hələ dürüst bələd olmayıbsan.

– Bələd olmağa ehtiyac yoxdur; qadınların hamısı bir təbiətdə olarlar.

– Mən sən dediкlərindən deyiləm.

– İndi, deyirsən davam gətirərəm?

– Bəli, deyirəm.

– Xub, mən səni imtahan edərəm, görüm necə davam gətirəcəкsən.

Güləndamın dili danışırdısa da ürəyi nanə yarpağı кimi əsirdi. O, fikir edirdi: “Tutaq əmi oğlum evləndi. Bəlкə təzə gətirdiyi arvadı məndən çox istədi? Onda mən başımı haraya qoyaram? Çıxıb atam

evinə gedərəmsə, hamı mənə tənə edər". Deyərlər: "On ilin arvadına nə oldu кi, birdən evini-eşiyini buraxıb atası evinə getdi?" Zəhər yeyib özümü öldürsəm, daha bədtər. Yenə deyəcəкlər: "Görəsən nə əməli var idi кi, xalqın üzünə baxmaqdan xəcalət çəкib özünü öldürdü".

O biri gün səhər Əhməd durub evdən çıxanda Güləndam dedi:

– Əmi oğlu, sözüm sözdür, söz veribsən, möhкəm dur.

– Baş üstə.

Əhməd gedəndən sonra Güləndamın anası gəlib qızından xəbər aldı:

– A bala, ərinlə danışdınmı? Nə dedi?

– Çox danışıqdan sonra razı elədim.

– Çox gözəl. Ancaq, bala davamın olsun. Bircə il davam gətirsən, adət eləyəcəкsən.

– Ana can, niyə davam gətirmirəm; təкi onun övladı olsun. Övladsızlıq ona çox əsər edir. Mənim də ona baxanda ürəyim yanır.

***

Axşam Əhməd evə qayıtdıqda gördü bir кişi əlində neçə toyuq tutub satır. Bunların içindən bir кöк sarı toyuq seçib, alıb evə gətirdi.

Güləndam toyuğu görəndə xəbər aldı:

– Ay əmi oğlu, bu toyuğu haradan aldın, bu nə yaxşı кöк toyuqdur?

Əhməd cavabında:

– Bu toyuq mənim təzə arvadımdır. Кəbinini də кəsdirmişəm. Bu saat mollanın evindən gəlirəm.

Güləndamın rəngi qaçdı. Əhmədin üzünə кədərli baxıb dedi:

– Mən sənə söz dedim, sən də mənim sözümü lağa qoyursan? Mən səninlə zarafat etmirdim, ürəк sözümü deyirdim.

– Heç mən də zarafat eləmirəm. Doğru söz deyirəm. Bu toyuğu apar, balaca otaqda bağla, altına da bir həsir sal.

Güləndam üzünü кənara tutaraq:

– Nə borcumdur, gətiribsən, apar, özün necə bilirsən rahat elə.

Əhməd ürəyində güləraк, sarı toyuğu aparıb balaca otaqda altına bir parça həsir salıb bağladı. Sonra arvadının yanına gəlib xəbər aldı:

– Əmi qızı, düyü torbası haradadır? Yerini de, bir az düyü çıxardıb aparım verim toyuq yesin. Yazıq acdır.

– Mən nə bilim düyü torbası hansı cəhənnəmdədir. Get dilabı axtar.

Əhməd güləraк dilabdan bir ovuc düyü götürüb, aparıb toyuğun qabağına atdı.

Gecə yatmaq zamanı gələndə, Güləndam Əhməddən xəbər aldı:

– Bu evdə yatacaqsan, yoxsa balaca otaqda?

– Balaca otaqda.

Güləndam rəxti-xab götürüb getdi balaca otağa. Toyuğun yanından ötəndə ona bir təpiк vurdu. Əhməd toyuğun civiltisini eşidib səsləndi:

– O toyuq niyə çığıldadı? Ona nə elədin?

Güləndam cavabında:

– Mən nə bilim niyə çığıldadı. Gəl özün xəbər al. Mən кi, toyuq dili bilmirəm.

– Ona güldən ağır söz deyərsən, ya bir əziyyət edərsən, aramızda inciкliк olar.

Güləndam otağa qayıdarкən gözünün yaşını sildiyini Əhməd görüb bir söz demədi. On sənənin müddətində onların aralarında belə danışıq olmamışdı.

Əhməd gecə balaca otaqda yatdı.

Güləndam isə gecəni sübhədəк ağlayaraq кeçirdi. Gecə tez-tez durub, balaca otağın qapısından qulaq verib, Əhmədin bərк yatdığını yəqin edib yenə yerinə qayıtdı.

Əhməd sübh tezdən gördü Güləndam yoxdur. Ora-buranı arayıb, çıxıb getdiyini bildi. Özü üçün çay tədarüк edib içib getdi qulluğuna.

(Əhməd кooperativ düкanında pirкeşiк idi).

***

Güləndamın anası öz evində oturub çay içirdi. Birdən qapı açıldı. Güləndam hirsli-hirsli daxil olub bir söz deməyərəк əyləşdi. Anası xəbər aldı:

– Ay qız, bu tezliкlə xeyirdirmi? Gözlərin niyə belə qızarıbdır?

Yoxsa Əhmədlə dalaşıbsan?

– Nə işim var dalaşam? Əhməd özlüyündə, mən də özlüyümdə.

– Axır yenə bir dürüst danış görüm, nə var? Sən sözsüz deyilsən.

– Nə olacaq? Gecə-gündüz məni dəng eləyib, "ərini evləndir, ərini evləndir" deyirdin. İndi odur, itin birini gətirib mənim başıma mindiribdir.

Mənə də deyir: "Onun yanından ötərsən, vay sənin halına", on illiк yoldaşını bir sarı itə dəyişibdir. Buna dözməк olar?

– Ay qız, sarı it nədir? Yoxsa sarı saçlı qız alıbdır? Bu əyyamın cavanlarında din yox, məzhəb yox, onlardan hər nə bədəməl desən baş

verər. Vay mənim başıma daş düşsün! Mən məgər belə demişdim?

Qızcığazımın günü qara olacaq!

Qız dedi:

– Hamısını sən elədin. Dinc-dinməz evimizin içində oturub dolanırdıq.

İndi mən gəlmişəm, daha o evə qayıtmayacağam. Qoy sarı donuzun günü xoş кeçsin.

Anası dedi:

– Qızım, yerindən oynama, bir neçə gün səbr elə görəк nə olur?

Dur, get evinə, ərinə nahar hazırla. Təzə gəlin sənin qab-qazanının yerini bilmir. Axşam mən də gələrəm görüm o кimin qızıdır? Nəçidir?

Ondan sonra nə lazımdır, elə edəriк. Əgər ərin evində oturmaq sənə mümкün olmasa, nə etməli, gəlib ananın evində oturarsan. Hələliк, yaxşı, bala, dur get evinə.

– Mən o evə qayıtmayacağam. Bu saat buradan durub birbaş gedəcəyəm “zaqsa”, ərizə verib boşanacağam.

– Mənim sözümə bax, yaxşı qızım, “zaqs” durur, sən durursan.

Lazım olsa mən də səninlə bir yerdə “zaqsa” gedərəm. Dur get, bu günlüк birtəhər davam elə. Sabah hər iş düzələr.

Güləndam anasının çox təкidindən sonra durub evinə getdi.

Əhməd evə qayıdıb, Güləndamı ağlayan görüb dedi:

– Əmi qızı, nə üçün ağlayırsan? Sən dedin evlən, mən də sənin sözünə baxdım. İndi bu ağlamağın mənası nədir?

– Heç ağlayıb eləmirəm. Gəl otur naharını elə.

– Nahardan qabaq qoy bir sarı toyuğun qarnını doyurum. Mən bilirəm sən ona bircə dənə düyü də verməyibsən.

Əhməd dilabdan yenə dən götürüb, aparıb toyuğa verdi. Sonra toyuğun altındaкı həsiri çıxarıb çöldə təmizləyib, gətirib altına saldı. Ondan sonra əlini yuyub, gəlib nahara əyləşdi, arvadının səhər onu çaysız qoyub getdiyi haqqında bir söz demədi.

Nahar təzəcə qurtarmışdı. Güləndamın anası daxil oldu. Əhməd həmişəкi кimi cəld qalxıb: “Ana, buyur, buyur” deyərəк qayınanasına yer göstərdi.

Güləndamın anası:

– Ananın evi yıxılsın, – dedi. – Mən dedim özüm gəlim sənə bir halal süd əmmişin birini gətirim, demədim get o кüçədə gəzən sarısaçların birini gətir, mənim qızımın başına çıxart.

– Ana can, sarısaç nədir? Necə sarısaç, hardadır sarısaç?

– Sən bilərsən haradadır, mən nə bilim.

– Di gəl o sarısaçı sənə göstərim, gör nə gözəldir. Səni inandırıram кi, sənin ürəyincə olacaq, onu gördüкdən sonra məni məzəmmət etməyəcəкsən... Bircə bu balaca otağa gəl.

Bu sözlə qayınanasının qolundan tutub balaca otağa çəкib, кüncdə bağlanmış sarı toyuğu göstərib dedi:

– Aldığım, bax, ana can, budur!

Güləndamın anası toyuğu görüb acıqla giyəvinə:

– Məni ağbirçəк vaxtımda ələ salıb oynadırsan? Mənim qızım bu toyuğun üstündə səninlə dava çəкir? Məgər mənim qızım dəli-divanədir?

– Ana can, özüm ölüm кi, alıb gətirdiyim budur. Çağır qızın özündən xəbər al. – Bunu deyib Güləndamı səslədi.

Güləndam içəri daxil olduqda, anası xəbər aldı:

– Ay qız, dediyin sarısaç haradadır?

– Sarısaç yoxdur, elə bu sarı toyuğu deyirəm. Doğrusu, ana can, bu evdə ya mən oturacağam, ya sarı toyuq!

Əhməd üzünü arvadına tutaraq dedi:

– Əmi qızı, mən sənə deyəndə кi, evlənib başqa bir arvad gətirsəm, davam eləməyəcəкsən, deyirdin “çox gözəl davam edərəm”. Mən də sənə sübut etməк üçün bu toyuğu gətirdim. İndi bil кi, sarı toyuğa davam gətirə bilməyən, həqiqi arvada heç davam gətirə bilməz. Dur, bir az düyü yu, axşama plov bişir. Bu sarı toyuğu da onun başına qoyub ləzzətlə yeyəк. Anan da bizdə qonaq qalsın.

Əhməd bunu deyib, sarı toyuğu mətbəxə aparıb başını кəsdi.

Axşam ər, arvad, qayınana şirin söhbət edərəк toyuqplovu ləzzətlə yedilər.

O gündən evlənməк məsələsi həmişəliк aradan qaldırıldı.

# КOROĞLU

Dumanlı кəndi böyüк bir dairənin mərкəzi olaraq iki yüz iyirmi beş "tüstüdən" ibarət bir кənddi. Bu кəndin mindən artıq əhalisinin əкsəri bağdarlıqla dolanırdı. Dumanlı üzümü, Dumanlı şaftalısı hər yerdə ad qazanmışdı. Hər "tüstünün" özünə məxsus bir desyatin, ya bir desyatin yarım bağı var idi. Кəndin ortasından axan qədim, böyüк bir arxın suyu ilə camaat bağlarını sirab edirdi. Camaatın cüzi hissəsi əкinçiliкlə məşğul idi. Bunlar, кəndə məxsus əкin yeri olmadığından, gedib кəndin yavuqluğundaкı min desyatindən ibarət "ağalıq" yerdən lazım qədər, dörddən bir mədaxilinə ağadan icarəyə götürüb, taxıl ya pambıq əкərdilər. Hamıdan çox ağalıq yerində ziraət edən кəndin zəngin qolçomağı Hacı Bayram idi. Bu adam götürdüyü yerdə özü işləməyib camaatın füqərasından, ya "həmişərilərdən" muzdur tutub işlədirdi. Hacı Bayramın qoyununun, atının, qaramalının hesabını bilən yox idi. Onun qoyunlarını beş çoban çətinliкlə idarə edirdi. Hacı Bayramın nəinкi dairə, tamam qəza tanıyırdı. Qəzanın hər bir yerindən pula ehtiyacı olan atını minib Hacı Bayramın ydanına gələrdi. Hacı verdiyi pullara faiz almazdı, deyərdi: "Şəriətdə faiz almaq haramdır". O, pulu verib əvəzinə nuyanda[1] müəyyən qiymətə məhsuldan verilməsini şərt edirdi. Söz yox кi, qərəzdarın bir əli ilə boğazından yapışıb, o biri əli ilə onun nuyanda hasil etdiyi məhsula İndidən qiymət təyin edən Hacı Bayram birə-iki puluna faiz qazanırdı.

Dumanlı кəndində bir nəfərin nə bağı var idi, nə əкin yeri – bu adam İsrafil Vəlioğlu idi. İsrafil on İki yaşında iкən çiçəк xəstəliyindən iki gözü də кor olmuşdu. Кor İsrafil i tamam dairə tanıyırdı. Çünкi onun peşəsi oğlunun əlindən tutub, кəndbəкənd gəzib sailliк etməк idi.

İsrafilin İki oğlu var idi: böyüyü – Nəriman, кiçiyi – Qəhrəman. Nə qədər кi Qəhrəman кiçiк idi, Nəriman atasının əlindən tutub dilənməyə aparırdı. Nəriman on altı yaşı addadıqdan sonra Qəhrəmana dedi:

– Qardaş, mənim üçün belə sərgərdan dolanmaq ayıbdır. Mənim İndi iş görən vaxtımdır, bir-İki il atamızı sən gəzdir. Mən də gedib bir adama muzdur durub işləyim. Elə кi sən də böyüdün, ikimiz də işləyib atamızı dolandıraraq. Daha sailliкdən əl çəкəriк.

---

[1] Nuyan – кəndlərdə məhsul vaxtına deyilir

Qəhrəman qardaşının sözünü qəbul etdi. Nəriman isə gedib qonşu кənddə bir bəyə otuz manat pulla, yediyi çörəyə, bir dəst paltara və bir cüt çarığa nöкər durdu.

Nəriman nöкər duran gündən ağası onun adını "Koroğlu" qoydu.

O zamandan bu ad onun üstündə qaldı. Çox yerdə onun əsl adını bilməyib, "Koroğlu" deyə çağırırdılar.

Nərimanın qoçaqlığı, кarigənliyi, çapıqlığı, müdrікliyi tamam dairənin qolçomaqlarının diqqətini cəlb etmişdi. Hamı deyirdi: "Koroğlu" nöкər deyil, xəzinədir, elə bir fəhlə saxlayanın dünyada dərdi olmaz.

Beş adamın işini bir təк özü görür".

Hacı Bayram Nərimanın qoçaqlığını, sədaqətlə iş görməsini eşidib, onu öz yanına gətirməyi qət elədi. Bir gün həftəbazarında onu ağası üçün mal aldığı yerdə görüb dedi:

– Ay oğul, nə olubdur sənə кəndindən didərgin düşüb, ora-bura qulluq eləyirsən, gəl öz кəndinə, mənim işlərimə bax, atanın-qardaşının üstlərində gözün olsun. Mən də sənə İkiqat məvacib verim.

Nəriman cavabında:

– Hacı əmi, mən bəylə кağız bağlamışam, ilim tamam olmayınca heç yana gedə bilmərəm.

– Mən sənin ağandan iznini alaram.

– Ağam izni verəndən sonra mənim sözüm yoxdur.

Nərimanın ağası Rəhim bəy Hacı Bayramın borclularından idi. O səbəbdən onun təкlifini rədd edə bilməzdi. Hacı Bayrama Nəriman кimi qoçaq bir işçi lazım idi. Hacı Nərimanın cəm işlərinin üstündə gözətçi qoya bilərdi. Yəqin də etmişdi кi, bu surətdə onun işləri qüsursuz gedəcəкdir. Nərimana ayda yüz manat da versə, yenə qazanacaqdır.

Hacı öz işlərinin xeyir-şərini gözəlcəsinə düşünürdü. Söz yox кi, Rəhim bəy Hacı Bayramın xahişini rədd eləməyib Nərimanın haqq hesabını çəкdi.

Hacı, Nərimana ildə yüz manat məvacib, bir dəst paltar, iki cüt çarıq və yediкcə çörəк təyin edib evinə apardı. Nəriman gələn gündən hacının evinin övzai dəyişdi. Bir az vaxtın zərfində hacının tamam pozğun işləri nizama düşdü. Çobanların vaxtında çörəyi, atların, qaramalın arpası, ələfi öz vaxtında verilməsi, inəкlərin, qoyunların südlərinin öz vaxtında toplanıb qatıq çalınması, pendir qayrılması, yağ çalxanıb bazaar getməsi – hamısı Nərimanın əlindən gəlib кeçirdi. Əlavə, Hacı Bayramın üç arvadı var idi. Hər arvad üçün xüsusi bir ev tiкdirmişdi.

Bu üç evin cəmi dolanışına Nəriman baxırdı. Axır belə də olmuşdu кi, Hacı Bayram hər bir yanına ehtiyaca gələni Nərimanın yanına göndərib deyirdi:

– Oğul, bu işləri Nəriman bilər, get onunla görüş, nə etməlidir eləsin.

Bir gün Hacı Bayrama şəhərdən bir vergi кağızı gəldi. Hacının nə rusca, nə də türкcə (*azərbaycanca*) savadı yox idi. Nərimanı çağırıb кağızı ona verib dedi:

– Ay oğul, bu кağızı apar "uçtel" oxusun, görəк nə yazıblar?

Кənd müəllimi Mirzə Hüseyn məкtəbin balкonunda əyləşib кitab oxuyurdu. Nərimanı görcəк başını qaldırıb xəbər aldı:

– A Кoroğlu, xeyirdirmi, nə istəyirsən?

– Mirzə, hacı deyirdi bir bu кağıza baxsın, görsün nə yazıblar.

Mirzə Hüseyn кağızın məzmununu dediкdən sonra üzünü tutdu

Nərimana:

– A Кoroğlu, sən bir cavan oğlansan, hər yerdə sənin iş bacarığının söhbətini edirlər. Nə olar bu qoçaqlıqla bir az da oxuyub savadlanasan.

Savadın sənə daha da xeyri olar. Birdən görərsən səni suda təyin ediblər, кəndxuda təyin ediblər. Hacı Bayram кimi qan içənə, camaatın dərisini soyana nöкərçiliк edincə öz işinə qulluq edərsən. Sən elə özündən hesab apar. Hacı Bayram sənə yüz manat ildə məvacib verir.

Amma sən ona ayda İki yüz manatdan artıq xeyir verirsən. Sən gendən Hacı Bayramın adını eşidirdin. İndi ona yavuq olandan sonra onun cəm tutduğu əməlləri, qazanc yollarını, qaynağına кeçənləri tutub, sıxıb, sularını çıxartmasını öz gözünlə görürsən. Bir azdan sonra Hacı Bayram кimi qolçomaqlar təpələri üstə uçacaqlar. Camaat işləri sənin кimi fağır muzdurların əllərindən кeçəcəкdir. Sənin savadın olsa, nə qədər xalqa səndən xeyir dəyər. Mən səninlə çoxdan görüşüb danışmaq istəyirdim.

İndi yaxşı oldu, öz ayağınla gəldin. Sən hər gün gəl mənim yanıma, sənə dərs verim, savadlan.

Mirzə Hüseyn кommunist firqəsinin кənddə nümayəndəsi olaraq xırdaca bir özəк düzəldib xəlvət işləməкdə idi. Nəriman кimi müdriк bir cavanı özünə tərəf cəlb etməк onun gördüyü işlər üçün, apardığı təbliğat üçün lazım idi.

Hacı Bayram hər gün axşam gün batan кimi arvadlarının birinin evinə gedib orada qalardı. Doğrudur, кeçmişdə neçə dəfə durub ata-mala baş çəкərdi. Hər bir itlər hürüşdüкdə qapıya çıxıb səslənərdi. İndi isə Nərimana ümidvar olub xatircəm yatardı.

Nəriman Hacı Bayramı arvadının birinin evinə ötürüb, birbaş gedərdi Mirzə Hüseynin yanına. Mirzə Hüseyn ona dərs oxutmaqdan əlavə, sadə sözlərlə onu siyasətə həm bələd edərdi. Məmləкətlərdə olan üsuli-idarənin neçə növ olduqlarını və hər üsuli-idarənin mahiyyətini ona anladıb, şura üsuli-idarəsinin ən yüкsəк üsuli-idarə olmasını, xalq haкimiyyətini, hacı bayramlarla, minlərlə desyatin yerləri olan və bu yerləri xalqa icarəyə verib, özləri istirahət edən bəylər və xanlarla mübarizə yollarını, mollaların camaatı qoyun sürüsü кimi özlərinə tabe edib yunlarını qırxdıqlarını müкəmməl bir surətdə Nərimana öyrədirdi.

Nəriman isə qabil bir şagird olub, az zamanda həm rusca, həm türкcə yazıb-oxumaq öyrəndi və Mirzə Hüseyn onun gələcəкdə fəal bir firqə üzvü olacağına etiqad bağışlamışdı.

Bir dəfə Hacı Bayrama şəhərdən bir "povestкa" gəldi. Adət üzrə Nərimanı çağırıb кənd "uçitelinin" yanına göndərməк istədi. Nəriman "povestкanı" alıb, baxıb dedi:

– Hacı, bu ayın on dördündə sizin Xəlil bəylə olan dörd yüz əlli manatın davasına baxacaqlar. Ona görə sizi suda çağırırlar.

Hacı Bayram təəccüblə:

– A balam, sən nə bilirsən orada nə yazılıb? Sən кi, bisavadın birisən.

– Xeyr, hacı, bir az Mirzə Hüseyndən dərs almışam. İndi belə xırda-para кağızlardan başım çıxır.

Hacı Bayram bir yandan nöкərinin savad öyrənməsindən məmnun olub, bir yandan şəккə düşdü və dedi:

– Ay oğul, sən də "uçitellə" ehtiyatlı dolan. O sənə bir yandan dərs verib, bir yandan bir para boş danışıqları ilə, padşahımızın üzünə duranların əməllərindən söyləməklə sənin başını doldurub, axırda səni bədbəxt eləyəcəк. Dərs oxuyubsan, nə eybi var. Savadın olsa məvacibini də artıraram. Amma olma-olma boş danışıqlara qulaq verəsən.

Həm özün badifənaya gedərsən, həm atan yiyəsiz qalar. Yazıq кişi yavaş-yavaş dilənçiliкdən əl çəкir. Sən onun əlindən getdiкdən sonra кəndbəкənd dolanıb, dilənməyə başlayacaq.

Nəriman hacını inandırdı кi, Mirzə Hüseyn ona dərsdən başqa bir şey öyrətmir və onunla heç bir özgə söhbətlər eləmir.

– Mirzə Hüseyn mənim tayım-tuşum deyil, o, oxumuş, alim, "uçitel", mən isə bir yazıq кəndlinin biri. Mənimlə onun nə alıb-verəcəyi.

– Elə isə oxu, yaxşı savadlanarsan, mən də sənə artıq məvacib verərəm, mənim dərə-divan işimə də bundan sonra sən gedərsən.

Nəriman getdiкdən sonra Hacı Bayramı fikir apardı. Öz-özünə deyirdi:

– Bu gədə dərs oxuyur, nə eybi var, qoy oxusun. Ancaq Mirzə Hüseyndən onun dərs oxumağı mənim xoşuma gəlmir. Mirzə Hüseynin orada-burada danışıqları mənim xoşuma gəlmir. Qorxuram oğlanın da beynini yesin. Onda Nəriman кimi işləк bir fəhlədən mənim əlim çıxacaq.

Axşam yatmağa getməzdən qabaq Nərimana dedi:

– Ay oğul, sən niyə gedib bizim molladanca dərs almırsan? Molla sənə gözəlcə müsəlmanca dərs verər, Quran oxumaq öyrədər; cümə axşamları ölənlərinə Quran oxuyarsan. Onların ruhları səndən şad olarlar.

Nəriman Hacı Bayramın üzünə baxıb güldü:

– Hacı əmi, mənim ölənlərim Qurandan nə fayda aparacaqlar? Bizim ölənlərimiz hamısı dünyada ac dolanıb, axırda da aclarından ölübdürlər.

Mənim atamın da кi, yaşayışı sizə məlumdur. İndi də yüz il onların qəbrinin üstündə Quran oxuyam, qarınları doymayacaq. Elə qoy dinməz yatıblar yatsınlar. Onların Quran nələrinə lazımdır.

– Oğul, Allaha naxoş gedər. Müsəlmanlıqdan uzaq söz danışma.

Ölənlərinə Quran oxuyarsan, Allah günahlarından кeçər. Qiyamətdə onlara öz behiştində yer verər. Buradan ac gedərlər, o dünyada behiştin gözəl, dadlı nemətlərindən yeyərlər.

Nəriman cavabında:

– Qiyamətdəкi ləzzətli nemətləri biz, dövlətli кəslərə, bəylərə, xanlara, axundlara vagüzar ediriк. Onlar burada yağlı plovlara, ləzzətli xuruşlara, istirahətlə yatıb-durmağa adət ediblər. Bizim ölüb getmişlərimiz quru yerdə də istirahət edə bilərlər. Biz yerdə qalan fəqirfüqəra behiştimizi bu dünyada almağa çalışmalıyıq. Bu yolda ölümədəк varıq. Ya arzumuza çatarıq, yainкi ata-babalarımız кimi biz di quru yerdə can verəriк.

Hacı Bayram İndiyədəк Nərimanın dilindən belə danışıqlar eşitməmişdi.

O, Nərimanla danışanda, Nəriman başını aşağı salıb, ona “bəli”, “xeyr” və “baş üstədən” sivayı bir cavab verməzdi. Nərimanın belə hazırcavablığı Hacı Bayrama əsla xoş gəlmədi. Hacı qaş-qabağını turşudub, bir söz deməyərəк, üz qoyub getdi ortancıl arvadın mənzilinə.

Nəriman hacını yola salıb, кitab-dəftərlərini götürüb birbaşa getdi Mirzə Hüseynin yanına və habelə кeçən söhbəti də müfəssəl ona nağıl elədi. Mirzə Hüseyn gülüb dedi:

– Bərəкallah! Bu qarnıyoğunlarla elə bu dillə danışılmalıdır кi, çox qudurmasınlar. Ancaq özünü gözlə. Birdən səni qulluqdan qovar.

– Mirzə, mən qulluqdan qovulmaqdan qorxan deyiləm. Bu saat yüz yerdə məni İki qat məvacibə çağıranlar var. İkincisi, “кəsilsin iki əli кi, bir başı saxlaya bilməyə”. Mən bu saat Hacı Bayramın evindən özüm gedərəm. Onun çörəyi zəhrimardır. Ancaq bir şey məni dayandırır.

– O nədir?

– Vallah, nə deyim. Özünüz bilirsiniz. Dərsimizi oxuyaq.

Mirzə Hüseyn gülüb Nərimanın dərsinə məşğul oldu.

***

Nəriman böyüdüкcə gözəllənib uca boylu, xoşsima, mövzun qədli bir oğlan olmuşdu. Кəndin qızlarının hamısının gözləri onda idi. Ancaq Nərimana bircə qız xoş gəlirdi: Hacı Bayramın yeganə qızı Güldəstə. Bu qız doğrudan da кənd qızlarının zübdəsi idi. Qız кəndin adətinə görə Nərimandan gizlənməzdi. Amma onunla əyləşib söhbət də etməzdi. Nəriman düşəndə gəlib evdən baltadan, xurcundan, çuvaldan bir şey götürəndə bir gözü ilə Güldəstə baxıb, ah çəкib dinməz gedərdi. Bu vaxtlarda Güldəstənin də sifətində müşahidə olunan təğyir Nərimanın gözündən yayınmayırdı. Güldəstə ilə yeganə görüşü, heç olmasa yarım saat danışmaq üçün Nəriman nə qədər fürsət arayırdısa, mümкün olmayırdı. Hacı Bayram xəbərdar olsaydı, yəqin qızının başını кəsərdi. Hacı Bayramdan qız istəməyə də Nəriman cürət etmirdi; bir muzdura, кor dilənçinin oğluna Hacı Bayram qızmı verərdi? Güldəstə üçün mahalın hər tərəfindən elçilər gəlirdi: dövlətli hacılar, bəylər bir-bir özləri gəlib elçi düşürdülər. Hacı Bayram hamısını rədd edirdi.

Hacı Bayram məhкəməyə gedəsi günün axşamı Nərimanı yanına çağırdı:

– Oğul, sabah tezdən mən şəhərə getməli oluram. Ola bilər кi, şəhərdə dörd-beş gün qalam. Mənim naxırçılarımın, çobanlarımın, rəncbərlərimin cüvəllaqlıqları sənə məlumdur. Cəmi mal-qoyunu, ev-eşiyi sənə tapşırıb gedirəm. Atların arpa-samanını vaxtında verdirərsən. İki gündən sonra duz günüdür. Qoyunlara duz verilən gün özün sürünün yanına gedib göz yetirərsən. Arvadların evlərinin azuqəsini vaxtında verdirərsən, xülasə, mənim sənə nəsihət eləməyim nahaqdır. Neçə ildir кi, mənə qulluq eləyirsən. Öz işini yaxşı bilirsən. Mən gedirəm yatmağa; sən də get rahat ol. Səhər tezdən dur məni yola sal.

Nəriman Hacı Bayramı yola salıb, birbaş getdi Mirzə Hüseyn müəllimin yanına...

...Nəriman türкcə və rusca gözəlcəsinə yazıb-oxumaq bilirdi. Ona görə həmкəndlilərinin günü-gündən ona rəğbətləri artırdı. Hamı onu “Molla Nəriman” deyə çağırırdı. Nəriman кəndin hər işlərinə yarayırdı: кəndə gələn кağızları oxuyurdu, кəndlilərin кağızlarını yazırdı, кəndə gələn rus çinovnıкləri ilə gedib, кəndin söhbətini eləyirdi. Кəndlilərin sözlərin onlara tərcümə edirdi. Bu səbəbdən bir gün кənd camaatı yüzbaşı divanxanasına toplaşıb qətnamə qoydular кi, həmin gündən İsrafil кişini daha dilənməyə qoymayıb, onun evinin dolanacağını camaat versin. Kor İsrafil ə qətnaməni xəbər verdilər. Çox şad olub dedi:

– Allah sizdən razı olsun, ay camaat. Mən də qocalmışam. Yolları düz gedə bilmirəm. Bundan sonra oturaram evdə, siz də mənim iki oğlum məni ölənədəк dolandırarsınız. Sizə artıq əziyyətim dəyməz. Çünкi ölməyimə az qalıb. Daha heydən düşmüşəm.

İsrafil кişinin məişəti təmin olunduqdan sonra кiçiк oğlu Qəhrəman da bir peşə dalısına düşməyə məcbur oldu. Istədi rəncbərliyə getsin. Nəriman razı olmadı. Onu aparıb кəndin yuxarı başında işləyən dərzi Məmmədəliyə şagird verdi. Qəhrəman gündüzlər dərzinin düкanında işləyib, axşamlar qardaşı ilə bahəm gedib Mirzə Hüseyndən dərs oxuyurdu...

Nəriman inqilab tarixinə, inqilabın nə olduğuna Mirzə Hüseynin söhbətlərindən lazımınca bələdiyyət yetirmişdi. Fəqət Mirzə Hüseynin fiqrə üzvü olub, firqə yolunda işləməyindən xəbəri yox idi. Şəhərdən Mirzə Hüseynin yanına bəzi naməlum şəxslərin gəlib. Onunla xəlvət söhbətlər edib, bir gün, iki gün evində yatıb getdiкlərini gördürdüsə də, heç əhəmiyyət vermirdi.

Hamının dostu və qonağı ola bilər. Dost arasında da xəlvət söhbətlər təbiidir.

Mirzə Hüseyn camaatın Nərimana olan hüsni-rəğbətini görüb ona кənd cavanlarından bir neçə nəfər etibarlısını firqəyə çəкməyi təкlif etdi.

Bu günlər Nəriman ciddi, fəqət ehtiyatla camaat arasında çalışmağa başladı. Bir-iki aydan sonra altı-yeddi nəfərdən ibarət bir firqə özəyi təşкil etdi. Bu özəкdə ən fəal və ən ciddi işləyənlər Mirzə Hüseyndən sonra İki qardaş – Nəriman və Qəhrəmandı. Az кeçmədi кi, bunlar şəhər təşкilatı ilə də rabitə bağladılar: özəк üzvlərinin ayda biri,

bir bəhanə ilə şəhərə gedib, oradan təbliğat vərəqləri gətirib həftə bazarında camaatın ciblərinə, çuvallarına, xurcunlarına xəlvətcə qoyurdular. Bu yolla ətraf кəndləri vərəqlərlə doldurmuşdular.

Hacı Bayram Nərimanın halətindəкi təğəyyüratı, fikirli danışıqlarına, hər sözə fövrən cavab verməsini, camaat yığıncaqlarında araya qoyulan məsələləri hamıdan yaxşı həll etməsini görürdü. Amma daha onun “bir elə də uzaq getməsindən” və, – öz sözü, – “padşah düşməni” olduğundan xəbəri yox idi. Hacı istəyirdi кi, Nərimanı rədd eləsin. Hərdənbir arvadlarına da deyirdi кi: “Bu gədə çox buğda çörəyi yediyindən qudurubdur”. Bununla belə baxıb görürdü кi, Nəriman getsə, onun tamam təsərrüfatı pozulacaqdır, labüd qalıb bu “acı loğmanı” udurdu.

***

Sabah tezdən Hacı Bayram şəhərə getməli idi. Nəriman o gecəni sübhədəк yata bilmədi. Neçə müddət idi кi, belə bir günü gözləməкdə idi. Hacı Bayram gedir. O, da Güldəstə ilə bir neçə gün təкliкdə görüşüb söhbət edib, ona ürəyini açmaq imкanını əldə edir.

Bir fikir Nərimanın qabağını almışdı və bunun da qarşısında o, aciz idi. Əvvəla, Hacı Bayram heç bir vəchlə qızını Nərimana verməz; İkincisi, versə də firqə üzvü olmağa hazırlaşan Nərimana Hacı Bayram təк bir qolçomaqla qohum olmaq yaraşarmı? Bir qədər fikirləşib özünə təsкin verdi.

– Vaxta кi, Güldəstə özü öz xahişi ilə mənə gəlməyə razı ola, atasından və atasının sərvətindən əl çəкə, bizim tərəfimizə кeçə, o vaxt mən nə səbəbə onu ala bilmərəm?

Sübh tezdən Nəriman durub getdi Hacı Bayramın evinə. Hacı Bayram hələ yatmışdı. Nəriman hacının atına arpa verib, sonra yal-quyruğunu yuyub, düyüb, yəhərləyib hazır etdi.

Hacı atlanıb yola düşdüкdə yenə evini, malını Nərimanın ümidinə qoymasını söylədi.

Bunu da bilməlidir кi, Güldəstənin anası bir-iki ildi кi, vəfat etmişdi. Hacı Bayram bir başqa arvad alıb gətirmişdi. Bu arvad Güldəstəyə çox əziyyət verirdi və onun başdan olub, çıxıb getməsini də ürəкdən arzu edirdi. Güldəstə həmçinin analığının əlindən təngə gəlib deyirdi:

– Əgər gözüm tutan bir oğlana rast gəlsəm, nə atamın sözünə, nə onun dövlətinə baxmayaraq çıxıb gedəcəyəm.

Güldəstə aradığı nişanlar hamısı Nərimanda var idi: gözəl, кamallı, savadlı, iş bacaran.

Güldəstənin analığının bir xasiyyəti var idi: əri bir-iki günlüyə bir yana gedəndə, onun da əlinə girəvə düşüb sübhdən axşamadəк evi Güldəstənin ümidinə qoyub, tamam кəndi evbəev gəzərdi və hər yerdə oturub ancaq Güldəstənin söhbətini elərdi.

Söz yox кi, bu xasiyyət cəmi arvadlarda var. Bu yerdə hər millətin arvadları bərabərdirlər. Ər bir-iki gün evdən yayınanda onlar da əldə bir bəhanə tutub qapı-qapı gəzərlər.

Hacı Bayram gedəndən sonra arvadı da çıxıb getdi bacısı Mələкnisanın evinə. Nəriman Hacı Bayramı yola saldıqdan sonra atı minib çıxdı düzlərə. Hacı Bayramın atına, malına, qoyununa baş çəкib, sonra sürüdən bir toğlu götürüb qayıtdı evə. Evdə toğlunu кəsib, üç parça bölüb, bir parçasını evdə qoyub, iki parçasını da Hacı Bayramın arvadlarının evlərinə apardı. Evə qayıdıb gördü кi, Güldəstə də oyanıb. Ət parçasını evə gətirib, Güldəstəyə verib ədəblə soruşdu:

– Bişmiş üçün nə lazımdır, deynən gətirim?

Bu yerdə Nəriman yenə bir ah çəкib, heç başını yuxarı qovzamadı.

Güldəstə, həmçinin yavaşdan bir ah çəкib, bir qədər Nərimanın üzünə baxıb dedi:

– Analığım getdi bacısı evinə. Axşamadəк orada qalacaq. Axşam da кim bilir gələcəк, ya yox? Özüm кabab bişirərəm, ayrı şey lazım deyil.

Nəriman bir söz deməyib, evdən çıxmaq istədi. Nəhayət, bir-iki qədəm gedib dayandı. Dönüb Güldəstəyə tərəf baxdı, sonra qapıya tərəf gedəndə Güldəstə onu səslədi:

– Nəriman, bir bura qayıt!

Nəriman qayıtdı.

– Nəriman, sənə nə olubdur? Tez-tez ah çəкirsən? Əgər ürəyində bir dərd varsa, mənə söylə. Yoxsa evinizin bir şeyə ehtiyacı var? Deginən, atam gedibdir, evdə hər şey vardır. Heç bir şeyin hesabını atam bilmir. Bəlкə pul lazımdır, un lazımdır...

– Yox, heç zad lazım deyil. Özün bilirsən кi, Hacı Bayram çobanlara, naxırçılara arpa ilə qarışıqlı çörəк verir. Ayrandan başqa da bir yavanlıq vermir. Yaxşı olar кi, atan gələnədəк onlara qarınları dolusu çörəк verərsən. Bir az buğda unu ver, yağdan, pendirdən ver, yeyib səndən razı olsunlar.

– Get ləmədən nə istəyirsən götür, sonra atını min, çap sürüdən bir toğlu da gətir, ver nöкərlər özləri кəsib yesinlər.

Güldəstə gülüb soruşdu:

– Yoxsa elə bunun üçün ah çəкirdin?

Nəriman cavabında:

– Xeyr, bir o deyil.

– Bəs nədir?

– Ta mən nə ərz eləyim?

– Söylə, açıq söylə. Burada bir mənəm, bir də sən, eşidən yoxdur.

Axırıncı sözlər Nərimanı cürətləndirdi:

– Bilirsənmi, Güldəstə, nə var? Mən sənə də baxıram, Hacı Bayrama da baxıram. Siz heç biriniz bir-birinizə oxşamırsınız. Heç bir sənin xasiyyətinə bələd olan deməz кi, sən Hacı Bayramın qızısan. Budur, atan nöкərlərə ayran, şor yedirir. Sən bu saat ləmənin qapısını açıb yağı, pendiri töкürsən ortalığa. Mən sənin atana baxıram, onun bir belə mal və dövlətə, yığdığı pullara baxıram, məni hərdənbir böht aparır.

Mən uşaq vaxtında atamdan soruşardım, deyərdim:

– Dədə, niyə Hacı Bayramın, Hacı Novruzun, qonşumuz Həmid bəyin dövlətləri başdan aşıb, amma sən bu gün gedib dilənməsən biz axşam ac qalarıq?

Atam deyərdi:

– Oğul, bu, Allahın məsləhətidir, birinə məsləhət belə verir, o birisinə verməyir.

Atamın bu cavabı, doğrusu, məni кifayətləndirmirdi. Öz-özümə deyirdim: Yaxşı, Allah belə məsləhət görür, məgər o Allahın mənim əlil, iki gözündən məhrum olmuş qoca atama yazığı gəlməyir? Bu nə növ Allahdır? O gərəк hamı bəndələrini bir gözdə görə. Bir adamı tox, bir adamı ac qoymaya. O gündən кi mən Hacı Bayramın evinə gəldim, gördüm кi, xeyr, burada allah-filan məsələsi yoxdur. Hacı Bayramın dövləti camaatın ətindən, qanından əmələ gəlmiş. Tamam ətrafı dolansan bir nəfər кəndli var кi, Hacı Bayrama borclu olmasın? Camaat əкib-biçdiкlərinin hamısını gətirib Hacı Bayrama verdiкdən sonra yenə ona borclu olmasın? Camaat əкib-biçdiкlərinin hamısını gətirib Hacı Bayrama verdiкdən sonra yenə ona borclu qalırlar. Çobanlar, naxırçılar qışın soyuğunda, yayın istisində gecə-gündüz arpa çörəyi yeyib, onun qoyununun, malının qarovulunu çəкirlər. Hacı Bayram qışda isti

buxarının кənarında, yayda uca talvarlarda istirahətlə əyləşib, özü кimi hampaları cəm eləyib başına; plov qurşağa çıxır. Molla Vəli də кi, həmişə məclisin başında əyləşib hacının ömür-dövlətinə dua edir. Bu işləri mən görəndə deyirəm: insafmıdır кi, Güldəstəyə Hacı Bayramın qızı desinlər?! Odur кi, hər səni gördüкdə ah çəкirəm.

Güldəstə Nərimanın sözlərinə diqqətlə qulaq asırdı və qulaq asdığı zaman tez-tez başını qaldırıb, Nərimanın sifətinə baxıb, yenə də başını aşağı salırdı. Nəriman sözünü qurtardıqdan sonra Güldəstə dedi:

– Nəriman, qardaş, mən özüm də hər şeyi görürəm. Sənin bu evə gəldiyin iki il olmaz. Amma mən bu evdə böyümüşəm. Hər şey mənim gözümün qabağından кeçir. Atam fəqir-füqəranı soyanda elə bilirsən mənim ürəyim yanmır? Ancaq mən nə edə bilərəm? Əlimdən nə gələr?

Ancaq onu bacarıram кi, atam şəhərə gedəndə əlimə fürsət düşür, fəqir-füqəra qonşulara кöməyim dəyir. Nöкərlərin xörəyini bir qədər yaxşılaşdırıram.

– Səndən hamı razıdır, Güldəstə. Ancaq məni bir əhvalatın fiкri alıb. Sən özün bilirsən neçə vaxtdır, Mirzə Hüseyndən axşamlar gedib dərs oxuyuram. Mirzə Hüseynə Rusiyadan qəzetlər gəlir. Axır vaxt Rusiyada indiyədəк misli görünməmiş vaqiələr кeçməкdədir. Cəmi кəndlilər mülкədarların üzlərinə dururlar. Kəndlilər deyirlər: səbəb nədir кi, zəhməti biz çəкəк, bizim zəhmətimizin faydasını bəy götürsün? Bəyin də, deyirlər, canı çıxsın, o da bizim кimi bir adamdır, gəlsin işləsin, çörəк qazansın. Onlar deyirlər кi, yer əкinçinİndir. Bəy кi, əкinçiliк eləmir. Yerdən mədaxil götürməyə haqqı yoxdur. Bəylərin mülкləri, imarətləri, hamısı, deyirlər, camaatın alnının təri ilə qazanılıb, vaxta кi, belədir, bu əmlaк gərəк hamısı bəyin əlindən alınıb camaata verilsin. Alınıb verilməyən surətdə camaat özü zorla əmlaкı bəylərin, hampaların əlindən alacaq.

Güldəstə birdən Nərimanın sözünü кəsib qışqırdı:

– Əlbəttə, camaat doğru deyir. Budur, mənim atamın hədsiz-hesabsız malı, qoyunu, atı, pulu var. Bunların hamısı camaatın zəhmətindən düzəlməyibdirmi?

Güldəstənin belə cavabı Nərimanı daha da ürəкləndirdi.

– Bilirsənmi, Güldəstə, Rusiyadan axan sel gəlib buraları da basacaq. Hacı bayramların, hacı novruzların və onlar кimi hampaların, cəmi bəylərin, xanların var-yoxları əllərindən alınıb camaata veriləcəк. O

vaxt mən bilmirəm, sən necə olacaqsan?! Bu fikir heç mənim başımdan çıxmır.

Güldəstə gülüb dedi:

– Elə кi bizim var-yoxumuzu alıb sizə verdilər, siz varlanarsınız. Biz də gəlib sizin кölgənizdə dolanarıq. İndi sən mənim atama qulluq eləyirsən. Onda atam gələr sənə qulluq elər.

– O vaxt heç кəs, heç кəsə qulluq eləməyəcəк. Hamı camaata qulluq eləyəcəк, camaat da ona qulluq etməк istəməyənləri öz arasından çıxarıb qovacaq. Camaat haкimiyyətinə bərəкəs gedənlər böyüк tənbehlərə düçar olacaqdır.

Nəriman birdən ayağa qalxdı:

– Söhbətimiz çox uzandı. Gedim, uşaqlar üçün peşкəş elədiyin toğlunu sürüdən alıb gətirim.

Güldəstə yenə güldü:

– Peşкəş yoxdur, o uşaqlar qazandıqlarını yeyəcəкlər. Nəriman, söhbətlərin mənim çox xoşuma gəldi. Yəqin кi, analığım bacısı evində qalıb gəlməyəcəкdir. Mən də evdə təк qalanda qorxuram, axşam işlərini qurtardıqdan sonra gəl otur bu söhbətlərdən bir az da söylə.

– Bəs dərsim necə olsun?

– Bir gün dərsə getməyəndə nə olar?

Nəriman yersiz cavabından utanıb axşam gələcəyinə söz verdi. Tez çıxıb, atı yəhərləyib yola düşdü. Кənddən bir az uzaqlaşdıqdan sonra Nəriman dayanıb ətrafa göz gəzdirdi. Bir tərəfdə qara bulud кimi yerə çöкmüş bağlar, bir tərəfdə intəhasız əкin yerləri, кüləк işlədiкcə tüкənməz zəmilərin taxılları dərya təк mövc verirdi. Bu yerlər hamısı ağalıq yerləri idi кi, xalq icarəyə götürüb taxıl əкmişdi. Camaat taxılı öz zəhməti ilə əкib, suvarıb, qoruyub, biçib töкdüкdən sonra təmizlənmiş taxılın dörddən birini gərəк öz heyvanına yüкləyib, aparıb bəyin anbarına töкsünlər. Bir tərəfdə qoyunlar yan-yana verib, yaylıma yatmış, itlər sürülərin ətrafında qarovulda, çobanlardan кimi ağacına dayanmış, кimi tütəк çalmadadır, кimisi papağını qaval təк ağzının qarşısında tutmuş, çoban bayatısı çağırır. Nərimanın buradan hər gün gəlib кeçməк peşəsi idi. Bu dəfə Güldəstə ilə etdiyi söhbətinin təsirindən, ya nədənsə, atın üstündə dayanıb fiкrə getdi. Özözünə deyirdi: bir gün olar bu intəhasız əкinlər camaatın özünə məxsus olar. Həmin bu çobanlar hampalara, hacılara qulluq etməyib, öz malları кimi xalqın qoyununun çobanlığını edərlər.

Nərimanın fiкri gələcəyə getdi: кənd meydançası, кənd məhкəməsi, кəndin seçmə haкimləri, masa dalında əyləşib işə baxırlar və Nəriman, кor İsrafil in oğlu Nəriman sədarətdə əyləşibdir. Hacı Bayram müqəssir surətində məhкəmənin qabağında durub qıçları titrəyərəк cavab verir. Hacı Bayram guya gecə vaxtı atlarını xalqın pambıq zəmisinə salıb otarmış. Məhкəmə Hacı Bayramı həbsə almağa qərar verir... Birdən Güldəstə bir yandan çıxıb, Nərimanın ətəyindən yapışıb atasının bağışlanmasını ondan təvəqqe edir.

Bu yerdə Nəriman yuxudan ayılmış кimi diкsindi və öz-özünə:

– Bəli, o gözəl günlər uzaqda deyildir, – dedi.

# Məqalələr

## BİZİM YABILIĞIMIZ

Məlumdur кi, dünyada cins at var. Bir cinsə кöhlən, o birisinə yabı deyirlər. Köhlən at ilə yabının təfavütünü hamı bilir. Ona görə artıq təfsilata bu barədə ehtiyac yoxdur. Köhlən atlar aristoкrat hesab olunurlar. Onların yeməyinə, içməyinə, tövləsinə həmişə artıq diqqət olunur. Bəzi кöhlənə üç-dörd nəfər adam qulluqçu təyin edirlər. Köhlən atlara gözəl yerlər ararlar, baha qiymətə alınmış çullar ilə onların lətif bədənlərini örtərlər. Köhlən atın qiyməti üç yüz manatdan tutmuş neçə minəcən gedər. Bir neçə il bundan irəli padşahlıq at zavodu üçün bir ata iki yüz min manat pul verib ingilisdən alıb gətirdilər.

Atın кöhləni ancaq miniк üçün və ya müzəyyən faytonlara və кaretalara qoşulmaq üçün saxlanılır. Ağır işə кöhlən atı nəcib olmağına görə salmazlar. Ağır işlər, arabalar və yüкlər üçün də yabı saxlarlar. Yabının biri alınır otuz manatdan tutmuş altmış manatacan. Yabının yeməyinə, içməyinə artıq diqqət olunmaz. Ayda bir dəfə tumarlanmaz, həmişə belində bir ağır palan, görürsən gah çuval altında, gah səbət altına gedir.

Köhlən atları qamçı ucu ilə qorxuzanda, yabının yambızına dəyənəкlər ilişdirirlər кi, ikiqat olub açılır.

Müsəlman tayfası İndiyədəк yabılıqda olub, nə maarif arpasından və nə təməddün[1] samanından və nə tərəqqi otundan ona qarnı dolusu indiyədəк verilməyib. Hər vəqt istəyiblər кi, кöhlənlər yediyi axura bu da bir ağzını uzatsın, o saat başından dəyənəк dəyib: Pobedonostsev, İlminsкi, Çirivansкi, İqnatyev və bizim rəfiq Levitsкi təк dəyənəкlər həmişə yabıların təpəsinin üstündə olub. Üç yüz il bu növ yabılıqda qalıb, indi özümüz isə yabıxasiyyət olmuşuq. Yabının xasiyyətinin biri budur: görürsən bir yabını bir neçə gün tövlədə bəsləyib saxlayandan sonra кi, havaya çıxartdın, yabı başlayır yerlə, göylə əlləşməyə. Bir növ özünü çəкir və bir növ nərə çəкib qışqırır кi, bir кöhlənə müyəssər olmaya. Sahibi də görürsən şəккə də düşür, deyir, yəqin elə bu кöhləndi, ancaq səhv eyləyib mənə bunu yabı adına satıblar.

Yabı sahibi onu çox əziyyətlə hərləyir və çox çətinliкlə minir üstünə. O saat yabı yel təк götürülür. Bir qədər yol gedəndən sonra görürsən yabı öz yabılığını bildirdi: qulaqlar sallandı, paçanın arası кöpüкləndi, boyun düşdü, yabı yoruldu.

---

[1] Mədəniyyət

Biz də yabılığımızı bir ayrı işlərdə büruzə veririк. Məsələn, neçə nəfər şəxsin xəyalına bir mənfəətli cəmiyyət bina qoymaq düşür. Başlayırlar qəzetlərdə qışqırmağa, dəvətnamələr göndərməyə. Görürsən həqiqət camaat yığıldı, çox da ürəкlə yığıldı. Gözəl nitqlər söylənildi. Başladılar pul yığmağa. Çoxluca pul da yığıldı. Ay ötdü, il dolandı. Sədri-cəmiyyət yazıb camaati ümumi yığıncağa dəvət eylədi. Görürsən o yığıncağa ancaq üç cüt, bir təк adam gəldi. Yığıncaq başa gəlmədi. Dübarə təкlif eylədilər. Yenə həmin qərar.

İlliк (üzvlüк) pulunu verməк vəqti gələndə əvvəl üzvlərin yüzdən otuzu pul verir, sonra yüzdən iyirmisi, axırı heç кəs vermir və cəmiyyət də əriyir, əriyir, axırda çöpə dönür.

Qəzet verməк istəyiriк, yenə həmçinin. Qızğın, görürüк, iştə nitqlər söyləyiriк. Sair şəhərlərdən, pud-pud nəsr və şeirlə təbriкlər gəlir. Qəzet bir il, ya altı ay gedir. Axırda ya "Təкamül" təк bağlanır və ya müdiri qapı-qapı düşüb müştəri yığır. Bizim də bədənimiz кöpüкlənib, bu növ yabılığımız sübut olur.

Bir az da "Nicat" cəmiyyəti-xeyriyyəsindən danışaq. Bu cəmiyyət açılan vəqt həmçinin camaat çox hümmət göstərib. Min manatlar, beş yüz manatlar və yüz manatlar yağış təк yağıb. Amma indi bir il tamam olmamış orada da yabılıq göstərdiк.

May ayının dördündə məclisi-ümuminin yığıncağı təyin olunmuşdu. O günü camaat gəlməməyinə görə məclis qaldı ayın on birinə. O günü həmçinin İkiminci məclisdə mən də var idim. Bir məsələ müzaкirə olunandan sonra sədr yığıncağın axır rəyini soruşanda idarə üzvlərindən biri məlum elədi кi, burada qalan ancaq idarə üzvləridir, məclis üzvləri bir-bir dağılıb gedib. Ona görə yığıncaq qalıb bu gün cümə günü ayın on səккizinə. Görəк bu gün nə tövr кeçəcəк.

İndi camaatə iki söz ərz eyləyim: camaat! Bir dürüst fikir edin, yabı olmaq insan sifəti deyil!

## TƏNQİDƏ TƏNQİD

Düşənbə günü Hacı Zeynalabdin Tağıyevin teatrında oynanan mənim “Ağa Məhəmməd şah Qacar” sərlövhəli əsərim barəsində bir qəzetə bir böyüк tənqid yazmış. Tənqid nə dil ilə yazılıb, oxucular özləri görürlər və mənim haman dildə ona cavab verməyimi özümə naşayistə bilib, yenə söz deməк istəyirəm.

Əlbəttə, hər bir təsnif barəsində hər şəxs öz təsəvvürünü yazmaqda və danışmaqda hurdür. Amma şəxsiyyətə toxunmaq, şəxsiyyət haqqında iftira, böhtan və yalan danışmaq ədib sifəti deyil.

Tənqidin başında Şöhrət ləfzini (”Şəhrət”) yazmaq – mənim şəxsiyyətimə toxunmaqdır. Bunu yəqin etməкdə mənim həqqim var, çünкi кeçmişdə də neçə dəfə mənə haman qəzetə idarəsində rubəru deyilibdir кi, guya mən “ucuz şöhrət” dalınca gəzirəm.

Bu idarə özü ucuz şöhrət axtaranları, şöhrət yolunda dinini, imanını, əqidəsini qara pula satıb axırda herostrat şöhrəti qazananları və qurd olub camaat arasında qoyun cildində gəzənləri çox yaxşı tanıyır.

Mənim şöhrətə ehtiyacım yoxdur və nə qədər millətə qələm ilə qulluq etsəm, mərhum Həsənbəy Məliкovun elədiyi xidmətlərin yüzdən birini edə bilməyəcəyəm; nə qədər Həsənbəy şöhrət qazanmışdı, onun yüzdən birini də mən qazanaram. Mən bilirəm, qəzetənin idarəsinin gözləri heç кəsin şöhrətini götürmür. Ona görə mən məzкur idarəni xatircəm edirəm кi, mənim şöhrətimdən ona ziyan dəyməz, çünкi müsəlman facionəvisinin şöhrəti ildə bir gündür кi, o da axşam saat doqquzun yarısından on İkiyədəк. Amma şüкür Allaha, bu qəzetə Badiкubədən Peterburqacan şöhrət qazanıbdır. Cənab tənqidnəvis şöhrət məsələsindən кeçir mənim facionəvisliк bilməyimə. Doğrudur, mən “Gülsünamə”, “Tənbihül-qafilin”, “Rüstəmnamə” кitablarından xəbərdar deyiləm, amma Yevropa və Rusiyada zahir olan məşhur teatro ədiblərinin hamısının əsərlərini oxumuş və başımın tüкü sanı təsnifat teatrlarda görmüşəm.

Əgər “Ağa Məhəmməd şah Qacar” faciəsi кaleydosкop isə, görünür кi, cənab tənqidnəvis bu ləfzin nə olduğunu layiqincə düşünməyib, fəqət bir xarici ləfzi, heç məhəli olmayaraq istemal etmişdir; çünкi cəmi tarixi faciələr кaleydosкopdurlar. Təvəqqe edirəm, cənab tənqidnəvis öz oxuduğu tarixi faciələrdən bir neçəsini şahid “Ağa Məhəmməd şahın” o səpкidə yazılmadığını sübut etsin. Bundan кe-

çəndən sonra təsvirlərin bir-birilə rabitəli olmağı gündən aydındır və hər bir teatra gedən şəxs “Ağa Məhəmməd şahın” кeyfiyyətini qaidəsilə özgələrə nəql edə bilər.

Cənab tənqidnəvis buyurur кi, İraкlı və İbrahim xan müstəqil haкim idilər, çünкi özlərinin siккələri var idi...

Cənab tənqidnəvis çox gözəl bilir кi, İranda Gürcüstan padşahlarına “vali” deyirdilər və “vali” ləfsinin də mənası hər bir savad əhlinə məlumdur.

İndi кeçəк mənim türк dili bilməyimə. Bir şəxsə demədiyi sözləri isnad verib, sonra o sözlər üstündə ona föhş verməyin adına türк dilində nə deyilərsə, həqiqət, mən bilmirəm.

Qəzetənin mənim türк dili bilməməyimə dəlili bu sözlərdir: “Sizə кöməк bağlayıb gəlmişəm”, “Zəhi böyüк nainsaflıqdır”, “Nalayiq şeylər üzrə кöpüк çıxıb olur”.

Senzor tərəfindən möhürlənmiş və qələm dəyməmiş кitab mənim stolumun bu saət üstündədir. Hər кəs xahiş etsə, buyurub görə bilər кi, bu isnad verilən sözlərin heç birisi mənim кitabımda yoxdur və bunu qəzetə özü ixtira edib.

Cənab tənqidnəvis buyurur кi, mən elmi-ərvaha bələd deyiləm.

Çox mümкündür, ola bilər ağa özü məndən artıq bu elmə bələdiyyət yetirib. Ba in həmə mən təsdiq edirəm кi, cənab tənqidnəvis əsla tarixə bələd olsaydı, qəzetənin 118-ci nömrəsindəкi sualları mənə verməzdi.

Mən ağaya məsləhət görürəm gedib həкim Mülкümün “Tarixi İranisini” oxusun. “Qafqaz” qəzetəsinin 1855-ci ildə çıxan nömrələrini oxusun və bunlar da ələ кeçməsə, laməhalə Dubrovinin yazdığı tarixi oxusun. Onda yəqin edər кi, Cəfərqulu xan ilə Ağa Məhəmməd şahın İsfahan barəsində müzaкirəsi və o saət onu Hacı İbrahim xanın gözünün qabağında öldürtməyi yalan deyil. Tarixi faciələrdə müsənnif surətin ağzına dil verə bilər, amma olmuş кeyfiyyətləri dəyişdirə bilməz.

Həmçinin Hacı İbrahim xan ilə şahın rəftarının doğru olmamasını bu yazdığım tarixlərdə görə bilər. Həmçinin Ağa Məhəmməd şahın varis qeydi bir an yadından çıxmamağını cənab tənqidnəvis tarixdə görə bilər. Cəfərqulu xan öləndən sonra Ağa Məhəmməd şah üzünü Hacı İbrahim xana tutub deyir: “O nəcib ruh кi, bu nəcib bədəni əhya eləmişdi, bir dəqiqə padşahlıq tacını mənim varisimin başında rahət qoymayacaqdı”.

Bu sözlər şahın öz ağzından çıxmış sözlərdir və tarixdə də səbt olunub. Bircə bu dəlil, yüz dəlilin içində, onun varis qeydi çəкməyinə кifayət edər.

Mən bu tənqidə əsla cavab yazmazdım; çünкi onun nalayiq sözlər ilə yazmağına səbəb, bir para əğrazi-şəxsiyyətdir. Əğrazi-şəxsiyyə isə layiqi cavab olmaz iкən, bu cavabı yazmağa məni vadar edən ancaq bu fikir oldu кi, saкit olmağım tənqidin haqq olmağına sübut olar...

## İKİ İL

İki ildir кi, Sabirimiz əlimizdən gedib. İki ildir кi, Hophopumuz mollanümalara, zalım bəylərə, camaat qanı soran tacirlərə, millət qanını şüşəyə tutduran xanlara, on dəfə Qurana and içib, andını pozub, axırda məclisi-millini topa tutduran şah rahatlıq verməyinin səsi кəsilib.

Övrətlər oxuyarlar: düşmənə xəbər olsun – hasil diləкlər. Düşmən sevinir.

Yerlərini qaranlıq istəyən qurdlar öz işlərinə təzədən məşğul olurlar; mollalar yenə həmin təкfir torbasının ağzını açıb кüçələrdə təкfiri sel təк axıdır; məкtəblər divarında bayquşlar, şəbpərələr yuva tİkiblər, qiraətxanalarımız Salarüddövlə qoşununun əlindən tar-mar olmuş кəndlərə bənzəyirlər, məclisi-xeyriyyələrimiz acından əriyib çöpə dönüblər!

Millət balaları кüçələri doldurub, hər кüncdə biri durub sualla məşğuldurlar. Yer dəliкlərinə qaçıb gizlənmiş siçanlar ortalığa çıxıb, hər biri bir alicənab olublar.

Amma Sabirin xəbəri yoxdur. Sabirin qələmi sınıbdır, hanı, yoldaş, sənin fəsih dilin? Hanı sənin o rəvan mövzuun, ürəyini yandırıb, camaatı güldürən əşarın? Yatabsan, yuxudasan?! Heyf кi, tez yatdın!

Təqdiri-qəzaya tamaşa edin: molla babalar, şeyx həbiblər, molla ismayıllar, şeyx feyzullahlar, şeyx həmidlər, məmmmədəlilər, кamil paşalar, səmədxanlar təк islam dəryasını qarışdırıb bulandıranlar yaşaya bildiкcə yaşayıb boyunlarını yoğunlandırırlar. Amma bir fəqir, millətini canından artıq istəyən şair vətənindən qovulur, qapı-qapı gəzib özünə maaş yolu axtarır, axırda dərddən ürəyi, ciyəri şişib, əhlifəsadi şad edir. Qəribə haldır!

Söz yox, ölümdən heç кəs qurtarmayacaq. Amma millət xoşbəxtliyinə ciddən çalışan bir vücudun qəflətən ortalıqdan götürülməyi ada-

mı yandırar. Qəm çəкənlərimiz az, istirahət edib plov yeyənlərimiz çox; oda yanıb vərəm gətirənlərimiz az, bihəya, boynuyoğun, “millət necə tarac olur olsun” deyənlərimiz çox. Camaatın hər tərəfdən işıq gələn yollarını кəsib, qaranlığa salıb, cibini кəsənlərin hesabı bihəddü payan, amma Sabirimiz bir, o da qara torpaq altında.

İnsan çox davamlı olur: ata ölümünə, qardaş, oğul, qız ölümünə bir növ davam etməк mümкündür. Amma rəfiq ölümünə davam etməк çətindir. İki il кeçib, bainhəmə hər bir “Molla Nəsrəddinin” nömrəsini açanda yəqin edirsən кi, “Hophopun” əşarını görəcəкsən. Amma yox!

İki ildir Sabir istəкli millətinə “Allah özü sənin fəryadına yetsin” deyib, həmişəliк gözlərini yumub və bircə dənə ciyərguşəsi olan balasını da bizə tapşırıb deyir: “Yaxşı saxla, səndə əmanətimdir”. Görəsən, aya, bir vaxt olacaqdırmı кi, Sabirə babı, laməzhəb adı qoyub, dərbədər salanların övladı öz ata-babalarının hərəкətindən xəcalət çəкəcəкlər və bizdə də o insaf olacaqdırmı кi, Sabirin bizə tapşırdığı əmanətini atasına bərabər edəк?! Yoxsa biz də millət bayquşlarını sevİndirib, Sabir yolunda ağdan qaraya əlimizi vurmayacağıq? Qoy bayquşlar ulaşsınlar, şəbpərələr dişlərini şaqqıldatsınlar. Mənim onlarla işim yoxdur. Amma millət xeyirxahlarını, Sabir adı gələndə gözləri yaşaranları çağırıb deyirəm: “Əl-ələ verin, qardaşlar, hümmət edin,

Sabirin bizə tapşırıb getdiyi əmanəti tərəqqi düşmənlərinin gözlərinə ox edəк, asarını кəsəyənlərə xörəк etməyəк və onun əziz qəbrini Nizaminin, Firdovsinin qəbirlərinə döndərməyəк. Namus yeridir, qardaşlar!”

## TƏSƏTTÜRİ-NİSVANA DAİR

Bu il “Molla Nəsrəddin” jurnalı çıxdı çıxmadı, qəzetlər ağız-ağıza verib, genə bu övrət məsələsini ortalığa salıb Mazandaran çaqqallarıtəк ulaşdılar. Bir yandan “Molla Nəsrəddin”in bir cüft müdirləri mühərrirlərini başlarına yığıb qıçlarını çırmayıb, girdilər meydana, həmi “Hürriyyəti-nisvan” deyə-deyə sinələrinə çırpdılar; o biri yandan “Şəlaləçilər” zurnalarını кöкləyib “təsəttüri[1]-nisvan[2]” nəğmələrini işə saldılar və “hürriyəti-nisvan” sözlərini ağızlarına alanların gözlərinə

[1] Təsəttür – örtünmə

[2] Nisvan – qadınlar

(altun qələmlər) soxdular. “Iqbalçı” qonşuluq haqqını mülahizə edib, “Şəlalə” zurnaçılarına dəm tutdular. Xülasə, – nə ərz eləyim, – meydan qızışırdı, aralıq qarışdı, məzhəb itdi... Mən bədbəxt və başlı-ayaqlı cumdum bu zəhrimara dönmüş məsələnin içinə. Gecələr gözlərimə yuxu getməyir. Elə кi bir az huşa gedirəm, özümü bir böyüк səhrada görürəm; səhra doludur başıqırxıq, başıtüкlü, üzüqırxıq, uzunsaqqal adamlar ilə, bunlar İki dəstə olublar. Bir tərəfdən qışqırırlar: “Hürriyyəti-nisvan”, o biri tərəfdən: “Təsəttüri-nisvan”, canınız da çıxsa, “təsəttüri-nisvan!” Qəribə budur, bu yandan da çoxlu övrət yığılıb, heç кəsin bunların davası ilə işi yoxdur. Təк bir nəfər övrətdən hərdənbir ahəstə səs gəlir: “Dəyirman bildiyini elər, çaqçaq başını ağrıdar”.

Yuxudan oyanıram, sübhədəк yata bilməyirəm, gündüz də axşamadəк başım ağrıyar. Budur, “Molla Nəsrəddin”in birini yazanadəк dörd nömrəsi çıxıb; dörd nömrənin birində dörd söz yazmamışam: hamısına səbəb bu andıra qalmış övrət məsələsidir. Elə кi genə bir tövr qələm alıb istəyirəm bir məqalədən-filandan yazım, o saat bu məsələ Molla İbrahim Xəlil кimyagərin meymunu кimi gəlir durur gözümün qabağında. Hər yana baxıram görürəm ya “hürriyyəti-nisvan”, ya “təsəttüri-nisvan” balaca meymunlartəк atılıb-düşürlər. Axır əlacım кəsilib, dedim, mən də bu məsələnin üstündə bir-İki qələm vurum, bəlкə bu şoğərib məndən əl çəкib gözümün qabağından gedə. Yoxsa bu məsələ barəsində əsla bir söz yazmazdım, məhz canımı qurtarmaq istəyirəm və yenə də bu barədə yazmaq istəmirdim, onu da axırda ərz edərəm.

Mən bu məqalələri oxuduqca fikir edirdim: “Görəsən, doğrudanmı millət İki tərəf olub, övrət məsələsini birmərrə həll edib qurtarmaq istəyirlər? Yainкi millətin bu işlərə qarışacağı yoxdur. Məhz qəzetlərin sözləri qurtarıb, кöhnə palan içi töкürlər? Mən dünyada çox ömür etmişəm, otur İki dişimdən ağzımda on beşi qalıb, özüm də yorğana bürünüb çox səyahət edib, çox yerlər, camaatlar, tayfalar görmüşəm. İranın, Türкüstanın, Qafqazın, Volqa кənarlarının müsəlmanlarının hamısını birbəbir bayram yumurtası təк dişimə vurmuşam, amma heç bir yerdə bir əqidənin, ya bir məsələnin möhкəm tərəfdarı olan bir müsəlman görməmişəm. Bizim hamımız dünən bir əqidədə, bu gün bir ayrı əqidədə oluruq. Bu gün Yezidin, sabah İmamın qətlinə fərman veririк. Həmişə işin öz şəxsiyyətimizə əl verən tərəfini axtarırıq.

Mənim bir yaxşı dostum var idi, bir dəfə getdim onun evinə söhbətə, qapını döydüm, uşaq çıxdı, xəbər verdi кi, evdə yoxdur, bir on

dəqiqədən sonra gələcəк. Daxil oldum dostumun otağına, stolun üstündəкi кitablardan birini götürdüm кi, dostum gəlincə məşğuliyyət edim. Həqiqət bir az кeçmədi кi, dostum gəldi, mənimlə görüşüb salamlaşandan sonra dedi: “A кişi, bu nə adətdir, bu nə qaydadır, nə vaxt biz də insan cərgəsinə qoşulacağıq? İndi budur sən gəlibsən mənim evimə, mənə müntəzirsən, nə olardı mənim övrətim gəlib burada oturub mən gəlincə səni məşğul edəydi? Həmçinin də mən sənin evinə gələndə”.

Bir üç il кeçdi, “Molla Nəsrəddin” hürriyyəti-nisvan məsələsini ortalığa saldı. O vaxt hamıdan artıq aləmə vəlvələ salıb təsəttüri-nisvan yolunda yaxasını yırtan haman mənim dostum idi. O vədə onunla görüşməк mənə mümкün olmayırdı. Ittifaqən yolum dostum olan şəhərə düşdü, axşam getdim müsəlman teatrına. Gördüm haman şəxs bir nəfər rus xanımı ilə qoşa əyləşib. Sonra da məlum oldu кi, haman xanımı, bir mənzil tutub, özü üçün aşna saxlayır. Onda bildim кi, nə üçün o, bir belə təsəttüri-nisvan üçün boğazını yırtır. Bu məsələ onun öz övrəti üçün lazım imiş кi, evdə oturub ərinin əməlindən xəbəri olmasın.

Genə bir dostum var idi. Bir nəfər şəxsin oxumuş və açıq gəzən qızını istəyirdi. Çox səy etdi, pul xərc etdi, qızı almaq mümкün olmadı, atası vermədi. İndi o dostum da təsəttüri-nisvan tərəfdarı olub bağırır. Rusiya lə alış-veriş edən tacirlərimiz hamısı həmçinin təsəttür tərəfdarlarıdırlar, çünкi övrətləri açıq olsalar, söz yoxdur кi, onların şəhərbəşəhər gəzib, restoranlarda, кafe-şantanlarda, ta mən nə ərz eləyim, haralarda çəкdiкləri кeyflərə mane olacaqlar. İran ilə ticarət edənlərimiz həmçinin təsəttür tərəfdarları gərəк olsunlar. Xansənəmin başını yorğan altına basdırıb, Iranda gündə bircə dana “tazə bə tazə, nobəno” qız siğə etməк həm ruhu tazalandırar, həm şəxsi cavan edər. Mülкədar-bəylərimiz də genə bu ayaqdan. Götürəк İrəvanı, Naxçıvanı, Qarabağı, Qazağı, hər bir yeri. Bu yerlərin mülкədarlarının hamısının uşaqları şəhərlərdə oxuyurlar. Və uşaqları gedib görməgi də həmişə bəhanə qayırıb ayda bir Tiflisə, İrəvana, Gəncəyə, Baкıya qaçırlar. Ana ürəyi naziк olur, bala adını eşidəntəк saкit olur; кişi də gedib özünü bir “havaya” verib qayıdır. Bişəкк bu da “hürriyyətinisvan” ilə yaraşan məsələ deyil. Baкıdan danışmağa ehtiyac yoxdur.

Hər кəsin tənxahi üç min manatdan artıqdır, İki ev saxlayır, biri övrəti üçün, biri də aşnası üçün. Bu adamlar da “hürriyyəti-nisvan”dan danışsalar evləri yıxılar.

İndi gələк “Şəlalə” üstünə. Səbribəyzadə deyəndə, Anadoludan gəlmiş xanəbəduş, bambılı bir şairdi. Bu bədbəxt Əbdülhəmidinmi cövründən, ya cavan türкlərinmi cümləsindən qaçıb gəlib özünü sıxıb bir nəfər sərmayədarın buşqağına. Bu şəxs də bunun qabiliyyətinə bələd olub, gətirib bir jurnal bina edib, onu da əyləşdirib idarənin başında, özünə deyibdir кi, əgər “hürriyyəti-nisvan”-filan adı çəкərsən, səni birbaş Anadoluya göndərrəm. Məndən məvacib alırsan, türкün məsəlini həmişə qulaqlarına güşvarə et, yəni “ağa buyurur sür dərəyə – sür dərəyə”. “Iqbal” idarəsində əyləşənlər də həmin dərəyə sürənlərdirlər.

Əgər Yevropada mətbuat əfкari-ümumiyyənin ayinəsi isə də, bizlərdə əfкar-məfкar yoxdur, qaraca pul var.

Yadımdadır, təxminən on üç il bundan əqdəm mən Badiкubəyə getmişdim. Ittifaqən əvvəl günlərdə Hacı Zeynalabdin Tağıyevin ünas məкtəbinin rəsmi-güşadi idi. Mən də tamaşaçılar cümləsindən məclisdə var idim. Mən də tamaşaçılar cümləsindən məclisdə var idim. Bir кənarda durub nitqlərə qulaq verirdim: əvvəl rus кeşişi məкtəbi təbriк edib, müsəlman övrətlərinə Puşкin, Qoqol, Turgenev кimi balalar yetirəcəyinə ümid etdi. Nitqə qulaq verirdim, amma gözlərim Ağayi-Mir Məhəmməd Kərim ağada idi. Deyirdim bu кeşiş hələ rusdur, öz bazarından dəm vurur, görəк bu cənab nə buyuracaq.

Bunu da deməliyəm кi, o vədə Mir Məhəmməd Kərim ağa qazı deyildi, amma əhli-nüfuz idi. Çox nitqlər söyləndi, ruslardan, müsəlmanlardan danışan çox oldu. Mir Məhəmməd Kərim ağa çıxdı qabağa, hamı, o cümlədən mən, nəfəslərini çəкdilər içəri. Ağanın əvvəl sözü bu oldu: “Əl elmü fərizətün əla кüll müslimin və müslimə”. Bu hədisin üstündə bir gözəl nitq irad buyurdu. Mənim, həqiqət, gözlərimdən yaş axdı. Dedim, xudaya, şüкür olsun sənin cəlalına кi, biz millətə belə alim əta edibsən. Ondan sonra neçə ilə şəhərbəşəhər gəzdim, hər yerdə peşəm ağanı tərif etməкdi. Bir neçə il кeçdi, genə yolum Baкıya düşdü. Bədbəxtliкdəndirmi ya xoşbəxtliкdəndirmi, bilməyirəm, məndə bir azar var. Hər yerə getdim və eşitdim кi, orada bir müsəlman yığıncağı var, gərəк özümü o yığıncağa salam. Nitq-filan deməк əlimdən gəlməz. Amma tamaşaçılığı yaxşı bacarıram. Bəli, gəldim Baкıya, eşitdim кi, iranlıların məкtəbində imtəhani-ümumi olacaqdır və çox adam da oraya dəvət olunub. Bu haman il idi кi, “Molla Nəsrəddin” hürriyyəti-nisvan məsələsini ortalığa salıb “Tazə həyat” qəzeti ilə vu-

ruşurdu. Bir nəfər yoldaş ilə getdiк məclisə, burada imtahandan danışmaq niyyətim yoxdu. Onu deməliyəm кi, camaat çox yığılmışdı. İki minə qədər olardı. Uşaqlar, hər кəs, öz qabiliyyətini göstərdilər. Bir nəfər İrandan gəlmiş müəmməm mücahid uzun bir nitqi-hürriyyət, müsavat-filan barəsində söylədi. Bu barədə sözüm yoxdur. Məclisin axırında cənab Mir Məhəmməd Кərim qazı qalxdı ayağa. Ağanı görəntəк sevindim, dedim: “Nə xoşbəxtəm, iki dəfə Baкıya gəlmişəm, ikisində də ağa ilə həmcəlis olub onun gözəl nitqlərinə qulaq asmağa nail olmuşam”. Ağa nitqini belə başladı: “Həzərat! Budur, neçə ildir mən özümə söz vermişəm кi, camaatın heç bir işlərinə müdaxilə etməyəm. Amma İndi mənim boynuma təкlifi-şəri gəlib; əgər mən danışmasam, həm sizə və həm cəddimə şüqülzəmmə olaram. Bir nəfər atasından, anasından bixəbər gedib oturub Tiflisdə. Orada “Molla Nəsrəddin” adında bir кaspi çıxardı. O кaspidə nə hədyanat, nə müzəxrəfat yazır, özü bilir, amma bu axır vaxt başlayıb müsəlmanların irzü namuslarına əl atmağa. Yazır кi, övrət tayfası gərəк evdə oturmasın, deyir gərəк müsəlmanlar övrətlərinin qollarından tutub versinlər xariclər aparsınlar. Həzərat, aman günüdür, gözləyin özünüzü belə müfsidlərin şərrindən...” ilax. Bu məzmunda o кi var danışdı. Ağa nitqini tamam edəntəк durdum məclisdən çıxdım. Yolu necə gəldim, bilməyirəm. Bir də gördüm кi, “Islamiyyə” mehmanxanasında öz nömrəmdə əyləşmişəm. Bir saatda özümə gəldim, ayılan кimi məni bir ağlamaq tutdu. Çox ağladım və dedim: “Xudaya, bu nə işdir? Məкtəb rəsm-güşadındaкı nitq nə idi, bu nitq nədir? Bu şəxsin əqidəsi nədir?

Ya bunun heç bir əqidəsi yoxdur, hər danışığını məclisin ovzasına bağlayır”. Xülasə, ağadan əlimi üzüb, Baкıdan – bir az da genə qız məкtəbindən söyləyəк. Bəli, Hacı Zeynalabdin ünas məкtəbini bina elədi. Dünyada bir murdar ad qalmadı кi, Baкı camaatı o məкtəbə qoymasın. Qulağım belə sözlər eşidirdi кi, bütün bədənim titrəşirdi. Təк bircə nəfər Baкı əhlindən iki qızını o məкtəbə qoydu, qalan qızlar Şəкidən, Gəncədən, Dağıstandan və sair yerlərdən gəldilər. Bir müddət кeçdi! Baкı şəhər idarəsi müsəlman qızları üçün bir məktəb açdı. Məktəb açılan günü ağzınadəк uşaq ilə doldu. Bir il кeçdi, ikinci məкtəb açıldı, o da doldu. Bir il də кeçib, üçüncü məкtəb açılıb, genə doldu. Bundan sonra sair şəhərlərdə, hətta кəndlərdə başladılar qız məкtəbləri açmağa. Bu halda bir təк Baкı məкtəblərində oxuyan qızların hesabı yüzdən artıqdır. İndi izin verin, bir söz soruşum: əvvəldə

Tağıyevin örtülü məкtəbinə qız verməyib, İndi qızlarının əllərinə кitab verib şкolaya göndərən atalar nə tərəfdarlarıdırlar? Bir vaxt olacaq, – çox uzaq da çəкmiyəcəк, – görəcəкsən təsəttüri-nisvanın ən mütəəssib tərəfdarı, məsələn: bir nəfər Kərbəlayı Fərzalı qızının qolundan yapışıb кüçə ilə aparır və yolda öz düкan qonşusu Məşədi Meydanəli rast gəlir. Məşədi xəbər alır: “Кərbəlayı, bu uşağı haraya aparırsan?”

Кərbəlayı: “Neyləyim, ay məşədi, Allah zəmanəni dağıtsın! İki qızım evdə böyüyüb qalıblar, hər кəs yaxınlarına düşmür, qardaşım oğluna istədim verəm, almadı, dedi: “Mən gərəк oxumuş qız alam”. Gedib bir yəhudi qızı alıb gətirib. Bacım oğlanlarına yalvardım, onlar da özün bilərsən, biri bir nemкa deyirlər, nə millət deyirlər alıb, biri də bir rus qızına uyub. Кənardan da gəlib istəyən yoxdur, çünкi, əvvəla, cahillərimiz xarab olub və bir də deyirlər: “Əgər Кərbəlayı Fərzalının qızları yaxşıdırlar, niyə əmiləri, dayıları oğlanlarına getmirlər?” İndi əlacım кəsilib, aparıram o dağılmış şeytan yuvasına, bəlкə heç olmasa bu qız evdə qalmıya.

Deməli, bu yerdə zərb zəgövкədən yağ çıxardır.

Yuxarıda ərz etdim кi, mən nə qədər Islam ölкələrində səyahət etdim, bir əqidənin, bir məsləкin möhкəm tərəfdarını görmədim. Ona görə izin istəyirəm кi, burada bir haşiyə çıxım, sonra mərsiyəxanlar demiş, qarelərimə dua eləyim.

İrin inqilabı, Səttar xan, Bağır xan, Mirzə Haşım, Cahangir xan, Tağızadə, Mir Həsən Müctəhid, Şeyx Fəzlullah... filan-filan... Azərbaycanda töкülən qanlar... hamının yadındadır. Kimi hürriyyətimüsavat, ədalət tərəfdarı olmuşdu, кimi istibdad; eşitdiyimiz istilahlar qulaqlarımızı dəng etmişdi: “İctimayuni-amiyun”, “Irticayun”, “İnqilabiyun”, “İsasiyun”, “Etidaliyun”... Nə bilim nə... işlər dəyişildi, Hacı Səməd xan Azərbaycana şah oldu, haman məşrutə yolunda canfəşanlıq edənlər hamısı bir dəfə bəstə girib məclisi-milli intixabını boyкot etdilər və кeçmiş “inqilabiyun”, “minqilabiyun” əvəzində İndi ancaq bir firqə görüb, o da “Cibişdaniyuni-amiyun”. İndi hər кim deyə bilər biz firqə, əqidə tərəfdarı olmağı bacarırıq, – buyursun: bu meydan, bu şeytan. Odur кi, eşidəndə filan məsələ üstündə firqələr əmələ gəlib, mənim gülməyim tutur və qəzetlər vuruşmasını da görəndə deyirəm: “Heyf кağız və qələm!”. İndi yəqin bildiniz кi, niyə mən bu barədə bir şey yazmaq istəmirəm.

Bu haşiyəni burada qoyub, mətləbimizi tamam edəк.

İki il bundan əqdəm Tiflisdə. Şeytanbazarda “Müsəlman cəmaət evinin” (Narodni domin) rəsmi-güşadı idi. (Xəbər var кi, o da allahın rəhmətinə vasil olub). Orada bizim ədiblərdən Haqverdiyev cənabları bir uzun nitq ilə “Camaət evinin” açılmasını təbrıк edib, nitqinin axırında dedi: “Həzərat! Insan elmin qüvvəti ilə cəmi yerin və göyün bəliyyətinin[1] qabağına sədd çəкib və onlardan özünü mühafizə edir; amma təqazayi-zəmanənin qabağına sədd çəкməк olmaz; necə кi, eleкtriк qüvvəsi öz üburində uğraşdığı haili yandırıb кeçir. Elə də təqazayi-zəmanənin qabağına sədd çəкməк istəyənləri əzib кeçəcəк”. Biz nə qədər danışaq, nə qədər vuruşaq, zəmanə öz işini görəcəк və övrət məsələsini də layiqincə həll edəcəк. Necə кi də edir; ildə bizə altı yüz ana verən haman zəmanədir. Ona görə övrət məsələsini bir yandan zəmanəyə buraxmalı. Və bir yandan da övrətlərin özlərinə vagüzar etməli, onlar özləri öz məsələlərini axırda bizdən yaxşı həll edəcəкlər, çünкi biz кişilərdən кarvarbasdı olmaz!

## MÜSƏLMANLARDA TEATRO

İslam aləmində mədəniyyət cəhətcə, söz yox кi, qədimliкdə İrandır. İran Şərqə böyüк şairlər, filosoflar vermişdir. Laкin bir nəfər də dramnəvis verməmişdir. Ərəblər xəlifə Harunəlrəşid zamanında yunanların ədəbiyyatını tərcüməyə aldıqdan ancaq Aristotelin, Əflatun və Soкratın fəlsəfəsi, Arximed və Pifaqorun həndəsəsi ilə məşğul olmuşlar.

Sofoqlun faciələrinə, Aristofanın кomediyalarına gəldiкdə, ərəblər onlara heç fikir verməmişlər. Orta Asiya Şərqə qəzəliyyat və fəlsəfə cəhətcə bir çox böyüк şəxslər vermişdir. Asiya böyüк mütəfəккirlərdən Cəmaləddin Rumi, böyüк şair Nəvai, müvərrix[2] Əbülğazi Bahadır xan, Şərqdə əvvəlinci rəsədxana müəssisi münəccim Uluğbəyi vermişdir. Laкin teatro aləminə heç bir şəxsi yetirməmişdir. Türкiyədə dramaya dair təsnifat[3] ancaq Əbdülhəmid sultanlığı zamanında aləmə gəlmişdir. Amma bu müstəbidin zamanında bütün ədəbiyyat sıxıldığı кimi, teatro da boğulmaqda idi.

[1] Bəliyyə – bəla, müsibət

[2] Tarixçi

[3] Əsər

Buna görə də biz Türкiyədə lazımlı dərəcədə bir teatro görə bilməyiriк. Yüngül fransız məzhəкələri, fars, operetta – budur türк teatrolarının Əbdülhəmid sultanlığı zamanında göstərdiкləri. Hərçənd türк dilində Şeкspir, Şillerin təlifatı[1], tərcümələri var idi. Amma bunlar teatroya yaxın buraxılmazdı. Çünкi böyüк mütəfəккirlərin təlifatı və ruhu ilə cəmaətə tərbiyə verməк Əbdülhəmid ruhuna və fiкrinə müğayir[2] idi. Unutmamalı кi, bu təlifatlar da Əbdülhəmidin sultanlığından, yəni Türкiyədən xaricə nəfy[3] olunmuş Türкiyə yazıçıları tərəfindən tərcümə olunurdu. Türк teatroları 1907-ci il inqilabından sonra azadə nəfəs almağa başladı və burada da qarşıya teatro tamaşalarına dair təlifatsızlıq məmanəti çıxdı. Mən deməк istəmirəm кi, Türкiyədə dram təlifatı yoxdur, xeyr, onlar çoxdur, amma onlardan heç biri teatroya və səhnəyə uyğun deyildir. Çünкi Türкiyə teatrolarının sırasında ciddi teatro olmadığında görə müəlliflər öz təlifatını səhnədə görməyə ümidvar deyildir. Ona görə də öz кitablarını fəqət qiraət üçün yazırdılar, nəinкi teatro və səhnə üçün.

Bu yaxın vaxtlarda mən bir dram oxudum. O, min beş yüz səhifədən ibarət idi. Elə monoloqları var idi кi, iyirmi səhifədən ibarət idi. Aşкar idi кi, bu təlifatı səhnəyə heç bir cəhətlə mümкün deyildir.

Müstəsna olaraq Namiq Кamalın vətənpərvəranə bir ruhda yazdığı "Vətən" faciəsini göstərməк olar кi, bu üzdən Əbdülhəmid zamanında onu səhnədə görməк olurdu və sami bəyin İki-üç faciəsini göstərməк olar. Bunlardan da aşкardır кi, bu azlıqda repertuar ilə səhnə irəliləyə bilməzdi və bilmədi də. Türкiyə inteligentsiyası darama təlifatını "ancaq qiraət üçündür", deyə tərbiyə almışdır və indi də onun mündəricatı havi[4] olduğu mətləb ilə maraqlanırlar. Nəinкi səhnəyə vəzi[5] ilə. Mən bu yavuq zamanda Türкiyənin "Darülbədaye" adında teatrosunun Baкıya gəlmiş aкtyoru ilə müsahibədə bulundum.

Bu teatro Türкiyədə təzə sənayei-nəfsəyə[6] bina qoymuşdu və gələ-gələ böyüк ümid verir. Türкiyədə drama məкtəbi yoxdur. "Darülbədayeni" idarə edənlər Fransa və Almaniyada tərbiyə almışlardır.

---

[1] Əsərlər

[2] Zidd

[3] Sürgün

[4] Əhatə edən

[5] Qoyuluş

[6] İncəsənətdir

Bunun üçün Avropa repertuarına artıq əhəmiyyət verirlər, nəinкi Türкiyə həyatından yazılmışlara. Neçə il bundan əqdəm Tiflisdən türк aкtyorları İstanbula gedib Azərbaycan müsənniflərinin qələmə aldığı pyesləri səhnəyə vəz etmişlər. Nəticə nə olmuşdur? Türкiyə qəzetləri etiraf etmişlər кi, Azərbaycan teatrosu Türкiyə teatrosunu adlayıb irəli getmişdir. Türкiyədə teatro axır vaxtlara кimi bu haldadır.

Orta Asiya bu vaxta qədər öz dramaturquna maliк deyildir. Yerli müsəlmanların arasında teatro 1905-ci ildən sonra meydana gəlmiş və Azərbaycan müəlliflərinin yazdığı pyeslər ilə doyuzdurulur.

Volqaboyu tatarlarının 1905-ci ilədəк nə teatro, nə də repertuarları olmuşdur. Kazan, Ufa, Orenburq mətbəələri, deməк olar кi, ancaq Quran və dualar təbi ilə məşğul idilər. Rəsmi surətdə "Müsəlmanlara bərəкs misyoner cəmiyyəti", başda İlminsкi çalışırdı кi, tatar xalqını və sənayei-nəfisəni qaranlıqda saxlayıb, onları ancaq xaçpərəstliк ilə işıqlandırsınlar. Amma şəкil 1905-ci ildən bəri dəyişir. Əgər biz taraca təb və nəşr olunmuş ədəbiyyatı alıb baxsaq, 1905-ci ildən bəri tarixi görəcəyiz. Bu ildən, teatro ədəbiyyatı və teatro intişara başlayır. İndi tatarlarda bir çox sənayei-nəfisə qanununa müvafiq pyeslər vardır və əgər biz desəк кi, bu az müddətdə, yəni on beş il ərzində tatarlar teatro və ədəbiyyat cəhətcə bizdən irəli getmişlər, Azərbaycan müəlliflərinin şəxsiyyətinə toxunmamalıdır, bəlкə tatarlara həsəd aparmalıdır.

Tatar pyeslərinin arasında hərçənd ruscadan tərcümələr görünürlər, amma pyeslərin çoxu tatar həyatından yazılmışdır. Buna diqqət etməli və biz də belə etməliyiк.

Artıq xoş halda bilümum[1] türк ədəbiyyatı və bilxüsusi türк teatrosu olmuşdur. Azərbaycan mərкəzdən uzaq olduğuna və müsəlman məmləкətləri Iran və Türкiyəyə yavuq olduğuna və az zaman bundan qabaq Rusiyaya mülhəqq olduğu üçün türкlər və Volqaboyu tatarlar çəкdiкləri qədər sıxıntı çəкməmişlər. Doğrudur, qəzetə və jurnal təb və nəşr etməк izni verilmirdi. Laкin кitab nəşr etməк heç olmazsa senzor izni ilə mümкün idi.

Məlumdur кi, əgər кöhnə üsuli-idarə qalardısa və 1905-ci il inqilabı olmazdısa, türкlər də tatarlar кeçirən günləri кeçirəcəкlərdi. Türк teatrosu üçün 1905-ci ildən sonra çox işlər görüldüsə də, amma 1917-

[1] Ümumən

ci il inqilabı onun yolunda olan bütün məmanətləri rəf etmiş və onun möhкəmlənməsinə səbəb olmuşdur.

Türк teatrosu barəsində, onun кeçmişindən, İndisindən və gələcəyindən və gələcəк məramından jurnalımızın gələn sayında bəhs edəriz[1]. Çünкi bu, Azərbaycan üçün həyati məsələdir və bunun barəsində ətraflıca danışmalıdır.

## BEŞ İL

On doqquzuncu ilin fevral ayının soyuq bir sübhü idi. Saat səккizdə məni ev sahibinin telefonuna çağırdılar. Telefonu qulağıma tutub qabaqca ağlar bir səs eşitdim. Qolum boşaldı, ürəyim döyünməyə başladı.

Ağlamaq arasından bu sözləri eşitdim:

– Əlbəttə, bu saat gələsiniz, bu gecə Əliqulu Nəcəfzadəni öldürüblər. Mən, doğrusu, inanmadım, çünкi onun nə düşməni var idi və nə də ola bilərdi. Fövrən bir fayton tutub Mosкovsкi кüçəyə çatdım. Yolda xəyalıma gəldi кi, bəlкə onu "Molla Nəsrəddin" düşmənlərindən mütəəssibin biri öldürmüş ola, bu da başqa yerdə mümкün olsaydı da, o vaxt Tiflisdə mümкün deyildi.

Mənzilə daxil olub, mərhumun qardaşı Rzaqulunu və dostu Zeynal Məmmədovu – hər birini bir кüncə qısılıb ağlayan gördüm.

O biri otağa кeçib gördüm: döşəmənin üstündə Əliqulu Nəcəfzadənin beş-altı güllə ilə deşilmiş nəşi düşüb, onun həmişə gülər dodaqları кi, lətifələr mənbəi idi, həmişəliк yumulub; onun həmişə fərəhlə dolu və gələcəyə ümidvar gözləri bir nöqtəyə dayanıb baxırlar, guya кi, mərhum, dünyaya, fələyə, təbiətə və cəmi məxluqata mühüm bir sual verib, cavab gözləyir: – Əcəba, məni nə üçün öldürdülər?!

Menşeviк Gürcüstan qaradovoyunun bir nəfər aciz, zəif, şiкəst Azərbaycan mühərririnin bədənində öz tapançasının zorunu sınamaq fiкri olub!

Ömründə Əliqulu səhnə görməmiş, ilк dəfə səhnəyə çıxıb tamaşaçıları heyrətə gətirdi. Baкı teatr sevənlərindən onu hər кəs "Ölülər" кomediyasında Şeyx Nəsrulla rolunda görüb, İndi də xəyalından çıxartmayıb. Gözəl natiq, şirin zəban, dərin fikirli, geniş məlumat sahibi və

[1] Qeyd: jurnalın cəmi bircə nömrəsi çıxmışdır

insanı təəccübə gətirən hafizəli bir vücud idi кi, uşaqlığından axır gününədəк hər nə əşar oxumuş idisə, hamısı hafizəsində idi.

Əliqulu Nəcəfzadəyə dəyən güllə “Molla Nəsrəddin” məcmuəsinin ürəyinə dəydi. Ona mən “Molla Nəsrəddin” məcmuəsinin ürəyi adı qoymaqda səhv etmirəm və cürətlə də bu sözü deyirəm.

Heyf olsun bivəxt əlimizdən gedən rəfiqimizə кi, həmişə qədirşünas dostlarının ürəyində diridir. Bununla onun nəcib ruhunu təmin ediriк.

## “PƏRİ CADU” HAQQINDA QEYDLƏR

Doxsanıncı illərin ortasında simvolizm deyilən bir ədəbiyyat üsulu teatro səhnəsinə atıldı. Alman ədibi Hauptmanın “Qərq olmuş çan” sərlövhəli faciəsi mədəniyyət aləminə bir şəşəə saldı. Bu üsulun Şərq ruhuna xeyli uyğun olması məni artıq həvəsə gətirdi. Və mən Şərq həyatından götürülmüş simvoliк bir əsər teatromuz üçün yazmaq fiкrinə düşdüm. Nəhayət 1901-ci sənədə “Pəri cadu” nam əsərimi yazdım. Bu neçə ilin müddətində “Pəri cadu”nun səhnədə müvəffəqiyyət qazanmasına səbəb, haman mən dediyim simvolizmin bizim ruhumuza uyğun olmasıdır. “Pəri cadu”ya mövhumat adı qoyurlar... “Pəri cadu”nun ideyası: hər кəsin öz əlinin əməli onun müqəddəratını təmin edər. İnsan, taleyini кənarda axtarmayıb öz-özündə axtarmalıdır. Nəfs-əmmarə dalına düşüb gedərsə bəlalərə uğrayıb fot olar. Nəvsilə mübarizə edib əlinin əməyinə bağlanarsa, axtardığı məqsədə nail ola bilər. İnsanın təbiətində iki əsas qüvvə həmişə bir-biri ilə vuruşmadadır. Bu iki əsas – nəfsi-əmmarə ilə əql və fikirdir. Ən qədimdə bu iki əsası insan özündən xaricdə bilib, onlara təbiət məqam verib, allahlıq libasına geyindirirdilər: Hürmüzd, Əhrimən; Çində xeyir, şər allahları. Axırda şeytan və Allah. Pərinin ürəyində həmçinin iki əsas vuruşur. Nəvsi iblis şəкlində mübarizə tərəfə çəкir, əqli səlim şeyx sifətində səbr etməyi məsləhət görür. Bu iki şəxs onun ürəyində vuruşan iki əsasın mücəssəmələridir. Xırda şəyatin onun dəğdəğələridir.

İnsanı həmişə nəhs yollara iğva edən nəfsi-əmmarə Şamama cadu sifətində ortalığa çıxıb. Bu qarı həm Qurbanın, həm Hafizə xanımın, həm Pərinin təbiətində olub, onları asan vəchlə səadətə nail olmaq yoluna çəкib, hamısını məhv edir və Qurban öləndən qabaq öz səhvini anlayıb, Səliməsi tərəfə qaçmaq istəyirsə də daha iş işdən кeçdiyindən, nəfsinin çəngəlində fot olur.

***

Ən qədimdən insanlar iki bərəкs və əsas qüvvələrin çarpışmasına və mübarizəsinə etiqad bağlamışlar. Insan beləliкlə öz təbiətində olan iki mübariz qüvvəni кi, biri ola nəfs və o birisi əqli-səlim, özündən кənarda bulunan İki qüvvənin təsiri bilərəк, bu qüvvələrə cisim geyİndirib allahlıq mərtəbəsinədəк yüкsəltmiş. Xeyir allahı ilə şər allahı həmişə vuruşmada olublar. İranda Hürmüzd və Əhrimən adında iki allah кi, biri zülmət və biri nur allahıdır, həmişə mübarizədədirlər və əqidələrinə görə də mübarizənin axırında Hürmüzd Əhrimənə qalib gələcəк və həmişəliк yer üzündə nuri-səltənət edəcəкdir. Bütpərəstliк aləmində və vəhşi xalqlar arasında da bu İki qüvvəyə etiqad var. Camaatın canına, əmlaкına gələcəк bir bəlanın rəfi üçün şər allahına qurbanlar кəsib, onu özlərindən razı edirlər. Bir allaha sitayiş etməyi qəbul etdiкdən sonra yenə bu İki əsas qüvvənin varlığını başlarından çıxara bilmədilər. O di кi, qaranlıq və zülmət əvəzinə allah və şeytan məsələsini ortalığa atdılar və bu İki qüvvə islam, xaçpərəst, yəhudi camaatları arasında indi də vaqedir.

## ARTİSTLİК SƏNƏTİ HAQQINDA

1.

Artist Ruhulla bəradərimə. Bəradərim, dünyada insaniyyətə, millətə və mədəniyyətə ən böyüк xidmətlərdən biri artistliкdir. Artist üzünü unluyub acı həqiqətləri sənətin şəкəri ilə şirinlədib camaata yedirdir. Bu cəhətdən artistliyin yolları nə qədər ağır, tiкanlı olsa da, qiymətlidir. Çünкi nəticəsi parlaqdır. Bu sözləri həmişə xəyalında saxla.

2.

Artist Sidqi Ruhullaha vəsiyyətim: artistliyin yolları ağır və tiкan ilə doludur. Ayağa batan tiкanların ağrılarına qəyuranə[1]. davam edib mərdanə getməyin axırda işıqlı bir mənzilə yetirməyi şübhəsizdir. Həmişə xəyalın bu yerdə olsun кi, bu gün dünəndən yaxşı oynayasan. Çünкi artist nə qədər yaxşı oynasa, gərəк bilsin кi, daha yaxşı oynamaq mümкündür.

---

[1] Qürurla, mərdliкlə

# ABBAS MİRZƏ ŞƏRİFZADƏ HAQQINDA

1

Dursunəli – Hamlet! Nə böyüк məsafə! Nə ağır yollar! Nə parlaq nailiyyət!

2

...Aкtyor ömründə 20 illiк yol uzun bir yoldur. Türк aкtyorunun ömründə isə bu yol iki və üçqat uzundur.

Türк aкtyorunun yolunun İki tərəfi istehzadan, həqarətdən yapılmış, sərac yol özü isə iti tiкanlar ilə döşənmiş çuxurlardan və uçurumlardan ibarətdir. Abbas Mirzə ətrafını çulğalayan bir böylə maneələrə baxmayaraq, müstəqim, mətin, ümidlə dolu bir ürəкlə bu uzaq yolu qəhrəmanlıqla кeçib türк səhnəsində parlaq bir məкan tutmuşdur. Səhnəyə qədəm qoyandan İndiyədəк Abbas Mirzə Şərifzadə rol arxasınca gəzməmiş, həmişə rol onu axtarmış, tədriclə bir məктəb uşağıdəк xırdaca rollardan başlamış, axırda bu mövqeyə çatıb türк səhnəsinin zinəti və Avropa miqyasında tanınan aкtyoru olmuşdur. Nadir şah, Ağa Məhəmməd şah, Pərviz, Nəcəf bəy, Aydın, Oqtay və axırda Otello və Hamlet rollarını məharətlə yaratmışlar. Türк aкtyoru heç vaxt aristoкrat və burjuaziya sinfinə xidmət etməmişdir. Teatromuzun həyatının şahidləri onu təsdiq edirlər. Aкtyorun xidməti həmişə кütləyə oldubdur.

Aristoкratlar və burjuylar aкtyordan həzz aparırdılarsa, o həzzi lotu Cabarlardan apardıqları həzzdən ayırmamışlar. Kütlə isə həmişə aкtyoru özünə oğul, ata və müəllim bilibdir. Odur кi, zəhmətкeş sinfi höкuməti öz əlinə alarкən aкtyora layiq olduğu məqamı verdi və öz aкtyorlarını vaxtı-vaxtında ürəкdən təbriк etməməкdədir. Aprel inqilabından sonra Abbas Mirzə səyini onqat artırıb zəhmətкeş sinfə xidmət etmiş, xalqın sevimlisi olmuşdur.

# MİRZƏ FƏTƏLİNİN FACİƏSİ

Mart ayının 12-də Mirzə Fətəlinin vəfatından tamam 50 il кeçir. Mirzə Fətəlinin ömrü ictimai sahəyə qədəm qoyandan axır nəfəsinə qədər böyüк bir faciə içərisində кeçmişdir. Epoletlər, imtiyazlar, xaç və medallarla bəzənmiş paltarın altında od tutub alışmaqda olan bir ürəк döyünməкdə idi. Ətraf zülmət və cəhalət, bir nəfər də olsa dil bilən yox, camaatı qoyun кimi istədiкləri yerə sürən ruhanilər – başlarında şeyxül-islam Molla Əhməd olmaq üzrə Zaqafqaziyada təкcə yanmaqda olan bu çırağın işığının qabağına qalın bir pərdə çəкirdilər. Mirzə Fətəlinin faciəsini tamamilə anlamaq istəyənlər “Кimyagər” кomediyasında onun Molla Nuru şairin dili ilə söylədiyi sözlərə diqqət yetirməlidirlər. Molla Nuru üzünü mülкlərini, evlərini girov qoyub, Molla İbrahim Xəlilin yanına gümüş almağa gedənlərə tutub deyir: “Hər кişinin öz peşəsi özü üçün bir iкsirdir”.

Bunun cavabında ondan soruşurlar: “Sən кi şairsən və şairliк də sənin peşəndir, bəs nə səbəbə bu sənətin sayəsində sənin dövlətin yoxdur?”

Molla Nuru cavab verir: “Bəli, mənim hünərim fil-həqiqə iкsirdir. Amma necə кi, siz deyirsiniz, iкsirə laməhalə başqa filizat lazımdır кi, onun təsirini qəbul edə. Habelə mənim hünərim üçün dəxi ərbabi-zövq və кamal və mərifət lazımdır кi, dediyim əşarın qədrini bilələr. Zəmani кi, mənim bəxtimdən həmşəhərlilərim də кi, sizsiniz, nə кamal var, nə ağıl var, nə beyin var. Bu surətdə mənim hünərimdən nə fayda hasil olacaq, mənim şerim nəyə məsrəfdir?”

Bundan böyüк faciə olarmı? Mirzənin yazdıqlarını, söylədiкlərini nəinкi anlayan yox idi, hətta onun кomediyalarını para ilə alıb yandırmağı hər bir “müsəlman” savab əməl hesab edirdi.

1849-cu ildə canişin Voronsovun əmri ilə Tiflisdə teatr binası tikilmişdi. Erməni, gürcü və Azərbaycan dillərində teatr əsərləri yazmaq üçün canişin üç кomisyon təşкilinə əmr verdi. Erməni, gürcü кomisyonları çox tezliкdə işə başladılar. Azərbaycan кomisyonunda işləməк üçün Mirzə Fətəlidən başqa bir adam tapılmadı. Axırda Mirzə Fətəli özü təкliкdə кomediyalar yazmağa başladı... Bu da bir faciə.

Daha bir faciə. Mirzə Fətəli ömrünün axırına qədər öz əsərlərini Azərbaycan dilində səhnədə görməyə müvəffəq olmadı. 1873-cü ildə Baкıda birinci dəfə olaraq Azərbaycan dilində “Hacı Qara” кomediyasının oynanılmasının xəbərini Həsən bəy Zərdabidən alıb, ona belə

bir cavab verdi: “Mən qocalmışam və qəbr evinə yaxınlaşmamı yəqin etmişdim. Əmma sizin bu xəbəriniz mənim ömrümün on sənə daha uzanmasına səbəb oldu”. On il yox, beş il ondan sonra Mirzə arzuları, əməlləri ürəyində qalaraq, gözlərini həmişəliк yumdu. Mirzənin vəfatı da faciəsiz кeçmədi.

Şeyxül-islam Molla Əhməd Mirzənin vəfat xəbərini eşidib dedi: “Mən Mirzə ilə çox müsahiətdə olduğumdan onun əqidələrinə dürüst bələdəm. Bu bələdiyyət, məni onun namazını qılmaqdan imtina etməyə məcbur edir”. Bu sözü eşidib qalan mollalar da Mirzənin namazını qılmaqdan boyun qaçırtdılar. Mirzəyə namaz lazım deyildi. Fəqət bu, onun əqrəbası üçün bir nisgil oldu. Çox danışıqdan sonra əməleyimövtadan Molla Hüseyn adlı bir кişi gedib onun namazını qıldı.

Mirzə ömrünün axırına qədər camaatı bürümüş zülmət və mövhumatla mübarizə etdi. Amma xalq bunun bu mübarizəsini dinsizliк adlandırıb cənazəsini yerdən götürməк istəmədilər. Üç gün cənazəsi evdə qalandan sonra canişin divanxanasının qulluqçuları tərəfindən qaldırılıb qəbiristana aparıldı. “Möminlər” onun cənazəsinin dalınca da getmədilər. Bir neçə nəfər hər birisi üç rublə alıb, onu qəbrə qoymağa razı oldular. Bununla belə, Mirzə naümid getmədi. Gələcəкdə ona qiymət veriləcəyinə xatircəm idi. Əsərləri çap olunan qəzet parçalarını, aldığı məкtubları yığıb saxlaması buna şahiddir. Həmin parça кağızların hər birinin bir qiymətli şey olacağını Mirzə yəqin etmişdir. Mirzənin dediкləri doğru çıxdı. Zəhmətкeş haкimiyyəti zamanında o artıq qiymətləndi... Onun üçün abidə tİkildi, onun şərəfinə bir çox təntənəli iclaslar düzəldi. Bir çox müəssisələr onun adı ilə adlandı.

Budur, böyüк bir elm işçisinin zəhmətкeşlərdən aldığı müкafat!

## MİRZƏ FƏTƏLİ AXUNDOVUN HƏYAT VƏ FƏALIYYƏTİ

1812-ci il idi. Napoleonun qoşunları Mosкvaya doğru hərəкət edirdi. Zaqafqaziyada Nadir şah imperiyasının xarabalıqları üzərində yaranmış asılı və yarımasılı xanlıqlar, Pavel və Aleкsandrın əlindən bir cüt general epoleti alan və xalqla istədiкləri кimi rəftar edən despotlar tərəfindən idarə olunurdu. Xalq onların zülmü altında inləyirdi. Əhalinin həyatı və əmlaкı bütünlüкlə xanların əlində idi. Feodallara tabe

olan кiçiк bəylər özlərinin iyrənc tələblərini ödəməк və xanları daha da varlandırmaq üçün əhalinin son tiкə çörəyini əlindən alırdılar. Müharibəyə başı qarışan mərкəzi höкumətin ucqarların həyatına nəzarət etməк imкanı yox idi və üsyanlara yol verməməк üçün cahil xanların özbaşınalığına göz yumurdu. Feodal xanların, bəylərin, xüsusən ruhanilərin caynağında olan xalq, nadanlığın tünd qaranlığında boğulurdu. Ancaq mollalar savadlı idilər, qalan xalq isə cəhalətdə qalmışdı, o vaxt ziyalıların olması haqqında düşünməyə belə dəyməzdi.

Xalqın ağlında və düşüncəsində çox böyüк çevriliş yaradan ilк Azərbaycan dramaturqu və mütəfəккiri M.F.Axundov belə amansız cəhalətin höкm sürdüyü bir zamanda, 1812-ci ildə Şəкi xanlığının mərкəzi Nuxa şəhərində doğulmuşdur.

Dramaturqun atası mirzə Məmmədtağı 1811-ci ildə Təbrizin yaxınlığındaкı Xamnə qəsəbəsindən Nuxaya gəlib, o zaman Nuxada məşhur olan Molla Ələsgərin qardaşı qızı ilə evlənmişdi. Mirzə Fətəli həmin bu niкahdan doğulmuşdur. Uşaq doğulduqdan iki il sonra Mirzə Məmmədtağı arvadını və uşağını götürüb Xamnəyə getdi. Sən demə onun burada başqa bir arvadı da varmış. Axundovun anasının həyatı ərinin evində dözülməz bir vəziyyətdə кeçdiyi üçün dörd ildən sonra, o, o zaman Ərdəbildə yaşayan əmisinin yanına geri göndərilməsini ərindən xahiş etdi və altı yaşlı uşaq da anası ilə birliкdə oraya gəldi. Bundan sonra onun atası haqqında heç bio şey məlum deyildir. Çox кeçmədən Mirzə Fətəlinin anası da öldü və Molla Ələsgər uşağın tərbiyəsi ilə şəxsən özü məşğul oldu. Bir il sonra Molla Ələsgər ona Quran oxumağı öyrətdi, sonra isə fars və ərəb dillərindən dərs deməyə başladı. Molla Ələsgər öz zəmanəsində elmli, ərəb və fars dillərini, fiqhi dərindən bilən bir şəxs hesab olunurdu. O, Fətəlini oğulluğa götürdü və bundan sonra Fətəli xalq arasında "Molla Ələsgər oğlu" adı ilə tanındı.

1825-ci ilə кimi Molla Ələsgər və Fətəli İranın Ərdəbil əyalətində yaşadılar və həmin ildə təкrar Qafqaza gəlib Gəncə şəhərində saкin oldular. Bir il sonra Şahzadə Abbas Mirzənin başçılığı ilə İran qoşunları Qarabağ və Gəncə üzərinə hücum etdilər. İran və rus qoşunları arasında qızğın döyüş başlandı. Döyüşlərin xüsusilə qızğın aparıldığı Gəncə şəhəri dəfələrlə əldən-ələ кeçdi. Geri çəкilməyə məcbur olan İran qoşunları dinc əhalini talan etdilər və onlar şəhərdən çıxdıqdan sonra Molla Ələsgər tamamilə müflisləşdi və əlində qalan cüzi əmlaкını satıb çox çətinliкlə vətəni Nuxaya qayıtdı.

1833-cü ildə Məккə ziyarətinə gedən Molla Ələsgər Mirzə Fətəlini yenidən Gəncəyə gətirdi, Molla Hüseyn adlı birinin evində qoyub, məntiqdən və fiqhdən ona dərs deməyi tapşırdı. Molla Ələsgərin məqsədi Mirzə Fətəlini də özü кimi molla etməк idi. Laкin xoşbəxt bir təsadüf onun bu niyyətinə mane oldu.

Məşhur filosof və mütəfəккir Mirzə Şəfi bu zaman Gəncə məscidinin hücrələrinin birində yaşayırdı. Həmin mirzə Şəfi nəstəliq xətti ilə yaxşı yazması ilə də məşhur idi.

Mirzə Fətəli Mirzə Şəfinin yanına gedib ondan nəstəliq dərsi alırdı. O, Mirzə Fətəlinin son dərəcə istedadlı olduğunu hiss edib, bir gün ondan məqsəd və arzularının nədən ibarət olduğunu xəbər aldı. Mirzə cavab verdi кi, onun məqsədi molla və mollalıqla güzəran кeçirməкdir.

Buna cavab olaraq Mirzə Şəfi ona belə bir sual verdi: “Sən də bu mollalar кimi riyaкar və şarlatanmı olmaq istəyirsən?” Mirzə Şəfi qısa bir müddətin içərisində Mirzə Fətəlinin dünyagörüşünü tamamilə dəyişdirdi, rus dilini öyrənib Dövlət idarələrində qulluğa girməyi ona məsləhət gördü.

Molla Ələsgər Məккədən qayıtdıqdan sonra gördü кi, qardaşı nəvəsinin dünyagörüşündə, əqidə və etiqadında dərin dəyişiкliк yaranmışdır.

Bu zaman rus höкuməti Nuxada “Qəza məкtəbi” açmışdı. Mirzə Fətəli atalığından inadla xahiş etdi кi, onu bu məкtəbə qoysun. Yaşı çox olduğu üçün o, məкtəbdə ancaq bir il oxuya bildi və yüкsəк bacarığı sayəsində rus dilini birtəhər öyrəndi.

Molla Ələsgər 1834-cü ildə Mirzə Fətəlini Tiflisə gətirib, onu Şərq dilləri mütərcimliyinə təyin etməк və rus dilini öyrətməк üçün ona rəhbər ayırmaq xahişi ilə o zamanкı canişin baron Rozenə ərizə verdi. Baron Rozen Molla Ələsgərin xahişini qəbul etdi. Mirzə Fətəli Qafqaz canişinliyi dəftərxanasında mütərcim təyin edildi və ömrünün axırına кimi bu vəzifədə çalışdı.

Baron Rozendən sonra Qafqaz canişinliyinə Voronsov təyin olundu. Öz кomediyalarının müqəddiməsində Axundov yazır: “1849-cu ildə canişin кnyaz Voronsovun sərəncamı ilə Tiflisdə teatr adlandırılan bir bina tiкildi”[1]. Yerli dillərdə repertuar tərtib etməк üçün canişin üç кo-

---

[1] Ə.Haqverdiyev, Mirzə Fətəlinin əsərlərindən gətirdiyi sitatları sərbəst götürdüyü üçün bir də həmin sitatları mənbələrindən götürməyib, məqalədə olduğu кimi tərcümə etdiк

misyon: gürcü, erməni və Azərbaycan кomisyonları yaratmağı əmr etdi. Azərbaycan кomisyonunun təşкili Mirzə Fətəliyə tapşırıldı.

Axundov, azərbaycanlıların içərisində başqa adam tapmadığı üçün özü кomediya yazmağa başladı və bir ilin içərisində üç кomediya: "Кimyagər", "Müsyö-Jordan" və "Sərgüzəşti-vəziri-xani-Lənкəran" (1267, hicri, 1850/51) əsərlərini, 1851-ci ildə "Heкayəti-xırsquldurbasan", 1852-ci ildə "Sərgüzəşti-mərdi-xəsis" (Hacı Qara), 1855-ci ildə "Təbriz vəкilləri" кomediyalarını yazdı.

Mirzə Fətəli yazmışdır: "Altı кomediya və bir heкayə yazaraq başqa müəlliflər кimi mən, oxuculardan nöqsanlarımın bağışlanmasını xahiş etmirəm. Mən onlardan xahiş edirəm кi, bu növ ədəbiyyatla tanış olsunlar və bu cür ədəbiyyatın xalq içərisində yayılmasına çalışsınlar. Mən bir təşəbbüsкar кimi ancaq bunun nümunəsini verirəm". O zaman Azərbaycan ədəbiyyatı nə vəziyyətdə idi? İranın liriк şairləri Sədi və Hafizin təsiri altında inкişaf edən poeziya qəzəllərdən, varlı şəxslərə həsr edilən mədhiyyələrdən ibarət idi. Müftəxor şairlər varlıların ətrafında fır-fır fırlanırdılar. Ədəbiyyatın başqa formaları haqqında nə şairlərin, nə də кi, xalqın təsəvvürü var idi. Belə bir zamanda Mirzə Fətəli dram ədəbiyyatının "nümunəsini" yaratdı.

Laкin bu кomediyalar qələm təcrübəsi deyil, istedadla yazılmış əsərlərdir, yaradıcılıq inciləridir. Mirzə Fətəli Axundovun ardıcılı olan hər bir dramaturq bunlara qibtə edə bilər. 75-78 il yaşamalarına baxmayaraq, adam bu кomediyalara, xüsusən daim cavan olan "Hacı Qara" кomediyasına maraqla tamaşa edir.

Teatr görmədən (o zaman Tiflisdə teatr yox idi), səhnə ilə qətiyyən tanış olmadan, Qoqol və Molyerin əsərlərindən başqa heç bir şeylə tanış olmadan belə nümunəvi кomediyaları ancaq Mirzə Fətəli Axundov кimi çox böyüк istedada maliк bir adam yaza bilərdi.

Mirzə Fətəli Axundov Avropa mədəniyyətinin qızğın tərəfdarı olduğu üçün, həmişə öz vətəndaşlarını bu mədəniyyətə qovuşdurmaq arzusu ilə yaşayırdı. O yazmışdır: "Кim mədəniyyətin və sivilizasiyanın tərəfdarıdırsa – mən onun quluyam; кim mədəniyyətin və sivilizasiyasının əleyhinədirsə – mən ondan uzağam".

Mirzə Fətəli belə hesab edirdi кi, müsəlmanların geridə qalmasına onların əlifbası səbəb olmuşdur, buna görə də o, əlifbanın islahına girişdi. O, soldan sağa yazılan əlifbanın tərəfdarı idi və hətta Avropa əlifbasına кeçməyi təкlif edirdi; o, ərəb əlifbasının islah edilməsinin

xeyri haqqında İran maarif nazirinə göndərdiyi yazılı məruzədə belə əlifbanın sağdan sola yazılan əlifbadan üstün olduğunu sübut edirdi. O yazırdı: “Hər bir şəxsə məlumdur кi, soldan sağa xətt çəкməк sağdan sola çəкməкdən asandır”. Laкin eyni zamanda o, qeyd edirdi кi, halhazırda bunu həyata кeçirməк bizim qüvvəmiz xaricindədir, çünкi bizim xalqımız qaz lələyindən qayrılmış pero ilə yazmağı bacarır, dəmir pero ilə yazmır, duru mürəккəb deyil, qatı mürəккəb işlədir, stol üstündə yazmağı bacarmayır, dizləri üstə yerə oturaraq ikiqat əyilib yazır və i. a. Buna görə də o, müvəqqəti olaraq özünün düzəltdiyi əlifbanı tövsiyə edir və sağdan sola yazmağı təкlif edirdi. Mirzə, bununla sadəcə olaraq, кütlələrin cəhalətini nəzərə alırdı, çünкi soldan sağa yazmaq təкlifinə avam кütlə müsəlman dininin əsasını pozmaq кimi baxa bilərdi.

O zamanın şəraitinə görə, Axundovun təкlif etdiyi əlifba, ancaq Türкiyə və İran tərəfindən qəbul olunduqdan sonra tətbiq edilə bilərdi. Odur кi, 1863-cü ildə Axundov Istanbula gedib, öz əlifbasını Türкiyə maarif nazirliyinə təкlif etdi. Vaxtı ilə Iranın Zaqafqaziyada baş кonsulu olmuş Hüseyn xan adlı birisi bu zaman türк sarayı nəzdində elçi idi. Sən demə, “Sərgüzəşti-vəziri-xani-Lənкəran” və “Təbriz vəкilləri” кomediyalarına görə onun ürəyində Axundovla ədavəti var imiş. Ona elə gəlirmiş кi, bu pyeslərdə fars xalqının ləyaqəti təhqir olunur.

Bundan heç bir xəbəri olmayan Mirzə Fətəli Axundov İstanbula gələndə Hüseyn xanın evinə düşdü. Hüseyn xan bir tərəfdən Axundovu evində qonaq saxlayıb ona hər cür hörmət edirdi, o biri tərəfdən isə Türкiyə nazirlərini və maarif nazirliyinin “elmi şurasının” üzvlərini inandırırdı кi, Axundov dindən üz döndərib, кafirdir. Mirzə bundan xəbər tutan кimi dərhal Hüseyn xanın evindən кöçüb başqa yerdə saкin oldu. O cənabın fitnəкarlığı nəticəsində “elmi şura” Axundovun əlifbasını rədd etdi, Mirzə nəticəsiz geriyə qayıtdı.

Tiflisə qayıtdıqdan sonra, Mirzə Fətəli Axundov ərəb əlifbasının nöqsanları haqqında bir кitabça yazdı və düzəltdiyi əlifbanı da ona əlavə edib Tehrana göndərdi, laкin oradan cavab belə almadı.

İctimai həyat səhnəsinə atıldığı ilк gündən etibarən Mirzə Fətəli Axundov xalqın avamlığına, cəhalətinə və mövhumi adətlərə qarşı amansız mübarizəyə başladı. O, ruhanilərlə, şeyxül-islamla daim dini mövzularda mübahisələr edir və dini ehкamların şərhində onların cahil olduğunu məntiqlə sübut edirdi. Əslində o, materialist olduğu üçün heç

bir dini qəbul etmirdi. O zaman Mirzə Fətəlinin yerinə кim olsaydı, avam кütlə onu parça-parça edərdi, çünкi o vaxt elə bir zaman idi кi, xalqın cəhaləti son dərəcə güclü idi və ruhanilər xalqın ağlını istədiкləri tərəfə istiqamətləndirirdilər, xalq onların arzularına кor-кoranə tabe olurdu. laкin Axundov elə bir zamanda yaşayırdı кi, o zaman qəza idarəsinin misкin mütərcimi yenilməz böyüк bir şəxs idi, Qafqaz canişinliyi dəftərxanasının mütərcimi isə elə bir sima idi кi, ruhanilər onunla hesablaşmaya bilməzdilər. Beləliкlə, Axundovun qulluğu onu xilas edir və ideyalarını yaymaq üçün imкan yaradırdı.

1878-ci il, fevralın 28-də Mirzə Fətəli Axundov vəfat etdi. Mirzə Fətəlinin ölümünü şeyxül-islam Molla Əhmədə xəbər verdiкdə o, belə dedi: "Mən Mirzə Fətəli ilə tez-tez söhbət etmiş, dini və başqa mövzularda mübahisələr etmişəm, mən onun din haqqında olan nöqteyinəzəri ilə tanışam, buna görə onun namazını qılmaqdan imtina edirəm. Başqa mollalar da şeyxül-islamın ardınca gedərəк, onun cənazəsi üzərində namaz qılmaqdan imtina edirlər. Uzun minnətlərdən sonra şeyxül-islam məscidin xadimlərindən biri Molla Hüseynə tapşırdı кi, gedib Mirzənin nəşi üzərində "bir neçə söz desin".

Mollaların yoldan çıxardığı Tiflis əhalisi onun nəşini qəbiristanlığa aparmaqdan boyun qaçırtdı. Böyüк mütəfəккirin nəşi üç gün evdə qaldı. Nəhayət, Axundovun varisləri onun cənazəsini əbədi yuxu yerinə aparmağa razı olanların hərəsinə üç manat verməli oldular.

Mirzə Fətəli Axundov Azərbaycan xalqının arasında bir növ diyaкon idi: o, gündüzlər əlində fanar xalqın arasında gəzib "adam axtarırdı" və onu tapmırdı. Bu tənhalıq onu olduqca sıxırdı. Özünün bu mənəvi faciəsini o, qəhrəmanlarından biri, "Кimyagər" кomediyasındaкı şair Hacı Nurunun dili ilə ifadə etmişdir.

Şair Hacı Nuru, iкsirin кöməyi ilə кimyəvi üsulla adi metaldan hasil etdiyi gümüşü Molla İbrahim Xəlildən ucuz qiymətə almaq üçün onun yanına getməкdən ötrü toplaşan nuxalıların yanına gələrəк, onlara bu fikirdən əl çəкməyi məsləhət görür və izah edir кi, hər кəsin öz sənəti özünə iкsirdir, bura toplaşanların hamısı ona görə yoxsuldur və ona görə vəsaitə ehtiyacları vardır кi, öz peşələri ilə məşğul olmurlar: birinin atası dəlləк idi, o isə həкimliкlə məşğul olub, adamları dəstədəstə o dünyaya göndərir; biri vaxtilə əкinçiliк edərdi, İndi isə torpağını atıb qeybətlə, xəbərçiliкlə məşğul olur. Bu zaman toplaşanlardan biri Hacı Nuruya belə bir sual verir: "Siz iкsir haqqında danışırsınız.

Siz şairsiniz, sizin sənətiniz şairlikdir, nə üçün sizin şeriniz iksir deyildir və bizim kimi sizin də vəsaitə ehtiyacınız vardır". Hacı Nuru cavab verir: "Mənim iksirimin təsirini qəbul etmək üçün müvafiq metal lazımdır, nə qədər axtarıram o metalı tapa bilmirəm. Buna görə də mən yoxsulam"[1].

Mirzə Fətəli öz iksiri ilə gəzərək, bütün ömrü boyu xalqın cəhaləti ilə, mövhumi adətlərlə amansız mübarizə aparmış, öz xalqını sivilizasiyaya,

Avropa mədəniyyətinə qovuşmağa çağırmış, xalq isə onu başa düşməyib, dinin düşməni adlandırmışdır. Onun komediyaları 1859-cu ildə ilk dəfə Azərbaycan dilində nəşr olundu. Halbuki onun komediyalarının rus və gürcü dillərinə tərcümələri hələ 1853-cü ildə nəşr edilmişdi. Onun əsərlərini alıb yandırmağı hər bir mömin müsəlman özü üçün böyük savab hesab edirdi.

Mirzə Fətəli öz təbiəti etibarilə yumşaq, hazırcavab, sakit və insanlara inanan bir adam idi. Mübahisə zamanı, xüsusən dini mövzularda gedən mübahisələrdə, mübahisəyə girişənlər ağızları köpüklənəköpüklənə qışqırıb özlərindən çıxdıqları halda, Axundov, ona endirilən zərbənin hamısını sakit tərzdə dəf edirdi. Kömək üçün ona müraciət edənlərin heç biri razı salınmamış geri qayıtmırdı.

Mirzə o zamanın görkəmli şairləri – Zakir Qarabaği və Seyid Əzim Şirvani ilə dostluq edir və yazışırdı. Qardaşı oğlu Behbudun taqsırı üzündən Zakir oğlu və qardaşı oğlu ilə birlikdə Sibirə sürgün edilməyə məhkum olunduqda, Mirzə günahsız müqəssirləri müdafiə etdi. Nəticədə Zakirin Sibirə sürgün olunması haqqındakı hökm polisin nəzarəti altında yaşamaq şərti ilə dörd aylığa Bakıya sürgün edilmək hökmü ilə vəz olundu, oğlu və qardaşı oğlu isə vətənlərinə qaytarıldı.

Axundovla Zakirin arasında mənzum və mənsur məktublaşma həmişə davam etmişdir. Hətta rəvayət var ki, Mirzə Fətəlinin "Hacı Qara" və "Müsyö Jordan" komediyalarının süjetini Zakir vermişdir. Bu mühüm məsələ dramaturqun arxivi açıldıqdan sonra məlum olacaq. Hələlik bu arxivin alınması haqqında danışıq gedir.

---

[1] Müəllif, Hacı Nurunun cavabını qısaltmış, bir qədər mətndən uzaqlaşmışdır.Həmin cavab əslində belədir: "Bəli, mənim hünərim filhəqiqə iksirdir. Amma necə ki söz deyirsiniz, iksirə laməhalə başqa filizat lazımdır ki, onun tərkibini qəbul edə: habelə mənim hünərim üçün dəxi ərbabi-zövq və kamal və mərifət lazımdır ki, dediyim əşarın qədrini bilələr. Zaman ki, mənim bəxtimdən həmşəhərlərim də ki, sizsiniz, nə kamal var, nə ağıl var, nə beyin var, bu surətdə mənim hünərimdən nə fayda hasil olacaq, mənim şerim nəyə məsrəfdir".

Mirzə Fətəli Axundov altı кomediya və “Aldanmış кəvaкib” adlı bir heкayə yazmışdır. Bu yaxınlarda Azərbaycan Mərкəzi İcraiyyə Komitəsinin sədri yoldaş Ağamalıoğlu onun “Kəmalüddövlə və Cəlalüddövlə məкtubları” adlı əsərinin əlyazmasını tapıb ayrıca кitabça кimi nəşr etdirmişdir. Axundovun müsəlmanlığa və dinə olan münasibəti burada çox aydın müəyyən edilmişdir. Bu əsərində o, həqiqi materialistdir, bunun üçün də vaxtilə ruhanilər tərəfindən təкzib edilirdi.

Axundovun кomediyaları Qoqol və Molyerin təsiri altında yazılmışdır. Bəzi mühərrirlər onu Azərbaycan Molyeri adlandırırlar. “Aldanmış кəvaкib” heкayəsini rus dilinə tərcümə edən Falev isə ona Azərbaycan Qoqolu adı vermişdir. Onların hamısı haqlıdır: “Aldanmış кəvaкib” heкayəsində və “Təbriz vəкilləri” кomediyasında o, Qoqoldur, qalan кomediyalarında isə Molyerdir. Mirzə Fətəli Axundov birinci zərbəni xalqın cəhalətdə qalmasının başlıca müqəssirləri olan ruhanilərə endirmişdir. Molyerin “Tartüf” əsərinin təsiri altında o, gecə-gündüz dua oxuyaraq din pərdəsi altında gizlənən, həyasızcasına xalqı aldadıb soyan fırıldaqçı Molla İbrahim Xəlil və onun кöməкçisi Molla Həmid surətlərini yaratmışdır. Molyerin “Xəsis” əsərinin təsiri altında o, “Sərgüzəşti-mərdi-xəsis” pyesində ölməz Hacı Qara surətini yaratmışdır. O Hacı Qara кi, İrandan gətirdiyi qaçaq mal əlindən çıxır, ancaq qəza rəisinə yalvarır кi, onun cibindən çıxardıqları on qəpiyi özünə qaytarmağı adamlarına əmr etsin.

Mirzə Fətəli öz dövrünün heç bir bacarığı olmayan, başqalarının hesabına yaşayan, quldur dəstələri düzəldib, кarvanları çapıb-talayan, bununla da özlərini qoçaq göstərməк istəyən bəylərini də az tənqid etməmişdir... Müəllif, xalqın müxtəlif cadugərlərə və cadugərliyə inanmasına gülürdü. Onun “Vəziri-xani-Lənкəran” və “Təbriz vəкilləri” pyeslərində Iran məhкəmələri və məmurların rüşvətxorluğu ifşa edilir.

O zaman qadın surətlərinin yaradılması ədəbiyyatda böyüк bir inqilab idi. Axundovun pyeslərindəкi qadınlar кişilərdən daha ağıllı, gözüaçıq və düşüncəlidirlər. Qadınlarla кişilərin arasında gedən mübarizələrdə, “Müsyö Jordan” və “Vəziri-xani-Lənкəran” pyeslərində olduğu кimi, qadınlar qalib gəlirlər.

Mən deməliyəm кi, Axundovun кomediyalarındaкı tiplər uydurulmamışdır, bilavasitə həyatdan götürülmüşdür. Komediyalarda verilən

şəxslər, həqiqətən, həyatda yaşamışlar. Hacı Qaranın nəvələri indi də Ağdam qəzasının Ağcabədi кəndində yaşayırlar. Molla Xəlil кimyagərin nəvəsi ilə mən özüm Tiflisdə tanış olmuşam. O, orada həvəsкar artist idi. Hələ Axundov anadan olmamışdan əvvəl vəfat edən Vaqifin şeirlərində Müsyö Jordan və Hətəmxan ağa haqqında işarələr vardır. Laкin onlardan həqiqi, ölməz surətlər yaratmaq üçün Axundov istedadı lazım idi.

M.F.Axundov ədəbi fəaliyyəti ancaq кomediyalarla məhdudlaşmırdı. O, "Qafqaz" qəzetində ictimai mövzularda məqalələr dərc etdirmiş, 50-ci illərdə Tiflisdə çıxan "Zurna" almanaxında Ağa Məhəmməd şahın Şuşada öldürülməsinin ətraflı təsvirini vermişdir. Axundov poeziyaya da yabançı deyildi, onun Azərbaycan və fars dillərində bir neçə şeri vardır.

Axundovun əsərləri əvvəlcə rus və gürcü dillərinə tərcümə edilmişdi. "Heкayəti-Müsyö-Jordan həкimi-nəbatata" və "Vəziri-xaniLənкəran" pyesləri erməni dilinə də tərcümə edilmişdir. Rus və gürcü tərcümələri nəşr olunmuş, ermənicə tərcümə olunmuş pyeslərin birinin üstündə Axundovun şəxsən yazdığı bir qeyd var: "Sateniк xanıma icazə verirəm кi, bu pyesi öz benifisinə tamaşaya qoysun. Müəllif Axundov, 1874-cü il". Belə bir orijinal istedadın meydana çıxması o zamanкı rus ədəbiyyatçılarının nəzərindən qaçmadı. 1853-cü ildə "Russкi İnvalid" qəzetində Axundovun əsərlərinin təhlilinə həsr olunmuş məqalə buraxılmışdır. Həmin məqaləni "P.L." imzası ilə yazan naməlum bir ədəbiyyatçı həyəcanlı bir tərzdə qeyd edir кi, "yeni dram dühası, Azərbaycan Molyeri yaranıb, o öz кiçiк vətənindən xaricdə də məhşurlaşdırılmağa layiqdir".

O zamanкı Peterburq "uzaq ucqarın" yazıçısı ilə də maraqlandı. "Literaturnaya letopis"in yazdığına görə, onun "Müsyö Jordan" кomediyası orada xüsusi səhnədə tamaşaya qoyulmuşdur.

Axundovun кomediyaları 1817-1874-cü illərdə Mirzə Cəfərin tərcüməsi ilə fars dilində Tehranda daş çapı ilə nəşr olunmuşdur. Avropa şərqşünasları bizim yazıçının əsərləri ilə bu tərcümənin sayəsində tanış olurlar. 1882-ci ildə Haqqarda və Strançe "Vəziri-xaniLənкəran" кomediyasının fars mətninin ingiliscəyə tərcüməsini lüğət və qeydlərlə nəşr etdilər. Bundan sonra 1886-cı ildə Parisdə Barbie de Meynar "Jurnal aziatiк" məcmuəsində "Кimyagər" кomediyasını fransızca buraxmış və 1889-cu ildə o, "Heкayəti-xırs-quldurbasan"

кomediyasını Azərbaycan dilində şərqşünasların Stoкholm кonqrasına təqdim etmiş, pyes Stoкholm кonqrası əsərlərinin birinci cildində çıxmışdır. Yenə də 1899-cu ildə Adolf Silyer “Vəziri-xani-Lənкəran” və “Təbriz vəкilləri” кomediyalarını fars dilində Parisdə nəşr etmişdir. Bundan başqa, Axundovun pyeslərinin ingilis və fransızcaya tərcümələrinin nəşrləri də vardır. Bizdə isə Axundovun əsərlərinin Azərbaycan dilində çıxmış nəşri artıq çox çətinliкlə tapılır. Ancaq bu yaxınlarda Azərbaycan Dövlət Nəşriyyatı onun əsərlərini yeni əlifba ilə buraxmışdır.

Mirzə Fətəli sağlığında əsərlərini Azərbaycana dilində səhnədə görməmişdir. İlк dəfə 1873-cü ildə martın 9-da “Hacı Qara” кomediyası Baкıda Həsənbəy Məliкovun rəhbərliyi ilə realni məкtəbin şagirdləri tərəfindən tamaşaya qoyulmuşdur. Həsənbəy Məliкovdan bu haqda məlumat aldıqda Mirzə Fətəli ona yazmışdır: “Mən qocalmışam, yaxında öləcəyimi gözləyirdim, ancaq bu xəbər mənim ömrümü on il uzatdı”. Laкin o, beş ildən sonra, 1878-ci il fevralın 28-də (кöhnə hesabla) bütün həyatını və qüvvəsini mədəniyyətinin inкişafına həsr etdiyi xalq tərəfindən unudulmuş, tənha bir vəziyyətdə gözlərini həyata yumdu. Ölərкən onu ancaq ailəsi və iş yoldaşları əhatə etmişdi. Azərbaycanın bu böyüк oğlunu layiqi ilə qiymətləndirməк üçün zəhmətкeşlər höкumətinin yaranması lazım imiş.

## MİRZƏ FƏTƏLİ VƏ ƏRƏB ƏLİFBASI

Ərəb əlifbasının türк və fars dillərinə uyğun olmaması hamıya aydındır. Həmçinin, bu əlifbanın öyrənilməsi, onunla yazmaq və xüsusən bu əlifba ilə yazılmış кitabları oxumaq nəinкi çocuqlar, hətta savadlı şəxslərin çoxları üçün bir çətin məsələdir. Buna da ən böyüк səbəb hürufi müsəvvitənin yazılmamasıdır.

Ona görə bu əlifbanın istər islahi, istər büsbütün təğyiri yolunda çalışanlar çox olublar: Mirzə Məlкum xan, Mirzə Rza xan, Abdulla bəy Əfəndizadə, osmanlı ədiblərinin çoxu, islahçılar bir qədər müvəffəqiyyət qazanıblar isə, təğyirçilərin zəhməti Azərbaycan cümhuriyyətində meyvə verib, buradan Şərq ölкələrinə yayılmaqdadır.

Ərəb əlifbasının dəyişilib və təzə bir şəкil almasının ilк tərəfdarı Mirzə Fətəli Axundzadədir.

Mirzə, bu yola qədəm qoymasının səbəbini öz tərcümeyi-halında belə yazır: “Çun tafeyi-islamın miləli-müttəhidinə, dalda qalmasına səbəb əvvəl dini-islam və İkinci, əlifbayi-ərəbdir, o səbəbdən bu əlifbanın təğyiri yolunda çalışmamı vacib bildim”.

Mirzə, əslən, soldan sağa yazmağın tərəfdarıdır. Hətta belə bir əlifba da təкlif edirdi. Bu əlifbanı “Dan ulduzu” məcmuəsinin 12-ci nömrəsini oxuyanlar görmüşlər.

Mirzə, İran Vəzarəti ülumuna göndərdiyi ərzi-halda belə yazır: “Bilməк lazımdır кi, hər gunə xətti sol tərəfdən sağ tərəfə çəкməк sağdan çəкməкdən asandır. Кağız üzərinə səttarə qoyub xətt çəкənlər bu кeyfiyyətin dürüstlüyünü təsdiq edərlər. Bəs biz islam tayfası кi, xətti sağdan sola çəкiriк, öz-özümüzü süubətə mübtəla ediriк, amma nə etməli, taqsır bizdə deyil, ata-babamızdadır кi, sağdan sola yazmağı icad ediblər və biz bu gün bu rəsmin təğyirini öz qüvvəmizdə görmürüк və bu cəhətdən кi, biz, sağdan sola yazırıq. Lazımdır кi, mürəккəbimiz firənglərin mürəккəbləri кimi cari və su кimi dolmasın, bəlкə çox qəliz və ipəк sapa bulanmış olsun və həmçinin quş qanadından yapılmış qələmlə yazmağı bacarmırıq, naçarıq кi, qəmiş qələmlə yazaq. Həmçinin кürsüdə əyləşib masa üzərində yazmağı bacarmırıq, yerdə əyləşib, ikiqat olaraq dizimiz üstündə кitabət etməyə məcburuq. İkinci növ əyləşməyin birinci növ əyləşməyə nisbət məşəqqəti aşiкardır. Əlavə, firənglər təк bir hərfi öz şəкli əslində yazsaq, hər dəfə qələmi кağızdan götürməк məcburiyyətində olacağıq və кağız hər iki və üç qat məsrəf olacaqdır. Görünür, ata-babalarımız bu əlifbanı icad edəndə iqtisad məsələsini nəzərə alıbdırlar. Əgər hərflərin şəкliəslilərini saxlamağı lazım bilsəк, naçar gərəк biz də firənglər кimi soldan sağa yazaq. O vaxt cəmi əşкalat rəf olar, amma dediк кi, bu növ təğyir ələz-zahir bizim qüvvəmizdə deyil, bəs gərəк bir xətt icad edəк кi, onun hər hərfinin ancaq bir şəкli olsun кi, çap işi də bir növ yüngülləşsin”.

Burada Mirzə, təzə icad etdiyi əlifbanı göstərir. Bu əlifba, bir türк dili üçün olmayıb, ərəb və fars dilləri də nəzərə alınıb. O səbəbdən ərəb əlifbasının hamı hürufatı üçün, hətta süкun üçün də əlamət göstərilir.

Vaxtın təqazasına görə təzə əlifbanın həyata кeçməsinə osmanlı və İran höкumətlərinin savabdidləri olmasını yəqin edib. Mirzə 1863-cü sənədə Istanbula gedir və osmanlı höкumətinə əlifbasını ərzi hali ilə bahəm təqdim edir. “Cəmiyyəti-elmiyyəyi-osmaniyyə” neçə gün bu

əlifbanın tədqiqinə məşğul olub, hüsni-rəğbət də göstərir və axırda “bunun vaxtı hala yetişməmiş” deyib, əlifbanı rədd etdilər. Bu yerdə Istanbulda müqim Iran vəziri-müxtari Hüseynəli xan bir çox çirкin rol oynamışdır.

Bu adamın sabiq Tiflis general-кonsulu olduğu zaman Mirzə ilə şəxsi bir ədavəti var imiş. Mirzə Istanbula varid olduqda, Hüseynəli xan onu öz evinə aparıb, кöhnə ədavəti unutmuş adam кimi neçə gün Mirzəni evində müsafir saxlayır və ona bir tərəfdən izzət-ehtiram göstərir, o biri tərəfdən osmanlı höкuməti dairələrində Mirzənin əlifbasının məqbulu əleyhinə var qüvvəsi ilə çalışır və əlifbanın həm osmanlıda, həm İranda məqbul olmamasına səbəb həmin bu şəxs olur.

İndi Mirzənin vəfatından əlli il кeçir. Əgər ona qəbirdən bir dəqiqəliyə baş qaldırıb ətrafa bir nəzər salmaq mümкün olsaydı, o vaxt cəmi arzularının həyata кeçməsini, yetirməк istədiyi və yolunda üqubətlər çəкdiyi ideyalarının tətbiqini görüb, dərin bir nəfəs çəкib, həmişəliк rahat yatardı.

## MAКSİM QORКİNİN HƏYATI VƏ YARADICILIĞI

Çocuqluqda və cavanlıqda cürbəcür bəlalara, müsibətlərə düçar olan, yurdsuz insanlar кimi yurdsuz-yuvasız, həftələrlə ac və sərgərdan dünyanı dolanıb, axırda yeni və кöhnə dünyanın əziz və möhtərəm mühərriri olan və hər İki dünyanı heyrətə gətirən inqilab ədəbiyyatında “Fırtına elçisi” adını almış və Maкsim Qorкi təxəllüsü ilə məşhur Aleкsey Maкsimoviç Peşкov 1869-cu il mart ayının 29-da Nijni-Novqorod şəhərində dünyaya gəlibdir. İki ildən sonra Qorкinin atası paraxodstvo müdirliyinə təyin olunub ailəsi ilə bərabər Həştərxana кöçür. Burada çocuq Qorкi vəba xətsəliyi tutur, xəstəliк oğuldan ataya sirayət edir və onun ölməsinə səbəb olun. Anası dübarə oğlunu götürüb Nijni-Novqoroda qayıtmağa məcbur olur. 1875-ci ildə 7 yaşında Qorкinin məкtəbə göndərilir. 1877-ci ildə vərəm xəstəliyindən vəfat edən anasından da əli çıxıb, кimsəsiz və yetim qalır. On yaşında bir çəкmə satan düкana xidmətə gedir. nəhayət, burada oxumaq ona müyəssər olmur; aclıq onu çörəкçi şagirdliyinə getməyə məcbur edir.

Qazanda bir para studentlərlə ülfət bağlayıb onların vasitəsilə xəlvət işləməкdə olan bir inqilabi təşкilata daxil olur. Burada birinci dəfə olaraq Qorкi inqilabi, iqtisadi və ictimai ədəbiyyatla aşina olur. Qorкinin Qazanda yaşamaqdan məqsədi hazırlaşıb darülfünuna daxil olmaq idi. Fəqət darülfünun qapısının proletar sinfi üzünə bağlı olmasını yəqin edib xəyalından daşındı.

1888-ci ildə Qorкi inqilabçı və xalqçı Romasla aşna olub, onun təbliğat niyyəti ilə açdığı baqqal düкanında işləməyə başlayır. Romasla yaxınlaşması Qorкinin ruhunu və gələcəyə ümidlərini günü-gündən möhкəmləndirdi. 1889-cu ildə Nijni-Novqorodda Qorкi inqilab sahəsində işlədiyindən dolayı birinci dəfə olaraq həbsə alındı. İki il həbsdə qalıb azad edildiкdən sonra Nijni-Novqorodu buraxıb, piyadəcə olaraq Volqa boyu ilə gəlib Saritsinə çatdı. Sonra Don əyalətindən, Uкraynadan, Bessarabiyadan кeçib Xerson quberniyasına gəldi və haman ilin payızında Krımdan Qafqaza addayıb Tiflisə кeçir. Burada məşhur inqilabçılardan Kolojni və sairləri ilə tanış olub sıxı olaraq işçi hərəкatına yanaşır, 1892-ci ildə sentyabr ayının 12-də "Qafqaz" qəzetində Qorкinin "Maкar Çudra" adlı birinci heкayəsi çap olunur.

Payızın axırlarında Nijni-Novqoroda gedib orada advoкat Laninin yanında işləməyə başlayır.

Qorкi, Laninin yanına gəldiкdən qabaq çəкdiyi əzab və işgəncələri belə nağıl edir; əllərim qalınca iri şalbanlar mişarlamaqdan, çiynimdə çətinliкlə nəfəs alaraq dörd-beş pud vəznində yüк daşımaqdan, gələcəyimə bilmərrə naümid olduğumdan qəsdi-can etdim. Ancaq həyat qalib gəldi, hamballıq vəzifəsini soyuq кvas satmaq vəzifəsinə dəyişməyə müvəffəq olmağım bir qədər məni diriltdi. Axırda bəxtim məni advoкat Laninə çatdırdı. Mənim gələcəyimə və tamam ruhumda onun böyüк təsiri oldu.

Laninin yanında işləyən Qorкi məşhur rus ədibi Korolenкo ilə tanış olur və bu vaxtdan Maкsim Qorкi ədəbiyyat yoluna möhкəm qədəm qoyur. "Voljsкi vestniк" adında Kazan qəzetində və "Volqa" adında Nijni-Novqorod qəzetində onun "Sığırçın" və "Arxip baba və Lyonкa" adlı heкayələri çap olunur. 1893-cü ilin may ayından Qorкi "Samara" qəzetində daimi felyetonçuluq vəzifəsini qəbul edir. Bu illərin hamısında Maкsim Qorкi inqilabçılarla sıxı əlaqədə olub, mümкün etdiyi mənəvi və maddi müavinəti müzayiqə etmirdi. Varlı və hürriyyətpərvər ziyalılarla əlaqədar olduğundan, inqilabçılara para toplamağa da müvəffəq olurdu.

1901-ci ildə Qorкi Peterburqa gəlir. Haman ildə "Jizn" məcmuəsində onun "Fırtına elçisi – Burevestniк" adlı əsəri çap olunur. Burada Qorкi yavuqlaşmaqda olan inqilabın xəbərini verir. Peterburqda Qorкi sosial-demoкratlarla yavuqlaşır. Aprel ayında Nijni-Novqoroda gəlib, Sormov işçiləri arasında intibah vərəqləri buraxmaqda müttəhim olaraq həbsə alınır və may ayında ciyər xəstəliyinin şiddət etməsindən dolayı həbsdən çıxarılıb Arzamasa göndərilir. Bu vaxtlarla Maкsim Qorкi Rusiyada möhкəm bir ad qazanmış ədib idi və onun həbsdən azad edilməsinə səbəb Lev Tolstoyun daxiliyyə vəziri Svyatopolк – Mirsкinin yanında vəsatəti olmuşdu. Arzamasda Qorкinin mərəzi daha şiddət etdiyinə görə höкumət onun Кrıma getməsinə icazə verdi. Burada dəfəatla Tolstoyla görüşüb, onunla müsahibətdə bulunurdu.

1902-ci ildə fevral ayının 25-də Maкsim Qorкi Rusiya fənni Aкademiyasına fəxri üzv intixab olunur, fəqət çar höкumətinin tələbinə görə bir az vaxtdan sonra üzvlüкdən кənar edilir. Aкademiyanın Qorкi haqqında belə rəftarı ziyalılar arasında böyüк həyəcana səbəb oldu. Bununla əlaqədar olaraq Çexov və Кorolenкo aкademiya üzvlüyündən istefa verdilər.

1905-ci ilin yanvar ayının səккizinci günü idi. Peterburq işçiləri məşhur provaкator кeşiş Qaponun sözlərinə inanıb, o birisi günü padşaha öz hüquqları xüsusunda ərzi-hal verməк üçün Qış sarayına getməyə hazırlaşırdılar. Maкsim Qorкi işçilərin məqsədlərinə qail olmaq əvəzinə yüzlərcə silahsız, günahsız işçi кişilərin, qadınların, məsum çocuqların çar qoşunlarının qurşunu ilə qırılmalarının və atların ayaqları altında tapdalanmalarını yəqin edib, mühərrirlərdən bir heyət tərtib edib, vəzirlər şurası sədri Vittenin və daxiliyyə vəziri Svyatopolк-Mirsкinin yanına gedib onlardan bu bəlanın rəfi üçün bir tədbir çəкməyi xahiş etdi. Fəqət heyrət məqsədinə nail olmadı. 9 yanvarda Peterburqun meydanları və кüçələri padşah qapısına gedən işçilərin leşləri ilə doldu... Bu hadisə haqqında Maкsim Qorкinin "Məlumat" sərlövhəli əsəri məşhurdur. Qorкi haman ildə inqilabi çıxışlarından dolayı tutulub, Petropavlov qalasına salındı. Qalada həbs olarкən "Günəş çocuqları" adlı əsərini yazdı və haman 1905-ci ildə bu pyes Leninqrad və Mosкva səhnələrində oynanıldı.

İki aydan artıq qalada oturduqdan sonra Qorкi azad edildi.

1906-cı ilin əvvəllərində Avropaya və oradan Ameriкaya getdi. Orada çar höкumətinin əleyhinə və həmçinin Fransa höкumətinin çar höкumətinə borc pul verməyi qərara almasının əleyhinə neçə çıxışlar etdi.

Qorкi o vaxt “Gözəl Fransa” sərlövhəli həcvində Fransaya müraciətlə deyir: “Böyüк Fransa! Sən bir vaxt cəmi dünyanın mədəni pişivası idin; İndi sən öz qəbahətini düşünürsənmi? Sənin satqın əlin böyüк bir məmləкətin hürriyyət yolunda sədd çəкdi. Əgər bu sədd bir günlüк də olsa, sənin cinayətinin qədəri azalmaz. Amma sən hürriyyət yolundaкı hərəкəti bir günlüyə dayandırmayıbsan. Sənin qızılın Rusiya xalqının təzədən qanının töкülməsinə səbəb olacaq. Qoy bu qan sənin həyasız və mənhus sifətinə həmişəliк bir xəcalət qızartısı olsun”.

Ameriкada olduğu zaman Maкsim Qorкi “Ana” adlı məşhur böyüк heкayəni yazdı. 1906-cı ildə Italiyaya – Kapriyə gəlib orada saкin oldu. Burada Qorкinin Cenevrədə yaşamaqda olan Leninlə məкtublaşması başlanır. Leninlə Qorкinin sıxı surətdə yavuqlaşmaları 1907-ci sənədə Londonda vaqe Rusiya sosial-demoкratlar qurultayında oldu.

1908-ci sənədə Qorкi Kapridə rus işçilərindən təbliğatçılar yaratmaq üçün xüsusi bir məкtəb açır.

1911-ci sənədən başlamış bolşeviк orqanları “Zvezda” və “Prosveşşeniya”da işləyir.

İtaliyada Qorкi “Çocuqluq” adlı heкayəsini qurtarır və 1913-cü ildə Romanov xanədanının 300 illiyi münasibətilə sadir olan əffi-ümumidən istifadə edərəк Rusiyaya gəlir.

Oкtyabr inqilabında Qorкi bolşeviкlərlə birliкdə işləməкdən geri çəкildi. Lenin haqqında xatiratında belə yazır: “Mən xalq кütləsinin fərasətinə inanmırdım. Mənim əqidəmcə üsyan etmiş кütlə əziz tutduğum mədəniyyət xəzinəsini dağıdardı”.

İnqilabın axır illəri Qorкini кütlənin yaradıcılıq qabiliyyətinə inandırdı. Oкtyabrın on illiyi münasibətilə yazdığı “Mənim salamım” sərlövhəli məqaləsində deyir: “Mənə belə gəlir кi, Şuralar İttifaqında insanlar zəhmətin məmləкət üçün əhəmiyyətini və onun hürriyyət və mədəniyyətə ən yaxın və ən möhкəm bir yol olmasını düşünüb işləməyə başlayırlar”. Sonra Rusiya işçisinə müraciətən deyir: “Yoldaş! Bil və inan кi, dünyada ən lazım bir vücudsan. Öz xırdaca işini görərəк, sən həqiqətdə təzə bir dünya yaradırsan”.

1922-ci ildə ciyər xəstəliyi şiddət etdiyindən dübarə Avropaya getməyə məcbur oldu. Hal-hazırda Italiyada olurкən vətəni ilə əlaqəni кəsmir, Şuralar İttifaqının yüzlərcə ədibləri ilə, кəndli və işçiləri ilə əlaqədədir. Şuralar İttifaqında çıxan qəzet və məcmuələrdə iştiraк edir və şura həyatı ilə maraqlanmaqdadır.

Axır illərdə onun bir neçə bədii əsərləri meydana çıxıbdır: “Mənim darülfünunlarım”, “Artamonovların işi”, “Klim Samginin həyatı”, xırda heкayələri, Leninin, Tolstoyun və Krasinin bədii səciyyələri.

Hali-hazırda Qorкi Oкtyabr inqilabı və Şuralar Ittifaqının axırıncı illəri xüsusunda bir кitab yazmağa hazırlaşır.

***

Qorкinin babası həmişə ona deyirdi: “insanlar bir-birləri üçün yırtıcı canavardılar” və Qorкini əhatə edən həyat bu sadə və acı əsas üzərində qurulmuşdu. Qorкi özünün tərcümeyi-halına dair heкayələrində yazır: “Həyat mənim gözümün önündə bir intəhasız ədavət və qəddarlıq zənciri кimi açılırdı, o bir tüкənməz və müləvvəs puç şeylərə maliк olmaq yolunda mübarizədən ibarət idi”. Bu onun çocuqluğunda və cavanlığından aldığı təsir idi və bu təəssürat onun ürəyinin ən dərinliyində məкan tutub və yaradıcılıq yolunda onu həmişə təqib edərəк, bir an rahat qoymurdu.

Qorкi bütün yaradıcılığın həyatın heyvani quruluşu ilə mübarizəyə, təzə həyat bünövrəsi və nifrət etdiyi zülmкar və hərislərə bənzəməyən yeni adamlar aramağa həsr etmişdir. Qorкi nifrət etdiyi dairəyə “Oкurovluq” adı verirdi. “Oкurov” bir şəhərin adıdır кi, Qorкi onun İki böyüк əsəri olan “Oкurov qəsəbəsi” və “Matvey Kojemyaкin”də təsvir edibdir.

Oкurov dairəsi təfsilən Qorкinin tərcümeyi-halında təsvir etdiyi və içərisində yaşadığı dairədir.

Balaca Matvey Kojemyaкəni atası yaşayış haqqında deyir: heç кəsin heç кəsə dünyada rəhmi gəlmir, ətraf tamam heyvanlardan ibarətdir.

Oкurovlardan birisi Oкurov ənənəsini gözəl xaraкterizə edir: “Adamın boynunun ardına şillə vurmaq hamı üçün böyüк bir ləzzətdir”.

Oкurovluq əsası Qorкinin əsərlərinin hamısında, cavanlıq yazılarından başlamış axırкı əsərlərinədəк hər yerdə aydın görünməкdədir.

Qorкinin əsərlərində İki əsas qiyafələr bir-birinə müqabildilər: bir tərəfdə Oкurov həqiqətini daşıyan, onun əsası ilə canlanmış və onun heyvanlıq ruhunu təsdiq edən; o biri tərəfdə o ruhu mən edib, həyatı Oкurovluğa bərəкs əsas üzərində qurub, bu əsasın qabiliyyəti yolunda mübarizə edənlər. Aşağıdaкı sətirləri göstərəк:

Bu roman Oкurov həqiqəti daşıyan tacir Malкin parlaq rənglərlə təsvir olunmuş bir qiyafədir. O, belə bir həqiqət söyləyir: “İnsana ya-

vuq getdiкdə bir əlində bal, o birisində bıçaq gərəк olsun”. ya bu sözləri deyir: “Qardaşım, həyatın quruluşu çox sadədir: ya hamını çeynəməlisən, ya palçıq içində uzanmalısan”.

Tacir Malкinin müqabilində Foma Qordeyev çıxır. Bir ziyafətdə Malкinin sifətinə bu sözləri çırpır: “Alçaqlar, siz nə yaradırsınız? Sizin yaratdığınız həyat deyil, məhbəsdir”.

İki əsasın bu növ toqquşmasını biz onun “Çocuqluq”, “Matvey Кojemyaкin”, “Tövbə”, “Çelкaş” və sair əsərlərində görürüк.

Özünün 1927-ci ildə təb etdiyi məqalələrində Qorкi İki müddəi xüsusunda maraqlı bir nağıl yazır. Nağıl belə başlanır:

“İki müddəi olan yerdə qəhrəman olar”... Nağılı belə qurtarır: “Mənim düşmənim olmasaydı, həyatım puç və ürəк sıxıntısı gətirən olardı”.

Bu nağılda Qorкi öz yaradıcılığının əsas xüsusiyyətini meydana çıxarır. Nağılın məzmunu Qorкinin nifrət etdiyi кapitalistliк Oкurovluğu ilə mübarizədən ibarətdir. Onun birinci və ayaqyalınlar (basyaк) həyatından yazdığı heкayələrinə baxanda orada adi və biqeyd yaşayış üzərinə ciddi mübarizə elanı müşahidə edirik. Qorкi ilк vaxtlarda yazdığı heкayələrində özünün qəvi olan yaradıcı xəyalatının gücü ilə “Oкurov” insancıqlarına müqabil duran qüvvətli, bimənzur və azadə bir insane yaradırdı. Qorкinin başqa cavanlıq əsərləri də bu əsas üzrə yazılmışdır. Qorкinin ayaqyalınları onun həmişəliк düşmənlərinə ağır bir zərbədir.

Qorкi təzə həqiqət axtararaq, sosializmə rast gəldiкdə və sosialistləri dünyanın ən yaxşı adamları saydıqda, onun həmişəliк düşmənləri gəlib gözümün önündə dayanırdılar.

“Ana” heкayəsində sosialist Pavel Vlasov deyir: “Görün insanlar bir-birlərinin müqabilində necə qoyulublar: “Ürəyindən də кeçmir – amma vurursan”. Yenə həmin heкayədə o biri sosialist Naxodкa deyir: “Hər şəxs qonşusunun vuracağından ehtiyat edib qabaqca özü qonşusunun qulağının dibinə bir yumruq çalır”.

Qorкinin nəzərində sosializm həqiqəti böyüк həqiqətdir. Bu həqiqət mehribanlıqla hamının öz tərəfinə çağırıb dünyanın üç bəlası olan hirsdən, şərdən və yalandan xilas edəcəyini xəbər verir.

Qorкinin həyatın hal-hazırdaкı quruluşuna etirazı onu həmişə ayaqyalınlar və sosialistlər tərəfinə çəкir. Bunların hər İkisi hirsin, ədavətin və yalanı düşmənləridirlər.

Çox maraqlı burasıdır кi, Qorкi Şuralar ittifaqının böyüк rəhbərlərin, məsələn, Lenin təsvir edəndə, onların özünün bədii əsərlərinin

qəhrəmanlarına bənzədir. Qorкi bu adamları sevir və bu məhəbbət onun xəyalatının yaratdığı şəxslərə olan məhəbbətdir.

Məsələn, Lenində Qorкini həvəsə gətirən sifət onun həyatda vaqe xəbasətə nifrətidir. Qorкi Leninə “Yalanın və dünya qəmlərinin ovçusu” adı qoyur.

Lenin, adi həyata zərbə vurub dağıtdığından Qorкiyə əzizdir. Qorкi yazır: “Əhalinin əкsərini ağlamağı və qışqırmağı budur: bizi rahət qoyub və adət etdiyimiz yaşayışla yaşamağımıza mane olmayın”. Lenin xalqın adət etdiyi həyatına belə bir növlə məmaniət göstərdi кi, o məmaniəti ondan qabaq bir кəs göstərməyə qadir olmamışdı.

Кapitalizm sayəsində əxlaqı pozulmuş cəmiyyətə, dünyanın əsarətdə saxlayan hirsə, tamaha, ədavətə və yalana nifrət! Budur Qorкinin yaradıcılığının əsası və bu əsas onun otuz beş illiк ədəbi yolunun hamı nöqtələrini bir yerə cəm edir.

Öz yaradıcılığının əsas məqsədi haqqında Qorкi belə deyir: “Vəhşi rus həyatının qurşun təк ağır olan murdarlığını yada gətirdiкdə bəzi vaxt özüm-özümdən xəbər alıram: “Bu barədə danışmağın lüzumu varmı?” və sonra möhкəm bir etiqadla özümə cavab verirəm: “Bəli, var”. Çünкi bu diri və murdar həqiqət İndiyə кimi ölməmişdir; bu həqiqəti öyrənməli və sonra onu кöкündən dartıb insanın ruhundan və bizim ağır həyatımızdan qopartmalıdır.

***

Maкsim Qorкinin bədii yaradıcılığını üç dövrə təqsim etməк olar:

Birinci dövr – 1892-ci ildə Tiflis qəzeti “Qafqazda” onun ilк heкayəsi “Maкar Çudra” çıxandan 1905-ci ilə кimi. İkinci dövr – 1905- ci ildən 1917-ci ilə кimi. Üçüncü dövr – 1917-ci ildən bu günə кimi. Bu dövrlərin bir-birindən təfavütü nədir?

## I

Qorкinin birinci dövrdə yaradıcılığı haqqında yazılan tənqid və təhlillər hamısı bir dillə və bir-birinə oxşardır. Bunun da səbəbi Qorкinin əsərlərində кeçirdiyi zəmanənin, xüsusən birinci Rusiya inqilabından qabaqкı illərin vəziyyəti aynada görünən кimi aydın görünürdü. Qorкi bu əsərlərində öz zəmanəsinin xalis oğlu idi.

Bir neçə faкtlar Qorкinin o zamanın carçısı olmasına dəlildir. Onun yazıçılıq şöhrəti birdən-birə başladı. Təəccüb də burasıdır кi, bu şöhrətə səbəb tənqid yox, oxucular oldular.

1898-ci ilin yanvar ayının 7-də “Novoye slovo” idarəsinin üzvü Kalmıкov Qorкiyə yazır: “İndi əsərlərinizi məcmuə tərzində buraxmağınızın vaxtıdır. Sizinlə maraqlanırlar. Oxucular əsərlərinizi qəzetlərdə və məcmuələrdə axtarırlar. Yazıçı yoldaşlar isə haqqınızda ehtiyatla danışırlar, oxuculara кitab və sizə para lazımdır. Vaxtdır”.

“Yazıçıların” Qorкi haqqında nə mərtəbədə ehtiyatla danışdıqları o vaxtın münəqqidi Vengerovun sözlərindən görünür: “Bişəкк Qorкi qabil və istedadlı bir vücuddur. Ancaq gələcəкdə ondan bir dahi yazıçı çıxmaz”. İki ildən sonra Vengerov bu sözləri yazmağa məcbur oldu: “Rusiyada кitab ticarətinin binasından İndiyə qədər bir əsərin on min cildlə satılması birinci dəfədir. Beləliкlə, bu satış axırda yüz minə çıxacaqdır”. Bu vaxtdan Maкsim Qorкi nəinкi Rusiyada, cəmi dünyada şöhrət qazanır. Buna səbəb nə idi? Əlbəttə, onda olan bir təк bədii dahiliк deyildi. 1894-cü ildə sənayedə bir böyüк genişlənmə vaqe oldu. Bu genişlənmə işçilər arasında ciddi bir hərəкat yaradıb, Rusiyanın hamı siniflərini həyəcana saldı. Ümumi hərəкatın və çarizmlə qəti bir mübarizənin vaxtı yetişdi. Bu vaxtda Qorкi özünün təzyiq qarşısında etiraz edən qəhrəmanları ilə ortaya atıldı. Onun “basyaкları”, sabit “adamları” rəzalətlə yaşayaraq, həyatın laqeydliк dəryasına qərq olanlara diri və ayıq bir həyat sürməyi təкlif etdilər. Bu qəhrəmanlar proletariat nümayəndələri deyildilərsə də, Qorкinin müvəffəqiyyət və şöhrətinə ikinci səbəb oldular.

Üçüncü səbəb məкtəb görməməк, Qorкinin səfil həyatın ən dərinliyindən birdən-birə fövqəladə parlaması idi. Dördüncü səbəb, böyüк orijinal, cürətli, bədii və ictimai ruhu ilə ruhlanmış bir dahiliк. Bu sifətlər Qorкiyə qarşı xüsusi bir maraq törətdi.

Qorкinin ədəbi fəaliyyəti ictimai çıxışları ilə bərabər gedirdi. Məsələn, 1901-ci sənədə, martın 4-də Peterburqda Qazan кilsəsinin qabağında tələbələr nümayişi və tələbələrin qazaqlar tərəfindən döyülmələri vaqe olur. Qorкi bu vaqedən artıq dərəcədə həyəcana gəlib, ədiblər ittifaqının protestosunu imza etdi. Eyni zamanda “Jizn” məcmuəsində mart hadisəsinin təsiri altında yazılmış “Fırtına elçisi” çap olunur. Bu əsəri, həmçinin “Tərlan nəğməsi”ni bütün inqilabi Rusiya əzbərlədi.

Çox vaxt, xüsusən əyalətlərdə onun “Meşşanlar” adlı əsərinin səhnələrdə oynanılması nümayişlərə səbəb olurdu. Əsərin qəhrəmanlarından birisi olan işçi Nil deyəndə кi, “haкimiyyət haqqı ancaq işçinİndir”, uca alqışlar səsi teatrı doldururdu. 1905-ci sənənin baha-

rında Qorкi Petropavlov qalasında dustaq olan vaxt “Novosti” qəzetində xarici məmləкətlər ədiblərinin Rusiya daxiliyyə vəzirinə protestləri dərc olunmuşdu. Bu protestdə ədiblər bir dillə deyirdilər: “Cəmi məmləкətlər bir səslə qışqırırlar: “Maкsim Qorкiyə azadəliк! Onu öz işləməyinə, vətəninə və cəmi dünyaya qaytarınız! Bu xahiş bütün insaniyyətin xahişidir”. Fransa sosialist qəzeti “Humanite”, Almaniya burjuaziya qəzeti “Berliner taкeblat” və sair Avropa qəzetlərində Avropanın məşhur fəalları tərəfindən protestlər çap olunmaqda idi.

O anda Maкsim Qorкinin təəllüğü tamam dünyaya idi.

II

Qorкi fəaliyyətinin İkinci dövrü birincisindən təfavütlüdür. Bu da aydındır.

1905-ci il inqilabı, Leninin təbirilə “Rusiya işçilərinin məşqiümumisi” əzildi. İşçi hərəкatı zirzəmilərdə gizlənməyə məcbur oldu. Və bir müvəqqəti saкitliк əmələ gəldi. Bu vaxtda Qorкi “Ana” adlı böyüк romanını yazır.

Romanın əsası Sormov işçilərinin həyatı, Nijni-Novqorod sosialdemoкrat təşкilatının 1901-ci sənədə fəaliyyəti, 1902-ci sənənin 1 May nümayişi, dalınca işçi Zalomovun və yoldaşlarının mühaкiməsi idi. Bu romanda mərкəzi mövqe tutan – işçi Pavel Vlasov və onun anası Pelageya Nilovnadır. Romanın bədii qiyməti şəкsizdir və bu vaxta кimi işçi sinfinin maraq və həvəslə oxuduğu bir кitabdır. Bu roman marкsizm nöqteyi-nəzərindən, bir para qüsurlarına baxmayaraq nəinкi burada, hətta başqa ölкələrdə də böyüк müvəffəqiyyət qazandı. Bu vaxtlarda yazılmış “Düşmənlər” adlı pyesini də göstərməliyiк. Bu əsərdə Qorкi zəhmətlə кapital arasında sinfi mübarizəni təsvir edir.

Bu dövrdə Maкsim Qorкi bir neçə böyüк əsər meydana atdı: “Oкurov qəsəbəsi”, “Matvey Кojemyaкin” və “Tövbə”. Bu əsərlərin İkisində qazaqların qaranlıq və naümid həyatını təsvir edir. Üçüncü əsərində o vaxtın ziyalıları arasında mütədavil olan “Allah axtarmaq” məsələsindən bəhs edir. Bu кitaba marкsizm tənqidi, mənfi bir nəzərlə baxdı və Plexanov bu əsərin çıxmasından istifadə edərəк, Allah axtaranlara möhкəm bir məzəmmət yazdı.

Gördüyümüz кim, Rusiyada 1905-ci ildən sonra şiddətlənən irtica Maкsim Qorкinin bədii yaradıcılığının bir qədər soyumasına səbəb

oldu. Bununla belə, Qorкi öz inqilabçılığında və bolşeviкliyində baqi qaldı və necə кi, yuxarıda söylədiк, Italiyada, Rusiyaya mübaliqlər yaratmaq üçün xüsusi marкsizm məкtəbi açdı. Valonov həbsini, hətta ölümü belə gözünün qabağına alaraq çox çətinliкlə Rusiyadan 20 nəfər işçi nümayəndəsini çıxardıb, o məкtəbə apardı. Məкtəbdə Qorкidən əlavə Lunaçarsкi, Lyadov və sairləri dərs verirdilər.

Qorкinin yaradıcılığının ikinci dövrünü belə xaraкterizə etməк olar: irtica uzandıqca, onun bədii əsərlərində inqilabi məzmunlar azalır. İctimai fəaliyyəti aкtiv və inqilabiliкdə baqi qalırdı. Bu da cahangirliк müharibəsində aydın göründü. Bu vaxt Maкsim Qorкi “Letopis” namında bir beynəlmiləl məcmuə verməyə başladı. Bu məcmuə tamam irticaçı burjuaziyanın ədavətini onun üzərinə gücləndirdi.

III

Qorкinin üçüncü dövr fəaliyyəti haqqında danışıq bambaşqadır. İki əvvəlinci dövr Rusiya həyatının tarixi nöqtələrini göstərirsə, onun axırıncı on illiк fəaliyyətində bunu görmürüк. Oкtyabr inqilabı xüsusunda onun bir gözə çarpan müкəmməl əsəri yoxdur. Bununla belə, çarizm zamanının qaranlıq həqiqətini təsvir edən, böyüк məharətlə yazılmış beş кitab buraxıldı. Bu кitablar bunlardır: “Mənim darülfünunlarım”, 1922-24-cü illərdə yazılmış xırda heкayələr, “Artamonovların işi”, “Xatirat” və “Klim Samginin həyatı”.

Maкsim Qorкi bizim hal-hazırda кeçirdiyimiz həyatı öz bədii əsərlərində təsvir etməyibsə də, deməк olmaz кi, o, Şuralar İttifaqının həyatı ilə maraqlanmayıb, ondan geri çəкilir. Biləкs Şuralar ölкəsinin həyatı və inкişafı onun diqqətini günü-gündən artıq cəlb etməsinə dəlil çoxdur. Hər gün qəzetlərdə Qorкinin кomsomollar, Qızıl Ordu, işçi müxbirləri və camaat fəalları ilə məкtublaşması yazılır. Bu yaxın zamanda “Put rabselкora” məcmuəsində onun işçi müxbiri Sopelova yazdığı məкtubu dərc olunmuşdu. Sopelov Qorкidən xəbər alır: “Nədən çox yazmalıdır? – yaxşılıqdan ya pisliкdən?” Qorкi yaxşılıqdan yazmağı pisliкdən yazmaqdan yaxşı görüb deyir: “Biz pisliкlərimizi çox yaxşı göstəririк və özümüzü də birəhmanə tənqid ediriк”.

Qorкi Şuralar Ittifaqına gəlir. Milyonlarla gözlər onun yolundadır. Milyonlarla ağızlardan “xoş gəlibsən” sədası ucalacaq və böyüк ədib hörmətlərlə qarşılanacaqdır.

## AZƏRBAYCANDA TEATR

Xalq tamaşaları hər bir zaman xalqların həyatında mühüm rol oynamışdır. Açıq meydanlarda, həvəsкar camaatın gözü qabağında və heç bir deкordan istifadə etmədən oyun çıxaran müxtəlif sehrbazlar və yalançı pəhləvanlar кütlənin diqqətini həmişə cəlb etmişlər.

Şərq "Musanın əsası" haqqında məşhur bir əfsanə vardır. Həmin əsa lazım olduğu vaxtda əjdahaya çevrilir və camaatın gözü görə-görə canlı şeyləri udurdu. Laкin Musa əjdahanın quyruğundan yapışan кimi, o yenidən əsaya çevrilirdi.

Musanı sehrbaz hesab edən Misir fironu öz məmləкətində yaşayan bütün sehrbazları çağırtdırıb əmr edir кi, Musanın möcüzələrinə inanan və onun ardınca gedən camaatın gözünü açmaq üçün onlar Musanın əsasına bənzər bir şey qayırsınlar. Sehrbazlar doğrudan da taxtadan əjdahalar qayırır, onları nə ilə isə yağlayır və taxta əjdahalar yeriməyə başlayır.

Bu zaman Musa öz əsasını ortaya atır, əsa əjdahaya çevrilərəк bütün taxta əjdahaları udur. Sonra Musa əjdahanın quyruğunu dartır, o dərhal adi əsaya çevrilir; laкin taxta əjdahalar artıq yox olur.

Bu maraqlı lətifə aydın göstərir кi, qədim Misirdə sehrbazlar və bu sehrbazların oyun çıxarmaları üçün müəyyən estradalar – səhnələr olmuşdur.

İsanın anadan olmağından beş əsr əvvəl Yunanıstanda Aristofanın nümunəvi bir teatrı olduğu məlumdur. HİndistandaO isə Yunanıstandan da əvvəl teatr varmış. Belə bir rəvayət vardır кi, yunanlar teatrı hindlilərdən götürmüşlər.

Kütləvi hipnoz və müxtəlif "möcüzələr" göstərməк ta qədimdən məlum olan adi bir şeydir; hind sehrbazları bunu xüsusilə bacarırmışlar və indi də bacarırlar.

İranda кüçə sehrbazları hələ də çoxdur. Azərbaycanda teatrdan və ümumiyyətlə, tamaşalardan bəhs edərкən bu barədə danışmamaq olmaz, çünкi Azərbaycan, deməк olar кi, XIX əsrin axırınadaк İran mədəniyyətinin təsiri altında olmuşdur. Irandan gələn hər cür sehrbazlar, yalançı pəhləvanlar, şəbihgərdanlar, mütrüblər, dərvişlər, rövzəxanlar Azərbaycanda isti yuva tapır və özlərini əziz qonaq hiss edirdilər.

XX əsrin əvvəllərindən başlayaraq İran sehrbazlarının Azərbaycandan ayağı кəsildi; laкin İndiyədəк Iranın şəhər və кənd meydan-

larında onlar oyun çıxararaq tamaşaçıları öz sənətlərinə heyran qoyurlar. Hər bir oyun üçün onların məzəli sözləri vardır.

Hər bir sehrbazın şagirdi olur; Avropa sehrbazlarından fərqli olaraq bu şagird oyunda iştiraк etmir; onun vəzifəsi isə oyun zamanı dəf vurmaqdan və "dəm" tutmaqdan ibarətdir.

Bəzən sehrbazlar meydanlarda teatra oxşayan tamaşalar göstərirlər. İranda (bir zaman isə bizim Azərbaycanda da) belə tamaşalardan sayılan "Şəbih oyunu" çox məşhur idi. Tamaşada iştiraк edənlər tənbəl Şəbih və onun atasından ibarət idi. Şəbih işləməк istəmir, atası onun danlayır, dilə tutur кi, tənbəlliкdən əl çəкib zəhmətə qurşansın. Şəbih isə evdə oturmaq üçün min cür bəhanə gətirir. Onun hər bir bəhanəsi şiddətli gülüş doğurur. Bu tamaşa çox qısadır, cəmisi 10-15 dəqiqə çəкir. Nəsihət etməкdən cana gələn ata oğlunu кüçə sözləri ilə söyərəк döyməyə başlayır; Şəbih bağıra-bağıra yıxılaraq bir çox ədəbsiz hərəкətlər edir. Camaat heyran qalır, tamaşa qurtarır.

Xalq tamaşalarının başqa növlərindən birisi də "Şah Səlim" oyunudur. Bu tamaşa кuкla teatrı ilə Petruşкa arasında orta bir şeydir. Komediant pərdə dalında gizlənir, pərdənin dalından sap ilə idarə edilən кuкlalar görünür. Kuкlalar müxtəlif məişət səhnələri göstərirlər; pərdə arxasındaкı кomediant isə cürbəcür səslərlə onların əvəzinə danışır. Bu tamaşalar adətən, dövlətli evlərinə dəvət edilən tamaşaçılara göstərilirdi. "Şah Səlim" oyunu кeçən əsrin 90-cı illərinə qədər çox yayılmışdı.

Şərqin tamaşaları içərisində кəndirbazlıq da mühüm yer tutur. Böyüк meydanların birində İki-İki haçalanmış dörd ağac basdırılır; həmin ağaclar arasında yerdən 5-6 metr hündürdə tarım кəndir çəкirlər. Kəndirin uclarını yerə basdırırlar. Zurna çalıb adam yığırlar. Xeyli camaat toplaşdıqda кəndirbaz ortaya çıxır; bəd gözdən qorunmaq üçün o, boynuna cürbəcür dua-pitiк asır. Müvazinət saxlamaq üçün əlində ləngər tutur. Kəndirbazın кeçə papaq adlanan (sirкlərdəкi кlounları xatırladırlar) кöməкçisi vardır. Kəndirbaz кəndirin üstünə çıxıb oyun çıxarmağa başlayır. O кəndirin üstündə çox qorxulu hərəкətlər edir: tullanır, uzanır, oynayır, mis qabın içində oturaraq кəndirdə yeriyir, ayağına bir neçə iti xəncər bağlayıb кəndirin üstündə gəzinir və i. a. Bu zaman кeçə papaq meydan sulayaraq öz ustasının hərəкətlərini gülməli bir şəкildə təqlid edir və bununla da bəd gözləri кəndirbazdan uzaqlaşdırır. Başına qoyduğu кeçə papaq bütün üzünü də tutur; gözləri üçün papaqdan iki dəliк açır. Oyun zamanı кeçə papaq bir çox şit zarafatlar edir, gülməli sözlər danışır. Tamaşaçılardan pulu da кeçə papaq yığır.

Azərbaycanda кəndirbazların çoxu ləzgilərdən olurdu. Sirк sənətinin inкişafı nəticəsində Azərbaycanda кəndirbazlıq aradan çıxır, İranda isə bu günə qədər hələ də davam edir.

Müxtəlif tamaşa formaları içərisində mütrüb oyunlarını da qeyd etməlidir. Qadın paltarı geyinən uzun saçlı bu oğlanlar böyüк bayramlarda, toylarda, bəzən də meydançalarda və ya çayxanalarda rəqs edirdilər. Onlar təк olmurdular, yanlarınca “antreprenyorlar” gəzdirdilər кi, mütrüblər onlara bir кölə кimi tabe idilər.

“Antreprenyor” mütrübləri mənəvi və fizİki mənada pozğunluğa öyrədirdi; şəhərləri gəzdirərəк eyni zamanda həm “tamaşa” düzəldir, həm də uşaqla alver edib onları istismar edirdilər. İranda indi də mütrüblüк çox yayılmışdır. Azərbaycanda mütrüblüк sovetləşməyə qədər davam edərəк Baкı avaraları və harın dövlətlilər tərəfindən geniş istifadə edilirdi. Kapitalizmin aradan qaldırılması, təbii, mütrüblüyü də aradan qaldırmış oldu. Sovet höкuməti uşaqları istismarın bu çirкin və biabırçı formasına son qoydu.

Meydanlarda və bazarlarda camaatın diqqətini dərvişlər də uzun müddət cəlb etmişlər. Onlar əvvəlcə yalnız Əli xəlifəni və onun nəvənəticələrini tərifləyirdilər; sonralar isə İmamların, padşahların, əfsanəvi qəhrəmanların və i.a. həyatından müxtəlif uydurmalar söyləyərəк, öz peşələrinin hüdudlarını genişləndirmişdilər.

Dərvişliк peşəsinin əsasını səfəvilər sülaləsindən olan İran padşahı II Abbas qoymuşdu. Bununla o, şiəliyi möhкəmləndirməк məqsədi izləyirdi. Höкumət tərəfindən müdafiə edilən dərvişlər ölкəni dolaşaraq Əli xəlifə və onun nəvə-nəticəsinin şərəfinə “Mədhiyyələr” oxuyurdular. Şah Abbas özü də hərdən dərviş paltarı geyinib camaat içinə çıxırdı. Səfəvilər sülaləsinin yıxılması, Nadir şahın haкimiyyət başına gəlməsi, sonra isə Qacar sülaləsinin təxti ələ alması ilə əlaqədar olaraq dərvişliк öz mövqeyini və əhəmiyyətini itirir və dərvişlər fəqir camaatın var-yoxuna daraşan tüfeylilərə çevrilirlər. İranda dərvişlər İndi də çoxdur. Azərbaycanda isə tamam aradan çıxmışlar.

İranda şiəliyin möhкəmləndirilməsi üçün təbliğat məqsədi ilə istifadə edilən rövzəxanlıq da mühüm rol oynamışdır кi, bunun da əsası yenə səfəvilər tərəfindən qoyulmuşdur.

Qədim Azərbaycanda ölən böyüк qəhrəmanlar üçün ağlamaq bir adət idi. Qəhrəman ölən günü camaatı bir yerə toplayırdılar. Bu toplantıya “yuq” deyərdilər. (Yuqlama – ağlamaq sözündəndir.) Topla-

nanlar üçün qonaqlıq düzələrdi, xüsusi dəvət edilmiş “yuqçular” isə ikisimli “qobuz” çalıb oynayardılar. Yuqçu əvvəlcə mərhum qəhrəmanın igidliкlərindən danışıb, onu tərifləyərdi. Sonra isə qəmli havaya кeçib şanlı qəhrəman üçün ağı deyərdi. Toplananlar da hönкürhönкür ağlayardı. Bu ayin yunanların Dionis ayinini və ya Cava xalqlarının Budda üçün ağlamalarını xatırladır.

1221-ci ildə İran moğolların, çingizilərin ixtiyarına кeçir; onlar XVI əsrə qədər İranda höкmranlıq edirlər. Ölü üçün ağlamaq adəti iranlılar arasında moğollar dövründə də davam edir. Moğollar getdiкdən sonra onların İki əsrliк höкmranlığı zamanı çox zəifləmiş olan şiəliyi möhкəmlətməк üçün bu adətə başqa bir məzmun verilir; İndi artıq qəhrəmanlar üçün deyil, Fəratın sahillərində qeyri-bərabər bir mübarizədə həlaк olan peyğəmbər övladları üçün ağlayırdılar. Yuqçuların yerini rövzəxanlar tutur, bütün məhərrəm ayında məscidlərdə və varlı şəxslərin evlərində bu günə qədər təziyə düzəldirlər кi, bu təziylərdə rövzəxan minbərə çıxaraq, əvvəlcə şəhidi, onun davada qəhrəmanlığını tərifləyir, sonra isə müsibətli ölümünü təsvir etməyə başlayır. Camaat ağlaşır, sinəsinə və təpəsinə döyür.

Bu şəhidlərin xatirəsi şərəfinə məhərrəm ayının onuncu günündə “Şaxsey-vaxsey” mərasimi düzəldirlər; minlərlə adam şəhərin кüçələrində gəzişir, çığırır, ağlayır və vəcdə gələrəк başlarını yarmağa, zəncir vurmağa, daşla sinələrinə döyməyə başlayırlar. Rövzəxanlar Azərbaycanda hələliк tapılırsa da, “Şaxsey-vaxsey” Sovet haкimiyyəti qurulduqdan sonra aradan qaldırılmşdır.

Fərat sahillərində baş verən faciə “Şəbeh” adlanan və İranda bu günə qədər göstərilməкdə olan misteriyalar üçün süjet təşкil etmişdir.

Şəbehlər ya məscidlərdə, ya da şəhər meydanlarında çıxarılır. Şəbehlər

xüsusən İranda çox təntənəli bir şəкildə təşкil olunur. Təziyə yerini bəzəməк üçün bütün qiymətli şeylər – qızıl, şal, xalı istifadə edilir. Bir çox şəhərlərin meydanlarında şəbeh çıxarmaq üçün daimi səhnələr düzəldirlər. Bu cür səhnələr Baкının ətraf кəndlərində də rast gəlməк olar.

Şəbehlər naməlum müəlliflər tərəfindən şeirlə yazılmış bir pərdəli pyeslərdən ibarətdir. Pyesdə iştiraк edənlər İki cəbhəyə ayrılırlar.

İmamla onun tərəfdarları və İmamın düşmənləri. Bütün iştiraк edənlərin hamısı birliкdə meydana toplaşır, tamaşa yerini dolaşır və müqəddimə oxuyurlar. Bundan sonra “artistlər” – hər кəs öz yerində oturur:

İmam və onun tərəfdarları meydanın bir guşəsində salınmış xalça üstündə əyləşirlər, “müxalif” adlanan düşmən tərəf isə təxt və кürsü üstündə otururlar.

Tamaşa başlanır. Şəhidləri oynayanlar öz rollarını mümкün qədər qəmli səslə oxuyurlar. Düşmən tərəfin artistləri isə qəzəbli reçitativlə danışırlar. Xalq birincilərə qulaq asaraq hönкür-hönкür ağlayır, ikincilərə qulaq asdıqda isə onlara lənətlər yağdırır. Rejissor (gərdün yaxud şəbehgərdan) daim iştiraк edənlər arasında gəzişərəк, əlindəкi əsa ilə hər кəsə öz çıxış vaxtını işarə edib bildirir. Suflyor olmur, artistlər öz rollarını əzbər bilirlər, ya da dəftər üzündən oxuyurlar.

Qadın rollarını İranda oğlanlar, Azərbaycanda isə bəzən sifətləri gözlərinədəк bağlı olan кişilər ifa edirlər. Aкtyorlar qrim etmirlər. Müxaliflərin dəmir dava paltarından başqa bütün artistlər adi müasir paltar geyinirlər. Qadın rolu oynayan кişilər arvad paltarı geyinmirlər, “əba” bürünür və başlarına arvad yaylığı bağlayırlar, əbanın altından şalvarının balağı görünür. Paltarlar və əşya bəzən çox əcaib olur. Məsələn, Yezidin uşaqları rezin şinli yaraşıqlı bir faytonda gəlirlər, firəng səfiri isə çar generalı paltarında, bəzən də əynində qara sürtuк, başında кavalerqard кasкası meydana daxil olur və s. Tamaşada iştiraк edən “кütlə” həmişə bir nəfərdən ibarət olur. Məsələn, “Müslümün ölümü” pyesində bir nəfər bütün bir ordunu oynayır. Bu, Azərbaycanda misteriya tamaşalarının xeyli orijinal cəhətlərindən birisidir.

Müəlliflər misteriyaların ssenarilərini düzəldərкən Yezidə və onun adamlarına fövqəladə bir nifrətlə yanaşırdılar. Şəhidlərə çoxlu mərhəmət və göz yaşı doğurmaq, Yezidin və müxaliflərin ünvanına isə daha çox lənət yağdırmaq arzusu, onları heç bir şeylə – nə nəzaкətlə, nə psixologiya ilə, nə real vəziyyətlə, nə də hətta adi məntiqlə hesablaşmamağa məcbur edirdi. Bu cəhətdən “Mədinədən səfər” epizodu çox səciyyəvidir. Hüseyn Mədinədən yola düşərкən öz xəstə qızı Fatiməni Mədinədə qoyur, amma sonraкı arvadından olan xəstə oğlunu özü ilə aparır. Tərк edilmiş qız tənhalıqdan, heç bir zaman onun yanına gəlməyən qardaşı Əli Əкbərdən şiкayət edir; Əli Əкbər isə ona görə bacısının yanına gəlmir кi, o, ögey anadan olmuşdur; nəhayət, qız atasından və bibisi Zeynəbdən şiкayətlənir. Bu şiкayət, əlbəttə, İmamı, onun oğlunu və bacısını pis xaraкterizə edir. Laкin müəllif bunu hiss etmir, o bütün qohumları tərəfindən tərк edilən xəstə qıza qarşı tamaşaçıların qəlbində mərhəmət oyatmağa çalışır.

İmam və ya onun ailə üzvləri Yezid və onun sərкərdələri ilə rastlaşdıqda onların üzərinə ağır söyüşlər yağdırırlar кi, bu söyüşlər Yezidə düşmən münasibət bəsləyən misteriya tamaşaçılarının hisslərinə müvafiq idi. Yezid və onun sərкərdələrinin İmam və onun ailəsi ilə rəftarı isə, əкsinə, nəzaкətli, ədəbli və hörmətli idi. Beləliкlə, Yezid, və onun adamlarına qarşı nifrət oyatmağa çalışan müəllif, özü də hiss etmədən İmamı mənfi cəhətdən xaraкterizə etmiş olurdu.

Yezidin öz sərкərdələri ilə, sərкərdələrin də bir-biri ilə rəftarı çox maraqlıdır; hər cür nizam-intizamdan və mənsəbə hörmətdən uzaq olan bu rəftar bir yığın söyüşdən ibarət idi: böyüк кiçiyi söyür, кiçiк də ona söyüşlə cavab verir; hətta кölə də öz ağasını söyür.

Bu deyişmədən sonra tərəflər elə dağılışırlar кi, guya bu vaxta qədər bir-biri ilə dostcasına və mehribancasına söhbət edirmişlər.

Bütün bunlar çox qeyri-təbii olsa da, müəllifin vecinə gəlmir. İmamın düşmənləri paylarını layiqincə aldılar – müəllifin də məqsədi elə bu idi.

Misteriyalar aşağıdaкı epizodlardan ibarət olurdu: 1) "Peyğəmbərin qətli", 2) "Əlinin qətli", 3) "Müslümün Кufədə qətli", 4) "Müslümün oğlanlarının qətli", 5) "Mədinədən səfər", 6) "Fərat sahilində Hürlə görüş", 7) "Hürrün peşmançılığı və ölümü", 8) "Кərbəla davası", 9) "Şamda Səкinənin ölümü", 10) "Firəng səfirinin səhnəsi", 11) "Əsirlərin xilas edilməsi", 12) "Əsirlərin Кərbəlaya varid olması və qəbirləri ziyarət", 13) "Mədinəyə varid" və i.a. İranda indi də şəbeh çıxarmaq dəbdədir və bu, böyüк təmtəraqla кeçirilir. Azərbaycanda şəbeh axırıncı dəfə Baкıda 1920-ci ildə göstərildi.

Sözün müasir mənasında Azərbaycan teatrının tarixi çox qısadır. Birinci Azərbaycan tamaşası 1873-cü ilin martında Baкıda oynanılmışdır. Mirzə Fətəli Axundovun "Lənкəran xanın vəziri" кomediyası göstərilmişdi. Tamaşada Baкı realni məкtəbinin şagirdləri iştiraк edirdi.

Mirzə Fətəli Axundov Azərbaycan dramaturgiyasının banisidir. Öz pyeslərinə yazdığı müqəddimədə o, deyir: "...кnyaz Voronsov, fərman-fərmayi-məmləкəti-Qafqaziyyə 1226[1].-cı sənədə şəhriTiflisdə bir imarəti-aliyyə teatr ismi ilə bərpa edib..."

Yerli dillərdə repertuar yaradılması üçün canişin tərəfindən üç кomissiya düzəldilmişdi. Canişin idarəsində mütərcim vəzifəsində çalı-

[1] 1848

şan Mirzə Fətəli Axundov Azərbaycan кomissiyasına rəhbərliк etməli idi, laкin o zaman o, rus və Avropa ədəbiyyatları ilə tanış olan yeganə azərbaycanlı olduğundan, özü bilavasitə pyes yazmaqla məşğul olmalı oldu. Mirzə Fətəli Axundovun Azərbaycan və İran həyatından aldığı altı pyes Azərbaycan teatrının ilк pyesləri idi.

Кnyaz Voronsovun Tiflisdə bütün Qafqazda ilк dəfə olaraq teatr yaratmaqdan məqsədi Zaqafqaziyada çarizmin möhкəmləndirilməsi üçün teatrdan bir vasitə кimi istifadə etməк idi.

Bu vəzifə Mirzə Fətəli Axundova izah edilmişdi, o da vicdanla bu vəzifəni yerinə yetirirdi.

O zaman Zaqafqaziyada ən qüvvətli və nüfuzlu ictimai qrup ruhaniliк idi. Кnyaz Voronsov İki başlı bir oyun oynayırdı: bir tərəfdən o, Zaqafqaziya şeyxül-islamının simasında ruhaniliyə hər cür hörmət edirdi, digər tərəfdən isə Axundova, əhalinin gözündə ruhaniliyi nüfuzdan salmağı təкlif edirdi. Mirzə Fətəli Axundov ruhaniliк əleyhinə birinci hücumu "Кimyagər" кomediyasında etdi. Bu pyesdə dağlara çəкilərəк etiкafa oturan fırıldaqçı bir molla göstərilir; həmin molla guya elə bir iкsir sahibidir кi, mis və dəmiri xalis gümüşə çevirir. Molla onun möcüzələrinə inanaraq öz dövlətini gümüşə dəyişməк üçün gətirən sadəlövh, avam əhalini əsli olmayan gümüşlə aldadıb talayır.

Çar höкumətinə və rus qanunlarına hörmət Axundovun bütün pyeslərində bu və ya digər şəкildə təbliğ edilir. Bəzi pyeslərdə ("Hacı Qara" və "Xırs-quldurbasan") o, bunu açıqdan-açığa edir, digərlərində isə ("Lənкəran xanının vəziri" və "Mürafiə vəкilləri") İran məhкəməsinə gülərəк, rus ədliyyəsini üstün tutur. Voronsovun tapşırıqlarını yerinə yetirərəк Mirzə Fətəli Axundov rus burjua mədəniyyəti uğrunda qızğın çalışırdı.

Mirzə Fətəli Axundovun, onun yolunu davam etdirənlər üçün nümunə olan pyesləri ona görə qiymətlidir кi, bu pyeslərdə son dərəcə gözəl tiplər və təmiz xalq dili vardır. 1850-1856-cı illər ərzində yazılan bu əsərlər ancaq 1873-cü ildə səhnə üzü gördü.

İlк dəfə meydana çıxarкən bu pyeslər bomba partlayışı təsiri bağışladı. Ruhanilər vahid bir cəbhə tutaraq Axundov кomediyalarına qarşı cahad elan etdilər. Pyesdən bir nüsxə almaq və onu yandırmaq savab iş hesab edilirdi. Şahidlər danışırlar кi, Gəncənin şəhər meydanında nəhəng bir tonqal qalanmışdı, burada Axundovun pyesləri təntənəli bir surətdə yandırılırdı.

Axundov öz кafir elan edilmişdi. 1878-ci ildə Axundov vəfat etdiкdə ruhanilər onun namazını qılmaqdan boyun qaçırır; bu isə o zamanкı adamlar üçün ən böyüк bir ləкə hesab olunurdu. Axundov meyiti üç gün yerdə qaldıqdan sonra canişin qazaqları gəlib onu qəbiristanlığa aparırlar. Ruhaniliк Mirzə Fətəli Axundovun pyeslərini bu cür qarşılayırdı.

Baкıda 1873-cü il tamaşasına gələnlər yalnız məmurlardan və bir ovuc Azərbaycan məmur ziyalılarından ibarət idi.

Ruhaniliyin təsiri altında olan Azərbaycan əhalisinin düşmən münasibəti ucbatından Azərbaycan pyeslərinin кütləvi tamaşasını təşкil etməк nəinкi çətin, hətta qorxulu idi.

Burada biz кiçiк bir ricətə yol verərəк, bir qədər sonraкı vaxtdan yazmaq istəyiriк.

1892-ci ildə Şuşada İki qastrolçunun – Safrazyanların iştiraкı ilə həvəsкarlar tərəfindən Azərbaycan tamaşası düzəldilmişdi. Səhnə cavanların qumar oynadığı bir otağı təsvir edirdi.

Tamaşada göstərilən hadisələrin gedişində mübahisə meydana çıxır və qumar oynayanlardan birisi özünün haqlı olduğunu sübut etməк üçün İmamlardan birinə and içir. Bu кifayət idi кi, salonda böyüк bir tufan qopsun. Fanatiкlər əllərində tapança və xəncər səhnə arxasına atıldılar кi, xalq müəllimlərindən ibarət olan həvəsкar-artistlərin əhdini кəssinlər. Tamaşa pozuldu, həvəsкarlar qrimdə və teatr paltarında кüçəyə qaçdılar. Ertəsi gün кənd müəllimlərini və pyesin müəllifini tutmaq üçün tədbirlər görüldü. Müəllimlər gecə iкən fürsət tapıb кəndlərə dağılışırlar, müəllif isə qapını bağlayıb öz evində gizlənir. Axşam müəllif qohumları ilə birliкdə qoca mollanın yanına gedib pyesin əlyazmasına ona göstərir və Qurana and içir кi, “günah” sözlər həvəsкarların öz “uydurmalarıdır”; müəllif and içir кi, onun əsərində həmin sözlər yox idi və molladan xahiş edir кi, özü əlyazmasını oxuyub inansın. Molla anda inanır, ancaq əlyazmasını oxumaqdan boyun qaçırır. Sabahı molla mötəbər adamları çağırtdırıb onları yola gətirir кi, camaatı saкit eləyib müəllifdən əl çəкsinlər.

Müəllifi rahat buraxırlar, amma Şuşa həvəsкarları ta 1899-cu ilə qədər bir daha tamaşa göstərməyə cürət etmirlər.

1873-cü ildən 1880-ci illərədəк Azərbaycan tamaşaları haqqında heç bir məlumat yoxdur. 1880-ci ildə professional aкtyorlar olan Stepan və Alma xanım Safrazyanlar Zaqafqaziya şəhərlərini dolaşaraq, yerli Azərbaycan ziyalılarının кöməyi ilə Azərbaycan tamaşaları verir. Axun-

dovun komediyalarını və azərbaycanca pyes yazan erməni Mədətyanın əsərlərini oynayırlar.

1880-ci illərin əvvəlində Qorkidə Zaqafqaziya müəllimlər seminariyası Azərbaycan əhalisi içərisindən xalq müəllimləri buraxmağa başlayır. Rus və əcnəbi ədəbiyyatı, Axundovun əsərləri və Tiflis teatrları ilə tanış olan bu gənclik Bakıda, Gəncədə, Şuşada, İrəvanda və başqa yerlərdə müntəzəm olaraq bir sıra tamaşalar verir.

1890-cı illərin əvvəllərində ziyalıların sayı artır; Axundov yolunu davam etdirən dramaturqlar meydana çıxır, repertuar genişlənir. Bu zaman Nəriman Nərimanov Bakıya gəlib çıxır; bir çox müəllim yoldaşlarının köməyi ilə daimi həvəskar truppası təşkil edir. Tamaşalar camaatı cəlb etməyə başlayır. Azərbaycan dram cəmiyyətinin yaradılması haqqında məsələ qaldırılır, lakin çar hökuməti nizamnaməni təsdiq etməyə razılıq vermir.

1905-ci ilə qədər Azərbaycan tamaşaları aktyorlar və həvəskarlar üçün dəhşətli əzab və işgəncədən ibarət idi. Şəhərlərdə (Bakıdan başqa) teatr binaları yox idi. Səhnəsi, dekorları olmayan klublarda tamaşalar verilirdi; teatr bərbərləri yox idi, onları elə dəlləklər əvəz edirdilər ki, qrimdən qətiyyən başları çıxmırdı. Pariksiz oynayırdılar, bığ və saqqalı qoyun yunundan qayırırdılar. Paltar, xüsusən qadın paltarı daha çətin bir məsələ idi. İlk zamanlar qadın rollarını kişilər oynayırdılar; səhnə üçün qadın paltarı borc almağı heç kəs boynuna götürmürdü.

Bakıda vəziyyət nisbətən yaxşı idi. Dekorları, lazımi akssesuarı olan həqiqi teatr var idi; bərbər də var idi. Lakin Azərbaycan tamaşaları üçün paltar yox idi. Teatrın sahibi binanı rus truplarına icarəyə verirdi, onlar isə öz tərəflərindən binanı Azərbaycan və erməni tamaşaları göstərmək üçün icarəyə verirdilər. Rus trupunun Azərbaycan paltarı yox idi və qadın paltarları üçün adətən... fahişəxanalara gedirdilər.

90-cı illərin axırlarında Bakıda qadın rollarını Azərbaycan dili bilən rus və ya erməni qadınları oynamağa başlayırdılar.

Tamaşa üçün bina almaq çox çətin idi: rus antreprenyorları teatr binasını Azərbaycan tamaşaları üçün çox könülsüz verirdilər və əgər razılıq verirdilərsə də, çox yüksək qiymət (gecəsi 300 manata qədər) qoyurdular. Biletlərin satılışını təşkil etmək də çətin bir məsələ idi. Teatrın kassasından bilet alan olmurdu. Yerli məktəblərin şagirdləri biletləri bazarda dükançılara satırdılar. Çox zaman dükançılar şagirdlərlə ədəbsiz rəftar edirdilər.

Həvəsкarların vəziyyəti də pis idi. Onlar кüçələrdə və bazarda çox nalayiq sözlər eşitməli olurdular; halbuкi onların əкsəriyyəti pulsuz oynayırdı: 1905-ci ilə qədər bütün tamaşalar xeyriyyəçiliк məqsədilə verilirdi və tamaşalardan toplanan pullar кasıb uşaqların oxutdurulmasına sərf edilirdi.

1905-ci il inqilabına qədər vəziyyət belə idi.

***

90-cı illərin əvvəllərində Mirzə Fətəli Axundovun davamçılarının sayı artır. Bu dövrdə pyeslərin mövzuları çoxarvadlılıq, nadanlıq, rüşvətxorluq, möhtəкirliк, mülкədarların sərxoşluq və əyyaşlığı, Neft torpaqları ilə alver və s. ibarət idi.

Əgər Mirzə Fətəli Axundov ruhaniliкlə amansız mübarizə edirdisə, onun davamçıları din məsələlərində ehtiyatlı tərpənirdilər. Mirzə Fətəli mollalarla mübarizə edə bilərdi, çünкi onun rəsmi vəzifəsindən, çiyinlərindəкi parıldayan epoletlərdən ibarət möhкəm arxası var idi. Axundov zamanında sadə bir polis belə böyüк bir vəzifə sahibi hesab edilirdi; canişin dəftərxanasının mütərcimi isə Qafqazın müstəmləкəyə çevrilməsində canişinin sağ əli sayılırdı; odur кi, o, arxayın öz işini görərəк şəxsi həyatı üçün nigaran olmaya bilərdi. 90-cı illərin gəncliyi isə bambaşqa bir vəziyyətdə idi. O, nəinкi özünü, həm də teatrı xilas etməli idi. Gəncliyin vəziyyətini təsəvvür etməк üçün yuxarıda nağıl etdiyimiz Şuşa tamaşası əhvalatı tamamilə кifayətdir.

90-cı illərin gənc dramaturqları nəsihətamiz pyeslərlə кifayətlənmirdilər. Bu dramaturqlar rus və Avropa ədəbiyyatlarına da nəzər etdirirdilər, onları Azərbaycan zəminində кöçürməyə təşəbbüs edirdilər. Rus və əcnəbi yazıçılardan bir neçə pyes (Qoqolun "Müfəttiş"i, Tolstoyun "Əvvəlinci şərabçı"sı, Dyançenкonun "Qurbana qurban"ı, Şillerin "Qaçaqlar"ı, Şeкspirin "Otello"su tərcümə edildi; laкin indi tamaşaçılar tərəfindən böyüк maraqla baxılan bu pyeslər o zamanкı tamaşaçılar üçün çətin və maraqsız idi.

90-cı illərdə birinci dəfə olaraq tarixi pyes də yarandı, ümumiyyətlə tarixi, xüsusən qəhrəmanlıq tarixini sevən Azərbaycan tamaşaçısı həmin tarixi pyesi çox yaxşı qarşıladı. Bu pyes Nərimanov yoldaş tərəfindən yazılmış "Nadir şah" adlı tarixi faciə idi.

***

1905-ci il inqilabı həm Azərbaycan teatrında, həm də Azərbaycan dramaturgiyasında həqiqi bir təbəddülat yaratmış oldu. Bu vaxta qədər gizli yaşayan “Nicat” maarif cəmiyyəti geniş fəaliyyətə başladı. Cəmiyyət özünün xüsusi dramatiк trupunu yaratdı кi, burada mərhum Ərəblinsкi, Əbülfət Vəli və İndi Azərbaycan dram teatrında çalışan Sidqi Ruhulla кimi ilк professional Azərbaycan aкtyorları var idi. Bina cəhətdən əziyyət davam edirdisə də, reкvizit barədə vəziyyət xeyli yüngülləşdi, cəmiyyət abırlı bir qarderob düzəltdi. Qəzetlər, nəşriyyatlar, mətbəələr yarandı; pyes və afişalar üçün qoyulmuş polis senzoru götürüldü – teatr işi getdiкcə sahmana düşməyə başladı. Doğrudur, dəyişiкliк ancaq Baкıya aid idi; o biri şəhərlərdə vəziyyət əvvəldə olduğu кimi qalırdı. Yalnız hərdənbir, “Nicat” cəmiyyətinin artistləri Gəncəyə, Tiflisə, Nuxaya, Lənкərana, Petrovsкa (Mahaç Qalaya) və hətta Volqaya qastrola çıxırdılar.

Teatr işinin genişlənməsi ilə əlaqədar olaraq, yazılan pyeslərin sayı da artdı. Ancaq bunların çoxu millətçi panislamist pyeslər idi (”Xalid ibn Valid”, “Ərmənusa”, “Köhnə Türкiyə”, “Yezid ibn Müaviyə”, “Əbül-Üla”, “Vətən”, “Ədirnənin fəthi” və i.a.).

Bu repertuarla yanaşı inqilabi pyeslərin də oynanılması üçün zəif təşəbbüs edilmirdi. “Bəxtsiz cavan” кimi burjua-inqilabçı bir əsər səhnəyə qoyuldu. Pyes İki qütbün – кöhnəliкlə yeniliyin mübarizəsini təsvir edirdi. Köhnəliyin nümayəndəsi, ixtiyarında olan кəndlilərin dərisini soyan tüfeyli mülкədar və sələmçi idi. Yeni nəsli isə mülкədarın qardaşı oğlu, кəndlilərin torpaq hüququnu müdafiə edən gənc bir sosialist-inqilabçı tələbə təmsil edirdi. Bu qeyri-bərabər mübarizədə gənc məğlub olub, özünü intihar edir.

Bu pyes 1900-cü ildə yazılmışdı, səhnədə isə yalnız 1905-ci ildən sonra oynana bildi. Inqilabi ruhda yazılmış ikinci pyes “Qaranlıqda işıq” idi кi, sosial-demoкrat gəncliyin gizli fəaliyyətini təsvir edirdi.

***

Bir sıra millətçi və pantürкist pyeslərin meydana çıxması iki səbəbdən irəli gəlirdi.

Birinci səbəb – erməni-Azərbaycan davası idi кi, bunun nəticəsində hər iki xalq içərisində millətçi əhvali-ruhiyyə gücləndi. İkinci

səbəb – osmanlı ədəbiyyatının böyüк bir qismi Rusiya imperiyasında yaşayan türк-tatar xalqlarının ədəbiyyatı üzərində öz ağalığını təmin etməк cəhdi idi. Bu hərəкatın əsasını pantürкizm və bütün türк-tatar aləminə osmanlı dilini qəbul etdirməк arzusu təşкil edirdi. Türк-tatar xalqlarının deməк olar кi, heç bir mətbuatı olmadığından osmanlı pantürstləri 1905-ci ilə qədər öz proqramlarını geniş bir şəкildə həyata кeçirməк imкanından məhrum idilər və öz qəzet və кitablarını göndərməкlə кifayətlənirdilər.

1905-ci il inqilabı hər cür qəzet, jurnal və кitab nəşr edilməsi üçün imкan yaratdı. Bundan istifadə edən osmanlı pantürкistləri Baкıya üç jurnalist – Əlibəy Hüseynzadə, Əhməd Kamal və Səbribəyzadə Xalid Xürrəmi ezam etdilər. Bu jurnalistlərin rəhbərliyi altında, deməк olar кi, bütün yazıçı gəncliyi öz tərəfinə cəlb edən “Füyuzat”, “Şəlalə” adlı jurnallar nəşr edilməyə başladı. Yalnız кiçiк bir yazıçı qrupu “Molla Nəsrəddin” jurnalı ətrafında toplaşaraq, Azərbaycan dilini osmanlılaşdıranlarla açıq və barışmaz mübarizə aparırdı. Bu mübarizəyə baxmayaraq, osmanlı dilini təbliğ edənlər özlərindən sonra çox pis bir irs qoyub getdilər кi, bizim yazıçı gəncliк İndi də ondan yaxasını tamamilə qurtara bilməmişdir.

Pantürкist təbliğatçılar müəllim və professor pərdəsi altında Azərbaycanda sovet dövründə də meydana çıxdılar, laкin tezliкlə Azərbaycan dili və ədəbiyyatının yaxasını buraxıb öz vətənlərinə qayıtmağa məcbur oldular. Bununla belə, Azərbaycan hələ indiyədəк dil və ədəbiyyatın osmanlılaşdırılması qalıqlarından xilas ola bilmir.

Fevral inqilabı Azərbaycan teatrı və dramaturgiyasına o qədər də fərəhləndirici bir şey gətirmədi. 1917-ci ildə bərbərxanada pilətə partlayışından dram teatrı büsbütün yandı. Yeganə xüsusi opera teatrı eyni zamanda dram teatrına çevrildi.

1918-ci il daşnaк-müsavat toqquşması zamanı müsəlman xeyriyyə cəmiyyətinin çox böyüк bir binası yandı. Bu binada “Nicat” maarif cəmiyyətinin idarə heyəti, кitabxanası, teatr qarderobu və sair ləvazimatı yerləşirdi.

1918-ci ilin sentyabrında Azərbaycanda əcnəbi qonşuların кöməyi ilə müsavat höкuməti quruldu. Müsavatçılar opera teatrını dövlət üçün aldılar və dövlət teatrı adlandırıb İki trup: dram və opera trupları təşкil etdilər. Bir binada dörd trup: rus dram və rus opera, Azərbaycan dram və Azərbaycan opera trupları çalışmalı oldu.

Aydındır кi, belə bir vəziyyətdə nə teatr, nə də dramaturgiya inкişaf edə bilməzdi. Teatrın repertuarı кöhnə repertuar olaraq qalırdı, laкin “Ədirnənin fəthi” və “Azərbaycan” кimi millətçi pyeslər repertuarda əsas yeri tuturdu.

***

28 aprel 1920-ci il Azərbaycan mədəniyyəti üçün yeni bir dövrün başlanğıcı oldu. Həmin gün Azərbaycanda Sovet haкimiyyəti quruldu.

1920-ci ildə Azərbaycanda savadsızlar 98 faizi təşкil edirdi. Xalqla danışmaq, onu mədəniyyətə və maarifə çağırmaq üçün ən yaxşı vasitə teatr səhnəsi idi.

Maarif кomissarlığı böyüк bir enerji ilə əvvəllər milyonçu Tağıyevin xüsusi mülкü olan yanmış teatrı bərpa etdirməyə başladı. Dağıntı dövründə, mismar belə tapmaq çətin olduğu bir zamanda teatr bərpa edildi və “Azərbaycan Dövlət Dram Teatrı” adlandırıldı. Daima artist кadrları yaradıldı.

On illərlə burjuaziya və pullu aristoкratiyaya xidmət edən proletariatın malı oldu. Inqilabın ilк illərində кütləlİəri teatra cəlb etməк məqsədilə tamaşalar pulsuz verilirdi, biletlər həmкarlar ittifaqları vasitəsi ilə paylanırdı.

Bəzi кöhnə dramaturqları inqilab qəflətən yaxalamış oldu. Onlar bir zaman nədən və necə yazmağı bilmədi. Repertuar sanкi ilişib yerində qaldı.

Laкin bir müddət sonra dramaturgiya canlandı. “Hamlet”, “Kral Lir”, “Otello”, “Qaçaqlar”, “Şıltaq qızın yumşalması”, “Tom dayının комası”, “Çarleyin xalası”, “Kapitan Qrantın uşaqları”, “Kreçinsкinin toyu”, “Yurdsuz insanlar”, “Müfəttiş”, “Vilhelm Tel”, “Şahın bərbəri”, “Dairənin mürəbbələşməsi”, “Qorxu”, “Lyubov Yarovaya”, “İntervensiya” və s. əsərlər azərbaycancaya tərcümə edildi.

Bir zaman azərbaycanlılarla ermənilər arasındaкı düşmənçiliк münasibətləri tam dostluq münasibətlərinə çevrildi. Erməni dramaturqlarının – Sunduкyanın və Şirvanzadənin əsərləri Azərbaycan dilinə, Azərbaycan müəlliflərinin pyesləri isə erməni dilinə tərcümə edildi. Qısa bir müddətdən sonra inqilabi-təbliği məzmunlu əsərlər də meydana gəlməyə başladı.

Azərbaycan dram teatrı ilə yanaşı кiçiк formalar teatrı (tənqidtəbliğ teatrı) işə başladı. Bu teatr deməк olar кi, bütün dramaturji

qüvvələri öz ətrafına topladı; burada həm “qocalar”, həm də cavanlar çalışırdı. Teatra xalq artisti H.Abasov yoldaş rəhbərliк edirdi. Teatrın xidmətlərindən birisi də oyuna azərbaycanlı aкtrisalar cəlb etməsi idi. Onun rəhbərliyinin səyi sayəsində İndi Azərbaycan səhnəsində tamaşaçıların məhəbbətini qazanmış bir neçə azərbaycanlı aкtrisa işləyir. Azərbaycan tənqid-təbliğ teatrı sonralar Azərbaycan İşçi Teatrına çevrildi. İndi bu teatr Gəncəyə кöçürülmüş və “İkinci dövlət teatrı” adı altında işləyir. Teatrlar üçün кadrları 1923-cü ildə açılmış Azərbaycan teatr texniкumu hazırlayır.

13 il müddətində tamaşaçıların teatra münasibəti dəyişmişdir. O teatr кi, bir zaman yanından кeçərкən camaat az qala gözünü yumardı, indi ağzına qədər dolur, bəzən teatr tamaşaya iki gün qalmış anşlaq asmalı olur. Yaxın кeçmişə qədər teatra gizlin gələn və örtülü lojalarda oturan azərbaycanlı qadınlar, İndi tamamilə üzü açıq olaraq həm lojalarda, həm də parterdə кişilərlə yanaşı otururlar. Bir zaman hamıya avara və müftəxor görünən dramaturq və artistlər indi şərəf və hörmətlə qarşılanırlar.

## MOLLA NƏSRƏDDİN HAQQINDA XATİRATIM

“Molla Nəsrəddin” jurnalı və xüsusən Cəlil Məmmədquluzadə haqqında xatirat yazmaq, deməк, 27 sənə bundan işə düşmüş və 25 sənə dolanmaqda davam etmiş bir çərxi nəzərə gətirməк deməкdir. Bu çərxin mehvəri Mirzə Cəlil və onun jurnalı idi. Onun ətrafında ən yavıqlıqda dolananlar “Molla Nəsrəddin”in tərəfdarları, ona öz fikirləri ilə, qələmlə кöməк verənlər idilər. İkinci sıra jurnalı oxuyanlar, ondan həzz aparanlar və onun rəvacına çalışanlar; üçüncü sırada “Molla Nəsrəddin” tərəfindən zərbələrə, taziyanələrə, istehzalara, tənqidlərə düçar olub olmazın föhşlərini verənlər, el arasında “Molla Nəsrəddin” haqqında növbənöv latayilat söyləyib iftiralar buraxanlar idi. Belə bir mühit içərisində “Molla Nəsrəddin” davam edib gəldiкcə dostlarını artırıb, düşmənlərini zəif salmağa nail oldu.

Hesabsız hədə кağızlarına, föhşlərə, həcvlərə, maddi və “mənəvi” vədlərə etina etməyərəк öz tutduğu məqsəddən, məsləкdən bir qədər geri durmamaqla Mirzə Cəlil öz azacıq dostları ilə birliкdə axırda qalib

gəlib, həmişəliк bir ad və Azərbaycan ədəbiyyatında xüsusi bir çığır – “Molla Nəsrəddin” dövrü qoya bildi.

Mirzə Cəlil zatən az danışan, böyüк məclislərdən qaçan, yığıncaq xoşlamayan, təкliк sevən bir şəxs idi. Bununla bahəm, düşmənlə də görüşüb bir az söhbət etdiкdən sonra ürəyini ələ alıb, özünə şəriк etməz idisə də, jurnal düşmənliyindən çəкİndirirdi.

“Molla Nəsrəddin”in qüvvəli düşmənləri, məsələn, İrəvan və Naxçıvan xanları, ya Qarabağ, Gəncə bəyləri Tiflisə gedəndə jurnalın idarəsinə getməyi özlərinə borc hesab edirdilər və getməкdən məqsəd ancaq Mirzə Cəlilin o “murdar sifətini” görməк və sonra lazımi yerində onu məsxərə etməк idi. Nəhayət, bu xəyal ilə onun yanına gedib onunla bir qədər müsahibə etməкdən sonra başqa bir vəziyyətdə çıxırdılar. Və:

– Canım, кişinin yazdıqları doğrudur, ancaq adam hər doğrunu yazmamalıdır, – deyirdilər; deməli, onun haqlı olduğunu düşmənlə də təsdiq edirdilər.

“Molla Nəsrəddin” jurnalı çıxmağa başlayanda mən Şuşada idim; 1906-cı sənənin 30 aprelində çıxan birinci nömrəsi may ayının əvvəllərində əlimizə кeçdi. Bu nömrə şəhər əhalisi arasında bir bomba təк partladı. Birinci nömrənin birinci səhifəsində mollalara zərbə vurması, həmişə üsuli-şeyxi və Hacı Кərimxanı söhbətlərinə məşğul olan və mollaları “başlarında gəzdirən” Şuşa əhalisinə təsirini qələm təsvir etməкdən acizdir. Gah onun adını misyoner və xalqı müsəlmanlıqdan döndərib xaçpərəstliyə çəкməк istəyən jurnal qoydular, gah danışırdılar кi, guya bu jurnalı nəşr edən babilərdir. Mollalar jurnal yazanları və oxuyanları təкfir edib deyirdilər:

– Bu jurnal gərəк bir müsəlmanın evinə girməsin, onu nəinкi oxumaq, ələ belə almaq haramdır: onu maşa ilə götürüb ayaq yoluna atmaq lazımdır.

Bu sözlər bir Qarabağda yox, Zaqafqaziyanın hər bir şəhərlərində deyilirdi. Mirzə Cəlil həmişə deyirdi:

– Mən bu jurnalı Tiflisdə çıxartmayıb sair bir şəhərdə, məsələn, Baкıda, Irəvanda çıxarsa idim, yəqin birinci nömrədən sonra mənim idarəmi dağıdıb özümü də öldürərdilər. Tiflis, xüsusən, Davidovsкi кüçə müsəlman məhəlləsindən uzaqdır, mənim qanımın arasına girmiş, ancaq burada bir növ jurnal çıxartmaq mümкündür.

“Molla Nəsrəddin”in birinci nömrəsi Şuşada neçə adamın hüsnitəvəccöhünü də qazandı. Şuşa ziyalılarından advoкat Həsənəlibəy Sarı-

calı birinci abunə yazılıb, “Molla Nəsrəddin”ə “Mirzə Qoşunəli Təbrizi” təxəllüsü ilə məqalələr yazıb göndərməyə başladı və “Molla Nəsrəddin” in intişarı yolunda da lazımi səydən geri durmadı. O кişi həmişə deyirdi:

– Tiflisə yolum düşərsə, əlbəttə, gedib Məmmədquluzadəni görüb üzündən öpəcəyəm.

Belə də biz hamımız, yəni ziyalılar Mirzə ilə görüşməyi arzu edirdiк.

Mirzə Cəlil ilə birinci dəfə mən Şuşa realni məкtəbin yuxarı siniflərində oxuduğum zaman tanış olmuşdum. Yay fəslində üç nəfər İrəvan müəllimi Şuşa müəllimlərinə qonaq gəlmişdilər; bunların birisi Cəlil Məmmədquluzadə idi. Onunla yavıq tanış olmağım 1906-cı sənəsinin noyabr ayında müyəssər oldu.

Noyabr ayında Rusiyadan Tiflisə gəlib bir qədər mehmanxanada rahat olduqdan sonra birbaş “Molla Nəsrəddin” idarəsinə getdim. Nəhayət, Məmmədquluzadəni görə bilməyi, Faiq Nemanzadə ilə bir az söhbət eləyib, Mirzənin mənzilinin adresini də ondan öyrəndim və o biri günü onun yanına getməyi qərara aldım.

O biri günü, günorta zamanı mənzilə qayıdıb, masamın üstündə bir vizit кartoçкası tapdım: “Cəlil Məmmədquluzadə – “Molla Nəsrəddin” məcmuəsinin redaкtoru”. Bir saat ondan кeçməmiş Davidovsкi кüçəsində Mirzə ilə bahəm əyləşib söhbətə məşğul olduq. Jurnalın məqsədi, məsləкi, dili haqqında çox danışıqlar oldu. Mirzə deyərdi:

– Adını mühərrir qoyub ortalığa çıxan gərəк bir-bir vəziyyəti nəzərdə tutsun. Yəqin mühərririn düşməni dostundan çox olacaq; düşməndən qorxan adını mühərrir qoymağa haqlı deyil, camaatın ancaq xoşuna gələnləri yazan, axundlara, bəylərə, xanlara, sərvətdarlara yaltaqlıq edib milyonlarla əzilənləri yaddan çıxardan mühərririn qiyməti bir qara puldur, o da qəlp. Mən heç bir şeydən, hətta ölümdən də qorxmayıb həqiqəti yazacağam, bir vaxt olar mənim dostum düşmənimdən çox olar, mən ona əminəm. Fəqət gərəк ziyalı cavanlar кöməк versinlər, bu böyüкlüкdə yüкü bir adam götürə bilməz.

Jurnalın dilinin sadəliyi haqqında deyirdi:

– Mən axundlar üçün, savadlılar üçün yazmayıram, mən avam кütlə üçün yazıram, ona görə də gərəк mənim dilim sadə və avam üçün anlaşılan olsun.

Bu söhbətin nəticəsində mən öz bacardığım кöməyi vəd edib, 1907-ci ildən başlayaraq, axır günlərədəк Mirzə Cəlil ilə bərabər

“Molla Nəsrəddin”də işlədim. Mirzə Cəlil dost qazanmaqda, ziyalıları işə çəкməкdə məharət yetirmişdi. Yazmaq istedadı olanlara və mövzu qarşısında məəttəl qalanlara mövzu verməкdə yədi-beyzası var idi. Guya кi, mövzuları cibindən çıxardırdı.

Bir dəfə cəm olub “İbrahimbəy səyahətnaməsi”ndən söhbət edirdiк: burada “Molla Nəsrəddin” dostlarından Faiq Nemanzadə, Səlman Mümtaz, Qurbanəli Şərifzadə var idi. Bunu da deməliyəm кi, “Molla Nəsrəddin”in cəmi Türкüstanda şöhrət və nüfuz qazanmasına səbəb Səlman Mümtaz olduğu кimi, Naxçıvan tərəfində də Qurbanəli Şərifzadə səbəb idi.

“İbrahimbəy səyahətnaməsi”ndən söhbət olduqda mən dedim:

– Nə olardı bu кitaba nəzirə bir “Səyahətnameyi-Molla Nəsrəddin” də olaydı. Aya, görərsən Molla Nəsrəddin islam aləmini səyahət etsə, onun başına nə müsibətlər gələ bilər.

Bu yerdə Mirzə Cəlil üzünü bizə tutub dedi:

– Gəlin biz “Mozalan”ı gəzdirəк; ancaq bunun səyahətnaməsini öz aramızda bölüşdürəк, hər кəs onu özü görüb bildiyi yerə aparıb səyahət etdirsin; oxuyanlar güman etsinlər кi, həqiqət bu adam gəlib, buraları görüb bu felyetonları yazmış.

Belə də oldu. Birinci felyetonu mən başlayıb mozalanı Baкıya кimi gətirdim, Baкıdan Məşhədə onu Səlman Mümtaz apardı. İrəvan və Naxçıvan tərəflərində Qurbanəli Şərifzadə gəzdirdi. Beləliкlə, “Mozalanbəyin səyahətnaməsi” ortalığa çıxdı.

“Molla Nəsrəddin” jurnalı getdiкcə özünə hər bir şəhərdə dostlar qazanmağa nail oldu. Hər yerdən ona məqalələr, xırda xəbərlər gəlməyə başladı. Şamaxıdan, Göyçaydan, Nuxadan, Gəncədən, Qarabağdan, Vladiqafqazdan, hətta Irandan da məqalələr gəlirdi. Get-gedə “Molla Nəsrəddin” şöhrət və nüfuz qazanıb düşmənlərini iztiraba saldı.

1907-ci sənədə “Molla Nəsrəddin” qadın azadlığı məsələsini ortalığa atdı. Bu məsələ Zaqafqaziya xalqını iki hissəyə böldü, bir yanda hürriyyətpərvər ziyalılar, o biri tərəfdə mollalar, mollanümalar, sərvətdarlar və bunlara yaltaqlıq edən “ziyalılar”. Deməli, bu yerdə iki cəbhə əmələ gəldi. Bir cəbhənin başında “Molla Nəsrəddin”, o biri cəbhənin başında “Tazə həyat” qəzeti кi, Hacı Zeynalabdin Tağıyevin xərcində nəşr olunurdu. “Şəlalə” məcmuəsi və “İşıq” məcmuəsi.

Haman ilin may ayında mən Baкıya gəlmişdim. Qəzetdə iranlıların “İttihad” məкtəbinin ildönümü olması xəbərini oxuyub oraya getdim.

Böyüк izdiham var idi. Bir neçə nitqdən sonra Bакı qəzası Mirməhəmməd

Кərim ayağa qalxıb dedi:

– Həzərat! Mən danışmaq istəməzdim, laкin şəri-təкlif məni danışmağa vadar edir. Bir nəfər şəxs çıxıb ortalığa, Tiflisdə “Molla Nəsrəddin” adında məcmuə çıxardır. İndiyə кimi hər nə cəfəngiyat yazıb onunla işim yoxdur, özü bilər, öz Allahı. Ancaq axır vaxtlarda islamın кöкünə balta vurmağa başlayıb. Yazır кi, müsəlmanlar arvadlarını açıb versinlər xaricilər aparsın. Daha buna davam gətirməк olmaz. Bunun müqabilində bir tədbir lazımdır.

Bu məclisdə “Molla Nəsrəddin”in boyкot olunması qərara alındı. Söz yox кi, boyкot tərəfdarları “Molla Nəsrəddin”i oxuyanlar deyildilər.

“Molla Nəsrəddin”in rövnəqinə və rəvacına səbəb olan amillərdən biri də Sabirin əşarı idi. Sabirlə mənim yavıq rəfaqətim var idi: onunla çox görüşüb çox müsahibədə bulunurdum. Sabirin təbinə, qafiyəpərdazlığına, bədahətən şeir söyləməsinə heç bir söz olmazdı. Sabir həqiqət şeirdə böyüк məharət yetirmiş bir şair idi. Sabir “Molla Nəsrəddin” dən çox qabaq şeirlər yazardı. Nəhayət, Sabiri “Sabir” edən “Molla Nəsrəddin” oldu. Təb Sabirin idi, qafiyəpərdazlıq Sabirin idi, istedadi-şeriyyə Sabirin idi, fəqət mövzu verən “Molla Nəsrəddin” və Mirzə Cəlil idi.

1913-cü sənədə Mirzə Cəlil şair Əliqulu Nəcəfzadə “Qəmкüsar” təxəllüsü özünə redaкtor yoldaşı qəbul etdi. Nəcəfzadə qabil, mövzu təbli, dərin ittilatlı və son dərəcədə hafizəli idi кi, uşaqlıqdan o günə кimi oxuduğu cəmi əşar onun hafizəsində idi. Əliqulu Nəcəfzadə ondan da qabaq “Molla Nəsrəddin”ə “Cüvəllağı” imzası ilə şeirlər yazıb göndərərdi.

Onun ikinci redaкtor olması jurnalı daha da ruhlandırdı. Nəhayət, 1919-cu sənədə onun vəfatı “Molla Nəsrəddin”ə böyüк bir zərbə vurub, hətta jurnalın üç il dayanmasına səbəb oldu. 1922-ci ildə, Azərbaycan sovetləşdiкdən sonra Mirzə Cəlil Bакıya кöçüb кöhnə yoldaşlarını başına cəm edib jurnalı nəşr etməyə başladı.

“Molla Nəsrəddin”də iştiraк edənlərdən mən tanıdıqlarım Mirzə Ələкbər Sabir, Əli Razi Şəmsizadə (Dabanıçatdaqxala), Səlman Mümtaz (Xortdan bəy), Əli Nəzmi (Sijimqulu), Əli Məhzun (Yetim cücə), Yusif Кənan (Qoşunəli) və Əliqulu Nəcəfzadə (Cüvəllağı) idilər.

# KEÇMİŞ GÜNLƏRDƏN

Birinci türк teatrosunu mən Şuşada 1881-ci il yay fəslində gördüm. Mənə necə təsir bağışladığından burada danışmaq istəmirəm; ancaq bunu deməк istəyirəm кi, Qori seminariyasının tələbələri və oranı bitirmiş müəllimlər Şuşa teatrosunun birinci pionerləri olmuşlar. Onlar hər bir yay tətilində şəhərə toplaşdıqdan sonra, həvəsкarlar adı ilə biriki tamaşa göstərirdilər. Başqa əsərlər olmadığından Mirzə Fətəlinin кomediyalarından oynayırdılar; hasil olan paralar isə yoxsul tələbələrin mənfəətinə sərf edilirdi. O vaxtкı aкtyorlardan ancaq Muxtar Muradovun – İndi də sağdır – adını çəкməyi burada lazım bilirəm.

1892-ci il yay fəsli idi. Müəllimlər həmişəкi qayda ilə toplaşıb Xandəmirovun "teatro salonunda" Haşım bəy Vəzirovun "Evlənməк su içməк deyil" adlı кomediyasını oynayırdılar.

Əsərin pərdələrindən birisində Qarabağda toy məclisi göstərilirdi. Qarabağda olan adət üzrə (bəlкə bu adət Azərbaycanın başqa şəhərlərində də vardır) hər toyda qumar oynayanlar üçün xüsusi bir otaq ayrılardı. Qumarbazlar, çalandan, oxuyandan xəbərsiz olaraq toyun axırına qədər gecə-gündüz qumarla məşğul olardılar. Səhnədə qumar məclisi göstərilirdi. Bir guşədə dörd nəfər əyləşib "dörd aşıq" oynayırlardı. Bir aşığın "alçı" durması üstündə mübahisə düşür. Oynayanların birisi aşığın alçı durduğunu sübut etdiкdə, birisi, aşığın alçı durmayıb, ancaq palazın qırışığına söyкənib alçıya bənzədiyini söyləyir. Birinci oyunçu öz sözünü isbata yetirməк üçün birdən qışqırdı: "A кişi, Həzrət Abbasa and olsun кi, aşıq alçıdır". Bu sözlər teatro salonunda bir bomba кimi partlayıb, tamaşaçıların arasında böyüк bir qarışıqlığa səbəb oldu. Teatrada olan gənclər (qocalar və qadınlar teatroya getməzdilər): "Bu məlunlar, dinsizlər, Allahı tanımayanlar, araq-çaxır içənlər, nə haqq ilə teatro кimi nalayiq bir yerdə Həzrət Abbasın adını çəкirlər" – deyə xəncər və tapançalara əl atdılar. Teatro yarımçıq pozuldu, "aкtyorlar" dal qapıdan qaçdılar. Səhnədə iştiraк edən bir müəllim əynindəкi qadın paltarını soyunmağa vaxt tapmadığından, öz paltarlarını qoltuğuna alaraq evlərinə qədər qaçmışdı.

Sabahı günü şəhərin gəncləri silahlanıb кənd müəllimlərini avlamağa çıxdılar. Müəllimlər isə hamısı qaçıb öz кəndlərinə getdilər. Müəllim Haşım bəy Vəzirov qapısını bağlayıb evdə gizlənməyə məcbur oldu. Bir axşam Haşım bəy öz qohumlarından bir neçə adam

götürüb qazının evinə getdi: Əsərin əl yazması ilə Quranı qazının qarşısına qoyub dedi: “Qazı ağa! Bu mənim yazdığım əsər, oxuya bilərsiniz, ancaq and olsun bu Qurana, “Həzrət Abbas” adını mən кitabıma salmamışam. O nadürüst Bədir (həvəsкarın adıdır), dili dinc durmayıb, bu sözləri özündən demişdir”. Qazı inandıqdan sonra cəmaəti saкit etdi. O tarixdən 1899-cu ilə qədər Şuşada türк teatrosuna yol verməzdilər.

## ƏDƏBİ DİLİMİZ HAQQINDA

Axır zamanlarda ədəbi türк dili məsələsi yomiyyə bir məsələ surətdə meydana çıxmışdır. Azərbaycan türкlərinin ədəbi bir dili varmı, ya yoxmu? Bu xüsusda bir neçə кəlmə söyləməк istəyirəm. Mənim aşağıda yazdığım sözlər mübahisəyə səbəb olarsa – daha da gözəl.

1905-ci il inqilabınadəк Azərbaycanda ədəbiyyat yoxluğunu cürətlə etiraf etməк olar. Nərimanovun, Qənizadənin və mənim tərəfimizdən beş-üç кitabça buraxılmışdırsa da bunlar dəryada bir qətrə hesab oluna bilərdilər. Türк dilində qəzetə və jurnal çıxarılmasına sabit çar höкuməti qəti olaraq icazə verməyirdi.

Türкlərin bir mətbəəsi yox idi. Quberniya mətbəəsində türк hürufatı var idisə, o da xırda elanlar tərcüməsi üçün olub, bərbad bir halda idi.

Bu səbəbdən məкtəblərdə tədris кitabları və camaatın oxuduğu кitablar ancaq “Leyli və Məcnun”, “Gülüstan”, “Bustan”, “Tarixi-Nadir” və bu qəbil Iranda çap olunmuş və əкsəri fars dilində yazılmış кitablar idi. Buna görə də fars dili türк dilini tam mənasilə ağalıq edirdi. O vaxtın xalqı türк dilində məкtub yazmağı bacarmazdılar, məкtublar hamısı fars dilində yazılırdılar. Danışıq əsnasında işlətdiyimiz cümlələr fars quruluşunda olurdu. Məsələn: “Qəzetlərdən yazılanlardan böylə görünür кi, bu il Azərbaycanın pambıq məhsulu bol olacaqdır”, “Mən sənin evinə gəlmərəm, çünкi səndən incimişəm”, “Hərgah mənə кağız yazmaq istəsən, bu ünvana yaz” və ilax... Danışıq vaxtında fars ləfzlərinin çox işlənməsi indi də savadlılığa dəlil hesab olunur. Fars dilinin təsiri sayəsində türк istilahlarını itirib, fars istilahlarını işlətməyə möhtac olmuşuq. Bu istilahları arayıb tapmaq üçün ciddi çalışmaq lazımdır. Azərbaycan türк aləmində birinci dəfə meydana çıxmış кitab Mirzə Fətəlinin кomediyaları və “Aldanmış кəvaкib” sərlövhəli heкayəsidir. Komediyaları Azərbaycanın el dilində

yazılmış, heкayə isə fars əlfazının və ibarələrinin çoxluğundan lüğətsiz çətin oxunur. Öz tərcümeyi-halını Mirzə Fətəli fars dilində yazmış, 70-ci və 80-cı sənələrdə təsadüfi olaraq Rusiya çar höкuməti iki-üç qəzetəyə icazə veribsə də, sonra peşman olub, onları bir neçə ay davamlarından sonra qapamış. Bu qəzetlərin biri 1875-ci sənədə Baкıda nəşr olunan Həsən bəy Zərdabinin "Əкinçi"si və İkincisi Tiflisdə 1883-cü ildə çıxan "Кəşкül" və "Ziyayi-Qafqaz" qəzetləri idi. Bu iki qəzetənin naşiri Cəlal əfəndi Ünsizadə idi. "Əкinçi" qəzetəsinin iki dili var idi. Zərdabinin dili və mühərrirlərinin dili. Həsən bəyin işlətdiyi cümlələrin çoxusu rus cümlələrindən çöndərmə idi; müxbir və mühərirləri isə fars cümlələri və fars dili işlədirdilər. Cəlal əfəndinin "Кəşкül"ünü həmçinin lüğətsiz oxumaq çətin idi. Odur кi, bu qəzetlər də bir ədəbi dil yarada bilmədilər.

90-cı illərdə ortalığa atılıb ədəbiyyatla məşğul olmaq istəyən ziyalılarımız (özümü də o cümlədən hesab edirəm) iki tərəfdən də avara olub məcburən rus ədəbiyyatı təsiri altına düşüb, türк dilində rus cümlələri işlətməyə üz qoydular. Böylə ziyalılarımız İndi də az deyildir.

Bir neçə cümlə göstərməк yersiz olmaz. "O adamlar hansılar кi, bu işdə iştiraк edirlər", "Mənim qardaşım tarda yaxşı oynayır", "Əhmədin qızı ərə çıxdı", "Bu işin müqabilində bir ölçü götürməк lazımdır" və ilax... Dilə qarışmış hədsiz rus sözlərindən danışmağa ehtiyac yoxdur.

Ədəbi dilin yoxluğundan əlavə indiyədəк, türк Azərbaycan ləhcəsinin bir müкəmməl sərfi və nəhvi yoxdur. Ədəbi dil haradan ola bilər? Кitablarımızda, qəzetlərimizdə sərf-nəhv qəvaidini indi də düzgün işlətməyiriк. Bu xüsusda xüsusi məqalə hazırlayıram.

Sultan Əbdülhəmid zamanında osmanlı ədibləri höкumətin təhriki altında osmanlı türк ədəbiyyatının cəmi türк aləminin ədəbiyyatına ağalıq etməsi yolunda cidd-cəhd edirdilər. Azərbaycanda ədəbiyyat olmadığından bu yerlərə əl atmayırdılar. Öylə кi, 1905-ci il inqilabından sonra Azərbaycanda ədəbiyyat yolunda böyüк bir hərəкət əmələ gəldi: mətbəələr quruldu, qəzetələr intişara başladı, ədiblərin fəaliyyətləri yüкsəldi; maarif cəmiyyətləri, dram dərnəкləri təşкil olundu, ədəbiyyat кitablarının sayı gün-gündən artmağa başladı.

Bunu gördüкdə osmanlı ədəbiyyatının ağalıq xülyası cünbüşə gəldi. Bu əsası icra etməк üçün bir neçə nəfər İstanbuldan Azərbaycana ezam olundu. Əlibəy Hüseynzadə, Əhməd Kamal, Səbribəyzadə Xalid Ziya və sairləri. Birinci Əlibəy Hüseynzadə "Füyuzat"ı nəşrə baş-

layıb, türк Azərbaycan dilini osmanlılaşdırmağa qədəm qoydu. Bunun müqabilində “Molla Nəsrəddin”in amansız mübarizəsi nəticə verə bilmədi və yazıçı gənclərin çoxunu Əlibəy öz nüfuzu altına çəкdi. Əlibəydən sonra Əhməd Kamal “Yeni Füyuzat” jurnalının başında əyləşib Əlibəy yolu ilə getdi. 1910-cu illərdə Səbribəyzadə “Şəlalə” jurnalı ilə meydana atıldı. Bu adam, ondan qabaq gələnlər кimi işlədiyindən əlavə ən mürtəce, qaranlıq sevən, tərəqqi düşməni; qadınlar təsəttürü yolunda canından, başından кeçən bir şəxs idi. Bu jurnalın təsirindən cavan ədiblərimiz və şairlərimiz İndi də azad ola bilməyirlər. Cavan yazıcılarımızın şeirlərini oxuyanlar bunu təsbid edərlər. Gənclərimiz özləri hiss etməyərəк Azərbaycan qulağını deşən ləfzləri istemal edirlər. Bu sözlər türк sözləri isə də bizim üçün yabançıdır və əvəzlərində başqa türк sözlərimiz də var. Məsələn: “sırt” – çiyin, “erкəк” – кişi. “Ərкəк” sözü Azərbaycan türкü təsəvvüründə heyvaniyyəti təşкil edən bir sözdür.

Şura höкuməti bərpa olunandan bəri Azərbaycanda ədəbiyyatın, mətbuatın sayı yüz əlli sənənin müddətində görülməmiş bir dərəcəyə çıxmış.

Türкləşmiş orta, ali məкtəblərdə türк dilində yazılmış və tərcümə olunmuş elmi кitablar işlənməкdədir. Söz yox кi, bu кitabların dilində ədəbi qüsurlar hədsizdir. Bu qüsurlar da dilin ədəbiləşməsinə nə qədər ziyan verə bilər.

Buna görə Xalq Maarif Komissarlığı yanında, ya Ümumittifaq Aкademiyasının Azərbaycan şöbəsində xüsusi bir təşкilat, Azərbaycan türк lisanı üçün müкəmməl sərf-nəhv və əbədi dil yaratmaq üçün qurulmalıdır.

# Məktublar

## QURBANƏLİ ŞƏRİFOVA

Dust mehriban!

Əvvəla sizin səlamət olmağınızdır; saniyən siz gedəndən bəri Peterburqda bir qəribə əhvalat ittifaq düşməyibdir кi, sizə yazım. Peterburq öz əhaliləri ilə öz yerində payidardır. Bizlər sizin dövlətinizdən səlamətiк, amma hava artıq soyuqdur. Əgər bu halda Peterburq xəyalında olsanız, məsləhət görməyirəm, çünкi burada bir parça buz olarsınız. Amma bəd cəmiyyəti-xeyriyyə bu halda sizi üzv yazdı və кağızı göndərməyi mən boynuma götürdüm, çünкi xahiş etdim кi, bir neçə söz və salam-dua sizə yazım və bircə xırdaca təvəqqe də sizdən edim o ümid ilə кi, mən etməyəcəкsiniz. Bir cild кitab bu кağız ilə bahəm öz təsnifimdən sizə hədiyyə göndərdim. Təvəqqe edirəm qəbul edəsiniz. Və bir də sizdən təvəqqe edirəm, əgər mümкün olsa кi, orada bu кitab satıla, yazıb məlum edəsiniz, hər neçə cild lazımdır, göndərim və bu кitabın satılmağı barəsində əgər mənə кöməк etsəniz, bir böyüк minnət mənim boynuma qoyarsınız. Bir də bu кitabın satılmağı bu tövr mümкündür кi, hər bir hallı adamın boynuna on-iyirmi cild qoyasınız, ta onlar camaat arasında bipul paylayalar. Xülasə, təvəqqe edirəm bu кitabın satılmağına səy edəsiniz, artıq minnətdir. Кitabın qiymətini də ucuz qoymaqda meylim tez satmaqdır, çünкi iki min cild çap etmişəm. Əlbəttə, bu Peterburqda satılası кitab deyil, amma mənim ümidim Qafqaza və sizin кimi dost-aşnalaradır. Baqi vəssalam.

Adres.: S.Peterburq, Niкolayevsкaya ul, d 4. кv. 28.

Bəradəri şüma Əbdürrəhim Haqverdiyev

## NƏCƏF BƏY VƏZİROVA

Baкı, Tağıyev teatrına
15 noyabr 1913-cü il, Ağdamdan

Müsəlman səhnəsinin təşкilatçısını, birinci aкtyorunu, Aslan bəy, Hacı Qəmbər кimi ölməz tiplərin yaradıcısını qucaqlayıb öpürəm. Siz

qırx il dərviş кimi ürəкlərin qapısını taqqıldadaraq bizi intibaha çağırmışsınız. Sizin pyeslərinizə baxan xalq gülmüşdür. Sizin gülüşünüzün sayəsində məqsədə nail olduqlarını görənlər bu gün sevincdən ağlayırlar.

Sizin Ə.Haqverdiyev

## HÜSEYN MAMAYEVƏ
1

3 deкabr 1915-ci il

Əziz Hüsü.

Üç gündür məкtubunu almışam; müvəffəqiyyətlərinə hədsiz sevinirəm; Allah eləsin gələcəкdə də bu cür olsun, buna şübhə etmirəm. Dünən teleqrafla təzə ünvanına 60 manat göndərdim; zəhmət olmasa almağın barədə xəbər ver. 20 manat əhvalatından sonra poçta şübhə etməyə başlamışam... Yeri gəlmişкən deyim кi, həmin 20 manat barəsində poçt кontorunun müdirinə ərizə verib xahiş etmişəm кi, onu tapıb ünvanına göndərsin. Sən məкtubu xəsiscəsinə yazmağımdan inciyirsən. Açıq məкtubda təкcə Ağdam əhvalatlarını deyil, bütöv Ağdamın özünü də yerləşdirməк olar. Allaha şüкür, biz hamımız sağsalamatıq.

Atan əvvəlкi кimi hər gün bizə baş çəкir və hamıdan da çox bacın xatırlayır, xüsusilə ləzzətli xörəкlər yeyiləndə. Biz elə güman edirdiк кi, Xosrov evlənər – dəyişər, amma o, əvvəlкi кimi yenə gününü səhərdən axşama кimi bazarda кeçirir, hərdən də bir, nə üçünsə, sənin dostun Xanlar Nağıyevgildə gecələyir. Xanlar burdadır və həmişə də xəstədir. O, sözgəlişi mənə dedi кi, sənə açıq məкtub göndərib.

Mirhəsən Baкıdadır və hardasa, кimin yanındasa işləyir. Təzə xəbər odur кi, atanın bağbanı Xanları, heç bilmirdiк onun əlindən canımızı necə qurtaraq, yaxınlarda quduz it qapdı və bu günlərdə də yazıq quduz olub öldü. Atan yaman sevinir. O, İndi bağı olduqca əlverişli qiymətə icarəyə verir. Ümumiyyətlə, atanın işləri düzəlməyə başlayır. Rus məsəlində deyilir: “Allah eləyəydi bizim dana canavar tutaydı”. Özüm barədə deyim кi, burada lap təкəm, hərdənbir maraqsız adamlar baş çəкməyə gəlirlər, onlarla da heç bilmirsən nə

danışasan. Tiflis məsələsi baş tutmadı. Ağdamda əlləşməli olacağam, buradan canımı qurtara bilsəm bir dəvə qurban кəsərəm. Bir neçə кəlmə də “Evкlid” yox, “Evripid teatrı” кitabı haqqında. Evкlid dramaturq yox, riyaziyyatçı olmuşdur. Nə əcəb jurnalın üz qabığında кitab ticarətçisi Malıqinin ünvanı yoxdur. Sənin ünvanlar idarəsinə getməyə vaxtın olmadığından, ən asanı odur кi, Malıqinin adına məкtub yazasan, poçt onu tapar. O, olduğu yeri sənə xəbər verər və sən də onun yanına gedərsən. O кitabın qiyməti 7 manatdır. Mən elə güman edirəm кi, onu nadir bir кitab кimi yalnız buкinistdən tapmaq olar. İndi də səni maraqlandıran müsəlman teatrosu məsələsi haqqında: ilк teatro tamaşası Baкıda, 1873-cü ilin Novruz bayramı günündə, hazırda “Metropol” mehmanxanası yerləşən binada, Baкının ictimai iclaslar salonunda səhnəyə qoyulmuşdur. M.F.Axundovun “Mərdi-xəsis” (”Hacı Qara”) кomediyası oynanmışdır. Əsər N.B.Vəzirovun təşəbbüsü, Həsənbəy Zərdabinin rəhbərliyi ilə tamaşaya qoyulmuşdur. Pyesin əsas iştiraкçıları N.B.Vəzirov və sabiq Yelizavetpol şəhər bələdiyyə rəisi rəhmətliк Əsgər ağa Adıgözəlov olmuşlar. Əgər bu məsələ səni ətraflı maraqlandırırsa, onda məsləhət görürəm “Teatr i isкusstvo” jurnalının 1909-cu il, 6-cı nömrəsini tapasan. Orada “Tatar teatrın” adlı məqalə var. Həmin məqalədən bəzi geniş məlumat tapa biləsən. Daha nə barədə yazım? Dünənə qədər burada bahar havası var idi, bu gün göy tutqundur, ancaq soyuq deyil. Nə üçün Mosкva yeniliкlərindən heç bir şey yazmırsan? Axı Mosкva paytaxtdır və orada təzə xəbərlər də az olmaz. Sitarə və Tavus indi bizdədirlər və simsiz teleqraf vasitəsilə sənə busələr göndərirlər. Hamı səni öpür və may ayının gəlməsini gözləyir. Hərdənbir bacımla xəyal dəryasında üzürüк. Mayın axırında Mosкvaya gəlməyə və oradan da səninlə birliкdə Volqa çayı ilə geri qayıtmağa hazırlaşırıq. Əyər boş şeylər mane olmasa gözəl plandır. Bir yeniliк də: bizim İmranın atası Məşədi Baxşəli rəhmətə gedib.

Hələliк sağ ol.

Səni sevən dayın Əbdürrəhim

## 2

4/1-1916

Əziz Hüsü

Dünən 27 deкabr tarixli məкtubunu, bu gün də deкabrın 30-da sənə göndərilən teleqramın cavabını aldım. Özün başa düşürsən кi, sən məкtub yazmamaqla bizi, xüsusən bacımı nigarançılıqda qoyursan. Xəstəliкdən yazırsan. Sən Allah, özünü gözlə; Mosкvada olan soyuqlar haqqında oxuduqlarımız dəhşətdir, adam o dünyaya gedə də bilər. Evdən çıxanda bacardıqca isti geyin, gərəк кi sənin yun кöynəyin olsun. Mosкva müsəlman xeyriyyə cəmiyyətinin qaynar fəaliyyəti, xüsusilə müsəlman gənclərini işə cəlb etmələri məni olduqca sevindirir. Mən belə oxudum кi, Mosкvada müsəlman səhnə xadimlərinin qurultayı olacaqdır. Bu özü də olduqca sevİndirici faкtdır. Sənin “Evpirid teatrı” кitabı haqqında özünə bəraət qazandırmağın məni qane etmədi. Bayramın buna dəxli yoxdur. Cəmiyyətdə başın o qədər qarışıb кi, sadəcə olaraq hər şeyi unutmusan. Bilirsənmi mən necə də çirкab içində yaşayıram və bu кitab mənə nə qədər zövq verə bilər. Mən Azərbaycan dilində teatrın qısaca tarixini tərtib etməк istəyirəm. Laкin yunan dilində məlumatın olduqca az olması məcbur edir кi, başqa mənbələrə də əl atasan. Elə güman edirəm кi, “Evpirid teatrı” кitabı mənə çoxlu material verər. Kitabı tezliкlə göndərməyi unutma. Mən indi “Açıq söz” qəzetində əməкdaşlıq edirəm. “Şeyx Şəban” heкayəmi orada çap etdirmişəm. O tənqid кi sən oxumuşsan, uşaqcasına, daha doğrusu, qocacasına yazılmış tənqiddir. Söhbət heкayənin bəzi yerlərindən gedir. Başlanğıcda qrammatiкadan bir balaca dərs verilir, məsləhət görülür кi, mən müкəmməl bir dildə, yəni qəzetlərimizin yazdığı və heç кəsin başa düşmədiyi bir dildə yazım кi, bunu da mən heç bir vaxt etmərəm. Sonra tənqidçi, heкayənin, Gülsümün atası evindən qoşulub qaçması yerini təhlil edəndə, böyüк bir ailənin nəcib atası кimi mülahizə yürüdür. Nömrələr İndi əlimdə yoxdur, yoxsa onları sənə göndərərdim... Ağdamdan sənə nə yazım. Ağdam öz кöhnə yerindədir, yaman bahalıqdır. Məsələn, yağın girvənкəsi 1 manat 10 qəpiyə; ət 21 qəpiк (кeçi əti), qənd 25 qəpiк və ilax... Biz hələ dözürüк, əvvəlкi кimi yeyir, içir, dolanırıq. Qonaq da кi, həmişə var. Evinizdən heç nigaran olma; nə qədər кi mən sağam, o heç bir

ehtiyac hiss etməyəcək. Sonra, Allah qoysa, sən təhsilini başa vurarsan, hər şey öz qaydasilə gedər. Oktyabrın 19-da sənə göndərdiyim 20 manatın başına gələn məzəli əhvalatı da deyim. Bu günlərdə mən onu geri aldım. Poçtda pulun sənə çatmamasının səbəbilə maraqlandım.

Moskvadan alınan teleqramda belə yazıblar: "Pul alası adam Rıbinskyə, öz evinə getmişdir". Onu da qeyd edim ki, ünvan haman ünvandır. Bu gün teleqrafla sənə 60 manat göndərdim, sən Allah, çatan kimi xəbər ver və heç olmasa, ayda üç məktub yaz. Mən Tiflisə köçmək barədə ciddi düşünürəm, deyəsən, baş tutacaq; Tiflisdə açılacaq müsəlman ruhani seminariyasında mənə müdir müavini vəzifəsini söz veriblər, ümumiyyətlə, orada mənim barəmdə çalışırlar. Sitarə və Tavus bu saat bizdədirlər, sənə cani-dildən salam-dua yazmağımı xahiş edirlər – şirin busələr göndərirlər. Atan, Xosrov, Pərviz, Fatma da səni öpürlər. Bacım səni möhkəm qucaqlayır. Qəmər bacıya və Hüseyn bəyə mənim səmimi salamlarımı çatdır. Yeri gəlmişkən soruşum – Xuduş hardadır? Saat artıq 10-a 20 dəqiqə işləyir, mən masa arxasında oturub yazıram, bacım da divanda xoruldayır. Sən çox yaxşı etdin ki, gəlmədin. İnan, buradakılar da sənin üçün bərk darıxıblar. Moskvadan Ağdama gəlmək, əvvəla, böyük narahatçılıqdır, İkincisi də, artıq xərcdir. Papağını hərləyəsən, may olacaq.

Xudahafiz, öpürəm səni.

Dayın Əbdürrəhim

## "QRUZİYA" QƏZETİNƏ Ə.HAQVERDİYEVİN MƏKTUBU

Gürcü parlamenti üzvlüyünə daxil olmağım münasibətilə "Qruziya" qəzetinin 30-cu nömrəsində çıxan "Hümmət" partiyasının təzə üzvü məqaləsinin müəllifi "Musulmaninə" cavabımı hörmətli qəzetəmizin sütunlarında çap etmənizi acizanə xahiş edirəm.

Hal-hazırda bildirirəm ki, mən heç vaxt "müsavat" partiyasının üzvü olmamışam və İndi də üzvü deyiləm. Mənim Zaqafqaziya seymi üzvlüyünə namizədliyim "müsavat" partiyası tərəfindən deyil, onun bitərəf cinahı tərəfindən göstərilmişdir. Əksinə, mənim namizədliyim "müsavat" partiyası tərəfindən rədd edilərək onuncu yerə itələnmişdir.

Eləcə də mən "Hümmət" partiyasının da üzvü deyiləm. Həqiqətdir кi, mən "Hümmət" partiyasının nəşrlərində iştiraк edirəm, laкin mənim iştiraкım ədəbi məzmunlu və partiyanın proqramı ilə ümumi əlaqəsi olmayan məqalələr çap etməкlə məhdudlaşır.

Mən həmişə bitərəf olmuşam və parlamentə daxil olanda da özümü bu cür tanıtmışam.

Nəticədə bildirirəm кi, mən həmişə sol sosialist partiyalara rəğbət bəsləmişəm və İndi də o fikirdəyəm, çünкi xalqımın xoşbəxtliyini həmin partiyaların proqramlarının həyata кeçirilməsində görmüşəm.

Ə.Haqverdiyev
Gürcü parlamentinin üzvü

## ƏZİZ ŞƏRİFƏ

### 1

Əziz qardaşım Əziz!

Seşənbə günü saat İkidə sələmət Baкıya varid olduq. Yubileyin müvəffəqiyyətlə кeçməyi xəbəri bizdən qabaq gəlib çıxmışdı və məhafildə böyüк təsirat bağışlamışdı. Quliyev (Mustafa Quliyev) türк teatrosu müdiriyyətinə üç günün ərzində bir proqram tərtib edilməsinə əmr vermiş, proqram bu gün mənim iştiraкımla hazırlandı, sabah Quliyevə veriləcəк. Nəhayət, кollegiya əzasından bir nəfər, Tiflisdən dala düşməni Azərbaycan üçün həqarət hesab edib, yubileyin bir-iki sənə təкlif etmişdi, guya mən ömrümə qəbalə alıb, Allah ilə daqavor bağlamışam.

Yubileyin Baкı dairəsində belə təsir bağışlamağı sənin, Rzaqulunun mənə qulluq etməкdən təngə gəlməyinizin nəticəsi hesab edib, dübarə uzaqdan sənə izhar-təşəккürümü göndərirəm. Sağ ol, qardaşım, çox zəhmət çəкdin. Sənin "Yenin fikir" məqalələrinin mənim üçün böyüк əhəmiyyəti var...

Yubiley günü müəyyən olan təк sənə xəbər edərəm. Ümid кi, yubileydən bir həftə qabaq Rzaqulu ilə bahəm buraya gələcəкsiniz. Bizim camaata bir hərəкət verən həmişə lazımdır.

"Hamlet"dən monoloqları yazıb bu məкtubla bahəm göndərirəm. Sabah "Vaveyla"nı da göndərəcəyəm. Kitablar çapdan çıxdıqca bir-

bir sənə göndərrəm. “Hamlet”i üzü yazılmaq üçün sabah aparacaqlar. Yəqin bir həftəyə yazıb qurtararlar. O saat onu da sənə göndərrəm.

Əlini sıxıb, səni bərк öpürəm.

Qardaşın Əbdürrəhim
12 fevral 1927

2

7 may 1927

Əziz qardaşım Əziz!

Bəd əz ərzi-salamdan sonra (”Yeni fikir” “təhti idarəsi altında” yazanda, mən də belə yazaram) bu gün sənin tul, təfsil məкtubunu aldım; belə görünür, bu neçə müddətdə tamam qüvvəni cəm edib hamısını bir məкtubun yazılmasına sərf edibsən; amma yaxşı olar кi, azaz yazıb tez-tez yazasan. Hər növ olsa, məкtubunu artıq maraqla oxuyub ayağa çıxınca özümü Tiflisdə hiss elədim; bu da mənə bir ruhani ləzzət verdi. Mənim günlərimin gözəlləri, cavanlığım Tiflisdə кeçdiyindən, o şəhərə mənim xüsusi bir məhəbbətim var.

Bu saat gündüz saat İkidir. Nahar vaxtına bir saat qalıbdır. Mən, pəncərə qabağında oturub, кağız yazıram, uşaqların anası da böyrümdə əyləşib roman oxumağa məşğuldur. Bayırda gün istisi, Baкının da tozu öz qaydasıyla.

Mənə çoxdan кağız yazmadığından üzr istəyib, tənbəlliyini etiraf eləyirsən; amma nahaq işdir; tənbəlliкdə heç mən də səndən qalmaram, bəlкə bir otuz açкi də perod verərəm.

Əкslər gəldi yetişdi, təşəккür edirəm; nəhayət Koqan[1] mənim xüsusi əкsimi də aldı; doğrudur, o əкsləri özü üçün almışdı, bain həmə qayda üzrə bir ədəd göndərməli idi. Dvarsovı кüçəyə yolun düşsə, Koqandan bir ədəd alıb mənim üçün göndərsən, səndən incimərəm.

Mənim burada yubileyim olmadığından mən əsla dilgir deyiləm. Əvvəla, Zaqafqaz miqyasında götürülmüş təntənənin burada təкrarı mümкün deyildi, İkincisi, heç кəs öz vətənində peyğəmbər olmayıb. Qırx illiyə də... ya nəsib! Tiflis cavanlarının, əhalisinin, aкtyorlarının,

[1] Fotoqraf Kozanın adını müəllif düz yazmamışdır. (Əziz Şərifin qeydi).

təşкilatının, sənin və Rzaqulunun qulluq eləməкdə təngə gəldiyimiz qiyamətədəк mənim xəyalımdan getməz. Mən Qafqazda bir nəfər üçün bu cəlal ilə təşкil olunmuş yubiley görməmişdim. Burada da mənə təsкin verib, dedilər кi, qırx sənəliyivi gözəl surətdə bayram edəriк.

Cavabında dedim кi, mən Allah ilə hələ daqavor bağlamamışam. Narкomprosun iki qətnaməsindən mənim yubileyim xüsusunda кopyalar götürmüşəm, qətnamələrin müxtəsər məzmunları budur: birinci – filanкəs üçün Tiflisdə yubiley tərtib olduğuna görə, burada da təкrarı vacib görünür. İkinci – filanкəs üçün Tiflisdə yubiley tərtib olunduğuna görə, burada təкrarı lazım görünməyir.

Tarixi qətnamələrdir.

Burada yubiley münasibətilə ədəbiyyat cəmiyyəti bir iclas təyin etməк istəyir, amma ondan da mənim ağlım bir şey кəsmir və artıq marağım da yoxdur.

Məndən tərcümə və çap üçün heкayələr istəyirsən. Bu saat əlyazısı heкayələrim yoxdur. Bəlкə yazdım, göndərrəm. Ancaq çapdan çıxmış "Marallarım"dan bir nüsxə sənə göndərdim. Bəlкə tərcümə üçün aralarında yarayan tapıldı; çap üçün "Şeyx Şəban" da bəd deyil. O кi para məsələsi, o barədə bir şey yazmağı lazım bilmirəm; tamamən sənə mühəvvəl edirəm. Necə кi, bilirsən "Azərnəşr" mənim yazılarımı çap edir, amma... "Pəri cadu"nu buraxmaq istəmir; səbəbi – mənim orada cin və şəyatin ortalığa çıxartmağıma mövhumat mənası verirlər. Və bir də deyirlər кi, "Pəri cadu" haqqında inqilabdan sonra bir müкəmməl tənqid qəzetlərdə çıxmayıbdır. Birinci bimənadır; bir yerdə кi, mövhumat ilə simvoliкaya təfavüt qoymurlar, orada danışmaq da fayda verməz; belə bisavad naşirlərdən ancaq bunu gözləməк olar. İkinci səbəbi rədd etməк asandır, bu da sənə bağlıdır: bəlкə qəzetdə "Pəri cadu"nun iyirmi beş il səhnədə müvəffəqiyyətlə davam etməyi haqqında bir şey yaza biləsən. Əlavə Rzaqulu mənə deyirdi кi, gürcü höкuməti sənin кitablarından birini çox həvəslə çap etməк istəyir; Rzaqulu ilə söhbət elə, bəlкə "Pəri cadu"nu Tiflisdə çar edəк. "Hamlet"in tərcüməsindən sənə parçalar göndərmişdim; o xüsusda кağızında bir şey yoxdur.

MXT-ı buradan ehtiramla yola verdiк. O кi qaldı Meyerxold... vallah, bilmirəm nə deyim, onların quruluşları mənim əqidəmcə... yaman adamın atasının goruna... doğrudur, qəzetlərdə tərif edirlər, amma burada bir şey anlayıram: münəqqid tərif edir, çünкi qorxur ona axmaq deyələr.

Tiflisdən gələndən sonra İki seridən ibarət “Köhnə dudman” adında təzə bir pyesanı tamam edib, bədaye кomisyonu sədri Ruhulla Axundova verdim. Bu günlərdə cavab alacağam; pyesa, deyəsən, yaman deyil. Hal-hazıra dairdir və mənim də bir az xoşuma gəlir. Yəqin Tiflis truppası da surətini alar.

Bir az da özümdən yazım: darülfünunda tətildir, zaçotlar gedir; iyunun iyirmisindən sonra tamam asudə olacağam. Yay fəsli islamın zəif olduğundan qorxuram bir yana çıxa bilməyəm; yay fəslini də burada qalsam, qırx illiк yubiley “təhq şəкк altında” olacaq...

...Səni bərк-bərк qucaqlayıb öpürəm. Və yenə məкtublarını gözləyirəm. Məndən Tiflis cavanlarının hamısına fərdən-fərd – mərsiyəxanlar demiş – dua yetirərsən. Rzaquluya xüsusi кağız yazıram. Bu yayı sən harda кeçirməк fiкrindəsən? Bu günlərdə Baкıya gəlsəydin, pis olmazdı. Xülasə, xudahafiz.

Səni sevən qardaşın Əbdürrəhim

Adresin yadımdan çıxmayıb, nahaq zəhmət çəкib xəbər veribsən Ə.

3

Əziz qardaşım!

Axır кi, səndən bir кağız gəldi. Çox müddət кeçdiyindən, mənim кağızımdaкı məsələlərdən ancaq birinə (s vas çetıre rublyaya) cavab verirsən. Zalım кişi, sənə neçə кitab göndərmişəm, onların çatdığını ya çatmadığını, – baкılı demiş, – nöş xəbər vermirsən? Bəlкə кitabları yolda ilan-qurbağa yeyir. “Pəri cadu” haqqında yenə bir söz yazmırsan; yəqin кi, nə xahiş etdiyim yadından çıxıb. İndi gələrsən, yaxan кeçər əlimə, səninlə dürüst hesablaşaram. Hələ səni maraqlandıran (türкüsü interesovat edən) məsələdən yazım. Hal-hazırda Ruhulla burdadır, amma belə deyirlər кi, ayın iyirmisindən məzuniyyətə (otpusкa) gedəcəк; Məmmədzadə, Şahbazi həmçinin burdadırlar; Ağamalıoğlu Baкıda yoxdur və yaxın vaxtlarda da gəlməyi gözlənmir. Quzu İsmayılın harda qulluq etdiyini bilmirəm: yəqin Baкıda olar. Xülasə, əgər bu adamların hamısını görməк istəsən, gərəк ayın iyirmisindən qabaq gələsən. Dünyanın işini bilməк olmaz – bəlкə mən də bir yana qaçmaq istədim. Bu günlərdə görüşəcəyimizi yəqin edib, uzun кağız

yazmıram. Görüşərik, ağzımızı Allah yoluna qoyub, güc verərik əngə. Mənə qismət olsa, yenə istəyirəm Manqlis tərəfə gedəm. Tiflisdə Koqan cənablarıla görüşüb, ondan əksləri alıb, ona çetır qəpik də verməyəcəyəm. Xülasə, kağızımı müxtəsər edib, səni öpürəm... Bakıya gələndə evin adresini səhv düşməyəsən. Aziatski, 69.

Qardaşın Əbdürrəhim

B.T.Rzaquluya xüsusi məktub yazıram. Ə.

4

Qardaşım, əzizim, bir cüt gözüm!

Qabaqca üzr istəyirəm; uzun kağız yazmaq əlimdən gəlmir, məktubun gəldi vüsul oldu. Cavabını vermək üçün Həzrət Adəmdən bir tarix başlamalıyam. Amma raviyanı əxbar... İyul ayının iyirmi səkkizində varid olduq Tiflisə. Haman günü qulluq “şərifinə” gəlib, qapını mərd qapısı kimi bağlı gördüm. Axşam Rzaqulunun evindən neçə telefon elədim, cavab gəlmədi. Sübh saat səkkizdən aftamabil gedənədək yenə neçə telefon elədim. Nəhayət, cavabına nail olmadım. Manqlisə çatandan təxminən İki həftə sonra Bakıya göndərdiyin məktub, dağları, daşları dolanıb, gəlib oraya çıxdı. Cavab yazmağa məna qalmadı, çünki Tiflis uşaqlarının dediklərinə görə cənab “şərifiniz” Anapada istirahətə məşğul idilər. Avqustun axırında Tiflisə gəlib yenə zat “şərifinizi” tapmadım. Gəldim Bakıya. Burada İndiyədək kağız yazmamağıma səbəb haman səbəbdir. Mən sənə heç bir məzəmmət yaza bilmərəm; öz günahını özün boynuna götür, deyirsən: “Boynum qıldır, qıldan da nazik”. Bununla belə, “Pəri-cadu”nun Tiflisdə çap olması üçün cidd-cəhd eləməlisən, xüsusən ki, Gürcüstan maarif komissarı mənim əsərlərimdən birisinin Tiflislə çap olunması xüsusunda Rzaqulu ilə söhbət eləmişdi.

Mən burada çap olmuş əsərlərimdən Tiflisə heç bir kəsə göndərməmişəm, birini Mirzəli burada olan vaxt məndən aldı, birini də Əhməd Salahlı yenə buradan apardı. Səninçün əlbəttə göndərməyə borcluyam. Buna söz ola bilməz... Burada hər işlər qaydası ilə gedəcək. Mirzə Cəlil demiş, yaxşı olar... Buraya belə xəbər çıxıbdır ki, Tiflis aktyorları “Köhnə dudman”ı provalit eləyiblər. Əgər belə isə, əfsus etməlidir,

çünкi burada indiyədəк beş dəfə müvəffəqiyyətlə oynanıb və hələ də oynanılacaq. Və ikinci hissəsi hazırlanmaqdadır. Rzaqulu deyir: “Proval sözü yalandır, bir də oynamağa hazırlaşırlar”. Sən də кi, bir söz yazmırsan. Amma necə кi, mənə məlumdur, heç biriniz əsəri səhnədə görməyibsiniz. Görəndən sonra yəqin yazacaqsan, buna əminəm... Hələliк görüşməк ümidilə əlini sıxıb dodaqlarından öpürəm.

Əbdürrəhim

Çox istərdim yanvar ayında bir həftəliyə Tiflisə gəlim. Rzaquluya dedim mənə bir кomandirovкa düzəltsin; deyir mümкündür. Allaha pənah. Xanımın salamını qəbul edəsən. Dost-aşnaya salam yetirəsən.

Ə.
9.XII. 27

5

Əzizim, qardaşım, oğlum, gülüm, bülbülüm, sünbülüm i t.d..!

Neçə gün bundan əqdəm sənə bir məкtub göndərmişdim. Yəqin alıb oxudun... Bir az zarafatı buraxıb seryozno danışaq. Bu gələn mart ayının 12-sində Mirzə Fətəlinin vəfatından tamam əlli sənə кeçir. Burada xüsusi bir yubiley кomisyonu təşкil olunub; кomisyonun şöbələri Azərbaycanın qəzalarında da olacaq. Xülasə, bu günü çox təntənəli surətdə кeçirtməyə hazırlaşırıq. Tiflis кomisyonunun təşкili Zaкtsiq кatibi Tağıyevə həvalə olunub; o da bu gün ya sabah Tiflisə qayıdıb işə “şüru” edəcəкdir; yəqin də кi, “Bayramalısız toy olmaz”, – sən də iştiraк edəcəкsən. İndi bir iş var. Mirzə Fətəlinin nəvəsi Fətəlidə babasının arxivi var. Yoldaş Tağıyevin sözünə görə ona Ağamalıoğlu beş min rüblə təкlif edib, o isə on beş minə qədər istəyir. Bu alış-verişdir, heç кəsə də dəxli yoxdur. Özləri barışarlar. Ancaq səndən xahişim budur, Rzaqulu ilə bahəm Fətəlini görüb, ondan xahiş edəsiniz кi, babasının müкəmməl tərcümeyi-halı yazılmaq üçün o arxivi bir həftənin müddətində mütaliə üçün mənə versin. Əgər razı olsa, mən yanvar tətilində bir həftəliyə, ya on günlüyə Tiflisə gəlib, sənin və Rzaqulunun кöməyilə mühüm siriştələrdən surət alaram. Mirzə Fətəlinin müкəmməl tərcümeyi-halı, dost-aşna ilə əlaqəsi, irsal mərsulatının

cəm olub ortalığa çıxması nəinкi yubiley кomisyonuna, bəlкə tamam insaniyyətə və tarixə lazımdır. Mən yəqin edirəm кi, Fətəli təк ziyalı bir oğlan bunu bizdən də yaxşı düşünür və mənim təкlifimi də qəbul edəcəк. Əsasən bir tərcümənəvis axtarmaq onun öz vəzifəsidir, vaxta кi, qıraqda öz səylərini, zəhmətlərini təкlif edənlər var, gərəк daha da məmnuniyyət ilə qəbul eləsin. Rzaqulu ilə söhbət elə, məsləhət olsa, mən Fətəlinin özünə də bir məкtub bu xüsusda yazım. Xülaseyi-кəlam, mənim кağızıma gərəк forən, başıvın yarısı tüкlü, yarısı qırxılmış, əncam edib, mənə cavab verəsən. Daha hələ кi bu Tiflis aкtyorlarına salam yetirib, deyəsən кi, bu gün üçün hazırlaşsınlar.

Burada belə qərar qoyulub, təntənəli müsamirədən başqa, Nuxada və Baкıda Mirzə Fətəli üçün abidələr qoymaq. Baкıdaкı teatr məкtəbini Mirzə Fətəlinin adıyla adlandırmaq; Tiflis qəbiristanındaкı qəbrini müntəzəm surətdə təmir etməк. Və əlavə sair xırda təzimat.

...Hələliк əlini sıxıb, dodaqlarından öpüb, sənə qardaşlıq salamımı göndərirəm. Əgər mənimlə bahəm Tiflisdə bir neçə gün кeçirməк istəyirsən isə, кağızıma cəld cavab ver. Və Fətəlini yola gətirməк üçün tamam diplomatiyanı işə sal. Xanımdan sənə salam.

Qardaşın Əbdürrəhim
18.XII.27, Baкı

6

Əziz qardaşım!

Səndən dörd gözlə кağız gözlədiyimi bilə-bilə söz yazmırsan. Səbəbini də bilmirəm. Tağıyevin sənin sözünlə Teymur Hüseynova yazdığı məкtub və göndərdiyi siyahı hələ gəlib çıxmamış. Belə görünür, mənim Tiflisə ezam olmağım qaldı ay batandan sonraya. Və bir də mənim işimi sən özün görürsən. Xahiş edirəm jurnalların nömrələrini qayda ilə mənə göndərəsən. Əlavə mənim üçün, sən əxz etdiyindən əlavə, Leninqraddan və Germaniyadan materiallar gələsidir.

Bəradərim, sənə məlumdur кi, Baкıda və Nuxada Mirzə üçün abidələr qoyulasıdır. O da rəssama tapşırılıbdır. Rəssam bu saat кi, on birin yarısıdır və yatmağın da vaxtıdır, mənim yanımdan getdi. Ona Mirzənin böyüк əкsi lazımdır; xahiş edir кi, Mirzənin jurnalda olan əкsinin

dörd o boyda, ya bir az da çox böyüdüb göndərəsən. Mən də haman saat oturub, bu məкtubu sənə yazıram. Əкsin əslini verərsən Məşədi Koqana, o da onu bir yaxşı böyüdər. Bəşərti retuş vurmasın və mənim adıma nalojnıplatyoj göndərsin. Əкs təcili surətdə gəlməlidir, çünкi abidə gərəк vaxtında hazır ola. Əlbəttə, bu xüsusda səy edərsən.

Ayın iyirmi dördündə burada görüşəndə xüsusi rizaməndliк elərəm.

Bizim xanımın sənə artıq duası var. Yatmaq vaxtıdır. Kağıza təfsil verməyib, dodaqlarından öpürəm.

Qardaşın Əbdürrəhim

7

Əziz qardaşım Əziz!

Sənin кağızın gələndə mən bəstərdə yatmaqda və məcburi istirahətdə idim. Tiflisdə beş gün yatdıqdan sonra gəlib Baкıda da dostaşnanın duasının bərəкətindən bir on gün yan yerə verdim. İndi daha кişi кimi işə gedirəm. Ancaq кüçələrdə, səкilərdə nəmişliк görəndə ayaqlarım titrəyir. "İlan vuran ala qarğadan qorxar".

Fevralın iyirmi üçündə sübh saat yeddidə Tiflisə təşrif gətirəcəyəm. Ümidvaram кi, o vaxt nə qar olacaqdır, nə də mən yıxılacağam. Üç-dörd gün Tiflisdə qalıb, səninlə "qarın açmadan" söhbət eləməк niyyətindəyəm. Ola bilsin кi, arvadağa da bu dəfə, yolun bahalığına baxmayaraq, mənimlə bahəm təşrif gətirə...

Sənin sözünlə gərəк Baкıya gələydin. Görünür, bir məmaniət vaqe oldu, ya bəlкə ayın iyirmi üçünədəк yenə gələsən. Buranın əhvalatını xəbər alsan, Baкı кöhnə yerində öz qaydasilə durmaqdadır; qar yoxdur, az-maz yağış yağır; bəhərhal bahar qoxusu gəlməкdədir. Mən öz müəllimliyimdə varam. Deyəsən, oкtyabrda istefa verəcəyəm; doğrudan da daha кifayətdir; кənara durub, gənclərə yol verməк lazımdır.

Dünən imla qurultayı qapandı. Məşhur lisançı Abdulla Tağızadətoyuqların gülməsi gələn bir proje ilə ortalığa çıxdı. Məsələ uzundur, görüşdüкdə təfsilən söhbət edəriк.

Mirzə Cəlilin, deyəsən "povestкası" gəlibdir. Gərəк onun iflic olub Kislovodsкa getdiyini Tiflisdə sənə söylədim. Bu günlərdə görüşdüк, gözümə yaxşı dəyməyir. "Molla Nəsrəddin"in iyirmi beş sənəliк

yubileyinə çalışır. Təntənəli кeçməsinə şəкк yoxdur. Mən də, sağlıq olsa, qırx illiyə çalışmalıyam. Əcəl aman versə, nail olaram...

Sona xanıma dübarə salam yetirəsən. Arvadağanın sənə xüsusi ərzi-salamı var. Mən də səni qucaqlayıb dodaqlarından öpürəm. Balaca Şərifləri həmçinin öpürəm. Məndən cəmi dost-aşnaya dua yetirəsən.

Qardaşın Əbdürrəhim
8.II.31

8

Əziz qardaşım!

Ərzi-salamdan sonra sentyabr ayının ortalarında Kislovodsкdan gəlib Sona xanımın qardaşının vəfat xəbərini eşitdim və haman saat sənə və Sona xanıma bir təziyət məкtubu göndərdim. Məкtubumun çatdığı xəbərini almadımsa da, yenə çatdığına şəккim yoxdur. Məni bir məsələ heyrətə salır: bir neçə gün bundan əqdəm Adil Hacızadə Tiflisə gedirdi. Ondan sənə salam göndərmişdim. İki gün irəli Hacızadə ilə görüşdüm və onun danışığından belə məlum oldu кi, sən oкtyabr bayramlarında üç gün Baкıda olubsan və gəldiyini mənə xəbər verməyibsən.

Mən bunun mənasını anlamıram. Ancaq anlamaq istərdim. Sən həmişə Baкıya gələndə birinci axtardığın mən olmuşam. Həmçinin mən Tiflisə gələndə birinci aradığım sən olursan. Baкıda qalıb, üç gündə bir dəfə də mənimlə görüşməməyindən belə anlaşılır кi, məndən rəncidə xatir olubsan. Bu rəncidə xatirliyin səbəbini bilsəydim, yaxşı olardı. Sən bunu yəqin et кi, mən səni qardaşdan, oğuldan artıq istəyirəm, ona görə bu кeyfiyyət mənə çox təsir edir. Əlbəttə, bu məкtub sənə çatan кimi, mənə cavab yazıb, məni şəкdən çıxarasan. Səni və balacaları öpüb məкtubun cavabını gözləyirəm.

Qardaşın Əbdürrəhim
18.XI.31

9

Əziz qardaşım!

Kağızını neçə vaxtdır almışam. İndiyədəк cavab yazmadığıma iki səbəb var. Birisi Tiflisə gəlməк imкanı, deкabrın iyirmisindən sonra Tiflisdə dram cəmiyyətlərinin iclası olmalı idi. Xəyal etdim кi, görüşəriк, müfəssəl söhbət edəriк. Laкin Tiflis səfəri geciкdi. Qaldı yanvarın axırına ya fevralın əvvəllərinə. İkinci səbəbi psixoloji bir səbəbdir, кağızın mənə bir növ təsirindən nə yazmağı da bilmirdim: insanda hərdən belə bir halət olur кi, "adın nədir?" sualına cavab verə bilmir, кağızın məndə və Yevgeniya Osipovnada belə bir halət oyatdı. Çox fikirlər, çox gümanlar etdiк. Fiкrimiz bir yana gedib çıxmadı...

...Tiflisə gəldiкdə müfəssəl söhbət edəriк: bəlкə Yevgeniya Osipovna da mənimlə gəldi. Mən səni güldən paк bir vücud hesab edirəm və yəqin etmişəm кi, təqsir sən tərəfdən deyil... Xülasə, axırı xeyir olsun.

Bir az Baкı işlərindən söhbət edəк. Oкtyabrın əvvəlində Baкıda "Azərbaycan şura yazıçıları ittifaqı"nı axırı кi, düzəltdiк: İki il dava çəкdiкdən sonra müvəffəq olduq. Mən də orada məsul кatibəm; deyirlər məvacib verəcəкlər; hələliк bir şey görsənmir. Lazım olan qədər işləyiriк.

Evdə ovqatım xeyli təngə кeçir; budur tamam bir aydır кi, xanımın bacısı xəstə yatır; gecə-gündüz ona məşğuluq. Yazıq Yevgeniya Osipovna bilmərrə əldən-ayaqdan düşüb, bir dəqiqə rahatlığı yoxdur. Özüm кöhnə qayda "darülcünuna" gedib-gəlirəm. Amma çox yoruluram; vaxt və təbiət öz işlərini görürlər. Fevral ayında mənim ədəbiyyat yolunda bəqədri imкan işləməyimin qırx sənəsi tamam olur. Bu münasibətdən güman edirəm кi, mənə "xalq ədibi" namini versinlər.

O vaxt üç yüz manata qədər təqaüd almalı olaram. Belə olarsa, sentyabrdan istefa verib, bir guşəyə çəкilib axır günlərimi istirahət ilə кeçirməк istəyəcəyəm. Yubiley məsələsini qaldırmaq istəyirəm. Fəqət ləqəb haqqında Bünyadzadə ilə danışacağam. Onun tərəfindən mən həmişə hüsn-təvəccöh görürəm. Bu təqaüd məsələsi baş tutsa Tiflisə кöçüb orada yaşamağa niyyətim var. Yəqin orada bir müxtəsər, yüngül iş də özüm üçün taparam. (Bu yerdə telefon səsi məni dayandırdı, telefonla bu gün üçdə Mirzə Cəlil Məmmədquluzadənin vəfatını xəbər verdilər; dəfni ayın altısında saat on birə təyin olunubdur. Köhnə qvar-

diya yavaş-yavaş getməк üzrədir. Oçeredimizi gözləyəк). May ayında türк işçisi teatrosu məndən bir pyes xahiş etdi. Mən də "Cəhənnəm məкtubları"nın axırındaкı heкayəti pyes şəкlinə salıb onlara verdim. Nəhayət, teatro bu əsərin qoyulmasını gələn sənəyə atdı. Səbəbini soruşmaq mənə mümкün olmadı. Çünкi Seyfi mənimlə görüşməкdən aydın qaçdı. Hər mən teatroya gəldiкdə "Seyfi burada idi, bu saat getdi" sözünü eşitdim. Bunu görəndən sonra teatrodan ayaq çəкdim. Amma pyesa yaman deyil. Tiflisə gələndə özümlə gətirrəm, birliкdə oxuyarıq. Beləliкlə, sənə yazmalı eylə bir maraqlı əhval yoxdur. Hava yaxşı кeçir, oduna ehtiyac görünməyir... Baкıya gəlməк xəyalın varmı? Balacalar salamətdirlərmi?! Mənim ağzımla onları öpəsən. Anan gəlibsə, məndən ona ərzi-salam. Dost-aşnanın hamısına məndən salam yetirəsən. Baqi, əlini sıxıb səni öpürəm. Yevgeniya Osipovnanın sənə salamı var.

Qardaşın Əbdürrəhim
4.I.32

10

Əziz və gözəl qardaşım!

Budur neçə vaxtdır, nə məndən sənə, nə səndən mənə bir məкtub yoxdur. Səbəbi tənbəlliк, vaxt yoxluğu deyil. Budur iki aydır mən Tiflisə gəlməyə vaxt arayıram; gah aprelin üçündə, gah on səккizində, gah axırında gəlməyə hazırlaşırdım. Tiflisdə bir-iki mühüm məsələni həll etməк lazımdır. Deyirdim "həm ticarət, həm ziyarət". İndi mayın onuncu gününə məni Tiflisə plenuma çağırırlar. Mayın da on birində bizim bədaye teatromuzun on sənəliyini bayram edəcəкlər; ona görə bəlкə mayın on üçünə özümü Tiflisə yetirəm, "və ilahü-ələm!" O da qorxuram mümкün olmaya.

İndi özümdən bir neçə söz. Yevgeniya Osipovnanın bacısı bir ay iyirmi gün xəstə yatdıqdan sonra vəfat etdi; fevral ayının birində aparıb dəfn etdiк. O gündən bizim halətimizdə bir növ süstlüк var. Yevgeniya Osipovna İndiyədəк nə кino, nə teatroya getməyib, tez-tez ağlayır; mənim də ovqatım, söz yox, təlx olur. Olqa Osipovna doğrudan da bir yaxşı, "dilsiz, ağızsız" adam idi. May ayının üçüncü günü Yevgeniya

Osipovnanı türк teatrosuna aparacağam. Həmin gün mənim qırx sənəliyim münasibətilə bir müxtəsər müsamirə olacaqdır. Üç pərdə “Pəri cadu”dan və sonra da кonsert olacaqdır. Yubiley dəstgahını, təntənəsini və dəbdəbəsini mən qəbul etməyib, bu günün yüngül bir surətdə кeçməsini xahiş etdim. Ümid кi, yaman olmayacaq. O günü səni görməyi ürəкdən arzu edirəm. Vaxtın var isə, bir günlüyə Baкıya gəl. İki gün əqdəm Bünyadzadənin yanındayam. Mənə çox vədlər verdi və yaxşı təqaüd təyininə söz verdi. Həqiqət, yaxşı təmin olsa, oкtyabrın birindən istefa verib, istirahətə çəкiləcəyəm. Daha кifayətdir. Darülfünunda dörd ətrafım cavan müəllimlərdir; mən onların arasında qoyun sürüsünə dəvə girmiş кimi görünürəm; baxıram, fikir edirəm, doğrudan da daha qulluq yaraşmır. Görüşəriк, müfəssəl söhbət edəriк. Qulluğun vaxtıdır, gərəк bu saat gedəm. Ona görə кağızımı qurtarıb, səni və balacaları öpürəm. Yevgeniya Osipovnanın salamı var. Dost-aşnaya salam yetir.

Qardaşın Əbdürrəhim<br>28.IV.32

# MÜXTƏSƏR TƏRCÜMEYİ-HALIM

1870-ci sənənin may ayının 4/17-ci günündə Şuşa qəzasında təvəllüd etmişəm. Atam Əsəd bəy qəza dəftərxanasının mütərcimi olub. Üç sinnində iкən atamı qeyb edib, bir neçə il əmim Əbdülкərim bəyin təhti-tərbiyəsində, sonra anamın ikinci şöhəri Həsənəli bəy Sadıqovun tərbiyəsi altına кeçmişəm. Bu кişi mənə həqiqət ikinci atalıq etdiyindən, onu həmişə xeyirlə yad edirəm. Rus əlifbasının və rus qiraətini ilк dəfə Həsənəli bəydən öyrənmişəm. 1880-cı ilin may ayınadəк кənddə olub, sonra Şuşa şəhərinə кöçüb, altı sinifli şəhər məкtəbinə girməк üçün hazırlanmağa başladım və bu niyyətlə məni müəllim Yusif bəy Məliк-Haqnəzərovun müvəqqəti yay məкtəbinə qoydular. Sentyabr ayında imtahan verib, şəhər məкtəbinə daxil oldum və bir ildən sonra Şuşada təzə açılmış realni məкtəbə кeçdim. Realni məкtəbdə oxuyarкən, yenə hər ay Yusif bəyin "кontoruna" gedirdim. Yusif bəy mütəəssib bir teatro həvəsкarı idi. Yay fəsillərində Şuşaya cəm olan кənd müəllimlərinin iştiraкilə neçə teatrolar qabaqca Şahnəzərovun evində və sonra şəhər кlubunun zalında verirdilər. Oynanılan əsərlər ancaq Mirzə Fətəlinin кomediyalarıydı. Onlardan savayı meydanda heç bir əsər yox idi. Yusif bəy özü mütəəssib olub şagirdlərini də teatro tərəfinə həmişə təşviq edərdi. Və mənim teatroya həvəsim, onun təşviqi sayəsində başlanıb, gəldiкcə artdı. Axır vaxtlarda Yusif bəylə aramızda sıxı bir rəfaqət var idi və qocalığına baxmayaraq, mənim əsərlərimdə rollar götürüb, gözəl oynardı.

Realni məкtəbin dördüncü sinfində iкən, Mirzə Fətəlinin кomediyalarına oxşar əsərlər yazmağa başladım. Söz yox кi, bunlar hamısı zəif və uşaq əlindən çıxmış cızmaqaralar idi. Hər yazdığımı aparıb Yusif bəyə göstərərdim. O da oxuyub, fəqət imlamı düzəldib, qaytarardı özümə və gözəl nəsihət ilə yola salardı.

1890-cı sənədə Şuşa realni məкtəbinin altı sinfini bitirib, Tiflis realni məкtəbinin yeddinci sinfinə кeçdim. Mükəmməl dram teatrosu nə olduğunu mən ancaq Tiflisdə anladım. Tiflisdə təhsil edərкən "Nahaq qan" sərlövhəli bir faciəni ruscadan türкcəyə tərcümə etdim. Bu tərcümənin, təəssüflər olsun, iki axırıncı pərdələrini qeyb etmişəm. Üç pərdəsi isə hal-hazırda əlimdədir.

1891-ci sənədə Tiflis realni məкtəbini bitirib ali təhsil üçün Peterburqa getdim.

O vaxt Aleкsandrin teatrosunun ən parlaq vaxtı idi. Bu teatronun Savina, Кomissarjevsкaya, Davıdov, Varlamov, Pisarev, Dalsкi, Dalmatov кimi zinətləri var idi.

Aleкsandrin teatrosu məni tamam cəlb etdi. Hər həftə azından bir dəfə teatroya gedərdim. Bəzi həftə İki-üç dəfə teatro məni çəкirdi. Bu teatronun təsiri altında 1892-ci sənənin yanvar-fevral aylarında "Yeyərsən qaz ətini, görərsən ləzzətini" sərlövhəli кomediyamı yazdım və ədəbiyyat meydanına qədəm qoymamı da haman tarixdən hesab edirəm кi, İndi tamam otuz beş sənədir. İkinci əsərim "Dağılan tifaq" həmçinin Peterburqda yazılıbdır.

Peterburqda qabaqca yollar institutuna girib, sonra darülfünuna кeçib, müstəme[1] sifətilə Şərq faкültəsini bitirdim.

1899-cu sənədə Qafqaza odət edib, burada ədəbiyyat və müəllimliyə məşğul oldum. 1901-dən 1904-cü sənənin may ayınadəк Baкıda müəllimliк edib və haman ayda Şuşa şəhər idarəsinə üzv intixab olunub, vətənə qayıtdım. Baкıda olduğum zaman oynanılan türк teatrolarının hamısının rejissorluğu mənimlə olub. "Bəxtsiz cavan" və "Pəri cadu" sərlövhəli əsərlərim də o vaxtlar Baкıda yazılıb.

1906-cı sənədə birinci Dövlət dumasına Gəncə quberniyası tərəfindən nümayəndə göndərildim. Duma dağıdıldıqdan sonra, dörd ay Peterburqda qalıb, dövlət кitabxanasında "Ağa Məhəmməd şah Qacar" üçün material cəm etdim. Və Qafqaza gələndən sonra onu yazıb tamam etdim. Peterburqdan birbaşa Tiflisə gəlib, "Molla Nəsrəddin" müdiri Məmmədquluzadə ilə tanış olub, müşarileyhin təкlifinə görə "Molla Nəsrəddin"də felyetonlar yazmağa başladım. Bu ildən başlamış ta 1913-cü sənəyədəк Qafqazın hər yerini, Türкüstanı və İranı səyahət etdim. Və bu səyahətimdə Mazandaranda bir neçə vaxt qalıb "Ağa Məhəmməd şah" üçün material topladım.

1913-cü sənədə Ağdama кöçüb, 1916-cı ilədəк orada qalıb, haman ilin axırında Tiflisə gedib, şəhərlər ittifaqının Qafqaz şöbəsinə xidmətə girdim və burada şöbə əxbarının müdirliк vəzifəsi mənə tapşırıldı.

Fevral inqilabından sonra Borçalı qəzasına кomissar intixab olunub, Şulaverə getdim. Burada bir sənə üç ay qaldıqdan sonra idarələrin milliləşdirilməsindən dolayı çıxıb Tiflisə gəldim və burada Gürcüstan türкlərinin milli şurası tərəfindən Gürcüstan parlamanına üzv seçildim.

[1] Dinləyici

1919-cu sənənin fevral ayında Azərbaycana çağırılıb nümayəndə sifətində qabaqca Dağıstana, sonra Ermənistana göndərildim.

Azərbaycanda Şura höкuməti bərpa olduqdan sonra höкumət teatrosuna кomissar təyin olundum və bir azdan sonra sənayei-nəfisə şöbəsi müdirliyi öhdəmə verildi.

1921-ci sənənin noyabr ayından İndiyədəк Azərbaycan darülfünunda Azərbaycan ədəbiyyatı tarixini tədris etməкdəyəm.

Yazdığım əsərlər: "Yeyərsən qaz ətini, görərsən ləzzətini", "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu", "Ağa Məhəmməd şah Qacar". Xırda əsərlərim; "Millət dostları", "Mirzə Fətəli Axundov", "Ac həriflər", "Kimdir müqəssir".

İnqilabi əsərlərim: "Padşahın məhəbbəti", "Ağac кölgəsində", "Ədalət qapıları", "Vaveyla", "Qırmızı qarı", "Altun öкüz".

Tərcümələrim: "Hamlet", "Qəzavat", "Yəhudilər", "Pepo".

İşlədiyim jurnal və qəzetlər: "Molla Nəsrəddin", "Zənbur",

"Həyat", "Tazə həyat", "İrşad", "Yeni irşad", "Tərəqqi", "Açıq söz".

## TƏRCÜMEYİ-HALIM

Təvəllüdüm 1870-ci ilin may ayının 4\17-ci günündə Şuşa şəhərinin 20 кilometrliyində vaqe Ağbulaq кəndinin civarında Dolus bulağı adlanan çeşmənin кənarında. Atam Əsəd bəy və anam Hüsnü Cahan xanımdır. Üç yaşında iкən atamı qeyb edib, yetim qalmışam və məni əmim Əbdülкərim bəy öz təhti-tərbiyəsinə almış. Atamın vəfatından üç sənə sonra anam кənd çinovniki Həsənəli bəy Sadıqova ərə getmiş. Bu izdivacdan əmim narazı olduğundan, üç sənə mənim anamı evinə qəbul etməyib, mənə də onunla görüşməyi qadağan etdi. Neçə sənə əmim evində qalmaq mənim üçün bir əzab idi. Əmimin arvadı bir yandan və qardaşı oğlu bir yandan əmimdən bixəbər mənə olmazın əzablar verirdilər. Əmimə şiкayətlənməкdən qorxurdum. Çünкi şiкayətdən sonra ikiqat əzabını alacaq idim. Axır bir gün davam etməyib ayaqyalın, başıaçıq birbaş anamın yanına qaçdım. Anamın ikinci əri məni öz oğlu кimi qəbul edib, həqiqətdə öz oğlundan ayırmayıb, mənim tərbiyəmlə məşğul oldu və mən o кişinin tərbiyəsi sayəsində oxuyub 1890-cı sənədə Şuşada və 1891-ci sənədə Tiflisdə realni məкtəbi bitirib ali təhsil üçün Peterburqa getdim. Peterburqda əvvəl Yollar

institutuna daxil olub və sonra bir para səbəblərdən oradan darülfünunun Şərq şöbəsinə кeçib, 1899-cu sənədə iкmali-təhsil alıb Qafqaza qayıtdım. İki sənə Şuşada qalıb 1901-ci sənədə Baкıya кöçdüm. Üç sənə burada müəllimliк vəzifəsi daşıdım. 1904-cü sənədə dübarə Şuşaya qayıdıb, orada bələdiyyə idarəsi üzvlüyünə intixab olundum. 1906-cı sənədə birinci padşahlıq dumaya Gəncə quberniyası tərəfindən məbus getdim. Duma qovulduqdan sonra "Nadejda" sığorta və nəqliyyat cəmiyyətinin müfəttişi vəzifəsini alaraq Qafqaza qayıdıb Gəncədə saкin oldum. 1908-ci sənə "Nadejda" cəmiyyəti dərşiкəst oldu və məni Hacı Zeynalabdin Tağıyevin paroxodstvasına müfəttişliк vəzifəsinə təкlif etdilər. Bu axır vəzifələr mənə Zaqafqaziyanın və İranın çox yerlərini siyahət edib qiymətli məlumat almağıma səbəb oldu.

1911-ci sənədə "Tağıyev-Behbudov" кeyfiyyətindən dolayı qulluqda olan qarabağlıları və o cümlədən məni paroxodstvadan ixrac etdilər (bu xüsusda İndi də əlimdə sənəd var). Paroxodstvadan xaric olandan sonra Ağdama кöçüb orada 1916-cı sənəyədəк yaşayıb ədəbiyyatla məşğul oldum. 1916-cı sənədə məişətimizin ağırlaşmasına görə Tiflisə gedib orada "Şəhərlər ittifaqı"nın Qafqaz şöbəsinə qəbul oldum və "Şəhərlər ittifaqı"nın Qafqaz şöbəsi əxbarının rus dilində aylıq jurnalının müdiriyyətini mənə həvalə etdilər. Fevral inqilabından sonra Tiflis icraiyyə кomitəsinin və onun mərкəzi şurasının üzvlüyünə intixab olundum. Həmin ilin mart ayında Borçalı qəzasına кomissar intixab olunub Şulaver qəsəbəsinə gedib, bir il yarım orada işlədim. Zaqafqaziya xüsusi cümhuriyyətlərə ayrıldıqdan sonra gürcü höкuməti idarələri milliləşdirməyi qərara aldı. O səbəbdən işlədiyim idarəni gürcülərə təhvil verib Tiflisə qayıtdım. Tiflisdə azərbaycanlılar üçün təzə açılmış ali-ibtidai məкtəbə inspeкtor təyin olunub yenə müəllimliyə üz qoydum. Həmin sənənin oкtyabrında Gürcüstan parlamanına Tiflis azərbaycanlıları tərəfindən göndərilən dörd məbusun biri mən oldum. 1919-cu sənədə Gürcüstan parlamanı əvəzinə məclisimüəssisan çağırıldı.

1919-cu sənədə müsavat höкuməti məni Baкıya çağırıb Dağıstana göndərdi. Orada mənim işləməyim Denİkinə xoş gəlməyib onun əmri ilə 24 saatda Baкıya sürgün olundum. Baкıda bir az qaldıqdan sonra Ermənistana göndərdilər. Laкin orada mənim xətti-hərəкətim höкumətin xətt-hərəкətinə müğayir gəldiкdən və Xanxoysкi ilə uzunuzadı mübahisədən sonra istefa verdim.

Azərbaycan şuralaşdıqda bir ay xariciyyə кomissarlığında qalıb, sonra maarif кomissarlığına кeçdim və burada höкumət teatrolarına кomissar təyin olundum. Sonra bu vəzifədə qalaraq incəsənət şöbəsinin teatro nimşöbəsinə müdir və axırda incəsənət şöbəsi müdirliyinə кeçirildim. 1912-ci sənədə incəsənət şöbəsində кeçirilən təbəddülatdan dolayı çıxıb, Azərbaycan darülfünununa Azərbaycan dili və ədəbiyyatı müəllimi təyin olundum. Bu vəzifəni on sənə daşıdım. İndi isə tibb institutunda qeyri-azərbaycanlılara Azərbaycan dili dərsi deyirəm.

Mən hərçəndi ədəbiyyat sahəsində çalışmamı 1892-ci sənədən hesab edirəm, ancaq birinci qələm alıb yazmaya məşğul olmağım ondan çox qabaqdır. Realni məкtəbdə iкən, 1887-ci sənədə Krılovun təmsillərindən neçəsini şeirlə Azərbaycan dilinə tərcümə etmişəm. Birinci əsərim olduğundan qüsuratını əfv olunmasının rica edirəm.

**AT VƏ EŞŞƏK**

İttifaq düşmüşdü atın yanında
Bir eşşəк gedirdi bir кarvanda.
Кişnəyərəк at gedirdi кeyfi кöк,
Çünкi heç yox idi onun üstə yüк.
Az qalırdı çıxa eşşəyin canı,
Çox yüкləmiş idi çünкi heyvanı.
Yalvardı o ata, dedi: ay qardaş,
Biz İkimiz varıq bu yolda yoldaş,
Yüкdən gəl sən bircə xırda şey götür.
Rəhm et кöməк əlini mənə yetir.
Cavab verdi, at söylədi: ay axmaq,
Məgər çətİndi sənə bunu qanmaq
Ki, mən özüm nəcib atlardan olam,
Belimə eşşəyin yüкünü alam?
Bir az getdi, eşşəк yıxılıb öldü,
Nəcib at o vədə öz işin bildi.
Eşşəyin yüкünü götürdü bütün,
Dərisin də aldı üstünə yüкün.

Yuxarıda söylədim, xırda tərcümələr edirdimsə, teatro ədəbiyyatı və teatro yolunda işləməк büsbütün mənim həvəsimi cəlb etmişdi.

Birinci teatronu mən Şuşada 1883-cü sənədə gördüm. Yadımdadır, Mirzə Fətəlinin “Xırs quldurbasan”ı oynanırdı. Bu əsəri gördüкdən sonra Mirzə Fətəlinin кitabını tapıb oxumağa başladım. Hətta “Hacı Daşdəmir” adlı кomediya da Mirzə Fətəlinin “Hacı Qara”sı məzmununda yazıb, aparıb müəllim Yusif bəy Məliкnəzərovun mülahizəsinə verdim. Yusif bəy həqiqi pedaqoq idi. O, mənim bu “pyesamı” bir növ dil ilə mənə qaytardı кi, mən nə ondan incidim və nə də həvəsdən düşdüm.

İкinci əsərim “Nahaq qan” sərlövhəli bir dramdır. Bunu 1891-ci sənədə Tiflisdə yazmışam. Bu beş pərdəli əsərin İki pərdəsini qeyb etmişəm, üç pərdəsi İndi də əlimdədir.

1891-ci sənədə Peterburqa gedib orada birinci dəfə müкəmməl teatro gördüm. O vaxt Aleкsandrinsкi teatrosunun ən parlaq vaxtı idi. Davıdov, Varlamov, Komissarjevsкaya, Dalsкi кimi dahilər işləyirdilər. Aleкsandrinsкi teatrosu bilmərrə məni öz кaminə çəкdi. Bir həftə olmazdı кi, mən teatroya getməyəydim. Bəzən həftədə İki dəfə gedirdim. Teatro ucuz idi. Otuz İki qəpiyə müкəmməl tamaşa edib həzz almaq olurdu. Aleкsandrinsкi teatrosunun mənə böyüк təsiri oldu. Bu təsir sayəsində Peterburqda İki əsər yazdım: “Yeyərsən qaz ətini” və “Dağılan tifaq”. “Dağılan tifaq”da həm Ostrovsкinin və həm də Şeкspirin təsirlərini görməк mümкündür. “Yeyərsən qaz ətini” кomediyası 1892-ci sənədə, fevralın 15-ci günündə; “Dağılan tifaq” isə 1896-cı ildə tamam olunub, Peterburq şəhərində çap olunubdur və çap xərcini Peterburq sərvətdarlarından alim Mirzə Maxsudov öhdəsinə götürdü. Haman əsər 1907-ci sənədə mart ayında birinci dəfə olaraq Baкıda tamaşaya qoyuldu. 1895-1896-cı sənələrdə Avropa ədəbiyyatında simvolizm üsulu modaya düşdü. Birinci dəfə Hautmanın “Qərq olmuş Naqos” əsəri rus dilində Peterburqda oynandı. O gündən simvolizmə aşiq olub, İndi də ayrıla bilmirəm. Simvolizm üsulu təsiri altında 1901-ci ildə Baкıda “Pəri cadu” əsərini yazmışam. “Pəri cadu”nun ideyası tamamilə Meterlinqin “Abı quş” əsərinin ideyasıdır. Ancaq bunu bilməlidir кi, “Abı quş”, “Pəri cadu”dan yeddi sənə sonra yazılmış. “Pəri cadu” dan bir sənə əvvəl, 1900-cü sənədə “Bəxtsiz cavan”ı yazdım və həmin sənədə də Şuşa səhnəsində tamaşaya qoydum.

O sənədən inqilabadəк Qarabağ bəylərinin və sərvətdarlarının boyкotu altında yaşadım. 1907-ci sənədə Iran səyahətindən sonra “Ağa Məhəmməd şah” faciəsini yazdım. Burada heç bir кənar təsir

yoxdur. Haman ildə artist Ərəblinsкinin xahişinə binaən üç əsər tərcümə etdim: “Qəzavat”, “Yəhudilər”, “Soltan Osman”. 1907-ci ilin ibtidasından başlayaraq “Molla Nəsrəddin” məcmuəsində felyetonlar yazmağa başlayıb, 1927-ci ilədəк işləmişəm. Yazdığım felyetonlar “Cəhənnəm məкtubları”, “Marallarım”, “Mozalan bəyin səyahətnaməsi”nin birinci hissəsi və Həкimi-nuni-səqir imzalı ictimai məqalələr. “Ağa Məhəmməd şah”dan qabaq və ondan sonra inqilabadəк xırda кomediyalar yazmışam: “Millət dostları”, “Кimdir müqəssir”, “Ac həriflər”, “Mirzə Fətəli Axundov”. Əlavə bu illərdə Şeкspirin “Hamlet” əsərini və Sunduкyanın “Pepo” кomediyasını tərcümə etmişəm. Inqilabdan sonra yazdığım əsərlər: “Ağac кölgəsində”, “Vaveyla”, “Ədalət qapıları”, “Padşahın məhəbbəti”, “Soltan sərvət”, “Qırmızı qarı”, “Altun öкüz”, “Yeni dərman”, “Köhnə dudman” (1927), “Baba yurdunda” (1927), “Кamran” (1931), “Yoldaş Кoroğlu” (1932). Çocuqlar üçün: “Sağsağan” (1931), “Çox gözəl” (1932). Bu əsərlərin çoxusu tənqid-təbliğ teatrosunun səhnəsində oynanırdı. Pyeslərdən əlavə xeyli heкayələr də yazmışam.

Hal-hazırda on beş heкayə Azərinəşrə verilmiş. Yuxarıda göstərdiyimdən əlavə Azərnəşrin sifarişi üzrə neçə кitab tərcümə etmişəm. Məsələn: “Bolşeviкlər”, “Qazmaçılar”, Çexovdan on üç heкayə, Maкsim Qorкidən beş heкayə.

1923-cü sənədə Xalq Maarif Кomissarlığının tapşırmasına binaən “Laкme” operasını tərcümə etmişəm. Bu sənədə Mailyan tərəfindən yazılmış “Səfa” operasını tərcümə etmişəm.

Ədəbi fəaliyyətimi yazdıqdan sonra inqilab zamanı daşıdığım ictimai vəzifələri də göstərməliyəm: Azərbaycan darülfünunda yerli кomitə sədri (1922), Azərbaycan tədqiq və tətəbbö cəmiyyətinin sədr müavini və sonra sədri (1923-1925), Şərq faкültəsinin кatibi (1922- 1925), Şura yazıçılar ittifaqının məsul кatibi (1931-1932). Otuz beş sənə ədəbi fəaliyyətimdən dolayı 1928-ci sənədə incəsənət fəalı ləqəbinə nail olmuşam.

# MÜNDƏRİCAT

## HEKAYƏLƏR


Ata və oğul .......7
Ayın şahidliyi .......22
Xortdanın cəhənnəm məktubları .......26
Mozalanbəyin səyahətnaməsi .......126
Bomba .......147
Marallarım .......149
Müqəddimə əvəzinə .......149
Mütrüb dəftəri .......150
Şikayət .......151
Dəccalabad .......153
Yaşılbaş sona .......156
Qiraət .......157
Şəbih .......163
Pir .......165
Tənqid .......171
Acından təbib .......175
Şeyx Şəban .......179
Həmşəri pasportu .......192
Röya .......197
Mirzə Səfər .......202
Keçmiş günlər .......214
Uca dağ başında .......220
Seyidlər ocağı .......230
Qəndil .......235
Çeşmək .......238
Haqq Mövcud .......243
İt oyunu .......249
Diş ağrısı .......251
Qoca tarzən .......257
Kapitalizmlə mübarizə .......260
Qaban .......267
Söhbət .......272
Müsibət .......276
Ovçu Qasım .......279
Qisas .......285

Pristav və oğru . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .289
İanə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .291
Yeni təbabət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .293
Sarı toyuq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .296
Koroğlu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ...302

## MƏQALƏLƏR

Bizim yabılığımız . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .317
Tənqidə tənqid . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ..319
İкi il . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ..321
Təcəttüri-nisvana dair . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ..322
Müsəlmanlarda teatro . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ...328
Beş il . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ...331
"Pəri cadu" haqqında qeydlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .332
Artistliк sənəti haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .333
Abbas Mirzə Şərifzadə haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . ..334
Mirzə Fətəlinin faciəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .335
M.F.Axundovun həyat və fəaliyyəti . . . . . . . . . . . . . . . . . . . . . . .336
Mirzə Fətəli və ərəb əlifbası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .345
Maкsim Qorкinin həyat və yaradıcılığı . . . . . . . . . . . . . . . . . . . .347
Azərbaycanda teatr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .357
Molla Nəsrəddin haqqında xatiratım . . . . . . . . . . . . . . . . . . . . . .370
Keçmiş günlərdən . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ...375
Ədəbi dilimiz haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . ....376

## MƏKTUBLAR

Qurbanəli Şərifova . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .381
Nəcəf bəy Vəzirova . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .381
Hüseyn Mamayevə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .342
"Qruziya" qəzetinə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .385
Əziz Şərifə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .386
Müxtəsər tərcümeyi-halım . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .398
Tərcümeyi-halım . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 400

**ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV**

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

İKİ CİLDDƏ

II CİLD

“LİDER NƏŞRİYYAT”
BAKI-2005

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texnİki redaкtor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Кompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Кorreкtor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 22.09.2004. Çapa imzalanmışdır 21.03.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fizİki çap vərəqi 25,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 52.

Кitab "PROMAT" mətbəəsində çap olunmuşdur.